

ƏBDÜLVAHAB YURDSEVƏR
(1898 – 1976)

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU

AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI KİTABXANASI

Kitablar seriyası

Redaksiya heyəti:
İsa Həbibbəyli – baş redaktor, Nikpur Cabbarlı – baş redaktorun müavini, Yavuz Akpınar, Abid Tahirli, Ömər Özcan, Aysel Əfəndiyeva – məsul katib

Bakı – Max Ofset – 2026

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU

AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI KİTABXANASI

Kitablar seriyası
IX CİLD

ƏBDÜLVAHAB YURDSEVƏR

SEÇİLMİŞ ƏSƏRLƏRİ

I CİLD

Bakı – Max Ofset – 2026

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Elmi Şurasının 30 yanvar 2025-ci il tarixli
(protokol № 1) qərarı ilə çap olunur.

İlk mənbələr əsasında tərtib edən,
ön söz və qeydlərin müəllifi:
Nikpur Cabbarlı
filologiya elmləri doktoru

Cildin məsul redaktorları:
Aysel Əfəndiyeva
Hülya Cəbiyeva

Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası.
IX cild. Əbdülvahab Yurdsevər. Seçilmiş əsərləri. I cild.
Bakı: Max Ofset, 2026, 336 səh.

ISBN – 978 - 9952 - 8675 - 1 - 0

Bu kitab XX əsr Azərbaycan siyasi mühacirətinin ünlü simalarından olan Əbdülvahab Yurdsevərin yazılı irsindən seçmələrin toplu halında ilk elmi nəşridir.

İlk mənbələr əsasında tərtib edilmiş cilddə Ə.Yurdsevərin mühacirət dövrü çoxşaxəli ədəbi-elmi və publisistik fəaliyyətinin məhsulu olan məqalələr, xatirələr yer almışdır. Bu əsərlər Azərbaycan ədəbiyyatşünaslığının çeşidli problemlərinə, milli istiqlal mücadiləsinin tarixinə, Türk dünyasının görkəmli şəxsiyyətlərinin həyatına müəllifin orijinal baxışını əks etdirir.

© AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu, 2026

ƏBDÜLVAHAB YURDSEVƏR

XX əsr Azərbaycan milli hərəkatının ünlü simalarından olan Əbdülvahab Məhəmmədzadə (Yurdsevər) 1898-ci ildə Bakıda anadan olmuşdur. Atası Hacı Zeynalabdin, anası Cəvahir xanımdır[1]. O, kiçik yaşlarında atasının tutduğu xüsusi müəllimlərdən dərs almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. 1907-ci ildə Bakıdakı 7-ci rus-tatar məktəbində oxumağa başlamış, həmin məktəbi bitirdikdən sonra 1911-ci ildə III Aleksandr adına kişi gimnaziyasına daxil olmuşdur[2].

Ə.Yurdsevərin siyasi fəaliyyəti 1916-cı ildə üzv olduğu «Məhəmmədiyyə» dərnəyi ilə başlayır. 1917-ci ildə isə Müsavat Partiyasının sıralarına daxil olur. Həmin dövrdə o, M.Ə.Rəsulzadənin nəşr etdiyi «Açıq söz» qəzeti ilə də əməkdaşlıq edir, burada «Açıq sütun»lara arasıra yazılar yazır[3].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ə.Yurdsevər Nazirlər Şurasının dəftərxanasında tərcüməçi işləmiş, 1919-cu il dekabrın 2-dən 12-dək Müsavat Partiyasının Bakıda keçirilmiş II qurultayında partiyanın Mandat Komissiyasına üzv seçilmişdir.

1920-ci il 27 aprel işğalından sonra Ə.Yurdsevər Müsavat Partiyasının Gizli Mərkəzi Komitəsinin sədr müavini və Bakı Komitəsinin sədri seçilmişdir. 1923-cü il iyunun 15-də sözügedən təşkilatın bir qrup üzvü ilə bərabər həbs edilmiş, ayyarım Fövqəladə Komissiyanın (Çeka) həbsxanasında işgəncələrə məruz qaldıqdan sonra sərbəst buraxılmışdır. Həmin il oktyabrın 5-də partiyanın mətbu orqanı olan «İstiqlal» qəzeti mətbəəsinin yeri xüsusi xidmət orqanları tərəfindən aşkarlanan zaman Ə.Yurdsevər də gizli Müsavat mənsublarından ibarət böyük bir qrupun tərkibində yenidən həbs edilir[4]. Çeşidli işgəncələrdən, üzücü sorğu-sualdan sonra Əbdülvahab bəy üç il müddətinə Vladiqafqaza sürgün olunur.

---

[1] *Mehmet Burç.* Amcazadem Vahap bey // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s.29.

[2] *Mövsüm Əliyev.* Əbdülvahab Məmmədzadə // «Novruz» qəzeti, 20 fevral 1991, № 8 (11), s.4.

[3] *A.Vahap Yurtsever*. 43 senelik arkadaşım Mirza Bala // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 8, 1959, sayı 2-3 (86-87), s.17.

[4] *A.V.Y.* «Kız kalesi» hakkında birkaç söz // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 11, ekim, kasım, aralık 1962, sayı 7-8-9 (127-128-129), s.16.

1926-cı ildə Bakıya qayıdan Ə.Yurdsevər çox keçməmiş yenidən həbs olunaraq 11 il müddətinə azadlıqdan məhrum edilir və cəzasını çəkmək üçün Yaroslavl şəhərinə göndərilir. Uzun müddət burada sürgün həyatı yaşayan Ə.Yurdsevər Saratov şəhərinə nəql edilir. Yeni sürgün məntəqəsində nisbətən sərbəst hərəkət imkanı əldə edən Vahab bəy arkadaşı Kərbəlayi Vəli Mikayılzadə ilə birgə Türküstana qaçmaq üçün hazırlığa başlayırlar. Saxta şəxsiyyət vəsiqəsi ilə Daşkəndə gələn Ə.Yurdsevər bir müddət sonra qız məktəbində müəllimliyə başlayır. Buradakı işindən nə qədər məmnun olsa da, dərs dediyi qızlardan nə qədər sevgi və sayğı görsə də, hər an yenidən həbs edilə biləcəyini də unutmur. Zəruri hazırlıqları gördükdən sonra Kərbəlayi Vəli Mikayılzadə ilə birlikdə öncə Aşqabada gəlir və buradan İrana keçir. Onu da qeyd edək ki, Ə.Yurdsevər həbs və sürgün müddətində yaşadıqlarının təfərrüatlarını «QPU vəhşətləri» və «Azərbaycan istiqlal savaşından səhnələr» adlı bədii-sənədli nəsr əsərlərində qələmə almışdır.

İrana keçdikdən sonra qısa müddət Məşhəddə qalan Ə.Yurdsevər bir müddət sonra Tehrana yerləşir. O, 1934-1938-ci illərdə burada yaşamış[5], Müsavat Partiyasının qeyri-leqal fəaliyyət göstərən özəyinə rəhbərlik etmiş[6], hərbi məktəbdə alman dili müəllimi kimi çalışmışdır.[7] O, 1936-cı il avqustun 5-dən 7-dək Müsavat Partiyasının Varşavada keçirilmiş qurultay səlahiyyətli konfransına M.Ə.Rəsulzadədən dəvət almış, lakin çoxsaylı mənbələrdə qeyd edildiyinin əksinə olaraq, bu tədbirə qatıla bilməmişdir. Belə ki, M.Ə.Rəsulzadə sözügedən konfransla bağlı Polşanın uyğun dövlət qurumları üçün hazırladığı məlumatda yazır: «Əbdülvahab Məhəmmədzadə [Yurdsevər] və Kərbəlayi Vəli Mikayılzadə 28 noyabr 1936-cı ildə Tehrandan göndərdikləri məktubda texniki səbəblərdən dolayı konfransa qatıla bilmədiklərini təəssüflə qeyd edir, eyni zamanda Partiyanın ali orqanının qərarlarını dəstəklədiklərini, onun Yeni Proqram Əsaslarını bəyəndiklərini

[5] *A.V.Y.* Ejder Kurtulan (1898-1971 // «Azerbaycan» Aylık Türk Kültür Dergisi, Ankara, yıl 21, 1972, sayı 205, s.72.

[6] Из истории Азербайджанской эмиграции. (Сборник документов, произведений, писем), (Сост, предисловие и примечание С.М.Исхакова). Москва: Социально – политическая Мысль, 2011, стр. 257.

[7] *Prof.Dr.Tahir Cağatay*. Abdülvahap Yurtsever'in ardından // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s. 6.

bildirirlər»[8]. 1938-ci ilin oktyabrında M.Ə.Rəsulzadənin dəvəti ilə Varşavaya gedən Ə.Yurdsevər burada onun rəhbərliyi altında siyasi fəaliyyətini davam etdirir[9]. 1939-cu il sentyabrın 1-də Almaniya Polşanı işğal etdikdən bir müddət sonra Türkiyəyə gedir və Basın Yayın Ümummüdirliyində işə başlayır. Burada rusdilli mətbuatın izlənilməsi işini üstlənən Ə.Yurdsevər eyni zamanda Ankara radiosunda farsca verilişlər aparmış, siyasi şərhçi kimi fəaliyyət göstərmişdir. Bu dövrdə o, Ankara Universitetinin Hüquq fakültəsində də təhsil almış və məzun olmuşdur[10].

1942-ci ildə M.Ə.Rəsulzadənin dəvəti ilə Berlinə gedən Ə.Yurdsevər onunla birlikdə alman məqamları ilə aparılan danışıqlara qatılmışdır. Onun fars, ərəb, rus dilləri ilə yanaşı, almancanı da mükəmməl bilməsi bu işə yardımçı olmuşdur. Əlavə edək ki, Ə.Yurdsevər ingilis, fransız, polyak dillərində də oxuyub-anlaya bilirdi[11]. Həmin ildə Berlinin Adlon otelində əsir türk ellərinin siyasi mühacirət öndərlərinin toplantısına qatıldığı barədə də təsdiqlənməmiş bilgilər vardır[12]. Almanlarla aparılan danışıqlar nəticəsiz qalınca M.Ə.Rəsulzadə Rumıniyaya, Ə.Yurdsevər isə Türkiyəyə dönür[13].

1949-cu il fevralın 1-də Ankarada təsis edilən Azərbaycan Kültür Dərnəyinin fəaliyyətinə Ə.Yurdsevər yaxından qatılmışdır. O, öncə Dərnəyin Heysiyyət Divanının üzvü[14], sonra isə İdarə Heyətinin sədr müavini seçilmişdir[15].

1952-ci ilin aprelindən sözügedən dərnəyin mətbu orqanı kimi nəşrə başlayan «Azərbaycan» Aylıq (Türk) Kültür Dərgisinə ömrünün sonuna qədər sürəkli olaraq yazılar yazmışdır.

---

[8] Из истории Азербайджанской эмиграции. (Сборник документов, произведений, писем), (Сост, предисловие и примечание С.М.Исхакова). Москва: Социально – политическая Мысль, 2011, стр. 273.

[9] *A.Vahap Yurtsever.* Cafer beye dair hatıralarım //«Emel» İki Aylık Fikir–Kültür Dergisi, Ankara, mayıs 1961, cilt I, sayı 4, s.16.

[10] *Prof.Dr.Tahir Cağatay*. Abdülvahap Yurtsever'in ardından // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s. 6-7.

[11] Yenə orada, s. 7.

[12] *Ömer Özcan.* Abdulvahap Yurtsever ve Paris bloku // «Çapar» dərgisi, Bakı, oktyabr 2025, № 16, s.41.

[13] *Prof.Dr.Tahir Cağatay*. Abdülvahap Yurtsever'in ardından // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s. 7.

[14] Dernekler // «Ulus» gazetesi, Ankara, yıl 29, 22 nisan 1949, sayı 9985, s.4.

[15] Toplantı // «Ulus» gazetesi, Ankara, yıl 32, 30 ocak 1952, sayı 10984 s.4.

1959-cu ildə M.B.Məhəmmədzadənin vəfatından sonra Ə.Yurdsevər Azərbaycan Milli Mərkəzinin başqanı seçilmiş[16] və həyatının sonuna qədər bu vəzifəni özünəxas məsuliyyətlə yerinə yetirmişdir. O, eyni zamanda 1950-1960-cı illərdə davamlı olaraq Münhendəki Sovetlər Birliyini Öyrənmə İnstitutunun konqreslərinə, Paris Blokunun toplantılarına qatılmış[17], öz çıxışları ilə əsir türk ellərinin istiqlal haqqını bütün dünyaya bəyan etmişdir.

Ə.Yurdsevər 1976-cı il oktyabrın 7-də cümə axşamı günü sabaha doğru Ankaranın Tunus caddəsindəki evində uzun zamandan bəri əziyyət çəkdiyi ürək çatışmazlığından vəfat etmiş, oktyabrın 9-da Hacı Bayram camesində qılınan cənazə namazından sonra Karşıyaka məzarlığında böyük izdihamın müşayiəti ilə dəfn olunmuşdur[18].

***

Ə.Yurdsevərin mühacirət dövrü yazılı irsi istər həcm, istərsə də mövzu-problematika baxımından yetərincə zəngindir. Bu irsin mühüm bir qismini ədəbiyyat araşdırmaları təşkil edir. Mühacir araşdırmaçının qənaətincə, kommunist tədqiqatçılar ... «əsərləri sırf kəndi ölçüləri ilə mütaliə etdiklərindən, onların Azərbaycan ədəbiyyatı haqqında yapdıqları incələmələr dürüst və obyektiv olmaqdan çox uzaq»[19] idi. Məhz bu məqamı nəzərə alan Ə.Yurdsevər M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə kimi siyasi fəaliyyətlə yanaşı, elmi araşdırmalarla da məşğul olmuş, milli ədəbiyyatımızın görkəmli klassiklərinin yaradıcılıqları haqqında bu gün də dəyərini qoruyub saxlayan əsərlər çap etdirmişdir. Məhsəti Gəncəvi, Şah İsmayıl Xətayi, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Abbasqulu ağa Bakıxanlı, Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Abbas Səhhət,

[16] *Prof.Dr.Tahir Cağatay*. Abdülvahap Yurtsever'in ardından // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s. 7.

[17] *V.Y.* Büyük bir dostun arkasından //«Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 12, 1964, sayı 10-11-12 (142-143-144), s.47; *Prof.Dr.Tahir Cağatay*. Abdülvahap Yurtsever'in ardından // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s. 8.

[18] *Yetkin Ural.* A.Vahap Yurtsever'in cenaze töreni // «Azerbaycan» Türk Kültür Dergisi, Ankara, yıl 25, ekim, kasım, aralık 1976, sayı 220, s.31-32.

[19] *A.Vahap Yurtsever*. Azerbaycan dram edebiyatı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.36.

Cəfər Cabbarlı, Almas İldırım və başqa görkəmli söz ustaları haqqında çap etdirdiyi araşdırmalar bu qəbildəndir.

Ə.Yurdsevərin «Məhsəti Gəncəvi» məqaləsi «Azərbaycan xalqının yetişdirmiş olduğu ünlü qadın şairlərdən biri»nin yaradıcılığını tanıtma məqsədi daşıyır. Məhsətinin öz şeirlərində fərdin hürriyyətini, insan əqlini, yüksək bəşəri duyğuları heyranlıqla tərənnüm etdiyini vurğulayan müəllif onun qəzəl və qəsidədən çox, rübai janrında uğur qazandığını, fikirləri etibarilə Ömər Xəyyama bənzədiyini qeyd edir, şairin rübailərindən nümunələr verməklə bu mülahizəsini əsaslandırmağa çalışır. Lakin diqqətsizlikdənmi, yaxud istifadə etdiyi mənbələrin naqisliyindənmi Ə.Yurdsevər Nigar Rəfibəylinin tərcümə etdiyi həmin nümunələri Məhsəti rübailərinin orijinalı bilmiş və bu yanlışlığın nəticəsi olaraq şairin «gözəl xalq azəri türkcəsiylə içli şeirlər yazdığı»[20]nı söyləmişdir.

Mühacirət ədəbiyyatşünaslığı XV əsrin sonu – XVI əsrin əvvəllərini anadilli poeziyamızın ən parlaq dövrü kimi səciyyələndirir. Bu dövrdə yaşayıb-yaratmış Həbibi, Süruri kimi şairlərin ədəbi prosesdəki rolunu qeyd etməklə bərabər, Azərbaycan türkcəsində yaranan ədəbiyyatın qısa zaman kəsimində çiçəklənməsini mühacir müəlliflər yekdilliklə Səfəvilər hakimiyyətinin bu dili rəsmi dövlət dili elan etməsi ilə əlaqələndirirlər. Ə.Yurdsevərə görə, məhz Səfəvilərin dövlət dili siyasəti XVI əsrdə Azərbaycan türkcəsində yaranmış ədəbiyyatı ən kamil inkişaf səviyyəsinə çatdırmışdır[21].

Xətainin sənətkarlığını yüksək qiymətləndirən Ə.Yurdsevərin fikrincə, onun əlində şeir hər şeydən öncə qüvvətli bir təbliğat silahıydı. Adəta qılınc qədər qüvvətli bir silah! O, bir tərəfdən qılıncı ilə ölkələr fəth edərkən, bir tərəfdən də, müəssir təbliğat silahı ilə hakimiyyətini möhkəmləndirmiş, mənəvi nüfuzunu yüksəltmişdir[22].

Müəllif Xətainin ədəbi irsini iki qismə ayırır: 1. Siyasi qayələrlə yazılan şeirlər. 2. Eşq və məhəbbət tərənnüm edən qəzəl və qoşmalar[23].

---

[20] *A.Vahap Yurtsever.* Mehseti Gencevî // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 2, 1 eylül 1953, sayı 6 (18), s.14.

[21] *A.Vahap Yurtsever.* Şah İsmail «Hataî» // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 3, a) 1 mart 1954, sayı 12 (24), s.11.

[22] Yenə orada, s.13.

[23] Yenə orada.

Şübhəsiz ki, Xətainin ədəbi fəaliyyəti barədə yuxarıda nəzərdən keçirdiyimiz mülahizələrində Yurdsevər məhz birinci qismə aid etdiyi şeirləri nəzərdə tutmuşdur. Şairin məhəbbət lirikasından bəhs edərkən mühacir alim bu şeirləri bədii-estetik əhəmiyyəti etibarilə siyasi və dini motivli şeirlərindən üstün tutur, həmin əsərlərdə xalq dilindən, atalar sözlərindən, dastan, əfsanə və rəvayətlərdən geniş surətdə istifadə olunmasını sənətkarın uğurunu şərtləndirən əsas amillərdən sayır. «Dəhnamə» mənzuməsi isə Yurdsevərə görə, Xətainin bədii gözəllik etibarilə ən yüksək əsəridir.

***

«Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifin yaradıcılığı» adlı əsərində Ə.Yurdsevər XVIII yüzilliyi Azərbaycanın ədəbi-mədəni həyatında dönüş nöqtəsi kimi qiymətləndirir. Onun fikrincə, bu yüzillikdə Vaqif və Vidadi kimi söz ustadlarının çalışmaları sayəsində Şah İsmayıl Xətainin yaratmış olduğu xalq lisanına dayanan sadə və açıq şeir üslubu daha da inkişaf etmiş və xalq ədəbiyyatıyla birləşərək farsca və ərəbcənin təsirlərindən qurtulan milli realist ədəbi məktəb yaranmışdır[24]. Gördüyümüz kimi, Ə.Yurdsevər XVIII əsrin iki görkəmli şairini qeyd-şərtsiz realist sənətkarlar kimi səciyyələndirməklə yanaşı, bu yüzillikdə Azərbaycan ədəbiyyatında realist ədəbi məktəbin yarandığını da iddia edir. Bu qənaətin 1970-90-cı illər Azərbaycan ədəbiyyatşünaslığında da tərəfdarları vardır.[25]

Molla Pənah Vaqifi realist ədəbi məktəbin ən görkəmli nümayəndəsi və öz dövrünün yeni şeir üslubunu yaradan sənətkar kimi xarakterizə edən Ə.Yurdsevər onun şeirlərinin geniş yayılmasının əsas səbəbini yaradıcılığının həm forma, həm də məzmun baxımından milli və məhəlli bir mahiyyət daşımasında görür[26]. Vaqifin yaradıcılığı və

[24] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları , 1952, s.4.

[25] Bu barədə daha ətraflı bax: *M.Quluzadə*. Vaqif realizmi. «Ədəbiyyat və incəsənət», 2 noyabr 1968; *B.Məmmədzadə*. A.Bakıxanovun bədii yaradıcılığında realizm. ADU-nun elmi əsərləri. (Dil və ədəbiyyat seriyası, 1973, sayı 6, s.51; *N.Cəfərov*. Füzulidən Vaqifə qədər. Bakı, Yazıçı, 1991, s.70-90. *A.Dadaşzadə.* Molla Pənah Vaqif. Bakı, Elm, 1968, s. 151-161; Yenə onun. XVIII əsr Azərbaycan lirikası. Bakı, Elm, 1980, s. 211-218. *Q.Yaşar.* Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980, s. 29-35.

[26] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, s.4.

görüşlərindən bəhs edərkən Ə.Yurdsevər şairin həm poeziyasına, həm də dövlət fəaliyyətinə hakim olan başlıca amil kimi sənətkarın yurd sevgisini önə çəkir və onun realizminin mənşəyi, bu realizmi doğuran ictimai-siyasi və tarixi şərait barədə özünəməxsus mülahizələr yürüdür. Ə.Yurdsevərin qənaətincə, Vaqifin İbrahim Xəlil xanın sarayında çalışdığı illər Qarabağ xanlığının zəfərlər qazandığı, böyük şairin arzularının çiçək açdığı bir dövr olmuşdur. Vaqifin ədəbiyyat sahəsindəki realizmi də bu həqiqətlərdən irəli gəlmişdir[27].

Vaqif yaradıcılığının əksər tədqiqatçıları kimi, Ə.Yurdsevər də şairin realizminin başlıca özəlliyini qoşmalarına, qəzəl və müxəmməslərinə hakim olan nikbinlikdə görərək yazır ki, «hətta yoxsulluq və səfalətin acı bir təsvirindən ibarət bulunan «Bayram oldu» qoşmasında belə həyata iyimsərlik hissləri sezilməkdədir»[28]. Ə.Yurdsevərə görə, Vaqif məhz bu baxımdan dostu Vidadidən əsaslı surətdə fərqlənməkdədir: «Vidadinin ruhuna və şeirinə dərin bir kötümsərlik və dərmansız bir kədər hakim bulunmaqdadır. Halbuki Vaqifin iqbal dövründəki şeirləri eşq və məhəbbətlə, şövq və həyəcanla, həyat və səadət nəşəsiylə coşub-daşmaqdadır. Onun hissləri qədər misraları da oynaq və sürükləyicidir. İxtiyarkən bir gənc kimi coşmaqda və dünyanın qəm və möhnətini belə kəndisinə əngin bir zövq qaynağı yapmasını bilməkdədir»[29].

Vaqifin Füzuli yaradıcılığına münasibətinə də məhz bu baxımdan yanaşan Ə.Yurdsevər Molla Pənahın dahi söz ustasının sənətinə heyranlığını qeyd etməklə yanaşı, bu iki şairin əsərləri arasında məzmun və ruh etibarilə mühüm fərqləri də nəzərə çarpdırır. Belə ki, «Füzulinin qəzəllərində dərin və manidar bir hüzn, həyatdan müştəqi bir halətiruhiyyə, zəngin fəlsəfi düşüncələr gözə çarpmaqdadır. Halbuki Vaqifin qəzəllərində, yuxarıda da işarət etmiş olduğumuz gibi, əngin sevinc və nəşə, oynaq və coşqun eşq təranələri, həyat şövqü və zövqü hökm sürməkdədir»[30]. Doğrudur, şairin ömrünün sonlarındakı ümidsizliyi də Ə.Yurdsevərin diqqətindən yayınmamışdır. Nikbin və mübariz ruhlu,

[27] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, s.24.
[28] Yenə orada, s.30.
[29] Yenə orada.
[30] Yenə orada, s.32.

«Toy-bayramdır bu dünyanın əzabı» deyən Vaqifin məşhur bir müxəmməsində «Mən cahan mülkündə mütləq doğru halət görmədim» söyləməsini həyat və zamanın ağır zərbələri ilə bağlayan müəllif şairin «bu ümidsizlik və kədərinə rəğmən Vidadi kimi kötümsər» olmadığını vurğulayır və qeyd edir ki, «o, kədərinin ani dönüşündən və qeyrətlərinin akim qalmış olmasından dolayı olduqca mütəəssirdir. Lakin həyatdan bıqmış və küsmüş deyildir. Onu bilxassə üzən şey, mühitin sədaqətsizliyi və vəfasızlığı, dün qarşısında əczilə əyilənlərin bu gün kəndisinə düşmən kəsilmiş olmalarıdır»[31]. Sitatdan gördüyümüz kimi, Ə.Yurdsevər Vaqifin kədərli əhvali-ruhiyyəsini keçici, təsadüfi hal sayaraq, onu şəxsi motivlərlə əlaqələndirir. Müəllifin S.Mümtaz və A.Şaiqin mülahizələri ilə səsləşən bu mövqeyi «Görmədim» müxəmməsinin dərin ictimai-fəlsəfi mahiyyətini kölgədə qoyur. Sonralar Azərbaycan ədəbiyyatşünaslığı «Görmədim» müxəmməsinin dolğun ədəbi-elmi təhlilini vermiş, Vaqif kədərinin dərin ictimai-tarixi köklərini açıqlamışdır[32].

Vaqif poeziyasının sırf milli, vətənpərvər mahiyyətini, istiqlalçı, azadlıqsevər ruhunu qabardan Ə.Yurdsevər diqqəti belə bir önəmli məqama cəlb edir ki, yurdunun özəlliklərini, xalqının gələnək və görənəklərini, yaşayış tərzini idealizə etməkdə, bunları təşviq və təqviyəyə çalışmaqda şairin qayəsi xalqında azadlıq və istiqlal eşqini, özünə güvənc hissini qüvvətləndirməkdir. Çünki bu dövrdə Qarabağ xanlığı yabançı hakimiyyətə qarşı ölüm-qalım mücadiləsinə girişmişdi və bu mücadilədə qələbə qazanmaq üçün müstəqil milli varlığına, doğma dilinə, ədəbiyyatına, tarixinə, adət və ənənələrinə güvənməsi və yabançı təsirə qarşı bütün bunlarla durması zəruri idi. Ə.Yurdsevər haqlı olaraq belə qənaətə gəlir ki, Vaqif Azərbaycan türkcəsində yazdığı canlı və oynaq şeirlərilə, xalq həyatına dair verdiyi mükəmməl tablolarıyla, milli adət və ənənələri idealizə etməsi ilə İran və hər hansı digər yabançı təsirlərə qarşı meydan oxuyur və siyasi istiqlalın əsas təməlini təşkil edən müstəqil milli bir mədəniyyətin inkişafını təmin edirdi[33]. Beləliklə,

[31] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, s.43.

[32] Bu barədə daha ətraflı bax: *A.Dadaşzadə.* Molla Pənah Vaqif. Bakı: Elm, 1968, s.122-131.

[33] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, s.28.

bütövlükdə mühacirət ədəbiyyatşünaslığı və ayrılıqda Ə.Yurdsevərin ədəbiyyatşünaslıq irsi üçün səciyyəvi olan və sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında çox zəif nəzərə çarpan bir cəhət – klassiklərin yaradıcılığında vətənpərvərlik və istiqlalçılıq ruhunu aşkara çıxararaq qabartmaq meyli Vaqif poeziyasına münasibətdə də özünü göstərir və XVIII əsr klassikinin ədəbi irsi bu yöndən də layiq olduğu qiyməti alır: «...hürriyyəti və istiqlalı uğrunda müəzzəm bir düşmənə qarşı təkbaşına mücadilə edən Azərbaycanın dayandığı qüdrət qaynaqlarından birisi tarixi isə, digəri də ədəbiyyatıdır. Bu ədəbiyyatın başlıca rüknlərindən biri Molla Pənah Vaqifdir. Vaqifi öyrənmək və tanıtmaqla Azərbaycan istiqlal davasına hizmət etmiş olursunuz. Çünki Molla Pənah Vaqif də bütün həyatı boyunca və o dövrün verdiyi imkanlar daxilində Azərbaycan istiqlalı uğrunda çalışmışdır. O da vətən və istiqlal eşqilə yanmışdır. Vaqifin sadəcə adı əzm, mətanət və mücadilə simvoludur. Onun ismini və əsərlərini yaşatmaq Azərbaycan türklüyündə mücadilə əzmini və istiqlal eşqini daha da qüvvətləndirəcəkdir. Vaqif ölməz bir şairdir və Azərbaycan türklüyünün mədari-iftixarıdır»[34].

Vidadinin dünyagörüşünü isə Ə.Yurdsevər belə şərh edir: «Şair hər şeydən öncə dünyanın fani olduğuna qanedir. Ona görə, dünyanın malına, mülkünə, mövqe və iqbalına, yaxın və ya uzaq insanlarına güvəniləməz. Bunların həpsi keçici və vəfasızdır. Minlərlə sənədən bəri dünyaya gəlmiş və getmiş bulunan bunca himmət və hünər sahiblərindən, yüksək mövqelər işğal etmiş və nam buraxmış zəvatdan heç birisi nəticə etibarilə kəndi məqsədinə nail olmamışdır. Fəqət dünya, eyni zamanda müəzzəm bir ibrətxanədir. Onun hər «nəqşi» Tanrının varlığını isbat edən bir ayinədir. Dünya və axirətdən yeganə qayə və məqsəd Allahın rizasını və xoşnudluğunu cəlb etməkdir»[35].

Vaqif və Vidadinin İslam dininə qarşı dərin və səmimi inanc duyğularıyla bağlı olduqlarının şeirlərindən açıqca nəzərə çarpdığını qeyd edən Ə.Yurdsevər bu iki şairin «zamanımızda belə eyni din və millətə mənsub insanlar arasına ayrılıq və qeyrilik toxumları saçan məzhəb ixtilaflarına qarşı tam bir ilgisizlik göstərdiklərini» diqqətədəyər məsələ kimi vurğulayır. Belə ki, öncə hər iki şair sünnilik məzhəbinə mənsub

[34] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, s.45.
[35] Yenə orada, s.14.

olmuş, sonradan Vaqif Qarabağ xanlığının xidmətinə keçincə şiəliyi qəbul etmişdir. Lakin nə məzhəb, nə də ruh, fikir və düşüncə fərqləri bu iki səmimi arkadaşın dostluğuna təsir etməmişdir. Hər iki şair məzhəb ixtilaflarının əhəmiyyətsizliyini və gülünclüyünü anlamışdır[36].

***

Ə.Yurdsevərin ədəbiyyatşünaslıq irsində Yeni dövr Azərbaycan ədəbiyyatı, özəlliklə realist ədəbiyyatın təmsilçilərinin yaradıcılığı ilə bağlı araşdırmalar diqqəti cəlb edir. Ə.Yurdsevərin fikrincə, XIX əsr realistləri «…bir tərəfdən, türk-islam kültürü ilə əsrlərdən bəri yaranmış qüvvətli bağları mühafizə edir, digər tərəfdən isə, Avropanın qabaqcıl fikirlərini, modern ədəbi janrlarını Azərbaycan ədəbiyyatına gətirirdilər»[37]. Onların məqsədi, «eşq və sevgi tərənnümlərindən ziyadə, milli və sosial fikirlərə tərcüman olmaq, həqiqi və canlı tiplər yaratmaq, mənfilikləri mərhəmətsizcə ifşa, mütərəqqi cəhətləri təqdir və müdafiə etmək, elm və maarifin yayılmasına çalışmaq, rus istibdadına, feodalizm sisteminə qarşı hürriyyət və istiqlal uğrunda mücadilə açmaq, mədəniyyət yoluyla Azərbaycanı rifaha və qurtuluşa çatdırmaqdı»[38]. Ə.Yurdsevərin bu mülahizələrində XIX əsr realist ədəbiyyatının səciyyəvi cəhətləri düzgün göstərilməklə yanaşı, bu realizmin maarifçi tipi də, stixiyalı şəkildə olsa da, dəqiq müəyyənləşdirilir.

Ə.Yurdsevərə görə, böyük ədib, şair, alim və mütəfəkkir olan A.A.Bakıxanlı yeni ədəbiyyatın ilk cığırını açmış, «Kitabi-Əsgəriyyə» əsəri ilə Azərbaycan nəsr dilinin inkişafına önəmli xidmət göstərmişdir[39].

Ə.Yurdsevər İsmayıl bəy Qutqaşınlını «vətən və xalq uğrunda çalışan yeni bir ziyalı tipinin canlı simasını» ədəbiyyata gətirən yazıçı,

[36] *A.Vahap Yurtsever.* Azerbaycan edebiyatında Vedadî ve Vâkıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, s.35-36.

[37] *A.Vahap Yurtsever.* 19-uncu asır Azerbaycan'ındaki modern ve realist edebî cereyanlar // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 2, 1 mayıs 1953, sayı 2 (14), s.13.

[38] Yenə orada.

[39] 1) Yenə orada; 2) *Abdülvahap*. Abbas Kulu Ağa Bakühanlı // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 2, ç) ağustos 1953, sayı 5 (17), s.10.

Mirzə Şəfi Vazehi isə şərq feodalizminin kəskin tənqidçisi kimi xarakterizə edir[40].

Qasım bəy Zakir isə, Ə.Yurdsevərə görə, Vaqif realizminin mahir davamçısı, XIX əsr Azərbaycan satirasının banisi və ən böyük ustadıdır. Zakirin ədəbi irsində qoşmaların müstəsna yer tutduğunu vurğulayan araşdırmaçı bu şeirlərdə xalq kütlələrinin əhval-ruhiyyəsinin, milli xüsusiyyətlərin, məmləkətin gələnək və görənəklərinin, gözəl tiplərinin eynən təsvir olunmasını, şairin şifahi xalq ədəbiyyatından, aşıq lirizmindən geniş surətdə bəhrələnməsini, dilinin sadəlik və gözəlliyini, hisslərinin səmimiliyini onun əsərlərinin uğurunu şərtləndirən amillər kimi qabardır. Lakin Ə.Yurdsevərin fikrincə, Zakirin yaradıcılıq qüdrəti və şairlik dühası qoşmalarından daha çox ömrünün son illərində yazdığı satirik şeirlərində təzahür edir. Bu kimi əsərlərdə Zakirin sadəcə ədəbi qüdrəti deyil, eyni zamanda dövrünün ictimai-siyasi şəraiti öz əksini tapır, rus çarizminin müstəmləkəçilik siyasəti, bu siyasətə qulluq edən məhəlli əsilzadələr, ikiüzlü ruhanilər ifşa olunur. Bu baxımdan, Ə.Yurdsevər Zakiri Mirzə Ələkbər Sabirin ilk sələfi sayır[41].

Ə.Yurdsevərin «Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri» kitabçası məzmun və məndəricəsi ilə Azərbaycan mühacirət ədəbiyyatşünaslığında bu mövzuda ən sanballı araşdırmalardandır. Müəllif Axundzadənin dövrü, həyatı, ictimai fəaliyyəti və bədii yaradıcılığı üzərində nisbətən ətraflı dayanmışdır.

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalından sonra «Azəri türkünün kimsəsiz və himayəsizliyini, siyasi, iqtisadi və kültürəl baxımdan tam mənasilə məhvetmə siyasətinə məruz qaldığını» ürək ağrısı ilə qeyd edən müəllifin fikrincə, «Azərbaycan xalqının təkrar şərəfli bir həyata qovuşa bilməsi üçün onun bir an öncə batil etiqadlardan, feodalizm dövrü qalıntılarından, geri yaşayış şərtlərindən qurtularaq Batı mədəniyyətinə və müasir yaşama tərzinə erişməsi gərəkiyordu. Bu xüsusda okul, qəzet və kitab gibi kültür müəssisələrinin yanında, bilxassə, tiyatro önəmli bir rol oynayacaqdı»[42]. Çünki «tiyatro

[40] *A.Vahap Yurtsever.* 19-uncu asır Azerbaycan'ındaki modern ve realist edebî cereyanlar // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 2, 1 mayıs 1953, sayı 2 (14), s.13.

[41] *A.Vahap Yurtsever.* Kasım Bey Zâkir // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 1, a) 1 şubat 1953, sayı 11, s.6-7.

[42] *A.Vahap Yurtsever.* Mirza Fethali Ahunt zadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.5.

xalqın ən çabuq alışdığı və ən ziyadə sevdiyi bir kültür müəssisəsidir. Bilxassə, əgər tiyatro xalqın ayinəsi olursa, yəni millətin öz yaşayışını əks etdirirsə, Azərbaycan xalqının oyanmasında milli tiyatronun çox böyük bir rolu olmuşdur. Milli tiyatronun sağlam təməlini isə kəndi əsərləriylə Mirzə Fətəli Axundzadə atmışdır»[43].

Görkəmli ədibin yaradıcılığından bəhs edərkən Ə.Yurdsevər diqqəti belə bir fakta cəlb edir ki, Axundzadənin komediyalarında təsvir etdiyi tiplər Azərbaycan mühitindən alınmış canlı və orijinal tiplər olmaqla, mənsub olduqları sosial zümrəyə xas dildə, hər cür sünilikdən uzaq bir tərzdə danışırlar. «Bu komediyalarda o dövrün Azəri mühitini müsbət və mənfi bütün özəlliklərilə gözlərimizin önündə tamamən canlanmış bir halda görürüz. Mirzə Fətəlidə təqlid və şematizm (sxematizm – *N.C.*) yoxdur. Hər sözü səmimi və hər tipi həyatidir. Bütün əsərləri realist bir görüşlə yazılmışdır»[44].

M.F.Axundzadənin «nəşəli yumoru, qüvvətli satirik üslubu, hazırcavablığı və bir taqım başqa özəlliklərilə» bəzən XVIII əsr fransız ədibi Molyeri xatırlatdığını qeyd edən Ə.Yurdsevər, eyni zamanda realist Mirzə Fətəlinin dram sənəti ilə klassisist Molyerin dram sənəti arasındakı bariz fərqləri də nəzərdən qaçırmır, öz dövrünün klassik ədəbi çərçivəsi içərisində qaldığından bir çox tipləri mücərrəd və birtərəfli alınan fransız dramaturqundan fərqli olaraq, Azərbaycan dramaturqunun heç bir ədəbi qaydaya bağlanmayaraq öz komediyalarının quruluşunu və tiplərinin özəlliklərini Şekspirə xas bir sərbəstliklə təsbit və təsvir etdiyini vurğulayır[45]. Axundzadənin komediyalarının yüksək sənətkarlığı haqqında isə Ə.Yurdsevər belə yazır: «Komediyalarında cərəyan edən olayların vüqu bulduğu yer sıx-sıx dəyişməkdə, pərdələr arasındakı zaman fasilələri bəzən aylarca və yıllarca sürməkdə, seyirçilərin diqqət-nəzərləri sürətlə bir nöqtədən başqa bir nöqtəyə nəql edilməkdə, rəngarəng təbiət təsvirləri, canlı və oynaq səhnələr vücuda gətirilməkdədir»[46].

---

[43] *A.Vahap Yurtsever.* Mirza Fethali Ahunt zadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s. 5.

[44] Yenə orada, s.13.

[45] Yenə orada, s.13-14.

[46] Yenə orada, s.14.

Ə.Yurdsevər Axundzadənin hətta mənfi insan tipləri yaradarkən belə, Molyerdən fərqli olaraq, birtərəflilikdən qaçdığını və fərdi bütün müsbət və mənfi cəhətləri ilə meydana qoyduğunu nəzərdə tutaraq yazır: «Məsələn, Hacı Qara xəsis, ikiüzlü, qorxaq və yalançı bir insan olmaqla bərabər, eyni zamanda hazırcavab, açıqgöz və tədbirlidir. Kəndisinə haydutluq və qaçaqçılığı məslək edinmiş Heydər bəy comərd, ihanət və yalandan çəkinən bir insandır»[47].

«Azərbaycan mühitində ilk dəfə olaraq qadınların haqq və hürriyyətlərini müdafiəyə cəsarət edən ədib Mirzə Fətəli Axundzadə olmuşdur»[48] – deyən müəllif diqqəti onun komediyalarında qadınların ictimai həyatda, millətin inkişafında rolunun yüksəldilməsi tərəfdarı kimi çıxış etməsini yüksək qiymətləndirir.

Mirzə Fətəlinin «Aldanmış kəvakib» hekayəsindən bəhs edərkən Ə.Yurdsevər əsərin ideyasını, tənqid və ifşa hədəflərini də düzgün müəyyənləşdirmişdir: «Aldanmış kəvakib» hekayəsi hər nevi istibdad idarəsinə qarşı yönədilmiş sərt bir tənqid mahiyyətini daşımaqdadır. Əsərdə zahirən İranın Şah Abbas dövründəki idarə sistemi ələ alınmaqdadır. Həqiqətdə isə, hər nevi istibdad rejimi və o arada, bilxassə, Rusiya istibdadı tənqid olunmaqdadır. Mirzə Fətəlinin qayəsi yalnız Güney Azərbaycanındakı xalqın deyil, eyni zamanda Quzey Azərbaycanındakı əhalinin gözünü açmaqdı. Onun durumunda bulunan bir ədib rus istibdadı əleyhindəki fikirlərini başqa şəkildə ifadə edəməzdi»[49].

Ə.Yurdsevər M.F.Axundzadənin ictimai-siyasi görüşlərindən danışarkən haqlı olaraq onu hər şeydən öncə istibdad, zülm, haqsızlıq və əsarətin düşməni, siyasi sahədə parlament sistemi və hürriyyət rejiminin tərəfdarı kimi xarakterizə edir və belə bir mülahizə irəli sürür ki, əgər Mirzə Fətəli sovet rejimində yaşamış olsaydı, Firidun bəy Köçərli, Hüseyn Cavid, Əhməd Cavad və digər görkəmli aydınlar kimi ya güllələnəcək, ya da Sibirə sürgün ediləcəkdi. «Çünki Mirzə Fətəli də bütün bu saydığımız insanlar gibi kommunizm əqidəsinə, milli əsarət politikasına və fərdin təhəkküm altına alınması sisteminə tamamən yabançı və şiddətlə müxalif bulunuyordu. Lakin Mirzə Fətəli nisbətən uzaq bir

[47] *A.Vahap Yurtsever.* Mirza Fethali Ahunt zadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.14.
[48] Yenə orada, s.14.
[49] Yenə orada, s.17.

mazidə yaşamış və yazmış olduğu üçün kommunist idarəçilər onun qutsal ismini çirkin məqsəd və qayələri uğrunda istismara yeltəniyorlar»[50].

Sovet Azərbaycanında M.F.Axundzadənin 125 illik yubileyi münasibətilə dərc olunan yazılarda görkəmli ədibin «rus kültürünün məhsulu və dünyadakı kültürlərin sözdə ən mütərəqqisi bulunan» rus mədəniyyətini millətinə qəbul etdirmək istəyən mütəfəkkir kimi təqdim edilməsinin məqsəd və mahiyyətini Ə.Yurdsevər düzgün sezmiş və açıqlamışdır: «Çünki rus təhəkkümü altında bulunan bütün türk ölkələrində olduğu gibi, Azərbaycanda da şiddətli bir ruslaşdırma politikası təqib ediliyor; latın əlifbası yerinə cəbrən rus əlifbası qəbul etdiriliyor; lisan, tarix və kültür sürətlə ruslaşdırılıyordu. İştə, bu mənfur milli assimilation politikasını haqlı göstərmək üçün Mirzə Fətəli Axundzadə gibi xalqca pək iyi tanınmış və milli kültürün ələmdarı olaraq şöhrət qazanmış bir simanı kommunist idarəçilər «rus kültürünün məhsulu və onun tərəfdarı» olaraq göstəriyorlardı»[51].

Ə.Yurdsevər kommunistlərin bu tezislərini əsaslandırmaqdan ötrü M.F.Axundzadənin «Puşkinin ölümünə Şərq poeması»nı dəlil kimi istifadə etmələrini əsassız sayır və qeyd edir ki, Puşkin kimi ədiblər bütün dünya kültürünə məxsus nəhəng sənətkarlardır və «onlara qarşı heyranlığımız rus olduqlarından və ya rus kültürünə mənsub bulunduqlarından dolayı deyildir, insan həyatını və insan ruhunu böyük bir məharətlə təsvir etmiş və insanlığa ölməz əsərlər buraxmış olmalarından irəli gəlməkdədir»[52]. Ə.Yurdsevərə görə, həm Şərq, həm də Qərb mədəniyyətinə mükəmməl bələd olan Mirzə Fətəli də Firdovsini, Şekspiri, Molyeri və bu kimi sənətkarları milliyyətindən asılı olmayaraq, heyranlıqla qarşılamışdır. Odur ki, Axundzadənin, Puşkinin ölümünə əsər həsr etdiyinə görə, rus kültürünün məhsulu və təşviqçisi kimi çıxış etdiyini iddia etmək yanlışdır. Ə.Yurdsevər bu saxta tezisi tamamilə altüst edərək yazır: «Hangi əsərində və ya hangi yazısında Mirzə Fətəli rus kültüründən sitayişlə bəhs etmişdir? Edəməzdi də!.. Çünki o dövrdə

[50] *A.Vahap Yurtsever.* Mirza Fethali Ahunt zadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.25.
[51] Yenə orada, s.25-26.
[52] Yenə orada, s.26.

tərəqqipərvər ruslar belə Batı Avropa kültürünü özlüyorlardı[53]. ...Azərbaycan Rusiyadan heç bir şey öyrənəməzdi. Çünki ogünkü Rusiyanın müstəbid çarlıq rejimində Mirzə Fətəlinin tənqid və əleyhində mücadilə etdiyi feodalitə dövrünün geri düşünüş tərzi və mühafizəkar müəssisələri eynən hökm sürməkdə idi. Mirzə Fətəlinin bütün düşünüş və mühakimə sistemində Batı Avropa mədəniyyəti və o meydanda bilxassə 18-ci yüzyılın tənəvvür fikirləri örnək olaraq ələ alınmaqda və Müsyö Jordan əsərində olduğu gibi qüvvətlə təbarüz etdirilməkdə»[54] idi.

Beləliklə, Ə.Yurdsevər M.F.Axundzadənin «rus kültürü məhsulu və təşviqçisi» olması haqqındakı əsassız və bədnam bolşevik tezisinin imperiya siyasətinə xidmət etdiyini düzgün anlamış və təkzibedilməz faktlarla həmin iddianı rədd etmişdir.

Əsərin sonunda Mirzə Fətəlinin «hər şeydən öncə modern Azərbaycan ədəbiyyatının qurucusu, dramaturq, şair, mütəfəkkir və reformator olduğunu» qeyd edən Ə.Yurdsevər bu görkəmli şəxsiyyətin mübarizliyini, tutduğu yolun doğruluğuna əminliyini yüksək qiymətləndirir: «Həyatının bir tək amacı yurdunun və bütün Şərq-islam dünyasının rifah və səadəti idi. O bu amaca doğru əmin və əzmli addımlarla yürüyordu. Kəndisini heç bir əngəl yolundan və hədəfindən alıqoyamamışdır. Yeni əlfabenin qəbul etdirilməsi uğrundakı qeyrətləri müvəqqətən akim qaldıysa, günün birində bu fikrinin təhəqqüq edəcəyindən əsla şübhə etmiyordu. Ümidsizlik və üzüntüsü qayəsinin qabili-tətbiq olmamasından deyil, mühitinin idraksızlığından irəli gəliyordu»[55].

Bütövlükdə mühacirət ədəbiyyatşünaslığında olduğu kimi, Ə.Yurdsevərin də araşdırmalarında realist cərəyanın XIX əsrin II yarısından etibarən ədəbi prosesdəki aparıcı mövqeyi qeyd edilməklə yanaşı, həmin dövrdə əski klassik şeir üslubunu davam etdirən sənətkarların yaradıcılığı da nəzərdən qaçırılmır. Bu baxımdan, Natəvanın poeziyasına daha böyük önəm verən araşdırmaçı şairi Azərbaycan ədəbiyyatında sentimental-romantik şeir üslubunun bariz təmsilçisi kimi təqdim edərək yazır: «Şeirlərində incə bir lirizm, dərin və coşqun bir hiss və həyəcan sezilməkdədir. Yanıqlı qəzəlləri adəta bir mərsiyə ruhunu

[53] *A.Vahap Yurtsever.* Mirza Fethali Ahunt zadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.26-27.
[54] Yenə orada, s.27.
[55] Yenə orada, s.29.

daşımaqdadır. Göz yaşları, həsrət, Tanrıya yalvarma, ayrılıq iztirabları, ümidsizlik və şikayət bu şeirlərin başlıca mövzusunu təşkil etməkdədir. Natəvanın şeirlərindəki bu ruh haləti, həyatında uğradığı fəlakətlərin bir nəticəsidir»[56]. Natəvanın poetik sənətkarlığını yüksək qiymətləndirən Ə.Yurdsevər onun qəzəllərində sadə üslub ilə səmimi duyğuların bir-birini tamamlamasını, təşbeh və istiarələrinin gözəlliyini, təbinin zənginliyini, fikirlərinin məntiqiliyini ön plana çəkir.

***

C.Məmmədquluzadənin dramaturgiyası da Ə.Yurdsevərin araşdırma obyektləri sırasındadır. «Ölülər»i «həm mövzu, həm də canlı tiplər və xarakterlər baxımından Azərbaycan ədəbiyyatının şah əsəri» kimi dəyərləndirən Ə.Yurdsevər isə yazır: «Müəllif bu əsərində orta çağ feodalitə dövründən qalma sosial münasibətləri, çürük etiqadları, xalqın dərin cəhalətini və bu cəhaləti üzündən dinin yüksək nüfuzunu kötüyə kullanan şarlatan ünsürlərə alət olmasını sənətkar qələmilə canlı bir şəkildə təsvir etməkdədir»[57]. Ə.Yurdsevər azərbaycanlı İskəndərlə ingilis Hamletin cəmiyyətdəki vəziyyətləri arasında bir yaxınlıq görür: «…Şekspirin Hamleti gibi, kefli İskəndər də tərəddüd və aciz böhranları içində çırpınıb durmaqdadır. Hamlet intiqam qərarını vermək və tətbiq edə bilmək üçün məcnun qılığına girmişdi. Kefli İskəndər isə içindəkiləri açıb tökə bilmək üçün sərxoşluq yolunu intixab etmişdir. Hər ikisi də kəndilərini mühitə yabançı və məşhur münəqqid Belinskinin bir təbiri ilə «lüzumsuz bir fərd» olaraq hiss etmişlərdir»[58].

«Azərbaycan dram ədəbiyyatı» əsərinin bir fəslini C.Məmmədquluzadənin dramaturgiyasına həsr edən Ə.Yurdsevər «Ölülər»lə yanaşı, «Anamın kitabı» pyesini də ətraflı təhlil etmiş, ədibin ideyasını düzgün açıqlamışdır: «Müəllifə görə, gerçək kültür insanı xalqa yaxınlaşdıran kültürdür. İnsanı xalq kütlələrindən ayıran, onu xalqa yabançı qılan kültürə kültür deməz. Kültür xalqı daha iyi tanımaq və onun

[56] *A.Vahap Yurtsever.* Hurşid Bânu «Nâtevan» // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 1, a) 1 mayıs 1952, sayı 2, s.9-10.
[57] *A.Vahap Yurtsever.* Azerbaycan dram edebiyatı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.15.
[58] Yenə orada, s.16.

ehtiyaclarını təqdir edə bilmək için bir vasitədir. Kültürün həqiqi qayəsi millətə faydalı olmaqdır»[59]. Ə.Yurdsevərin fikrincə, Mirzə Cəlil «Anamın kitabı»nda Azərbaycanın qurtuluşu, hürriyyət və istiqlala qovuşması üçün sinif, partiya, zümrə və kültür fərqinə varmadan bütün vətən övladlarının birliyi ideyasını təbliğ etmişdir[60].

«Sabirin Azərbaycan ədəbiyyatındakı yeri» əsərində Ə.Yurdsevər bu görkəmli sənətkarın yaradıcılığı, ictimai-siyasi, fəlsəfi-estetik görüşləri haqqında olduqca orijinal mülahizələr söyləmişdir. Müəllif ilk növbədə, Sabir sənətinin xəlqiliyini yüksək qiymətləndirərək qeyd edir ki, o, xalqa Mirzə Fətəlidən də, Həsən bəy Zərdabidən də, Nəcəf bəy Vəzirlidən də, Mirzə Cəlildən də yaxındır. Xalqın hisslərini və fikirlərini daha yaxşı ifadə edir, xalqın öz diliylə danışır, ictimai yaraları bütün çılpaqlığı ilə meydana qoyur[61].

Sabir yaradıcılığında fəhlə mövzusundan Azərbaycan sovet ədəbiyyatşünaslığında geniş bəhs edilmişdir. Ə.Yurdsevər bu məsələ ilə bağlı diqqəti belə bir incə məqama yönəldir: «Sabir işçi davasını dəstəklərkən münhəsirən Azərbaycan türk işçisini nəzərdə tutmuşdur»[62]. Ə.Yurdsevərə görə, «… rus əmələ kütləsi Azərbaycanın çarlıq Rusiyası tərəfindən sömürülməsində və rus boyunduruğu altında tutulmasında böyük bir rol oynamış»[63] və imperiyanın müstəmləkəçilik siyasətinin dəstəkverəni olmuşdur. Türkçü, milliyyətçi, istiqlalçı Sabir təbii ki, rus proletariatının bu əməllərini müdafiə edə bilməzdi.

Sabirin millətin müxtəlif təbəqələrini, M.K.Ələkbərlinin təbirincə desək, bir-birinə qarışdırması, onların hamısının arasında bərabərlik yaratması, fəhləyə də, əkinçiyə də eyni cür xitab etməsi, heç də onun siyasi hazırlıqsızlığı ilə əlaqədar olmayıb, izlədiyi məramla bağlı idi. Ə.Yurdsevərin aşağıdakı cümləsində ifadə edilən həmin məram – «Azərbaycanın milli hürriyyətə və qurtuluşa qovuşması, zümrə və sinif fərqi gözətmədən bütün fərdlərin dövlət və qanun nəzərində eşit bir müamilə görməsi, köylünün torpaq və mülk sahibi olaraq sərbəst və

[59] *A.Vahap Yurtsever.* Azerbaycan dram edebiyatı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, s.26-27.
[60] Yenə orada, s.27.
[61] *A.Vahap Yurtsever.* Sabir'in Azerbaycan edebiyatındaki yeri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1951, s.3.
[62] Yenə orada, s.5.
[63] Yenə orada.

məsud bir həyata erişməsi, işçiyə hər sahədə insan haqlarının bilfeil tanınması, millətin Avropa kültürünü mənimsəyərək cəhalət və səfalətdən qurtulması, dinin Dövri-Səadətdə olduğu gibi tərəqqi və sətfət amili olması»[64] – məramı siniflər mübarizəsini, saxta proletar beynəlmiləlçiliyini və ateizmi, bir sinfin digər sinif üzərində hegemonluğunu qətiyyətlə rədd edir, türk-islam birliyini tələb edirdi. Bu baxımdan, Sabirin siyasi görüşləri sovet ədəbiyyatşünaslığından fərqli olaraq, mühacirət ədəbiyyatşünaslığında öz obyektiv izah və şərhini tapmış olur.

Görkəmli satirikin siyasi görüşlərini onun bədii yaradıcılığı əsasında şərh edən Ə.Yurdsevər haqlı olaraq yazır ki, Sabir türklüyün kültür, mənşə və tarix baxımından bir bütün təşkil etdiyinə əmindir və türk qövmləri arasında daimi bir dayanışmanın mövcudluğunu zəruri saymaqdadır. Ə.Yurdsevərə görə, türklərin dünya tarixində fəal və şərəfli mövqe tutduqlarına, islamiyyətin əsaslı dayağını təşkil etdiklərinə işarət edən Sabir bəzi türk böyüklərinin idraksızlığı ucbatından türk milli birliyinin sarsıldığına və türklüyün tükənməz enerji qaynaqlarının akim buraxıldığına bütün varlığıyla acımaqdadır[65]. Bu mülahizələrini isbat etmək üçün Sabirin məşhur «Fəxriyyə»sini misal gətirən Ə.Yurdsevər şairin siyasi görüşlərini, türkçülüyə baxışını izah etməkdə həmin şeirin böyük bir önəmi olduğunu vurğulayır. Onun fikrincə, «Fəxriyyə» müəllifi «bütün türk böyüklərindən, nərədə bulunurlarsa-bulunsunlar, şəxs və ya zümrə qovğalarını bir yana bırakaraq, tamamən milli bir politika güdmələrini istəməkdə və türk xalqına da ancaq bu yoldan yürüyən millət öndərlərinə uymasını tövsiyə etməkdədir»[66]. İslam dünyasındakı məzhəb davalarının, çar üsuli-idarəsinin türk qövmlərinə qarşı yürütdüyü ruslaşdırma siyasətinin də Sabirin kəskin tənqidinə məruz qaldığını qeyd edən Ə.Yurdsevər şairin siyasi idealını belə ifadə edir: «Sabirin idealı, gərək kəndi yurdunu, gərəksə bütün türk və islam ölkələrini hürriyyətə və milli əgəmənliyə qovuşmuş olaraq görəkdi»[67]. Şairin İran məşrutə hərəkatına, Türkiyədəki gənc türklər

[64] *A.Vahap Yurtsever.* Sabir'in Azerbaycan edebiyatındaki yeri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1951, s.57.
[65] Yenə orada, s.16.
[66] Yenə orada, s.20.
[67] *A.Vahap Yurtsever.* Sabir'in Azerbaycan edebiyatındaki yeri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1951, s.22.

inqilabına rəğbətini də onun siyasi idealı ilə əlaqələndirən və bu yöndəki ədəbi fəaliyyətini əsl vətəndaş qeyrətinin təzahürü kimi səciyyələndirən alim tamamilə haqlıdır.

Sabirin estetik görüşlərini şərh edən Ə.Yurdsevərə görə, şair «sənət sənət üçündür» nəzəriyyəsini deyil, sənət həyat üçündür, sənət xalq üçündür – prinsipini qəbul edir. Sabirin şeir, sənət qarşısında qoyduğu ciddi tələblər Ə.Yurdsevərin bu qənaətinin doğruluğunu təsdiq edir. O, «Nə yazım» şeirini Sabirin sənət manifesti, «Dilbər» şeirini isə əski epiqonçu şeirin əleyhinə yönəldilmiş əsər kimi təqdim və təhlil edir.

Sabirin fəlsəfi görüşlərini araşdıran Ə.Yurdsevər isə belə qənaətə gəlir ki, o idealistdir: «... insan vücudunun fani, fəqət insan ruhunun ölməz və əbədi olduğuna qanidir. Ona görə, insan bədəniylə deyil, ruhuyla yaşar. Bədən bir ovuc torpaqdan ibarətdir və nəhayət, yenə torpağa tərk ediləcəkdir. Halbuki ruh bu dünyadan daha yüksək və daha məsud aləmlərdə yaşamağa və həm də əbədi surətdə yaşamağa qadirdir»[68]. Şairin «Ruhum» və «Səbr eylə» şeirlərini təhlil edən mühacir alim doğru olaraq belə bir nəticəyə gəlir ki, Sabir insan iradəsinin sərbəstliyinə, tale və kədərinin öz əlində olmasına qüvvətlə inanmaqda, fatalizmi rədd etməkdədir. Doğrudur, şair bəzən:

Bir səfa bulmadıq bu aləmdə,
Başqa bir aləmə varıb gedəlim!..

– dedikdə bir qədər bədbin görünürsə də, bu keçici bir hal olub ağır siyasi və sosial həyat şərtlərindən doğur. Bütövlükdə, şairin yaradıcılığına nikbin bir ruh hakimdir. Ə.Yurdsevərə görə,

Mən gedərsəm, var olsun amalım!
Yaşasın şəhriyari-hürriyyət!..

– misraları şairin gerçək nikbinliyinin, demokratiyanın qələbəsinə, millətinin parlaq gələcəyinə olan inamının ifadəsidir[69].

[68] Yenə orada, s.49.
[69] *A.Vahap Yurtsever*. Sabir'in Azerbaycan edebiyatındaki yeri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1951, s.50-51.

Azərbaycan romantiklərinin yaradıcılığı da Ə.Yurdsevərin ədəbiyyatşünaslıq fəaliyyətində kənarda qalmamışdır. M.Hadini «20-ci əsrdəki romantik ədəbiyyatımızın ən bariz simalarından biri» sayan Ə.Yurdsevər isə şairin üslubunda və fikirlərində Namiq Kamalın, Tofiq Fikrətin və Əbdülhəqq Hamidin təsirini görür: «Məhəmməd Hadi, vətən sevgisini aşılayan şeirlərində Namiq Kamala, humanizm və sülhsevərlik fikirlərincə Tofiq Fikrətə, fəlsəfi düşüncələri etibarilə də Hamidə yaklaşmaqdadır»[70]. Bununla bərabər, Ə.Yurdsevərin fikrincə, «iç aləmi, şikayətçi ruhu və mühitlə uyuşmazlığı baxımından Hadi daha fazla Fikrətə bənzəməkdədir. Fikrət kimi o da həyatda məsud olamamış, mənən və ruhən təmin edilməmiş, qırx sənəyə qədər qısa bir ömür sürmüş və nəhayət, bir mum gibi ani olaraq sönüb getmişdir»[71].

Ə.Yurdsevər Hadi poeziyasının leytmotivini belə müəyyənləşdirir: «Hadinin şeirlərinə hakim bulunan başlıca fikir yurd və millət sevgisidir. Şairə görə, hər fərdin dəyəri və böyüklüyü, vətəninə və millətinə qarşı bəslədiyi təmiz, qərəzsiz, səmimi sevgi və gerçək bağlılığı ilə ölçülür. Hadi həyatın hikmət və mənasını vətənə və millətə fərağətlə hizmətdə buluyor. Ona görə, vətən bu dünyanın ən qutsal bir varlığıdır»[72].

Abbas Səhhəti isə Ə.Yurdsevər «Məhəmməd Hadidən sonra 20-ci əsr Azərbaycan romantik ədəbiyyatının mühüm simalarından biri» kimi təqdim edərək yazır ki, «Səhhət Azərbaycan romantiklərindən lisan və üslub etibarilə ən sadə və ən açıq yazanıdır. Onun şeirlərində həzin, səmimi və içli bir ifadə tərzi gözə çarpıyor»[73]. Səhhətin «şeir sənətində ağıldan ziyadə, hisslərə xitab etmə lüzumunu irəli sürməsini» fransız sentimentalistlərinin təsiri ilə əlaqələndirən müəllif şairin «ədəbiyyat sahəsindəki qərbçiliyinin» poeziyamızın üslub, forma və məzmun cəhətdən modernləşməsində əhəmiyyətli rol oynadığını qeyd edir. Romantiklərin yaradıcılığına xas olan yurd sevgisi, vətənpərvərlik kimi

[70] *Abdül Vahap.* Mehmet Hâdi // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 1, a) 1 kasım 1952, sayı 8, s.20.
[71] Yenə orada, s.20.
[72] Yenə orada, s.21.
[73] *A.Vahap Yurtsever.* Abbas Sıhhat // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 1, 1 ocak 1953, sayı 10, s.4.

motivlərin A.Səhhətin də əsərlərində qabarıq nəzərə çarpdığını vurğulayan Ə.Yurdsevər şairin kədərinin də «milli, vətəni və ictimai» xarakter kəsb etdiyi, onun «öz şəxsi arzuları və ehtirasları ilə deyil, millətinin, xalqının və yurdunun əmələri və dərdlərilə» yaşadığı fikrindədir[74].

***

Ə.Yurdsevər C.Cabbarlını «hürriyyət və istiqlal dövrünün yetirdiyi bir şair və dramaturq», «Azərbaycan dram ədəbiyyatının tacı və bu günə qədər yetişdiyi ən yüksək zirvənin təmsilçisi» kimi vəsfləndirir, onun realist bir ədib kimi sənəti ilə həyata və cəmiyyətə, Azərbaycan istiqlalı və türk birliyi kimi müqəddəs ideallara xidmət etdiyini vurğulayır. Ə.Yurdsevərin fikrincə, «Ədirnə fəthi» və «Trablis müharibəsi» əsərləri Cəfərin «həqiqi milli idealını və ən səmimi düşüncələrini» ifadə edirsə, «Aydın» və «Oqtay Eloğlu» dramlarında fərdiyyətçi və hürriyyətçi bir sənətkarın cəmiyyətdə ictimai ədalətin gerçəkləşməsi, fərdi istedad və qabiliyyətlərin inkişafı yolundakı maneələrin aradan qaldırılması ilə bağlı görüşləri əksini tapmışdır[75].

C.Cabbarlının hər cür milli əsarətə, xüsusən, Rusiyanın Qafqaz və türk elləri üzərindəki hakimiyyətinə qarşı şiddətlə müxalif olduğunu vurğulayan Ə.Yurdsevərə görə, dramaturqun «Od gəlini» və «1905-ci ildə» pyeslərində əsas hədəf rus imperializmidir. Lakin müəllif istila rejiminin sərt şəraitində həqiqi düşüncələrini pərdələməyə, simvolik üsluba keçməyə məcbur olmuşdur.

«Qız qalası» haqqında bir neçə söz» məqaləsində isə Ə.Yurdsevər bu poemanın yaranma tarixi ilə bağlı maraqlı faktları açıqlamışdır. Belə ki, sovet Azərbaycanı alimlərinin araşdırmalarında «Qız qalası»nın 1921-1922-ci illərdə qələmə alındığı göstərildiyi halda, Ə.Yurdsevərin verdiyi bilgiyə görə, C.Cabbarlı poemanın Azərbaycan istiqlalının birinci ildönümünə həsr etdiyi ilk variantını 1919-cu ildə tamamlayıb, M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşri nəzərdə tutulan

[74] *A.Vahap Yurtsever.* Abbas Sıhhat // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 1, 1 ocak 1953, sayı 10, s.3-4.

[75] *A.Vahap Yurtsever.* Azerbaycan dram ediplerinden Cafer Cebbarlı // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 1, b) 1 ağustos 1952, sayı 5, s.5-6.

«İstiqlal» dərgisinə təqdim etmiş, lakin dərginin çapının əvvəlcə texniki səbəblərdən yubanması, daha sonra isə 1920-ci il 27 aprel işğalı əsərin işıq üzü görməsinə mane olmuşdur[76]. Ən çox təəssüf doğuran cəhət isə 1923-cü ilin 15 iyununda Cəfərin ilk həbsi ilə əlaqədar evində aparılan axtarış nəticəsində bir sıra digər əlyazmalarla yanaşı, «Qız qalası»nın da əlyazmasının itməsidir.

1923-cü il oktyabrın 5-də gizli «Müsavat» mətbəəsinin aşkarlanması ilə əlaqədar bir qrup müsavatçı həmfikirləri, o cümlədən, Ə.Yurdsevərlə birgə ikinci dəfə həbs edilən Cəfər Çeka zindanında «Qız qalası»nı yenidən yazmağa başlayır. Ə.Yurdsevər bu barədə yazır: «Hücrələrimiz bir-birinə qonşu idi. Barmaqlıq arasından konuşduqlarımızı duyurduq. Bir müddət sonra Cəfər mənə bir müjdə verdi: qardiyan vasitəsilə ufak bir kurşun qələm və bir kaç parça da kağız təmin etmişdi. Münfərid hücrəsində Azərbaycan istiqlal dastanını, yəni müsvəddəsi kayb olan «Qız qalası»nı yazmaq istiyordu. Səhifələri doldurduqca o, atəşin səsiylə barmaqlıq arasından «Qız qalası»nın yeni mətnini mənə oxuyurdu. Əski mətni də vaxtilə kəndisindən dinləmiş olduğum üçün arada pək fərq görmürdüm. Bəlkə ikinci mətn daha həyəcanlı və daha atəşin idi. Hər iki mətnin son misrası belə bitirdi: «Şimdi parlaq elektriklərlə cilvələnmiş üzündə «İstiqlal»![77].

Beləliklə, «Qız qalası» poemasını C.Cabbarlı ikinci dəfə yazır. Lakin Ə.Yurdsevərin fikrincə, əsərin sovet nəşriyyatında çap edilmiş mətni onun üzərində ya senzor əməliyyatı aparıldığını, yaxud da müəllifin özünün şiddətli basqı altında onu rus istila şərtlərinə uyğunlaşdırmağa məcbur olduğunu göstərir.

***

Ə.Yurdsevərin bir sıra yazıları Azərbaycan milli istiqlal mücadiləsinin həm vətəndəki, həm də mühacirətdəki tarixinin önəmli məqamlarını, onun görkəmli xadimlərinin həyat və fəaliyyətini araşdırmaq üçün dəyərli mənbələrdir. «Əmin bəyin üstün liderlik vəsfləri», «Əmin bəy haqqında bəzi xatirələr», «43 sənəlik arkadaşım Mirzə Bala», «Almas İldırımın ədəbi şəxsiyyəti və şeir sənəti», «Əşrəf

[76] *A.V.Y.* «Kız kalesi» hakkında birkaç söz // «Azerbaycan» Aylık Kültür Dergisi, Ankara, yıl 11, ekim-kasım-aralık 1962, sayı 7-8-9 (127-128-129), s.16.
[77] Yenə orada, s.17.

Dəmircan», «Böyük bir dostun arxasından», «Məhəmməd Sadıq Aran (Sənan)», «Əjdər Qurtulan», «Hüseyn Camal Yanar», «Azərbaycan türklüyünün yeni bir kaybı», «Azərbaycan» dörd yaşında», «Azərbaycan» beş yaşında», «Azərbaycan» yeddi yaşında», «25 yıl vəzifə başında» bu qəbildəndir.

A.İldırımın vəfatından bir il sonra Ankaradakı Azərbaycan Kültür Dərnəyinin nəşr etdirdiyi «Seçilmiş şeirləri» kitabında Ə.Yurdsevərin «Almas İldırımın ədəbi şəxsiyyəti və şeir sənəti»[78] sərlövhəli müqəddiməsi şairin həyatı, mühiti, yaradıcılığı barədə mühacirətdə qələmə alınmış dəyərli araşdırmadır. «Onun (Almas İldırımın – *N.C.*) fikir silsiləsi ilə şeir sənəti bir-biriylə ayrılmayacaq şəkildə birləşmişdir. O, tamamən Azərbaycan və Türklük üçün yaşamış və çalışmışdır. Hər şeiri və hər sözü səmimiyyətlə doludur... İlhamını tamamilə kəndi ruhundan almış və hər nevi təqlid və təsənnüdən uzaq qalmışdır. Ta başlanğıcdan bəri böyük və qutsal bir davanın ədəbi ələmdarlığını yapdığı üçün şeiri özəl bir qüdrət və gözəllik qazanmışdır»[79] tezisi Ə.Yurdsevərin araşdırmasının əsas qayəsini, ruhunu təşkil edir, oxucunu şairin şəxsiyyəti ilə sənətini, poeziyasını bir bütöv halında qavramağa, dərk etməyə yönəldir. Ə.Yurdsevərin sözügedən müqəddiməsindən sonralar A.İldırım barədə yazan tədqiqatçıların hamısı bu və ya digər dərəcədə faydalanmışlar. Şairin 1990-cı ildə Ankarada «Azərbaycan Kültür Dərnəyi Yayınları» seriyasında işıq üzü görmüş «İgidlərə səsləniş» kitabında Dərnəyin Mərkəz Yönətim Kurulu adından verilmiş ön sözlə yanaşı, həmin araşdırmanın da yenidən dərc edilməsi onun almasildırımşünaslıq üçün əhəmiyyətini bir daha təsdiq edir.

***

Türk Qurtuluş Savaşı, Türkiyə Cümhuriyyətinin yaranması, onun qurucusu Mustafa Kamal Atatürkün həyatı və mücadiləsi, Türk dünyasının problemləri Azərbaycan mühacirət ədəbiyyatında müxtəlif janrlarda qələmə alınmış əsərlərdə zaman-zaman əks olunmuşdur. Ə.Yurdsevərin publisistik irsində də bu mövzularda diqqətəlayiq örnəklər az deyildir. «Atanı anarkən», «Atatürk və dış türklər»,

[78] *A.Vahap Yurtsever.* Elmas Yıldırım'ın edebi şahsiyeti ve şiir san'atı // Elmas Yıldırım'ın seçilmiş şiirleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1953, s.3-12.
[79] Yenə orada, s.11-12.

«Türkiyə Cümhuriyyətinin 50-ci yıl dönümü» məqalələrində Atatürkün siyasi dühası önə çəkilir, onun şah əsəri olan Cümhuriyyətin keçdiyi tarixi yol misilsiz inkişaf kimi dəyərləndirilir. «Şanlı Kıbrıs zəfəri!» məqaləsində Türk Ordusunun Quzey Kıbrıs türklərini soyqırım təhlükəsindən qurtarması tarixi olay kimi təsvir olunur. «Xocamız Sədri Maqsudi», «Cəfər bəyə dair xatirələrim», «Krım türklüyünün əbədi öndəri» yazılarında isə Ə.Yurdsevər həyatlarını Türk ellərinin istiqlalı uğrunda mücadiləyə həsr etmiş idealist şəxsiyyətlərin bədii-sənədli obrazını yaratmışdır.

Ə.Yurdsevərin əslən İğdır azərbaycanlılarından olan Kərim Yaycılının «Anadolu, Kafkaz, Azərbaycana ərmağan» kitabına yazdığı «Milli şeirlər dəməti» adlı ön söz mühacirət ədəbi tənqidinin dəyərli örnəklərindəndir. Şairin poetik irsini böyük məhəbbətlə təqdim edən müəllif onun yaradıcılığının leytmotivini dəqiq müəyyənləşdirir: «Kərim Yaycılının şeirlərində hüzn sürurla, şikayət qürurla gözəl bir şəkildə bağdaşmaqdadır. Onun hüznü Əhməd Cavadın şeirlərində gördüyümüz o dərin hüznə çox bənzəməkdədir. Bu hüzn Azərbaycanın iki yıllıq şanlı istiqlal həyatından sonra təkrar əsarət boyunduruğu altına düşməsindən irəli gəlməkdədir. Şair daimi surətdə sızlayan bu yarasını hər vəsilə ilə dilə gətirməkdədir». Ə.Yurdsevərə görə, K.Yaycılı ürəklər yaxan hüznü ilə birlikdə, istiqbala dərin inam bəsləyən, gənclikdən ilham alan və ona ilham aşılayan sarsılmaz bir istiqlal mücahididir.

***

Ə.Yurdsevərin yazılı irsindən seçmələr toplu halında ilk dəfə olaraq akademik prinsiplərə uyğun şəkildə ədəbi-elmi ictimaiyyətin diqqətinə təqdim edilir. «Seçilmiş əsərlər»in ikinci cildində isə onun bədii-sənədli nəsrindən örnəklər yer alacaqdır. Bu cildlərdə toplanmış əsərlərin uyğun sahə mütəxəssisləri üçün faydalı olacağı, geniş oxucu kütləsində maraq doğuracağı qənaətindəyik.

QƏDİM, ORTA ƏSRLƏR VƏ ERKƏN REALİZM DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

MƏHSƏTİ GƏNCƏVİ

Azərbaycan xalqının yetişdirmiş olduğu ünlü qadın şairlərdən biri də Məhsəti (və ya Məhyəti) Gəncəvidir. Kəndisi bundan təqribən səkkiz əsr öncə Səlcuqlu Sultan Səncər dövründə yaşamış və söyləndiyinə görə, onun sarayında gözəlliyi, təbi-şeiri və nüktədanlığı ilə böyük şöhrət qazanmışdır. İsmindən də görüləcəyi gibi, Məhsəti Azərbaycanın ikinci başkəndi bulunan Gəncədə doğmuş və orada yaşamışdır. Böyük Şirvan və Gəncə şairlərinin müasiri olmuşdur. Yoxsul bir ailənin çocuğu idi. Buna rəğmən, zəkası, istedadı və şeiri ilə sənət və ədəbiyyat mühitinin diqqət nəzərini kəndi üzərinə çəkmişdir. Sərbəst fikirli olub, şeirlərində fərdin hürriyyətini tərənnüm edərdi:

O sərraf oğlunun aşiqiyəm mən,
Eyn-ü, sin-ü qafa[1] vurğunam qəlbən!
İnsanam, axir sin, nun, qaf[2] deyiləm,
Nə istər o süzgün baxışlı məndən?

Təbi-şeiri qəzəl və qəsidədən ziyadə, rübaiyə təmayül göstərir və bu sahədə Ömər Xəyyamın izindən yürürdü. Zatən fikirləri etibarilə dəxi Xəyyama pək bənzəməkdədir:

Bu dünya bir qızıl kuzəyə bənzər:
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da öyünmə ki, uzundur ömrün,
Əcəl köhlənində hazırdır yəhər.

Məhsətinin şu rübaisi Xəyyama qarşı fikri təmayülünü daha fazla təbarüz etdirməkdədir:

Dün kaşi kuzəmi daşlara çaldım:
Sərxoşdum, bilmədim, əlimdən saldım.
Kuzə dilə gəlib dedi ki: mən də
Sənin kimi idim, bu günə qaldım!

[1] Əski yazıda eyn, şin və qaf hərflərindən mürəkkəb kəlmə «eşq» oxunmaqdadır. Şair eşqə düşkünüm, demək istiyor.
[2] Yenə əski yazıda sin, nun, qafdan tərəkküb edən farsca «səng» kəlməsi «daş» mənasına gəliyor. Şair daş deyil, insanım, − diyor.

Və yaxud şu rübaisi:

Bir qəlb pulu bizdən almırlar, inan!
Süpürür hamunı əcəl dünyadan.
Xarabətdən çıxıb dedi bir qoca:
Şad yaşa, torpaqda çox yatacaqsan!

Xəyyamvari digər bir rübaisində Məhsəti xanım şöylə diyor:

Dedim məsləhət ver bizə, ey ürək,
Şirin meydən, ya da acıdan içək?
Dedi: acıdan iç, yoxsa Şirinə
Vurğun deyilsən ki, sən də Fərhad tək!

Yenə bir başqa rübaisində:

Ey! Məcaz yoluyla bura sən gəlmə,
Xarabata bir iş görmədən gəlmə!
Başından keçənin yoludur bu yol,
Bu yolda can qurban vermədən gəmə!

– deməkdədir. Şairin içli rübailərindən birisi də şudur:

Yetməzmi qəribə verdin işgəncə,
Cəfanın hüdudu olmazmı səncə?!
Demişdin, Gəncədə verrəm kamını,
İndi bu mən, bu sən, bax bu da Gəncə!

Böyləcə, görüyorsunuz ki, 12-ci əsrdə yaşamış bulunan Azərbaycan qadın şairi Məhsəti gözəl xalq azəri türkcəsiylə yazdığı[3] içli şeirlərində həyata eşq və bağlılıq hisslərini, nəşə, zövq və sevinc tələqin etməkdədir. O, insan ağlının və yüksək bəşəri duyğuların heyranıdır. Həyatın durmadan irəlilədiyinə və getdikcə təkamül etdiyinə inanmaqdadır.

[3] Ön sözdə qeyd etdiyimiz kimi, burada müəllif diqqətsizlikdənmi, yaxud istifadə etdiyi mənbələrin naqisliyindənmi Nigar Rəfibəylinin tərcümə etdiyi poetik örnəkləri Məhsəti rübailərinin orijinalı bilmiş və belə bir yanlış fikir söyləmişdir. – *N.C.*

Eyni zamanda musiqişünas olan Məhsəti kəndi dövründə dərin iz bırakmış bir şairimizdir. Onun təsirilə Əmir Əhməd, Mir Osman gibi dövrün tanınmış şairləri bir müddət qəzəl və qəsidəni tərk edərək rübai yazmağa başlamışlardır. Parlaq həyatını və hikmətli sözlərini yaşatmaq için haqqında aşiqanə bir dastan vücuda gətirilmişdir. Nə yazıq ki, Məhsəti xanımın gərək həyatı, gərəksə yaradıcılığı hənüz layiqincə tədqiq edilməmişdir. Halbuki ilk və ən qüdrətli qadın şairlərimizdən olması dolayısıyla çox əhəmiyyətə və diqqətədəyər bir simadır. Ümid edəriz ki, Azərbaycan ədəbiyyat tarixilə yaxından ilgilənən mütəxəssislərimiz bu konunu gələcəkdə daha fazla aydınlatmağa müvəffəq olsunlar.

ŞAH İSMAYIL XƏTAİ
(1486-1524)

Ön dördüncü əsrdən etibarən get-gedə gəlişməkdə və qüvvətlənməkdə olan Azərbaycan ədəbi türkcəsi Axsaq Timur dövlətinin inqiraza başlamasıyla Güney Azərbaycanda qurulan Ağqoyunlular və Səfəvi dövlətlərinin bu dilə verdikləri yüksək önəmdən dolayı, siyasi və ictimai sahələrdə dəxi hakim bir mövqe qazanmağa namzəd bulunuyordu. Hələ Səfəvilərin Azərbaycan türkcəsini rəsmi dövlət dili olaraq elan və qəbul etmələri bu dilə hər sahədə geniş tətbiq imkanları hazırlıyordu. Şöylə ki, daha 15-ci əsrdə Azərbaycan türkcəsi ədəbiyyata hakim olmağa başlamış, 16-cı yüzyılda isə ən mütəkamil inkişaf səfhəsinə erişmiş bulunuyordu.

Bu gəlişmələr, bilxassə Şah İsmayıl Xətainin şəxsi enerjisi, dil və ədəbiyyat üzərində mütəmadi çalışmaları nəticəsində böyük bir hızla ilərliyordu. Şahın qurduğu Səfəvi türk dövlətinin möhtəşəm sarayı Azərbaycan ədəbi türkcəsinin rövnəq bulduğu başlıca elm və ədəbiyyat ocağı halına gəlmişdi.

Şah İsmayıl 1486 sənəsində Ərdəbildə doğmuşdur. Bilindiyi gibi, Ərdəbil şəhəri Təbrizdən sonra bu gün dəxi Güney Azərbaycanın ikinci mühüm mərkəzidir. Şahın annəsi Həlimə Bəyim və ya Şah Bəyim məşhur Ağqoyunlu türk hökmdarı Uzun Həsənin qızıydı. Babası Sultan Heydər və böyük babası da Sultan Cüneyd idi. Şah İsmayılın ulu babası Şeyx Səfiəddin daha 14-cü əsrin ortalarında ölkədə hakimiyyəti ələ almaq məqsədiylə Ərdəbildə təsəvvüfi bir təriqət qurmuş və başına müridlər toplamışdı. Hələ Şeyx Səfiəddinin türbəsi Ərdəbildə bir ziyarətgah olaraq mühafizə olunmaqdadır.

Rəvayətə görə, Şeyx Səfiəddin bir gün röyasında sülbündən böyük bir hökmdarın dünyaya gələcəyini görmüşdür. Bunun içindir ki, Şah İsmayıl Azərbaycanda yeni bir türk dövlətinin təməlini atarkən, onu ulu babası Şeyx Səfiəddinin adına izafətən Səfəvi dövləti deyə adlandırmışdır.

Şeyx Səfiəddinin nəsli şiə təmayülü verdikləri məzkur təriqət sayəsində daha Səfəvi dövləti qurulmadan öncə Ərdəbil və civarlarında böyük bir nüfuz və qüdrət sahibi bulunduqları və hakimiyyət uğrunda mücadilə etdikləri için Ağqoyunlu sülaləsi ilə aralarında zaman-zaman

qanlı savaşlar vüqu buluyordu. O cümlədən Uzun Həsənin torunu Rüstəm şah, Şah İsmayılın ağabəyisi Sultan Əlini Ərdəbil civarında silahlı qitələri vasitəsilə təqib və qətl etdirmişdi. Bu üzdən, İran tarixi qaynaqlarına nəzərən, Şah İsmayıl daha altı-yeddi yaşında ikən qırx gün qədər babasının müridləri yanında saklandıqdan sonra, qardaşı İbrahim Mirzə ilə bərabər Şimali İran vilayətlərindən Gilana qaçırılmış və Lahican şəhərində barındırılmışdır. Lahican valisi Mirzə Əli kiçik müsafirlərinə qarşı böyük sayğı və kəndilərinə himayə göstərmişdir. Rüstəm şah bir kaç dəfə Şah İsmayılın təslimini Lahican valisindən tələb etmişsə də, vali hər səfərində məqul səbəblər və bəhanələr irəli sürərək bu istəkləri qəbuldan boyun qaçırmışdır.

Lahicanda Şəmsəddin Lahici ismində alim bir şəxs Şah İsmayıla müəllimlik və mürəbbilik etmişdir. Qardaşı İbrahim Mirzə isə Lahicana varışından qısa bir müddət sonra Ərdəbilə annəsinin yanına dönərək orada saklı olaraq yaşamışdır.

«Tarixi-Aləmara»ya görə, Şah İsmayıl altı buçuk sənə Lahicanda qaldıqdan sonra, məiyyətiylə birlikdə Ərdəbilə dönmüş və orada əcdadının məzarlarını ziyarət edərək annəsi və qardaşı ilə görüşmüşdür. O sıralarda Azərbaycanda və İranda hökumət sürən Uzun Həsənin əfhadı arasında iqtidar üzündən qanlı savaşlar çıxmış bulunuyordu. Ağqoyunlu sülaləsinin qüdrətli hökmdarı Sultan Yaqubun (1478-1490) vəfatından sonra şahzadələr arasında başlayan bu savaşlar dövlətin siyasi və iqtisadi bünyəsini bir xeyli sarsıyordu. İştə, Ağqoyunlular dövlətinin bu zəfindən istifadə edən Şah İsmayıl daha 16 yaşlarında bir dəliqanlı ikən qüvvətli bir ordu ilə ilk öncə Quzey Azərbaycana saldıraraq Şirvanşahlar dövlətini məğlub etmiş, sonra da Güney Azərbaycanı hakimiyyəti altına alaraq Ağqoyunlular dövlətini ortadan qaldırmış və hər iki Azərbaycanı bir tək dövlət halında birləşdirərək Təbrizi kəndisinə paytaxt yapmışdır. Bunu mütəaqib, Şah İsmayıl bir kaç sənə zərfində bütün İran torpaqlarını işğal və Azərbaycana ilhaq etmişdir. Daha sonra İraqı da hakimiyyəti altına almışdır. Nəticə etibarilə, bir ucu Quzey Kafkasyadakı Dərbənd şəhərinə, digər ucu da Bəsrə körfəzinə dayanan və Türküstan ilə Əfqanıstanı da içinə alan müəzzəm bir səltənət vücuda gətirmişdir.

Şah İsmayıl bir tək dəfə məğlub olmuşdur ki, o da məşhur Çaldıran yenilgisidir. Çünki bu dəfə qarşısında kəndisi gibi böyük və qüdrətli türk hökmdarı Yavuz Sultan Səlimi bulmuşdu.

Şah İsmayıl daha 38 yaşında gənc və qüvvətli bir hökmdar ikən Ərdəbildə xəstələnərək həyata gözlərini yummuşdur. Səltənəti 1501-dən 1524-ə qədər 23 sənə sürmüşdür. Fəqət arxasında müəzzəm Səfəvi dövlətindən başqa bir də ölməz ədəbi şöhrətini bırakmışdır. Səfəvi dövləti çoxdan tarixə qarışmışdır. Halbuki Xətainin ədəbi şöhrəti bu gün dəxi taptazədir.

Şah İsmayıl Xətainin ədəbi fəaliyyətini iki qismə ayıra biliriz:

1. Siyasi qayələrlə yazılan şeirlər,
2. Bədii əsərlər.

Dövrün siyasi və ictimai şərtlərinin təbii icabı olaraq dünyanın hər tərəfində olduğu gibi, Azərbaycan Səfəvi səltənətində dəxi dinlə dövlət sımsıkı birləşmiş bulunuyordu. Əhalinin böyük bir əksəriyyəti məzhəb etibarilə şiə olduqlarından, Səfəvi xanədanı kəndi hakimiyyətini qurmaq, yaymaq və yerləşdirmək məqsədiylə bu bayraq altında hərəkətə keçiyordu. Fəqət Səfəvilərin şiəliyi həm təsəvvüf təriqətilə, həm də hürufiliklə bağdaşmış bir durumda idi.

Bilindiyi gibi, Təbrizli Fəzlullah Nəimi tərəfindən 1386-da təsis olunan hürufi təriqəti əsas etibarilə İslam dininə dayandığı halda, onu kəndi görüşlərinə uyğun bir şəkildə təfsir və təhrif etməkdədir. Hürufilər hərflərin qüdsiyyətinə inanır və kainatın sirlərini ayrı-ayrı hərflərdə saklı bulunan hikmətlərdə ararlardı. Hürufilikdə fərd və ya şəxsiyyət yüksək bir qiymət daşır. Mənən yüksələn bir insan Allah dərəcəsinə ulaşa bilir. Böylə olunca, fərdin hürriyyəti insan cəmiyyətində əsas şərtdir. Tanrı və ya Ərşi-Əla bizzat insanın kəndi mövcudiyyətindədir. Hərflərin əsrarı insan simasında təcəlli edər. Ona binaən, bütün sirlərin məzhəri olan insan qutsaldır.

Şah İsmayıl kəndi hakimiyyətini qura bilmək için həm ulu babasının təsis etdiyi təsəvvüf təriqətindən, həm də şiə məzhəbindən və bu məzhəblə uyuşma təmayülü göstərən hürufilik gibi təriqətlərdən məharətlə istifadə etməsini bilmişdir. O zamana qədər mərhəmətsizcə təqib olunan hürufilər Şah İsmayıl dövründə kəndi fikirlərini sərbəstcə yaya biliyor və şiəliklə mümkün mərtəbə görüşlərini təlifə çalışıyorlardı. Şah İsmayıl sarayına mənsub sənətkarlardan olub Süruri və Tüfeyli

məxləsləri ilə tanınan iki böyük hürufi şairinin əsərləri bu bağdaşmağa gözəl bir örnək təşkil etməkdədir.

Xətainin əlində şeir hər şeydən öncə qüvvətli bir propaqanda silahıydı. Adəta, qılınc qədər qüdrətli bir silah! O, bir tərəfdən qılıncı ilə ölkələr fəth edərkən, bir tərəfdən də müəssir propaqanda silahı ilə hakimiyyətini pərçimləşdirmiş, mənəvi nüfuz və otoritəsini yüksəltmiş və xəsm cəbhəsinə hülul etməsini bilmişdir:

Şahı-Mərdanın, Əlinin aliyəm, övladıyam,
Zülfiqarü-tacü-Düldül üç nişan həm məndədir.
Açaram dini-Məhəmməd məzhəbi-Cəfər yaxın,
La fəta illa Əli ol sırri-pünhan məndədir!

Şah İsmayıl bu şeirində Həzrəti Əli nəslindən gəldiyini və onun mənəvi mirasına sahib bulunduğunu və Cəfəri (şiə) məzhəbini yaymaqla vəzifələndirildiyini və Əli gibi eşsiz şücaət və rəşadət vəsflərini kəndi şəxsində topladığını iddia etməkdədir.

Xətai müridlərini şu atəşin təlqinlərlə cəngə sövq ediyordu:

Mürid oldur, ola əhli-iradət,
Hər işdən var ala, pirdən icazət.
Haram edə yuxusun dost yoluna,
Yana pərvanətək eşqin yoluna.

Və ya:

Qurşansa qazilər seyfü-silahı,
Münafiq canına havfü xətərdir.
Nişanı ol günəş tələtli şahın
Başında tacü, belində kəmərdir.
Cahangir qazilər meydana girsə,
Həvariclər ayaqda payü sərdir[1].

Yenə müridlərini əzəmi fədakarlıqlara təşviq məqsədilə Xətai şöylə diyor:

Ey könül, sidq ilə hər kim şah ilə yoldaş ola,
Üz gərək döndərməyə hər necə kim yoldaş ola.

[1] Din sapıqları ayaqlar altında çeynənib-gedərlər.

Yolu gər daş ola, gər yay ola, gər oxü qılınc,
Mürşidindən dönənin manidə ismi laş ola.
Ey Xətai, sidq ilə bu şah ayağına gələn
Aqibət bir gün gümansız xalq içində baş ola!

Xətai kəndinə və kəndi qüvvətinə güvənməkdədir. Bir sıra şeirlərində o kəndisini və kəndi səltənətinin əzəmət və ehtişamını övməktədir. Məsələ, Yavuz Sultan Səlimə yazdığı mənzum məktubda şöylə diyor:

Mən ol şahbaz- köhsarəm, baş əyməm qülleyi-Qafa,
Neçə ənqa kimi yavru uçurdum aşiyanımda
Həmən el arxası yerdə cahanın padişahıdır,
Xətai həp keçən sərdən, qədəm qoyan nişanımda

Xətai Azərbaycan ədəbiyyatında şiə lirizminin əsasını qoyanlardan biridir. Bu lirizmdə Həzrəti Əli və onun sülaləsi idealizə olunmaqdadır. Bu gibi şeirlərində Xətai hürufiliyin təsirinə qapılaraq Həzrəti Əliyə Allahlıq vəsflərini izafə etməkdədir:

Ol şah ki, məzhəri-Xudadır,
Haqdan kim onu deyir cüdadır.
Sən məzhəri-lütfi-Haqsan, ey şah!
Ol bəndələrin işindən agah.

Bu, tıpqı hürufilərin Fəzlullaha ətf etdikləri vəsflərdir.
Bir başqa şeirində Xətai Həzrəti Əlini şu tərzdə mədh ediyor:

Ali oldur ki, cənnətdə olubdur saqiyi-Kövsər,
Budur saqi, budur cənnət, şərabı abi-Kövsərdir.
Şücaət bu, vilayət bu, mürüvvət bu, şərafət bu,
Əlini görməyən hazır Yezidü-qəbrü-kafərdir.

Hədisü, vaazu, Qurandan nə buldun, gəlgil, ey vaiz,
İmamın ismi Qurandır, hədis Allahu əkbərdir!

***

BƏDİİ ŞEİRLƏRİ

Xətainin eşq və məhəbbət tərənnüm edən qəzəl və qoşmaları gərək üslub və ifadə tərzi, gərəksə möhtəvasının özəlliyi və gözəlliyi etibarilə siyasi və dini şeirlərindən daha yüksək bir dəyər daşımaqdadır. Bu gibi əsərlərində Xətai Azərbaycan xalqının sadə və açıq dilindən, ata sözlərindən, dastan, əfsanə və rəvayətlərindən və xalq şeirlərindən geniş surətlə faydalanmaqdadır.

Xətainin xalq dilini nə dərəcə mənimsədiyini şu misralardan görə bilirsiniz:

Axar sular kimi axasım gəlməz,
Yezidin üzünə baxasım gəlməz,
Şəhrinə girincə çıxasım gəlməz...

Şah İsmayılın bədii gözəllik etibarilə ən yüksək əsəri «Dəhnamə» mənzuməsidir. Bu, eyni zamanda Azərbaycan türkcəsində yazılmış ilk poemalardandır.

«Dəhnamə» bütün klassik poemalar gibi minacat, nəti-Rəsul və meracnamə ilə başlıyor və bunu mütəaqib «övsafi-əimmə» gəliyor. Daha sonra «bahariyyə» ilə ilk bahar mövsümünün həyata və təbiətə gətirdiyi canlılıq və şənlilik bədii bir tərzdə təsvir olunaraq, əsl mövzuya keçiliyor.

Konu romantik bir eşq hekayəsindən ibarətdir. Aşiq bizzat şair kəndisidir. Baharın nəşə və əyləncə, ümid və iyimsərlik tələqin edən günlərini şair hər dürlü kədər və əndişədən azadə olaraq keçiriyor. Eşq və aşiq məfhumları ilə alay ediyor. Qəm və qayğı nə olduğunu bilmiyor və bilmək də istəmiyor. Fəqət bir gecə röyasında bir pəri görüyor və ona bütün varlığıyla aşiq oluyor. Oyanınca kəndisini qəm və kədərlər içində buluyor. Eşqin verdiyi iztirablar onu cünuna doğru sürüklüyor. Bu durumdan qurtulmaq için Allaha yalvararaq yardım istiyor. Həmən qeybdən bir səs sevdiyi gözəlin nerədə olduğunu kəndisinə bildiriyor. Aşiq gah düşərək, gah qalxaraq pərinin bulunduğu yerə doğru yola çıxıyor. Orası cənnət gibi gözəl bir bağ! Bağçıvana macərasını anlatıyor və yardım diliyor. Bağçıvan aşiqin halına acıyor və Səbanı elçi sifətiylə məşuqəyə göndərməsini tövsiyə ediyor.

Aşiq Səbanı arayaraq, sabah vaxtı çiçəklər arasında buluyor və məşuqəyə yazdığı məktubu ona təslim ediyor. Səba məktubu pəriyə ulaştırıyor. Fəqət pəri bu küstahlığa kızıyor və Səbanı azarlayaraq həqarət dolu bir cavabla geri çeviriyor. Aşiq təkrar məktub yazaraq eyni elçi vasitəsilə sevgiliyə göndəriyor. Bu səfər pəri daha fazla kızaraq Səbanı saçları arasında həbs ediyor.

Hadisədən mütəəssir olan aşiq vəziyyəti bir məktəb arkadaşına danışıyor və onun tövsiyəsi üzərinə bu dəfə Ah vasitəsilə üçüncü məktubunu göndəriyor. Fəqət sevgili onu da rədd ediyor.

Ən sonunda aşiq göz yaşları vasitəsilə məşuqəsinə hədiyyə göndərməyə qərar veriyor və bu surətlə, əməlinə nail oluyor. Məşuqə şairlə yapdığı həsbi-halda onun eşqini və səbat dərəcəsini dənəmək istədiyini və bunu öyrəndikdən və təqdir etdikdən sonra kəndisinə könül verdiyini bəyan ediyor.

Xətainin təbiəti təsvirdə nə qədər mahir olduğunu, bilxassə «Dəhnamə»nin ayrılmaz bir parçasını təşkil edən «Bahariyyə»dən görməkdəyiz. Bu dərəcə canlı və sadə təbiət təsvirinə Xətaiyə qədər heç bir Azərbaycan ədibinin əsərində rastlanmamaqdadır.

«Dəhnamə»də ana fikir eşqdə vəfalı, səbatlı və fədakar olmaqdır. Xalq dastanlarında olduğu gibi, aşiq məşuqəsini kəndi mühitində və ətrafında deyil, röyasında görüyor və dərhal aralarında təmiz və ilahi eşq bağları təəssüs ediyor. Yəni həqiqi eşqin qeybdən və ilahi iradə ilə təlqin edilən bir eşq olduğu denilmək istəniyor. Onun içindir ki, məşuqənin bulunduğu yer yalnız hatif (qeybdən bir səs) vasitəsilə öyrənilə bilir. Məşuqənin bağçıvanı təmiz, iyi qəlbli, gerçək eşqdən anlar bir insandır. Sanki aşiqi bəkliyorumuş gibi onu iyi qarşılıyor, halına acıyor və tövsiyəsilə yardım göstəriyor. Fəqət kəndisi aşiq ilə məşuqə arasına girməyə cəsarət edəmiyor və bu işi Səba, Ah, Göz yaşları gibi insandan qeyri, bununla bərabər insana çox yaxın və onun gerçək hisslərinə tərcüman olan elçilərə bırakıyor. Bu elçilərdən də yalnız Göz yaşları müvəffəq oluyor.

Mənzumədə hər hadisə ilə ilgili olaraq verilən qəzəllər əsəri daha da zənginləşdirməkdə və gözəlləşdirməkdədir. İştə onlardan bəzi parçalar:

Ey canü dili xərab edən eşq,
Üşşaqı kəm əz türab edən eşq.

Və ya:

Yandım qəm oduna sərbəsər mən,
Qəm həmdəmi yar getdi əldən.

ŞAHIN SARAYI

Şah İsmayıl yalnız şeir yazmaqla, Azərbaycan türkcəsini gəlişdirməklə qalmamış, eyni zamanda Səfəvi dövlətinin sarayını Azərbaycan ədəbiyyatının, musiqi və sənətinin və təkmil kültür hərəkətlərinin bir mərkəzi halına gətirmişdir. Şah şeir və ədəbiyyat qədər musiqi və rəssamlığı da sevərdi. Ağqoyunlular zamanında və Səfəvi dövlətinin başlanğıc dövründə hökumət mərkəzi bulunan Təbriz Yaxın Doğunun ən mədəni və nüfusu qələbəlik bir şəhəri halına gəlmişdi. Daha öncə Elxanilər (Hülakü sülaləsi) tərəfindən 1294 sənəsindən etibarən paytaxt elan edilən Təbriz 16-cı əsr ortalarına qədər bu vəsfini mühafizə etmişdi. 15-ci və 16-cı əsrlərdə Azərbaycana uğramış bulunan Avropa səyyahları Təbrizin böyüklüyünü, canlılığını və əhalisinin qələbəliyini görərək, mübaliğəyə qapılıyor və nüfuz kəsafətini bir milyon qədər təxmin ediyorlardı. Fəqət nə də olsa, bu təxminlər göstəriyor ki, Təbriz şəhəri o dövrün Orta Doğu bölgəsində çox mühüm bir yer işğal ediyormuş. Əsrlər boyunca başkənd vəzifəsini görən Təbrizdə Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər tərəfindən yüksək memari sənət əsəri bir çox gözəl binalar, camelər və böyük bir çarşı vücuda gətirilmişdi. Şəhər həm böyük bir ticarət mərkəzi, həm də altun, gümüş və ipək üzərinə incə əl işi sənətlərinin inkişaf etdiyi bir mahal idi. Bu gibi əl işi sənətləri ilə bu gün belə Təbriz böyük bir şöhrət qazanmışdır.

Ədəbiyyata hər baxımdan böyük əhəmiyyət verən Şah İsmayıl kəndi sarayında ədəbi bir məclis qurmuş və başına tanınmış Azərbaycan şairi Həbibini «Məliküşşüəra» ünvanilə gətirmişdir. Bu məclisdə Süruri, Şahi, Tüfeyli, Kişvəri, Matəmi, Qasımi və başqaları gibi bir sıra ədiblər iştirak ediyorlardı. Şeir və ədəbiyyat o dərəcə etibar qazanmışdı ki, Səfəvi dövlətinə tabe məhəlli əmirlər belə, sənət aşiqi Şah İsmayılı təqlidən şeir yazar və saraylarında ədəbi məhfillər təşkil edərlərdi.

Yuxarıda da qeyd etmiş olduğumuz gibi, Səfəvi dövrü ədəbiyyatının əsas qayəsi şiəliyi müdafiə etməkdi. Bu etibarla, qəsidəçilik janrı «övsafi-əimmeyə», yəni Həzrəti Əli sülbündən gələn on iki imamın fəzilət və xislətlərini tərif və tövsif edən şeirlərə mütəmayil bulunuyordu.

Bizzat Şah isə bir hökmdardan ziyadə, bir mürşid və ya bir məzhəb rəisi sifətiylə qəsidələrdə mədh olunmaqda idi. Şahın əmrilə sarayda müəzzəm bir kitabxana vücuda gətirilərək, tanınmış klassik ədiblərin əsərləri bir araya gətirilmişdi. Məşhur xəttatlar bu əsərləri istinsax ediyorlardı. Rəssamlar bu əl yazılarına miniatürlər hazırlıyorlardı. Böyləcə rəssamlıq get-gedə gəlişiyordu.

Şərqin Rafaeli deyə geniş şöhrət qazanan Kəmaləddin Behzad (1455-1595)[2] iştə, bu rəssamlıq okuluna mənsubdu və onun başında bulunuyordu. Behzad o dövrün məşhur rəssamı bulunan Təbrizli Seyid Əhmədin tələbəsi idi. Əslən Heratlı olub 1506 sənəsində Təbrizə yerləşmişdi. Şah İsmayılın 1521 sənəsində verdiyi xüsusi bir əmrlə vəzifəsinə başlamış və oğlu Şah Təhmasib dövründə dəxi bu mövqeyini mühafizə etmişdi.

Behzad ilə bərabər Ağa Mirək Təbrizi, Sultan Məhəmməd Təbrizi, Müzəffər Əli Nəqqaş və Hafiz Təbrizi gibi istedad sahibi rəssamlar dövrün rəssamlıq sənətinə qəti şəkil və üslubunu vermişlərdi. Bu üslubun xarakteristik vəsfi rəssamlıqla ədəbiyyatın əl-ələ yürüməsidir. Rəssamlıq başlıca surətdə miniatürçülüyə təmayül göstərdiyindən poemlərdəki lirik səhnələrin bütün incəliklərilə təsviri və canlandırılması icab ediyordu. Bu isə rəssamın, eyni zamanda ədəbi zövq və qərihə sahibi olması ilə mümkündü. Hal-hazırda Avropa müzelərində örnəkləri mühafizə olunan bu miniatürlər ixtisas sahiblərincə birər yüksək sənət əsəri olaraq dəyərləndirilməkdədir.

Böyləcə görüyorsunuz ki, Şah İsmayıl yalnız qılıncı ilə ölkələr fəth edib müəzzəm bir səltənət quran hökmdar deyil, eyni zamanda qələmilə, ədəbi dühası ilə və dərin sənət zövqü ilə türk camiəsinə hizmət etmiş böyük bir simadır. Müddət etibarilə qısa sürən ömrü siyasi və kültürəl səmərələri yönündən çox zəngin olmuşdur. O, həm böyük bir dövlət qurmuş və həm bu dövlətin yaşaması və gəlişməsi için gərəkən ideolojik və kültürəl qüvvətləri hərəkətə keçirmişdir.

Şah İsmayıl türk tarixində qədrü qiyməti əsla küçümsənəməyəcək qədər mühüm bir yer işğal etməkdədir. Onun şəxsiyyəti və rolu mütaliə edilirkən, həyatının və fəaliyyətinin bütün səfhələri göz önündə bulundurulmalıdır.

[2] Burada Kəmaləddin Behzadın doğum və vəfat tarixləri yanlış qeyd edilmişdir. 1450-1535 olmalıdır. – *N.C.*

AZƏRBAYCAN ƏDƏBİYYATINDA VİDADİ VƏ VAQİFİN YARADICILIĞI

Əziz arkadaşlar!

Bugünkü konfransımızın konusu Azərbaycanın iki böyük şairi Vidadi və Vaqifin yaradıcılığıdır. Müsaidənizlə hər iki şairin əsərlərini birlikdə mütaliə edəcəyiz. Çünki aralarında mövcud sıkı dostluq və həmşəhrilik bağlarından başqa, ədəbi bənzəyişləri də az deyildir. Üstəlik, şeirlərinin önəmli bir qismi bir-birinə xitabən və ya nəzirə olaraq yazılmışdır. Yalnız hər konfransımızda olduğu gibi, bu səfər də dövrün qeydədəyər vəsflərini bəlirtmək surətiylə sözə başlamaq istəriz.

Vidadi və Vaqif on səkkizinci əsrdə yaşamış və əsərlərini vücuda gətirmişlərdir. Bilindiyi gibi, on səkkizinci əsr Azərbaycan ölkəsinin tədricən İran əgəmənliyinə qarşı ayaqlandığı və müxtəlif xanlıqlar qurmaq surətiylə milli bağımsızlığını yenidən qazanmağa başladığı bir dövrdür. İran əgəmənliyi Azərbaycanın ekonomik və kültürəl yaşayışını getdikcə sarsmaqda və milli gəlişməsini büsbütün əngəlləməkdə idi. Üstəlik, iqtisadən kötü durumda bulunan İran maliyyəsini düzəltmək için şahların tabe ölkələrə qarşı tətbiq etdikləri ağır vergi sistemi məmləkət ekonomisini bir xeyli sarsmaqda idi. Bütün bu hallar Azərbaycanda istiqlal mücadiləsinin yenidən canlanması və gəlişməsi için gərəkən imkan və şərtləri hazırlamaqda idi.

Daha on səkkizinci əsrin birinci yarısında Şəki xanlığı qurulmuşdu. Bu yeni dövlət nüvəsinin müəssisi Hacı Çələbi xan 1743 sənəsində İranın Şəkidəki müməssili Məlik Nəcəfi qətl etdirərək bağımsız bir xanlıq vücuda gətirmişdi. Türk Əfşar əşirətindən bulunan ozamankı İran hökmdarı Nadir şah Hacı Çələbi xanın bu cəsarəti üzərinə 1747 sənəsinə qədər bir kaç kərə Şəki xanlığına qarşı təərrüzə keçmişsə də, heç bir nəticə əldə edəməmişdi. O zamanın tanınmış şairlərindən şəkili Nəbi Çələbi xana xitabən yazdığı bir şeirində Nadir şahın uğradığı bu başarısızlığı şu misralarıyla ifadə etmişdir:

Şah Nadir çün gətirdi üstünə yüz min süvar,
Sən bərabər cəngə durdun, kimdə var bu ixtiyar?!
Döndü getdi, hiclətindən axir oldu şərmisar.

Nadir şahın öldürülməsindən sonra Azərbaycandakı istiqlal hərəkatı daha böyük bir sürətlə gəlişmiş və Qarabağ, Quba, Bakı, Talış, Dərbənd, Naxçıvan, Şəki-Şirvan, Maku və Xoy xanlıqlarının qurulmasıyla nəticələnmişdir. Hətta Şəki, Qarabağ və Quba xanlıqlarının başında duran qüvvətli şəxsiyyətlər sadəcə kəndi torpaqlarını İran boyunduruğundan qurtarmaqla qalmamış, eyni zamanda bir tək Azərbaycan dövləti qurma yolunda geniş və cürətkaranə təşəbbüslərə girişmişlərdir. Məsəla, Nadir şahın ölümü üzərinə bir xeyli qüvvətlənmiş bulunan şəkili Hacı Çələbi xan orduları Təbriz şəhərini də kəndi torpaqlarına ilhaq etmişlərdir. Qubalı Fətəli xan həyatının tam otuz [bir] yılını (1758-1789) Azərbaycanın birləşdirilməsi işinə həsr etmiş və Ərdəbilə qədər bütün Xəzər boyu xanlıqlarını bir dövlət halına gətirmişdi.

Xanlıqlar dövrü Azərbaycanın siyasi yaşayışında olduğu gibi, mədəni-ədəbi həyatında da bir dönüm nöqtəsi təşkil etmişdir. Böyük Azərbaycan şairi Şah İsmayıl Xətainin yaratmış olduğu xalq lisanına dayanan sadə və açıq şeir üslubu Vaqif və Vidadi gibi söz ustadlarının çalışmaları nəticəsində daha da gəlişmiş və xalq ədəbiyyatıyla birləşərək farsca və ərəbcənin təsirlərindən getdikcə daha fazla sıyrılan milli-ədəbi bir okul vücuda gətirmişdir. Bu realist ədəbi okulun ən bariz vəsfləri Vaqifin əsərlərində müşahidə edildiyi için adına «Vaqif okulu» denilmişdir. Vaqifin şeiri həm şəkil və həm də möhtəva baxımından milli və məhəlli bir mahiyyət daşımaqdadır. Onun içindir ki, bu yeni şeir tərzi həm zamanın sənətkarları, həm də xalq tərəfindən dərhal mənimsənmiş və sevilmişdir.

Vidadinin hal tərcüməsi

Mərhum Firidun bəy Köçərlinin verdiyi bilgilərə görə, Molla Vəli Vidadi Qazax qəzasının Şıxlı köyündə 18-ci əsrin ilk yıllarında dünyaya gəlmişdir. Doğduğu yıl sərahətən bəlli olmamaqla bərabər, Molla Pənah Vaqifin müasiri və dostu bulunduğu və yaşca ondan daha böyük olduğu məlumdur. Bu cəhət Vaqifin Vidadiyə xitabən yazdığı bir qəzəlindən də anlaşılmaqdadır. Vaqif bu qəzəlində dostu Vidadiyə xitabən şöylə diyor:

Eşqə düşmək sənə düşməz, qocalıbsan, belə dur,
Belə işlər genə Vaqif kimi oğlana düşər!

Vidadi də Vaqifə cavabən yazdığı qəzəlində:

Nə qədər olsa qoca gərçi Vidadi xəstə,
Genə Vaqif kimi, əlbəttə, yüz oğlana dəyər!

– demişdir.

Vidadinin babası Məhəmməd Ağa ismində bir zatmış. Şair yüz yılı aşan ömrünün böyük bir qismini doğduğu Şıxlı köyündə ibadət və təqva ilə keçirmişdir. Dindar və yüksək əxlaq sahibi bir insan olduğu için doğrunu sevər və onu hər kəsə qarşı müdafiə etməkdən çəkinməzmiş. Buna rəğmən, hər kəscə sayılır və sevilirmiş. Geniş elmi və rəvan bir təbi varmış. Bir ara Vaqifin dəvəti üzərinə Qarabağa getmiş və orada yenə dostunun təvəssütüylə əski Cavanşir qəzasının «Gülüstan» adıyla məşhur mahalında bulunan kiçik bir xanlığın hizmətinə daxil olmuş və xan tərəfindən sevgi və sayğı görmüşdür. Bu hadisəni Vaqif ilə Vidadi arasında vüqu bulan bir müşairə də təyid etməkdədir. Bu müşairədə Vaqif dostuna xitabən mizah yolu ilə şöylə diyor:

Belə dursan o qapıda qışü yaz,
Yetişərsən bir çörəyə sərəfraz.
Doğru budur, bundan əyilsən bir az,
Yəqin bil ki, çox xəyanət eylərsən.

Xanın məhəbbətin könlündə yatır,
Bit yeyər ətini, olarsan qotur,
Tərpənmə yerindən, əlbət, bərk otur,
Vay halına, bir hərəkət eylərsən...

Evini, malını yadına salma,
Xan izin versə də, boynuna alma,
Ömərin, Osmanın qaydına qalma,
Sözlərini bidəyanət eylərsən!

Cavanşir xəlqiylə ol qohum-qardaş,
Qazağın sözünü heç eyləmə faş.
Demənəm, dinini eylə «Qızılbaş»,
Əqlin olsa, özün, əlbət, eylərsən!

Söylədiyinə görə, Vidadi bir müddət də Gürcüstan kralı İkinci İraklinin sarayında iqamət etmişdir. Fəqət qeydəşayan olan cəhət şudur ki, Vidadi heç bir zaman saray şairi olmamış, azad təbiəti, fəqir köy həyatını və sakin kulubəsini dəbdəbəli saray yaşayışına tərcih etmiş və bütün sevgisini kəndi xalqına vermişdir. Şairin ən kədərli günləri saraylarda keçirdiyi günlər və ən kötümsər şeirləri də o sıralarda yazdığı parçalar olmuşdur. Məsəla, Vidadi qürbətdə yazdığı şeirlərindən birində şöylə diyor:

Vidadi, xəstəyəm, günlər sayaram,
Dərd əhliyəm, qəm hərfini qanaram,
Qəriblikdə yada düşər yanaram:
Aşina, yoldaş, yar, müsahib ellər hey!...

«Qəm hərfini qanaram» təbirindən şairin məqsədi qəm və kədərlə ünsiyyət etmiş olmasını və yalnız hüznəngiz konuşma və hekayələrdən xoşlandığını bəlirtməkdədir.

Bir başqa parçasında şairin yurd həsrəti daha bariz bir şəkildə ifadə olunmaqdadır:

Ağla, didəm, qanlı yaşın sel olsun,
Gizli dərdin söyləməyə dil olsun,
Kimim vardır qohum-qardaş, el olsun,
Qərib öldüm, bikəs öldüm, yad öldüm!

Vidadiyəm, təbib yaram bağlamaz,
Sinəm başın düyünləməz, dağlamaz,
Yad yığılar, sərin baxar, ağlamaz,
Qərib öldüm, bikəs öldüm, yad öldüm!

Molla Vəli Vidadi Vaqifdən təqribən on iki sənə sonra, yəni 1809 yılında Şıxlı köyündə vəfat etmiş və Gəmi qayası ismiylə tanınan məzarlıqda dəfn edilmişdir. Məzar daşı üzərinə şu beyti yazılmışdır:

Kim Vidadi xəstənin qəbrin görüb etsə dua,
Edə Haqq rəhmət, şafi ola Məhəmməd Mustafa!

Vidadinin əsərləri

Vidadinin əsərlərini iyicə anlaya bilmək için dövrünün özəl şərtlərini göz önündə bulundurmaq icab edər. Yuxarıda qeyd etmiş olduğumuz gibi, şairin yaşadığı dövr Azərbaycanın çətin və qanlı mücadilələr yapdığı bir dövrdür. Bir tərəfdən Azərbaycan xalqı İran əgəmənliyinə qarşı ayaqlanmaqda və müstəqil xanlıqlar qurmaq surətiylə qismən də olsa milli bağımsızlığını sağlamaqdadır. Şəki, Qarabağ və Quba xanlıqları Azərbaycanı kəndi idarələri altında birləşdirmək qayəsiylə həm İrana qarşı və həm də infiradçı zehniyyət daşıyan yerli xanlara qarşı savaş açıyorlar. Bu üzdən Azərbaycanda iç savaşlar getdikcə alovlanmaqda və xalqın fəqrü-səfaləti get-gedə artmaqdadır.

Əlbəttə, bu qarışıq durumdan İran şahları da istifadəyə çalışıyor və Azərbaycan üzərində əski hakimiyyətlərini təkrar qura bilmək için bütün qeyrətlərini sərf ediyorlar. İlk öncə Nadir şah 1743-1747 sənələri arasında bir kaç kərə Şəki xanlığına saldırıyor. Daha sonra 1796 və 1797 sənələrində Ağa Məhəmməd şah Qacar iki kərə Qarabağ xanlığına qarşı təərrüzə keçiyor. Ağa Məhəmməd şah 1796 sənəsində vüqu bulan ilk saldırışında müstəhkəm Şuşa qalasını zəbtə müvəffəq olamıyor və Gürcüstanın başkəndi Tiflis üzərinə yürüyərək bu şəhəri fəth və yağma ediyor. Daha sonra qış mövsümünü keçirmək və baharda yenidən Qarabağa saldırmaq niyyətiylə Muğan çölünə gediyorsa da, Şiraz və Kirman vilayətlərində ayaqlanmalar çıxdığı xəbərini alaraq İrana dönüyor. O sıralarda rus sərdarı general Zubov imperatriçə Katerinanın (Yekaterina – *N.C.*) əmriylə Gürcüstan kralı İraklinin yardım istəyinə icabət etmək üzrə Dərbənd şəhərinə varıyor və orasını zəbt etdikdən sonra, Salyana hərəkət ediyor və mütəaqibən ordusuyla birlikdə Şamaxı həvalisində qərargah quruyordu. Böyləcə, Azərbaycan ölkəsi daha İran əsarətindən tamamən qurtulamadığı halda, yeni və qorxunc bir düşmənlə qarşılaşmış oluyordu.

Ağa Məhəmməd şah 1797 sənəsində ikinci dəfə olaraq Şuşa qalasına saldırıyor. Bu səfər Qarabağda hökm sürən aclıq və qıtlıq afəti də kəndisinə yardım ediyor. Qarabağ hökmdarı İbrahimxəlil xan bu qədər güc şərtlər daxilində qüvvətli və mücəhhəz İran ordusuna qarşı qoyamayacağını bildiyi için Şuşa qalasını tərk [ediyor] və Dağıstan tərəflərinə çəkiliyor. Vidadinin səmimi dostu Molla Pənah Vaqif şahın əmri ilə tövqif ediliyor. Ağa Məhəmməd şah Vaqifi, tövqifinin ertəsi günü

öldürtməyə qərar vermişkən, qədərin ani bir cilvəsiylə bizzat kəndisi gecələyin məiyyəti tərəfindən qətl ediliyor. Fəqət bu səfər Vaqif Qarabağda iqtidarı ələ keçirmiş bulunan İbrahim xanın yegəni Məhəmməd bəy tərəfindən fəci bir surətdə öldürülüyor. Bu hadisə Vidadi üzərində çox acı bir təsir bırakıyor. Ötə tərəfdən, həm kəndi və həm də Vaqifin səmimi dostu bulunan Şəki-Şirvan xanı və şair Hüseyn xan Müştaqinin (Müştaqın – *N.C.*) öz amcası Hacı Əbdülqədirin hiylə və dəsisələri nəticəsində öldürülmüş olması Vidadinin qəlbində dərin bir yara açmış bulunuyordu. Hüseyn xan Müştaqi Azərbaycan xalq ədəbiyyatından geniş ölçüdə faydalanmasını bilən qüvvətli bir şair və eyni zamanda ağıllı, tədbirli, adil və mütədəyyin bir hökmdardı. Müştaqinin xalq ədəbiyyatını örnək alaraq yazmış olduğu gözəl qoşmalar zamanının aşıqları tərəfindən sevə-sevə söyləniyormuş. Vidadi Hüseyn xan Müştaqinin şəxsində aradığı adil və dindar bir hökmdar tipini bulmuş və onun həm gözəl şeirlərinə, həm mükəmməl idarəsinə məftun olmuşdu. Çünki Vidadinin fikrincə, məmləkətin hürriyyət və səadətə erişməsi için hökmdarın həm ağıllı və bəsirətli, həm də adil və mütədəyyin olması başlıca şərtdir.

İştə, Vidadi bu şərtlər altında yaşamış və əsərlərini yazmışdır və şeirlərindəki ümidsizlik, kötümsərlik və xəyal qırıqlığı da bu durumdan irəli gəlmişdir.

Vidadinin ən qüvvətli şeirlərindən birisi Hüseyn xan Müştaqinin qətli hadisəsini təsvir edən uzun müxəmməsidir. Bu müxəmməs şu şəkildə başlar:

Gəl, könül, bir ibrət al, bu gərdişi-dövrana bax,
Cami-heyrətdən dəmi mahmur olub, məstana bax,
Tut təfəkkür damənin, bir dəm dili-heyrana bax,
Kimsəyə qılmaz vəfa, bu dəhri-bipayana bax,
Olma mamurinə rəqib, axiri-virana bax!

Bivəfadır mülki-dünya, malına aldanma çox,
İzzü-cahü-dövlətü-iqbalına aldanma çox,
Tutma ümid əqlü-fəhm, əhvalına aldanma çox,
Qomu-qardaşü rəfiq əhvalına aldanma çox,
Hər biri bir rəmz ilə səndən olur biganə, bax.

Şərhi bimümkün gəlüb-getmiş cahana çox hümam,
Hər bir əsrində bir sahib hünər, ali məqam:

Şah ola, istər gəda, divanə, ya əhli-nizam,
Yetməmiş məqsuduna aləmdə heç ərbabı-nam ,
Cümləsin məqtul edüb, bu bisərü-samana bax!...

Vidadi eyni müxəmməsində dostu Hüseyn xan Müştaqinin şəxsiyyətini şu şəkildə təsvir ediyor:

Noldu gör ol sərvəri-dövran, əmiri-möhtərəm,
Mənbəyi cudü-səhavət, maədəni-lütfü kərəm,
Mərdi-meydan, əhli-ürfan, sahibi-tiğü qələm,
Ərsayi-rəf'ətdə guya kim dikilmiş bir ələm,
Hakimi-Şirvan-Şəki, yəni Hüseyni-xana bax!..

Bu misralardan Hüseyn xan Müştaqinin son dərəcə cəvanmərd bir hökmdar, savaşqan bir əsgər, həm qılıncını, həm də qələmini qüvvətlə kullanmasını bilən elm və irfan sahibi bir şair olduğunu görüyoruz. Müxəmməs şu misralarla sona eriyor:

Belədir dövran işi, hər gündə bir al eyləmiş,
Aqili-nadan ilə pəjmürdə əhval eyləmiş,
Üz verüb namərdə, hərdəm mərdi pamal eyləmiş!
Ey Vidadi, gəl ki, bu heyrət məni lal eyləmiş,
Gör nələr qıldı fələk Müştaqi tək insana bax!

Klassik şeir üslubunda Vidadinin yazdığı digər böyük mənzuməsi şu müsəddəsidir:

Gəl çəkmə cahan qeydini sən, can belə qalmaz,
Qan ağlama çox, dideyi-giryan belə qalmaz,
Gül vaxtı keçər, seyri-gülüstan belə qalmaz,
Hər ləhzə könül xürrəmü xəndan belə qalmaz!
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz!

Əzbəs bu camal ilə ki, canan ola fani,
Bu şivə ilə qəddi-xuraman ola fani,
Bu gərdəni-xoş, zülfü-pərişan ola fani,
Bu əhsəni-surətdə ki, insan ola fani!

Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz!

Sultanı-cahan olsa, gedər canə, inanma,
Bir gün pozulur şövkəti-divanə, inanma,
Çün baqi deyil, mülkü-süleymana inanma,
Gər aqil isən, gərdişi-dövrana inanma!
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz!

Yüz mövsümi xoş, xürrəm olub illər açılsa,
Yüz lalə bitib, süsəni sünbüllər açılsa,
Yüz bağı cahan tazələnüb güllər açılsa,
Könlüm ki açılmaz, neçə müşküllər açılsa!
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz!

Fikr etsən əgər dəhrin işi bəhri-bəladır,
Bir dürri giranmayəsi min cana bahadır,
Hər nəqşi bir ayineyi-isbatı-xudadır,
Məqsudi-dü aləm yenə təhsili-rizadır!
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz!

Ey xəstə Vidadi, bu cahan bir quru səsdir,
Bir dəmdə keçir, öylə ki fəryadi-cərəsdir,
Bu bəzmi-fənadə bu nə həngami-həvəsdir?!
Gəl durma ki, ömrün keçir, əncami-nəfəsdir!
Bir cam yetir, saqi, bu dövran belə qalmaz,
Tən bir gün olur xak ilə yeksan, belə qalmaz!

Molla Pənah Vaqifin: *«Kim ki sevdayi-səri zülfü-pərişana düşər...»* mətləli qəzəlinə Vidadi şu gözəl şeiriylə müqabilə etmişdir:

Hər səhər bad əsər, arizi-cananə dəyər,
Toxunur sərvə gəhi, gah gülüstanə dəyər.

Olmasa qabil əyər, dəhr cəfa verməz ona,
Tə'm biləzzət olanda necə dəndanə dəyər?!

Şəm gər yansa savadi-şəb üçün heyf olmaz,
Şöləsi çünki onun arizi-cananə dəyər.

Söhbəti-nakəsü-namərd həmin söhbət imiş,
Tut ki, bir mərd ətəyin dövləti-xaqanə dəyər.

Mən ki meydani-bəla içrə sərim top edərəm,
Ta düşər əldən-ələ, axırı çövkanə dəyər.

Nə qədər olsa qoca gərçi Vidadi xəstə,
Genə Vaqif kimi, əlbəttə, yüz oğlana dəyər.

Klassik şeir sahəsində bunca məharət göstərən Vidadi əsas etibarilə qoşmalar şairidir və bu vadidə daha çox müvəffəq olmuşdur. Məsəla, Vidadinin bir qoşması şöylə başlar:

Ey sevgilim, səni qana qərq eylər,
Gəl, tərpətmə yaralanmış könlümü.
Ayrı düşmüş vətənindən, elindən,
Həmdəmindən aralanmış könlümü.

Şair bir başqa qoşmasında şöylə der:

Könül səbrü-qərar etməz,
Gedər yar olmayan yerdə.
Məhəbbət payidar olmaz,
Vəfadar olmayan yerdə.

Vəfa qıl bir vəfadara,
Ulaşma hər biiqrara,
Mətanın atma bazara,
Xiridar olmayan yerdə.

Yenə Vidadinin digər bir qoşmasında şöylə denilməkdədir:

Mərdlər ilə gəz ki, vəfadar olur,
Nakəslərə yoldaş olan xar olur.
Namərd olan yaxşı gündə yar olur,
Yaman gündə baxmaz, ötər yan ilə.

Vidadinin fikirlərini və görüş tərzini xülasə edəcək olursaq, deyə biliriz ki, şair hər şeydən öncə dünyanın fani olduğuna qanedir. Ona görə, dünyanın malına, mülkünə, mövqe və iqbalına, yaxın və ya uzaq insanlarına güvəniləməz. Bunların həpsi keçici və vəfasızdır. Minlərcə sənədən bəri dünyaya gəlmiş və getmiş bulunan bunca himmət və hünər sahiblərindən, yüksək mövqelər işğal etmiş və nam bırakmış zəvatdan heç birisi nəticə etibarilə kəndi məqsədinə nail olmamışdır. Fəqət dünya, eyni zamanda müəzzəm bir ibrətxanədir. Onun hər «naxışı» Tanrının varlığını isbat edən bir ayinədir. Dünya və axirətdən yeganə qayə və məqsəd Allahın rizasını və xoşnudluğunu cəlb etməkdir.

Şair bir şeirində kəndi-kəndinə xitabən şöylə der:

Vidadi xəstə, gəl ədna sifət dünyaya meyl etmə,
Qıl, ağlın var isə tərkin, bu dünyadan nə istərsən?!

Bir başqa şeirində Vidadi:

Vəfa yoxdur, Vidadi xəstə, əslən nəsli-insanda,
Vəli bihudə bir sözdür deyərlər laf arasında.

– demişdir.

Fəqət bu ruh haləti sadəcə Vidadiyə münhəsir qalmamışdır. Dövrün və mühitin faciə və haqsızlıqlarından inləyən hər kəs onun gibi düşünmüşdür:

Demə, ey dil, cahanda yox mənim tək dəhr pamalı,
Nə vardır aləmi-möhnətdə sən tək dərbədərdən çox?!

Molla Pənah Vaqifin hal tərcüməsi

18-ci əsr Azərbaycan ədəbiyyatının ən bariz siması bulunan Molla Pənah Vaqif 1717 yılında Qazax bölgəsinin Salahlı köyündə doğmuşdur. Firidun bəy Köçərliyə görə, Salahlı köyü Molla Pənah Vaqifin zamanında Kür nəhrinin sağ qıyısında və nəhrə pək yaxın bir məsafədə bulunuyormuş. Fəqət nəhrin zamanla yapdığı daşqınlar və yıxımlar üzündən köy tədricən daha gerilərə və kənarlara nəql edilmişdir. Vaqifin babası Mehdi oğlu adıyla anılıyormuş. Bu soydan gələn Mehdi

oğulları Firidun bəy Köçərli zamanında belə eyni Salahlı köyündə oturuyorlarmış. Gənc Vaqifin əqrəbaları Salahlı köyünün gözəl və səfalı bir parçasını təşkil edən Sarıqamış məhəllində iqamət ediyorlarmış. Bütün bu xüsuslar Vaqifin şu parçasıyla dəxi təyid olunmaqdadır:

Vətən xoşdur, deyə Vaqif, məni çəkdin Salahlıya,
Nədir onda səlahın kim çü yari-canfəza yoxdur...

Əzəl başdan şəkər ləblər olurdu Sarıqamışda,
Gəlib sordum sorağın, imdi onlardan səda yoxdur.

Bu parça Molla Pənah Vaqifin Qarabağ hökmdarı İbrahimxəlil xanın məiyyətində Tiflisə səyahət edərkən yol üzərində bir ara kəndi köyünə uğradıqdan sonra edindiyi intibanı ifadə etməkdədir.

Vaqifin gənclik həyatı haqqında əlimizdə hər hangi bir bilgi yoxdur. Yalnız 1759 sənəsində Doğu Gürcüstan hökmdarı İraklinin Qazax üzərinə saldırması nəticəsində bir çox köy xalqı ilə birlikdə Vaqifin də köç edərək Qarabağ xanlığına sığındığını biliyoruz. İştə, Vaqif haqqındakı bilgilərimiz bu köç tarixindən sonra başlar.

Qarabağa vardıqdan sonra Vaqif Cavanşir bölgəsinin Tərtərbasar mahalında yerləşərək, təqribən on sənə oturmuş və xalqa ərzi-hal yazmaqla və mədrəsə açıb çocuq oxutmaq surətiylə keçinmişdir. Daha sonra şair Şuşa şəhərinə getmiş və Saatlı məhəlləsində bir mədrəsə təsis edərək tədrisə başlamışdır. O sənələrdə həyatının epeycə ağır keçdiyinə şu şeiri dəlalət etməkdədir:

BAYRAM OLDU

Bayram oldu, heç bilmirəm neyləyim...
Bizim evdə dolu çuval da yoxdur.
Düğüylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.
Allaha biz imişik naşükür bəndə,
Bir söz desəm, dəxi qoymazlar kəndə.
Xalq batıb noğula, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.
Bizim bu dünyada nə malımız var,
Nə evdə bir sahibcamalımız var.

Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

Fəqət Vaqif geniş bilgi və düha sahibi bir şair bulunduğu için qısa bir zamanda Qarabağın əyan və əşrəfi arasında böyük bir şöhrət və etibar qazanmış və bu vəsilə ilə İbrahimxəlil xanın lütfü-etibarına məzhər olaraq eşik ağalığına təyin olunmuşdur. Daha sonra şair sürətlə yüksələrək İbrahimxəlil xanın başlıca siyasi müşaviri olmuşdur.

Vaqif dövründə Qarabağ xanlığı kültür və siyasət sahələrində erişdiyi başarılarla Azərbaycanda mühüm bir mövqe qazanmış bulunuyordu. Nadir şah İranda səltənəti ələ keçirdikdən sonra kəndisinə bir dürlü boyun əyməyən Qarabağ əşirətlərini Xorasan əyalətinin Sərxəs bölgəsinə sürdürmüş və bu əşirətlərin başbuğu sandığı Pənahəli bəyin qətlinə fərman vermişdi. Fəqət qayət ehtiyatlı, tədbirli və cəsur bir savaşçı bulunan Pənahəli bəy şahın fərmanını duyar-duymaz kəndi adamlarıyla birlikdə dağlara çəkilmiş və İran təhəkkümünə qarşı mücadiləsinə davam etmişdi. Nadir şahın qətli üzərinə Sərxəsə sürülən Qarabağ əşirətləri kəndi ana yurdlarına dönmüş və Pənahəli bəyin ətrafında birləşərək onu bağımsız bir xanlıq qurma təşəbbüsündə qüvvətlə dəstəkləmişlərdi. O sıralarda İran tacına tabe bulunan bütün digər ölkələrdə olduğu gibi, Azərbaycanın müxtəlif qisimlərində dəxi hürriyyət və bağımsızlıq hərəkatları yenidən canlanmışdı. İran tərəfindən bütün haqq və səlahiyyətləri çeynənmiş əski Azərbaycan xanlıqları təkrar qalxınaraq qüvvətlənməyə başladıqları gibi, kiçik və böyük bir taqım yeni xanlıqlar da qurulmuşdu. Xanlar arasında kəndi yurdlarını yabançı boyunduruğundan qurtarmağa, hürr və bağımsız bir həyata qovuşdurmağa çalışan səmimi və həqiqi başbuğlar bulunduğu gibi, təsadüf və hadisələrin verdiyi imkanlardan faydalanaraq iqtidar mövqeyinə keçməyə can atan və bu uğurda hər dürlü qurnazlıq, ihanət və alçaqlıqdan çəkinməyən bir taqım qolay fürsət düşkünləri də vardı. Bu üzdən qurtuluş hərəkatı ilə birlikdə iç savaşlar və anarşi də ala bildiyinə gəlişiyordu.

Pənahəli xan bütün bu vəziyyətləri və bilxassə İrandan gələn yeni təhdidləri düşünərək, 1757 sənəsində Şuşa qalasını inşa etdirmişdi. Bu şəhər başlanğıcda qurucusuna izafətən Pənahabad adlanıyormuş. Nitə-

kim, Qarabağ xanlığının kəsdirdiyi gümüş paralara da Pənahabad deniyormuş. Fəqət sonradan şəhər civarındakı bir köyün isminə izafətən Pənahabad yerinə Şuşa adı xalq arasında yerləşmişdir. Şuşa qalası təbii mövqeyi etibarilə müstəhkəm, ətrafı yalçın qayalar və uçurumlarla çevrili və zəbti pək güc bir yerdi. Eyni zamanda havası mötədil və sağlam və yaşayış şərtləri müsaid bulunuyordu. Pənahəli xan zamanında İran ordusunun Şuşa qalasına qarşı girişdiyi bütün hücumlar akim qalmışdı.

Pənahəli xandan sonra Qarabağ xanlığının idarəsini kəndi əlinə alan böyük oğlu İbrahimxəlil xan babası qədər yabançı boyunduruğuna müxalif, hürriyyət və istiqlal tərəfdarı bir hökmdardı. Qarabağı hər nevi yabançı təsir və nüfuzundan qurtarmağı şiddətlə arzu edən bu gənc xan yerli sənət və ədəbiyyatın gəlişməsinə gərəkən şərt və imkanları hazırlamaq qayəsiylə kəndi sarayına bilgin, şair, xanəndə, rəssam və nəqqaşları cəlb etməyə çalışıyordu. İştə, Vaqif İbrahimxəlil xanın kəndi sarayına cəlb etdiyi sənət və elm ərbabının başında gəliyordu. Vaqifin saraya cəlbi səbəbləri haqqında müxtəlif rəvayətlər dolaşmaqdadır. Bunlardan həqiqətə yaxın olanı şöylədir: Dövrünün kültürcə ən irəli insanlarından biri bulunan Vaqif bir çox elmlər yanında Şərqdə geniş rəğbət qazanan astronomiyə dəxi vüquf kəsb etmişdi. Söyləndiyinə görə, Vaqif ay tutulmasını və deprem vüqusunu öncədən təsbit edərək, dostu Vidadiyə xəbər vermişdi. Hər iki kəhanət doğru çıxınca Vaqifin şöhrəti saraya qədər yayılmış və İbrahimxəlil xanın qulağına yetişmişdir. Xan şairi dəvət edərək kəndisiylə konuşmuş və elm, fəzilət sahibi bir insan olduğunu görərək məiyyətinə almışdır.

Gerçəkdən, İbrahimxəlil xan kəndi intixabında yanılmamışdı. Çünki Vaqif qısa bir zamanda gərək sarayda, gərəksə geniş xalq təbəqələri və xüsusilə sənətkarlar arasında böyük bir şöhrət və sayğı qazanaraq, ən sonunda xanın baş vəziri məqamına qədər yüksəlmişdi:

Məkan tutdisə Vaqif, yox əcəb ba Şişə daşında,
Məkani-ləli-gülrəngin miyani-səngi-xaradır.

Bundan başqa, tanınmış alman müstəşriqi Adolf Berjenin ozamankı Güney Kafkasya müftisi Hüseyn əfəndi Qayıbovdan və Mirzə Fətəli Axundzadədən aldığı bilgilərə dayanaraq, 1867 sənəsində Leypsiqdə

nəşr etdirdiyi «Azərbaycan şairlərinin əsərləri və şeirləri»[1] başlıqlı kitabına baxılacaq olursa, Vaqif hənüz İbrahimxəlil xanın sarayına intisab etmədən öncə öyrətmənlik və şairliyiylə birlikdə memarlıq sənətindəki məharətiylə dəxi ün salmış bulunuyordu. Hətta Adolf Berjeyə görə, Şuşadakı Xan sarayı, hökumət binası və şəhər divanxanası doğrudan-doğruya Vaqifin əsərləridir.

Gərçi Vaqifin memarlığı haqqında başqa qaynaqlarda hər hangi bir işarət mövcud deyilsə də, dostu Vidadi kəndisi ilə yapdığı müşairəsində şöylə bir lisan kullanmaqdadır:

Hərgiz olmaz Haqq gölünün fənası,
Əksik olmaz yaşıl başlı sonası.
Məhşərəcən qaim olsun binası
O məscid ki, doğru imarət eylərsən!

Bu misralar alman bilginin iddiasını təyid edər mahiyyətdədir. Vaqifin saraya gəlişi bir yandan kəndi irəliləməsinə və yüksəlməsinə geniş imkanlar hazırladığı gibi, ötə yandan da Qarabağ xanlığının güddüyü politika üzərində qüvvətlə müəssir olmuşdur. Vaqif həyatının təqribən qırx sənəsini İran kültür nüfuzundan nisbətən daha uzaq bulunan Qazax bölgəsində keçirmişdi. Bunun içindir ki, şair Qarabağ xanlığının mənən və maddətən İran nüfuzundan qurtulması və hər nevi yeni basqın və istila təşəbbüslərindən qorunması için ciddi tədbirlərə baş vuruyordu. Vaqif hər şeydən öncə şeir və sənət sahəsində yerli ruhun, ana dilinin və məmləkət gələnəklərinin kök salmasına və sürətlə gəlişməsinə çalışıyordu. Sonra Vaqif kiçik Qarabağ xanlığının koca İran səltənətinə yalnız başına qarşı qoyamayacağını düşünərək diplomasi məharətini kullanıyor və bütün qonşu xanlıqları müştərək təhlükə qarşısında birləşdirməyə qeyrət ediyordu.

İştə, Vaqifin bu hümmalı çalışmaları nəticəsində Qarabağ, Talış, İrəvan və Doğu Gürcüstan xanlıqları arasında sağlam ittifaq bağları təsis olunmuşdu. Ağa Məhəmməd şah Qacar 1796 sənəsində Qarabağa qarşı ilk istila təşəbbüsünə girişirkən bu dördlü ittifaqla qarşılaşmış və müvəffəqiyyət şanslarının bir xeyli azalmış olduğunu anlamışdı. Şah

[1] «Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir» adlı nəşr nəzərdə tutulur. – *N.C.*

Şuşaya çox böyük bir ordu ilə saldırmışdı. Fəqət otuz üç gün sürən sıxı mühasirədən sonra, Şuşa aşılmaz bir maneə və sarsılmaz bir qala olaraq dimdik ayaqda duruyordu. Mühasirənin ən qızğın və ən şiddətli bir anında rəvayətə görə, Ağa Məhəmməd şah İbrahimxəlil xana xitabən şu beyti yazdıraraq göndərmişdir:

Zi məncəniyi fələk səngi fitnə mi-barəd,
Tu əbləhanə gərifti miyani Şişə qərar!

Yəni: Fələyin məncənəyi hər tərəfə bəla və afət daşlarını yağdırıb dururkən, sən axmaqcasına Şişə içinə sığınmışsın!

Molla Pənah Vaqif bu beyti oxur-oxumaz şahın göndərdiyi məktubun arxasına İbrahimxəlil xan adına şu cavabı yazıb geri yollamışdı:

Gər nigəhdari mən anəst ki mən mi-danəm,
Şişəra dər bağali səng nigəh mi-darəd.

Yəni: Məni hər zaman qoruyub barındıran o bildiyim Ulu Tanrı isə, camı daşın bağrında belə mühafizə etməyə qadirdir.

Bilindiyi gibi, bu beytlərdə «Şişə»dən məqsəd həm Şuşa qalası və həm də Azərbaycan türkcəsində cam mənasına gələn şişə və ya şüşədir.

Təbiətiylə şah bu bəklənmədik və sırf Vaqifin zəkasına xas bulunan cavabdan son dərəcə qızmış və yalçın daşlar və qayalar bağrında Ulu Tanrının qoruduğu Şuşa qalasını dəhşətli top atəşinə hədəf qılmışdır. Fəqət beyhudə! Şuşa bundan əsla mütəəssir olmamışdır. Üstəlik, Qarabağ xanlığının atlı və piyada qitələri heç durmadan İran ordusunun iaşə və ikmal yollarını kəsiyor, ani hücumları ilə düşmənə külliyyatlı zayiat verdiriyor və bir çox əsir alıyordu. Şah bir kaç kərə qalaya qarşı ümumi hücuma keçmişsə də, yenə müvəffəq olamamışdır. Nəhayət, Ağa Məhəmməd şah Qacar Şuşa qalasını alamayacağına qənaət gətirərək, yuxarıda da qeyd etmiş olduğumuz gibi, Tiflis üzərinə yönəlmiş və bu şəhəri zəbt və yağma etdikdən sonra qışı keçirmək üzrə Muğan çölünə çəkilmiş və yaz mövsümündə təkrar Qarabağ xanlığına saldırma əməlini bəslərkən, Lütfəli xan Zəndin Şiraz və Kirman vilayətlərində üsyan bayrağını qaldırdığını duyaraq, İrana dönmək zorunda qalmışdır.

Ağa Məhəmməd şahın 1797 sənəsində Şuşaya qarşı vüqu bulan ikinci saldırışı Qarabağı çox kötü bir durumda yaxalamışdı. Bir kərə Qarabağın müttəfiqləri bulunan Talış, İrəvan və Doğu Gürcüstan xanlıqları birər-birər məğlub edilərək İran boyunduruğuna alınmışlardı. 1796 sənəsində dörd xanlıqla birdən çarpışmaq zorunda qalan İran ordusu şimdi bütün qüvvətiylə Qarabağa saldırmışdı. Üstəlik, Qarabağ ölkəsinə fəci bir qıtlıq müsəllət olmuşdu. Bu durum qarşısında Qarabağın müqavimət qüdrəti bir xeyli sarsılmışdı. İran ordusunun üst-üstə yapdığı ağır hücumlara uzun müddət müvəffəqiyyətlə dayandıqdan sonra İbrahimxəlil xan aclıq və qıtlığın doğurduğu müşkül şərtlər daxilində xalqın müqavimət qabiliyyətinin getdikcə tükəndiyini görərək, Şuşa qalasını tərkə və Dağıstan ölkəsinə sığınmağa məcbur qalmışdı.

Ağa Məhəmməd şah Şuşa qalasına yerləşdikdən sonra İbrahimxəlil xanın tərəfdarlarını birər-birər öldürtməyə başlamışdı. O cümlədən tanınmış mühərrir Həşim bəy Vəzirovun qeyd etdiyinə görə, İbrahimxəlil xanın Qarabağı kəndi himayəsi altına almaq ricasıyla Osmanlı dövləti nəzdinə göndərdiyi elçi Mirzə Əli Məhəmməd ağa dəxi şahın əmriylə həmən qətl edilmişdi. Şah, bilxassə Vaqifə qarşı dərin bir xüsumət bəsləməkdə idi. Çünki onun İbrahimxəlil xan yanında işğal etdiyi mövqeyi və Qarabağın müdafiəsində oynadığı mühüm rolu pək iyi biliyordu. Şahın məqsədi şairi hər kəsə ibrət təşkil edəcək bir tərzdə öldürtmək və İbrahimxəlil xana qarşı bəslədiyi kin və hiddəti Vaqif üzərində tətbiq etmək olduğu için həmən o dəqiqədə qətl fərmanı verməmiş və Molla Pənahın edamını ertəsi gününə bırakaraq kəndisini zindana atdırmışdı. Fəqət bu bir gecəlik təxir Qarabağın və İranın olduğu qədər, Vaqifin və Ağa Məhəmməd şah Qacarın qədərlərini də dəyişdirməyə kafi gəlmişdi. Gecə yarısı şah kəndi adamları tərəfindən öldürülmüş və Vaqiflə birlikdə Qarabağ da qurtulmuşdu. Vaqif bu möcüzəni arkadaşı Vidadiyə şu şeirlə anlatmışdır:

Ey Vidadi, gərdişi dövrani-kəcrəftarə bax,
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!

Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmü adil padişahi-qadirü-qəhharə bax!

Sübh söndü şəb ki xalqa qiblə idi bir çıraq,
Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!

Taci-zərdən ta ki ayrıldı dimaği-pirqürur,
Payimal oldu təpiklərdə səri-sərdarə bax!

Mən fəqirə əmr qılmışdı siyasət etməyə,
Qurtaran məzlumu zalımdan o dəm Qaffarə bax!

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şaha, nə xunxarə bax!

Baş götür bu əhli dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dustə, nə də yarə bax!

Vaqifa, göz yum cahanın baxma xubi-zəştinə,
Üz çevir ali-əbayə, Əhmədi-Muxtara bax!

Fəqət yuxarıda da qeyd etmiş olduğumuz gibi, Vaqif möcüzəvi bir tərzdə müstəbid Ağa Məhəmməd şahın əlindən qurtula bilmişsə də, hadisələrin bəklənmədik gəlişmələri nəticəsində İbrahimxəlil xanın yegəni Batmanqılınc Məhəmməd bəy tərəfindən qətl edilmişdir. Məhəmməd bəy İbrahimxəlil xanın qardaşı Mehrəli bəyin oğlu idi, cəsarəti və igidliyi ilə tanınmış və xalq tərfindən sevilmiş bir zatdı. Fəqət söyləndiyinə görə, kəndisini qısqanan amcazadələri və əqrəbaları tərəfindən sevilmiyor və xana yaklaşmağa mane olmaq için sarayda daima kötüləniyormuş. Xanın iqtidar mövqeyində bulunduğu sıralarda Məhəmməd bəy Molla Pənaha qarşı hörmətkar davranıyor və onun təvəssüt və yardımına sığınıyormuş. Lakin eyni zamanda, Vaqifin kəndi bədxahları arasında bulunduğunu sanıyormuş.

Şahın qətlini mütəaqib İran istila ordusu pozulunca Məhəmməd bəy Cavanşir İbrahimxəlil xanın Qarabağda bulunmayışından faydalanaraq iqtidarı ələ keçirmiş və amcasının yenidən iş başına gəlməsini önləmək məqsədiylə onun tərəfdarları ilə şiddətli mücadiləyə başlamışdır. Əlbəttə, xan tərəfdarlarının başında Molla Pənah Vaqif gəliyordu. İbrahimxəlil xanın nüfuz və qüdrətini qırmaq için Məhəmməd bəy Cavanşir hər kəsdən öncə, böyük şairin vücudunu ortadan qaldırmağa qərar vermişdi. İştə onun verdiyi əmr üzərinə Molla Pənah Vaqif oğlu ilə birlikdə 1797 yılında Şuşanın doğu səmtində bulunan Cıdır düzündə zalımanə bir şəkildə öldürülmüş və evi də yağma edilmişdi. Vaqifin

Molla Pənah günbədi deyə anılan məzarı da eyni Cıdır düzündə bulunmaqdadır. Şair öldürüldüyü sırada səksən yaşında idi.

Vaqifin yaradıcılığı və görüşləri

Vaqifin gərək şeirinə, gərəksə hökumət idarəsinə hakim olan başlıca amil yurd sevgisidir. Şair bir dövlət adamı olaraq Qarabağ xanlığının İranın siyasi və iqtisadi hakimiyyətindən qurtulması uğrunda əzəmi qeyrət sərf etmiş və Ağa Məhəmməd şahın istila ordularına qarşı Şuşanın müdafiəsi için zamanında gərəkən tədbirləri almışdır. Sırf təbii fəlakətlərin və əzici qüvvət üstünlüyünün bir nəticəsi bulunan son məğlubiyyət nəzəri-etibara alınmayacaq olursa, Vaqifin İbrahimxəlil xan sarayında çalışdığı sənələr Qarabağ xanlığının zəfərlər qazandığı və başarılar qeyd etdiyi və eyni zamanda bizzat bu böyük şair tərəfindən bəslənən səmimi arzu və diləklərin çiçək açdığı bir dövr olmuşdur. İştə, Vaqifin ədəbiyyat sahəsindəki realizmi bu həqiqətlərdən irəli gəlməkdədir. Vaqif kəndi yurdunu olduğu gibi sevər. Yəni bu sevgidə vətənin bütün varlığı, təbiəti, gerçək insanları, həqiqi mühiti, gözəllikləri, özəl yaşayış tərzi, gələnək və görənəkləri olduğu gibi əks edər. Vaqifin təsvir etdiyi gözəllər hər gün rastladığı və tatlı-tatlı konuşduğu ceylan baxışlı, durna gözlü və sona cilvəli gerçək Azərbaycan gözəlləridir:

Sona cıqqası tək sərində teli,
Ağ gül yarpağı tək ayağı, əli.

Yaxud:

Zülfün başı taxtalanmış qabaqda,
Qıraq vermiş qəsəbənin altından,
Şahmar quyruğu tək qoşa qıvrılmış,
Ucu çıxmış zənəxdanın altından...
Mərcan qolbaqların gümüş biləyi,
Qucaqlamış kəhrəbanın altından...

Vaqifin şeirlərində təsvir edilən gözəl tipi kəndisindən öncə gələn şairlərin çizdikləri gözəl portrelərindən daha canlı və daha cazibdir. Ona görə, gözəl yalnız cismən və şəklən deyil, ruhən və qəlbən də gözəl olmalıdır. Gözəllik dış vəsflərlə iç vəsflərin ahəngli bir imtizacından ibarətdir. Gözəlin üzü və əndamı qədər əxlaqı da gözəl olmalıdır:

Sən gülsən, gülü sev, xarı istəmə,
Kamal istə, hərgiz varı istəmə!..

Vaqifə nəzərən, ağıl və kamal, vəfa, sədaqət və bağlılıq gibi əsil sifətlər gözəlliyin başlıca şərtləridir. Onun fikrincə, qadın erkəyin vəfalı, sədaqətli və müsavi bir arkadaşı olmalıdır:

Gözəl, sən tək belə şuxu şən gərək,
Həmdəmi də həm özünə tən gərək,
Sənə Vaqif kimi dərd bilən gərək,
Layiq görməm hər nadanı mən sənə!..

Yaxud:

Sevərəm sevəni can-ü başınan
Gözüm düşmənidir qaçıb yaşınan!..

Vaqifin gözəllik haqqındakı görüşləri bu şeiri ilə də təyid edilməkdədir:

Açıq başda olsa əgər bir dilbər,
Onda bu nişanlar müəyyən gərək:
Əndamı ayinə, qəddi mötədil,
Siyah zülfü qamətinə tən gərək.

Yanağı laleyi-bahari kimi,
Ləbləri yaqutun kənari kimi,
Bir danə nasüftə mirvari kimi,
Başdan ayağadək ağbədən gərək.

Təmizlikdə ola meylü həvəsi,
Olmaya aşiqə nazü qəmzəsi,
Gül təki qoxuya nitqü nəfəsi,
Zülfü ya bənəfşə, ya səmən gərək.

Qövli sadiq ola, hər feli halal,
Bilməyə kim, fitnə nədir, məkrü al
Şəm gibi qabaqda dura, nitqi lal,
Kəsilsə də başı, dinməyən gərək.

Növrəsidə on dörd, on beş yaşında,
Eyb olmaya kirpiyində, qaşında,
Həyası üzündə, əqli başında,
Ağzı, burnu nazik, üzü gen gərək.
Tavus kimi cilvələnə hər səhər,
Bəzək verə camalına sərbəsər,
Dindirməmiş verə könüldən xəbər,
İşarə anlayıb, hal bilən gərək.
Yaşadıqca cavanlana, yenlənə,
Bir hicabda, bir pərdədə əylənə,
Nitqü nəfsindən canlar dinlənə,
Qulluqda, söhbətdə müstəhsən gərək.

Vaqif yurdunun özəlliklərini, xalqının gələnək və görənəklərini və yaşayış tərzini idealizə etməkdə və bunları təşviq və təqviyyəyə çalışmaqdadır. Bundan qayəsi kəndi xalqında əgəmənlik və istiqlal eşqini, nəfsinə güvən hissini qüvvətləndirməkdi. Zira o dövrdə Qarabağ xanlığı yabançı hakimiyyətinə qarşı bir ölüm-qalım mücadiləsinə girişmiş bulunuyordu. Bu mücadilədə müvəffəq ola bilmək için, xalqın kəndi müstəqil milli varlığına, kəndi lisanına, ədəbiyyatına, tarixinə, adət və ənənələrinə güvənməsi və yabançı təsir və nüfuzuna qarşı bütün bunlara dörd əllə sarılması icab ediyordu. İştə, Vaqif Azərbaycan türkcəsində yazdığı canlı və oynaq şeirləriylə, Azərbaycan xalq həyatına dair verdiyi mükəmməl tablolarıyla, məmləkət adət və ənənələrini idealizə etmək surətiylə İran və hər hangi digər yabançı təsirlərinə qarşı meydan oxuyor və siyasi istiqlalın əsas təməlini təşkil edən bağımsız milli bir mədəniyyətin gəlişməsini sağlıyordu. Bu, irəliyə doğru böyük bir həmlə idi, geriliyi və durğunluğu təşviq deyildi. Çünki Vaqif, eyni zamanda Azərbaycan ictimai həyatındakı əksikləri də şiddətlə tənqid ediyor. Bu tənqid, bilxassə şairin yeni yurdu ilə əski yurdu, yəni Araz nəhri sahilləriylə Kür qıyıları arasında yapılan müqayisə selində kəndisini göstərməkdədir. Vaqifin tənqidləri, başlıca surətdə, Kür sahilində oturan köylü qadınlarının Qarabağ qadınlarına nəzərən geri durmalarını hədəf tutmaqdadır. Bu gibi tənqidlər heç bir surətlə istehza və ya istixfaf mahiyyətini daşımamaqda biləks, təəssür və təhəssürlə qarışıq bir öyüd şəklini almaqdadır. Nəticə etibarilə, şair əski yurdunu da ye-

nisi qədər məmur, mədəni və irəli görmək istiyor. Əsasən, Vaqif erişdiyi məqam və payə nə olursa-olsun, heç bir zaman xalq təbəqələrindən uzaqlaşmamış, xalqı xor görməmiş, köylüyə yuxarıdan aşağı istixfaf nəzəriylə baxmamış və şeirlərində xalqın konuşduğu lisanı və onun həyatını canlandırmağa çalışmışdır.

Vaqifin iyiniyyətli tənqidlərinə misal olaraq «Kür qırağı» qoşmasından şu parçaları alalım:

Kür qırağının əcəb seyrangahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur...
Çoxdur ağ bədənli, büllur buxaqlı,
Lalə zənəxdanlı, qönçə dodaqlı,
Amma şirin dilli, açıq qabaqlı
Könül aşinası, hayıf ki, yoxdur...

Pəri çoxdur, nə fayda, heç birinin
Adamlıq ədası, hayıf ki, yoxdur...

Qış günü qışlağı Qıraqbasanın
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın,
Bir gözəl obası, hayıf ki, yoxdur!..

Yenə bu misralardan görüyoruz ki, Vaqifə nəzərən, gözəlin sadəcə ağ bədənli, lalə zənəxdanlı və qönçə dodaqlı olması kafi deyil, eyni zamanda tatlı dilli, gülər üzlü, könül aşinası və insan ədalı, yəni kültür və tərbiyə görmüş bulunması iqtiza edər.

Vaqifin eyni nevidən tənqidlərinə dostu Vidadiyə yazdığı bəzi şeirlərində dəxi təsadüf edilməkdədir:

Bizim hərəmlərdir Quran oxuyan,
Üstündən, başından ənbər qoxuyan,
Olar deyil örkən, çatı toxuyan,
Kimin işin kimə nisbət eylərsən?!..

Xoş halına sənin, uzun dırnaqlı,
Baldırı çirməkli, yalın ayaqlı,
Yorğanı, yastığı tozlu-torpaqlı,

Həmdəm ilə hər dəm söhbət eylərsən!
Əllərin yüzlərin yuduqları yox,
Yaşlarında doğru dedikləri yox,

Hazır çobandılar, düdükləri yox,
Onlar ilə necə ülfət eylərsən?!..

Fəqət Vaqif realizminin başlıca özəlliyi onun qoşmalarına və həmən-həmən bütün müxəmməs və qəzəllərinə hakim bulunan dərin və coşqun bir iyimsərlikdir. Hətta yoxsulluq və səfalətin acı bir təsvirindən ibarət bulunan «Bayram oldu» qoşmasında belə həyata iyimsərlik hissləri sezilməkdədir. Bu baxımdan, Vaqif dostu Vidadidən əsaslı surətdə ayrılmaqdadır. Vidadinin ruhuna və şeirinə dərin bir kötümsərlik və dərmansız bir kədər hakim bulunmaqdadır. Halbuki Vaqifin iqbal dövründəki şeirləri eşq və məhəbbətlə, şövq və həyəcanla, həyat və səadət nəşəsiylə coşub-daşmaqdadır. Onun hissləri qədər misraları da oynaq və sürükləyicidir. İxtiyarkən bir gənc gibi coşmaqda və dünyanın qəm və möhnətini belə kəndisinə əngin bir zövq qaynağı yapmasını bilməkdədir. Hər iki şair arasındakı zehniyyət fərqini iyicə bəlirdə bilmək için bir-biriylə yapdıqları müşairədən bəzi parçaları buraya almağı faydalı buluyoruz:

Vaqif: Ey Vidadi, sənin bu puç dünyada
Nə dərdin var ki, zar-zar ağlarsan?
Ağlamalı günün axirətdədir,
Hələ indi səndə nə var, ağlarsan?

Vidadi: Vaqif, nə çox yan, baş-ayaq atarsan?
Mənə diyərsən, nə bu qədər ağlarsan?..
Sənin də başında məhəbbət beyni
Əgər olsa, eylər əsər, ağlarsan!

Vaqif: Ta cəsədin cüda olmayıb candan,
Bil özünü artıq sultandan, xandan!
Ha belə ayrılıq nədir ki, andan
Bu qədər çəkübən azar ağlarsan!..

Vidadi: Ağlamaq ki vardır, məhəbbətdəndir,
Şikəstə xatirlik mərhəmətdəndir,

Əsl bunlar cümlə mürüvvətdəndir!
Olsa ürəyində, betər ağlarsan!..

Vaqif: Toy bayramdır bu dünyanın əzabı,
Əqli olan ona gətirər tabı...
Sən tək oğlana deyil hesabı,
Hər şeydən eyləyib qübar ağlarsan!..

Vidadi: Oğlansan, uşaqsan, cavansan hələ,
Yenicə cisminə düşüb vəlvələ,
Təzəcə dəyənək alubsan ələ,
Qayim tut ki, nagah düşər, ağlarsan!..

Vaqif: Nə qədər dirisən, ölü deyilsən,
Qocalübən yaylar kimi əyilsən,
Padşahsan əgər özünü bilsən,
Neçün olub candan bezar, ağlarsan?...

Vidadi: Eylə ki, taxıldı burnuna çeşmək
Qocalıq əl verib dəxi nə şişmək?![2]
Uşaqlar içinə düşər gülüşmək,
Sənin də acığın tutar, ağlarsan!..

Vaqif: Çün gedərsən o qaranlıq, dar yerə,
Qonşu olmaz çağırdıqda səs verə,
Bir kimsə tapılmaz qapından girə,
Görərsən dörd tərəf divar, ağlarsan!..

Vidadi: Möminəm, zikrimdir daim ilahi,
Uzaqdır könlümdən külli mənahi,
Əfv olur möminin cümlə günahı,
Sənin də könlündən keçər, ağlarsan!..

Vaqifin bir sıra qəzəlləri onun Füzuliyə qarşı heyranlıq duyduğunu göstərməkdədir. Bununla bərabər, hər iki şairin əsərləri arasında möhtəva və ruh etibariylə mühüm fərqlər vardır. Füzulinin qəzəllərində dərin və ma-

[2] İxtiyarlıq gəlmiş, artıq böbürlənməyə nə lüzum var?

nidar bir hüzn, həyatdan müştəki bir haləti-ruhiyyə, zəngin fəlsəfi düşüncələr gözə çarpmaqdadır. Halbuki Vaqifin qəzəllərində yuxarıda da işarət etmiş olduğumuz gibi, əngin sevinc və nəşə, oynaq və coşqun eşq təranələri, həyat şövqü və zövqü hökm sürməkdədir. Buna Vaqifdən bir-iki misal verəlim. Gürcüstan gözəllərini tövsif zəmnində yazdığı bir müxəmməsdə Vaqif şöylə diyor:

Müxəmməs

Naz ilə ta ol büti-ziba kəlisadan çıxar,
Sərkəşü xəndanü bipərva kiəlisadan çıxar,
Şahdır guya, geyüb diba kəlisadan çıxar,
Açıban tələt günəş əsa kəlisadan çıxar,
Şölə salmış aləmə kim, ta kəlisadan çıxar!

Ləhzə, ləhzə eylədikcə mahi-rüxsarı zühur,
Lame-lame ziri-bürqədən düşər dünyaya nur,
Anı bir kərə görən dindən olur, əlbəttə, dur,
Necə kim, cət'nnət sarayından çıxar qılmanü hürr,
O şəkil bu duztəri tərsa kilisadan çıxar!

Şanəvəş seyğəl verib zülfi-bənəfşə nisbətə,
Pərdə mütləq tutmayıb simavü sədrü surətə,
Qıl tamaşa gərdənə, seyr eylə qəddü qamətə,
Qaşü göz, qəmzə, məazəllah dönübdür afətə,
Etməyə din mülkünü yəğma, kəlisadan çıxar!

Gül kimi nərmilə nazik pirahəndə ağ bədən,
Bilmənəm kim, şölədir, ya xərməni-bərgi-səmən,
Dişləri qəltan sədəf, çün ağzıdır ləli-Yəmən,
Ağ qabaqda bir gəz onın taqi-əbrusun görən,
Meyli-məscid eyləməz, haşa, kəlisadan çıxar!

Vaqifəm, ta ki gözüm anın sataşdı qaşına,
İstədi mehrabü minbərdən xəyalım daşına,
İndi bildim kim, nə gəlmiş Şeyx Sənan başına,
Ya budur kim, Tiflisi qərq eylərəm göz yaşına,
Ol sənəm vəsli mənimçün ya kəlisadan çıxar!

Bir başqa müxəmməsində Vaqif şöylə diyor:

Sən qönçə kimi hər bir edən dəmdə yaşınmaq,
Artar bizə yüz mərtəbə odlarına yanmaq,
Mən aşiqəm, ey gül, sənə, olmaz bunu danmaq,
Ölən günədək eyləməzəm səndən usanmaq,
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Allaha şükür, lalə yanağında eyib yox,
Dişində, dəhanində, dodağında eyib yox,
Bir zərrəcə zülfündə, buxaqında eyib yox,
Qaşında, gözündə və qabağında eyib yox!
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Mən ha sənin ol mah üzünü görmüşəm yüz yol,
Ox kirpiyini, şux gözünü görmüşəm yüz yol,
Həm yoldaşını, həm özünü görmüşəm yüz yol,
Şəkkər kimi şirin sözünü görmüşəm yüz yol,
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Məd xud deyiləm bədnəzər, ey gözləri şəhla,
Məndən yaşırırsan üzünü sən elə bica,
Qoysan eləyim üzünə doyunca tamaşa,
Öldürdün axır, məndə ki can qalmadı əsla,
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Qeyridən əgər ki, edəsən sən bu hicabı,
Billəm ki, sözündür, vəli məqbulu hesabı,
Yoxsa məni görcək üzünə çəkmə niqabı,
Gəl, Tanrı üçün Vaqifə çox vermə əzabı,
Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Çox diqqətədəyər konulardan birisi on səkkizinci əsrdə yaşamış bulunan Vidadi ilə Vaqifin zamanımızda belə eyni din və milliyyətə

mənsub insanlar arasına ayrılıq və qeyrilik toxumları saçan məzhəb ixtilaflarına qarşı tam bir ilgisizlik və geniş təhəmmül zehniyyəti göstərmiş olmalarıdır. Hər ikisinin şeirlərindən açıqca görüləcəyi gibi, Vidadi ilə Vaqif İslam dininə qarşı dərin və səmimi inanc duyğularıyla bağlı bulunuyorlar. Hələ Vidadi bütün həyatını ibadətlə keçirmiş mömin və müttəqi bir insandır. Hər iki şair böyük bir çoğunluğu əhli-təsənniyə mənsub bulunan Qazax nahiyəsində doğub-böyümüş olduqlarından təbiətiylə sünnilik mühit və ənənələri içində yetişmişlərdir. Fəqət daha sonra Vaqif bir şiə mühiti bulunan Qarabağ xanlığının hizmətinə keçincə məzhəbini dəyişdirməkdə heç güclük çəkməmişdir. Buna rəğmən, nə məzhəb və nə də yuxarıda işarət etdiyimiz ruh, fikir və düşünüş fərqləri bu iki səmimi arkadaşın bir-birinə qarşı bağlılıqları üzərində ən kiçik bir təsir belə yapamamışdır. Daha öncə bir qismini verdiyimiz müşairələrində məzhəb ixtilaflarının əhəmiyyətizliyinə və gülünclüyünə arifanə bir tərzdə təmas edən bəzi parçaları vardır ki, onlardan bir kaçını burada zikr etməyi faydalı buluyoruz:

Vidadi: Allahın ki, heç çəkməzsən minnətin,
Tərk edibsən peyğəmbərin sünnətin,
Nə görərsən məsumların hörmətin
Əgər ağlamazsan, əgər ağlarsan.

Vaqif: Əqlin olsun, on iki imama inan,
Fayda verməz sonra olmaq peşiman,
Yəqin bil ki, qurulacaqdır mizan,
Əmələn qarşında durar, ağlarsan!..

Vidadi: Qapılarda çox toxuna-toxuna,
Ömərdən, Osmandan gəzmə sakına,
Olarsız ki, heç qoymazlar yaxına,
Döyə-döyə öldürərlər, ağlarsan!...

Vaqif: Şafeinin olmaz o qədər suçu,
Əvvəldən axıra ayrıdır köçü,
Gələr fəriştələr, amma bu üçü,
Tutar bir-birinə çaxar, ağlarsan!

Vidadi: Şiə xalqı tamam dolar duzəxə,
Qalarlar duzəxdə od yaxa-yaxa,

Mahaldır ki, biri duzəxdən çıxa,
Cümlə olur zirü zəbər, ağlarsan!..

Vaqif: Vaqif, gərçi əzabı var dünyanın
Sən neçün xovfini çəkərsən anın,
Tutubsan ətəyin şahi-Mərdanın[3]
O gülər – gülərsən, ağlar – ağlarsan!..

Vidadi ilə Vaqif arasındakı dostluq və bağlılığın dərinliyinə Molla Pənahın şu qəzəli də gözəl bir misal təşkil etməkdədir:

Qəzəl

Vidadidən gələn kağız məni fərxəndəhal etdi,
Bu halı gördü qəm filhal məndən intiqal etdi.

Uçub könlüm quşu pərvaz qılsa övci-əlayə,
Əcəb yox kim, bu məktubu özünə pərü bal etdi.

Ziyayi-şəms tək yetdi məni bədr eylədi, hala
Əgərçi, qəddimi dövrani-filmazi hilal etdi.

Səvadi namənin, ey dil, məgər zülmati-heyvandır,
Ki, ruhum Xızır tək andan bəsa kəsbi-kamal etdi.

Xəyal etmişdi Vaqif kim, rəvan bir xoş qəzəl yazsın,
Rəvan olmuşdu qasid kim, bunu ancaq xəyal etdi.

Vaqifin mücadiləçi ruhunu, böyük iyimsərliyini, eşqinin sərinliyini və həyat fəlsəfəsini şu gözəl qəzəli mükəmməl surətdə bəlirtməkdədir:

Qəzəl

Kim ki sevdayi-səri-zülfü-pərişanə düşər,
Gah zindanə, gəhi çahi-zənəxdanə düşər.

[3] Həzrəti Əlinin

Afəti-dəhr dəyər ol kəsə kim, kamildir,
Mah hər gün ki, kəmalə yetə, nöqsanə düşər.

Mərd igidlər özünə məhbəsi meydan bilir,
Sanma kim, nakəsü-namərd bu meydanə düşər.
Eybdən saf çıxar, pakü mübərra görünür,
Hər tila kim, küreyi-atəşi-suzanə düşər.

Piçü tabə düşənin işi, bəli, üzdə olur,
Zülf bu vəchlə rüxsareyi-tabanə düşər.
Hər yaman yer ki, olur yaxşıların mənzilidir,
Ləl daş içrə, xəzinə dəxi viranə düşər.

Şami-qəm şadlıq əyyamına xoş ziyvərdir
Necə kim, xali-siyəh arizi-cananə düşər.

Ey Vidadi, qəmi-zindanə giriftar olmaq,
Bir sənə, bir mənə, bir Yusifi Kənana düşər.

Eşqə düşmək sənə düşməz, qocalıbsan belə dur,
Belə işlər yenə Vaqif kimi oğlanə düşər.

Bu qədər iyimsər və mücadiləçi bir ruh və zehniyyət daşıyan Vaqif həyat və zamanın ağır dərbələri altında əməlləri birər-birər boşa çıxınca ömrünün son sənəsində ümidsizliyə düşüyor. Böyük bir əzm və iradə ilə, incə və uzaqgörücü bir siyasi görüşlə müdafiə etdiyi bağımsız Qarabağ xanlığı yenidən İran orduları tərəfindən istila olunmuşdu. Sənələrdən bəri siyasi, ictimai, elmi və ədəbi sahələrdə girişdiyi və başarıyla davam etdirdiyi böyük işlər birdən-birə durdurulmuş və yox edilmək təhlükəsinə məruz bırakılmışdı. Yüksək və qutsal qayələri müstəvli qüvvətlərin çizmələri altında çeynənmişdi. Üstəlik qolları bağlı olaraq kəndi yurdunda zindana atılmış və edam saatını bəkliyordu. Fəqət ilahi qədər bu səfər onu Ağa Məhəmməd şahın qəzəbinə, zülmünə və əzici qüdrət və heybətinə qarşı qorumuşdu. Tövqifinin ertəsi günü ölümə məhkum Vaqifin deyil, edam qərarını verən Ağa Məhəmməd şahın qafası kəsilmişdi. Qədərin bu əsrarəngiz cilvəsi şairin ruhu üzərində çox dərin bir təsir yaratmış və qəlbinin həyəcanlarıyla o andakı

düşüncələrinin ifadəsinə tərcüman olan məşhur «Bax!» başlıqlı şeirin Vidadiyə xitabən yazılmasına bir vəsilə təşkil etmişdir.

Daha öncə eynən mətnini vermiş bulunduğumuz bu şeirdə doğruluğun əyriliyə və ədalətin zülmə qarşı yapdıqları amansız mücadilədə qəti zəfərin haqq və ədalət tərəfindən qazanılacağına qüvvətli bir güvən və dərin bir iman ifadə olunmaqla bərabər:

Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dustə, nə yarə bax!

– gibi ilk yeis əmarələri də bəlirməkdədir. Fəqət Ağa Məhəmməd şahın qətlindən sonra Qarabağda iqtidarı qəsb edən Məhəmməd bəy iranlı müstəvlilərin yolundan yürüyərək İbrahim xanın və Vaqifin başardıqları işləri yıxmağa qalxışınca, şairin yası və kədəri bir qat daha artmış bulunuyordu. Bu yeni ruhi halətin qüvvətli təsiri altında Vaqif dünyaya bambaşqa bir gözlə baxmağa başlıyor və o ana qədər həyatda görməyə alışmış bulunduğu həqiqətlərin tam əksini müşahidə ediyordu. O günə qədər: «Toy-bayramdır bu dünyanın əzabı!» deyən şair məşhur bir müxəmməsində yeni dünya görüşünü şu tərzdə ifadə ediyordu:

Müxəmməs

Mən cahan mülkündə mütləq, doğru halət görmədim,
Hər nə gördüm əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətü iqrarü imanü dəyanət görmədim,
Bivəfadan lacərəm, təhsili hacət görmədim.

Xah sultan, xah dərvişü gəda bilittifaq
Özlərin qılmış giriftari-qəmü dərdü firaq,
Cifeyi-dünyayədir hər ehtiyacü iştiyaq
Munca kim, etdim tamaşa, sözlərə asdım qulaq,
Kizbü böhtandan səvayı bir hekayət görmədim.

Xəlqi-aləm bir əcəb düstur tutmuş hər zaman,
Hansı qəmli könlü kim, sən edər olsan şadiman,
Ol sənə, əlbəttə ki, bədguluq eylər bigüman

Hər kəsə hər kəs ki etsə yaxşılıq, olur yaman,
Bulmadım bir dost ki, ondan bir ədavət görmədim.
Alimü cail, müridü mürşidü şagirdü pir,
Nəfsi əmmarə əlində sərbəsər olmuş əsir,
Həqqi batil eyləmişlər, işlənir cürmi-kəbir,
Şeyxlər şəyyad, abidlər abusən qəmtərir,
Heç kəsdə haqqa layiq bir ibadət görmədim.
Hər kişi hər şeyi ki, sevdi, anı behtər istədi,
Kimi təxti, kimi taci, kimi əfsər istədi.
Padşahlar dəmbədəm təsxiri kişvər istədi,
Eşqə həm çox kimsə düşdü, vəsli-dilbər istədi,
Heç birində aqibət, bir zövqü rahət görmədim!

Gün kimi bir şəxsə gündə xeyir versən səd həzar,
Zərrəcə etməz ədayi-şükri-nemət aşikar,
Qalmayıbdır qeyrəti şərmü həya, namusü ar,
Dedilər ki, etibarü etiqad aləmdə var,
Ondan ötrü mən də çox gəzdim, nəhayət görmədim.

Mən özüm çox kuzəkarı kimyagər eylədim,
Sikkələndirdim qübari-tiräni zəreylədim,
Qara daşı döndərib yaquti-əhmər eylədim,
Daneyi-xərmöhräni dürrə bərabər eylədim,
Qədrü qiymət istəyib, qeyr əz xəsarət görmədim.

Eyləyən viranə Cəmşidi-Cəmin eyvanını,
Yola salmış, bil ki, bəzmi-işrətin çəndanını,
Kim qalıbdır ki, onun qəm tökməyibdir qanını,
Dönə-dönə imtahan etdim fələk dövranını,
Anda mən bərəkslikdən özgə adət görmədim.

Müxtəsər kim, belə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyrü şər,
Alilər xaki məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə ehkamü ləyaqət görmədim.

Dövlətü iqbalü malın axırın gördüm tamam,
Həşmətü cahü cəlalın axırın gördüm tamam,

Zülfü ruyü xəttü xalın axırın gördüm tamam,
Həmdəmi-sahib camalın axırın gördüm tamam,
Başadək bir hüsnü-surət, qəddü qamət görmədim.

Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,
Etmədim səd heyf kim, bir mahi rüxsarə nigah,
Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah,
Vaqifə, ya Rəbbəna, öz lütfünü eylə pənah,
Səndən özgə kimsədə lütfü inayət görmədim.

Fəqət bütün bu ümidsizliyinə və kədərinə rəğmən, Vaqif yenə də Vidadi gibi kötümsər deyildir. O, qədərinin ani dönüşündən və qeyrətlərinin akim qalmış olmasından dolayı olduqca mütəəsirdir. Lakin həyatdan bıkmış və küsmüş deyildir. Onu, bilxassə üzən şey mühitin sədaqətsizliyi və vəfasızlığı, dün qarşısında əcz ilə əyilənlərin bu gün kəndisinə düşmən kəsilmiş olmalarıdır.

Vaqif kəndi dövrünün yeni şeir üslubunu vücuda gətirmişdir. Fəqət eyni zamanda klassik şeir tərzini də məharətlə kullanmışdır. Yalnız şu qədər var ki, gərək əski, gərəksə yeni tərzdə yazdığı şeirlərində lisan, ifadə, ruh və möhtəva etibarilə kəndi xalqının özəlliklərinə daima sadiq qalmışdır. Azərbaycan ədəbi tarixində realist şeirin ilk yüksək örnəklərini verən Vaqif on doqquzuncu əsr Azərbaycan şairləri üzərində bir xeyli müəssir olmuşdur. Aşıq deyə tanınan xalq şairləri Azərbaycanı başdan-başa dolaşaraq, onun tatlı qoşmalarını və içdən doğan gözəl şeirlərini boyuna söyləyib durmuşlar və bu əsərlərdən ilham alaraq saysız «Vaqif dastanları» vücuda gətirmişlərdir. Bütün bunlar və hər şeyin üstündə ola-raq böyük şairimizin fırtınalı mücadilə həyatı onun xalq arasındakı geniş şöhrətini əsrlərə sığmayacaq qədər əbədiləşdirmiş və «Hər oxuyan Molla Pənah olmaz» dərbi-məsəlinin doğmasına səbəb olmuşdur.

Vaqifin əsərlərinin basılışına gəlincə, Firidun bəy Köçərlinin verdiyi bilgilərə görə, ilk olaraq Mirzə Yusif Qarabağı, Mirzəcan Mədətovun rica və israrı üzərinə Vaqifin ən mühüm şeirlərini bir araya gətirərək, «Məcmuəyi-Vaqif» adıyla 1828 sənəsində kiçik bir kitab qələmə almış və bu kitab 1856 sənəsində Quzey Kafkasyanın Temirxanşura[4]

[4] Dağıstanda qədim şəhər. Hazırda Buynaksk adlanır. – *N.C.*

şəhərində təb edilmişdir. Kitabın baş qismində Vaqifin qısa bir hal tərcüməsi dəxi varmış. Daha sonra tanınmış alman bilgini Adolf Berje Güney Kafkasya müftisi Hüseyn əfəndi Qayıbovun və Mirzə Fətəli Axundzadənin yardımlarıyla təlif etdiyi və 1867 sənəsində Leypsiqdə yayınladığı «Azərbaycan şairlərinin əsərləri və şeirləri»[5] adlı kitabında Molla Pənah Vaqifin, Qasım bəy Zakirin və Qarabağda yetişən bəzi digər Azərbaycan şairlərinin əsərlərindən nümunələr vermişdir. Üzərindən daha bir müddət keçdikdən sonra Azərbaycanın tanınmış mühərrirlərindən mərhum Haşım bəy Vəzirov 1908 sənəsində «Kafkas şüərasının məşhuri Molla Pənah Vaqifin ələ düşən əşarının məcmuəsi» başlığı ilə Vaqifin o dövrdə bilinən şeirlərini bir araya gətirməyə və buna iki buçuq səhifəlik qısa bir hal tərcüməsi ekləməyə müvəffəq olmuş və bu kiçik kitabı basdıraraq nəşr etməkdə bulunduğu «Təzə həyat» qəzetəsinin daimi alıcılarına hədiyyə olaraq dağıtmışdır. Kitab 115 səhifədən ibarətdir və bu gün həmən heç bulunmamaqdadır. Nəhayət, tanınmış münəqqid Firidun bəy Köçərlinin 1925 sənəsində basılan «Azərbaycan ədəbiyyatı tarixi materialları»nda Molla Pənah Vaqifə qırx səhifəlik bir yer ayrılaraq müfəssəl hal tərcüməsi və şeirlərindən bir çoxu verilmişdir. Eyni kitabda Molla Vəli Vidadinin hal tərcüməsi ilə əsərlərinə 31 səhifəlik bir yer ayrılmışdır. Vidadi haqqında başqa bir əsər basılmış olduğu xüsusunda Firidun bəy Köçərli məlumat vermiyor və bu cəhət bizcə də məchuldur.

Görüyorsunuz ki, əziz arkadaşlar, bir çox digər ədib və şairlərimiz gibi, Vidadi və Vaqif də qədrü qiymətləri ilə mütənasib bir şəkildə gərək Azərbaycanda, gərəksə dış aləmdə tanıdılmamışlardır. Hələ Vaqif gibi türk dünyasında eşi əndər bulunan düha sahibi bir şair haqqında bu qədər az əsər basılmış olması ciddən təəssüfə şayandır. Vaqifin həyatı və əsərləri dərin və ətraflı tədqiqlərə dəyər bir mövzudur. Zəngin və verimli təbi gibi, yaşadığı və çalışdığı dövr də çox şayani-diqqətdir. Ədəbiyyat və tarix maraqlısı Azərbaycan gəncliyinə bu şair və bu dövr üzərində əhəmiyyətlə durmalarını və bu mövzularla ilgili bütün vəsiqə və bilgiləri zaman və məkanın verdiyi imkanlar nisbətində araşdırıb bulmalarını ciddən tövsiyə edəriz. Nə yazıq ki, biz nöqsan qaynaqlarımız və vasitələrimizlə daha fazlasını və daha iyisini yapamadıq. Unut-

[5] Bax: s. 55-dəki qeydə – *N.C.*

mayalım ki, otuz iki sənədən bəri hürriyyət və istiqlalı uğrunda müəzzəm bir düşmənə qarşı təkbaşına mücadilə edən Azərbaycanın dayandığı qüdrət qaynaqlarından birisi tarixi isə, digəri də ədəbiyyatıdır. Bu ədəbiyyatın başlıca rüknlərindən biri Molla Pənah Vaqifdir. Vaqifi öyrənmək və tanıtmaqla Azərbaycan istiqlal davasına hizmət etmiş olursunuz. Çünki Molla Pənah Vaqif də bütün həyatı boyunca və o dövrün verdiyi imkanlar daxilində Azərbaycan istiqlalı uğrunda çalışmışdır. O da vətən və istiqlal eşqiylə yanmışdır. Vaqifin sadəcə adı əzm, mətanət və mücadilə simvoludur. Onun ismini və əsərlərini yaşatmaq Azərbaycan türklüyündə mücadilə əzmini və istiqlal eşqini daha da qüvvətləndirəcəkdir. Vaqif ölməz bir şairdir və Azərbaycan türklüyünün mədari-iftixarıdır. Azərbaycan durduqca Vaqifin sənəti də heç sönmədən və solmadan yaşayacaqdır. Hər böyük şairin olduğu gibi, Vaqifin də ən böyük abidəsi təbiət qüvvətlərinin heç bir zaman yıxmağa qadir bulunmadıqları ölməz əsərləridir. Vaqif bu əsərlərində bu gün yaşadığı gibi, əbədiyyən də yaşayacaqdır.

YENİ DÖVR
AZƏRBAYCAN ƏDƏBİYYATI

QASIM BƏY ZAKİR
(1784-1857)

On doqquzuncu əsr Azərbaycan mizah şeirinin ən böyük ustadı bulunan Qasım bəy Zakir 1784 yılında Şuşada doğmuşdur. Babası Əli, böyük babası isə Şahverən bəylərdir. Şu sonuncu zat isə Şuşa şəhərinin və Qarabağ xanlığının böyük qurucusu Pənahəli xanın öz qardaşı Hüseynəli ağanın sülbündən gələn Kazım ağanın oğlu olmuşdur. Böyləcə Qasım bəy Zakir soyca Qarabağ xanlarına mənsubdur.

Firidun bəy Köçərlinin verdiyi bilgilərə görə, Zakir təhsilini o dövrün icab və şərtlərinə görə Şuşa şəhərində türkcə və farsca yazıb-oxuma öyrənmək surətilə sona erdirmişdir. Yazın əksəriyyə Şuşa qalasında, digər mövsümlərdə isə kəndisinə aid Xındırıstan köyündə oturur və çiftçilərlə birlikdə tarla işlərində çalışırmış. Şair hər kəscə xoş xülq, şəfqətli və mərhəmətli bir insan olaraq tanınmışdı. Fəqət təbiəti etibarilə zülm və haqsızlığa təhəmmülü yoxdu. Yeri gəldikcə, zalım və mütəhəkkim rus idarə əmirlərinə və rüşvət alaraq haqq və ədaləti çeynəyən bəzi hakimlərə və kəza məhəlli əsilzadələrdən vicdanlarını müstəvliyə satmış, bir taqım yardaqçılara qarşı kəskin həcvilə şiddətli surətdə mücadilə etdiyi için kəndisinə bir sürü düşmən qazanmışdı. Bu bədxahlar fürsət qolluya-qolluya, nəhayət, Zakiri çox ağır bir iftira qarşısında bırakmışlardı.

Köçərliyə görə, hadisənin xülasəsi şundan ibarətdir:

Şairin yegənlərindən Behbud bəy ismində birisi məhəlli əşqiyalara qatılaraq, Qarabağ vilayətində bir taqım ağır cinayətlərin işlənməsinə səbəb oluyor. Zakir buna mane olmaq için icab edən hər nevi tədbirlərə baş vuruyor. Fəqət Behbudu islaha müvəffəq olamıyor. Nəhayət, məhəlli zabıta canini yaxalayaraq öldürtüyor. Məsələ bu şəkildə həll edilmiş və qapanmışkən şairin məlum şəxsi düşmənləri hərəkətə keçərək həm onu, həm də ailə əfradını bu çirkin işə bulaşdırmağa qalxıyorlar. Bunun üzərinə, başda Tarxanov olmaq surətiylə rus idarə əmirləri Qasım bəy ilə oğlu Nəcəfqulu bəyi və kəza yegəni İskəndər bəyi Sibiryaya sürməyə qərar veriyor, ailə əfradını Şuşa həbsxanasına atıyor, sərvətini yağma və Xındırıstan köyünü də alt-üst ediyorlar. Bütün bu xüsuslar Zakirin kəndi kəlamiylə də təyid olunmaqdadır. O sırada şair 67 yaşında bulunuyordu.

Bu iftira və onu təqib edən zalımanə qərar ixtiyar Zakirin bütün həyatını sarmışdır. Bərəkət versin ki, səmimi dostlarından Mirzə Fətəli Axundzadə və Qutqaşınlı İsmayıl bəyin və kəza bəzi xeyirxah gürcü əsilzadələrinin göstərdikləri müəssir yardımlar sayəsində zavallı Zakir Sibiryanı boylamaqdan və qazaxlı şair Mustafa ağa Arif gibi Rusiyanın buzlu çöllərində tələf olmaq təhlükəsindən qurtularaq Bakı şəhərinə sürülmüş və orada üç-dörd ay nəzarət altında yaşadıqdan sonra təkrar Qarabağa dönməsinə müsaidə edilmişdir. Nəcəfqulu və İskəndər bəylər dəxi eyni şəxslərin yardımı nəticəsində Sibiryada uzun müddət qalmayıb qısa bir iqamətdən sonra vətənlərinə dönə bilmişlərdir. Şairin heca vəznilə və məktub tərzində yazdığı içli şeirlərin bir çoxu bu acıqlı hadisənin təsvirinə həsr edilmişdir. Məsələ, Mirzə Fətəli Axundzadəyə göndərdiyi bir məktubda Zakir şöylə diyor:

Piranəsərlikdə çərxi-kəcrəftar
Eylədi vətəndən dərbədər məni.
Neyləmişəm, bilməm dövri-zalimə,
İncidir düşəndə bu qədər məni.

Daha sonra şair dostu ilə yapdığı həsbi-halına şu şəkildə davam ediyor:

Dərdbilməzə dərdi-dili açınca,
Ruzigarın cəfasından qaçınca,
Namərd körpüsündən rahat keçincə,
Razıyam apara o sellər məni.

Kişi yoxdu, baxma çula-çuxaya,
Adam gərək dağa-daşa toxuya[1];
«Getmə, getmə»–deyib, qoydu yuxuya,
Axırda itirdi Yekəpər[2] məni.

Dalınca deyiləm bir şüğlü karın,
Bilmənəm dövrünü leylü-nəharın;

[1] İnsan kəndi müqaviməti ilə dağı-daşı devirəcək qüdrətdə olmalıdır.
[2] İri-yarı hərif. Şair bu alaylı təbiri ilə xəsmlərindən Cəfərqulu xan Nəvanı qəsd etmişdir.

Həvəsi-vüsalın, zövqi-didarın
Qoymaz yuxu yatam ta səhər məni.

Rahi-müsibətdə keçmişəm candan,
Müxənnəsdir qorxan bir qaşıq qandan;
Ehtiyatım yoxdur paşadan, xandan,
Analar doğubdur şiri-nər məni.

Olmuşam Bakıda sükin-i fərağət,
Zövqi-təmaşası misali-cənnət.
Ziyadə dərdi-sər dəxi nə hacət,
Fəramuş eyləmə müxtəsər, məni.

Qasım bəy Zakir ədəbiyyat sahəsindəki böyük sələfi və ustadı Molla Pənah Vaqifi təqiblə onun qurduğu realist şeir üslubunu məharətlə davam etdirmişdir. Zakirin şeirləri arasında qoşmaları müstəsna bir yer tutmaqdadır. Bu qoşmalarda Azərbaycan şifahi xalq ədəbiyyatının bayatı, şikəstə, mahnı gibi şəkillərindən və bilxassə aşıq lirizmindən geniş ölçüdə istifadə olunmuşdur. Xalq şifahi ədəbiyyatında olduğu gibi, Zakirin qoşmalarında dəxi geniş xalq təbəqələrinin ruhi halətləri, Azərbaycanın yerli və milli özəllikləri, gözəl tipləri, məmləkət gələnək və görənəkləri, geyim və qiyafətləri eynən təsvir olunmaqdadır:

Siyah zülfü dal gərdanda bir qulac,
Sona cıqqasıtək ucları qıyqac.
Belə türrə, belə keysu, belə saç,
Belə qəmzə, belə qaşü göz olmaz.

Bir başqa qoşmasında Zakir şöylə diyor:

Barmağında xatəm, belində kəmər,
Telində güşvarə, düymə tamam zər,
Qərq olsun yaşıla, ala sərasər,
Naz ilə sallana-sallana gəlsin.

Bu iki küçük misaldan da görüləcəyi gibi, Vaqifin gözəl tipləri qədər Zakirin qoşmalarındakı dilbərlər dəxi hər çeşid xəyali və roman-

tik vəsflərdən uzaq həqiqi və canlı birər insan olaraq təsvir edilməkdədir. İfadəsindəki sadəlik, gözəllik, səmimiyyət, canlılıq və lirik qüdrət həmən gözə çarpmaqdadır. Bəzən Zakirin bu gibi qoşmalarında gözəl və orijinal məcaz və istiarələrə də təsadüf etməkdəyiz:

Müsəlsəl geysular ruxi-al üzrə,
Bir buluda bənzər mahcəmal üzrə,
Pərtövi-hüsnündür xəttü xal üzrə,
Yoxsa gün düşübdür dağın üstünə?

Fəqət Zakirin əsl qüdrəti və dühası mizah və həcv mahiyyətini daşıyan şeirlərində kəndini göstərməkdədir. Yuxarıda qeyd etmiş olduğumuz gibi, bu nevi şeirlər əksəriyyə məktub tərzində və şairin başına gələn fəlakəti mütəaqib, yəni ömrünün və sənət həyatının son dövründə qələmə alınmışdır. Bu gibi əsərlərdə Zakirin sadəcə ədəbi qüdrətini deyil, eyni zamanda dövrünün və mühitinin siyasi və ictimai şərtlərini də təqdir və təqib edə bilməkdəyiz. Bu baxımdan, cəsarətlə denə bilir ki, Zakir Ələkbər Sabirin ilk sələfi olmuşdur. Onun həcv və mizah oxlarına başlıca hədəfi rus çarlıq hökumətinin müstəvli sömürgəçilik siyasəti və mütəfəssih idarə sistemi təşkil etmişdir. Daha sonra Zakirin kəskin tənqidlərinə çarlığın bəslədiyi məhəlli əsilzadələr və ikiüzlü mollalar məruz qalmışlardır:

Kim ki, vilayətdə simü zəri var,
Yüz adam öldürə, həbsdən çıxar;
Yegənsiz danışmaq nə yanə çatar,
Bihörmət eylədi simü zər məni.

Yenə Mirzə Fətəli Axundzadəyə yazdığı məktubda şair Qarabağ vilayətinin rus sömürgə idarəsindəki acıqlı halını təsvir edərək şöylə diyor:

Xəbər alsan bu vilanın əhvalın,
Biz özgədir keyfiyyəti-Qarabağ.
Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?!
Qüttəüttəriqin vüfuru vardır,
Yaylaqda, aranda qatar-qatardır.

Yenə ötür-ötür, apar-apardır,
Bizim başımızda çatdadı çanaq.[3]

Daha sonra:

Qarabağda nə day qaldı, nə danə,
Bu gün-sabah qaçar hərə bir yanə,
Tənbeh etməklə Xındırıstana,
Xub saldı nizama ölkəni qoçaq.

Üləmalar üz döndərib Xudadan,
Usanmaz bir ləhzə cövrü cəfadan,
Başı əmmaməli seyid-molladan
Taətdə övladır o qatmaqurşaq.

Nəhayət:

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı şərh edəm əlhal,
Bir parəsin yazdım, eylədim irsal,
Bu şərt ilə nə diş bilsin, nə dodaq!...

Firidun Köçərli Zakirin bu qədər açıq bir lisanla yazılmış və xalq dilindən alınma təbir və ifadələrlə aşıb-daşan qoşmalarını «nəzmlənmiş nəsr» deyə tərif ediyor. Gerçəkdən, bundan 100-150 sənə qədər əvvəl yaşamış bulunan çiftlik sahibi Zakir yalnız xalqla qaynaşmaqla və onun gibi yaşamaq və çalışmaqla qalmamış, eyni zamanda xalqın dilini şeir və ədəbiyyat dili yapmağa müvəffəq olmuşdur. Onun kullandığı təbirlər arasında: *bizim başımızda çatdadı çanaq, qoyun oturaq, qurdu badalaq, hamıdan qıvraq, dayaq olan kəsə haqq olur dayaq, ol gəl göz-qulaq, nə diş bilsin, nə dodaq və deyək danışaq* – gibi xalis xalq ifadə tərzinə sıx-sıx rastlanmaqdadır.

***

Zakirin rus idarəsinə qarşı düşmənliyi onun Bakıda yazdığı «Durnalar» başlıqlı simvolik bir şeirindən daha iyicə anlaşılmaqdadır:

Bir saat havada qanad saxlayın,
Rəhm edin didəmdə yaşa, durnalar!

[3] Nə oldusa, bizə oldu.

Qatarlaşıb hansı yerdən gəlirsiz,
Qaqqıldaşa-qaqqıldaşa, durnalar?!

Bu viladə hər gün tökülür qanlar,
Yavaş-yavaş keçin, səsiniz anlar,
Laçın yatağıdır bizim məkanlar,
Qorxuram sürbəniz çaşa, durnalar!

Diyari-qürbətdə müddətdi varam,
Gecə-gündüz vətən deyib ağlaram,
Mən də sizin kimi qəribü zaram,
Eyləməyin məndən haşa, durnalar!

Mən sevmişəm onun çəmən-düzünü,
Nəsib ola, bir dəm görəm üzünü;
Yoxsa, danışırsız vətən sözünü,
Veribsiniz nə baş-başa durnalar!

Zakirəm, od tutub alışdı cigər,
Var isə canandan sizdə bir xəbər,
Təğafül etməyin, Allahı sevər,
Dönməsin bağrınız daşa, durnalar!

Vidadinin və Vaqifin eyni başlığı daşıyan şeirlərinə nəzirə olaraq yazılan Zakirin «Durnalar»ında gördüyünüz gibi, rus idarəsindəki Azərbaycan ölkəsi hər gün məsum qanların axıdıldığı laçın yatağına bənzədilməkdədir.

Elini və yurdunu pərişan və acınacaq bir halda görən vətənpərvər şair Azərbaycan tarixinin altun səhifələrini birər-birər qarışdıraraq, Nizami və Xaqani gibi böyük söz ustadları və fikir adamlarının yaşadıqları dövrdə önəmli və irəli bir kültür mərkəzi bulunan şən və zəngin Bərdə şəhərinin keçmiş günləri üzərində duruyor və o çağı kəndi zəmanəsilə müqayisə edərək «Gəzim» rədifli şeirində duyğularını şu yanıqlı misralarla ifadə ediyor:

O viladə mehribanlıq görmədim,
Gəlmişəm indi də mehriban[4] gəzim;
Seyr eyləyim tamam Tərtərbasanı,

[4] Şimdi də Mehriban köyünü dolaşmağa gedim.

Varmı aşiqinə can qıyan, gəzim.
Tülək tərlan ovlağıydı bu yerlər,
Bərdə torpağına eyləyim güzər.
Görüm qalıbdırmı Şirindən əsər,
Baxam hər tərəfə nigaran, gəzim.

Xosrovi-Pərvizin şənü şövkətin,
Fərhadın ələmü qəmü möhnətin,
Şapurun çəkdiyi nəqşü surətin,
Arayıb, axtarıb bir-bir zaman gəzim.

Nəhayət Zakir şu nəticəyə varıyor:

Bülbüli-biçarə verdi xəbəri,
Dedi ki, qalmayıb şənlik əsəri;
Mən Zakirəm, onu görəndən bəri,
Gərək Məcnun olub biyaban gəzim.

Qibləyi-hacətə yıxıb özümü,
İmamzadəyə sürtüm üzümü,
Haqq olan tənlərə dikib gözümü,
Olam sağlığıma peşiman, gəzim.

Hərgiz bu cahana yoxdur etibar,
Səfası bir isə, yüz cəfası var,
Baş götürüb gedim diyarbədiyar,
Eyləyim aləmi imtahan, gəzim.

***

Zakir məşhur İran moralist şairi Sədidən və rus ədibi Krılovdan iqtibasən bir çox mənzum hekayələr və əfsanələr yazmışdır. «Zövci-axər» başlığını daşıyan mənzum hekayələrindən birində Şərq qadınlarının feodalitə sistemindəki hüquqsuz durumu təsvir olunmaqdadır.

Bunlardan başqa, Zakirin əruz vəznilə yazılmış müxəmməs, müstəzad, tərcibənd, tərkibbənd, qəzəl, mərsiyə və sair mənzum parçaları vardır.

Şairin əruzdakı məharətini göstərmək için müxəmməslərindən birini eynən aşağıya alıyoruz:

Nə xoşdur dövri-ruyində müsəlsəl ol qara zülfün,
Sərasər hər tükü üşşaqə bir dami bəla zülfün,
İki şəhmarə bənzər gənci-hüsnündə düta zülfün,
Bulanır hər tərəf, qovlar məni əfinüma zülfün,
Nədəndir bilməzəm, əfsunə gəlməz mütləqa zülfün.

Tutubdur səhni-kətfində arasın həm solü sağın,
Enib payində övsafın, edər təkrir yaylağın,
Pərişan etməsin dövri-fələk cəmin bu yığnağın,
Əcəbdirmi çəkəndə rövşən eylər çeşmin üşşaqın,
Dəmadəm xaki-payindən götürmüş tutiya zülfün.

Minadır gərdənin, əmma miyanın özgə babətdir,
Qiyamətdir qəddin, nə fayidə, ⁻biistiqamətdir,
Həzər qıl bədnəzərdən, gəzmə bipərva, əmanətdir.
Soruşdum şanədən: zülfə pərişanlıq nə adətdir,
Dedi ki, yaxşı bilir məndən işin badi-səba zülfün.

Uca şanlılara, ey dil, yaraşır kəmtərin olmaq,
Səadətdir həmişə sahibi-caha karin olmaq,
Deyil söyləşməgilə mümkün əsla nazənin olmaq,
Bilib üftadəlikdəndir cahanda sərnişin olmaq,
Budur vəchi düşər pabusuna misli gəda zülfün!

Nəsimi-sübhdən rüxsari-al üzrə siyah tellər,
Sanasan pər açıb, zağü zəğən gülşəndə seyr eylər;
Özü pür-piç, ucları dümi-əqrəb kimi çəzbər,
Uzandıqca uzanır ömrü, yoxsa, ey pəri peykər,
İçib ləli-ləbindən Xızrvəş abi-bəqa zülfün!

Dolannam başına şamü səhər manəndi-pərvanə,
Deməzsən bir görən necə keçir əhvali-divanə,
Bu qədri-cövrü zülm insan edərmi, insan, insanə?
Nə müddətdir düşübdür dəlvi-dil çahi-zənəxdanə,
Nola, çəngəl ilə bir dəm çəkə müşkülgüşa zülfün.

Kəmali-hüsndür geysuyi-mişkin səfheyi-rudə,
Ziyası əncümün əfzun olur şami-qaranqudə,
Su içrə bir siyəhrəng marə bənzər əksi güzgüdə,

Cəfasından deyil Hindü Həbəş bir ləhzə asudə,
Xətasından deyil eymən dəxi Çinü xəta zülfün.
Cahan içrə sənin tək dilbəri-xoş xəttü hal olmaz,
Səmənbu, mahru, şəkkərşikən, şirinməqal olmaz,
Süxənçin olmayan aləmdə mütləq payimal olmaz,

Arasında belin mucə kəmərlə qılü qal olmaz,
Miyanzənlik təriqin salmaya ortaya ta zülfün?

Şikəstə Zakirəm, nəsri bilirdim cümlədən əfzun,
Düşəndə rişteyi-nəzmə çəkərdim bəs düri-məknun,
Künun sövdayi-eşqi bir məhin etmiş məni məğbun,
Dəxi məndən təvəqqü etməsin əşarı xoş-məznun,
Edər əhvalımı dərhəm qəmi sübhü məsa zülfün!

Gözəlin saçlarını bu qədər gözəl təsvir edən şairə pək az rastlanır. Zakirə görə, dilbərin üzünü çevrələyən uzun siyah saçlar birər zəncir gibi aşiqi əsir edər və dürlü fəlakətlər tuzağına düşürür, yenə o saçlar iki qocaman zəhərli yılan gibi qıvrılaraq onu hər tərəfə qovalar və heç bir büyü vasitəsiylə uslandırılamaz. Omuzları üzərindən ta ayaqlarına qədər enən müəttər saçlar gözəlin vücudunu iki qismə ayırır və qışlağa varmış birisi gibi yaylaq məhəllinin zövqü-səfasını anlatmaqla bitirəməz. Kəndisi dağınıq və pərişan olduğu gibi, pərişanlığa sürüklədiyi cəmiyyətin təkrar düzənlənməsi də qolay bir iş deyildir.

Aşiqin həsrətlə qaralan gözlərinə məşuqənin zülfü sürülüncə, gözləri yenidən şəfa bulur. Çünki gözəlin ayaqlarına qədər uzanan saçlar oradakı tozdan gözə şəfa və işıq verən «tutiya» maddəsini alıb gətiriyormuş.

Gözəlin boynu sürahiyə bənziyorsa da, beli bambaşqa bir mənzərə ərz ediyor... Boyu isə başqa bir aləmdir... Fəqət doğruluq və istiqamətdən çox uzaqdır. Zülfün nədən bu qədər dağınıq olduğu darağa sorulunca, «bunu səba rüzgarı məndən daha iyi bilir», – cavabını vermişdir.

Şan və məqamı yüksək olanlara alçaqkönüllülük yakışır. Ululara yaxın olanlar səadətə ermiş sayılırlar. Təvazönün insanı dünyada daha fazla yüksəldəcəyini bildiyi içindir ki, zülf bir kölə gibi gözəlin ayaqlarına qapılmışdır.

Sabah nəsimi al yanaqlar üzərinə siyah telləri dağıdıb töküncə, qara qarğaların qanad açıb gülşəni seyrə dalmaları gibi qəribə bir mənzərə göz önündə canlanır. Kəndisi qıvrım-qıvrım, ucları da əqrəb quyruğu gibi əyri-büyrü bulunan uzun saçların ömrü uzandıqca uzar. Əcəba, gözəlin yaqut gibi qırmızı dodaqlarından, Xızır peyğəmbər gibi həyat çeşməsindən kana-kana içdiyindənmi saçların ömrü bu qədər uzun olmuş?!

Aşiqin qəlbi bir kova gibi məşuqənin çənəsindəki quyuya (çuxura) düşmüşsə də, onu oradan yalnız hər müşkülü gidərən saçların yardımı ilə qurtarmaq mümkün olur.

Misk gibi gözəl qoxulu saçlar gözəl bir üzə ayrıca bir gözəllik bəxş edər. Çünki qaranlıq bir gecədə yıldızların işığı daha parlaq olur. Ayna qarşısında siyah tellər su içindəki siyah bir yılanı andırmaqdadır. Böylə bir afətin cəfasından Hindistan və Həbəşistan gibi ölkələr belə bir ləhzə məsun qalamayacağı gibi, onun səbəb ola biləcəyi «xətadan», yəni təhlükədən Çin-Xəta dəxi əmin olamaz. İştə Zakir gözəlin saçlarını bu şəkildə təsvir etməkdədir.

Həqiqi bir müslüman olduğu dini mahiyyətdəki bir çox şeirlərilə sabit bulunan Zakir xalqın vicdani etiqad və qənaətlərini kötü məqsəd və niyyətləri uğrunda istismar edən cahil yobazlara və bilxassə Şeyxi və Üsusli gibi gerçək islam əqidələrilə heç bir ilgisi bulunmayan təriqət mənsublarına qarşı atəş püskürməkdədir:

Hərcü-mərc eylədilər məzhəbii-isna-əşəri[5],
Etdilər zirü zəbər bargəhi iymani.
Hər əlif-bey oxuyan adını ruhani qoyub,
Bilməz öz əbcədini, ruha çəkər suhani.
Alimü fazilü üstad, müridü mürşid,
Nə qədər ki, görəsən dövrdə sərgərdani.
Həmə qovğaləri bəhri-dirəmü əqşimədir[6],
Həmə təqvaları şali-əməli-Kərmani[7].
Vermənəm mən oların taəti-bibəhrəsinə
Tarı şahiddir özü məsiyyəti-düzdani.

[5] Cəfəri məzhəbini
[6] Bütün istədikləri para və süsdür.
[7] İbadətdən qayələri Kərman şalıdır.

Böyləcə, fikirləri etibarilə müasirlərindən çox irəli bulunan, şeir sənəti baxımından böyük ustadı Molla Pənah Vaqifi xatırladan, həcv və mizahı ilə cəmiyyətin islahına çalışan qüdrətli şairimiz Qasım bəy Zakir Azərbaycan ədəbiyyatında mühüm bir yer işğal etməkdədir. Onun bu mövqeyini haqqıyla təqdir edən Mirzə Fətəli Axundzadə Zakirə həqiqi milli bir şair vəsfini izafə etməkdəydi. Şübhəsiz, Mirzə Fətəli ilə yaxın dostluğunun Zakirin lisanı və şeir üslubu üzərində böyük təsiri olmuşdur. Bu təsir Zakirin ədəbi qiymətini bir qat daha yüksəltmişdir. Bunun içindir ki, Azərbaycan ədəbiyyatını tədqiq edənlər Zakirin yaradıcılığı üzərində əhəmiyyətlə durmalıdırlar.

ABBASQULU AĞA BAKIXANLI (1794-1846)

Hal tərcüməsi

On doqquzuncu əsr Azərbaycan realist ədəbiyyatını quranların başda gələnlərindən biri mərhum Abbasqulu Ağa Bakıxanlı Qüdsi olmuşdur. Bu böyük şair və bilginimiz Bakı xanlarının soyundan gəlmişdir. Ulu babası Mirzə Məhəmməd xan Nadir şahın ölümündən sonra onun Bakıdakı naibini əzl və tərd edərək kəndisini 1747 sənəsində bu şəhərin ilk bağımsız xanı olaraq elan etmişdi. Abbasqulu ağanın babası İkinci Mirzə Məhəmməd xan, iştə, Birinci Mirzə Məhəmməd xanın torunu olub, kəndisi də 18-ci əsrin sonlarında və 19-cu əsrin başlarında Bakı və Quba şəhərlərində xanlıq sürmüşdür.

Abbasqulu Ağa 1794 sənəsində Bakının Əmir Hacıyan [Əmircan] (Xilə) köyündə doğmuş və çocuqluq dövrünü eyni şəhərin Maştağa köyündə keçirmişdir. Babası İkinci Mirzə Məhəmməd xan qüdrətli rəqibi Hüseynqulu xanın şiddətli basqısına məruz qalınca Bakını tərkə məcbur olmuş və ailəsi ilə birlikdə 1801 sənəsində Quba şəhərinə çəkilmişdir. Rus ordusunun 1806 sənəsində Qubaya saldırması və şəhərin hökmdarı bulunan Şeyxəli xanı tərd etməsi üzərinə orasının xanlığı Abbasqulu Ağanın babasına bırakılmışdır. Böyləcə, İkinci Mirzə Məhəmməd xan bu səfər də Quba şəhərinin xanı sifətiylə uzun müddət hökumət sürmüş və kəndi ölümündən sonra Quba xanlığı rus məqamlarınca ilqa edilərək, bu bölgə də Azərbaycanın başqa qisimləri gibi doğrudan-doğruya Rusiya məmurları tərəfindən idarə edilməyə başlanmışdır.

Abbasqulu Ağa 1801 yılına qədər Bakıda, o tarixdən 1820 sənəsinə qədər də Qubada yaşamışdır. Ən böyük əsəri sayılan «Gülüstani-İrəm»in sonunda kəndisi haqqında verdiyi bilgilərdən öyrəniyoruz ki, Abbasqulu Ağa yeddi yaşlarında təhsilə başlamış, fəqət o sıralarda Azərbaycanın hər tərəfində savaş və ayaqlanmaların sürüb getməsi üzündən ilk on sənə zərfində gərəyincə farscaya vüquf kəsb etməkdən başqa bir şey əldə edəməmişdir. Qubaya köçdükdən sonra tam on yıl ərəbcə və bəzi elmlərin öyrənilməsinə sərf etmişdir. Maddi və bir taqım başqa səbəblərin əngəl olmasına rəğmən, bu müddət zərfində elm sahəsində bir parça şöhrət qazanmağa müvəffəq olmuşdur. İyi tanınmış yüksək

bir ailəyə mənsub bulunduğu için bizzat Kafkasya əsgəri valisi general Yermolov tərəfindən 1820 sənəsində Tiflisə dəvət edilmiş və kəndisinə dövlət hizməti təklif olunmuşdur. Tiflisdə bulunduğu sıralarda rusca öyrənməyə çalışmış və bu vasitə ilə Avropa kültürünə bir parça aşina olmuşdur. Vəzifəsi icabı olaraq, Azərbaycanın hər iki qismində, Quzey Kafkasyada, Güney Kafkasyanın Ermənistan və Gürcüstan bölgələrində və kəza Anadoluda uzun boylu səyahətlər yaparaq bu məmləkətlərin yaşayış şərtləri ilə layiqincə tanışmışdır. Eyni zamanda ayaq basdığı hər ölkənin çeşidli kültür mühitilə dostluq və yaxınlıq təsisinə müvəffəq olmuşdur.

Yenə məqam və vəzifəsinin verdiyi imkanlar sayəsində Abbasqulu Ağa Don nəhrinin sahillərini, Ukraynanı, Velikorosyanı, Estoniya, Letonya və Litvaniya gibi Baltik məmləkətlərini və Polonyanı birər-birər dolaşaraq həm yüksək mövqe sahibi kimsələrlə, həm də elm və irfan əhli ilə tanışıqlıq və dostluq qurmuşdur. Kəndi təbirincə, bu səyahətlərində «ağla və ruha qida və pərvərişverici bir çox şeyləri görüb, onları əxz etməyə səy və himmət» sərf etmişdir.

Gərək uzunboylu səyahətlərindən və elmü-irfan əhli və məqam, nüfuz sahiblərilə yapdığı yaxın təmaslardan, gərəksə edindiyi geniş bilgi və təcrübələrdən Abbasqulu Ağa Bakıxanlı dünyada sərvət və mövqeyin, ad və şöhrətin, soy və nəslə dayanan imtiyazların həp boş, keçici və fani olduğuna qənaət gətirmiş və şu nəticəyə varmışdır: «Ancaq bir şeyə etiqadım dürüst və inanmağım möhkəmdir. O da budur: Ülum və fünun aləmində bir mərifət və məharət qazanar isən, lazımınca bilik hasil edib özündən sonra gələnlərə öz elm və biliyindən bir səmər və əsər qoyar isən, ol vəqt özünü xoşbəxt hesab etməyə haqqın olar, dari-üqbaya rehlət edəndən sonra bu dünyada yenə yaşamış kimi olursan. Belə bir əqidədə olduğumdan və bu əqidəni sevdiyimdəndir ki, ona xidmət etməyi özümə vacib bilib bir neçə əsərləri qələmə almağa cəsarət etmişəm...»

Abbasqulu Ağa daha dövlət hizmətinə girmədən öncə, Qubada «Gülüstan» adını daşıyan ədəbi bir dərnək quraraq, şəhərin tanınmış şair və ədiblərini bir araya gətirməyə müvəffəq olmuşdu. Bu dərnəkdə Firdovsi, Sənai, Xəyyam, Hafiz, Cəlaləddin Rumi, Xaqani, Nizami və Füzuli gibi böyük şair və fikir adamlarının əsərləri incələnib münaqişə edilirmiş.

Abbasqulu Ağanın ədəbi həyatındakı bu dövrəyə «Gülüstan dövrəsi» denilməkdədir. Şair Kafkasya Genəl Valiliyində ədəbi xələfi Mirzə Fətəli Axundzadə gibi Doğu dilləri mütərcimliyinə təyin edilmiş və 1834 sənəsinə qədər sürən təqribən ön dörd yıllıq hizmət müddətində albaylığa qədər yüksələrək dürlü nişan və madalyalarla təltif olunmuşdur. Fəqət Abbasqulu Ağa da xələfi Mirzə Fətəli qədər rus dövlət hizmətini bir qayə deyil, sadəcə bir keçim və çalışma vasitəsi olaraq tələqqi etmişdir. Hər iki ədibin qayəsi elm və ədəbiyyat yoluyla kəndi millətlərinə əzəmi fayda və yardım sağlamaqdı. Məmuriyyətin verdiyi maddi və mənəvi imkanlar bu qayənin gerçəkləşməsinə hizmət ediyordu.

Abbasqulu Ağa daha 40 yaşında ikən Tiflisdəki məmuriyyətindən istefa edərək Qubaya dönmüş və bir müddət babasının çiftliyində oturmuşdur. Ən qiymətli əsərləri də, iştə, o sıralarda vücuda gətirilmişdir. Bunlardan «Qanuni-Qüdsi» və «Gülüstani-İrəm» əsərlərinin yayınlanması işlərilə ilgili olaraq, 1840-1845 sənələri arasında daha bir kaç kərə Tiflisə gedib-gəlmiş və bu səyahətlərində bəzən uzun müddət orada qalmışdır. Tanınmış Azərbaycan şairi və filosofu Mirzə Şəfi Vazeh ilə dostluq təsis etməsi və onun qurduğu «Divani-Hikmət» ədəbi dərnəyinə iştirakı da o dövrəyə, yəni təqribən 19-cu yüzyılın qırxıncı sənələri bidayətinə rastlamaqdadır. Abbasqulu Ağa bu dərnəyin ən fəal üyələrindən olmuşdur.

Son dərəcə mütədəyyin bir zat bulunan Abbasqulu Ağa 1846 sənəsində İstanbul yoluyla Həccə getmiş və Məkkə ilə Mədinə arasındakı «Vadiyi-Fatimə» denən yerdə haqqın rəhmətinə qovuşaraq, orada gömülmüşdür.

***

ƏSƏRLƏRİ

Abbasqulu Ağa Qüdsinin ən mühüm və ən dəyərli əsəri, şübhəsiz ki, «Gülüstani-İrəm»dir. Fars dilində qələmə alınan bu əsər uzun və sürəkli bir əməyin məhsuludur. Mövzusu Azərbaycan və Dağıstan tarixləridir. Kitabın ön sözündə müəllifin tarixi olayları tam bir tərəfsizlik zehniyyətilə mütaliə etdiyi, məsnəd olaraq da hökmdarların fərmanlarını, əski əlyazılarını, memari əsərləri, qədim para və sikkələri, xalq dilində dolaşan və doğru olub-olmadığı təhqiq süzgəcindən keçirilən rəvayətləri və sairəni almış olduğu bəlirdilməkdədir.

Mərhum Qüdsi Azərbaycan və Dağıstan tarixlərini beş dövrəyə ayırmaqdadır:

1. Ən qədim dövrlərdən başlayıb İslam dininin zühuruna qədər
2. İslamiyyətdən Moğol istilasına (1258) qədər
3. Moğol istilasından Səfəvi sülaləsinin hakimiyyət təsisinə qədər
4. Səfəvi hakimiyyətindən Azərbaycan xanlıqlarının təşəkkülünə qədər
5. Yarımmüstəqil xanlıqlar dövrü, Nadir şahın ölümündən (1747) İran ilə Rusiya arasında əqd olunan Gülüstan müahidəsinə (1813) qədər.

Kitabın sonunda Azərbaycanın elm adamları və şairləri haqqında qısaca bilgi verilməkdədir. Abbasqulu Ağa tarixi tədqiqlərini Heredot, Strabon, Plutarx, Mirhond, Xandəmir, Övliya Çələbi, Nestor və Karamzin gibi əski yunan, Şərq və rus qaynaqlarına istinad etmişdir.

Bunca zəngin və geniş qaynaqlardan faydalanaraq vücuda gətirdiyi dəyərli əsərin basılmasına və nəşrinə müsaidə almaq məqsədiylə müəllif bizzat onu ruscaya tərcümə etmiş və dövrün müstəbid rus hökmdarı Birinci Nikolaya göndərmişdir. Bu münasibətlə çara yapdığı müraciətdə kitabının önəmini bəlirtmək zimnində şöylə deməkdədir: «Mavərayi-Kafkasyanın yüksək əmirləri məiyyətində uzun hizmətim müddətincə ölkəmin şimdiyə qədər hənüz yazılmamış bulunan tarixini qələmə alma zərurətini düşünüb duruyordum, ötə yandan vətənimin tarixini yazmaq için hər kəsə mümkün və müəssir olmayan bəzi qiymətli vəsiqələrdən istifadə etmək imkanına sahibdim. Bütün bu hallar məni mənsub bulunduğum ölkənin keçmiş həyatını yazmağa və boş vaxtlarımı bu işə həsr etməyə məcbur qıldı...»

Müraciətinin geri qalan qismində Abbasqulu Ağa böyük bir təvazöylə tarix sahəsindəki təcrübələrinin nöqsanlığından bəhs edərək, girişdiyi işin bu yolda bir başlanğıc təşkil edəcəyi və vətəndaşları arasında yarış həvəsini doğuraraq, mükəmməl əsərlərin vücuda gətirilməsinə səbəb olacağı ümidini izhar etməkdədir.

Çarlıq idarəsi «Gülüstani-İrəm»in tədqiqilə İmperatorluq Elmlər Akademisini məmur qılmışdı. Akademi də bu işi əzalarından Brosseyə və Dorna həvalə etmişdi. Hər iki akademisyən «Gülüstani-İrəm»in elmi dəyərini təqdirlə şu mütaliələri bəyan etmişlərdir: «... Abbasqulu Ağa-

nın əsərində bu günə qədər Avropa alimlərincə bəlli və müəssir olmayan Şərq qaynaqlarından alınma zəngin bilgilər vardır. Bu bilgilər əlimizdə bulunan məlumatı bir xeyli təkmil etməkdədir. Əsərdə müxtəlif coğrafi mövqelər haqqında bilgi verilməklə bərabər, Şirvan və Dağıstanın ən əski dövrlərdən başlayaraq ən yeni dövrlərə qədər sürən tarixinin ibrətverici bir özəti sunulmaqdadır. Buna binaən, biz bu əsəri Kafkasya ölkələrinin tarix və coğrafiyasına ən faydalı və mühüm bir əlavə olaraq tələqqi etməkdə kəndimizi haqlı görüyor və müəllifin səy və himmətinə qarşı hörmətlə müvafiqətimizi bəyan edəriz».

Fəqət bütün bu məziyyətlərinə və səlahiyyətli elm adamlarının yüksək təqdirlərinə rəğmən, müstəbid rus idarəsi «Gülüstani-İrəm»in nəşrinə müsaidə etməmişdir. Çünki gərək ogünkü çarlıq Rusiyası, gərəksə bugünkü sovet Rusiya türklük üzərindəki istibdad idarələrini idamə etdirmək qayəsilə türk tarixini türkdən saxlamağı kəndilərinə bir üsul ittixaz etmişlərdir.

«Gülüstani-İrəm» Azərbaycan və Dağıstan tarixlərini tədqiq için əsaslı bir qaynaq vəzifəsini görməkdədir. Bu kitab hər iki ölkənin tarixinə dair yazılmış ilk modern əsərdir. Əsərin farsca yazılmış olması qiymətindən bir şey əksiltəməz. Çünki o dövrdə hənüz Azərbaycanda türkcə elm lisanı olaraq kafi dərəcədə gəlişmiş və yayılmış deyildi. Türkcə daha ziyadə şeir və ədəbiyyat lisanı idi. Abbasqulu Ağa türkcənin elm lisanı olaraq Azərbaycanda gəlişməsi və yayılması için əlindən gəldiyi qədər çalışmışdır. Fəqət dövrünün icabı olaraq, iki mühüm Kafkasya ölkəsinin tarixinə dair yazdığı zəngin və qiymətli əsərini ogünkü Şərq-İslam dünyasının böyük bir qismində qolayca oxunan və anlaşılan bir dildə qələmə almağı tərcih etmişdir. Abbasqulu Ağa kəndi dövrünün hər üç Şərq-İslam lisanına əsaslı surətdə hakim və vaqifdi. Bunlardan dilədiyini istədiyi şəkildə və istənən yerdə kullanırdı. Fəqət yeganə fikri və qayəsi kəndi ölkəsinə və xalqına hizmət etməkdi.

Tarix tədqiqində kullandığı metod modern tarixçilərin kullandıqları elmi metoddur. Dağıstan və Azərbaycan tarixlərini birlikdə və birbirilə ilgili və bağlı olaraq incələmiş olması ayrıca qeydəşayandır. Abbasqulu Ağa bu əsərini böyük bir şövq və həvəslə, dərin və səmimi bir vətən eşqi ilə qələmə almışdır. Kəndisini təqib edən tarixçilərdən 19-cu əsrin ikinci yarısında yaşamış bulunan Mirzə Həsən Əfəndi Əl-Qə-

dəri «Əsəri-Dağıstan» başlıqlı əsərini tamamilə «Gülüstani-İrəm»in təsiri altında yazmış olduğunu və bu kitabdan bir çox bilgilər aldığını bizzat qeyd edər.

***

Abbasqulu Ağanın ikinci önəmli əsəri «Təhzibül-əxlaq»dır. Əsərin adından da anlaşılacağı gibi bu, əxlaq, tərbiyə, pedaqoji, psixoloji və fəlsəfə ilə ilgili konuları ələ alan ciddi və dərin bir etüddür. Bu kitab da farsca yazılmışdır. Müəllif kəndi əxlaq qaydalarını təsbit və tərif edərkən təcrübəli bir öyrətmən və praktik bir eyitmən gibi davranaraq hər şeydən öncə insan ruhunun müxtəlif təmayüllərini və bəşər təbiətinin çeşidli vəsflərini incələmək surətilə işə başlıyor.

Mərhum Qüdsiyə görə: «Varlıq için yoxluq olamaz, biz dəyişikliyə, haldan-hala keçişə «yoxluq» adını takmışız. Bütün şeylər ortadan qalxar, bir şəkildən başqa bir şəklə keçər, lakin yox olmaz. Bu, varlığın ta kəndisidir».

«Təhzibül-əxlaq»ında elm ilə əməl arasındakı münasibətlərə təmas edən Qüdsi elmi gəminin yelkəninə bənzətməkdə və yelkəni olmayan bir gəmi dənizdə başıboş dolaşacağı gibi, elmsiz bir əməl də istiqamətsiz və hədəfsiz qalmağa məhkumdur, – deməkdədir. Abbasqulu Ağaya görə, «Dünyada olan şeylərin həpsi əmələ, əməl isə bütün fəzilətlərin qaynağı bulunan elmə dayanmaqdadır».

Müəllif elm ilə əməl, yəni nəzəriyyat ilə tətbiqat arasındakı ahəng lüzumunu daha açıq bəlirtmək məqsədiylə həkim Sənainin şu farsca beytini misal olaraq zikr etməkdədir:

Kar-i bielm tohm dər-şurəst,
Elm-i bikar zəndə dərgurəst.

Yəni:

Elmsiz bir iş çoraqlıq toprağa atılmış toxuma bənzər. Əməlsiz elm isə məzara gömülmüş diri bir insandan fərqsizdir.

Həqiqi eşq məsələsi üzərində əhəmiyyətlə duran Bakıxanlı onu şu şəkildə tərif ediyor: «Eşq insanın başlıca xüsusiyyəti, sevginin son və ən yüksək dərəcəsidir ki, o da hər bir insan təbiətində meyl, ünsiyyət, həvəs, şövq və məhəbbət mərhələlərindən keçər və nəhayət, «eşq

sultanınca» könül aləminin artıq bir dürlü düşünməyə və qurtulmağa fürsət və imkan buraxmayacaq bir tərzdə zəbt və təşhiri ilə nəticələnir. Eşq insanı kəndi varlığından təcrid edər. Şöylə ki, aşiqin gözləri önündə məşuqəsinin xəyalından başqa bir xəyal cilvələnməz, aşiq kəndi mənliyini məşuqəsinin şəxsində bulur və yalnız sevgilisi için yaşar».

Eşqin bu dahiyanə tərifi məşhur alman filosofu Hegelin şu fikrinə tamamilə təvafüq etməkdədir: «Eşq bir mənliyin kəndini öbür mənlikdə bulmasıdır».

Fəqət Qüdsi hər dürlü şəxsi ehtiraslara və maddi mənfəətlərə dayanan «eşqə» müxalif olduğu gibi, saiqi-şəhvət bulunan «eşqi» də rədd ediyor. Ona görə: «Eşq müstəhsəndir, çünki o, insanı dünyanın hər nevi rəzil və iyrənc ehtiraslarından qorur və könlünü yalnız məşuqəsinə bağlar».

Abbasqulu Ağanın «Təhzibül-əxlaq»da vəz etdiyi əxlaq prinsipləri şunlardır: İnsan sevgisi, insaf və vicdandan ayrılmamaq, içi və dışı bir olmaq, doğruluq, mərdlik, cəsarət, məzlumları qoruma, möhtaclara yardım, hər kəslə iyi keçinmə, təvazö, kötü hallardan sakınma, şöhrət düşkünü olmama və həsədə qapılmama...

***

Gerçək bir öyrətmən və eyitmən sifətiylə mərhum Qüdsinin bu səfər doğrudan-doğruya çocuqlara xitab etmək surətiylə yazdığı bir başqa əxlaqi əsər də 102 öyüddən ibarət bulunan «Nəsihətnamə»sidir. Qüdsi bu kitabını türkcə olaraq hər çocuğun anlaya biləcəyi açıq və sadə bir dildə yazmağa çalışmışdır. Bu o dövrdə qolay bir iş deyildi. Çünki o çağda türkcə bir nəsr və hələ elm lisanı olaraq Azərbaycanda yeni yerləşiyordu. Yazı lisanımız türkcənin digər qollarında olduğu gibi, saysız farsca və ərəbcə kəlmələr, tərkiblər və təbirlər vasitəsilə istila edilmişdi. Yabançı sözlərlə birlikdə yabançı qramer qaydaları da dilimizə soxulmuşdu. Ədəbi dil xalqdan uzaqlaşmış və ona yabançı qalmışdı.

İştə, böylə bir dövrdə Abbasqulu Ağa açıq və qolay bir türkcə ilə çocuqlara əxlaqi öyüdlər vermək istiyordu. Şübhəsiz, kəndisi bəzi öyüdlərində buna pək əla müvəffəq olmuşdur. Fəqət bəzən də ogünkü lisanın təsirlərindən pək sıyrılamamışdır.

Abbasqulu Ağa bizzat bu məsələyə təmasla şöylə diyor: «...Hərçənd uşaqlara təlim verməkdən ötrü axtardım, aralıqda bir nüsxə görmədim ki, ləfzdə və mənada asan olub, onların xülqlərinin göyçəkliyinə dəlalət eyləsin.

Danışılmış və yazılmış nüsxələrin bəzisi ibarətdə və bəzisi mənada bir nevi qarışıqdır ki, çox təlim edənlər özləri onları anlamıyorlar və bir parasında dəxi mətləblər eylə uzun və pərişandır ki, onu zəbt etmək və anlamaq müşkül görünür».

Misal olaraq, Abbasqulu Ağanın bəzi öyüdlərini burada zikr edəlim:

– Bir şəxs ki, gəlib özgənin ayıbını sənin yanında desə, ondan uzaq ol ki, sənin ayıbını özgələrə deyər.

– Qəzəb vaxtı insanın halı pərişan olur. Özünü o halda hamı şeydən qırağa tut. Bir iş ki, eyləmək istədin, qəzəbin sakit olandan sonra eylə!

– Yaxşı əməldən iki dəfə ləzzət apararsan: Birisini o işi edən vaxtda, birisini də o işin səmərəsi sənə yetişən zamanda.

– Pak damənliyi, yəni təmiz heysiyyətliyi özünə adət eylə! Hər kəs ki, fəsad işlərə mürtəkib olar, onun dini və həyası gedər və xalq içində tez birabirü və rüsva olar.

Böyləcə, mərhum Qüdsi çocuqlara verdiyi 102 öyüdündə böyüklərə qarşı sayğı, qonu-qonşularla iyi keçinməyi, fəna işlərdən sakınmağı, doğruluğu, qeybət etməməyi, fəqir və yoxsullara yardım, səmimiyyət, səbat və mətanət, cəsarət və fədakarlıq, millət və vətən sevgisi təlqin etməkdədir.

Mərhum Qüdsinin türkcə olaraq yazdığı bir başqa əsəri də «Kitabi- Əsgəriyyə»dir. Bu, Quba şəhərindən Əsgər adını daşıyan bir gəncin həyatını və başından keçən eşq macəralarını masalvari təsvir edən gah nəzm, gah da nəsrlə qələmə alınmış bir hekayədir.

«Kitabi-Əsgəriyyə» Azərbaycanda türkcə nəsr dilinin gəlişməsində önəmli yer tutan bir əsərdir. Hekayənin başlanğıc qismində Qüdsi oxuyucularına şu öyüdü verməkdədir: «... bu rəsmi dilaviz ilə firqeyi-ülul-əlbabə bəyani-mafilbal etmiş kim, riyazi vücudi-bəşəriyyədə qisim-qisim möhnət və enduh nihalı yədi-qüdrətlə əkilibdir və insanın sinəsi beş gün məsrur olsa da, on gün qəmü qüssə ilə malamal olur. Labüdd aləmi-surətdə iqtizayi-təbiəti-bəşəri oldur ki, hər kimsə gərək

bir növ mənzur ilə cilabəxşi-didəyi dil olub, ovqati-şərifi zaye və bihudə keçirməsin və bəzmi-həvadisdə cami-qəflətdən təbi-talibi-hüşiyarə badeyi-cəhl içirməsin».

Qüdsinin bədii nəsr lisanına bir örnək olmaq üzrə verdiyimiz bu qismi bugünkü dilimizə çevirəcək olursaq, şöylə deyə biliriz: «Şüur və idrak sahiblərinə gözəl və çəkici bir tərzdə içindəkiləri anladaraq demək istəmişdir ki, Tanrının qüdrət əlilə insan vücudunun bağçasına çeşid-çeşid kədər və möhnət fidanları dikilmişdir, bəşərin göysü beş gün sevinc və nəşə ilə fərahlanırsa da, buna müqabil on gün də qəm və tasa ilə çırpınıb-durur. Bununla bərabər, mühəqqəqdir ki, şu zahiri aləmdə bəşər təbiətinin gərəyincə, hər kəs şu və ya bu məqsədlə qəlbini aydınladaraq, qiymətli zamanını və əziz ömrünü boş keçirməməyə çalışmalı və bir taqım hadisələr qarşısında oyanıq və istəkli könlünü qəflət və cəhalətə düşürməməlidir».

Bu sözlərdə müəllif kəndi oxuyucularını həyatı olduğu gibi qəbula, səyü-qeyrətə, qəm və kədərlər qarşısında səbrli və dayanıqlı olmağa dəvət ediyor.

***

Bu başlanğıcdan sonra Əsgərin bir mərsiyəxan (növhəxan) qızı ilə eşq macərasına keçiliyor. Əsgərlə sevgilisi bir-birinə qarşı tərtəmiz bir eşqlə bağlı bulunuyorlar və bu uğurda çəkdikləri min bir cəfaya rəğmən səbat və vəfakarlıqlarından heç bir şey kayb etmiyorlar. Bu, hər nevi təsir və təzyiqdən azadə iki könlün birləşməsi ilə hüsula gələn sərbəst bir eşqdir. Onun içindir ki, «firqəeyi-ayıbçı və taifeyi-tə'nəgu» bu sərbəst könül birləşməsinə qarşı atəş püskürüyor. Müəllif bu gibiləri tənqidlə hər iki sevgilinin yaxın bir zamanda bir-birinə qovuşacaqları ümidi ilə hekayəsinə məsud bir nəticə ilə son veriyor və ayrıca bu müstəqbəl birləşməyə dair «nüsxeyi-cədid inşad edəcəyini» vəd ediyor.

Böyləcə, Abbasqulu Ağa həzin bir eşq macərasını bu tərzdə iyimsər bir sonuca bağlamaqla əski aşiqanə dastanların süni tragizmindən sıyrılaraq, əsərinə daha fazla həyatiyyət vermiş oluyor. Bununla bərabər, əsər möhtəviyyatı və ifadə tərzi etibarilə sentimental bir xarakter daşımaqdadır. Hər iki sevgilinin ayrılığından doğan ruh əzabları, həyəcanlı lirizm, dərin insan sevgisi və başqa içli bəşəri duyğular hekayənin başlıca konusunu təşkil etməkdədir. Fəqət əsərə hakim bulunan əsas

fikir o dövrün feodal-patriarxal adət və ənənələri xilafına olaraq, sərbəst eşq mövzusunu müdafiə etməkdədir. Bunu yaparkən Qüdsi, eyni zamanda qadınların insan haqlarını savunmaq düşüncəsi ilə hərəkət etməkdədir.

Abbasqulu Ağanın farsca yazmış olduğu bir başqa mühüm əsəri də «Qanuni-Qüdsi»dir. Bu fars dilinin qramer qaydalarını izah edən elmi və orijinal bir tədqiq əsəridir. Kitabın farsca mətni 1831 sənəsində, rusca tərcüməsi isə 1841-də Tiflisdə yayınlanmışdır. Müəllif dilin ictimai və siyasi rolunu tərif edərkən şöylə deməkdədir: «Dil insanın qəlbindəki gizli mənaları ifadə edən bir vasitədir. Hər millətin, hər insan topluluğunun kəndinə məxsus bir dili vardır».

Əsər okullar için yazılmış bir dərs kitabı olması həsəbilə açıq və qolay anlaşılır bir dildə qələmə alınmışdır.

Qüdsinin çox önəmli elmi əsərlərindən biri də farsca və ərəbcə olaraq astronomiyə dair yazmış bulunduğu «Əsrarül-məlaküt»dür. Kitabın ön sözündə astronomi elminin tarixi haqqında qısaca bilgi verilməkdədir. Daha sonra astronomidə bir-birilə mücadilə halında bulunan Ptholomee (Ptolomey – *N.C.*) və Kopernik sistemləri arasında müqayisə yapılmaqda və bunlardan Kopernik sistemi tərcih olunmaqdadır. Böyləcə, Bakıxanlının «Əsrarül-məlaküt»ündə Kopernik sistemi əsas olaraq alınmışdır. Bununla bərabər, Abbasqulu Ağa fikir və hökm sərbəstisini mühafizə edərək, Kopernikin bəzi nəzəriyyələrini tənqid süzgəcindən keçirmişdir. Eyni zamanda müəllif modern ingilis astronomi elminin kəşflərinə dayanaraq, əski yunan və Şərq astronomlarının yanlışlarını bəlirtmişdir.

«Əsrarül-məlaküt» üç qismə ayrılmışdır: 1. Yer kürəsinin əhval və keyfiyyəti, 2. Əcrami-səmaviyyə, 3. Əhvali-aləmin bizatihi-qaim bir nizam ilə düzənlənməsi.

Birinci qisim coğrafi, ikinci və üçüncü qisimlər isə astronomik bilgiləri ehtiva etməkdədir.

Abbasqulu Ağa 1846 sənəsində Məkkəyə getmək üzrə İstanbuldan keçərkən bu əsərini Sultan Əbdülməcidə təqdim etmişdir. Müəllifin vəfatını mütəaqib, əsər mərhum Həyatizadə Seyid Xəlil Şərif tərəfindən «Əfkarül-Cəbarüt fi tərcümətül-Əsrarül-məlaküt» başlığı altında osmanlıcaya çevrilmişdir.

Abbasqulu Ağanın başqa əsərləri şunlardır:

1. «Eynül-mizan» ərəbcə məntiq elminə dairdir.

2. «Kəşfül-Qəraib» farsca Amerikanın kəşfi və həyat şərtləri haqqında bilgi verir.

3. «Mişkatül-ənvar» farsca yazılmış olub, dini mahiyyətdə və əxlaq bəhsinə mütədair mənzum bir əsərdir.

4. «Miratül-cəmal» dini mahiyyətdə farsca şeirlər məcmuəsidir.

5. «Ümumi coğrafiya» farsca yazılmış olub, bizzat müəllifin qeyd etdiyinə görə tamamlanamamışdır.

6. «Riyazül-Qüds» Kərbəla faciəsi haqqında olub, Füzulinin «Hədiqətüs-süəda»sına nəzirədir.

***

Abbasqulu Ağa Qüdsi, eyni zamanda bir çox qəzəl, müxəmməs və məsnəvilər yazmışdır. Bu gibi əsərlərində əski klassik şeirin qaydalarına riayət edər. Fəqət mövzu və möhtəvada daima kəndisinə xas özəlliyini yüksək istedad və qabiliyyəti sayəsində mühafizə edə bilmişdir və bu özəllik, hətta başqa şairlərdən yapdığı iqtibas və tərcümələrdə və onlara yazdığı nəzirələrdə belə qolayca görülməkdədir.

Qüdsinin şeiri üzərində şəkil və möhtəva etibarilə Mövlanə Cələləddin Ruminin və Füzulinin qüvvətli təsirləri müşahidə edilməkdədir. Mövlanə dərin fəlsəfi fikirləri, Füzuli də səmimi lirizmi, incə təşbeh və istiarələrilə Qüdsinin şeiri üzərində silinməz birər iz bırakmışlardır.

Məsnəviləri daha ziyadə Mövlanədan mülhəmdir. Qəzəlləri isə Şirazlı Hafizi və ya Füzulini andırmaqdadır. Məsələ, gerçək eşq haqqında farsca yazdığı bir məsnəvisində Abbasqulu Ağa Kərbəla faciəsini misal gətirərək şöylə diyor:

Eşqbazi nist kar-i hiç kəs
Mi-neyayəd kar-i şahin əz məkəs!
Aşiqi kar-i Hoseyn-i təşnə est:
Kü həmi təşnə bə zehmi dəşnə est!
Zəhmi tig-u xəncər-u tir-u kaman
Bər şehi din mi zədənd an kafiran,
U həmi mi –qoft ba süz-i cigər
«Zəndə şod canəm bizən zəhmi digər!
Mer mera ey qaş səd can mi şodi:
Ta həmə isar-i canan mi şodi!

Ey dəriqa, canəm əz yek biş nist!
Tohfei zin biş der dərviş nist!
Mi-nedarəd məğz an aşiq ki püst
Çak mi-netvan zədən der rah-i düst!
Məğz çe büvəd, öüst çe büvəd, düst-düst!
Aşiqanra eyn-i məqsud üst-üst!
Ey qəman darid guya, ey guruh,
Kəz ətəş mən amədəstəm bər sotuh?!
Ab əgər hahəm zəmin dərya şəvəd,
Haqq der afaq na-peyda səvəd!
Mən nə təşnə, səlsəbil-i kosərəm,
Ab-i heyvanəst əz pa ta sərəm!
Hökməm ər bər əksi in doran şəvəd,
Asiman sakin, zəmin gərdan səvəd!..
Bər-dərid, ey kafiran, in perdarə,
Həm nəhid in qalob-i əfsordəra!
İn ten-i lagər miyan-i məst xan,
Bər-keşid in pərdəra xoş zin miyan!»
Ney, xəta şod, ten khəm əz can-est, can!
Can zi-ten başəd, əgər bini eyan.
Mi-nədidi çun sərayəd Moləvi,
Bolboli bağ-i cinan der Məsnəvi?!..
«Ten zi-can-u, can-zi-ten məstur nist,
Leyk kəsra didi can dəstur nist!»

Mənası şöylədir:

Gerçək aşiq olma hər igidin həddi deyildir, şahinin mərifətini sinək başaramaz! Həqiqi eşq Kərbala çölündə susuzluqdan ciyərləri yanan Həzrəti Hüseynin qapıldığı eşqdir ki, aldığı xəncər yaralarından zövq və nəşə duyardı! Kafirlər o böyük din mürşidinə qılınc, xəncər, ox yaraları vurduqca, o, vəcdə gələrək: «Bir daha vurun, diyordu, çünki siz vurduqca mən yeni can buluyorum. Keşkə yüz canım olsaydı da, həpsini canan uğruna fəda etsəydim! Nə yazıq ki, yalnız bir tək canım var! Mənim gibi dərvişin bundan başqa bir ərmağanı olamaz. Sevgilisi yolunda dərisinə (canına) qıyamayan aşiqə şüur və idrak sahibi deməməz. Aşiqlərin ən yüksək qayəsi sevgiliyə erişmək ikən, bu yolda ağlın və ya canın nə qiyməti ola bilir?! Ey qafil xalq, susuzluqdan usandığımımı sanıyorsunuz? Mən su istəyəcək olursam, torpaq üfüqlərdə qeyb olur və Yer dəniz halını alır.

Mən susuz deyil, kövsər çeşməsinin ta kəndisiyim və tamamilə abi-həyat içindəyim! Əgər kainatın gedişini dəyişdirməyə əzm edərsəm, Göy yerində durur, Yer isə hərəkətə gəlirdi. Ey kafirlər, şu pərdəni yırtın və bu yorğun qəlibi bir tərəfə bırakın! Sevgili ilə aramızda hail təşkil edən şu cılız vücud pərdəsini qaldırın! Xeyr, yanlış söylədim, iyi düşünüləcək olursa, vücud candan, can da vücuddan ayrı deyildir. Duymadınmı ki, cənnət bağçasının bir bülbülü olan Mövlanə «Məsnəvi»sində nə qədər gözəl söyləmişdir:

«Nə bədən candan, nə can bədəndən gizli deyil,
Fəqət canı görməyə kimsə izinli deyil!

***

Qüdsinin təşbeh, təsvir, məcaz və istiarə baxımından zəngin, lisan etibarilə Füzulini andıran türkcə qəzəllərinə örnək olaraq şu qəzəlini verə biliriz:

Çox gözdə sürmə, əldə həna, üzdə xal olur:
Nisbət bu qaşü gözə bənzər məhal olur.
Qafi-qaşın o tayı telin, lami-ləblərin
Aləmdə əlbir eyləsə billah qital olur![1]
Lövhi-xəyalə hər necə tərh eyləsəm qaşın,
Gəlməz xəyalə axırı məhzi-xəyal olur!
Sirri-dəhanı sordum o şəkkər dodaqdən:
Pünhan danış bu sirri, − dedi, − qilü-qal olur.
Görcək o atəşin üzünü nutqum oldu lal,
Qüdsi, cərəs düşəndə oda, zəngi lal olur.

Qüdsi bir çox mənzum məktublar yazmışdır. Bunlardan mühüm bir qismi şairin Tiflisdən Qubadakı dostlarına yazdığı məktublardır. İştə, «Tiflis» başlıqlı bir dənəsi:

Sən orda səfa eylə
Dilcular arasında,
Mən qalmışam avarə

[1] Ərəb hərfləri ilə yazılan «qətl» kəlməsi üç hərfdən ibarətdir: q, t, və l. Şair sevgilisinə diyor ki: qaşının birinci hərfini təşkil edən «q» ilə telinin «t» və ləbinin (dodağının) «l» hərfləri bir araya gələcək olurlarsa, «qətl» kəlməsi hasil olur ki, qan tökülməsi, qovğa çıxması deməkdir.

Gürcülər arasında.
Dərdü qəmi-hicrandan
Qürbətdə pərişanam,
Döndü ciyərim qana
Qayğular arasında.
Bir yana əgər baxsam,
Qəm çəkmək olur bica,
Bunlar kimi məhtələt
Xoşxulər arasında.
Hər canibə əzm etsəm,
Əzbəs ki, gözəl çoxdur,
Tuti sifətəm heyran
Güzgülər arasında.[2]
Əbr içrə günəş manənd[3]
Pərtov salır afaqə
Rüxsarəsi hər şuxun
Geysulər arasında.
Yüz işveyi-mehr ilə
Aşiqlərə meyl etmək,
Bu şəhridə adətdir
Məhrulər arasında.
Bunları görüb, Qüdsi,
Hər kimsə ki, aqildir,
Qılmaz özünü rüsva
Bədgulər arasında.

Qüdsi, eyni zamanda qüvvətli mizah sahibi bir şairdir. Rusiya ilə İran arasında 1826-1828 yıllarında vüqu bulan hərb dolayısıyla vəzifəsi gərəyincə, bir ara Təbriz şəhərinə uğrayan Qüdsi ora əhalisinin gerilik və cəhalətini görərək, ürək acısı ilə «Təbriz əhlinə xitab» başlıqlı şu həcviyyəsini yazmışdır:

Əya güruhi-sitəmkar, əhaliyi-Təbriz,
Vəfa yerində cəfa sizdə bu nə adətdir?!
Həvayi-nəfsə mütiü tamam eyşpərəst,
Görüm, İlahi, dağılsın necə vilayətdir!

[2] Papağan gibi aynalar arasında şaşırıb qalmışım.
[3] Günəşin buludlar içərisində qalması gibi

Nə elmə talib olan var, nə rəsmdən agah[4],
Vəli bu firqəyə mətlub zibi-surətdir.
Kimin ki, xülqi müzəyyəndir, istəməz zinət,
Kişi özün bəzəmək cəlhdən əlamətdir.
Yetişdi bir yerə iş hər kimin ki, saqqalı
Hənalı olsa uzun, hörməti ziyadətdir.
Bu tərz olursa, parak tazi tuladan yeydir,
Sürü içində siyiz sahibi-kəramətdir.
Nə qədər seyr edirəm küçə ilə bazarı,
Adam çox az görünür, izdihami-kəsrətdir[5].
Vüfuru vardır üç firqənin bu kişvərdə[6],
Axund ilə xərü xan bihədü nihayətdir.
Bunun əmmaməsi rəngin, bunun yükü səngin,
Xüsusən ol birinin cübbəsi qiyamətdir.
Xəri çıxaq aradan, bunlara şəbahəti yox,
O binəvanın işi rəncilə rəyazətdir.
Axund ilə xana hər tənə eyləsən yaraşır,
Bu müftəxorların əndişəsi şərarətdir.
Nə rahi-rəsmi-nəsara, nə şiveyi-islam,
Nə bütpərəst süluki, bular nə millətdir?!
Bular vuran od idi əhli fəqr xərməninə,
Ki, indi şöləvər oldu cahanda, vəhşətdir.
Süluki-dəhrdə təhsibi-nəfs üçün fazil,
Müdəllәl eylədigin söz sana nəsihətdir.

***

ELMİ VƏ ƏDƏBİ ŞƏXSİYYƏTİ

Abbasqulu Ağa haqqında şimdiyə qədər yazdıqlarımızdan görüyorsunuz ki, o, Türk dünyasında və İslam aləmində yetişmiş müstəsna şəxsiyyətlərdən biridir. Hökmdar ailəsində doğmuş və böyümüş olmasına rəğmən, bütün həyatını elmə, ədəbiyyata və mənsub bulunduğu topluluğa hizmətə həsr etmişdir. O, çoxtərəfli bir alim və geniş istedadlı ədəbiyyatçıdır. Əsərlərində dərindən-dərində təmas etdiyi başlıca elmi və ədəbi sahələri şu tərzdə sıralaya biliriz: Şeir və ədəbiyyat, əxlaq

[4] Nə əxlaq, nə mənəviyyatdan xəbəri və ya nəsibi olanlar
[5] Qələbəlik fazladır.
[6] Üç nevi məxluq bu məmləkətdə çoxluqdur.

və fəlsəfə, lisaniyyat, tarix və coğrafiya, astronomi, etnoqrafiya və pedaqoji. Elmi tədqiqlərində sərbəst və müstəqildir. Kəndisindən öncə gələn bir çox Şərq və Qərb alimlərinin əsərlərini böyük bir diqqətlə incələmiş, fikir və dəlillərini düşünüb tartmış, onlardan «istifadə edərkən çox az şey əxz etmiş, lakin çox məlumat edinmişdir» («Təhzibül-əxlaq»ın ön sözündən). Yenə eyni ön sözdə mərhum Qüdsi elmi yaradıcılıqda hər nevi təqliddən uzaq qalmağı, orijinal elmi əsərləri vücuda gətirməyi, tədqiqə tabe tutulan elmi mövzuların həqiqət və mahiyyətini araşdırmağı tövsiyə etməkdədir.

Qüdsinin gerçək eşq haqqındakı psixolojik və fəlsəfi düşüncələri, bilxassə «Fatimə» başlıqlı şeirində kəndi bədii ifadəsini bulmuşdur. Nə yazıq ki, bu şeirin əsli bu gün əlimizdə bulunmuyor. Sadəcə almanca tərcüməsi qalmışdır. Şeir Abbasqulu Ağa tərəfindən «Divani-hikmət» ədəbi cəmiyyətində oxunmuş və bütün üyələrin dərin təqdir və heyranlığını qazanmışdır.

Daha öncə farsca yazdığı bir məsnəvisindən verdiyimiz parçadan görüldüyü gibi, «Fatimə» şeirində dəxi gerçək eşqin hər dürlü çirkin həvəs və ehtiraslardan uzaq, əsil və təmiz duyğulara dayanması lüzumu müdafiə edilməkdədir.

«Fatimə» şeirini dinlədikdən sonra mərhum Mirzə Şəfi Vazeh şu mütaliədə bulunmuşdur: «Bu şeir şairə yüksək bir şərəf və şöhrət qazandırmalıdır!»

Həqiqətən, gərək bu şeiri, gərəksə Abbasqulu Ağanın «Divani-hikmət» mənsubları hüzurunda yapdığı mütəəddid ədəbi və fəlsəfi konuşmaları kəndisinə o mühitdə geniş bir şöhrət və yüksək bir nüfuz sağlamışdı.

Qüdsi Tiflisdə bulunduğu yıllarda Polonyalı şair Lado Zablotski, rus ədiblərindən Qriboyedov, Puşkin və Bestujev – Marlinski ilə yaxından tanışmaq fürsətini əldə etmişdi. Bestujev – Marlinski, eyni zamanda çarlıq idarəsinə qarşı mətuf məşhur Dekabristlər üsyanında iştirak etmiş bir inqilabçı idi.

Lado Zablotski ilə tanışdığı zaman Abbasqulu Ağa «Azərbaycan mahnısı» başlıqlı bir şeirini ona sunmuşdur. Bu şeir Zablotskinin xoşuna getmiş və onu nəsrən lehcəyə çevirmişdir. O sıralarda Tiflisdə yaşayan rus şairlərindən Y.P.Polonski bu şeiri lehcə mənsur tərcüməsindən «Tatar mahnısı» başlığı ilə ruscaya mənzum olaraq çevirərək, yenə

eyni şəhərdə çıxan «Zakavkazskiy vestnik» qəzetəsinin 1847 sənəsinə aid üçüncü sayısında nəşr etmişdir. Daha sonra bizzat Polonski eyni tərcüməsini 1851 sənəsində yayınladığı «Bir kaç şeir» kitabında ikinci dəfə basdırmışdır. Polonski bizzat bu xüsusda diyor ki: «Tatar mahnısı»nı mərhum Abbasqulu xan bir leh şairi Zablotskiyə vermişdi. Mən onunla Tiflisdə 1846 sənəsində Kulpakda ölümündən tam bir yıl öncə tanışmışdım. O bu nəğməni nəsrən lehcəyə çevirmişdi. Mən də əlimdən gəldiyi qədər onu mənzum olaraq ruscaya tərcümə etdim».

Xalq türküsü tərzində qələmə alınmış bulunan bu aşiqanə «Azərbaycan mahnısı»nda Abbasqulu Ağanın siyasi fikir və təmayülləri də bir dərəcəyə qədər ifadə edilmişdir.

Bu təmayüllər mühəqqəq surətdə çarlıq əleyhində və Kafkasya hürriyyəti lehindədir. Hələ Abbasqulu Ağa Dağıstanın şanlı hürriyyət mücadiləsinə qarşı geniş simpati bəsliyordu. Başqa dürlü olamazdı da! Çünki geniş Şərq və Qərb kültürünün, zəngin həyat təcrübəsinin məhsulu və ifadəsi bulunan bu əsil təmayüllər «Divani-hikmət» gibi fikir sərbəstisini inkişaf etdirən ədəbi bir mühitdə və sürgün həyatlarını Tiflisdə keçirən leh və rus inqilabçı və liberal ədiblərinin təsiri ilə daha da qüvvətləniyordu. Hər halda çarlığa qarşı bəslədiyi bu müxalif təmayüllərin təsiri ilə olacaq ki, Abbasqulu Ağa daha 1834 sənəsində, yəni təqribən 14 sənəlik qısa bir məmuriyyət həyatından sonra istifa edərək Qubaya çəkilmiş və kəndisini tamamilə elmi və ədəbi çalışmalara həsr etmişdir. 1843 sənəsində «Yüksək sinif» mənsublarının haqlarını təsbit və təyin etmək üzrə çarlıq hökuməti tərəfindən xüsusi bir komitə vücuda gətirilmişdir. Abbasqulu Ağa dəxi bu komitənin üyələrindən idi. Müzakirələr sırasında Qüdsi dəruni müxalifət duyğularını bir parça açığa vuraraq: «Haqlarımızı təsbit etmədən öncə komitə bizdən ölkəmizdəki xanlıqlar dövründə mövcud haqq və adətlərimiz xüsusunda gərəkən bilgiləri sorub öyrənməlidir, – deyə sərt müqabilədə bulunmuşdu. Yəni Abbasqulu Ağa demək istiyordu ki, siz, Rusiya çarlıq idarəsi mənsubları bizə yeni bir taqım haqq və imtiyazlar təsbit etməyə qalxışmadan öncə Azərbaycanın xanlıqlar dövründə mövcud olub rus istilası nəticəsində pamal edilmiş bulunan gerçək haqq və imtiyazlarımızın nədən ibarət olduğunu bir sorub öyrənməliydiniz!

Abbasqulu Ağa, şübhəsiz, vətən və məmləkətinə içdən bağlı bir şairdir. «Gülüstani-İrəm»in sonunda Azərbaycan alim və şairləri haqqında qısaca bilgi verdikdən sonra kəndi xüsusunda: «Sürəkli bir əmək nəticəsi olaraq yazdığım bu əsəri sona erdirirkən, şöhrət düşkünlüyü ilə deyil, sırf adətimizə uyaraq və daha doğrusu, bu ölkədə doğduğuma öyünərək qısa hal tərcüməmi buraya ekləməyi kəndimə bir vəzifə sayıyorum», – diyor və böyük bir təvazö ilə sözlərinə şu manidar beyti əlavə ediyor:

Digəran gerçə qol-ü yasəmən-ü maharim
İn qadər həst ki, pərvərdəsi yox qol-zarim!

Mənası şöylədir: «Bizdən əvvəl gələn şairlər və alimlər birər gül və yasəmən dəyərində isələrdə, biz də bir tikan gibiyiz. Fəqət şu qədər var ki, həpimiz eyni vətən gülzarında yetişmişiz!»

«Qanuni-Qüdsi»nin ön sözündə və dövrün hökumət adamlarına yapdığı müraciətlərdə bu əsərin yalnız vətənə və gəncliyə hizmət məqsədilə qələmə alındığını mükərrərən qeyd edib durmuşdur.

Böyləcə, 52 sənə qədər qısa ömrünü müəzzəm elmi və ədəbi əsərlər vücuda gətirmək və mənsub bulunduğu milli topluluğa əzəmi hizmətdə bulunmaq surətilə əbədiləşmiş olan Abbasqulu Ağa Bakıxanlı sənələr, dövrlər keçdikcə qiyməti, dəyəri və mövqeyi daha fazla anlaşılan nadir simalarımızdan biridir. Zamanının tanınmış şairlərindən Kazım Ağa Salik Azərbaycan ədiblərindən bəhs edərkən haqlı olaraq, mərhum Qüdsi haqqında şöylə demişdir:

Biri Qüdsi ləqəb Abbasqulu bəy,
Diyari-nəzmü şeirə padişahdır!

19-CU ƏSR AZƏRBAYCANINDAKI MODERN VƏ REALİST ƏDƏBİ CƏRƏYANLAR

19-cu əsr Azərbaycanın siyasi, iqtisadi, kültürəl və ədəbi həyatında mühüm bir dönüm nöqtəsi təşkil etmişdir. 18-ci yüzyılda İranın siyasi və iqtisadi təhəkkümündən tamamən qurtulma və müttəhid bir dövlət qurma yolunda müəzzəm qeyrətlər sərf edən müstəqil və yarı müstəqil Azərbaycan xanlıqları 19-cu əsrin başlanğıcında müstəbid və müstəvli Rusiya imperatorluğu tərəfindən birər-birər işğal edilmiş və 1830 sənəsində ayrı-ayrı vilayət və qəzalara təqsim edilərək büsbütün Rusiyaya ilhaq olunmuşdu.

Böyləcə, istər-istəməz bütün Azərbaycan ölkəsi bir tək müstəvli dövlətin təhəkkümü altına keçmiş və təkmil Kafkasya millətlərilə birlikdə eyni müştərək düşmənin siyasi, iqtisadi və kültürəl təzyiq və istismar sisteminə məruz bırakılmışdı. Bunun üzərinə, siyasi baxımdan Azərbaycan hər nevi istiqlal və hətta məhdud məhəlli muxtariyyət haqlarından məhrum edilərək sömürgə halına gətirilmişdi. İqtisadi cəhətdən kəndi sərvət qaynaqları üzərindəki bütün haqlarını kayb etmiş və sərbəst gəlişmə imkanlarından məhrum qalmışdı. Kültür alanında kəndi milli müstəqil inkişaf yolundan və Türk-İslam dünyasından tədricən uzaqlaşdırılaraq ruslaşdırılmağa doğru götürülüyordu.

Fəqət bütün bu məhrumiyyətlərlə birlikdə sırf hadisələrin və tarixin kəndi məntiqi gərəyincə və çarlıq idarəsinin istəyi dışında olaraq Azərbaycan əski və geri həyat şərtlərindən yavaş-yavaş sıyrılaraq, sosial sahələrdə yeni gəlişmələrə səhnə olmuşdu. Feodal həyat tərzi getdikcə gevşəməkdə və yerini yeni və güc şərtlər daxilində doğmaqda olan milli sərmayəçilik sisteminə tərk etməkdə idi. Halbuki çarlıq idarəsi o dövrdə bizzat Rusiyada dəxi kapitalizmin gəlişməsinə əngəl olmaq və feodalizmi dəstəkləmək için əlindən gələn heç bir tədbiri əsirgəmiyordu. Hətta İkinci Aleksandr zamanında sərf sisteminin ilqası belə rus köylü ayaqlanmalarının bir nəticəsi olub, çarlığın iradəsi dışında təhəqqüq etmişdi.

Avropa dövlətlərinə nəzərən kültür və mədəniyyətcə geri bulunan Rusiyanın sömürgəçilik üsulu da pək geri və ibtidai olmuşdur. Bu həqiqət çarlıq qədər sovet Rusiya için də variddir. Məsəla, çarlıq sömürgə halına qoyduğu Azərbaycana süni surətdə sərf sistemini daxil etmişdi.

Sovet Rusiyada yeni bir sərf sistemi demək olan kolxozçuluğu cəbrən tətbiq etdiyi gibi, latın alfabesini ruscaya zorla çevirtmək qədər başqa heç bir sömürgəçi dövlətin tənəzzül edəməyəcəyi bir bayağılığa baş vurmuşdur.

19-cu əsr Azərbaycanında feodalitə sisteminin sarsılması bir tərəfdən mütəəddid xalq ayaqlanmalarının, ötə tərəfdən də Rusiya yolu ilə məmləkətə soxulan yeni avropayi fikirlərin və yaşayış tərzinin bir məhsulu olmuşdur. Rusiya kəndisi belə bu qüvvətli fikirlərin təsirindən və icab etdirdiyi dərin və əsaslı dəyişikliklərdən qurtulamıyordu. Bu fikirlər Böyük Fransız ixtilalının bütün dünyaya saçdığı qurtarıcı idelərdi.

İştə, 19-cu əsrdə Azərbaycanda gəlişməyə başlayan modern və realist ədəbi cərəyanlar da bu sosial dəyişikliklərin və məmləkətə girən yeni avropayi fikirlərin təsiri nəticəsində doğmuşdur. Bu ədəbi cərəyanların böyük qurucuları bir tərəfdən Türk-İslam Şərq kültürü ilə əsrlərdən bəri təəssüs etmiş bulunan qüvvətli bağları mühafizə ediyor, ötə tərəfdən də Avropadan aldıqları yeni və irəli fikirləri və modern ədəbi şəkilləri Azərbaycan ədəbiyyatına sokuyorlardı. Bu qurucular hər şeydən öncə, ilhamını millətdən və vətəndən alan, xalqın və yurdun iyi və ya kötü, müsbət və ya mənfi bütün yaşayış tərzini əks etdirən və yeni fikrilərin işığı altında bu həyatı düzəltməyə çalışan modern və realist bir ədəbiyyat yaratmaq istiyorlardı. Eyni zamanda onların vücuda gətirməyə çalışdıqları ədəbiyyat Azərbaycanı əsir qılan və sömürən rus istibdad və təhəkküm idarəsinə və onun tutduğu feodalitə sisteminə qarşı haqq, hürriyyət və istiqlal uğrunda açıq və ya qapalı, aləni və ya simvolik mücadilə açacaqdı. Qısaca, bu ədəbiyyat Azərbaycanı mədəniyyət və kültür yoluyla rifaha, səadətə və qurtuluşa götürəcəkdi.

Modern ədəbiyyatın ən kəskin silahı ictimai həcvdi. Bunun da ən qüvvətli ifadə şəkli dramdı. Yeni ədəbiyyat eşq və sevgi təranələrindən ziyadə, milli və sosial fikir və əqidələrə tərcüman olacaq, həqiqi və canlı tiplər yaradacaq, kötülükləri mərhəmətsizcə ifşa, iyilikləri təqdir və müdafiə edəcəkdi. Eyni zamanda bu ədəbiyyat məmləkətdə elm və maarifin yerləşməsinə və kök salmasına çalışacaqdı. Fəqət bu elm və maarif lisan və ifadə tərzi etibarilə milli övsafı haiz və tamamən xalqın hizmətində olacaqdı.

Modern ədəbiyyat qurucuları başında, heç şübhəsiz ki, Abbasqulu Ağa Bakıxan (Qüdsi) gəlməkdədir. Bu böyük ədib, şair, alim və mütəfəkkir yeni ədəbiyyatın ilk cığırını atmışdır. Onu təqib edən İsmayıl bəy Qutqaşınlı «Rəşid bəy və Səadət xanım» başlıqlı romanında[1] vətən və xalq uğrunda didinən yeni bir münəvvər tipinin canlı simasını təsvir etmişdir. Daha sonra tanınmış Azərbaycan filosofu Mirzə Şəfi Vazeh tənqid mahiyyətini haiz kəskin şeirlərilə Şərqin feodalitə dövründən qalma əski və geri müəssisələrini və fikirlərini şiddətlə ifşa etmişdir.

Baba bəy Şakir ilə Qasım bəy Zakir gibi qüvvətli həcv şairləri, bilxassə rus çarlıq idarəsini tənqid atəşinə tutmuşlardır. Fəqət gərək şəkil, gərəksə möhtəva baxımlarından on doqquzuncu əsr modern və realist Azərbaycan ədəbiyyatının gerçək və ən qüvvətli qurucusu böyük dramaturq Mirzə Fətəli Axundzadə olmuşdur.

19-cu yüzyıl realist ədəbiyyatı ilə Vaqifin realizmi arasındakı fərq birincisinin kəndi dövrünün sosial və iqtisadi həyat şərtlərinə dair geniş və canlı tablolar vermiş olmasındadır. Bu cəhət 19-cu əsr Azərbaycan ədəbiyyatının ən qüvvətli və mümtaz bir vəsfidir.

[1] Müəllif əsərin janrını yanlış qeyd etmişdir. «Rəşid bəy və Səadət xanım» hekayədir. – *N.C.*

MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN HƏYATI VƏ ƏSƏRLƏRİ

Mirzə Fətəlinin yaşadığı dövr

Sayın arkadaşlar,

Bugünkü konfransımızın konusunu Azərbaycan ədiblərindən Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri təşkil etməkdədir. Fəqət konumuza keçmədən öncə Mirzə Fətəlinin yaşadığı dövrə və Azərbaycanın ogünkü həyat şərtlərinə qısa da olsa, bir göz gəzdirmək zərurətindəyiz. On doqquzuncu yüzyılın başlarına qədər İran dövlətinə tabe yarı bağımsız xanlıqlar halında yaşayan Azərbaycan bu əsrin başlanğıcından etibarən tədricən Rusiya tərəfindən istila edilməyə başlamışdı. 1804 sənəsində Gəncə və Qarabağ, 1806-da Bakı və daha sonra Şirvan və Quba xanlıqları istila edilmişdi. Bunlardan, bilxassə Gəncə xanlığı rus saldırışına qarşı çətin və qəhrəmanca bir müqavimət göstərmişdi. Kafkasyanın ikinci Şeyx Şamili sayılan tarixi qəhrəmanlarımızdan Cavad xan son nəfəsinə qədər Gəncə qalasını müdafiə edərək, şan və şərəflə ölməyi ruslara təslim olmağa tərcih etmişdi. 1813 sənəsinin 12 ekimində Rusiya ilə İran arasında əqd olunan «Gülüstan barış andlaşması» gərəyincə: Qarabağ, Gəncə, Talış, Şəki, Şirvan, Bakı, Quba və Dərbənd xanlıqları, bütün Dağıstan və Gürcüstan və bunlara qonşu bulunan əyalətlər daimi olaraq ruslara tərk edilmişdi. Lakin aradan on üç sənə keçdikdən sonra İran hökuməti Kafkasyada kayb etdiyi torpaqları geri almaq məqsədiylə Rusiyaya hərb elan etdi və o dövrdə İran səltənətinin başında bulunan Qacar sülaləsinə mənsub Fətəli şahın oğlu Abbas Mirzənin komutası altındakı İran orduları 1826 yılında Azərbaycan sınırlarını aşdılar. Fəqət uzun çarpışmalardan sonra bu səfər də İran orduları yenildi və 1828-də Rusiya ilə İran arasında əqd olunan «Türkmənçay andlaşması» ilə Naxçıvan və İrəvan türk xanlıqları da ruslara tərk edildi. Bu surətlə, bütün Quzey Azərbaycan rus əsarəti altına keçmiş oldu. Təqribən 1830 sənələrində Azərbaycan büsbütün Rusiyanın idari sisteminə daxil edilərək və hər nevi muxtariyyət haqlarından və özəl idarə səlahiyyətlərindən məhrum bırakılaraq, vilayət və qəzalara təqsim olunmuş və doğrudan-doğruya rus məmurları tərəfindən idarə edilməyə başlamışdı.

İlhaqı mütəaqib, Azərbaycan gərək siyasi və iqtisadi baxımlardan, gərəksə kültür və din baxımından şiddətli və mərhəmətsiz bir basqı və sömürmə politikasına tabe tutulmuşdu. Rusiya Azərbaycanı sadəcə bir sömürgə olaraq tələqqi ediyordu. Ona nə siyasi və nə iqtisadi, nə də mədəni heç bir haqq tanımıyordu. Məmləkətin sərvətləri mərhəmətsizcə istismar ediliyor, Rusiyanın imarına sərf olunuyordu. Milli Azərbaycan ekonomisi təxrib ediliyor və əhali səfalət və yoxsulluq içərisində bırakılıyordu. Bir tərəfdən də xalq ağır vergilərin yükü altında əzilməkdə idi. Azərbaycan xalqı bütün bu zülmlərə qarşı əldə silah olaraq müqavimət etmişdi. 1826, 1830, 1837, 1838 və 1870 sənələrində ruslara qarşı yer-yer vüqu bulan ayaqlanmalar xalq intiqamının birər təcəllisi mahiyyətində idi. Bu ayaqlanmalar əsnasında Yarəli, Adıgözəl və Qaçaq Nəbi gibi xalq qəhrəmanları sivrilmiş bulunuyordu. Fəqət müəyyən bir plan və sistem daxilində cərəyan etməyib, müştərək mərkəzi bir təşəkküldən məhrum bulunan və eyni zamanda xaricdən də heç bir yardım görməyən bu hərəkatlar təbiətiylə rus ordusunun saldırışları qarşısında zəif və məğlub düşməkdə idi. Rus ordularıyla Azərbaycan xalqı arasında vüqu bulan bu qanlı savaşlar on doqquzuncu yüzyılın ədəbiyyatında kəndi ifadəsini bulmuşdur. Məsəla, azəri xalq şairlərindən Mirzə Baxış Nadim tərəfindən yazılan uzun bir mənzumədə rus generallarından Tsitsianov[1] və Yermolovların idarəsi altında Azərbaycanda hökm sürən anarşi gözəl bir surətdə təsvir olunmaqdadır. Yenə o dövrdə yaşamış olub, «Biçarə» məxləsiylə yazan şair Osman Dağıstanın milli qəhrəmanı Şeyx Şamilin ruslar üzərində qazandığı Xunzax zəfərindən sonra Azərbaycan xalqını bu böyük mücahidin ətrafında birləşməyə və Rusiyaya qarşı döyüşməyə dəvət etməkdə idi.

İştə, on doqquzuncu yüzyılın ilk yarısında Azərbaycan böylə bir durumda bulunuyordu. Fəqət Həbibi və Füzuli gibi milli şairlərin yazılarından feyz və ilham alan xalq ədəbiyyatı sayəsində azəri türkcəsi və milli gələnəklər mühafizə edilmişdi. Yalnız şu qədər var ki, o dövrdə milli kültür üzərində İran mədəniyyətinin qüvvətli bir təsiri görünməkdə idi. Xalqın mütləq bir çoğunluğu cahil, xürafələrə və batil etiqadlara düşkün idi. Dinə min bir xürafə qarışdırılmışdı. Falçıların və cahil mollaların xalq üzərindəki nüfuzları böyükdü. Qadın çarşaf altında hər nevi insan haqlarından məhrum bir əsir həyatı sürüyordu. Mazi parlaq, fəqət

[1] Sisianov – *N.C.*

istiqbal qaranlıqdı. Milləti ümumi bir ruslaşdırma siyasəti təhdid ediyordu. Qonşularımız gürcülərlə ermənilər Rusiyanın himayəsi altında sürətlə irəliliyorlardı. Halbuki azəri türkü kimsəsiz və himayəsizdi. Onu siyasi, iqtisadi və kültürəl baxımlardan tam mənasıyla bir imha siyasəti təhdid ediyordu. Azərbaycan xalqının təkrar şərəfli bir həyata qovuşa bilməsi için onun bir an öncə batil etiqadlardan, feodalitə dövrü qalıntılarından, geri yaşayış şərtlərindən qurtularaq, Batı mədəniyyətinə və müasir yaşama tərzinə erişməsi gərəkiyordu. Bu xüsusda okul, qəzetə və kitab gibi kültür müəssisələrinin yanında, bilxassə tiyatro önəmli bir rol oynayacaqdı. Tiyatro xalqın ən çabuq alışdığı və ən ziyadə sevdiyi bir kültür müəssisəsidir. Bilxassə əgər tiyatro xalqın ayinəsi olursa, yəni millətin öz yaşayışını əks etdirirsə, Azərbaycan xalqının oyanmasında milli tiyatronun çox böyük bir rolu olmuşdur. Milli tiyatronun sağlam təməlini isə kəndi əsərləriylə Mirzə Fətəli Axundzadə atmışdır. Mirzə Fətəlinin əsərlərini incələməyə keçmədən öncə bütün Türk və Şərq-İslam dünyasının nadir simalarından bulunan bu böyük insanın hal tərcüməsini qısaca gözdən keçirəlim.

Mirzə Fətəlinin hal tərcüməsi

Bizzat Mirzə Fətəlinin kəndisi tərəfindən farsca yazılan hal tərcüməsi «Kəşkül» qəzetəsinin 43, 44 və 45 sayılarında dərc olunmuşdur. Orada verilən bilgilərə görə, Mirzə Fətəlinin babası Hacı Əhməd oğlu Mirzə Məhəmməd Tağı Təbriz həvalisindəki Xamnə qəsəbəsinin muxtarı olmuşdur. Bu mövqeyindən əzl edildikdən sonra Mirzə Məhəmməd Tağı ticarət məqsədiylə Kafkasya Azərbaycanının Şəki vilayətinə gələrək orada yerləşmişdir. Mirzə Məhəmməd Tağı burada Şəki şəhərinin tanınmış din alimlərindən Hacı Ələsgərin yegəni ilə evlənmişdir. Bu nikahdan 1812 yılında Mirzə Fətəli dünyaya gəlmişdir. Mirzə Fətəli daha kiçik yaşda ikən babasından ayrılmış və dayısı Hacı Ələsgərin himayəsi və tərbiyəsi altında yetişmişdir. Hacı Ələsgər seçkin və fəzilətli bir şəxsiyyət idi. Gərək farsca və ərəbcə dillərinə, gərəksə bütün İslam elmlərinə geniş vüquf sahibi idi. Dayısı Mirzə Fətəlini oğulluğa qəbul etmiş və kəndisi xalq arasında «Hacı Ələsgərin oğlu» deyə tanınmışdı. Mirzə Fətəli farsca və ərəbcəni dayısından öyrənmişdir. 1833 sənəsində Hacı Ələsgər Məkkəyə gedərkən, Mirzə Fətəlini kəndisi ilə bərabər

Gəncə şəhərinə götürərək, oradakı din alimlərindən Molla Hüseynin yanında bırakmış və bu xocadan məntiq və fiqh öyrənməsini tənbeh etmişdir. Hacının qayəsi Mirzə Fətəlini kəndisi gibi bir din alimi olaraq yetişdirmək imiş. Fəqət bu səfər Gəncədə vüqu bulan bir hadisə gənc Mirzə Fətəlini bu yoldan vaz keçirmişdir. Bu hadisənin nədən ibarət olduğunu Mirzə Fətəli kəndi hal tərcüməsində açıqlamıyor. Fəqət oğlu Rəşid bəyin tanınmış Azərbaycan münəqqidi Firidun bəy Köçərliyə verdiyi bilgilərdən bu hadisənin böyük azəri bilgini, filosof və şair Mirzə Şəfi ilə gənc Mirzə Fətəli arasında vüqu bulan mülaqətdən ibarət olduğu anlaşılmaqdadır.

Filosof Mirzə Şəfinin Mirzə Fətəli üzərindəki təsiri

Mirzə Şəfi Vazeh lirik şeirləriylə Avropada böyük şöhrət qazanmış bir Azərbaycan şairidir. Doğum yılı qətiyyətlə bəlli olmamaqla bərabər, ələ keçən bir taqım vəsiqələrdən təqribən 18-ci əsrin sonlarında və ya 19-cu əsrin ilk sənələrində Gəncədə dünyaya gəldiyi öyrənilmişdir. Babası Sadıq Gəncənin son hökmdarı Cavad xanın memarı olmuşdur. Mirzə Şəfi də babasının arzusu üzərinə mədrəsədə təhsil görərək din alimi olmağa hazırlanıyormuş. Lakin babasının ölümündən sonra gəncəli Hacı Abdullah adında mütəsəvvif bir mütəfəkkirin təsiriylə bu niyyətindən vaz keçmişdir. Hacı Abdullah Şərq məmləkətlərinə yapdığı səyahət əsnasında sufilərdən Seyid Əttar ilə tanışmış və ona mürid olmuşdur. Gəncəyə döndükdən sonra Hacı Abdullah təsəvvüfü kəndi məmləkətində yaymağa çalışmışdır. Mirzə Şəfi mədrəsədə oxurkən bu mütəfəkkirə, yəni Hacı Abdullaha mürid olmuşdur. Alman bilginlərindən Adolf Berje 1868 yılında Leipzigdə yayınladığı «Dichtungen trans-kaukasischer sänger des XVIII und XIX jahrhunderts in aserbeidschanischer mundart» [«XVIII–XIX əsr Zaqafqaziya aşıqlarının Azərbaycan dilində şeirləri»] adlı əsərində Hacı Abdullah ilə Mirzə Şəfi arasındakı münasibətləri şu şəkildə aydınlatmaqdadır: «Hacı Abdullah Mirzə Şəfiyə hamilik edərək, onun maarifə qarşı meylini gəlişdiriyor və eyni zamanda gələcəkdə təhsil və tərbiyəsinə davam edə bilməsi için kəndisinə maddi yardım göstəriyordu». Böyləcə, Adolf Berjenin verdiyi bilgilər sayəsində Mirzə Şəfinin fikri gəlişməsi haqqında əsaslı

bəzi dəlillər əldə etmiş oluyoruz. Mirzə Şəfi daha 1837 sənələrində Gəncədə şair və alim olaraq tanınmış bulunuyordu. 1832 sənəsində Gəncədə Mirzə Fətəli Axundzadəyə nəstəliq yazısını təlim edərkən gənc tələbəsinə, Rəşid bəyin təbirincə, «Mətalibi-irfaniyyə»ni təlqin etmişdi. 1840 sənələrində Mirzə Şəfi Gəncədən Tiflisə nəql edərək, ilk öncə şəhər okulunda dərs vermiş, daha sonra öyrətmən okulunda farsca oxutmuşdur. Mirzə Şəfi Tiflisdə «Divani-hikmət» adını daşıyan bir ədəbi məhfil təşkil edərək, oraya böyük azəri şairi və bilgini Abbasqulu Ağa Bakıxanlını, Mirzə Fətəli Axundzadəni və tələbələrini cəlb etmişdir. Bu məhfildə genəl olaraq, klassik Şərq şairlərinin seçkin əsərləri ilə birlikdə Mirzə Şəfinin və Abbasqulu Ağa Bakıxanlının şeirləri oxunuyor və bu xüsusda hərarətli münaqişələr yapılıyordu. Məhudin ruhu və canı təbiətiylə Mirzə Şəfi idi. Bu dövrə Mirzə Şəfinin ədəbi sahədə göstərdiyi fəaliyyətin ən hərarətli bir dövrəsiydi.

İştə, bu zamanlarda, yəni 1840 sənəsində hannoverli ədib və şair Friedrich Bodenstedt[2] Moskvaya gələrək Kont Galitsinlərdən birisinin mürəbbiliyinə təyin olunmuşdu.1844 sənəsində Kafkasyadakı çar naibi general Nitgardtın dəvəti üzərinə Bodenştedt Tiflisə gələrək, Alexandre Enstitüsü[3] ismini daşıyan əski öyrətmən okulunun müdirliyinə gətirilmişdi. Bodenştedt bu vəzifədə bir sənədən fazla qalmayaraq istifa etmiş və Kafkasya ilə Krımın bir çox yerlərində gəzib-dolaşaraq bilgi və təcrübə edinmişdi. O arada Gəncəyə gəlincə Mirzə Şəfidən azəricə və farsca dərslər almış və məmləkətinə döndükdən sonra «Ustad» ünvanı ilə andığı Mirzə Şəfinin şeirlərini böyük bir məharətlə almancaya çevirərək 1850 sənəsində «Şərqdə min bir gün» adlı əsərində, 1851 sənəsində də «Mirzə Şəfinin ədəbi mirası» (almanca ismiylə: «Aus dem nachlass Mirza Schaffy's») başlığını daşıyan kitabında dərc etmişdir. Azərbaycan şairinin bu şeirləri gərək Almaniyada, gərəksə digər Avropa məmləkətlərində böyük bir rəğbət qazanaraq, təqribən 300 dəfə nəşr olunmuşdur.

Mirzə Fətəli Axundzadənin fikri inkişafı üzərində Şərqdə pək az, Qərbdə isə fazlası ilə tanınmış bulunan bu filosofun böyük təsiri olmuşdur. Hacı Ələsgər Həcdən döndükdən sonra Mirzə Fətəli təkrar Şəkiyə gəlmiş və burada azərilər için açılmış bulunan okula daxil olaraq

[2] Fridrix Bodenştedt – *N.C.*
[3] Aleksandr İnstitutu – *N.C.*

dayısının müsaidəsiylə bir sənə qədər rusca öyrənmişdir. Yaşı irəliləmiş olduğundan okula daha fazla davam edəməmişdir. Ertəsi sənə, yəni 1834-də Hacı Ələsgər Mirzə Fətəli Axundzadəni kəndisiylə bərabər Tiflisə götürərək, çar naibi Baron Rozenin qələmində Şərq dilləri mütərcimliyinə təyin etdirməyə müvəffəq olmuşdur. Mirzə Fətəli ömrünün sonuna qədər bu vəzifədə qalaraq, miralaylığa qədər yüksəlmiş və məmuriyyətdən sərbəst qalan zamanlarını elmi və ədəbi fəaliyyətə sərf etmişdir.

Mirzə Fətəlinin əsərləri

Bu müddət zərfində Mirzə Fətəli altı komediya və bir də «Yusif şahın hekayəti və «Aldanmış kəvakib» başlığı altında bir hekayə yazmışdır. Komediyalar 1850-1855 sənələri arasında, yəni həmən-həmən beş yıl içində yazılmışdır. «Aldanmış kəvakib» hekayəsi isə 1857 sənəsində qələmə alınmışdır. 1860 sənələrində Mirzə Fətəli «Kəmalüddövlə məktubları» başlığı ilə yayınladığı bir əsərdə elmi, siyasi və fəlsəfi fikirlərini yarısimvolik bir şəkildə ortaya qoymuşdur. Bunlardan başqa, Mirzə Fətəli azəricə və farsca mənzumələr yazmışdır. Bu mənzumələrdən bir qismi məşhur azəri şairi Molla Pənah Vaqif üslubunda yazılmış aşiqanə şeirlər olduğu gibi, bir qismi də Mirzə Fətəlinin alfabe islahı uğrunda yürütdüyü mücadilə haqqında müasir şair dostlarından Qasım bəy Zakirə və Cəfərqulu xan Nəvaya yazdığı məktublarından ibarətdir. Qaranlıq rus istibdad dövründə millətinin parlaq istiqbalına inanan Mirzə Fətəli şeirlərində «Səbuhi» məxləsini kullanırdı.

Mirzə Fətəlinin komediyaları şunlardır: 1. Hekayəti-Molla İbrahimxəlil kimyagər, 2. Hekayəti-Müsyö Jordan – həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur, 3. Hekayəti-xırs quldurbasan, 4. Sərgüzəşti-vəziri-xani-Lənkəran, 5. Sərgüzəşti-mərdi-xəsis və ya Hacı Qara, 6. Mürafiə vəkillərin hekayəti. İştə Mirzə Fətəli Axundzadə təqribən 19-cu yüzyılın ortalarında bu altı komediyanı təlif etməklə Azərbaycan dram ədəbiyyatının təməlini atmış və bizzat kəndi təbiriylə bu sahədə «badini-kar» olmuşdur. Mirzə Fətəli insan əxlaqının islahında tiyatroya və dram ədəbiyyatına çox böyük önəm verməkdə və «sənətin sənət için deyil, həyat və xalq için» olduğu prinsipinə qüvvətlə inan-

maqdadır. Bu xüsusda kəndi təmsillərinə yazdığı ön sözdə böyük dramaturq şöylə deməkdədir: «Faideyi-nəqli müsibət və behcət bəni-nevi bəşərin əxlaq və havasını bəyan etməkdir ki, müstəmi yaxşılarına xoşhal və yamanlarından mütəəzzi və qafil ola və həm nəfsi əmmarə bu günə hekayətin istimaına məşğul olmaqla ləzzət görüb məasi və mənahidən cəlbi sürur etməyə meyl eyləməyə».

Mirzə Fətəli feodalitə dövrünün qalıntıları və sosial həyatın geri və mənfi tərəfləri ilə mücadilə için dram ədəbiyyatının «nəqli-behcət», yəni komediya şəklini seçmişdir. Ədib 1850 sənəsində yazdığı «Hekayəti-Molla İbrahimxəlil kimyagər» isimli ilk komediyasında Şərqdə o zamanlar çox yayılmış bulunan yalançı kimyagərliyə qarşı cəbhə almaqdadır. Bu əsərdə başda Molla İbrahimxəlil kimyagər olmaq üzrə, əski cəmiyyətin cahil, tamahkar və təfəssüh etmiş ünsürləri təsvir edilməkdə və bu mənfi tiplərə qarşı müsbət bir sima olaraq şair Hacı Nuru irəli sürülməkdədir. Hacı Nuru baqırdan altun yapıla biləcəyinə dair Molla İbrahimxəlil kimyagərin batil iddialarına inanan Şəki şəhəri tacirlərinə verdiyi cavabda iksirin insan hünərində və qabiliyyətində olduğu fikrini qüvvətlə müdafiə etməkdədir. Cahil mühiti tərəfindən düşməncə qarşılanan və hətta cəmiyyətdən tərd olunan şair Hacı Nuru istiqbal haqqında iyimsər görünən elm və maarif dostu bir simadır.

Yenə 1850 yılında yazılmış bulunan «Hekayəti-Müsyö Jordan – Həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur» komediyasında müəllif kültür baxımından geri qalmış Şərq dünyasıyla Avropanın irəli mədəni həyatı arasında bir müqayisə yapmaqdadır. Dərviş Məstəli şahın şəxsində dinin geniş xalq kütlələri arasındakı nüfuzundan faydalanaraq, büyücülük və sair xürafələrlə milləti aldatmağa qalxışan cahil ünsürlərin hərəkətləri açığa vurulmaqda və Müsyö Jordanın simasında Avropa kültürü övülərək, Azərbaycanın Batı mədəniyyətinə qatılması lüzumu irəli sürülməkdədir. Müsyö Jordanın təşviqiylə təhsil yapmaq üzrə Avropaya getmək istəyən Şahbaz bəyin şəxsində isə Azərbaycanda yeni həyata atılmaq təmayülünü daşıyan aydın zümrənin bir müməssili təsvir olunmaqdadır. Müəllif tərəfindən eyni sənədə qələmə alınmış «Sərgüzəşti-vəziri-xani-Lənkəran» komediyasında bir addım daha irəli atılaraq, bizzat feodalitə sistemi şiddətlə tənqid olunmaqdadır. Bu əsərdə Lənkəran xanının cəhaləti və münasibətsiz hərəkətləri və vəzirin iki-üzlülüyü və dalkavukluğu məharətlə ifşa edilməkdədir. Halbuki əsərdə

onlara qarşı mücadilə edən Teymur ağa adlı gənc bir xan liberal fikirlər daşımaqda və iqtidar mövqeyinə keçdiyi təqdirdə məmləkət idarəsində bəzi yeniliklər yaparaq, Mirzə Həbib gibi ikiüzlü, dalkavuk vəzirləri uzaqlaşdıracağını və iş başına ləyaqətli adamlar gətirəcəyini söyləməkdədir. Bununla bərabər, Teymur Ağa həqiqi bir islahatçı olmaqdan uzaqdır. O, icraata keçməkdən ziyadə, saray mühitini tənqid və ifşa ilə iktifa etməkdədir.

Mirzə Fətəlinin 1852 sənəsində yazmış olduğu «Xırs quldurbasan» komediyasında 19-cu əsrdəki Azərbaycan köy həyatı təsvir olunmaqdadır. Bu əsərdə yerli xalqın dilini və xüsusiyyətlərini bilməyən rus dövlət məmurlarının nə qədər güc və gülünc bir mövqedə qaldıqları, rus idarəsi altında yaşayan Azərbaycanda cəhalət və haydutluğun hökm sürməkdə olduğu böyük bir məharətlə təbarüz etdirilməkdədir. Eyni zamanda bu əsərdə azəri qadınının insan haqlarından məhrum olaraq əsir durumunda yaşadığına işarə olunmaqdadır.

Müəllifin ən məşhur və ən qüvvətli əsəri sayılan «Hacı Qara»da 19-cu əsr ortalarında Azərbaycanda hökm sürən ictimai həyat şərtləri bütün dərinliyi ilə əks etdirilməkdədir. Mirzə Fətəli 1852 sənəsində yazılan bu əsəriylə Azərbaycan ədəbiyyatında klassik komediya örnəyini vermiş bulunuyor. Əsərin baş qəhrəmanı Hacı Qara xəsis bir tacir tipidir. Onun xəsisliyi bütün həyatına hakim bir ehtiras halını almışdır. Bu ehtiras onu gülünc bir duruma düşürməkdədir. Fəqət bu xəsisliyin ictimai kökünü yenə 1830-1840 sənələrində Azərbaycanda hökm sürən iqtisadi şərtlərdə aramaq icab edər. Komediyanın diqqətədəyər qəhrəmanlarından biri də Heydər bəydir. Heydər bəy tarixə qarışmaqda olan feodalitə dövrünün mütəfəssih son qalıntılarını təmsil etməkdədir. Rus əfəndilərinə bəndəçilik edən bu mütəfəssih ünsürlər qaçaqlığı, hırsızlığı və haydutluğu kəndilərinə birər keçim qaynağı yapmışlardı. Onların bu yolsuzluqlarında ikiüzlü və mürtəce rus məmurları kəndilərinə dəstək oluyorlardı.

«Hacı Qara» əsərindən üç sənə sonra, yəni 1855-də Mirzə Fətəli «Mürafiə vəkilləri»[4] adını daşıyan son komediyasını yazmışdır. Bu səfər hadisə Güney Azərbaycanın başkəndi bulunan Təbrizdə cərəyan etməkdədir. Qurnazlığı və dəsisəkarlığı ilə tanınmış mürafiə vəkillərindən Ağa Mərdan ölən qardaşı Hacı Qafurdan Səkinə xanıma düşən altmış

[4] Mürafiə vəkillərinin hekayəti – *N.C.*

min tümənlik mirası qadının əlindən çıxarmaq için yalançı şahidlər uydurmaq, «Haşiyə-nişin» və «Hakimi-şəriləri» qazanmaq gibi hər çeşid hiyləyə baş vuruyor. Fəqət qadının göstərdiyi mətanət sayəsində şahidlər məhkəmədə həqiqəti söyləyərək bütün bu dəsisələri meydana çıxarıyorlar.

Bir kərə şunu qeyd etmək icab edər ki, Mirzə Fətəli daha gənc yaşlarında hər iki Azərbaycanın həyatıyla yaxından tanışmaq fürsətini əldə etmiş bulunuyordu. O öz babası Mirzə Məhəmməd Tağı və dayısı Hacı Ələsgərlə birlikdə çocuqluq çağında bir müddət İran Azərbaycanında yaşamışdı. Tiflisdə çar naibliyi qələmində tərcümanlıq vəzifəsini yaparkən, bir ara Rusiya Coğrafiya Qurumuna üyə olaraq alınmışdı. Eyni dövrdə alman müstəşriqi Adolf Berjenin öndərliyi altında Kafkasya və Maverayi-Kaflasya Arxivlərini Tədqiq Komisyonunda yıllarca çalışmaq imkanını bulmuşdu. Bundan başqa tərcümanlıq vəzifəsinin icabı olaraq müxtəlif hökumət komisyonlarının rəfaqətində Kafkasya Azərbaycanının bütün bölgələrini dolaşmış və xalqın təkmil təbəqələri ilə doğrudan-doğruya təmasda bulunmaq surətiylə sosial sahədəki incələmələrini dərinləşdirmişdi. Eyni zamanda Tiflisdə təmasda bulunduğu elmi və ədəbi mühitin yardımıyla Avropadakı kültürəl və sosial cərəyanlar haqqında ətraflı surətdə bilgi edinmişdi. İştə, bunun içindir ki, Mirzə Fətəli ələ aldığı bütün konular haqqında tam bir səlahiyyətlə söz söyləmək və fikir bəyan etmək mövqeyində bulunmuşdur. Komediyalarında təsvir etdiyi tiplər doğrudan-doğruya Azərbaycan mühitindən alınmış canlı və orijinal tiplərdir. Qəhrəmanları kəndi sosial çevrələrinə xas bir lisanla hər nevi sünilikdən azadə bir tərzdə konuşurlar. Bu komediyalarda o dövrün azəri mühitini müsbət və mənfi bütün özəllikləri ilə gözlərimizin önündə tamamən canlanmış bir halda görürüz. Mirzə Fətəlidə təqlid və şematizm (sxematizm – *N.C.)* yoxdur. Hər sözü səmimi və hər tipi həyatidir. Bütün əsərləri realist bir görüşlə yazılmışdır.

18-ci əsr fransız ədiblərindən Molliènin[5] bütün dünya ədəbiyyatı üzərində böyük təsiri olduğu gibi, Mirzə Fətəli Axundzadə üzərində dəxi müəssir bulunduğu aşkardır. Mirzə Fətəli nəşəli yumoru, qüvvətli satirik üslubu, hazırcavablığı və bir taqım başqa özəllikləri ilə bəzən Mollièreni andırmaqdadır. Lakin Mirzə Fətəlinin dram sənətilə

[5] Molyer – *N.C.*

Mollièrenin dram sənəti arasında bariz fərqlər vardır. Mollière kəndi dövrünün klassik ədəbi çərçivəsi içərisində qalmış, zaman və məkan vəhdəti gibi bir taqım süni qeydlərin dışına çıxamamışdır. Onun içindir ki, Mollièrenin bir çox tipləri mücərrəd və təktərəflidir. Halbuki Mirzə Fətəli heç bir ədəbi kayıt və kuyuda bağlı qalmayaraq, kəndi komediyalarının quruluşunu və tiplərinin özəlliyini Şekspirə xas bir sərbəsti ilə təsbit və təsvir etmişdir. Komediyalarında cərəyan edən olayların vüqu bulduğu yer sıx-sıx dəyişməkdə, pərdələr arasındakı zaman fasilələri bəzən aylarca və yıllarca sürməkdə, seyirçilərin diqqət-nəzərləri sürətlə bir nöqtədən başqa bir nöqtəyə nəql edilməkdə, rəngarəng təbiət təsvirləri, canlı və oynaq səhnələr vücuda gətirilməkdədir. Axundzadə mənfi insan tipləri yaradarkən belə, təktərəfli olmaqdan qaçınmış və fərdi iyi və kötü bütün özəlliklərilə meydana qoymuşdur. Məsəla, Hacı Qara xəsis, ikiüzlü, qorxaq və yalançı bir insan olmaqla bərabər, eyni zamanda hazırcavab, açıqgöz və tədbirlidir. Kəndisinə haydutluq və qaçaqçılığı məslək edinmiş Heydər bəy comərd, ihanət və yalandan çəkinən bir insandır.

Azərbaycan mühitində ilk dəfə olaraq qadınların haqq və hürriyyətlərini müdafiəyə cəsarət edən ədib Mirzə Fətəli Axundzadə olmuşdur. Daha 19-cu yüzyılın ortasında təlif etdiyi komediyalarında Mirzə Fətəli azəri qadınının yaşayış şərtlərini, əməl və arzularını, ruhi halətlərini və erkəklərlə münasibətlərini ətraflı surətdə təsvir edərək onun insan haqlarını savunmuşdur. Mirzə Fətəlinin komediyalarındakı qadınların həpsi namus, ismət və qabiliyyət sahibi qadınlardır. Hətta bəziləri erkəklərdən daha zəki və daha qabiliyyətli insanlardır. Müəllifin altı komediyasından yalnız birində, yəni «İbrahimxəlil kimyagər»də qadından bəhs olunmamaqdadır. Geri qalan komediyaların həpsində qadının ictimai həyatda faydalı və fəal bir üzv ola biləcəyi, zəka, dirayət və qabiliyyət baxımından erkəklərdən heç də aşağı səviyyədə bulunmadığı qüvvətlə təbarüz etdirilməkdədir.

Yuxarıda qeyd etdiyimiz vəchilə, Mirzə Fətəli komediyalarından başqa, 1857 sənəsində «Aldanmış kəvakib» və yaxud «Hekayəti-Yusif şah» başlığı altında gözəl bir hekayə yazmışdır. Bu hekayədə İranın Səfəvi xanədanına mənsub Şah Abbas zamanında cahil və ləyaqətsiz dövlət ərkanı üzündən məmləkətin qarşılaşdığı acıqlı durum təsvir

olunmaqdadır. Şahın vəzirlərindən hər biri cəhalət və bacarıqsızlığı sayəsində məmləkətin başına açdığı fəlakəti öyünərək onun hüzurunda anlatmaqdadır. Məsələ, Hərbiyyə naziri Sərdar Zaman xan şahın məclisi-xasında yıldızlardan gələn böyük zərərlər mövzusu görüşülürkən, məsələ ilə heç bir ilgisi olmayan Osmanlı ordusunun İran üzərinə yürüməsindən söz açaraq, «bəsirət və dirayətini» isbat için şu şəkildə öyünməkdədir: «Gərçi bizim qoşunumuz (yəni ordumuz – *V.Y.*) hesab və adətcə taifei-Osmaniyyədən kəm (yəni sayca az – *V.Y.*) deyildi, nəhayət, mənim heyfim gəldi ki, firqeyi-naciyənin qoşununu güruhi-dallənin müqabilində tələfə verdirəm. Ona binaən əmr etdim ki, Osmaniyyə sərhədindən ta nəhayəti mülki Azərbaycan tamam dəhatin (yəni köylərin – *V.Y.*) ziraatını xarab etsinlər və yolları pozsunlar. Vəqta ki, Osmanlı əsgərlərinin sərkərdəsi Bəkir Paşa sərhədimizə daxil oldu, əgər ki müqabilində bizim qoşundan bir nəfər görmədi, amma yollar bir mərtəbədə xarab olunmuşdu ki, əslən (əsla, deməkdir – *V.Y.*) özü ilə topxana gətirməyə qadir olmayıb, ancaq atlı və piyadasilə ənvai-zəhmətdən sonra Təbrizə varid oldu. Və hər tərəfə dəstələr göndərib zahirə təhsilinə iqdam etdi. Əlbəttə, əlinə bircə həbbə bir öküz və qoyun düşmədi. Naçar üç gündən sonra uftanü-hizan (düşə-qalxa), ac və əfsürdə Təbrizdən kusi-rihlət döyüb (ricat əmri verib) qaçdı. Bu tədbirlə mülki-İran taife-biganənin hücumundan məhfuz qaldı. Yolları pozmaq və körpüləri yıxmaq bir mərtəbədə tədbiri müfit göründü ki, dövləti-aliyyə Bəkir Paşanın qaçmağından sonra dəxi belə (böylə) salah gördü ki, onları həmişə (hər zaman) bu qərarda baqi qoysun. Bu təriqiylə dövləti-aliyyənin qoşunundan bir nəfərin dəxi burnu qanamayıb asakiri-mənsurənin cümləsi həmsayə (qonşu) düşmənlərin vəhşəti için salim qaldı. Belə işlər xüsusunda asitanəyi-aliyyənin qoca iti tədbir göstərməkdə aciz deyil! Amma kəvakib ilə (yıldızlarla, deməkdir) müxalifət etməkdə ağlım hər bir ilacdan kâsır görünür (Yəni çarə bulmaqdan acizdir – *V.Y.*)».

Maliyyə naziri Mirzə Möhsün də padşahın xəzinəsini zəngin tutmaq qayəsi ilə dövlət məmurlarına maaş ödəməməyi kəndisi için bir iftixar vəsiləsi tələqqi etməkdədir. Mollabaşı Axund Səməd sünnilərə qarşı mücadiləsini və xalqa cəbrən şiə məzhəbini qəbul etdirməsini ballandıra-ballandıra anlatmaqdadır.

Əsərə «Aldanmış kəvakib» isminin verilmiş olmasının səbəbi şöylədir: Şah Abbasın münəccimləri onun taxtü-tacından məhrum ediləcəyi qənaətini yıldızların seyrindən istintac ediyorlar. Şah vəzirlərini topluyor və bu təhlükəyə bir çarə aranmasını istiyor. Məclisi-xas uzun istişarələrdən sonra təhlükə anı keçincəyə qədər şaha taxtü-tacından fərağət edərək, hökmdarlığa ələladə bir insan gətirməsini tövsiyə ediyorlar. Şah Abbas bu təklifi qəbul edərək, Sərrac Yusifi keçici olaraq səltənət məqamına təyin ediyor və bu surətlə kəhanət Sərrac Yusifin başında partlayaraq, Şah Abbas qurtulmuş və yıldızlar da aldanmış oluyorlar.

Böyləcə, müəllif əsərdəki bütün mənfi zümrəyə qarşı təkrar müsbət bir tip çıxarmaqdadır. Bu tip xalq çocuğu Yusifi-Sərracdır. Sonradan «Yusif şah» ünvanını alan Yusifi-Sərrac səltənət məqamını ələ keçirir-keçirməz, dövlət idarəsində əsaslı təsviyə yaparaq, ləyaqətsiz və dalkavuk vəzirləri iş başından uzaqlaşdırmaqda, yerlərinə dirayətli və qabiliyyətli insanlar təyin etməkdə, münəccimbaşılıq vəzifəsini büsbütün ortadan qaldırmaqda, qeyri-insani cəza üsullarını ilqa etməkdə, məhkəmə qərarı olmadan hər nevi cəzalandırmanı yasaq qılmaqda, yargılamaların ədalət əsasına dayanmasını sağlamaqda, ağır vergilər altında inləyən xalqın yükünü xəfifləşdirmək için yeni vergi sistemi tənzim etməkdə, pozulmuş yolları və yıxılmış körpüləri yenidən inşa etdirməkdə, karvansaraylar yapdırmaqda, sudan məhrum yerlərə su verdirmək için təsisat vücuda gətirməkdə, hər vilayətdə okul və xəstəxana açılmasını əmr etməkdədir.

«Aldanmış kəvakib» hekayəsi hər nevi istibdad idarəsinə qarşı yönəldilmiş sərt bir tənqid mahiyyətini daşımaqdadır. Əsərdə zahirən İranın Şah Abbas dövründəki idarə sistemi ələ alınmaqdadır. Həqiqətdə isə hər nevi istibdad rejimi və o arada, bilxassə Rusiya istibdadı tənqid olunmaqdadır. Mirzə Fətəlinin qayəsi yalnız Güney Azərbaycanındakı xalqın deyil, eyni zamanda Quzey Azərbaycanındakı əhalinin gözünü açmaqdı. Onun durumunda bulunan bir ədib rus istibdadı əleyhindəki fikirlərini başqa şəkildə ifadə edəməzdi.

Mirzə Fətəli həm Şərq və həm Qərb kültürünü mükəmməl surətdə mənimsəmiş bir ədibdi. Kəndisi Mövlanə Cəlaləddin Rumi, Şeyx Tusi, Şeyx Mahmud Şəbüstəri, Ömər Xəyyam, Əbdürrəhman Cami, Firdovsi və sairə gibi Şərq ədib və mütəfəkkirlərinin əsərlərini olduğu gibi, 18-ci

əsr Avropasının ədəbi və fəlsəfi cərəyanlarını da iyicə tətqiq etmiş bulunuyordu. Ərəbcə və farscaya olduğu gibi, rusca və fransızcaya dəxi mükəmməl vüqufu vardı. Bu böyük bilgin və ədib yalnız kiçik Azərbaycanın deyil, eyni zamanda Şərq-İslam dünyasının istiqbalını düşünərək, siyasi və fəlsəfi bir taqım prinsip və fikirlər irəli sürmüşdür. Mirzə Fətəli hər şeydən öncə hər nevi istibdadın, zülmün, haqsızlıq və əsarətin düşmənidir. Siyasi sahədə parlamento sistemini və hürriyyət rejimini tərvic edər. Din alanında koyu təəssübə, batil etiqadlara və hər nevi xürafələrə qarşı şiddətli mücadilə açar. Kültürəl sahədə Batı mədəniyyətinin bütün Şərq-İslam dünyası tərəfindən bir an əvvəl mənimsənməsini istər. Və bu qayəyə erişmək için ərəb alfabesinin tərkini və yerinə latın hərflərinin qəbulunu təklif ediyor. İştə 1864-1865 sənələrində qələmə aldığı «Kəmalüddövlənin Cəmalüddövləyə məktubları» başlıqlı əsərində Mirzə Fətəli bu gibi fikirləri tərvic etməkdədir. Əsərdə istibdad və mütləqiyyət idarələrinə və kəza mühitin tələqqilərinə qarşı çox cürətli fikirlər irəli sürüldüyü için Mirzə Fətəli başlanğıcda bu məktubların mühərriri olduğunu belə saklıyaraq, onları farscadan azəri türkcəsinə tərcümə etdiyini söylüyordu. Məsəla, dostlarından naibülvüzəra Mirzə Əbdülvahab xana göndərdiyi məktubda şöylə diyordu: «Həmin məktubu yazanlar indi Bağdadda yaşayan və bir-birinin ən yaxın dost və yoldaşı olan Hindistan şahzadəsi İqbalüddövlə Ovrəng Zib oğlu ilə İran şahzadəsi Şucaüddövlə Əli şah Zillüs Sultan oğludur. Mənim təqsirim nədir ki, biri öz adını Kəmalüddövlə, öbürü Cəmalüddövlə qoymuşdur. Mən həmən məktubu tənqid yazmaq məqsədiylə farscadan türkcəyə tərcümə etmişəm». Fəqət müəllif 1874 sənəsində yazdığı hal tərcüməsində məktubların kəndi əsəri olduğunu etiraf etmişdir.

Mirzə Fətəli bu saydığımız əsərlərdən başqa, ərəb alfabesinin islahı haqqında 1857 sənəsində farsca bir risalə yazmışdır. Ayrıca, müxtəlif vəsilələrlə tənqid mahiyyətində bəzi məqalələr qələmə almışdır. Məsəla, «Risaleyi-irad» başlıqlı bir yazısında İran müəlliflərindən Rzaqulu xan Hidayətin «Rövzətüs-səfayi-Nasiriyyə mülhəqatı» adını daşıyan tarix əsərini şiddətlə tənqid edərək, bu kitabda tarixi olayların doğru bir şəkildə təsvir edilmədiyini, əsərin mənzum olaraq və anlaşılması güc bir lisanla yazıldığını, lüzumsuz təfsilata yer verildiyini qeyd etməkdədir. Müasiri bulunan Tehran şairlərindən «Məliküş-şüəra» və

«Şəmsüş-şüəra» ləqəblərini almış «Süruş» məxləsli birisinin qəsidəsinə yazdığı «Tənqid» başlıqlı yazısında ustad şöylə deməkdədir: «Şəmsüş-şüəranın qəsidəsinin məzmunu başdan-ayağa qədər bəzi şeyxi əqidələrinə istinad edir. Bu əqidənin doğru və ya yanlış olduğunu din alimlərinə həvalə edirik. Çünki dini əqidələrə qarışmaq bizim vəzifəmiz deyildir. Lakin biz onu deyə bilirik ki, bu əqidələrin qətiyyən qəribəliyi və yeniliyi yoxdur. Onları minlərcə dəfə başqaları demişdir və yazmışdır. O halda qəribəlik və yeniliyi olmayan bir məzmun, xüsusilə şeirdə qətiyyən zövq artırmaz və fərəh gətirən ola bilməz».

«Fehristi-kitab» başlıqlı digər bir yazısında dram sənətinin önəmindən bəhs edərkən Mirzə Fətəli şöylə deməkdədir: «Dram fənnindən məqsəd insan əxlaqının düzəldilməsi, oxuyanların və dinləyənlərin ibrət almasıdır».

Alfabe məsələsi

Lakin Mirzə Fətəli sadəcə komediya, hekayə və məqalələrində Şərq-İslam dünyasının orta çağlardan qalma geri ictimai müəssisələrini, kötü adət və batil etiqadlarını tənqid atəşinə tutmaqla iktifa etməmiş, o, eyni zamanda müsəlman qövmlərinin oyanmasını və irəliləməsini gecikdirən səbəb və amilləri də ciddiyyətlə araşdırmışdır. Bu amillər meyanında Mirzə Fətəli, bilxassə ərəb alfabesinin üzərində əhəmiyyətlə durmuşdur. Yuxarıda işarət etdiyim farsca hal tərcüməsində böyük ədibimiz bir ara şöylə deməkdədir: «Əgər müsəlman millətinin alfabesi s*yllabique*[6] olmayıb da *alphabetique*[7] olsa idi və bu çeşid yazılarda olduğu gibi kəlmələr soldan-sağa doğru yazılmış olsaydı, heç şübhəsiz, İslam milləti tərəqqi və mədəniyyət sahəsində Avropa qövmlərindən daha irəli olacaqdı. Zira mədəniyyət toxumu ilk öncə müsəlman torpaqlarında kök salmışdır. Fəqət müsəlman *syllabique* yazısının güclüyü üzündən elm və maarif bu millətin bütün sinifləri arasında yayılamamış və İslam torpaqlarındakı mədəniyyət toxumu çürüyərək ziyan olmuşdur. Halbuki eyni mədəniyyət toxumu alphabetique yazısının qolaylığı sayəsində Avropa torpaqlarında məhsul verməyə başlamışdır.

[6] sillabik – *N.C.*
[7] alfabetik – *N.C.*

Bu dəfə yazıqlar olsun ki, İslam millətinin öndərləri alfabenin islahı lüzumunu qavrayamıyor və günəş gibi aşkar olan bu həqiqəti görəmiyorlar və alfabe islahına nəzərən, fər'i tədbirlər sayılması gərəkən: Tənzimati-cədidə, yeni yollar inşası, buxar gəmiləri tədarükü, teleqraf xətlərinin çəkilməsi, modern silahlar təmini və sair bu gibi işləri yazı reformuna tərcih ediyorlar. Gerçəkdən, insanın böylə bir millət arasında dünyaya gəlib də həqiqəti gördüyü və bildiyi halda cahil vətəndaşlarına anlatamaması və qəlbi həsrətlə dolu olaraq ölüb-getməsi böyük bir bədbəxtlikdir».

Mirzə Fətəli Şərq-İslam dünyasının alfabe sahəsində əsaslı reform yapılmasına hənüz müsaid olmadığını nəzəri-etibara alaraq, başlanğıcda ərəb hərflərinin büsbütün qaldırılmasını təklif etməmişdi. O, bidayətdə sadəcə ərəb alfabesində islahat yapılaraq nöqtələrin qaldırılmasını və səsli hərflərlə hərəkələr için müəyyən işarətlər kullanılması lüzumunu irəli sürüyordu. Bilindiyi gibi, *alphabetique* yazıda hər səs müəyyən bir işarə, yəni müəyyən bir hərflə ifadə olunmaqdadır. Bu hərf kəlmənin başında, ortasında və ya sonunda olsun, şəklini dəyişməz. Halbuki ərəb alfabesi gibi *syllabique* yazılarda hərflər bir-birinə müttəsil olaraq yazılmaqda və kəlmənin başında, ortasında və ya sonunda yer almasına görə şəklini mütəmadiyən dəyişdirməkdədir. *Syllabique y*azıda səsli hərflərin bir çoxu hər hangi bir işarət şəklində ifadəsini bulamamaqda və bu hal oxunuşu bir xeyli gücləşdirməkdədir. İştə, Mirzə Fətəli ilk təklifində ərəb alfabesinin bu gibi bariz məhzurlarını gidərən bir islahat projesi ilə ortaya atılmışdı. Ustad bu projesini ilk öncə Osmanlı hökumətinə təklif etmişdi. Çünki Osmanlı imperatorluğu bütün İslam dünyasında dini və mənəvi müstəsna bir nüfuza sahib bulunuyordu. Bu hərəkət, eyni zamanda Mirzə Fətəlinin Türk və İslam dünyasına dərin bağlılığını göstərməkdədir. O, hər hangi münfərid bir hərəkətdən qaçınmışdır. Əgər alfabenin reformuna və ya büsbütün dəyişdirilməsinə lüzum varsa, onun fikrincə, bu, heç olmazsa, Türkiyə və İranla birlikdə yapılmalı idi. Yalnızbaşına Azərbaycanda yapılamazdı. Zira Azərbaycanın Türkiyə və İranla kültür bağları qoparılamazdı. Bunun içindir ki, ədib 1863 sənəsində komediyalarını, Yusif şahın hekayəsini və ərəb alfabesinin islahına dair risaləsini bərabərində alaraq İstanbula hərəkət etmiş və bütün bunlarla birlikdə reform projesini sədrəzəm Fuad Paşaya təqdim etmişdir. Fuad Paşa Mirzə Fətəlinin

əsərlərini və alfabenin islahına dair projesini «Cəmiyyəti-Elmiyyəyi-Osmaniyyə»nin tədqiqinə həvalə etmişdir. Cəmiyyət Axundzadənin komediyalarını təqdirlə qarşılamış və bunların osmanlıcaya çevrilməsinə qərar vermişdir. Projenin də üzərində önəmlə durulmuşdur. Cəmiyyət ərəb alfabesinin islahı məsələsini iki cəlsədə müzakirə etmiş və bunlardan birinə Mirzə Fətəli də qatılmışdır. Bu xüsusda verilən qərarda ərəb alfabesinin türkcəyə əlverişli olmadığı və islaha möhtac bulunduğu keyfiyyətinin çoğunluqla qəbul edildiyi bəlirtilməkdə və Fətəli tərəfindən sunulan islah projesinin «Fevait və mühassənnatı təsdiq və təslim olunmuş isə də, mücərrəd icrasında dərkar olan müşkülatı əziməyə məbni, bundan şimdilik məcburən sərfi-nəzər olunmuşdur» denilməkdədir. Kəza eyni qərarda bəlirdildiyinə görə, alfabe islahının sırf mətbəəçilik baxımından tətbiqi müşkül görülməklə bərabər, Fətəlinin «Bu babdakı məsai və ehtimamı təhsin və sitayişə şayan» görülmüşdür. Cəmiyyətin bu xüsusda sədrəzəm Fuad Paşaya göndərdiyi təkrirdən və bizzat Mirzə Fətəlinin hal tərcüməsindən ustadın da bu məhzurları qəbul etdiyi anlaşılmaqdadır. Bunun üzərinə, Mirzə Fətəli «islam əlifbasını bilkülliyə tərk edib avropalıların üsuli-xəttini qəbul etmək və yazını soldan sağa yazıb oxumaq və nöqtələri bilmərrə saqit etmək və hərflərin şəklini latın hərflərindən intixab edib yeni bir əlifba tərtib etmək və hürufi-müsavvətəni hürufi-samitənin yanına yazmaq, xülasə *syllabique* əlifbanı *alhabetique* əlifbaya mübəddəl etmək» təklifində bulunduğunu, fəqət bu fikrinin qəbul edilmədiyini hal tərcüməsində bəlirtməkdədir.

Mirzə Fətəlinin ədəbi və elmi sahədəki hizmətləri İstanbulda təqdir ilə qarşılandığından kəndisi Məcidiyyə nişanı ilə təltif edilmişdi. Fəqət böyük qayəsinə erişəməmiş olması kəndisini son dərəcə üzüyordu. O, alfabe reformuna həyati bir önəm ətf etməkdə idi. Fikrincə, Avropa mədəniyyətinə doğru girişiləcək həmlələrin başında gəlməsi gərəkən bu reform Şərq-İslam dünyasının vəchəsini əsaslı surətdə dəyişdirəcəkdi. Mirzə Fətəli bütün varlığıyla bu davaya səmimi surətdə inanmaqda idi. Bütün həyatını, bilxassə bu böyük və çətin davaya həsr etmiş bulunuyordu. Bundan dolayıdır ki, İstanbulda uğradığı başarısızlıq əzm və imanını sarsmamışdır. Kafkasyaya dönər-dönməz ərəb alfabesinin əksikləri və uyğunsuzluqları haqqında yeni bir risalə təlif edərək, bu səfər Tehrana göndərmişdir. Bu risaləsində hürufi-münfəsiləni

hürufi-müttəsiləyə tərcih etmişsə də, yenə mühitin müxalifətindən çəkinərək, sağdan sola yazma tərzini əskisi gibi mühafizə etmişdir. Tehranda da müsbət bir nəticə əldə edəməyincə, yenidən başqa bir risalə qələmə alaraq, Osmanlı sədrəzəmi Əli Paşaya göndərmişdir. Bu dəfə İstanbula göndərdiyi risaləyə bizzat Osmanlı bilginlərindən Suavi Əfəndinin ərəb alfabesinə dair yazdığı tənqid mahiyyətindəki bir yazısını da əlavə etmişdir. Fəqət bu son təşəbbüsü də heç bir səmərə verməmişdir. Ustad bütün bu səmimi və cansiparanə qeyrətlərinin aqamətə uğramış olmasından doğan ruhi üsyanını Firdovsi üslubunda farsca mənzum olaraq yazdığı uzun bir şikayətnaməsində acı-acı ifadə etməkdədir. Eyni zamanda qüvvətli bir təbi-şeirə malik bulunan Mirzə Fətəli Axundzadənin bu şikayətnaməsindən bir parçasını qüdrəti şairanəsinə bir misal olmaq üzrə burada zikr etməyi faydadan hali görmüyoruz:

Bə ənduhi-həsrət məra ruzigar
Sər amәd dərin dəhri-na payidar.
Bə bəsyari-tədbirha çənğzən
Həmi budəm əz fərti xubbi vətən.
Nə bəhşid sayam vəli hasili,
Nə didəm dərin əsr sahib dili.
Bozurgani-Türkanü-İran zəmin
Həmə hoftə budənd çün xəlqi-Çin.
Cəvanim rəftü-zəbun gəşt zur,
Cəvani nə didəm əba zogü-şur.
Səfər kərdəm əz rahi-dərya bə Rum.
Əlifbayi nora dəran mərzi bum
Nəmudəm bə ərkani-dölət tamam,
Hiyaləm bəsi puhtə budü-nə ham...

Tərcüməsi şöylədir: Payidar olmayan bu dünyada ömrüm həsrət acısı içində keçdi. Vətənə qarşı dərin eşqim məni bir çox tədbirlərə baş vurmağa sövq etdi. Fəqət qeyrətlərim heç bir nəticə vermədi, çünki bu əsrdə haldan anlayan kimsəyə rastlayamadım. Türk və İran böyükləri Çin xalqı gibi uyquya dalmış bulunuyorlardı. Gəncliyim getdi və vücudum zəif düşməyə başladı, həyatımın gənclik çağı da həp zövq və səfasız keçdi. Dənizləri aşaraq Ruma getdim və tənzim etdiyim yeni

alfabeni oradakı dövlət ərkanına göstərdim. O əsnada qafamda əsaslı ümid və arzular bəsləməkdə idim.

Mənzumənin geri qalan qismində Mirzə Fətəli tənzim etdiyi yeni alfabeni Tehrana göndərdiyini və oradakı ləyaqətsiz vəzirlər üzündən təşəbbüsünün akim qaldığını qeyd etməkdə və İran şahına qəlbləri vətən və məmləkət eşqiylə yanan dəyərli dövlət adamlarını iş başına gətirməsi için uzun nəsihətlərdə bulunmaqdadır. Ustad bu gibi dəyərli dövlət ərkanına misal olaraq, amerikan cümhurbaşqanı Avraam Linkolnu, fransız başbakanı Tiereni, italyan hürriyyət qəhrəmanı Cüzeppe Qaribaldini, alman şansölyəsi Otto fon Bismarkı və hizmətləri ilə vətənlərini ehya etmiş bulunan digər tarixi simaları zikr etməkdədir. Mənzumədə Mirzə Fətəlinin demokratik prinsiplərini bir qat daha təbarüz etdirən bəzi yüksək fikirlərə də rastlamaqdayız. Məsəla, İran şahına yapdığı nəsihətlər meyanında şöylə bir vəcizə vardır:

Ki dölət pərəstari-millət buvəd,
Nə millət pərəstari-dölət buvəd.

Yəni dövlət millət içindir, millət dövlət için deyildir.
Nəsihətinin bir başqa yerində şair şöylə deməkdədir:

Vəzirani ba elmü-hikmət bihah,
Nəcabət rəha kun, fəzilət bihah!

Yəni elmü-hikmət sahəsindəki vüquflarıyla təmayüz etmiş vəzirləri iqtidar mövqeyinə gətirməyə qeyrət et, dövlət ərkanında əsalət deyil, fəzilət aramaq icab edər.

Əziz vətəndaşlar,

Buraya qədər sizlərə Mirzə Fətəlinin hal tərcüməsi, şəxsiyyəti və əsərləri haqqında əlimizdə bulunan məhdud qaynaqların imkan verdiyi nisbətdə bilgi verməyə çalışdıq. Verilən məlumatdan görüyorsunuz ki, Mirzə Fətəli türklüyünü müdrik, vətəninə dərin bir sevgi ilə bağlı, Şərq-İslam dünyasının bir an öncə Avropa kültürünə, rifah və səadətə erişməsi için əlindən gələn heç bir qeyrəti əsirgəməz, kəndisini millət hizmətinə həsr etmiş, uzaqgörücü, əngin bilgili, müasirlərini çox geridə bırakmış, hürriyyət aşiqi və hər nevi istibdad və təhəkküm düşməni böyük bir insan və səmimi bir cəmiyyət xadimidir. Burada bir sual varid

ola bilir. Əcəba, Mirzə Fətəlinin bu qədər uğrunda qeyrət sərf etdiyi sevimli yurdu Azərbaycanda qızıl təhəkküm və istibdad rejimini qurmuş olan rus kommunist idarəçiləri bu böyük ədib və reformatorun şəxsiyyət və əsərlərini nə şəkildə tələqqi ediyorlar? Şurası mühəqqəqdir ki, əgər Mirzə Fətəli sovet rejimində yaşamış olsaydı, tanınmış Azərbaycan münəqqidi Firidun Köçərli, şair Hüseyn Cavid, Əhməd Cavad və isimlərini saymaqla bitirəməyəcəyimiz sair böyük ədiblər, bilginlər, sənətkarlar və aydınlar gibi onu da ya qurşuna dizəcək və ya da Sibiryada çürüdəcəklərdi. Çünki Mirzə Fətəli də bütün bu saydığımız insanlar gibi kommunizm əqidəsinə, milli əsarət politikasına və fərdin təhəkküm altına alınması sisteminə tamamən yabançı və şiddətlə müxalif bulunuyordu. Lakin Mirzə Fətəli nisbətən uzaq bir mazidə yaşamış və yazmış olduğu için kommunist idarəçilər onun qutsal ismini çirkin məqsəd və qayələri uğrunda istismara yeltəniyorlar.

Böyük ədibin doğum gününün 125-ci yıldönümündə, yəni 1937 sənəsində Azərbaycanda sözdə Mirzə Fətəli jübiləsi təşkil olunmuşdu. Bu jübilə münasibətiylə yayınlanan sovet yazılarında Mirzə Fətəlinin «rus kültürünün məhsulu olduğu və dünyadakı kültürlərin sözdə ən mütərəqqisi bulunan rus kültürünü» kəndi millətinə qəbul etdirmək istəmiş olduğu iddiası irəli sürülməkdə idi. Bir tərəfdən də rus kommunist idarəsi o sıralarda Azərbaycan aydınlarını kütlə halında imha ediyor və hətta bizzat iş başında bulunmuş olan azəri kommunistlərini belə topdan mərhəmətsizcə qurşuna dizdiriyordu. Çünki rus təhəkkümü altında bulunan bütün türk ölkələrində olduğu gibi, Azərbaycanda da şiddətli bir ruslaşdırma politikası təqib ediliyor, latın alfabesi yerinə cəbrən rus alfabesi qəbul etdiriliyor, lisan, tarix və kültür sürətlə ruslaşdırılıyordu. İştə bu mənfur milli assimilation[8] politikasını haqlı göstərmək için Mirzə Fətəli Axundzadə gibi xalqca pək iyi tanınmış və milli kültür ələmdarı olaraq şöhrət qazanmış bir simanı kommunist idarəçilər «rus kültürünün məhsulu və onun tərəfdarı» olaraq göstəriyorlardı. Əcəba, kommunistlərin əlində bu qərib iddianı dəstəkləyəcək hər hangi bir dəlil varmıdır? Yeganə dəlil olaraq Mirzə Fətəlinin ədəbiyyat sahəsinə daha yeni atılırkən, «Səbuhi» məxləsiylə yazdığı mənzumələr arasında bir tanəsinin rus şairi Puşkinin ölüm gününə təsis edilmiş olduğu key-

[8] Assimilyasiya – *N.C.*

fiyyəti zikr olunmaqdadır. Mirzə Fətəli farsca yazdığı bu mənzuməsində beşşaş təbiətin rəngarəng mənzərələrini sənətkar qələmiylə qayət cazib bir şəkildə təsvir etdikdən sonra, kəndisinin bu ümumi nəşə içində dərin bir hüzn və kədərə dalmış olduğunu və buna da böyük şair Puşkinin ölüm xəbərinin səbəbiyyət verdiyini qeyd etməkdədir. İştə Mirzə Fətəlinin «Rus kültürünün məhsulu və heyranı olduğu» haqqındakı kommunist «hikməti» bu bəsit hadisədən çıxarılmaqdadır. Puşkin və Lev Tolstoy gibi ədiblər bütün dünya kültürünə mal olmuş yüksək ədəbi qiymətlərdir. Onları hər kəs müxtəlif lisanlarda oxur və ədəbi dühalarını təqdir edər. Onlara qarşı heyranlığımız rus olduqlarından və ya rus kültürünə mənsub bulunduqlarından dolayı deyildir, insan həyatını və insan ruhunu böyük bir məharətlə təsvir etmiş və insanlığa ölməz əsərlər bırakmış olmalarından irəli gəlməkdədir. Eyni səbəblərdən dolayı, Mirzə Fətəli və onun gibi hər kəs Şekspiri, Mollièreni, Firdovsini və bunlara bənzər digər sənət ustadlarını hangi milliyyətə mənsub bulunurlarsa-bulunsunlar, heyranlıqla qarşılamaqdadır. Mirzə Fətəli, bilxassə Şekspir və Homerosdan[9] dərin bir sitayişlə bəhs etməkədir. Öylə isə nədən Mirzə Fətəli Puşkinə mərsiyə yazmaqla «rus kültürünün məhsulu və təşviqçisi» oluyormuş? Hangi əsərində və ya hangi yazısında Mirzə Fətəli rus kültüründən sitayişlə bəhs etmişdir? Edəməzdi də! Çünki o dövrdə tərəqqipərvər ruslar belə Batı Avropa kültürünü özlüyorlardı. «Zapadniki», yəni Qərbçilər ismini alan bu tərəqqipərvər rus münəvvər qrupu Bizans-İslav[10] kültürünə qarşı Avropa mədəniyyətini ideal edinmişdi. Azərbaycan Rusiyadan heç bir şey öyrənəməzdi. Çünki ogünkü Rusiyanın müstəbid çarlıq rejimində Mirzə Fətəlinin tənqid və əleyhində mücadilə etdiyi feodalitə dövrünün geri düşünüş tərzi və mühafizəkar müəssisələri eynən hökm sürməkdə idi. Mirzə Fətəlinin bütün düşünüş və mühakimə sistemində Batı Avropa mədəniyyəti və o meyanda, bilxassə 18-ci yüzyılın tənəvvür fikirləri örnək olaraq ələ alınmaqda və «Müsyö Jordan» əsərində olduğu gibi qüvvətlə təbarüz etdirilməkdədir. Ədib kəndi əsərlərində sadəcə geri ictimai müəssisələri tənqid etməklə qalmıyor, eyni zamanda yeni yaşayış və modern düşünüş tərzinin anahtarlarını da çizməkdədir. İştə, Mirzə Fətəli-

[9] Homer – *N.C.*
[10] İslav-slavyan – *N.C.*

nin əsərlərində çizdiyi bu yeni yaşayış və modern düşünüş tərzi tamamilə Batı Avropa mədəniyyətindən və Avropada hakim ideoloji sistemindən mülhəm bulunmaqdadır. Bunların nə Mirzə Fətəli dövründəki və nə də sonrakı və hələ bügünkü kommunist rus mühiti ilə uzaqdan belə olsun heç bir ilgisi yoxdur.

Rus kültürünün dünyanın ən irəli kültürü olduğu keyfiyyətinə gəlincə, sözdə internasionalist bulunduqlarını iddia edən şoven rusçu və panislavist Moskva kommunistləri bu tezləriylə qoca tarixi belə bir zərbə ilə ortadan qaldırmağa yeltəniyorlar. Bizim bildiyimiz tarixi həqiqətlər: Miladi 6-7-ci əsrlərdə bir-birilərіylə mütəmadi çəkişmə və boğuşma halında bulunan Rusiyadakı müxtəlif islav əşirətlərinin, nəhayət, bu hallarından bezərək, Skandinaviyadakı Norman (Varyağ) prinslərinə bir heyət göndərib: «Torpaqlarımız geniş və bərəkətlidir, fəqət intizamdan məhrumdur. Gəliniz bizə hökümət ediniz!» demiş və yabançıları kəndilərinə əfəndi intixab etmiş olmalarıdır. Bu surətlə, Kiyev Qran Dukalığının başına keçmiş bulunan Norman Rurik sülaləsi ancaq 10-cu əsrdə bütpərəstliyi tərk edərək, ortodoksluğu və dolayısıyla Bizans kültürünü qəbul etmişdi. Daha sonra Romanov xanədanına mənsub Birinci Petro bəzi hökumət ərkanı ilə birlikdə məhrəm bir şəkildə Avropaya gedərək, Hollandiya, İngiltərə və Almaniyada bəsit işçi sifətiylə çalışmış və bu surətlə, Avropa kültürünü mənimsəyərək məmləkətində cəbrən yerləşdirməyə qeyrət etmişdi. Lev Tolstoyun «Hərb və sülh» və «Anna Karenina» əsərlərində gördüyümüz vəchilə fransız lisanı və fransız kültürü rus hakim zümrəsinin iliklərinə qədər işləmiş bulunuyordu. Gərək o dövrdə, gərəksə ondan sonrakı dövrlərdə Rusiya bütün kültürəl, industrial və ekonomik gəlişmələrini münhəsirən Avropa kültürünə və avropalı elm və fənn adamlarının qeyrət və yardımlarına mədyundur. Sovet Rusiya belə, beş sənəlik sənayeləşdirmə planlarını Avropa və Amerika makinalarının və saysız texnik uzmanlarının yardımıyla gerçəkləşdirmişdir. Hal böylə olduqdan sonra «ən irəli rus kültüründən» geriyə nə qaldığını təqdir etmək güc olmasa gərəkdir. Şunu da qeyd etmədən keçməyəlim ki, Mirzə Fətəli irəli Avropa kültürünün bir simvolu olaraq latın alfabesini idealizə edərkən və bu alfabeni ərəblər və farslar da daxil olmaq üzrə bütün Şərq-İslam dünyasına qəbul etdirmək istərkən, rus bolşevik idarəsi azəri, türk-tatar, özbək, türkmən, qazax, qırğız, tacik, başqırd, qaraçaylı, balkar, qazı-qumuq və sair

Türk və İslam qövmlərinə türk fonetiyinə əsla uymayan, şəkil və texnik baxımından sakat və geri rus-islav kiril alfabesini cəbrən təxmil etmişdir. Halbuki gürcü və erməni alfabelərinə əsla toxunulmamışdır.

Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri haqqındakı fikirlərimizi xülasə etmək istərsək, bu böyük insanın hər şeydən öncə modern Azərbaycan ədəbiyyatının qurucusu, dramaturq, şair, mütəfəkkir və reformator olduğunu qeyd etməliyiz. O, realist bir ədibdir. Azərbaycanda səhnə ədəbiyyatının təməlini atmaqla Mirzə Fətəli bu sahədə yepyeni bir dövrə açmış bulunuyordu. Ustad kəndisindən sonra gələn ədiblər üzərində müsbət və davamlı bir təsir yapmışdır. Kəndisini bu yolda təqib edən dram ədiblərimizdən Nəcəf bəy Vəzirli, Əbdürrəhim bəy Haqverdili və Cəlil Məhəmmədquluzadə Mirzə Fətəli tərəfindən girişilən işi başarı ilə davam etdirmiş və Azərbaycan ədəbiyyatına bir sıra seçkin və möhtəva etibarilə zəngin əsərlər vermişlərdir. Mirzə Fətəlinin Azərbaycan tiyatrosunun daimi təmsil proqramına daxil bulunan ölməz əsərlərindən bir çoxu tanınmış müstəşriqlər tərəfindən alman, fransız, ingilis, isveç, rus, fars, gürcü və erməni dillərinə tərcümə edilmişdir. Bundan başqa, müəllifin şəxsiyyətinə və əsərlərinə dair dünya basınında və etüd nəşriyyatında bir çox yazılar çıxmışdır. Elmi və ədəbi fəaliyyət sahəsini İstanbula və Tehrana qədər uzatmağa müvəffəq olan bu zat kəskin bir zəkaya və tükənməz bir enerjiyə malik bulunuyordu. Həyatının bir tək amacı yurdunun və bütün Şərq-İslam dünyasının rifah və səadəti idi. O bu amaca doğru əmin və əzmli addımlarla yürüyordu. Kəndisini heç bir əngəl yolundan və hədəfindən alı qoyamamışdır. Yeni alfabenin qəbul etdirilməsi uğrundakı qeyrətləri müvəqqətən akim qaldıysa, günün birində bu fikrinin təhəqqüq edəcəyindən əsla şübhə etmiyordu. Ümidsizlik və üzüntüsü qayəsinin qabili-tətbiq olmamasından deyil, mühitinin idraksızlığından irəli gəliyordu.

Mirzə Fətəli Axundzadə 28 şubat 1878-də ağır bir qəlb xəstəliyi nəticəsində Tiflisdə vəfat etmişdir. Fəqət hər böyük insan və hər fədakar vətən xadimi gibi Mirzə Fətəli də azəri türklüyünün qədirşünas qəlbində daima yaşamış və bundan sonra dəxi əbədi surətdə yaşayacaqdır.

AŞIQ ƏLƏSGƏR
(1821-1926)

20-ci yüzyıldakı Azərbaycan sözlü ədəbiyyatının ən bəlirgin siması göyçaylı Aşıq Ələsgər olmuşdur. Kəndisi heç bir okul təhsili görmədiyi halda, sadəcə incə zövqü, şeir və musiqiyə qarşı dərin eşqi və həvəsi və kəza olağanüstü istedad və qabiliyyəti sayəsində xalq şeir sənətinin yüksək örnəklərini vücuda gətirmişdir. Sadə və tatlı şeirləri bəzən Molla Pənah Vaqifin qoşmalarını, bəzən də xalq şikəstə və bayatılarını andırmaqdadır.

Mövzuları eşq və sevgidir. Lisanı təbii və axıcıdır. Məcaz və istiarələri sırf kəndinə xasdır. Bütün bu vəsfləri onu zamanının tanınmış şairləri qatına yüksəltməkdədir.

Aşıq Ələsgərin başlıca özəlliyi və dəyəri hər nevi kitab təsirindən, rəsmi dil və üslubdan uzaq və kəndi aşıq ruh və təbiətinə sadiq qalmış olmasındadır:

Çərşənbə günündə çeşmə başında
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, keçdi sinəmdən,
Nazü-qəmzələri qanıma düşdü.

İşarət eylədim, dərdimi bildi,
Həm çox gözəldi, həm əhli-dildi.
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.

Ələsgərəm, hər elmdən halıyam,
Gözəl, sən dərdlisən, mən yaralıyam,
Dedi: – nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım yanıma düşdü.

Aşıq Ələsgərin şeirlərindəki cinaslar da həm təbii, həm də bədii bir mahiyyət daşır. Məsələ,

Könül, sən ki düşdün eşqin bəhrinə,
Narın çalxan, narın silkin, narın üz,
Dost səni bağına bağban eyləsə,
Almasın dər, gülün iylə, narın üz...

Qoy söykənsin narın üzə narın üz,
İnsaf eylə, bir könlümün narın üz!..

İlk beydəki «üz» yəni «yüz» kəlməsi «yüzmək» məsdərindən; ikinci beytdəki «üz» dərmək, qoparmaq; üçüncü beytin birinci misrasındakı «üz» surət, yüz anlamına; ikinci misrasındakı «üz» isə gidərmək məfhumuna gəlməkdədir. «Narın» kəlməsinə gəlincə, bu kəlmə ilk beytdə ağır, ahəstə, yavaş; ikinci beytin sonunda nar (meyvə); üçüncü beytin birinci misrasında incə, gözəl; ikinci misrasında isə atəş mənalarına gəlməkdədir.

Aşıq Ələsgərin öyüd və eyitim nevindən şeirləri də vardır. Bunlardan biri: «Qafil könlüm, bu nə yoldur tutubsan», bir başqası da «Məğrurluq eyləyib ustadam, demə» başlıqlarını daşımaqdadır. Hikmanə fikirlərdən mülhəm bulunan qoşmalarından biri: «Yaradan yaradıb külli- aləmi» başlığı ilə başlar. Təbiətin gözəlliklərini təsvir edən şeirlərindən bilxassə: «Bahar fəsli, yaz ayları gələndə» başlığını daşıyan şeiri qeydəşayandır.

Aşıq ixtiyar çağında keçmiş günləri həsrətlə anaraq, şair Vəli ilə yapdığı müşavirəsində zəmanə və fələkdən acı-acı şikayət etməkdədir:

Qəza vurdu, baxtım tapdı tənəzzül,
İqbalım şikara döndü, nə döndü!
Can deyən dostlarım, şux gözəllərin
Ovsunalmaz mara döndü, nə döndü!

Fərhad sevdi, dedi, Şirin camalım,
Şirin dost əlindən şirin cam alım,
Şirincə dövlətim, şirincə malım
Axır zəhrimara döndü, nə döndü!

Şu qısa parçalar Aşıq Ələsgərin nə dərəcə səmimi və coşqun hisslərə sahib lirik bir şair olduğunu bəlirtməyə kafidir, sanırız.

XURŞİDBANU NATƏVAN

Azərbaycan ədəbiyyatının gəlişməsində bəzi qadın şairlərin də mühüm rolu olmuşdur. Bunlar arasında 19-cu əsrin ikinci yarısında yetişmiş bulunan Xurşidbanu Natəvanı, bilxassə təbarüz etdirmək gərəkdir.

Natəvan Qarabağ xanlığının böyük qurucusu məşhur Pənahəli xanın soyundan gəlmiş, İbrahimxəlil xanın torunu və Qarabağın son xanı Mehdiqulu xanın qızıdır. Xalq arasında «Xan qızı» ləqəbilə ün salmışdır. 1837 sənəsində doğmuş və 1897 yılında vəfat etmişdir.

Natəvan dövrünün imkan və şərtlərinə nəzərən, iyi bir təhsil görmüş və azəri ədəbi türkcəsilə farsca və ərəbcəni öyrənərək Şərq ədəbiyyatının klassik ustadlarından Nəvai, Füzuli, Nizami, Firdovsi və Hafizin əsərlərilə tanışmışdır. Bir müddət də Tiflis şəhərinin seçkin aristokrasi mühitində yaşayaraq rus dili və ədəbiyyatını təhsil və tədqiqə fürsət bulmuşdur.

Natəvanın ilk kocası Dağıstan əsilzadələrindən Xasay xan Usmiyev olmuşdur. Bu zat Peterburqda təhsil görmüş, rus və fransız dillərinə vaqif, nüfuz və qüdrət sahibi aydınlardan biri idi. Fəqət Natəvan ilə Usmiyevin həyat arkadaşlığı uzun sürməmişdir. Ondan boşandıqdan sonra Natəvan 1869 sənəsində Ağa Seyid Hüseyn ismində bir zat ilə Şuşada evlənmişdir.

Natəvan ədəbi fəaliyyətinə təqribən keçən əsrin 60-cı sənələrindən etibarən başlamış bulunuyordu. Bu fəaliyyətin ən hərarətli dövrəsi «Məclisi-üns» və «Məclisi-fəramuşan» gibi ədəbi dərnəklərdə keçmişdir. Hər iki ədəbi dərnəyin qurulmasında Natəvanın böyük və ciddi təsiri və yardımı olmuşdur. «Məclisi-üns» dərnəyi ədiblərimizdən Mirzə Rəhim Fənanın iştirakilə təqribən 1872 sənəsində qurulmuşdu. «Məclisi- fəramuşan» isə daha sonra Mir Möhsün Nəvvab Qarabağinin təşəbbüsü üzərinə vücuda gətirilmişdi. Xurşidbanu «Məclisi-üns» dərnəyinə doğrudan-doğruya mali yardımda bulunuyor və ədəbi fəaliyyətlərini təşviq ediyordu.

Natəvan Azərbaycan ədəbiyyatında sentimental-romantik şeir üslubunun bariz bir müməssilidir. Şeirlərində incə bir lirizm, dərin və coşqun bir hiss və həyəcan sezilməkdədir. Yanıqlı qəzəlləri adəta bir mərsiyə ruhunu daşımaqdadır. Göz yaşları, həsrət, Tanrıya yalvarma,

ayrılıq iztirabları, ümidsizlik və şikayət bu şeirlərin başlıca mövzusunu təşkil etməkdədir. Natəvanın şeirlərindəki bu ruh haləti həyatında uğradığı fəlakətlərin bir nəticəsidir. Şair 1885 sənəsində on yeddi yaşındakı oğlu Mir Abbası kayb etmişdir. Böyük oğlu Mehdiqulu xan Vəfa isə dövlət hizmətində bulunduğundan uzaqlarda yaşıyor və annəsilə seyrək görüşə biliyordu.

Natəvan ağlı, zəkası, elmə və ədəbiyyata qarşı dərin həvəsi və bağlılığı ilə sivrilmiş kültürlü və irəligörüşlü bir qadındı. Şeirdə olduğu qədər, rəssamlıqda dəxi böyük istedad sahibi idi. Eyni zamanda comərd və iyiliksevər bir insan olduğu için yoxsullara daima yardım əlini uzadır və xalqı qorurdu. Öz yurdu Qarabağın rifah və ümranına çalışaraq yollarını və köprülərini təmir etdirdiyi gibi. 1872 sənəsində bu gün belə «Xan qızı bulağı» deyə anılan su kəmərini şəhərə altı kilometrlik bir məsafədən Şuşa qalasına qədər inşaya müvəffəq olmuşdu.

Natəvan kəndi çocuqlarını da şeir və ədəbiyyata təşviq edərdi. Bu qüvvətli təsir və təlqinlər nəticəsində gərək Mehdiqulu xan Vəfa, gərəksə digər oğlu Əmir Həsən və qızı Xanbikə birər şair olaraq gözəl qəzəllər yazmışlardır.

Natəvanın gözəl parçalarından birisi şudur:

Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.

Cəfayi-xarı görüb köçdü bağdən bülbül,
Görən kim oldu bir gülşəndə aşinası gülün?

Xəzanə meyl elədi, olmadı vəfa nəzərə,
Yetişdi bülbülə çox-çox qəmü-cəfası gülün.

Natəvanın qəzəllərində sadə üslub ilə səmimi duyğular bir-birini tamamlamaqdadır. Məsəla, şu şeirini alalım:

Dilbəra, dərdi-dilimdən belə ünvan etdim
Ki, qəmi-hicrdə dil mülkünü viran etdim.

Mümkün olmaz mənə vəslin bilirəm həşrə kimi,
Ol səbəb məskənimi guhi-biyaban etdim.

Eşq sultanı mənim qətlimə fərman gətirib,
Etmədim tərki-vəfa, taəti-fərman etdim.

Səri-kuyində qoyub başımı bir uf demədim,
Səri sidqilə dilü-canımı qurban etdim.
Ya təbib, adını tərk eylə, təbabət etmə,
Ya mənim dərdimi tap, gör, niyə giryan etdim?

Yoxdu bir kimsə məgər dərdimi bilsin, ya Rəbb,
Ki, mən öz qanım ilə dərdimə dərman etdim!

Dərdi-hicrində gözüm yaşı tutub dünyanı,
Nuh tufanı kimi, gör ki, nə tufan etdim!

Natəvan, etmədi ol səngdilə naləm əsər,
Gecə-gündüz nə qədər naləvü əfğan etdim.

Natəvan da Füzuli gibi dövrün və dünyanın vəfasızlığından müştəkidir:

Zəmanə saldı əcəb möhnətü-məlalə məni,
O mahrudən iraq verdi qəm zəvalə məni

Tükəndi tabü-təvan, ey xudayi-ləmyəzəli!
Ya tez bu canımı al, ya yetir vüsalə məni!

Nə yaxşı günlər idi kim, sənինlə munis idim,
Zəmanə indi edib sinə dağlı lalə məni.

Vüsalə yetməyibən zarü-Natəvan qaldım,
Edib fələk yenə həsrət o mahcəmalə məni.

Natəvanın şeirlərində başından sonuna qədər sağlam bir fikir bağlılığı gözə çarpmaqdadır. Bu da şairin səmimiyyətini və şeirlərində gerçək hisslərini ifadə etmiş olduğunu göstərməkdədir. Məsələ, şairin «Ölürəm» rədifli qəzəlində sevgi, həsrət və ayrılıq gibi duyğuların son dərəcə səmimi və gözəl bir ifadəsini buluyoruz:

Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtiahan, ölürəm!

Fəraqdan gecələr yatmaram sabaha kimi,
Xəyali-zülfünə bağlı gedibdi can, ölürəm.

Bahari-hüsnün ara, gör necə xəzanəm mən,
Bahar laləsi tək bağrım oldu qan, ölürəm.
Vərəq-vərəq dilü-can hicrin içrə odlandı,
Misali gəncafə səd parə oldu can, ölürəm.

O xaki-payini mən aşiyanə etmiş idim,
Vətəndən ayrı düşüb, indi laməkan ölürəm.

Dedin ki, çək əlini damənimdən, əl çəkdim,
Tərəhhüm eyləmədin axır, ey cavan, ölürəm.

Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,
Kədər büküb belimi, eyləyib kaman, ölürəm.

Fəraqdan tükənib tabü-taqətim, billah,
Vüsalə yetməz əlim, zarü-Natəvan, ölürəm.

Natəvan kəndi qəzəllərində əruz vəzninin ən oynaq və ahəngli bəhrlərindən faydalanmaqda və gözəl qafiyələr kullanmaqdadır. Bir kaç şeiri müstəsna, digərləri rədiflə yazılmışdır. Qəzəllərində ustaca təkrirlərə:

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!..

Və çiftə qafiyələrə:

Bilən bu dərdimi yoxdur bu halətdə, bu halətdə!

Və ya:

Qoyubdur intizarında neçin gəlməz, neçin gəlməz?!

sıx-sıx rastlanmaqdadır.

Buraya qədər verdiyimiz misallardan da görüləcəyi gibi, 19-cu əsrin ikinci yarısında əsərlərini vücuda gətirmiş bulunan bu qadın şairimiz Natəvan həm təbinin zənginliyi, lisanının açıqlığı, təşbeh və istiarələrinin təbiiliyi və gözəlliyi, həm də fikir və məntiqindəki birlik və duyğularındakı səmimiyyətlə təbarüz etmiş irəli, qüdrətli və üzərində uzun boylu tədqiqədəyər bir sənətkardır. Böyük şairimiz Füzuliyə bənzər tərəfləri çox olduğu için Natəvanın şeirləri, bilxassə ilgi oyandırmaqdadır.

Şair Şuşada həyata gözlərini yummuş və Ağdam şəhərinin İmarət adını daşıyan məhəllində dəfn olunmuşdur.

SABİRİN AZƏRBAYCAN ƏDƏBİYYATINDAKI YERİ

Əziz arkadaşlar!

Bugünkü konfransımızın konusu Ələkbər Sabirin Azərbaycan ədəbiyyatındakı yeridir. Fəqət əsl konumuza keçmədən öncə, Sabirin yaşadığı dövrə bir göz atalım. Sabir 1862 sənəsində doğmuş və 1911 sənəsində vəfat etmişdir. Sadəcə bu tarixlər dövrün xarakteristik vəsflərini ifadə etməyə kafidir. Çünki bu dövrün içinə qismən və ya tamamən Mirzə Fətəli Axundzadənin, Həsən bəy Zərdabinin, Nəcəf bəy Vəzirlinin, Cəlil Məhəmmədquluzadənin, Əbdürrəhim Haqverdilinin, Süleyman Axundazadənin[1] həyat və fəaliyyətləri və kəza «Füyuzat» və «Molla Nəsrəddin» ədəbi ailə və çevrələrinin təsir və nüfuzları girməkdədir. Bütün bu ədəbi mühitin ilham aldığı fikir və həqiqətlərdən Sabir də mülhəm bulunmuşdur. Yəni onlar gibi Sabir də feodalitə dövrünün iqtisadi və ictimai müəssisələrinə, zehniyyət və tələqqilərinə qarşı amansız mücadilə yapmışdır. Onlar gibi Sabir də Azərbaycan və Kafkasya sınırlarını aşaraq, Yaxın və Orta Doğu məmləkətlərinin siyasi və ictimai yaşayışları ilə yaxından ilgilənmiş, hələ Türkiyə və İran hürriyyət hərəkatlarına sehirli qələmiylə bilfeil qatılmışdır. Yalnız şu qədər var ki, Sabir ötəkilərdən xalqa daha yaxındır, xalqın hisslərini və fikirlərini daha iyi ifadə edər, xalqın öz lisaniylə konuşur, həm də təşbeh və istiarələrlə zəngin mənzum həcv üslubunu kullanır. Sabirin həcvi çox qüvvətli və son dərəcə müəssirdir. İctimai yaralarımızı bütün çıplaqlıqları ilə meydana qoymaqdadır.

Sabir dövründə feodalitə sistemi hənüz qalxmış deyildi. Köylü zümrəsi bu sistemin ağır zəncirlərini kəndi üzərində daşımaqda idi. Azərbaycan və ümumiyyətlə, bütün Kafkasya sömürgə həyatını yaşamaqda idi. Siyasi, iqtisadi və kültürəl sahələrdə mütləq hakimiyyət rusların əlində idi. Fəqət Azərbaycan türklüyü kəndi qədərinə boyun əymiş deyildi. Gizli və ya yarıaçıq şəkildə mücadilə heç durmadan davam etməkdə idi. Bütün kültür təşəkkülləri və xeyir müəssisələri birər müqavimət yuvası halına gəlmiş bulunuyordu. Gizli siyasi təşəkküllər də bir-birini təqib ediyordu. Milli basın siyasi mücadilənin ələmdarlığı vəzifəsini yapıyordu. Qapadılan bir qəzetə və ya dərginin yerini dərhal

[1] Süleyman Sani Axundov nəzərdə tutulur. – *N.C.*

bir başqası alıyordu. Aydın zümrənin və orta sinfin siyasi şüuru getdikcə gəlişməkdə idi.

Azərbaycan aydınları bir tərəfdən yardım ümidiylə dolu gözlərini qardaş Türkiyəyə doğru çevirirkən, bir tərəfdən də çarlıq idarəsinə səri dərbə endirmək məqsədiylə rejimə müxalif qüvvətlərlə şu və ya bu şəkildə müştərək mücadilə cəbhəsi quruyorlardı. Zatən kəndi-kəndinə daha o zaman təfəssöh etmiş bulunan çarlıq idarəsinə ilk ağır dərbəni gənc yapon milləti endirmiş bulunuyordu. Bunu 1905 ixtilalı təqib etmişdi. İxtilal qısa bir müddət için əski Rusiyadakı siyasi həyatı bir xeyli canlandırmışdı. Bu gəlişmədən məhkum millətlər və o meyanda türklər də olduqca istifadə etmişlərdi. «Həyat» qəzetəsinin, «Molla Nəsrəddin» və «Füyuzat» dərgilərinin nəşri ilə başlayan Azərbaycandakı hümmalı kültür çalışmaları da bu zamana isabət edər. Fəqət bu dövrə uzun sürməmişdir. 1908 sənəsində mahut Stolıpin irtica dövrəsinin başlaması ilə hürriyyət hərəkatı yenidən basdırılmış və məhkum millətlərə qarşı tətbiq olunan təzyiq politikası son dərəcə şiddətlənmişdi.

1905 ixtilalı ortaya yepyeni fikirlər ataraq, demokratik cərəyanların gəlişməsini bir xeyli hızlandırmışdı. Çarlığın rus xalqı arasında mənəvi nüfuzu tamamən sarsılmışdı. Aydın qafalarda cümhuriyyət fikri üstünlük qazanmağa başlıyordu. İşçi zümrəsinin təkmil hürriyyət haqları sərahətlə vəz edildiyi gibi, köylü davası da yeni bir zaviyədən mütaliə edilməkdə idi. Şimdi artıq sadəcə köylü əməyinin kamilən sərbəst bırakılması, yəni feodalitə dövründən qalma sosial münasibətlərin təsviyəsi tələbi ilə iktifa edilməyərək, eyni zamanda çiftçinin torpaqlandırılması və dövlət tərəfindən mənən və maddətən dəstəklənərək kalkındırılması, rifah və səadətə qovuşdurulması istəniyordu. Yalnız bununla da qalınmıyor: qüvvətli çiftçi partiləri köylünün doğrudan-doğruya dövlət idarəsinə iştirak etdirilməsini tələb ediyorlardı. Bu fikirlər təbiətiylə Azərbaycana şu və ya ya bu şəkildə əks ediyorlardı. Bakıda industri həyatı və xüsusilə petrol sənaye bir xeyli gəlişmiş olduğundan, burada işçi davası böyük bir önəm qazanmaqda idi. Yalnız şu qədər ki, Bakı işçilərinin çoğunluğunu çarlıq idarəsi və rus sərmayəçiləri tərəfindən durmadan Kafkasyaya göndərilən rus əmələsi təşkil ediyordu. Bu rus əmələ kütləsi Azərbaycanın çarlıq Rusiyası tərəfindən sömürülməsində və rus boyunduruğu altında tutulmasında böyük bir

rol oynamışdır. Sovet idarəsində isə Kafkasyadakı rus təhəkküm politikasının başlıca dəstəyini yenə bu rus işçi kütləsi təşkil etmişdir. Rus işçisi məhkum millətlərin hürriyyət və istiqlala qovuşaraq kəndi işlərini bizzat kəndilərinin idarə etmələrinə və Moskvadan əmr dinləmədən yaşaya bilmələrinə gərək çarlıq dövründə, gərəksə, bilxassə sovet rejimində bütün qüvvətiylə mümaniət etmiş və daima rus hakimiyyətinin və rus istila politikasının sadiq bir öncüsü vəzifəsini görmüşdür. Bu hala yalnız Kafkasyada deyil, rus məhkumu bütün digər məmləkətlərdə dəxi şahid olmaqdayız.

Sabir işçi davasını dəstəklərkən, münhəsirən Azərbaycan türk işçisini kast etmişdir. Kəndisinin böylə bir mühit və zamanda yaşamış olması təbiətiylə, yeni fikir və yazıları üzərində dərin bir təsir bırakmışdır. Bu təsirlərə Türkiyə və İrandakı hürriyyət hərəkatları da inzimam etmişdir.

Sabirin hal tərcüməsi

Sabirin hal tərcüməsi səmimi dostu və həmşəhrisi məşhur şair Abbas Səhhət tərəfindən qələmə alınmışdır. Bu hal tərcüməsinə görə, Mirzə Ələkbər Sabir Tahirzadə hicri 1278 sənəsi (ki miladi 1862 sənəsinə tətabüq etməkdədir) zilhiccə ayının birində Şamaxı şəhərində doğmuş və hicri 1329 (miladi 1911) sənəsi rəcəb ayının 28-də, yəni təmmuzun 12-də eyni şəhərdə vəfat etmişdir. Kiçik Sabir səkkiz yaşında ikən mədrəsəyə verilmiş və daha ilk öyrənim sənələrində çocuqca şeirlər yazmağa başlamışdır. Fəqət bu şövqünə qarşılıq, xocasından təqdir görəcəyinə, dayaq yemişdir. Kiçik şair bu acıqlı durumunu kəndisinə xas əda ilə şu üç misrada bəlirtmişdir:

Tutdum orucu İramazanda,
Qaldı iki gözlərim qazanda,
Mollam da döyür yazı yazanda!

Daha şu ilk çocuqca qaralamalarda müstəqbəl «Hophopnamə» müəllifinin dərin həcvçi ruhu sezilməkdədir. Sabir on iki yaşında ikən 19-cu əsr Azərbaycan şairlərindən məşhur Hacı Seyid Əzimin təsis etdiyi yeni üsul xüsusi məktəbə verilərək təhsilinə davam etmişdir. Hacı

Seyid Əzim kiçik Sabirdə şairlik istedadı sezdiyi için, kəndisini təşviqlə farsca oxutduğu şeirlərin türkcəyə çevrilməsini ondan istərmiş. Bu surətlə, bir-iki sənə məktəbə davam etdikdən sonra Sabir bir parça türkcə və farsca oxuyub-yazma öyrənmiş, fəqət babası daha irəli getməsinə müsaidə etməyərək, kəndisini ticarət həyatına alışdırmaq məqsədiylə dükanına almışdır. Bununla bərabər, kiçik Sabir hər şeydən öncə, fitri istedadının tələqinlərinə uyaraq, alış-verişdən ziyadə, oxuyub-yazmaqla məşğul olmuş və bu üzdən sıx-sıx azarlanmışdır. Hətta bir səfərində babası Sabirin şeir dəftərini yırtmışdır. Bu müamilədən dərin üzüntü duyan gənc Sabir ailəsini tərklə Şamaxıdan qaçmağa qərar veriyor və ayrılmadan öncə o andakı duyğularını şu şeirlə ifadə ediyor:

Mən Xəlilullahi əsrəm, pədərəm çün Azər,
Səfər əz Babili Şirvan konəm inşaallah.
Gərçi u dəftəri-əşari məra parə numud,
Vəslə ba tabi dərəhşan konəm, inşaallah!

Mənası şöylədir:

«Mən əsrin İbrahim peyğəmbəriyəm, pədərim də İbrahim peyğəmbərin babası Azər mövqeyindədir. İş böylə olunca, Tanrının yardımıyla Babilə bənzər Şirvanı tərk edərək səfərə çıxacağım. Gərçi babam şeir dəftərimi yırtmışdır, fəqət mən Allah yardım edərsə, onu parlaq təbi-şeirimlə təmir edərək təkrar əski halına gətirəcəyim».

Bilindiyi gibi, İbrahim peyğəmbər tək Tanrıya iman etdiyi halda, babası Azər bütpərəstliyində israr ediyordu. Bu üzdən baba ilə oğulun araları açılmış və İbrahim peyğəmbər məmləkətini tərk və hicrətə məcbur qalmışdı.

Bundan sonra Sabir Xorasana gedən bir karvanla yola çıxıyorsa da, babası bunu öyrənərək kəndisini geri çeviriyor. Lakin bu səfər Məhərrəm ayı münasibətiylə Kərbəla vaqeəsi haqqında yazdığı mərsiyələrlə gərək babasının, gərəksə şəhər xalqının sevgisini qazanıyor. Eyni zamanda gözəl və nüktəli konuşması və hazırcavablılığı ilə qısa zamanda din alimləri və Şamaxının yüksək təbəqəsi arasında geniş şöhrət sahibi oluyor və kəndisinə xalqın əlaqəsini çəkiyor. Bilxassə ustadı Hacı Seyid Əzimin lütf və sevgisinə məzhər oluyor.

Sabir yoxsulluq və səfalət içində ömür sürdüyü halda, qələmini əşrəf və əkabirə mədhiyyə yazmaqla heç bir zaman kirlətməmişdir. Bu

xüsusdakı «əczinə» işarə edənlərə kəndisi daima şu cavabı veriyordu: «Puldan ötrü yalan mədhiyyələr yazmaqda iqtidarım yoxsa da, doğru həcv yazmaqda çox hünərliyəm!»

Yenə Sabirə görə:

Şeir bir gövhəri yekdanəyi-ziqiymətdir,
Salmaram vəsfi-düruğ ilə onu qiymətdən.
Deyərəm həcv, sözüm doğru, kəlamim şirin,
Əhli-zövqə verərəm nəşə bu xoş şərbətdən.

Şair 23 yaşında Xorasan ziyarətinə gediyor və hərəkət tarixini şu qitəsiylə təsbit ediyor:

Sabiri-şeyda ki, tərki şəhri-Şirvan eylədi,
Bülbülə bənzərdi kim, meyli gülüstan eylədi.
Min üç yüz birdə hicrətdən sonra meymun ili,
Axiri şəvvalda əzmi Xorasan eylədi.

Sabir bu səyahətində Məşhəd, Səbzəvar, Nişapur, Türbəti-Heydəriyyə, Türbəti-Cəm, Səmərqənd və Buxara tərəflərini dolaşıyor və bu müddət zərfində həyatını səyyar satıcılıqla qazanıyor. Fəqət o sıralarda Xorasan vilayəti kolera salqınına uğradığından, çox keçmədən Şamaxıya dönüyor. Bir müddət doğduğu şəhərdə qaldıqdan sonra Kərbəla ziyarətinə gediyor və bu səyahətində bir çox mərsiyələr qələmə alıyor. Kərbələdan dönüşündə təkrar Xorasana uğruyor. Bu dəfə əsl niyyəti Türküstanın Aşqabad və Mərv şəhərlərində yerləşmək ikən, babasının ani ölümü və annəsinin dilindən bəradərinin yazdığı acıqlı bir məktub kəndisini Şamaxıya dönməyə məcbur qılıyor. Şair məmləkətinə döndükdən sonra evləniyor. On beş sənə zərfində səkkiz qız çocuğu doğuyor. Bu qədər qələbəlik bir ailənin keçimini sağlamaq için Sabir quyruq yağı əritmək və sabun bişirib satmaqla məşğul oluyor. Hər gün bunca məşəqqətli məsləyindən ayıra bildiyi beş-on dəqiqəlik sərbəst zamanını kitab mütaliəsinə və şeir yazmağa sərf ediyor.

1901 sənəsində həmşəhrilərindən iki şairlə tanışıyor və bunlarla yaxın arkadaş oluyor. Bunlardan biri Abbas Səhhət, digəri də Məhəmməd Tərrah idi. Hər üç şair boş zamanlarında buluşur, türkcə və farsca qəsidə

və qəzəl oxur və irticalən şeir söylərlərmiş. Daha sonra şair Ağa Əli Nasehin aracılığı ilə tanınmış tənqidçi Firidun Köçərli ilə tanışıyor və bu tanışmanın Sabirin ədəbi çalışmaları üzərində ciddi bir təsiri oluyor.

Klassik Azərbaycan ədəbiyyatını pək iyi bilən Sabir 42-43 yaşlarına qədər əski üsulda qəzəl, qəsidə və mərsiyə yazmaqla vaxt keçirmişdir. Lakin ədəbiyyatın bu çeşidi şairi pək tətmin etməmişdir. Sadəcə əski ədəbiyyata xas lisan, ifadə tərzi, təşbeh və istiarələrin pək köhnələşmiş, qüvvət və təsirini kayb etmiş olması deyil, eyni zamanda məal, fikir və möhtəva baxımlarından da onun yeni əsrin ehtiyaclarına uyğun bulunmadığı Sabirin gözündən qaçmıyordu. Sabir kəndisində yeni bir cığır açma, yeni bir söz söyləmə istedadını seziyordu. Fəqət bunun için hər şeydən öncə yeni bir şeir üslubu, yeni bir ifadə tərzi bulmaq icab ediyordu. Əski şeir artıq təravətini və cazibəsini kayb etmiş bulunuyordu. Nizamini, Nəsimini və Füzulini təqlidən əsrlər boyunca yazılan, fəqət gərək şeir, gərəksə fikir etibariylə bu böyük ustadların yüksək ədəbi səviyyələrinə heç bir zaman erişəməyən əski qəzəl ədəbiyyatına qarşı Sabir məal və ilhamını doğrudan-doğruya xalq yaşayışından alan, yəni zamanının siyasi və ictimai olaylarını bir həqiqət aynası gibi əks etdirən satirik şeir üslubunu intixab etdi. Sabiri bu yolu seçməyə sövq edən amil, bilxassə «Molla Nəsrəddin» dərgisinin nəşri olmuşdur. Dərginin daşıdığı ruh və məslək şairin təbiətinə tamamən uymaqda idi. Çünki Sabirdə ta çoçuqluğundan bəri tənqidçi və mizahçı bir ruh yaşamaqda idi. Şimdi kəndisi bu ruhundan və zəngin təcrübələrindən faydalanaraq, cəmiyyətin islahı için fəal mücadiləyə keçmək fürsət və imkanını qazanmış oluyordu.

Sabir ilk dəfə olaraq, «Molla Nəsrəddin» dərgisinin dördüncü sayısında «Hophop» imzasıyla şu şeirini nəşr etmişdir:

NƏ İŞİM VAR

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karim,
Dünyavü cahan ac olur olsun, nə işim var?!

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,

Tək-tək ayılan varsa da, Haqq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da batsın,
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Salma yadıma söhbəti-tarixi-cahani,
Əyyami-sələfdən demə söz bir də, filani,
Hal isə gətir meyl eləyim dolmanı, nani,
Müstəqbəli görmək nə gərək, ömrdü fani;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Övladi-vətən qoy hələ avarə dolansın,
Çirkabi-səfalətlə əli, başı bulansın,
Dul övrət isə sailə olsun, oda yansın,
Ancaq mənim avazeyi-şənim ucalansın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Hər millət edir səfheyi-dünyadə tərəqqi,
Eylər hərə bir mənzilü məvadə tərəqqi,
Yorğan-döşəyimdə düşə gər yadə tərəqqi,
Biz də edərik aləmi-röyadə tərəqqi;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Bu şeir qəzetələr və oxuyucular tərəfindən dərin təqdirlə qarşılanmışdır. Daha sonra Sabir gərək «Molla Nəsrəddin» dərgisinə, gərəksə müxtəlif qəzetələrə göndərdiyi şeirlərlə az zamanda böyük şöhrət qazanmış və aydın təbəqənin sevgi və əlaqəsinə məzhər olmuşdur. Halbuki cahil və mütəəssib xalq kütləsi Sabiri köhnə adətlərə qarşı savaş açdığı için təkfir və tənlin ediyordu. Fəqət Sabir sevgili millətindən gördüyü bu əza və cəfalara rəğmən, doğru yolundan bir an belə geri qalmıyor və tənqidlərinə daha şiddətlə davam ediyordu.

Abbas Səhhət Sabirin yaradıcılığı haqqında şu qeydədəyər sətirləri yazmaqdadır: «Həcviguy[2] deməklə hər kəsin fikrinə gələn əlfazi-mərdudəni heç vaxt şeirdə işlətməmiş. Həmid bəyin: «İnsana vicdanı

[2] Həcv şairi

qədər peyğəmbərlər, padşahlar belə mükafat edəməz» dediyi gibi, Sabir də öz xidmətinin mükafatını ölüncəyə qədər ancaq öz vicdanından almışdır. Azərbaycan ədəbiyyatında ən əvvəl yeni bir cığır açdı ki, ondan müqəddəm kimsə o gözəl şivədə yazmamışdı, nöqsanlarımızı və ayıblarımızı məzhəkə və mizah təriqiylə qayət şirin və hər kəsin anladığı bir dillə qəhqəhə ilə oxuyub islaha çalışırdı. Nə çarə ki, ancaq beş ilə qədər ədəbiyyatımıza xidmət edə bildi. «Molla Nəsrəddin» jurnalı meydana çıxınca, hər sahibi-zövq Sabirin ondakı nümunə əşarına məftun olmaqdan kəndini alamadı. O gözəl şeirləri oxuyub da anlayanlar, o gözəlliklərin fərqinə varanlar onları hifz etməyə həvəs etdilər. Halbuki Sabir əfəndinin əsərlərində işlətdiyi ibarələr və məzmunlar kimsəni təqlid deyil, məhz öz fikrinin nəticəsidir. Bununla demək istiyorum ki, Sabir əfəndi müqəllid deyil, bəlki öylə mücəddiddir ki, köhnə şeirlərlə yeni şeirlər arasında bir əsrlik uçurum açdı ki, bir daha geri dönüb də o uçuruma atılmağa kimsədə cürət qalmadı.

Bir kərə düşünülsün, ədəbiyyatımızda nə qədər böyük bir təsir və nə qədər əzim bir inqilab vücuda gətirmiş!..».

Abbas Səhhət tərəfindən də işarət olunduğu gibi, Sabir «Molla Nəsrəddin» dərgisindən başqa, «Həyat», «Rəhbər», «Dəbistan», «İrşad», «Günəş», «Səda», «Yeni həqiqət» və «Məlumat» qəzetələrində dəxi kəndi şeirlərini nəşr etmişdir. Fəqət mütəəssib Şamaxı əhalisinin kəndisinə qarşı gündən-günə artan xüsuməti Sabiri «Hophop» nami-müstəarını dəyişdirərək, «Din dirəyi», «Mirat», «Fazil», «Ağlar-güləyən» və «Əbu Nəsir Şeybani» gibi müxtəlif məxləslər kullanmağa məcbur qılmışdı. Buna rəğmən, şairin lisan və üslubu məmləkətdə o dərəcə yayılmış və tanınmışdı ki, artıq bu gibi pərdələmə tədbirləri də bir nəticə vermiyordu. Nəhayət, kəndisinə qarşı xalqın duyduğu düşmənlik o dərəcəyə varıyor ki, qəssablar Sabiri kafir və «Babi» elan edərək, ona quyruq satmıyorlar. Şair bu üzdən sabunçuluq məsləyindən vaz keçmək zorunda qalıyor. Bu arada Məhəmmədsəlim ismində bir erkək çoçuğu dünyaya gəldiyindən, övladına qarşı bəslədiyi sevgi Şamaxı şəhərini bırakıb ayrılmasına müsaidə etmiyor. Çarəsiz qalaraq öyrətmənlərdən birisilə «Məktəbi-ümid» ismini verdikləri bir okul təsis edərək maarif həyatına atılıyor. Fəqət öyrətmənliklə ailəsinin əkməyini

qazanamadığından 1910 sənəsində Şamaxını tərk və Bakıya köç ediyor. Orada «Nəşri-maarif» cəmiyyətinin Balaxanı petrol bölgəsindəki okulunda farsca və şəriət öyrətmənliyinə təyin olunuyor.

Sabirin Bakıda yazıb «Molla Nəsrəddin» dərgisinin beşinci yılına aid sayılarında yayınladığı şeirlər onun ən qüvvətli əsərləridir. Fəqət nə yazıq ki, şair 1911 sənəsinin başlanğıcında qaraciyər xəstəliyinə yakalanıyor və arkadaşı Abbas Səhhətə bu acıqlı xəbəri şu həzin misraları ilə bildiriyor:

Arizi-qəmlər əlindən ürəyim şişmiş idi,
Zənn edirdim, edəcəkdir ana çarə ciyərim.
Bəxti-mənhusimə bax, mən bu təmənnadə ikən,
Şişməyə başladı indi üzü qarə ciyərim...

Xəstəliyi getdikcə şiddətləndiyi için artıq Bakıda qalamıyor və Şamaxıya dönüyor, oradan da «Molla Nəsrəddin» dərgisinin idarəxanası tərəfindən tədavisi yapılmaq üzrə Tiflisə dəvət ediliyor. Tiflisdən Abbas Səhhətə yazdığı məktublarda «Molla Nəsrəddin» dərgisinin baş yazarı Cəlil Məhəmmədquluzadəyə və eşi Həmidə xanıma qarşı son dərəcə mədyun və məhcub olduğunu qeyd ediyor. Çünki bu qədirbilir insanlar Sabirin bütün zəhmət və məsrəflərini kəndi üzərlərinə alaraq, oteldə və ya xəstəxanada qalmasına razı olmamış, evlərində müsafir etmiş və şəhərin tanınmış həkimlərini dəvət edərək, xəstəliyin mahiyyəti və seyri haqqında istişarə yapdırmışlar. Doktorlardan bəziləri əməliyyat yapılmasını təklif etmişlərsə də, bunun nə gibi nəticə verəcəyini öncədən kəsdirəmədiklərindən, Sabir dostlarının tövsiyəsi üzərinə bu tədbirə yanaşmamış və xəstəliyinin ən ağır dəqiqələrində belə mizahçı ruhunu kamilən mühafizə edərək həkimlərə şu cavabı vermişdir: «Bağışlayasınız, doktor əfəndilər, mənim qarnım pul kisəsi deyil ki, istədiyiniz gibi açıb qapayasınız. Bəlkə kəsdiniz, sonra əmələ gəlmədi».

Sabir Abbas Səhhətə yazdığı ikinci məktubunda sağlığının büsbütün pozulduğundan şikayət ediyor. Bu məktub şairin iç duyğularına tərcüman olduğundan, bir qismini eynən nəql edəcəyiz:

«Qardaşım Səhhət!

Məktubun yetişdi. Evdən, uşaqlardan bir əndazəyəcən nigaranlığım rəf oldu. Qaldı ki, mənim əhvalım sabiqdə sənə məktub yazdığım halda imdiki haldan min dəfə yaxşıraq idi. Özüm öz bədbəxtliyimə bais

oldum. Doğrusu, Mirzə Cəlil və Həmidə xanım cənablarının həddən artıq iltifatlarından xəcalət çəkdiyimə görə, çalışdım ki, bəlkə bir az tez səhhət tapım. Daha da xəstəliyim şiddət eylədi. Böylə ki, burada bir nəfər Qandəmirov adlı doktor var. İran konsulunun məxsusi həkimidir. Rusiyada və Yevropada təhsil etmişdir. Osmanlı türkcəsilə də gözəl danışır. Getdim onun yanına, məni müayinə etdi. Soruşdu ki, kimdən ilac edirsən? Dedim: Doktor Qasparyansdan. Dedi: «Qasparyans iyi bir doktordur, lakin bir qədər ixtiyarlaşmış!» Doğrusu, onun bu ibarəsi qayət də mənim xoşuma getdi. Türklərə məhəbbətimin kəsrətindən xəyal etdim ki, bu adamın danışığı yalnız mənə ilacdır!...»

Məktubun ikinci qismində Sabir doktor Qandəmirovun verdiyi ilacların səhhətini daha fazla pozduğunu anlatmaqda və yazısını şu sözlərlə sona erdirməkdədir: «Lakin həyatımdan bilkülliyyə qəti ümidəm, axır nəfəslərim olduğunu dərk edib də bu məktubla sənə əhvalımı xəbər verirəm. Bir qədər babat olar isəm, Şamaxıya qayıdacağam. Məndən Mahmud bəyə salam et! Mehdi bəy Hacınski cənablarına ayrı məktub yazmaq fikrindəyəm. Lakin əlim daha qələm tutmuyor. Əhli-əyalımı sizə, sizi də Allaha tapşırıram! Ölürsəm, qəm etmərəm. Çünki bilirəm, siz mənim əşarımı təb etdirərsiniz. Baqi, vəssalam!»

Bu məktub 27 haziran 1911 tarixini daşımaqdadır. Sabir bir müddət sonra Şamaxıya dönüyor. Xəstəliyin verdiyi şiddətli iztirablar arasında hisslərini şu misralarla ifadə ediyor:

İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl,
Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm!

Şair son nəfəslərində bu rübaini inşad ediyor:

Rahəm bidəhid ru bə rah amədəəm,
Bər dərgəhi Həzrəti İlah amədəəm.
Bitöhfə nəyamədəm, nə dəstəm xalist,
Ba dəsti por əz həmə günah amədəəm!

Mənası şöylədir:

Yolumu açınız, yola doğru yönəlmişim,
Ulu Tanrının dərgahına üz çevirmişim.
Töhfəsiz gəlmədim, əliboş deyilim:
Hər çeşid günahlarla yüklü olaraq gəlmişim!

Nəhayət 1911 sənəsinin 12 təmmuzunda həyata gözlərini yuman Sabir Şamaxı şəhərinin «Yeddi günbəd» məzarlığında dəfn olunmuşdur.

Sabirin siyasi görüşləri

Sabir türklüyün kültür, mənşə və tarix baxımından bir bütün təşkil etdiyinə qane bulunmaqda və türk qövmləri arasında daimi bir dayanışmanın mövcud olmasını zəruri görməkdədir. Kəndisi türk irqinin dünya tarixində fəal və hərəkətli bir qüvvət bulunduğuna və islamiyyətin əsaslı dayanağını təşkil etdiyinə işarətlə bərabər, bəzi türk böyüklərinin daha ziyadə şəxsi bir politika güdmüş olduqlarından dolayı Türk milli birliyini sarsdıqlarına və türklüyün tükənməz enerji qaynaqlarını akim bırakdıqlarına bütün varlığıyla acımaqdadır. Şair müəzzəm Səlcuq dövlətinin bu üzdən parçalanmasını, Çingiz xan ilə Xarəzm türkləri arasında alovlanan qardaş çarpışmalarını, xaçlılara qarşı yapılan uzun savaşları qazandıqdan sonra türk böyüklərinin bir-birlərinə saldırışlarını, Qaraqoyunlu və Ağqoyunlu türklərinin çıxardıqları xüsumətlər nəticəsində Anadolu və Azərbaycanda türk qanının boş yerə axıdılmasını, Axsaq Teymur ilə Yıldırım Bəyazid arasında patlaq verən hərbləri, yenə Teymurun Altun Ordu dövlətini ortadan qaldıraraq, rusların qüvvətlənməsinə yol açmasını, Yavuz Sultan Səlim ilə türk Şah İsmayılın qanlı müharibələrini, Nadir şah Əfşarın türk qövmləri arasındakı məzhəb qovğalarını gidərmə bəhsində girişdiyi xeyirli təşəbbüslərin akim qalmasını birər-birər tarix səhifələrindən dərin ürək acısıyla təqib etməkdə və canlı bir ibrət tablosu gibi gözlərimiz önünə sərməkdədir. Təbiətiylə bütün bu olayları Sabir hərzamankı həcv lisanı ilə anlatmaqdadır. Zatən hər kəsin incədən-incəyə bildiyi şu acı həqiqətlərə üzərimizdə dərin təsir qüvvətini bəxş edən amil də Sabirin bu özəl anladış tərzidir. Şair yenə kəndi mizahçı ruhundan ilham alaraq, bu xüsusdakı şeirinə «Fəxriyyə» başlığını takmışdır. Sabirin gerçək fikirlərini anlama baxımından böyük bir önəmi bulunan bu şeirin mətni şöylədir:

FƏXRİYYƏ

Hərçənd əsirani-qüyudatı-zəmanız,
Hərçənd düçarani-bəliyyati-cəhanız,

Zənn etmə ki, bu əsrdə avareyi-nanız,
Əvvəl nə idiksə, yenə biz şimdi həmanız...

Turanlılarız, adiyi-şüğli sələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz![3]

Zülmətsevər insanlarız üç-beş yaşımızdan,
Fitnə göyərir torpağımızdan, daşımızdan,
Tarac edərək bac alırız qardaşımızdan,
Çıxmaz, çıxa bilməz də bu adət başımızdan...

Əslafımıza çünki həqiqi xələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Ol gün ki, Məlik şah Büzürg eylədi rihlət,
Etdik iki namərd vəzirə təbəiyyət,
Qırdıq o qədər bir-birimizdən ki, nəhayət
Düşmən qatıb əl, taxtımızı eylədi qarət...

Öz həqqimizi gözləməyə bitərəfiz biz!
Turanlılarız, adiyi-şüğli-sələfiz biz!

Bir vəqt olub ləşkəri-Çingizə tərəfdar,
Xarəzmləri məhv elədik qətl ilə yekbar,
Xarəzmlərin şahı fərar eylədi naçar,
Məscidləri, məktəbləri yıxdıq yerə təkrar...

Həqqa ki, səzavari-nişanü şərəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

Bir vəqt də də'vayi-Səlib oldu mühəyya,
Də'vadə firəngilərə qalib gəlib, əmma
Dincəlməyib etdik yenə bir faciə bərpa,
Öz tiğimiz öz rişəmizi kəsdi sərapa...

Guya ki, biyabanda bitən bir ələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

[3] Kəndi millətimizin baş bəlasıyız.

Bir vəqt dəxi Qarəqoyun, Ağqoyun olduq,
Azərbaycana, həm də Anatoluya dolduq,
Ol qədr qırıb bir-birimizdən ki, yorulduq,
Qırdıqca yorulduq və yorulduqca qırıldıq...

Turanlılarız, adiyi-şüğli sələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz.

Bir vəqt salıb təfriqə olduq iki qismət,
Teymur şəhə bir paramız etdi himayət,
Xan İldırıma bir paramız qıldı itaət,
Qanlar saçılıb Ankarada qopdu qiyamət...

Əhsən bizə, həm tirzəniz, həm hədəfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Teymur şəhi-ləngə olub tabeyi-fərman,
Xan Toxtamışı eylədik öz qanına qəltan,
Ta oldu Qızıl Ordaların dövləti talan,
Məsko[4] şəhinə faidəbəxş oldu bu meydan...

Əlyövm uruslaşmaq ilə zişərəfiz biz!
Öz dinimizin başına əngəl kələfiz biz!

Bir vəqt şah İsmayılü Sultani-Səlimə
Məftun olaraq eylədik islamı dünimə
Qoyduq iki tazə adı bir dini-qədimə,
Saldı bu təşəyyö, bu təsənnün bizi bimə...

Qaldıqca bu halətlə səzayi-əsəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

Nadir bu iki xəstəliyi tutdu nəzərdə,
İstərdi ilac eyləyə bu qorxulu dərdə,
Bu məqsəd ilə əzm edərək girdi nəbərdə
Məqtulən onun nə'şini qoyduq quru yerdə...

[4] Moskva

Bir şeyi-əcibiz, nə bilim, bir tühəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

İndi yenə var tazə xəbər, yaxşı təmaşa,
İranlılıq, Osmanlılıq ismi olub ehya,
Bir qitə yer üstündə qopub bir yekə də'va,
Meydan ki, qızışdı, olarıq məhv sərapa...

Onsuz da əgərçənd ki, yeksər tələfiz biz!
Öz qövmümüzün başına əngəlkələfiz biz!

Bu misralardan açıqca anlaşıldığına görə, Sabir bütün türk böyüklərindən nerədə bulunurlarsa-bulunsunlar, şəxs və ya zümrə qovğalarını bir yana bırakaraq, tamamən milli bir politika güdmələrini və millət mənfəətlərini hər şeyin üstündə tutmalarını istəməkdə və türk xalqına da ancaq bu yoldan yürüyən millət öndərlərinə uymasını tövsiyə etməkdədir. Yenə eyni misralardan görüldüyü vəchilə, Sabir İslam dünyasındakı məzhəb qovğalarının dinin birlik və qardaşlıq lüzumunu əmr edən açıq hökmlərinə ayqırı, «qorxulu bir dərd və xəstəlik» bulunduğu qənaətindədir. Bu məzhəb qovğaları tək Tanrıya, eyni Peyğəmbərə və eyni kitaba inanan müsəlmanları bir-birinə düşmən və ya müxalif bir çox zümrələrə ayırmışdır. Sabirə görə, bu məzhəb qovğalarının yaxından və ya uzaqdan dinlə heç bir ilgisi yoxdur. Bunlar əsri-səadətdən çox sonra dürlü siyasi, iqtisadi və ictimai mənfəətlərə dəstək olmaq üzrə və yaxud İslam dünyasını parçalamaq və zəif düşürmək qayəsilə ixdas olunmuşdur. Fəqət əməli düşünən Sabir haqlı və ya haqsız əsrlərdən bəri davam edə gələn bu məzhəb ayrılıqlarının bir vuruşda ortadan qaldırılamayacağını iyi bildiyi içindir ki, nə də olsa dinin əsaslarına təəllüq etməyən bu gibi bəhslərdə irqdaş və dindaşlarına geniş bir tolerans tövsiyə etməkdədir. Mədəniyyətin ən olğun səviyyəsinə erişdiyi şu iyirminci yüzyılda çeşidli dinlər arasında belə ən geniş bir tolerans zehniyyətinin yerləşməsi için aydın və irəli insanlıq tərəfindən əzəmi-qeyrət sərf edilib dururkən, eyni dini ailəyə bağlı bulunan dürlü məzhəblər arasında əskidən qalma süni ayrılıqların körüklənərək milli birliyin sarsılması nə islamlıq və nə də insanlıq ülkülərinə uyğun olmasa gərəkdir.

Sabirin məzhəb bəhsindəki geniş toleransına bir misal olmaq üzrə, kəndini təkfir və tələn edən cahil və mütəəssib Şamaxı əhalisinə bundan təqribən 40-45 sənə öncə verdiyi şu həkimanə cavabı zikr edə biliriz:

Əşhədü billahil-əliyyül-əzim,
Sahibi-imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanam, a şirvanlılar!

Şiəyəm, amma nə bu əşkaldən,
Sünniyəm, amma nə bu əmsaldən,
Sufiyəm, amma nə bu əbdaldən,
Həqq sevən insanam, a şirvanlılar!
Ümmətü-mərhumvü məğfur ilə,
Əmrdəyəm taəti-məzbur ilə,
Küfrümə hökm eyləməyin zur ilə,
Qaili-Quranəm, a şirvanlılar!

Parantez arasında şu nöqtəni də bəlirtmək istəriz ki, Azərbaycanda məzhəb ayrılıqları heç bir zaman qan tökülməsinə səbəb olacaq dərəcədə gərgin bir səhfəyə girməmişdir. Sünni və ya şiə əhali ilə məskun köy və qəsəbələr əsrlərdən bəri sülh və sükun içində yaşayaraq bir-birinin inanışlarına sayğı göstərmişlərdir. Bu fitri tolerans zehniyyəti 1917 sənəsində Bakıda toplanan Kafkasya İslam Kongresində hər iki məzhəbin yüksək dini başqanları bulunan şeyxülislam və müftinin əl sıxışaraq öpüşmələri və hər dürlü ayrılıqlara kəsin surətdə son verəcəklərinə dair xalqın şiddətli və sürəkli alqışları arasında girişdikləri qarşılıqlı təəhhüdlərlə bir qat daha təyid və təhkim edilmişdir. O gündən etibarən Azərbaycanda məzhəb ayrılıqlarının həmən heç bir hökmü qalmamışdır, denə bi-lir. Üstəlik, bağımsız Azərbaycan hökuməti hər iki məzhəb ərkanını «Məşihati-İslamiyyə» daxilində birləşdirərək, din işlərinin yürüdülməsini bu kurula bırakmışdı.

Yenə Sabirin «Fəxriyyə»sindən görüyoruz ki, şair gərək kəndi zamanında çarlıq idarəsi və gərək onu mütəaqib bugünkü sovet-rus rejimi tərəfindən daha böyük bir şiddətlə tətbiq olunan ruslaşdırma politikasına qarşı kəsin surətdə cəbhə almış və bu təmsil siyasətinə uyan və ya hər hangi bir şəkildə yardımda bulunan sözdə türk ünsürlərini şərəfsizlik və heysiyyətsizliklə suçlandırmışdır.

Sabir sevimli yurdu Azərbaycanın müstəbid rus çarlıq idarəsi altında müstəqil siyasi varlıqdan, sərbəst iqtisadi həyatdan, sosial və kültürəl işlərini bizzat düzənləmə imkanından məhrum, bayağı bir sömürgə durumunda bulunduğunu hər addımda görüyor və bu vəziyyətdən millətin bütün təbəqələrinin və o meyanda, bilxassə aydın, işçi və çiftçi zümrələrinin və kəza sərbəst məslək sahiblərinin müztərib və mütəzərrir olduqlarını haqqıyla təqdir ediyordu. Sabirin idealı gərək kəndi yurdunu, gərəksə bütün Türk və İslam ölkələrini hürriyyətə və milli əgəmənliyə qovuşmuş olaraq görməkdi. Və kəndisi bu uğurda gücünün yetdiyi qədər çalışıyordu. Fəqət o dövrdə bu gibi fikirləri sərbəstcə ifadə etmək qolay bir iş deyildi. Çarlıq sansürü hər fürsətdən faydalanaraq türkcə çıxan qəzetə və dərgiləri sıx-sıx qapatıyor, mətbəələrini möhürlətiyor, para cəzasına çarpdırıyor, yazarlarını təqib edərək bəzən həbsə atdırıyor, bəzən də Sibiryaya sürdürüyordu. Məsəla, «Molla Nəsrəddin» dərgisi bir kaç kərə qapadılmış və yalnız xalqın şiddətli etirazı üzərinə baş yazarından iltizamnamə alındıqdan sonra təkrar çıxmasına müsaidə edilmişdi. Böylə bir mühitdə həqiqəti söyləmək güc və təhlükəli bir işdi. Eyni zamanda koyu təəssüb və cəhalətin hökm sürdüyü çevrə də sərbəst və irəli fikirlərin müdafiəsinə müsait deyildi. İştə, bunun içindir ki, Sabir həm çarlıq idarəsinin və həm də cahil mühitin daima basqısını kəndi üzərində hiss edərək, fikirlərini məcaz qəlibinə tökmək və əsl məqsəd və qayələrinə dolambaclı yollardan varmaq çarələrini arıyordu. Məsəla, Sabir «Banlamaram» başlıqlı bir şeirində şöylə diyordu:

Eylə bilirdim ki, dəxi sübh olub,
Mürği-səhər tək bir ağız banladım.
Səng şikəst eylədi balü pərim,[5]
Banlamağın hasilini anladım.

Övci-fəzadə görərək bayquşu,
Səhndə qaqqıldayıram indi mən.
Bir də məni vurma, aman, səngdil
Rəhm elə nıqqıllıyorum indi mən.

Ay çalağanlar, məni qorxuzmayın,
Mən sizə tərk eyləmişəm lanəni!

[5] Daş qol-qanadımı qırdı.

Seyr eləyiz, övci-həvada uçuz,
Mən də gəzim səhnəçeyi-xanəni.

Ağlamayın, ağlamayın, cücələr,
Banlamaram, banlamaram bir daha!
Banlamamaqdır sizə əhdim mənim,
Söyləmirəm: anlamaram bir daha!

Yenə Sabir kəndi yurddaşlarının iç duyğularına tərcüman olaraq, çarlıq idarəsinə xitabən «Sual-cavab» başlıqlı şeirində şöylə deməkdədir:

Görmə! – Baş üstə, yumaram gözlərim.
Dinmə! – Mütiəm, kəsərəm sözlərim.
Bir söz eşitmə! – Qulağım bağlaram.
Gülmə! – Pəkey, şamü səhər ağlaram.
Qanma! – Bacarmam! məni mə'zur tut,
Boyləcə təklifi-məhalı unut!
Qabili-imkanmı olur qanmamaq?
Məcməri-nar içrə olub yanmamaq?
Eylə xəmuş atəşi-suzanını,
Qıl məni asudə, həm öz canını!

Sabir çarlıq idarəsinin milli basın üzərindəki təzyiqinə «Molla Nəsrəddin» dərgisinin tanınmış yazarlarından Ömər Faiq Nemanzadənin tövqifi münasibətiylə yazdığı «Töhmət» başlıqlı şeirində dəxi işarə etməkdədir. Bu şeirdə şöylə denilməkdədir:

Soldumu gülzarın, ey Faiqi-Ne'man pəsər,
Laleyi-nemanların oldumu xunincigər,
Sinənə dəsti-qəza çəkdimi dağı-kədər,

Nərgisi-şəhlalərin jaləçəkan oldumu?
Şimdi sənə mən deyən mətləb əyan oldumu?!

Söyləmədimmi sənə rahət otur, heyfsən,
Çəkmə bu millət qəmin, çək özünə keyf sən,
Xanə deyildir sənin, getməlisən, zeyfsən,

Eyləmədin e'tina, qissə həman oldumu?
Şimdi sənə mən deyən mətləb əyan oldumu?!

Fayidə verməz, dedim, etdiyin əfğan sənə,
Halına yandıqların eyləməz ehsan sənə,
Məskən olur aqibət guşəyi-zindan sənə,

Guşəyi-zindan sənə, iştə, məkan oldumu?
Şimdi sənə mən deyən mətləb əyan oldumu?!

Mən demədimmi sənə başda otur tac tək,
Durma müqabil bəla tirinə amac tək,
İstəmə hürriyyəti fə'leyi-möhtac tək,

Balü-pərin nagəhan tirə nişan oldumu?
Şimdi sənə mən deyən mətləb əyan oldumu?!
Mən demədimmi sənə: girmə işə can ilən,
Xovf eylə, sallaşma çox, bəylər ilən, xan ilən,
Olmagilən həmrəviş məclisi-İran ilən,

Məclisi-İranda bir şövkətü şan oldumu?
Şimdi sənə mən deyən mətləb əyan oldumu?!

Mən demədimmi sənə, həzrəti-zişanları,
Eyləmə də'vət əbəs birliyə işanları,
Sən ki, yığa bilməsən bunca pərişanları,

Məs'ələyi-ittihad həllü bəyan oldumu?
Şimdi sənə mən deyən mətləb əyan oldumu?!

Sabir İranın hürriyyət və məşrutiyyət hərəkatilə çox yaxından ilgilənmiş və bu hərəkatın müvəffəq olması için əlindən gələn qeyrəti sərf etmişdir. Çünki İranın müstəbid və keyfi bir idarəyə tabe bulunması onu bağımsız bir dövlət olmaqdan çıxararaq, iki nüfuz bölgəsinə ayırmış və adəta bir sömürgə durumuna düşürmüşdü. Rusiyanın ötədən bəri İran haqqında bəslədiyi əməllər hər kəscə məlumdur. Bu əməlləri: Bəsrə körfəzinə ulaşma və gərək Quzeydə, gərəksə Güneydəki İran petrol qaynaqlarına hakim olma şəklində xülasə edə biliriz. Təbii, bu

istila əməlindən əsl qayə bütün Yaxın Doğunu Rusiyanın boyunduruğu altına soxaraq, Ağdənizə və Süveyş kanalına qədər yayılmaqdır. Mütəfəssih və bacarıq-sız Qacar sülaləsi İranın başında durduqca, Rusiyanın bu istila əməllərinə kimsə qarşı qoyamazdı. Hətta qarşı qoymaq şöylə dursun, Qacar idarəsi bu əməllərin gerçəkləşməsinə bilfeil yardım göstəriyordu. Şübhəsiz, İranın rus təhəkkümü altına girməsi Türkiyəni və onunla birlikdə bütün Yaxın Doğunu təhlükə altına soxacağı gibi, Kafkasya qurtuluş davasını da akim bırakacaqdı. İştə, bunun içindir ki, Sabir də daxil olmaq üzrə bütün Azərbaycan aydınları İran hürriyyət və məşrutiyyət davasına geniş simpati bəsləmiş və bu davanın müvəffəq olması için əzəmi qeyrət sərf etmişlərdir. Çünki Azərbaycan aydınlarına görə, Rusiyanın İrana qarşı bəslədiyi əməllərə ancaq hürriyyət və demokrasi nizamına dayanan milli bir idarə mane ola bilirdi. Hərəkatın Təbrizdə doğması və başında Səttar xan və Bağır xan gibi Azərbaycan övladlarının bulunması Kafkasyada ona qarşı daha fazla rəğbət oyanmasına səbəb oluyordu.

Bilindiyi gibi, Qacar xanədanından Müzəffərəddin şah İran ümumi əfkarının basqısı altında məşrutiyyət rejiminin elanına müvəffəqət və qanuni-əsasını təsdiq etdiyi halda, rus nüfuzu altında bulunan oğlu Məhəmmədəli şah çar işğal ordusu komutanlarından general Lyaxov vasitəsilə Milli Məclisi top atəşinə tutdurmuş və istibdad idarəsini təkrar məmləkətdə qurmuşdu. Sabir bu irtica hərəkatını Məhəmmədəli şahın ağzı ilə şu şəkildə təsvir etməkdədir:

İRAN ÖZÜMÜNDÜR

Mən şahi-qəvişövkətəm, İran özümündür!
İran özümün, Rey[6], Təbəristan[7] özümündür!
Abad ola, ya qalsa da viran, özümündür!
Qanuni-əsasi nədi, fərman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

Vermişdi atam gər sizə qanuni-əsasi,
Bir molla kişiydi, var idi hilmi, həyasi,

[6] Tehran bölgəsinin əski ismidir.
[7] İran bölgələrindən birinin əski ismidir.

Bilməzdi nədir leyk ümurati-siyasi;
Ey həmşəri, sən əyninə gey bitli libasi!

Xəl'ət özümün, təxti-zərəfşan özümündür,
Şövkət özümün, fəxr özümün, şan özümündür!

İranlı deyil, cümlə bilir, Məndəliyəm mən,
Gürgani-cəfavü sitəmin çəngəliyəm mən,
Sorram, içərəm qanlarını, çün zəliyəm mən,
İranlıların başlarının əngəliyəm mən,
Laşə özümün, ət özümün, qan özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!
Gördüz ki, necə sizləri tə'dib elədim mən!
Atəşlə yaxıb məclisi təxrib elədim mən!
Baqqal balasın leşkərə sərtip elədim mən!
Qur'anı danıb andı da təkzib elədim mən!
Sövgənd nədir, əhd nə, fərman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

Osmanlıda gərçi ucalır bir para səslər,
Alqışlıyor ol səsləri həp qırmızı fəslər!
Qəm çəkməyin, ey köhnələr, ey köhnəpərəslər!
İranıma tə'sir edəməz böylə nəfəslər!
Bundan sonra bu ölkədə meydan özümündür!
Məxluq özümün, xəncəri-bürran özümündür!

Təbrizlilərin kor idimi gözləri əvvəl,
Bir yerdə keçirtdik gecə-gündüzləri əvvəl,[8]
Haqqımda yox idi oların sözləri əvvəl,
Şah etdilər İranə məni özləri əvvəl,
İndi nə deyirlər dəxi, dövran özümündür!
Qızlar özümündür, gözəl oğlan özümündür!

İranlı gərək ömr edə zillətdə həmişə,
Nikbətdə, əsarətdə, məzəllətdə həmişə;
İranlı gərək can verə qürbətdə həmişə!
İranlı, itil, get, yaxanı bitdə həmişə!

[8] Qacar vəliəhdləri Təbrizdə iqamət edərlərdi.

Xaqan özümün, kişvərü saman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

Yenə Məhəmmədəli şahın milli mənfəətlərə ayqırı və sırf şəxsi saiqlərdən ilham alan politikasına təmasla Sabir «Satıram, ay alan» başlıqlı ikinci bir həcviyyəsində şöylə diyor:

Moldayı[9], salmadı el dil-boğaza...
Eybi yox, gərçi qoyulduq loğaza,
Yaz bu e'lanımı da bir kağaza:
Açmışam Reydə geniş bir mağaza,
Çox ucuz qiymətə hər şey satıram,
Ay alan!.. Məmləkəti-Rey satıram!

Mağazamda tapılır hər cürə zad:
Cami-Cəm, rə'yəti-Key, təxti-Qubad;
Gərçi bazarımı etməkdə kəsad,
Sə'y edir bir para İrani nəjad,
Leyk mən baxmıyıram, hey satıram!
Ay alan!.. Məmləkəti-Rey satıram!

Nə gərəkdir mənə bir munca ümur,
Ki, edə qəlbimi bihissü hüzur?
Babama vermədi əl «abəki şur»[10]
Deyiləm naxələfü nabəşüur[11]
Qəsri-Şirin, əsəri-Key satıram!
Ay alan!.. Məmləkəti-Rey satıram!

İstəməm nuri, qaranlıq sevirəm,
Mülki-İranı dumanlıq sevirəm,
Boşlayıb şəhri, yabanlıq sevirəm,
Bəsdi şahlıq, dəxi xanlıq sevirəm.
Səbzəvar ilə Meyamey satıram!
Ay alan!.. Məmləkəti-Rey satıram!

[9] «Molla Nəsrəddin»ə xitabən – Molla dayı! deməkdir.
[10] Əkşi su, yəni dəniz kasd edilməkdədir. Rəvayətə görə, ruslar Fətəli şahdan Xəzər dənizi üzərində kəndiləri için mütləq hakimiyyət tələb etdikləri zaman şah vəzirlərinə xitabən: «Veriniz, əkşi suyun faydası olmaz!» demişmiş.
[11] Ləyaqətsiz və şüursuz bir xələf deyiləm.

Söz mənim, ev mənim, əsrar mənim,
İrzü-namus mənim, ar mənim,
Mal mənim, məsləhəti-kar mənim,
Satıram, dövləti-Qacar mənim,
Kimə nə dəxli ki, mən şey satıram?!
Ay alan!.. Məmləkəti-Rey satıram!

Şah məşrutə-pənah olmaq isə[12],
El qoyan vəz'lə şah olmaq isə,
Guş bir əmri-sipah olmaq isə,[13]
Şah olub həmdəmi-ah olmaq isə,
Xan olub, nuş eləyib, mey satıram!
Ay alan!.. Məmləkəti-Rey satıram!

Sabir Güney Azərbaycanda doğan hürriyyət və məşrutiyyət hərəkatına qarşı duyduğu dərin vəcd və həyəcanını bu hərəkatın böyük xalq qəhrəmanı bulunan Səttar xana xitabən yazdığı şu gözəl qəsidəsi ilə ifadə etmişdi:

SƏTTAR XANA

Hali-məczubim görüb, qare, demə divanədir,
Nə'reyi-şuridəmi zənn etmə bir əfsanədir,
Şairəm, təb'im dəniz, şe'ri-tərim dürdanədir,
Behcətim, eyşim, sürurim, vəcdim əhraranədir,
İncizabim cür'əti-mərdaneyi-mərdanədir,
Afərinim himməti-valayi-Səttar xanədir.

Ta ki millət məcməin Tehranda viran etdilər,
Türklər Səttar xan ilə əhdü peyman etdilər,
Zülmü istibdadə qarşı nifrət elan etdilər,
Millətə, milliyyətə can nəqdi-qurban etdilər,
«Ayeyi-zibhi-əzim» itlaqı ol qurbanədir,
Afərinim himməti-valayi-Səttar xanədir.

[12] Məşrətiyyət rejiminə sığınan bir şah olmaqdansa
[13] Ordunun verdiyi əmrlərə uymaqdansa

Həq mədədkar oldu Azərbaycan ətrakına,
Ali-Qacarın protest etdilər Zöhhakına,
Ol şəhidanın səlam olsun rəvani-pakına,
Kim tökülmüş qanları Təbrizü Tehran xakına,
Onların cənnət deyildir mənzili, aya, nədir?
Afərinim himməti-valayi-Səttar xanədir.

İştə Səttar xan, baxız, bir növ' iqdamat edib,
Bir vəzirü şahı yox, dünyanı yeksər mat edib,
İrzi-islamı, vətən namusunu yüz qat edib,
Hörməti-heysiyyəti-milliyyətin isbat edib,
İmdi dünyanın təvəccöh nöqtəsi İranədir,
Afərinim himməti-valayi-Səttar xanədir.
İştə, Səttar xan, baxız, İranı ihya eylədi,
Türklük, iranlılıq təklifin ifa eylədi,
Bir rəşadət, bir hünər göstərdi, də'va eylədi,
Dövlətin bir eynini[14] dünyada rüsva eylədi,
Qaçmayıb pərvanətək oddan, demə, pərvanədir,
Afərinim himməti-valayi-Səttar xanədir.

Afərin, təbriziyan, etdiz əcəb əhdə vəfa!
Düstü düşmən əl çalıb eylər sizə səd mərhəba!
Çox yaşa, dövlətli Səttar xan, əfəndim, çox yaşa!
Cənnəti-ə'ladə peyğəmbər sizə eylər dua,
Çün bu xidmətlər bütün islamədir, insanədir,
Afərinim himməti-valayi-Səttar xanədir.

İran inqilabçı qüvvətlərinin əzmli işbirliyi nəticəsində taxt və tacından uzaqlaşdırılan Məhəmmədəli şaha qarşı Sabir zahirdə şəfqətli, həqiqətdə isə müstəhzi bir tövr takınaraq «Yetim Məmdəli» başlıqlı şeirində şöylə diyor:

Nədir, aya, yenə üsyanları iranlıların?
Başladı cünbüşə tüğyanları iranlıların,
Nəqzi-əhd eylədi ə'yanları iranlıların,
Dərhəqiqət pis imiş qanları iranlıların!

[14] Azərbaycan hürriyyət hərəkatını Məhəmmədəli şah tərəfindən tənkilə məmur edilən Eynüddövlə

Yansın iranlıların arxası, yandı ciyərim!
O yetim Məmdəlidən var yenə bir pis xəbərim;
Belə derlər ki, qoyub taxtı qaçıb taci-sərim,
Sığınıb konsula[15] xaqanları iranlıların,
Dərhəqiqət pis imiş qanları iranlıların!

Əhli-İran bu qədər bişərəf olsun, nə üçün?
Düşməni-tərzi-ümuri-sələf olsun, nə üçün?
Yeni Osmanlı gibi naxələf olsun, nə üçün?
Bata, Ya Rəbb, görüm İranları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Üçcə il qoymadılar təxtdə rahət yaşasın,
Bir doyunca çıxarıb keyf, edib işrət yaşasın,
Ta anın sayeyi-ədlində bu millət yaşasın,
Olsun asudə müsəlmanları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Neyləmişdi sizə, yahu bu başıdaşdı yetim,
Ya nə vicdanə dəyər bir işə çulğaşdı[16] yetim?!
Hərə bir hoqqa çıxartdız, karıxıb çaşdı yetim,
Dedi, çıxsın dəxi qoy canları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Sizə öz şə'ninə şayəstə kərəm etmədimi?
Hökm məşruteyi-İranı rəqəm etmədimi?
Xətti-Qur'anı öpüb yadi-qəsəm etmədimi?
Niyə bəs olmadı imanları iranlıların?
Dərhəqiqət pis imiş qanları iranlıların!

Bilmirəm, andıra qalmış bu nə hürriyyət idi?
Haradan çıxdı bu söz, ya bu necə söhbət idi?
Ölkəmiz altı min ildən bəri bir cənnət idi,
İmdi qan-qan deyir insanları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

[15] Rus konsolosuna
[16] Vicdan və insafa ayqırı nə gibi işlərə baş vurdu?

Hələ iranlıların bir o Sipəhdarına[17] bax!?
Bəxtiyari elinin rütbəli Sərdarına[18] bax!?
Bir, sən Allah, bunların şah ilə rəftarına bax!
Bu da ə'yanları, ərkanları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Başına cəm eləyib hər biri bir xeyli sipah
Ki, nə var? Məmdəli, düş təxtdən, olma bizə şah!
Etdilər üç günün ərzində bütün əmri təbah,
Qaçdı, «ah-vay » deyə, sultanları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Bundan əvvəl bu gözəl ölkədə canlar var idi,
Yaxşı-yaxşı qocalar, adlı cəvanlar var idi,
Şahı həq zilli[19] bilən sevgili xanlar var idi,
İmdi Yefremlər[20] olub xanları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Bir də, yahu, nə gərək el qarışa şah işinə?
Göz açıb diqqət edə gah özünə, gah işinə?
Şah olan kəs olur ancaq özü agah işinə!
Yoxsa hər silsiləcünbanları iranlıların?!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Şah bilər, ölkədə hər nə götürür, hər nə qoyar,
Gah cibin, gah dərisin hər kimin istərsə soyar,
Baş kəsər, ev dağıdar, can çıxarar, göz də oyar –
Min də çıxsa göyə əfğanları iranlıların...
Becəhənnəm ki, yanar canları iranlıların!
Şahın öz əbdidir insanları iranlıların!
Dərhəqiqət pis imiş qanları iranlıların!

Sabir Türkiyə hürriyyət davasını dəxi içdən gələn bir simpatiylə müdafiə etmişdir. Hətta 1908 sənəsi 10 təmmuz inqilabının şaşaalı günlərində hadisələrin seyrini diqqətlə təqib edən şair 1909 sənəsinin

[17] İran inqilabında hizməti keçmiş Quzey İran əşrəfindəndir.
[18] Güney İrandakı Bəxtiyari əşirətinin rəisi Sərdar Əsəd
[19] Allahın kölgəsi
[20] İran inqilabında sivrilmiş erməni çətə rəisi

31 mart irtica sui-qəsdini tam səkkiz ay öncə «Osmanlılar, aldanmayın!» şeirilə xəbər verərək, türk ümumi əfkarını oyanıq davranmağa dəvət etmişdir. Bu manidar şeirdə şöylə denilməkdədir:

Osmanlılar, aldanmayın, Allahı sevərsiz!
İranlı gibi yatmayın, Allah sevərsiz!
Şad olmayın, ey sevgili millər vükəlasi
Osmanlıda cari ola qanuni-əsasi!
Qanuni-əsasi demə, iranlı əzasi,
İranlıların başlarının qanlı bəlasi,
Oğlanları ölmüş analar matəmi, yasi,
Derlərsə sizə var bu işin sonra səfasi,
Aldanmayın, aldanmayın, Allahı sevərsiz!
İranlı gibi yatmayın, Allahı sevərsiz!

Əvvəlcə verirlər sizə hürriyyəti-əfkar,
Yə'ni danışıb fikrinizi eyləyin izhar;
Vəqta ki, danışdız, vüzəra oldu xəbərdar,
Mütləq görəcəklər ki, cibişdanə zərər var;
Hər fənn ilə olsa qovacaqlar sizi naçar,
Çünki bu yığıncaqda olur həqqiniz inkar,
Yaxşı budu toplanmayın, Allahı sevərsiz!
İranlı kimi yatmayın, Allahı sevərsiz!

Girəm ki, təərrüzlər edib də vüzərayə,
Bir növ ilə öz fikrinizi soxduz arayə,
Ta çatdı xəbər bir para müfsid üləmayə,
Mirzə Əli Əkbərlər[21] əlin açdı duayə,
Təkfir oxu, lənət topu dəydi ürəfayə,
Varmı elə bir şəxs edə əhrarı viqayə?
Bu əmri əbəs sanmayın, Allahı sevərsiz!
İranlı kimi yatmayın, Allahı sevərsiz!

Ya lil'əcəb, osmanlılar, aya, nə qanırsız?
Qanuni-əsasi verilib ya inanırsız?

[21] İran Azərbaycanındakı Ərdəbil şəhərinin nüfuzlu, fəqət mürtəce din alimi idi. İnqilab əleyhdarı idi.

Mir Haşimü Fəzlullahınız[22] yoxmu sanırsız?
Əksik deyil onlar, vəli, sizlər nə tanırsız!
Bir gün tanıyıb onları labüd usanırsız,
Ancaq usanırsızsa da, qanə boyanırsız!
Qansızları gic qanmayın, Allahı sevərsiz!
İranlı gibi yatmayın, Allahı sevərsiz!

Bir vəqtdə bizlər də olub xürrəmü xəndan,
Sandıq ki, veriblər bizə hürriyyəti-vicdan,
Şükr etdik, adamcıllar olub daxili-insan,
Övladımızı saxlamadıq xanədə pünhan,
Hacı Mirzə Həsən, qırx lotuya verdi bir oğlan.
Bu mollanümalər desələr, bizdə var iman,
Yox, yox, ona tovlanmayın, Allahı sevərsiz!
İranlı kimi yatmayın, Allahı sevərsiz!

Sabir Türkiyədə irtica hərəkatı basdırıldıqdan sonra taxt və tacından olan Sultan Əmdülhəmidin Məhəmmədəli şah ilə həsbi-halını «Mənimki belə düşdü!» başlığı ilə yazdığı şeirində şu şəkildə ifadə etməkdədir:

Qəm rahnümun oldu, mənimki belə düşdü!
Dil vərteyi-xun oldu, mənimki belə düşdü!
El döndü cünun oldu, mənimki belə düşdü!
Tale mənə dun oldu, mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»

Sən, Məmdəli, qorxma!
Qəm çəkmə, darıxma!
Dövran özünündür!...

Qafilmişəm əhvalimə sövdayi-sərimdən,
Sövdayi-sərim etdi məni taci-zərimdən,
Rişəm kəsilirmiş demə kəskin təbərimdən,
Məşrutəyi salmaqda ikən mən nəzərimdən,
Ol nurul'üyun oldu, mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»

[22] İran mürtəce ünsürlərindən

Sən, Məmdəli, qaçma!
Naəhlə əl açma!
Meydan özünündür!...

Heç faidəbəxş olmadı tədbirlərim, heyf!
Kəşf oldu bütün aləmə təqsirlərim, heyf!
Bər'əks əsər eylədi tə'birlərim, heyf!
Aldatmadı bu milləti təzvirlərim, heyf!
Yıldızdakı... Yıldızdakı, tə'mirlərim, heyf!
Həp kün-fəyəkun oldu, mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»
Sən, Məmdəli, bərk dur!
Torbaları doldur!
Xırman özünündür!...

Şeypur deyil, təbl deyil, sur çalındı,
Əks eylədi surun səsi hər qəlbə salındı,
Bir şəbdə otuz illik ümuratım alındı,
Osmanlıların şahı vətəndən qovalandı,
İş döndü oyun oldu, mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»

Sən, Məmdəli, qorxma!
Qəm çəkmə, darıxma!
Tehran özünündür!...
Sən vur işini, durma geri məkrü hiylədən!
Mən topladığım şeyləri həp qapdılar əldən,
Bunlar keçər, amma hələ var qorxum əcəldən,
Sən qarnı yoğun bir şey idin ruzi-əzəldən,
Boynun da yoğun oldu; mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»

Sən nehrəni çalxa!
Heç baxma bu xalxa!
Ayran özünündür!...

Etdim qəsəm, amma özümü səhvdə sandım,
Kamil paşalar çidə edən fikrə inandım,
Baxdım sənə, öz əhdimi, peymanımı dandım,

İllərcə, zəmanlarca bu gün dandığım andım,
Tarixi-qürun oldu, mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»

Sən, Məmdəli, qorxma!
Qəm çəkmə, darıxma!
Meydan özünündür!

Məzlumların tutdu məni ahı axırda,
İncitdi xəyanətlərim Allahı axırda,
Oldum Salanik qalasına rahı axırda,
Mənfalar ara türklərin şahı axırda,
Məcburi sükun oldu, mənimki belə düşdü!
«İqbal zəbun oldu, mənimki belə düşdü!»
Qaç, Məmdəli, durma!
Çox sinənə vurma!
Məndən götür ibrət,
Sülh eylə, qudurma!
Vallah və billah,
İnsansan, inan, ah!
Fərman gedər əldən,
Saman gedər əldən,
Yalnız nə ki, Tehran,
İran gedər əldən!

Sabir Kafkasya millətləri arasında müstəvli Rusiyaya qarşı birləşik bir cəbhə qurulmasını istəməkdə və 1905 ixtilalının verdiyi imkanlar qarşısında böylə bir birliyin qurulamamış olmasından dolayı iztirab duymaqdadır. Bilindiyi gibi, gərək çarlıq Rusiyası, gərəksə, bilxassə bugünkü kommunist Rusiya Kafkasyanın müxtəlif dillərdə konuşan millətləri arasında müştərək və mütəsanid siyasi bir cəbhənin qurulmasına əngəl olmaq için mümkün olan hər çarəyə baş vurmuşlardır. 1905 ixtilalı Kafkasya qövmlərinin milli qurtuluş ümidlərini canlandırınca, çarlıq Rusiyası kəndi məhəlli ajanları vasitəsilə Bakıda və Azərbaycanın bəzi digər şəhərlərində erməni-müsəlman savaşlarını təhrik etmişdi (1906). Kəza 1917 ixtilalından sonra Kafkasyanın Rusiyadan ayrılaraq bağımsızlığa qovuşma imkanları bəlirincə, Bakı petrollarını hər nə bahasına olursa-olsun, əlindən qaçırmaq istəməyən bugünkü bolşevik

Rusiya Kafkasyadakı fövqəladə komissarı Şaumyanın əli ilə 1918 sənəsi martında Bakıda erməni-müsəlman qitalını qışqırtmış və on minlərcə məsum türkün qanını axıtmaq surətilə «siyah altunu» Moskvaya sövqetmə sərbəstisini bir müddət daha mühafizə etmişdi. Sabir Rusiyanın bu çeşid qışqırtmalarına «Müsəlman və erməni vətəndaşlarımıza» başlıqlı şeirində «Fitneyi-iblisi-məlun» damğasını vurmaqda və hər iki millətə verdiyi öyüdünün bir qismində şöylə deməkdədir:

Əsrimiz xahiş edərkən ittifaqü ittihad,
Cümləmiz əmniyyət içrə almaq istərkən murad,
Beynimizdə yox ikən bir gunə əsbabi-təzad,
Bu vətən övladinə ariz olub büğzü inad,
Müslimanla ermənilər beyninə düşdü fəsad,
Yoxmu bir sahibhidayət, yoxmu bir əhli-rəşad?!
Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir!
Ülfətü ünsiyyətə dair xitabət vəqtidir!

İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar,
Əsrlərcə ömür edib sülh içrə bulmuşkən qərar,
Fitneyi-iblisi-mə'lun oldu nagəh aşikar...
Gör cəhalətdən nə şəklə düşdü vəzi-ruzigar!
Qətlü qarət bişümarü şəhrü qəryə tarimar...
Əl'əman, bu fitnəyə bir çarə qıl, ey pərvərdigar!

Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir!
Ülfətü ünsiyyətə dair xitabət vəqtidir!

Sabirin sosial görüşləri

Sabirə görə, Azərbaycanın sosial həyatında yapılması gərəkən reformların başında köylünün hər nevi feodalitə qeydlərindən qurtularaq hürr və sərbəst bir həyata qovuşdurulması, çalışma, gəlişmə və rifaha erməsinə əngəl olan bütün halların ortadan qaldırılması gəlməkdədir. Halbuki Sabir dövründə Azərbaycan köy ekonomisi üzərində hənüz hakim bulunan feodalitə sistemi köylülərin böyük bir çoxunluğunu sadəcə insan haqlarından deyil, bir parça əkmək qazanıb keçinmə imkanlarından belə məhrum bırakmışdı. Şair Azərbaycan köylüsünün bu

acıqlı həyatına işarətlə, zadəgandan birisinin dililə «Əkinçi» başlıqlı şeirində şöylə deməkdədir:

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu mə'vadə, əkinçi!
Lal ol, a balam, başlama fəryada, əkinçi!

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?
Getdi mənə nə fə'ləliyin badə, əkinçi?!
Lağ-lağ danışıb başlama fəryada, əkinçi!

Aldı dolu əldən sərü samanını, neylim?
Yainki çəyirtkə yedi bostanını, neylim?
Verdin keçən il borcuna yorğanını, neylim?
Ol indi palas satmağa amadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Söz açma mənə çox çalışıb, az yeməyindən,
Canın bəcəhənnəm ki, ölürsən, deməyindən!
Mən gözləmənəm, buğda çıxar, ver bəbəyindən!
Çəltik də gətir, arpa da, buğda da, əkinçi!
Yoxsa soyaram lap dərini, adə əkinçi!

Sən hey de, yoxumdur,çıxarıb canını, allam!
Vallahi oyub dideyi-giryanını, allam!
Şallağə tutub peykəri-üryanını, allam!
Öz halını sal indi özün yadə, əkinçi,
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,

Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan gibi ömr eyləmisən, sadə, əkinçi!

Lakin mənim insanlıq olub vəz'i-mədarim,
Bəyzadəyəm, asayişədir cümlə qərarim,
Meysiz-məzəsiz bitməz olur şamü nəharim;
İştə, belədir haləti-bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə, əkinçi!...

Parantez arasında şunu da qeyd edəlim ki, bugünkü sovet Azərbaycanında köylünün durumu feodalitə dövründəkilərdən daha iyi deyildir. Feodalitə dövründə olduğu gibi kolxoz sistemində köylü sımsıkı toprağa bağlıdır. Köylünün əlindən son topraq parçası da alınaraq kolxoza devr edilmişdir. Sovet propaqandasının bütün iddialarına rəğmən, kolxoz fikri köylünün qafasında deyil, Kremlində doğmuş və milyonlarca çiftçinin qanı və canı bahasına köy xalqına süngü və qırbac gücüylə təxmil edilmişdir. Köylü hər tərəfdə kolxozlara qarşı ayaqlanmış və heyvanını onlara təslim etməkdənsə, yox etmişdir.

Bu gün kolxozlarda cəbrən çalışdırılan köylü oradan kəndi iradəsilə ayrılamaz, hələ münfərid və sərbəst çiftlik qurmaq xəyalına heç bir zaman qapılamaz. Çünki kəndisinə nə topraq verilir, nə də toxum, alət və ədəvat satılır.

Kolxozlar kəndi istehsalında müstəqil deyildir. Kommunist partisi və dolayısıyla Moskvada oturan «Kolxoztsentr»[23] nə əmr edərsə, kolxozlar ona görə hərəkət edərlər. Məhsulun arslan payını dövlət və dövlətə bağlı müəssisələr alır. Bütün ailəsi ilə birlikdə gecəli-gündüzlü kolxoz tarlalarında çalışdırılan köylü isə tam feodalitə dövründə olduğu gibi ac və səfil bir həyat sürməkdədir.

Sabir Azərbaycanda yeni gəlişən türk işçisi zümrəsi için sosial topluluq daxilində sayğı və eşit müamiləyə dayanan bir mövqe, sihhi çalışma şərtləri, adilanə ücrət haqqı və kültür ehtiyaclarının tətminini tələb etməkdədir. Şair Azərbaycan işçi zümrəsinin ictimai və iqtisadi həyat sahəsində layiq bulunduğu mövqeyi sağlamaq için təşkilatlanmasını, məsləki birliklər qurmasını və kəndi insan haqlarını savunmasını

[23] Kolxozların mərkəz idarəsi

tamamən doğru və təbii buluyor və əksini iddia edən mühafizəkarlarla alay edərək «Bakı fə'lələrinə» başlıqlı şeirində şöylə diyor:

Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə'lə də özün daxili-insan edir imdi.

Olmaz bu ki, hər əmrə dəxalət edə fə'lə,
Dövlətli olan yerdə cəsarət edə fə'lə,
Asudə nəfəs çəkməyə halət edə fə'lə,
Yainki hüquq üstə ədavət edə fə'lə...
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə'lə də özün daxili-insan edir imdi.

Fə'lə, mənə bir söylə, nədən hörmətin olsun?
Axır nə səbəb söz deməyə qüdrətin olsun?
Əl çək, bala, dövlətlilərə xidmətin olsun,
Az-çox sənə verdiklərinə minnətin olsun!...
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə'lə də özün daxili-insan edir imdi.

Dövlətli, amandır, özünü salma bəlayə,
Fə'lə sözü həqq olsa da, baxma o sədayə,
Yol vermə nəfəs çəkməyə hərgiz füqərayə,
Öz şə'nini puç eyləmə hər bisərü payə!...
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə'lə də özün daxili-insan edir imdi.

Aldanma, fəqirin olamaz əqli, zəkası,
Çün yoxdur onun sən gibi pakizə libası,
Yox sərvəti, yox dövləti, yox şalı, əbası,
Var köhnə çuxası, dəxi bir təkcə qəbası...
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə'lə də özün daxili-insan edir imdi.

İstərsən əgər olmağa asudə cəhanda,
Ta olmayasan qəmlərə aludə cəhanda,
Fə'lə üzünə baxma bu bihudə cəhanda,
Öz fikrini çək, ol dəxi fərsudə cəhanda...

Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fə'lə də özün daxili-insan edir imdi.

Gör millətinin dərdini, axtarma dəvasın,
Əl çəkmə yetimin başına, kəsmə sədasın,
Zinhar qoyub dəhrdə bir xeyir binasın,
Yad eyləmə, şad eyləmə millət füqərasın...
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fələ də özün daxili-insan edir imdi.

Sabiri işçi mövzusuna «Fə'lə, özünü sən də bir insanmı sanırsan?» və «A başı bəlalı fə'lə!» başlıqlı şeirlərində dəxi təmas etməkdədir.

Burada bir sual xatirə gələ bilir: Əcəba, Sabirin bu qədər özlədiyi Azərbaycan türk işçisi 31 sənədən bəri sovet-rus boyunduruğu altında nə gibi müamiləyə məruz qalmışdır? Sualın cavabı qayət bəsitdir: Bütün Azərbaycan türk xalqı nə durumda isə, Azərbaycan türk işçisi də eyni durumdadır. Bir kərə Azərbaycan türk işçisi mütəhəkkim irqə mənsub bulunan rus işçisinin mənən və maddətən daima basqısı altındadır. Köylü torpağa bağlı bulunduğu gibi, işçi də çalışdığı fabrikaya sımsıkı bağlıdır. İşçi kəndi arzusuyla çalışdığı fabrikanı və ya mədən ocağını tərk edəməz. Əməyi və əmək məhsulu kəndisinə aid deyildir. Staxanovçuluq sosializm yarışı və zərbəli işçi gibi yalan və demaqojik adlar altında gecə-gündüz sömürməkdə və vücudca yıpradılmaqdır. Sözdə işçi sendikaları sovet dövlətinin birər istismar alətindən başqa bir şey deyildir. Bu gibi sendikaların işçi ilə və işçi mənfəətlərilə heç bir ilgisi yoxdur. Üstəlik, bütün xalq gibi işçilər də mədəni dünyadan tamamilə təcrid edilmişlərdir.

Sabir sosial konularla ilgili başqa şeirlərində qadınların çarşaf örtünmələrinə, insan haqlarından məhrum edilmələrinə, elm və təhsildən uzaq tutulmalarına, çocuq, ev və mədrəsə tərbiyəsinə, xalq topluluğunda hökm sürən batil etiqadlara, dinin yüksək nüfuzunu kötüyə kullanan mürai və cahil ünsürlərə qarşı mücadilə etməkdədir.

Sabirin sənət haqqındakı görüşləri

Sabir «sənət sənət içindir» nəzəriyyəsinə inanmamaqdadır. Ona görə, sənət xalq içindir, sənət həyat içindir. Şair, ədib və genəl olaraq

hər sənətkar kəndi əsərində xalq həyatını əks etdirməli, topluluğun islahına, rifah və səadətinə çalışmalıdır. Fəqət bunu yaparkən, doğruluq və insafdan əsla ayrılmamalı, qarşılıq bəkləməməli, nüfuz və sərvət sahiblərinə yaranmamalıdır. Sabirə görə, şair mütləq vətənpərvər olmalı və kəndi millətinə bağlı bulunmalıdır. Bizzat kəndi sənəti haqqında Sabir «Nə yazım» başlıqlı şeirinin ilk bəndində şöylə diyor:

Şairəm, çünki vəzifəm budur: əş'ar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar, yazım,
Günü parlaq, günüzü ağ, gecəni tar yazım,
Psi pis, əyrini əyri, düzü həmvar yazım,
Niyə bəs böylə bərəldirsən, a qare, gözünü?
Yoxsa, bu ayinədə əyri görürsən özünü?!

Sabir «Təraneyi-şairanə» başlıqlı şeirində şeir sənəti haqqında şu mütaliələri irəli sürməkdədir:

Süluki şairin eynən səfa deyil də, nədir?
Vətənpərəstə bu məslək rəva deyil də, nədir?

Nasıl da əsrə görə məzhər olmasın şair?!
Fuadı lövheyi-giytinüma deyil də, nədir?!

Xəyalı məs'ədətü e'tilayi-əhli-vətən,
Şüarı millətə mehrü vəfa deyil də, nədir?

Daha sonra:

Mədihəgulərin əş'arı abruları tək,
Nisari-xaki-dəri-əğniya deyil də, nədir?

Təməllüqatə yaqışmaz təbiəti-şair,
Bu şivə məsləki-əhli-riya deyil də, nədir?

Bir az daha sonra:

Təbəsbüsatlə hasil olan beş-on günlük,
Ömürdən isə bir ölmək səza deyil də, nədir?

Sabir əski şeirin həyat və həqiqətdən uzaq, xalqa yabançı bulunan şəkil, möhtəva və üslubunun gülünclük və saxtalığını «Dilbər» başlıqlı kiçik bir şeirində bəlirtməkdədir. Bu şeirdə «əski qəzəl şairlərinin» ağzıyla dilbər şu tərzdə təsvir olunmaqdadır:

Ey alnın ay, üzün günəş, ey qaşların kəman!
Ceyran gözün, qarışqa xətin, kakilin ilan!

Alma çənən, çənəndə zənəxdan dərin quyu,
Kipriklərin qamış, dodağın bal, tənin kətan!

Boynun sürahi, boy-buxunun bir uca çinar,
Əndamın ağ gümüş, yanağın qırmızı ənar!

Xalın üzündə buğda, başında saçın qürab,
Qah, qah! Qəribə gülməlisən, xaniman xərab!..

Sabirin fəlsəfi düşüncələri

Sabir insan vücudunun fani, fəqət insan ruhunun ölməz və əbədi olduğuna qanedir. Ona görə, insan bədənilə deyil, ruhuyla yaşar. Bədən bir ovuc torpaqdan ibarətdir və nəhayət, yenə torpağa tərk ediləcəkdir. Halbuki ruh bu dünyadan daha yüksək və daha məsud aləmlərdə yaşamağa və həm də əbədi surətdə yaşamağa qadirdir. Böyləcə, Sabir materializm (maddiyyatçılıq) fəlsəfəsindən çox uzaqdır və tamamən idealistdir. Şair «Ruhum!...» başlıqlı gözəl bir şeirində şöylə diyor:

Ruhum, ey şahbazi-ülviyyət,
Himmətim tək fəzadə pərvaz et!
Uç! Uç! Övci-səmadə pərvaz et!
Təngnayi-bədəndə var xiffət.

Aşinayi-bədəndə etmə qərar,
Yanma sən də mənim gibi narə!
Bulamazsan məlalimə çarə!
Sıxılırsan, lətifsən, zinhar!

Boşla bu cismi, cism mən deyiləm;
Sana müşkül olursa hicranım,

Mən sənin, sən mənim dilü canım,
Mən sənin kəndinəm, bədən deyiləm!

Hara getsən, səninlə mən də varam,
Şu bədəndə, fəqət əsirsiz, zar,
Ölməyimlə sevinməsin əğyar,
Aləm olduqca mən dəxi duraram!
Bir səfa bulmadıq bu aləmdə,
Başqa bir aləmə varıb gedəlim;
Bir ovuc xaki xakə tərk edəlim,
Mədfəni-şumi-ali adəmdə!

Mən gedərsəm, var olsun amalım!
Yaşasın şəhriyari-hürriyyət!
Yaşasın şəhriyari-hürriyyət!
Mən gedərsəm, var olsun amalım!...

Şair bu şeirində:

Bir səfa bulmadıq bu aləmdə,
Başqa bir aləmə varıb gedəlim!...

– deyərək, bir karamsar görünüyorsa da, bu halı yaşadığı ağır siyasi və sosial şərtlərin və kəza qeyri-müsaid mühitin məhsulu olub, keçici və arizi bir haldır. Yoxsa hürriyyət və demokrasinin irəli fikirlərinə və millətinin parlaq gələcəyinə qüvvətlə inanan Sabir daha eyni misraların arxasından:

Mən gedərsəm, var olsun amalım!
Yaşasın şəhriyari-hürriyyət!..

– demək surətilə gerçək iyimsərliyini bir kərə daha isbat etməkdədir.

Sabir insan iradəsinin sərbəstisinə, tale və qədərinin kəndi əlində bulunmasına qüvvətlə inandığından, fatalizm nəzəriyyəsinə cərh edərək «Səbr eylə!» başlıqlı şeirinin bir yerində şöylə deməkdədir:

Yetərkən zalimin zülmü sənə, dövri-qəzadən bil!
Çatarkən amirin zəcri, onu seyri-səmədan bil!
Özün öz əczinə bais olurkən, masəvadan bil!

Bu məş'umiyyəti biganədən gör, aşinadən bil!
Əzil, pamal ol, axtarma buna bir çarə, səbr eylə!
Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!

Sabir yaradıcılığının bəzi özəllikləri

Sabir kəndi mühitinin səviyyəsinə nəzərən çox cürətli və çox irəli fikirlər ortaya atmış bulunduğundan, zamanının uyğunsuz şərtlərinə görə düşüncələrini bir dərəcəyə qədər pərdələmək və simvollaşdırmaq zorunda qalmışdır. Onun içindir ki, Sabir kəndi həcv ədəbiyyatında düşüncələrini doğrudan-doğruya ifadə etməkdənsə, böyük bir məharətlə və geniş nüfuzi-nəzərlə seçdiyi çeşidli mənfi tipləri bizzat söylətməyi və böyləcə müxtəlif ictimai zümrələri təmsil edən bu simaları kəndi ağızları ilə ifşa etməyi daha uyğun bulmuşdur. Bu tiplər çürük və geri fikirlərini bir həqiqət imiş gibi ortaya qoyaraq, kəndi-kəndilərini gülünc mövqedə bırakıyorlar. Sabir xalqdan yetişdiyi için və daima xalqla birlikdə yaşadığı için, Azərbaycan ictimai mühitini çox iyi qavramışdır. Onun təsvir etdiyi tiplər doğrudan-doğruya həyatdan alınmış canlı və yaşayan tiplərdir.

Sabirin həcvində kinayə, məcaz və mizah çox önəmli bir yer almaqdadır. Məqsəd doğrudan-doğruya deyil, kinayə və məcaz şəklində ifadə olunmaqdadır. Məsəla, Sabir «Yat, qal dala» şeirində şöylə bir lisan kullanmaqdadır:

Tərpənmə, amandır, bala, qəflətdən ayılma,
Açma gözünü, xabi-cəhalətdən ayılma!
Lay-lay, bala, lay-lay,
Yat, qal dala, lay-lay!

Avropa ədəbiyyatında «epiqramma» adını alan nəzm tərzini «qırmanc» və «taziyanə» ismi altında Azərbaycan ədəbiyyatına ilk dəfə sokan Sabir olmuşdur. Sabirin taziyanələri əksəriyyə dörd misradan ibarətdir. Bu etibarla, taziyanələr rübailərə bənzəməkdədir. Fəqət rübailərdə genəl olaraq bir taqım fəlsəfi düşüncələr ifadə olunduğu halda, taziyanələrdə bəlirli konular ələ alınaraq, kinayəli bir tərzdə cəmiyyətin bəzi əksikləri və gerilikləri ilə alay edilməkdədir. Məsəla, Sabir taziyanələrindən birində şöylə deməkdədir:

Kimdir arif? − deyə sordum, dedilər, əsrə görə:
Arifin indi nə dini və nə imanı olur.
Bunu bildim, tanıdım, zahidi sordum., dedilər:
Zahidin heç şeyi olmazsa, cibiştanı olur.

Başqa bir taziyanə:

Oğlunun vasiteyi-xilqəti olmaqla fəqət,
Atalıq borcunu ifa edəməz insanlar;
Atalıq borcu eyi tərbiyənin qeyri deyil,
Yoxsa bir işdədir insanlar ilə heyvanlar.

Üçüncü taziyanə:

Dün oxurkən bir müridi-məktəbin məktubunu,
Min qələt gördüm qarışmış bir vərəq imlasına;
Uf!.. Yazıq millət, dedim, bilsəydiniz məktub nədir,
Böylələr düşməzdi tə'lim etmənin sövdasına.

Sabir sənət baxımından yüksək dəyər daşıyan ufaq və canlı səhnələr yaratmaqda pək ustadır. Misal için, «İki həpənd» başlıqlı şeirinin ilk bəndini alalım:

– Nə xəbər var, məşədi?
– Sağlığın!
– Az-çox da yenə?
– Qəzet almış Hacı Əhməd də...
– Pah! Oğlan, nəmənə? Sən özün gördün alanda?
– Belə nəql eylədilər!...
– Dəxi kim qaldı, xudaya, bu vilayətdə mənə?!

– Bu isə bəs o ləinin də işi qullabıdır,
– Dinü imanı danıb, yoldan azıbdır, babıdır!

Sabirin tənqidlərindəki alaylı lisana ciddi mahiyyət daşıyan şeirlərində belə ara-sıra təsadüf edilməkdədir. Məsələ, yuxarıda zikr etdiyimiz «Nə yazım» başlıqlı şeiri:

Şairəm, çünki vəzifəm budur: əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar, yazım.

– misraları ilə başladığı halda, birdən-birə ifadə tərzini dəyişdirərək, şu şəkildə davam etməkdədir:

Niyə bəs boylə bərəldirsən, a qare, gözünü?
Yoxsa, bu ayinədə əyri görürsən özünü?!..

Sabir Azərbaycan türkcəsində kullanılan zərbi-məsəllərdən və xalq təbirlərindən geniş surətdə faydalanmaqda və ümumiyyətlə, kitab dililə xalq dili arasındakı maneələri ortadan qaldırmaqdadır. Azərbaycan ədəbiyyatına xalq konuşma dilini ilk dəfə sokan Sabir olmuşdur. Kəndisi daima xalqa xitab etdiyi için xalq tərəfindən anlaşılmasına fazla önəm verməkdədir. Məsəla, Sabir «Oxutmuram, əl çəkin» şeirində şöylə bir lisan kullanmaqdadır:

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!..

Professor Fuad Köprülü «İslam Ansiklopedisi»nin 1942 sənəsinə aid 12-ci cüzündə yayınlanan yazısının «Azərbaycan ədəbiyyatında təcəddüd dövrü» bölümündə Sabirin yaradıcılığı haqqında qiymətli bilgilər verdikdən sonra, bilxassə şöylə deməkdədir: «Axundzadə və müəkkiblərinin pyeslər, hekayə və məqalələr ilə yapdıqları ictimai tənqid vəzifəsini Sabir kiçik və zərif mənzumələrilə, hətta daha qüvvətli və daha təsirli bir şəkildə yapmışdır. Sabirin şeirlərində Osmanlı ədəbiyyatının, başlıca Namiq Kamal ilə Rəcayizadə Əkrəmin təsirləri ara-sıra gözə çarpmaqla bərabər, o, gərək dil və gərək nəzm şəkilləri etibarilə klassik azəri şeirinin ənənələrinə sadiq qalmış və ən şəxsi şeirlərində daima məhəlli rəngi müdafiə etmişdir. Kullandığı dil xalq dilinə olduqca yaxındır; nəzm şəkilləri başlıca klassik Azərbaycan ədəbiyyatına məxsus şəkillərdir; bununla bərabər, Osmanlı Tənzimat şairlərinin kullandıqları şəkillərə ara-sıra təsadüf olunur...»

Ustad Köprülüyə görə, Sabir «nevi şəxsinə münhəsir bir şair və qüvvətli bir rəssamdır».

Sabirin ilk qəzəlləri gərək şəkil, gərəksə möhtəva etibarilə kəndisindən öncə yazılanlardan fərqsizdir. Fəqət sonraları Sabir bu sahədə dəxi əski dar çərçivələri yıxaraq yeni bir cığır açmışdır. Məsəla, «Şəkibai» başlıqlı qəzəlində Sabir mühitin ağır basqısına qarşı hayqıraraq,

mənəvi qüdrətini və fikirlərinin doğruluğu haqqındakı güvənini bəlirtiyor və şöylə diyor:

Yar getdikcə təhəssür dili-şeydadə durar,
Ömür vardıqca həvəs aşiqi-risvadə durar!

Seyli-tə'n oylə təməvvüclə alıb dövrü bərim –
Bənzərəm bir qocaman dağə ki, dəryadə durar!
Döysə də canımı minlərcə məlamət ləpəsi,
Zövrəqi-himmətim əvvəlki təmənnadə durar!

Bisütun sinəsinə dəysə də min tişə yenə,
Cövrə təmkin edərək durduğu mə'vadə durar!

Nəqdi-can isə behayi-tələbi-yar, iştə,
Can bəkəf aşiqi-sadiq belə sövdadə durar!

Nə qəm, uğratsa da bir gün məni ifhayə zəman,
Mən gedərsəmsə, məramim yenə dünyadə durar!

Durmuşam pişü pəsi-tə'ndə Sabir, necə kim,
O əliflər ki, pəsü pişi-ətə'nadə[24] durar!

Qəzəlin son iki misrası böyük Azərbaycan şairi Xəqani Şirvaninin:

Çənan istadəəm pişü pəsi-tə'n,
Ki, istadə ələfhayi-ətə'na!

– beytindən iqtibas edilmişdir.

Sabir böyük bir tərbiyəçi və öyrətmən ruhlu şair olaraq, çocuqlara məxsus gözəl və tatlı şeirlər və mənzum hekayələr yazmışdır. Mənsur hekayələr də yazmışsa da, bunlarda pək müvəffəq olamamışdır. Bunlardan başqa, Sabir Firdovsinin «Şahnamə»sindən, bilxassə Siyavuş qissəsiylə ilgili bəzi parçalar tərcümə etmişdir.

[24] Yapılan sərzənişlərin önündə və gerisində

Son söz

Sabir haqqında buraya qədər söyləmiş olduqlarımızı xülasə edəcək olursaq, deyə biliriz ki, o sənət və dühasını münhəsirən xalqın hizmətinə təhsis etmiş, şeirlərilə cəmiyyətin islahına və tərəqqisinə çalışmış, ilhamını xalq həyatından və zamanının realitələrindən almış, millətinin rifah və səadəti uğrunda çətin bir mücadiləyə atılmış, ədəbiyyat sahəsində yeni bir cığır açmış səmimi və idealist bir şairdir. Sabiri bu yolda Əlabbas Müznib, Səməd Mənsur və Cəfər Cabbarlı gibi bir sıra tanınmış ədiblərimiz təqib etmişlərsə də, heç birisi onun xalq arasındakı eşsiz şöhrətini kölgələyəməmişdir. Sabir hələ xalq arasında əski məhbubiyyətini və əski dəyərini mühafizə etməkdədir. Onun «Hophopnamə»si hər Azərbaycan türkünün daimi bir söhbət arkadaşı halına gəlmişdir. Şeirləri ağızdan-ağıza dolaşmaqda və hər toplantıda zövqlə təkrarlanmaqdadır. Kəndisini «zaman ifnaya uğratmışsa da, məramı yenə dünyada durmaqdadır». Kəndisi bu fani dünyadan çəkilib getmişsə də, amalı əskisi gibi yaşamaqdadır. Məram və amalı isə Azərbaycanın milli hürriyyətə və qurtuluşa qovuşması, zümrə və sinif fərqi gözətmədən bütün fərdlərin dövlət və qanun nəzərində eşit bir müamilə görməsi, köylünün topraq və mülk sahibi olaraq sərbəst və məsud bir həyata erişməsi, işçiyə hər sahədə insan haqlarının bilfeil tanınması, millətin Avropa kültürünü mənimsəyərək cəhalət və səfalətdən qurtulması, dinin dövri-səadətdə olduğu gibi tərəqqi və sətvət amili olması, hər nevi gerilik və xürafələrin xalq həyatından uzaqlaşdırılması, Kafkasya millətləri arasında Rusiyanın təhəkküm əməllərinə qarşı qüvvətli bir dayanışmanın vücuda gətirilməsi, Türk elləri arasında müəssir və əsaslı bir təsanüdün qurulması, Şərq-İslam məmləkətləri arasında daimi və çözülməz bir dostluğun təəssüsü, yaxın və uzaq bütün ölkələrdə hürriyyət prinsiplərinə dayanan bir nizamın yerləşməsidir. İştə, Sabirin bu əməl və qayələri hələ bütün zindəliyilə yaşamaqda və qutsal bir miras olaraq Azərbaycan gəncliyinə əmanət edilmiş bulunmaqdadır.

Sabir türkçüdür. Sabir həqiqi bir müsəlmandır. Sabir xalqçıdır. Sabir hürriyyət aşiqidir. Sabir Batı kültürünün heyranıdır. Sabir rusçuluğa və rus təhəkkümünə düşməndir. İştə, Sabirin gerçək vəsfləri bunlardan ibarətdir. Sovet-bolşevik yazarlarının Sabiri təhrif edərək başqa

şəkildə göstərmələri böyük şairimizin yüksək və əziz xatirəsinə ihanət və həqarətdən başqa bir məna ifadə edəməz.

Sabir kəndi şeirlərilə «Molla Nəsrəddin» dərgisinə yeni bir ruh və üstün bir mahiyyət vermişdi. «Hophopnamə» adı altında toplanan əsərləri 1912, 1914 və 1922 sənələrində üç dəfə Bakıda və İkinci Dünya Savaşında da Təbrizdə nəşr olunmuşdur. Bağımsız Azərbaycan hökuməti zamanında, yəni 1919 sənəsində Bakıda Sabir adına bir kitabxana təsis olunmuşdu. 1922 sənəsində əski Müsəlman Cəmiyyəti Xeyriyyə binasının önündə Sabirə bir abidə tikilmiş və bu abidənin bulunduğu bağçaya da «Sabir» adı verilmişdir. Fəqət böyük şairimizin əsl sarsılmaz və çökməz abidəsi ölməz əsərləridir ki, bunlar da həmiyyətli Azərbaycan gəncliyinə əmanət edildiyi için nəsildən-nəslə daima canlı və daima tazə olaraq əbədi surətdə yaşayacaqdır.

AZƏRBAYCAN DRAM ƏDƏBİYYATI

Mirzə Fətəli dövründəki tiyatro həyatımız

Əziz arkadaşlar!

Keçən konfransımızda bəlirtmiş olduğumuz gibi, Azərbaycan dram ədəbiyyatının qurucusu Mirzə Fətəli Axundzadə olmuşdur. Böyük dramaturq bir-birinin ardınca yazdığı altı komediya ilə Azərbaycan dram ədəbiyyatının təməlini atmışdır. Fəqət o sıralarda hənüz Azərbaycanda aktör kadroları yetişməmiş olduğu için Mirzə Fətəlinin əsərləri milli səhnədə oynanamamışdır. Nə qədər qərib olsa da, Mirzə Fətəlinin pyesləri ilk öncə Rusiya və Avropa tiyatrolarında, yəni yabançı lisanlarda oynanmışdır. Məsələ, müəllifin «Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah cadükuni-məşhur» komediyası ilk dəfə olaraq 1851 sənəsi martında Peterburq tiyatrolarından birində təmsil edilmişdir. «Hekayəti-xırs quldurbasan» yenə rusca olaraq, 1852 sənəsində Tiflis tiyatrosunda oynanmışdır. Bu münasibətlə, ozamankı «Kafkaz» qəzetəsi yeddi `nüsxəsində şu sətirləri yazmaqda idi: «Ocaq ayının 31-i cümə axşamı ədəbiyyat və tiyatro dünyası şimdiyə qədər eşinə rastlanmamış bir yeniliyə şahid olacaqdır. O gün ilk dəfə olaraq səhnədə türk adətlərini, türk geyimlərini, türk çarşaflarını və türk yaşayışını görəcəyiz. Fəqət işin ən önəmli cəhəti şudur ki, o gün ilk dəfə olaraq qüdrətli türk ədibi Mirzə Fətəli Axundzadənin adını tiyatro afişlərində oxuyacağız».

Bunlardan başqa, Mirzə Fətəlinin əsərləri 1850-1860 sənələrində böyük bir başarı ilə Avropa səhnələrində təmsil edilmişdir.

Milli Azərbaycan tiyatrosunu qurma şərəfi ilk öncə mərhum Həsən bəy Zərdabi ilə mərhum Nəcəf bəy Vəzirliyə nəsib olmuşdur. Azərbaycanın bu iki böyük qələm sahibi 1873 sənəsinin martında Bakıdakı lisə öyrənciərinin yardımı ilə ilk dəfə olaraq Mirzə Fətəlinin «Sərgüzəşti-vəziri-xani-Lənkəran» komediyasını türk dilində təmsil etdirməyə müvəffəq olmuşlardır. Mərhum Həsən bəy Zərdabi bu təmsilə təmas edən bir yazısında şöylə deməkdədir: «Mən Tiflisdə qulluq edən vaxtda mərhum Mirzə Fətəli Axundzadə öz komediya kitabının bir cildini mənə vermişdi. Gimnaziyada (yəni lisədə) əlliyə qədər müsəlman şagirdlər var idi ki, onların otuzu pansiyonda (yəni yatılı olaraq)

oxuyurdular. Onlardan on-on beşi axırıncı klaslarda (yəni son siniflərdə) idilər. Bir neçə gün onları yığıb Mirzə Fətəli Axundovun komediyalarını onlara oxuyub təvəqqe (rica) eylədim ki, onların birisini seçib oynasınlar. «Hacı Qara»nı seçdilər. Sonra rollarını paylayıb (yəni dağıdıb) bayram günləri onları yığıb öyrədəndən sonra elannamələr (afişlər) yazıb payladıq ki, filan günü filan yerdə müsəlman tiyatr çıxardacaq. Oynayanlardan hər kəs qəribə-qürabalardan özlərinə paltar və qeyri tapdılar (yəni əlbisə və sairə tədarük etdilər). Otaqların bəzəklərini özümüz qayırdıq. Gimnaziya otaqlarının bir böyüyündə teatr çıxardıq. Əvvəlinci teatrımıza gələn müsəlman çox az idi və hamısı (həpsi) qərib-qüraba idi. Oynayanlar çox yaxşı oynadı, ələlxüsus Əsgər bəy Adıgözəlov Hacı Qaranı. 40-50 manata qədər vüsul oldu. Oynayan uşaqlara vüsul olan məbləği verib tapşırdım (tənbeh etdim) ki, öz füqəralarına paylasınlar. Bizim Bakıda müsəlman tiyatrı çıxarmamızı Tiflis qəzetələrinə yazmışdılar. Mərhum Mirzə Fətəli Axundov onu oxuyub mənə uzun bir kağaz (məktub) yazmışdı, çox razılıq eyləmişdi ki, sağlığında onun komediyasını müsəlmanlar öz türk dillərində çıxartdılar və hayıflanmışdı (təəssüf etmişdi) ki, özü də onu gəlib öz gözləriylə görəydi və bir dəfə də yazmışdı ki, onun özünə «Hacı Qara» qeyri komediyalarından artıq (daha ziyadə) xoş gəlir və təvəqqe eyləmişdi ki, Tiflisə gələndə ona bir-bir (birər-birər) deyim ki, hər kəs öz rolunu necə oynadı».

Milli Azərbaycan tiyatrosunun təsisində Nəcəf bəy Vəzirlinin də böyük rolu olmuşdur. Nəcəf bəy Mirzə Fətəli Axundzadənin komediyaları haqqında kəndi müəllimi və ustadı – Həsən bəy Zərdabi sayəsində bilgi edinmişdir. Bu hadisədən sonra ustad və şagird birlikdə çalışaraq, Mirzə Fətəlinin əsərlərini səhnədə təmsil etdirmişlərdi. Hətta ilk səfərində Nəcəf bəy Vəzirli qadın rolunu kəndi üzərinə alaraq, əsərin müvəffəqiyyətlə oynanmasına bilfeil iştirak etmişdi. İştə, Nəcəf bəyin dram yazarlığı da bu zamandan etibarən başlamışdı.

Həsən bəy Zərdabinin verdiyi bilgilərdən öyrəniyoruz ki, onun Nəcəf bəy Vəzirli ilə birlikdə vücuda gətirdiyi aktör qrupu bir müddət fəaliyyətinə davam edərək eyni sənədə, yəni 1873 yılında «Hacı Qara» komediyasını ikinci dəfə oynamışdır. Fəqət üzərindən çox keçmədən Həsən bəy Zərdabi «Əkinçi» qəzetəsinin nəşrinə başlamış, Nəcəf bəy Vəzirli də yüksək təhsil almaq üzrə Rusiyaya getmişdi. Böyləcə, tiyatro

həyatımızda yeni bir fasilə və təbir caiz isə geriləmə hüsula gəlmişdi. Bununla bərabər, Azərbaycan milli tiyatrosunu qurma sahəsində Həsən bəy Zərdabi ilə Nəcəf bəy Vəzirlinin girişdikləri feyzli təşəbbüs nəticəsiz qalmamışdı. Müxtəlif türk öyrətmənlərinin qeyrətləri sayəsində Mirzə Fətəlinin əsərləri arada-sırada səhnədə oynanmaqda idi. Məsələ, Gürcüstandakı Qori Öyrətmən Okulu öyrəncilərindən Rəşid bəy Əfəndizadənin təşəbbüsüylə «Hacı Qara» pyesi 1879 sənəsində Şəki şəhərində təmsil edilmişdi. Öyrətmən Yusif Haqnəzərlinin öndərliyi altında «Hekayəti-xırs quldurbasan» komediyası 1884 sənəsində Şuşada səhnəyə qonmuşdu.

Mirzə Fətəli Axundzadənin əsərləri Azərbaycan səhnələrində oynandıqca xalq üzərində dərin təsir bırakıyor və gənc ədəbiyyat maraqlılarını dram yazmağa təşviq ediyordu. Eyni zamanda Bakıda mədəni və iqtisadi həyatın gəlişməsiylə birlikdə tiyatro həyatı da getdikcə canlanmaqda idi. 1890 yıllarında Həsən bəy Zərdabinin başqanlığı altında Bakıda bir Dram Cəmiyyəti quruldu. Bir tərəfdən Nəcəf bəy Vəzirli, Əsgər Ağa Adıgözəl, Rəşid bəy Əfəndizadə, Əbdürrəhim Haqverdili, Cəlil Məhəmmədquluzadə və Süleyman Sani Axundzadə Azərbaycan həyatına dair dram əsərləri vücuda gətirirlərkən, bir tərəfdən də Şekspirin «Otello»su və Schillierin (Şiller – *N.C.*) «Haydutlar»ı gibi Batı ədəbiyyatının şahəsərləri Azərbaycan türkcəsinə çevrilərək, Bakı səhnəsində təmsil edilməkdə idi.

Biz bugünkü konfransımızda, bilxassə Nəcəf bəy Vəzirli, Cəlil Məhəmmədquluzadə, Əbdürrəhim Haqverdili və Süleyman Sani Axundzadənin dramları üzərində duraraq, Mirzə Fətəli Axundzadənin realizm ədəbi okulunu davam etdirmək surətiylə Azərbaycan xalqının həyatına, cəmiyyət və ailə münasibətlərinə, köylü davasına və dövrün demokratik cərəyan və tələqqilərinə dair əsaslı əsərlər vücuda gətirmiş bulunan bu tanınmış dramaturqlarımız haqqında əlimizdəki məhdud və qeyri-kafi qaynaqların müsaidə etdiyi nisbətdə bilgi verməyə çalışacağız.

Dövrün xarakteristik vəsfləri

İmperialist rus qüvvətlərinin Kafkasyanı istila edərək Azərbaycan xanlıqlarını ortadan qaldırması ilə məmləkətimizdə hökm sürən feodalitə nizamı təsviyə edilmiş olmadı. Köylərimizdə əskisi gibi feodalitə

dövrünə xas sosial münasibətlər hakim bulunmaqda idi. Rusiya sömürgəçi bir dövlət olaraq Kafkasyaya girmişdi və Azərbaycan da daxil olmaq üzrə, bu zəngin ölkəni iqtisadən sömürməkdən və əsgəri üs olaraq Türkiyə və İrana qarşı kullanmaqdan başqa bir qayə güdmüyordu. Rusiya Kafkasyanı kəndisi için həm maddə qaynağı tələqqi ediyor və bu ölkənin ekonomik gəlişməsiylə pək də əlaqədar olmuyordu. Kafkasyada ruslar tərəfindən inşa edilən dəmiryolu xətləri, limanlar və şose yolları münhəsirən Rusiyanın sömürgə mənfəətləri və əsgəri politikası göz önünə alınaraq yapılıyordu.

Azərbaycan köylərində feodal nizamının hökm sürməsi məmləkətin ekonomik gəlişməsini gecikdiriyor və gücləşdiriyordu. Üstəlik, bu feodalitə nizamı orta çağlara xas ictimai müəssisələri, ideolojik tələqqi və zehniyyətləri eynən mühafizə etdiyi için millətin mədəni inkişafına müəzzəm bir əngəl təşkil ediyor və onun yabançı təhəkkümündən qurtulmasını zorlaşdırıyordu. Nəticə etibarilə, Azərbaycanın bu geri durumu yalnız Rusiyanın işinə gəliyordu.

Fəqət Rusiyanın tamamən istəyi xilafına olaraq, sırf olayların və tarixi gəlişmələrin məntiqi seyri nəticəsində, Azərbaycan şəhərlərində ekonomik həyat getdikcə canlanmaqda, ticarət və sənət genişlənməkdə idi. Bilxassə petrol şəhəri bulunan Bakıda industri həyat sürətlə gəlişməkdə idi. Böyləcə, Azərbaycan şəhərlərində sərbəst mübadilə sisteminə dayanan ekonomik və sosial münasibətlər təəssüs etdiyi halda, Azərbaycan köylərində orta çağlardan qalma ictimai nizam hələ hökm sürməkdə idi.

İştə, Mirzə Fətəli Axundzadə başda olmaq üzrə, yuxarıda adlarını zikr etdiyimiz Azərbaycan dramaturqlarının əsas qayələri köy ilə şəhər arasındakı bu təzadı ortadan qaldıraraq, bütün məmləkəti sərbəst ekonomi sisteminə və dolayısıyla modern Avropa kültürünə qovuşdurmaq olmuşdur. Onların həmən bütün pyeslərində feodalitə nizamının və tələqqilərinin gah açıqca, gah da qapalı bir şəkildə tənqid olunduğunu görürüz. Azərbaycan türklüyünün mədəniyyətə, kültürə, hürriyyətə, bağımsızlığa və yüksək bir həyat səviyyəsinə erişməsini sağlamaq üzrə bu ədiblər feodalitə nizamının bütün gerilikləri və çürük zehniyyətilə birlikdə bir an öncə ortadan qalxmasını əlzəm buluyorlardı.

Nəcəf bəy Vəzirlinin həyatı və əsərləri

Mirzə Fətəli Axundzadəni dram ədəbiyyatı sahəsində təqib edənlərin başında gələn Nəcəf bəy Vəzirli Azərbaycanın Qarabağ vilayətindəki Şuşa şəhərində 1854 sənəsində doğmuşdur. İlk təhsilini Şuşada yapdıqdan sonra 1868 sənəsində Bakıya gələrək orta okula daxil olmuşdur. Lisənin son sinfində ədəbiyyatla ilgilənərək öyrətməni və ustadı Həsən bəy Zərdabi ilə birlikdə Mirzə Fətəli Axundzadənin pyeslərini ilk dəfə olaraq səhnədə təmsil etdirmişdi.

Maddi durumunun güclüyünə rəğmən, Nəcəf bəy Vəzirli təhsilinə davam fikrindən vaz keçməyərək, 1874 sənəsində Peterburqa hərəkətlə üniversitəyə qeyd olmuşdur. Fəqət Peterburqun rütubətli havası səhhətini pozduğu için həkimlərin tövsiyəsi üzərinə Moskvaya nəql edərək Petrovskaya Akademiya adını daşıyan yüksək okula daxil olmuşdur. Nəcəf bəy Vəzirli bir tərəfdən yüksək təhsilinə davam edərkən, bir tərəfdən də Həsən bəy Zərdabinin Bakıda nəşr etdiyi «Əkinçi» qəzetəsinə yazı yazıyordu.

1878 sənəsində yüksək okulu bitirmiş və Azərbaycanın Gəncə vilayətindəki Dilican qəsəbəsində orman müfəttişliyinə təyin olunmuşdur. Nəcəf bəy bu vəzifədə tam 15 sənə çalışmışdır. Buradan ayrıldıqdan sonra 1895 sənəsində Bakıya gələrək bir kaç yıl hüquq üzərinə çalışmış və bu sahədə diploma alaraq hüquqçu və avukat olmuşdur.

Nəcəf bəy 1901 sənəsində Bakı Bələdiyyə Məclisinə əza və katib seçilmişdir. Daha sonra Bakı Bələdiyyəsinə eyitim işləri müdir müavinliyinə gətirilmişdir.

Bir tərəfdən bələdiyyədə çalışması, bir tərəfdən də Bakı məhkəmələrində avukatlıq etməsi Nəcəf bəyə Azərbaycan xalq həyatını yaxından müşahidə və tədqiq imkanlarını sağlamışdır. Bu müşahidə və tədqiqlər onun ədəbi fəaliyyətinə geniş bir qaynaq vəzifəsini görmüşdür.

1913 sənəsinin kasım ayında Bakıdakı Səfa Cəmiyyəti-Xeyriyyəsi Nəcəf bəyin jübiləsini təsit etmiş və bu münasibətlə ilk dəfə olaraq ədibin tanınmış əsərlərindən «Yağışdan çıxdıq, yağmura düşdük» komediyası təmsil edilmişdir.

Nəcəf bəy 1926 sənəsində Çuxuryurdda qəlb krizindən vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Müəllif əlli sənəni aşan ədəbi fəaliyyətində on altıya qədər dram əsəri vücuda gətirmişdir. Bunlardan bizcə məlum olanları əhəmiyyətləri etibarilə şunlardır: 1. «Müsibəti-Fəxrəddin», 2. «Yağışdan çıxdıq, yağmura düşdük», 3. «Pəhləvanani-zəmanə», 4. «Adı var, özü yox», 5. «Daldan atılan daş topuğa dəyər», 6. «Sonrakı peşmançılıq fayda verməz», 7. «Vay şələküm-mələküm», 8. «Pul düşkünü Hacı Fərəc», 9. «Nə əkərsən, onu biçərsən», 10. «Ağa Kərim xan Ərdəbilli», 11. «Qaçaqlar»[1], 12. «Təzə əsrin ibtidası», 13. «Ev tərbiyəsinin bir şəkli», 14. «Əti sənin, sümüyü mənim», 15. «Qara günlü».

Nəcəf bəy Vəzirli 1895 sənəsində yazdığı «Müsibəti-Fəxrəddin» əsəriylə Azərbaycan ədəbiyyatında trajedi janrının təməlini atmışdır. Bu əsərdə gənc Azərbaycan nəslinin feodalitə sisteminə qarşı mücadiləsi təsvir olunmaqdadır. Avropada təhsil gördükdən sonra məmləkətinə dönən Fəxrəddin mühitin kültürsüzlüyünə, cəhalətinə, zülm və təzyiq sisteminə qarşı savaşa atılmaqdadır. Fəxrəddin feodalitə sistemini ortadan qaldıraraq, sərbəst ekonomiyə dayanan yeni bir cəmiyyət qurmaq istiyor. Köylünün halına acıyor, xalq için okul və xəstəxana açıyor və gələnək şəklinə girmiş bulunan qangüdmə adətinə qarşı mücadilə yapıyor. Fəqət mühitinin geriliklərinə qarşı savaşda yapayalnız qaldığı için kötümsərliyə qapılıyor və nəhayət, məğlub oluyor.

Müəllif kəndi qəhrəmanının acıqlı ölümünü və onun bəslədiyi yüksək əməllərin gerçəkləşməyişini ürək sızısıyla təsvir etməkdədir.

Nəcəf bəy bu əsərində irəligörüşlü və xalq dostu Fəxrəddinə qarşı əski yaşayış tərzinin və qədim adətlərin koyu tərəfdarı olan cahil və qana susamış Rüstəm bəyi çıxarmaqdadır. Rüstəm bəy kəndi adamları vasitəsilə insan öldürtüyor, irtişaya düşkün rus hakimlərinə para yedirdərək gənc qızları cəbrən kəndi oğlanları ilə evləndiriyor və qətl edilmiş oğlu Rəşidin intiqamını almaq için heç bir vəhşilikdən geri qalmayacağını iftixarla söylüyor.

Ədib «Müsibəti-Fəxrəddin» trajedisində Gülbahar və sairə gibi cəsarətli, ağıllı və sədaqətli bir sıra qadın tipləri yaratmaqdadır.

Müəllifin yenə 1895 sənəsində qələmə aldığı «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasında hənüz feodalitə dövrünün dar çərçivəsindən çıxamamış məhdud görüşlü və kültürsüz tüccar həyatı təsvir olunmaqdadır. Əsərin baş qəhrəmanı Hacı Qəmbər «qaz vur, qazan

[1] «Keçmişdə qaçaqlar» pyesi nəzərdə tutulur. – *N.C.*

dolsun» parolası ilə ticarətə atılaraq qafasında milyoner olma xəyalını bəsləyən bir tacirdir. Hacı Qəmbər başlanğıcda ufaq-təfək satıcılıqla məşğul ikən, sonradan zənginləşmiş və qonşusu Hacı Salman ilə ortaq olaraq böyük qazanc ümidi ilə İstanbula xam ipək göndərmişdir. Fəqət ipəklə yüklü gəminin Qara dənizdə batması xəbərini duyar-duymaz çıldırmışdır. Müəllif Hacı Qəmbərin bu halı ilə alay etməkdə və onu gülünc durumlara sokmaqdadır.

Hacı sadəcə para düşkünü olmaqla qalmayıb, eyni zamanda əxlaqən süqut etmiş bir insandır. Kayb olan ipək bədəli sığorta idarəsi tərəfindən kəndisinə ödənincə Hacı təkrar iyiləşiyor, fəqət bu səfər də eşq sevdasına qapılaraq, 30 sənə bərabər yaşadığı eşi Dilbər xanımı boşayıb evdən qovmaq və hizmətçisi Yetər ilə evlənmək istiyor. Müəllif gərək Hacı Qəmbərin bu çirkin hərəkətiylə, gərəksə onun bu halını xoş görən Molla Səfinin tövrü ilə istehza etməkdədir. Komediyada Hacı Qəmbər, Molla Səfi və uşak Cəbi gibi mənfi tiplərin yanı başında Əşrəf bəy, Dilbər xanım və hizmətçi Yetər gibi müsbət simalar da yer almaqdadır.

Əşrəf bəy 19-cu yüzyılın sonlarına doğru Azərbaycanda yaşayan zadəgan arasından yetişmiş liberal görüşlü bir münəvvərdir. Köydə yaşamasına rəğmən, Əşrəf bəy şəhər həyatı ilə ilgisini mühafizə etməkdə, elm və fənnin yeni gəlişmələri haqqında müntəzəmən bilgi edinməkdə, çiftlik işləriylə bizzat əlaqədar olmaqda, uşaqları ilə birlikdə tarlada çalışmaqda, modern üsullara görə bağ, bostan yetişdirməkdə, ev yapdırmaqda, kəndi ekonomisini getdikcə inkişaf etdirməkdə və onu Avropa metodlarına görə təşkilatlandırmaqdadır. Əşrəf bəy mühitinin geriliyindən şikayətlə şöylə deməkdədir: «Hər bir qədəmdə vəhşi nadanlıq, adam öldürmək, qan tökmək, yalan demək! Sübut? Tamaşa edin, divanxanalar qapısında tavuq sürüsü gibi boyun-boyuna düzülüb yığılan kimdir? Müsəlman!... Bu çolaq, çiyni (omuzu) düşük dilənçi kimdir? Sərgərdan, əli boynunda, nə eyləyim deyən kimdir? Ay yazıq, bədbəxt, biçarə müsəlman!».

«Pəhlivanani-zəmanə» 1898 sənəsində yazılmışdır. Bu əsərdə getdikcə gəlişməkdə olan Bakı petrol sənayesinin bəzi mənfi səhfələri təbarüz etdirilməkdədir. Bilindiyi üzrə, Azərbaycanın digər hər qarış torpağı gibi, başkəndi Bakı da yüzdə yüz türk torpağıdır. Bu torpaqlar üzərində nə rusların və nə də sair yabançıların məşru hər hangi bir iddiaları olamaz. Halbuki Bakıda petrol qoxusu duyulur-duyulmaz qasib

ruslar və onların izlərindən yürüyən bir sürü yabançılar türk köylüsünü kəndi ana torpaqlarından ataraq, bu tükənməz sərvətə əl qoymuş və Azərbaycan xalqını səfalətə və köləlik həyatına məhkum etmişlərdi. Bu durum sovet rejimində də eynən davam etməkdədir.

Böyük dramaturq Nəcəf bəy Vəzirli «Pəhlivanani-zəmanə» pyesində Bakı petrollarının yabançı əllərə nə gibi çirkin vasitələrlə keçdiyini qismən təbarüz etdirməkdədir. Əsərin baş qəhrəmanı Aslan bəy çevirdiyi dalaverelərlə şöhrət qazanmış bir dəllaldır. Aslan bəy kəndisi gibi cani ünsürlərdən Laçın bəy, Cahangir bəy, Əhməd bəy və Qulunu ətrafına toplayaraq, ilk öncə Bakı petrol sahələrindən Qaraşəhərdə petrol çaldırmaqla məşğul oluyor. Daha sonra eyni adamların vasitəsilə türk köylülərinin torpaqlarını heç bahasına satın alaraq yüksək bədəl müqabilində rus və əcnəbi zənginlərinə satıyor. Aslan bəy işin sonunda kəndi arkadaşlarını aldadaraq Avropaya qaçıyor.

19-cu yüzyılın sonlarına doğru Azərbaycanda feodalitə sistemi kəndi süqut dövrəsini yaşamaqda idi. Onun yerinə sərbəst ekonomi nizamına dayanan yeni bir cəmiyyət doğuyordu. Bu cəmiyyət Batı Avropanın maddi və mənəvi kültür sahələrindəki irəli həmlələrini örnək alaraq, Azərbaycan türklüyünün düşünmə və çalışma qabiliyyətini korladan orta çağ həyat tərzinin qalıntılarını sürətlə söküb-atmaqda idi. Feodalitə dövrünü təmsil edən sosial zümrələr bu yeni gəlişmələrə və devrimlərə qarşı maddətən və mənən məhkum bulunduqlarını və ergec səhnədən çəkilmək zorunda qalacaqlarını görüyorlardı. Bu məhkumiyyətə bariz bir dəlil olaraq orta çağdan qalma feodal zümrələr daxilində mənəvi süqut və təfəssüx əlamətləri müşahidə olunmağa başlamışdı.

İştə, Nəcəf bəy Vəzirlinin 1891 sənəsində yazmış olduğu «Adı var, özü yox» komediyasında bu feodal zümrələrin mənən və maddətən nə dərəcə düşmüş olduqları bəlirtilməkdədir. Əsərin baş qəhrəmanı Cənnətəli ağa çiftlik işlərini uşaqlarına bırakaraq, zamanını eyş-işrətlə, ovçuluqla və müaşiqə ilə keçirməkdədir. Karısı Xanpərvər bəyim kocasının əxlaqsızlığnı öyrəndikdən sonra uşaklarından Allahqulu ilə eşq macərasına başlıyor. Oğlu Heydərqulu ağa ilə qızı Püstəbanu bəyim də ana və babalarının izlərindən yürüyorlar. Heydərqulu ağa babasından müsaidə almadan çiftliyin gəlirlərini toplayaraq qumar oynuyor və paraları kayb ediyor. Hətta babasına qarşı üsyan edərək onu öldürməyə

qalxıyor. Püstəbanu bəyim daha kiçik yaşda ikən birisi ilə sevişib qaçıyor və ailəsinin büsbütün rəzalətinə səbəb oluyor. Eyni zamanda Cənnətəli ağa köylülərinə və uşaklarına qarşı hər nevi zülm və həqarəti rəva görməkdədir.

Müəllifin 1880 sənələrində qələmə aldığı «Daldan atılan daş topuğa dəyər» komediyasında Mirzə Fətəli Axundzadənin «Dərviş Məstəli şah» pyesində olduğu gibi, dərviş və büyüçülərin çevirdikləri avam firibanə oyunlar, qadınların geriliyi və xürafələrə düşkünlüyü şiddətlə tənqid olunmaqdadır. Yenə eyni sənələrdə yazılmış bulunan «Sonrakı peşmançılıq fayda verməz» komediyasında feodal ailələr daxilindəki ixtilaflar və qaynana-gəlin dedi-qoduları təsvir olunmaqdadır.

Nəcəf bəyin 1905 ixtilalından sonra təlif etdiyi «Vay şələkümmələküm» və «Pul düşkünü Hacı Fərəc» komediyalarında Bakı zənginlərinin həyatından alınmış bəzi ibrətli səhnələr verilməkdədir. Yenə eyni dövrdə qələmə alınmış bulunan «Nə əkərsən, onu biçərsən», «Ağa Kərim xan Ərdəbilli», «Qaçaqlar» və «Təzə əsrin ibtidası» gibi pyeslərdə Azərbaycan həyatının müxtəlif sahələrindən canlı lövhələr sunulmaqdadır.

Nəcəf bəy Vəzirlinin 1875 sənəsində yazdığı «Ev tərbiyəsinin bir şəkli» pyesi tək pərdəli bir komediya olub, ailə eyitiminin mənfi tərəflərini ələ almaqdadır.

«Əti sənin, sümüyü mənim» komediyası 1873 sənəsində yazılmışdır. Bu əsərdə əski mədrəsə həyatı təsvir olunmaqdadır. 1874 sənəsində qələmə alnmış bulunan «Qaragünlü» trajedisində isə kocası öldükdən sonra qaynına cəbrən nikah edilən bir qadının acıqlı həyatı təsvir edilməkdədir. Lakin Nəcəf bəyin şu son iki əsəri bu gün əlimizdə mövcud deyildir. Bizzat müəllifin yazdığına görə, bu iki əsər təshihləri için Həsən bəy Zərdabiyə sunulmuş, fəqət sonradan kayb olmuşdur.

Nəcəf bəy Vəzirli böyük ustadı Mirzə Fətəlinin izindən yürüyərək, lisanda və konuda realizm yolunu təqibən Azərbaycan xalqının ictimai dərdlərini və mədəni ehtiyaclarını ələ almış və əsərlərilə Azərbaycan türklüyünün oyanmasında və irəliləməsində mühüm və unudulmaz bir rol oynamışdır.

Cəlil Məhəmmədquluzadənin həyatı və əsərləri

Azərbaycan ədəbiyyatında yeni bir cığır açmış bulunan Cəlil Məhəmmədquluzadə (məxləsi ilə «Molla Nəsrəddin») 1868[2] sənəsində Naxçıvanda doğmuşdur. 1888 sənəsində Gürcüstanda Qori Öyrətmən Okulundan məzun olmuşdur. Daha sonra on yıl öyrətmən olaraq çalışmışdır. 1904 sənəsində Tiflisdə çıxan «Şərqi-rus» qəzetəsində yazı yazmağa başlamışdır. 1906 sənəsi nisan ayının 7-də məşhur «Molla Nəsrəddin» dərgisini yayınlamış və tam 25 sənə bu dərginin baş yazarlığını yapmışdır.

Ədəbi fəaliyyətinə kiçik hekayələrlə başlamışdır. İlk hekayəsi 1904 sənəsində yazdığı «Posta qutusu» olmuşdur. Bunu «Danabaş kəndinin əhvalatları» başlığını daşıyan məşhur hekayəsi təqib etmişdir. Daha sonra «Buz», «Usta Zeynal», «Qurbanəli bəy», «Saqqallı uşaq», «Zırrama», «Şeir bülbülləri», «Bəlkə də qaytardılar», «İki qardaş», «İki alma», «İki balınc» və «Quzu» başlıqları ilə xalq həyatından alınmış dəyərli hekayələrini yazmışdır.

Pyesləri şunlardır: 1. «Çay dəstgahı», 2. «Dəli yığıncağı», 3. «Kamança», 4. «Ölülər», 5. «Danabaş kəndinin məktəbi», 6. «Anamın kitabı», 7. «Lal».

Cəlil Məhəmmədquluzadə dram ədəbiyyatına «Çay dəstgahı» başlığını daşıyan mənzum bir pyeslə başlamışdır. Fəqət anlaşılan, bu əsər müəllifi pək tətmin etməmiş olacaq ki, nəşrinə təşəbbüs etməmişdir. Ədibin «Kamança» başlıqlı dram əsərində türk-erməni milli savaşları əsnasında bir türkün əlinə keçən erməni sənətkarın hər iki millətin müştərək malı olan gözəl bir ahəng çaldığı için canına qıyılmadığı təsvir olunmaqdadır.

Fəqət Cəlil Məhəmmədquluzadənin əsl dramaturq qabiliyyəti 1909 sənəsində yazdığı «Ölülər» və 1919 yılında qələmə aldığı «Anamın kitabı» ilə meydana çıxmışdır.

«Ölülər» komediyası gərək mövzu, gərəksə bu əsərdə verilən canlı tiplər və xarakterlər baxımından Azərbaycan ədəbiyyatında bir şahəsər təşkil etməkdədir. Müəllif bu əsərində orta çağ feodalitə döv-

[2] Son araşdırmalara əsasən, C.Məhəmmədquluzadənin doğum tarixi olaraq 1869-cu il təsbit edilmişdir. – *N.C.*

ründən qalma sosial münasibətləri, çürük etiqadları, xalqın dərin cəhalətini və bu cəhaləti üzündən dinin yüksək nüfuzunu kötüyə kullanan şarlatan ünsürlərə alət olmasını sənətkar qələmi ilə canlı bir şəkildə təsvir etməkdədir. «Ölülər» pyesinin baş qəhrəmanı Şeyx Nəsrullah dinlə həqiqi heç bir ilgisi olmayan, zövqünə və nəfsinə düşkün, əxlaqən mütərəddid, hiyləgər və tüfeyli bir ünsürdür. O kəndisi gibi tüfeyli arkadaşı Şeyx Əhməd ilə birlikdə Xorasandan qalxaraq şəhər-şəhər dolaşıyor və nəhayət, Naxçıvana gəliyor. Getdiyi hər yerdə xalqın saflığından, cəhalət və geriliyindən faydalanaraq, möcüzə sahibi bulunduğu için ölüləri dirildə biləcəyini iddia ediyor və bu vəsilə ilə əhalini soyuyor, onun hesabına yaşıyor və hətta gənc qadınlar və qızlarla müvəqqət nikahlar əqd etmək və yaşamaq surətilə müsafiri bulunduğu evlərin heysiyyət və şərəfini ayaqlar altına alıyor. Şeyx Nəsrullah kəndi kötü əməl və həvəslərinin tətmini yolunda yalnız bir kişinin müqavimət və müxalifəti ilə qarşılaşıyor ki, o da yeni cəmiyyət və yeni mühitin yetişdirdiyi Kefli (yəni sərxoş) İskəndərdir. Kefli İskəndər görünürdə sərxoş, fəqət həqiqətdə olduqca oyanıq və münəvvər bir simadır. O, əski cəmiyyətin bütün səqət tərəflərini, xalqın ictimai geriliyini və mühitin qorxunc dərdlərini tamamən tənqid etməkdədir. Fəqət bu mənfi hallara qarşı müvəffəqiyyətlə mücadilə etmək qüdrət və əzmindən məhrumdur. Tıpqı Şekspirin Hamleti gibi Kefli İskəndər də tərəddüd və aciz böhranları içində çırpınıb durmaqdadır. Hamlet intiqam qərarını vermək və tətbiq edə bilmək için məcnun qılığına girmişdi. Kefli İskəndər isə içindəkiləri açıb-tökə bilmək için sərxoşluq yolunu ixtixab etmişdir. Hər ikisi də kəndilərini mühitə yabançı və məşhur münəqqid Belinskinin bir təbiri ilə «lüzumsuz bir fərd» olaraq hiss etmişdir.

Kefli İskəndər kiçik qardaşı Cəlala xitabən kəndi iç duyğularını şu şəkildə bəyan etməkdədir: «Ay Cəlal! İndi sən məndən qaçırsan. Deyirsən ki, keflisən! Amma, vallahi, sən də mənim kimi dərs oxuyub qurtarandan sonra başlayacaqsan Kefli İskəndər dadaşın kimi küp dibində yatmağa».

Kefli İskəndər bir yandan da evdəki kiçik qız qardaşı Nazlının cahil ana-babası tərəfindən günün birində tıpqı bir cariyə gibi zəngin bir ixtiyara sözdə zövcə olaraq satılacağını gözləri önünə gətirərək yana-yaxıla ona şöylə deməkdədir: «Ey mənim gözəl, Nazlı bacım! Bir bax, həyətdə gün çıxıb. Sən ki o günü görməyəcəksən, nəyə lazımdır

onun işığı?! Çöldə otlar göyərib, ağaclar çiçək açıb, amma nəyə lazımdır sənsiz o çiçəklər, o çəmənlər?!»

Şeyx Nəsrullah, nəhayət, kəndisinə kor-koranə inanan köylüləri bərabərində alaraq, ölüləri diriltmək məqsədilə məzarlığa gediyor və yanındakılara xitab edərək yenidən həyata qovuşdurulmasını arzu etdikləri əqrəbalarının listəsini tənzim etmələrini istiyor. Fəqət bu təklif qarşısında köylülərin çoxu susuyor və isim verməkdə tərəddüd ediyorlar. Bir az sonra məzarlığa toplanan qələbəlik ölənlərdən kimlərin adları verilib-verilməyəcəyi haqqında bir-birlərilə münaqişəyə giriyorlar.

Kefli İskəndər köylülərdəki bu tərəddüdün və mütəqabil anlaşılmazlığın iç üzünü sözlərilə ifşa etməkdədir: «Amma zamani ki, ricət məsələsi ortalığa qoyuldu və Şeyx Nəsrullah ölülərin dirilmək ixtiyarını qoydu sizin qabağınıza, razı olmadınız ölən qardaşlarınızın, bacılarınızın və arvad-uşaqlarınızın dirilməyinə. Niyə, niyə razı olmadınız? Ondan ötrü ki, arvadlarınızı yumruq altında öldürmüşsünüz! Ondan ötrü ki, ölən dostlarınızın yetimlərinin malını yemişsiniz! Razı olmadınız ki, dirilib gəlsinlər və sizin əməllərinizi görüb desinlər: Tfu, sizin üzünüzə!»

Zatən Şeyx Nəsrullah da uzun təcrübələrinə dayanaraq, köylülərin bu bəhsdə heç bir zaman anlaşamayacaqlarını bildiyi içindir ki, ölüləri diriltmək iddiası ilə ortaya atılmışdı. Fəqət bu səfər işin ən sonunda Şeyxin oyunları civar köylülər tərəfindən meydana çıxarılmışdı. Lakin köylülər tam təqibə qalxışdıqları sırada Şeyx Nəsrullah arkadaşı Şeyx Əhməd ilə birlikdə ortadan sıvışmışdı.

Müəllif «Ölülər» pyesində Kefli İskəndərin ağzı ilə əski cəmiyyətin bütün mənfi tərəflərini şiddətli tənqidə tabe tutmaqda və Azərbaycan xalqını intibaha dəvət etməkdədir.

Cəlil Məhəmmədquluzadənin «Danabaş kəndinin məktəbi» başlığı ilə yazdığı digər bir komediyada təsvir olunan hadisələr anlaşılan Şeyx Nəsrullahın «möcüzələrindən» sonra vüqu bulmuşdur. Şeyx Nəsrullah Naxçıvan köylərindən «Danabaş kəndi»nə də uğramış və burada rəzil olduqdan sonra ortadan sıvışı vermişdir. Fəqət bu səfər onun yerinə «Uçitel» (yəni öyrətmən) Həsənov gəlmişdir. Kefli İskəndərin sərt tənqidlərindən və qüvvətli təlqinlərindən sonra köy xalqında oyanıqlığa doğru hənüz zəif və bəlirsiz də olsa, şüuraltı bir meyl və istək vardır. Fəqət köy çocuqlarını oxutmaq və elmə qovuşdurmaq qayəsi ilə gələn

öyrətmənin rus məmurları uniformasında pristav (yəni nahiyə polis müdiri), maarif müfəttişi və yüzbaşı (köy muxtarı) gibi rus rəsmi dövlət müməssillərinin məiyyətində gözükmüş olması köy xalqının kəndisinə qarşı güvən və etibarını dərhal sarsmış oluyor. Zira Azərbaycan köylüsü müstəvli və qasib bir dövləti təmsil edən bu məmurlardan zülm, işgəncə, basqı, soyğunçuluq və həqarətdən başqa bir şey görməmişdir. Hər səfər olduğu gibi, bu dəfə də köy xalqı rus məmurlarını görür-görməz qaçıb dağılıyor və çocuqlarını öyrətmən Həsənovdan saklıyorlar. Fəqət köydə məhəlli otoritəni təmsil edən yüzbaşı Pirverdi bu səfər də qamçısına müraciət edərək köylüləri bir araya topluyor və məktəbin açılmasını təmin ediyor. Okul yenə dövlət adına konuşan kadının (yəni müftinin) uzun bir duasıyla açılıyor. Kadı Romanov xanədanına dua edərək şu sözləri söylüyor: «Göydə Allahın və yerdə padşahi-mehribanımızın rəhmət və şəfqətinə möhtacdır cəmi ərbabi-hacət və həzarat...»

Kadıdan sonra kürsüyə gələn maarif müfəttişi türk köylüsünə rus dilində şu xitabla bulunuyor: «Da. Vıy sçastlivı sevodniya... Kaqda pedaqoqi baleya duşoy vmeste s vami ızıskaali, nakanets, parazitelno tonkiy metod abuçenia, tonkiy do tavo çto vsyakay i kajdaya abstraktnost, atvleçyonnost krasivo i pravilno adevayetsiya v kankretnost.....»

Türkcəsi şöylədir: «Əvət, siz bu gün bəxtiyarsınız.... Zira şəfqət duyğuları ilə mütəhəssis olan öyrətmənlər, nəhayət, heyrət verəcək dərəcədə incə bir təlim üsulu bulmuşlardır. Bu üsul o dərəcə incədir ki, hər mücərrəd və afaqi bir məfhumu gözəl və doğru bir tərzdə müəyyən və müşəxxəs hala sokmaqdadır....»

Fəqət köylü zorla soxulduğu bu iş haqqında bəslədiyi şübhələri bütün basqılara rəğmən saklayamıyor. Əcəba, kafir rus hökumətinin durub-dururkən türk və islam çocuqlarını oxutmaqdakı qayəsi nədir? Çocuqların boynuna xaçmı taxılacaq? Kəndisinə heç bir iyiliyi toxunmayan bir hökumətin övladlarına nə xeyri toxuna bilir? Köylülərin bu gibi hisslərinə tərcüman olan Qasım kişi öyrətmənə şu sualı soruyor: «Ay uşkol! Qurban olum sənə, bir məni başa sal görüm, o ki, deyirsən uşaqlar oxuyub adam olacaqlar, bir mənə de görüm, necə yəni adam olacaqlar?»

Lakin yüzbaşı Pirverdi öyrətmənin cavabına fürsət bırakmadan Qasım kişinin üzərinə atılaraq şu sözləri hayqırıyor: «Qasım kişi, bu

sözlər bir kəpəyə (yəni beş paraya) dəyməz. Mən buyruq quluyam. Mənə buyurublar: sür dərəyə – sür dərəyə! Əgər siyahımdakı uşaqlar uşkola gəlməsələr, mən sizinlə bax, bu şallaqnan danışacağam!»

Pirverdi nüfuzlu köylülərdən Kəblə Heydəri də qorxutmağa lüzum görərək kəndisinə şöylə diyor: «Nə eyləyirsən eylə! Amma bu şallağı yadından çıxarma!»

Yüzbaşı Pirverdi rus əfəndilərindən aldığı «buyruğu» şu sözlərilə mükəmməl surətdə canlandırmaqdadır: «Çünki mən yüzbaşıyam, mənimki şallaqdır!»

Köy mollası Qulamverdi də başlanğıcda «uşkol» məsələsinə müxalif bir tövr takınmaqda və bu təşəbbüsün şəriətə ayqırı nəticələr verməsindən qorxmaqdadır. Fəqət öyrətmən Həsənov kəndisinə: «Siz də həmən uşkolda həftədə iki saat şəriət dərsi verib ayda 12 manat yarım pul alacaqsınız» deyərək, tatlı vəddə bulununca, molla dərhal tövr və qənaətini dəyişdirərək: «Elm həmişə elmdir. Allah mübarək eyləsin, Allah padşahımızı da salamat eyləsin!» ‒deyə cavab veriyor.

Bununla bərabər, çocuqlarını məktəbə verməyə boyun əydikdən sonra belə, köylülər yavruları ilə birlikdə okula gələrək, sinifdə oturuyor və öyrətmənin övladlarına nələr söyləyəcəyini və nələr anladacağını qorxu və əndişəylə qarışıq bir maraqla təqib ediyorlar.

Yuxarıda söyləmiş olduğumuz gibi, «Anamın kitabı» pyesi 1919 sənəsində, yəni Azərbaycanın xeyli inkişaf etdiyi bir dövrdə yazılmışdır. Bu müddət zərfində Azərbaycan 1905 və 1917 ixtilallarını atladaraq, Rusiyada iqtidar uğrunda çarpışan milliyyətçi, sosialist və kommunist rus partilərinin heç birinə uymamış və 1918 sənəsində yardımına gələn qəhrəman türk ordusunun da müzahirəti ilə hürr və bağımsız milli dövlətini qurmuşdur. Məmləkətdə elm, fənn və sənət bir xeyli irəliləmiş, ədəbiyyat və tiyatro da sürətli addımlarla gəlişmiş, müxtəlif fikir və əqidələr daşıyan siyasi partilər və dürlü məslək zümrələrini təmsil edən qüvvətli sendikalar qurulmuş, Türk və İslam aləmində ilk dəfə olaraq modern cümhuriyyət və demokrasi idarəsinin təməli atılmış, milli Azərbaycan ordusu vücuda gətirilmiş, Azərbaycanın bütün şəhər və qəsəbələrində türk dilində çeşidli okullar açılmış və Bakıda universitə təsis olunmuşdur. Lisə təhsillərini bitirən öyrəncilərdən mühüm bir qismi ya kəndi və yaxud dövlət hesabına yüksək öyrənim almaq üzrə Avropa məmləkətlərinə göndərilmişlərdi. Basın, siyasi və sosial həyat

əsrin icablarına ayaq uyduraraq çox irəliləmişdir. Ticarət və industri sürətlə gəlişmişdir. Bilxassə Bakı şəhəri mühüm bir kültür, ticarət və industri mərkəzi halına gəlmişdir. Məmləkətdə tam və mütləq bir hürriyyət rejimi qurulmuş olduğu için fikir münaqişələrinə və təşəbbüs sərbəstisinə heç bir surətlə mümaniət göstərilməmişdir.

İştə, Cəlil Məhəmmədquluzadə «Anamın kitabı» əsərini böylə bir mühit içində yazmışdır. Fəqət pyesin mövzusu yenə rus hakimiyyəti dövründən alınmışdır. Əsərdə Əbdüləzim ismində bir şəxsin ailəsi daxilində cərəyan edən hadisələr təsvir olunmaqdadır. Əbdüləzimin üç oğlu və bir qızı vardır. Böyük oğlu Rüstəm bəy Peterburqda yüksək təhsil görmüş olduğu için konuşmalarında bol-bol rusca kəlmələr kullanmaqda və gəncliyə rus tərbiyəsinin verilməsinə tərəfdar bulunmaqdadır. Kəndisi rusca bir lüğət təlifi ilə məşğuldur. Ən yaxın dostu və fikir arkadaşı baytar Aslan bəydir. Ailənin ortanca oğlu Mirzə Məhəmmədəli təhsilini Nəcəfi-Əşrəfdə yapmış olduğundan, farsca və ərəbcə ibarələr kullanmaqdan zövq almaqda və yeni nəslə Şərq tərbiyəsinin verilməsi lüzumuna qane bulunmaqdadır. Dostu Mirzə Nəcəfəli də eyni ruhda və eyni qənaətdə bir insandır. Əbdüləzimin kiçik oğlu Səməd Vahid isə İstanbul ədəbiyyat fakültəsini bitirmiş, koyu osmanlıca konuşur, şeir yazar, rus və İran nüfuzuna şiddətlə müxalif və məmləkətdə Osmanlı lisanının və tərbiyə sisteminin qəbulu və tətbiqi fikrini müdafiə etməkdədir. Arkadaşı bulunan türkcə öyrətməni Hüseyn Şahid də eyni qənaəti daşımaqdadır.

Fəqət Səməd Vahid ilə Hüseyn Şahid o sıralarda bizzat Türkiyədə bəlirən lisanın türkləşdirilməsi və xalq kütlələrinin qolayca anlaya biləcəkləri ədəbi bir türkcənin vücuda gətirilməsi cərəyanından kənarda qalmışlardır. Onların kullandıqları ifadə tərzini sadəcə Azərbaycan türk xalqı deyil, Anadolu köylüsü belə pək anlayamazdı. Halbuki Azərbaycan türk köylüsünü mədəni həyata ulaşdırmaq və orta çağdan qalma geri və zərərli düşünüş tərzindən qurtara bilmək için xalqa sərbəstcə xitab edə bilən canlı və sadə bir türkcəyə ehtiyac vardı.

Üç qardaşın yeganə qız qardaşları Gülbahar bütün ailə əfradını dərin və təmiz bir məhəbbətlə sevən namuslu, ağıllı və oxumuş bir türk qızıdır. Annələri Zəhra bəyim bütün çocuqlarını eyni dərəcədə sıcaq və saf bir ana qəlbi ilə sevən müşfiq və fədakar bir qadındır.

Müəllif üç qardaş arasındakı düşünüş və təmayül fərqlərini qüvvətlə bəlirdə bilmək için onları ictimai və siyasi fəaliyyət sahəsində qarşılaşdırmaqdadır. Rüstəm bəy şəhərdəki Xeyirsevənlər Cəmiyyətinin başqanıdır. Qardaşları və şəhərin digər tanınmış simaları Cəmiyyət Yönətim Kurulunda üyədilər. Yönətim Kurulu başqanın evində toplanmaqdadır. Rüstəm bəyin eşi Zivər xanım təhsil görmüş bir qadın olduğu için toplantılarda fəal surətdə iştirak etməkdədir. Xeyirsevənlər Cəmiyyəti Yönətim Kurulunun son oturumunda dörd məsələ görüşülməkdədir: 1. Yıllıq raporun oxunub təsvib edilməsi, 2. Okul proqramının tədqiqi, 3. Aclıqdan iztirab çəkən xalqın yardım diləkçəsi, 4. Şəriət dərslərinin oxudulması.

Başqanın verdiyi rapordan Xeyirsevənlər Cəmiyyətinin təşkil etdiyi baloya sərf olunan paralarda sui-istimal vaqe olduğu meydana çıxmaqdadır. Baytar Aslan bəy bu xüsusda söz alaraq, məsələni şu şəkildə təvilə yeltənməkdədir: «Zakon, bu sluçayları tamamən predusmotret eyləyibdir. Bizim smetanın proqreşnostları o barədədir ki, biz naprimer təyin eyləmişdik ki, aclara ildə yüz manat paylayaq, amma biz yüz manat əvəzinə paylamışıq yüz doqquz manat on dörd şahı iki kapek [qəpik]...»

Tıpqı bugünkü Sovet Azərbaycanında çıxan qəzetə və kitabların Moskvanın şiddətli ruslaşdırma politikası nəticəsində kullandıqları yarı rusca, yarı türkcə lisana bənzəyən bu ifadə tərzini həqiqi türkcəyə şu şəkildə çevirə biliriz: «Qanuni mövzuat bu gibi halları tamamən nəzəri-etibara almış bulunuyor. Təxsisatımızdakı uyğunsuzluqlar ondan irəli gəliyor ki, biz məsəla, aclara yardım için sənədə yüz rubla ayırmış olduğumuz halda, həqiqətdə yüz doqquz küsür rubla dağıtmış bulunuyoruz...»

Okul proqramının müzakirəsinə keçilincə, ana dili tədrisinin qüvvətləndirilməsi məsələsi bəhs konusu oluyor və bu fikri öyrətmən Hüseyn Şahid hərarətlə müdafiə edərək şu sözlərlə nutquna başlıyor: «Möhtərəm əzayi-Əncümən həzrətlərinə kəndi ixlasımı təqdim edib, mətləbin ən ibtidasından bir şəmmə izahat verməyi fərz və qərz bilib iltimas ediyorum, əfəndim...»

Təbiətilə bu gibi aydınlar aldıqları təhsil nəticəsində xalqdan büsbütün uzaqlaşmış, onu anlayamaz və tanıyamaz hala gəlmişlərdir. Xalq

da bunu seziyor və böylələrinə acı-acı gülüyor. Məsələ, əsərdə baytar Aslan bəylə çobanlar arasında vüqu bulan konuşmanı bir parça dinləyəlim. Aslan bəy çobanlara şu sualı soruyor: «Yaxşı, bir mənə deyin görüm, qoyunun yarasını siz dezinfeksiya eyləmisinizmi?»

Çoban Qəmbər şu qarşılıqda bulunuyor: «Qanmadıq, həkim ağa!»

Çoban Qurban: «Başa düşmədik, qurbanın olum!»

Çoban Zaman: «O nə sözdü, başına dolanım?!»

Aslan bəy təkrar şu sualı soruyor: «Bir mənə deyin görüm, qoyun yaralananda onun temperaturasını ölçürsünüzmü?»

Çobanlar bu səfər də eyni müstəhzi lisanla baytara müqabilədə bulunuyorlar.

Nəhayət, çoban Qurban münəvvər Aslan bəyə şu öyüdü veriyor: «Həkim ağa, yaraynan sənin işin yoxdur. Yaranın dilini biz özümüz bilirik. Keçən həftə qumral kərə qoyunu canavar yaralamışdı. Bax, yarası belə kalafa kimi idi. Qara nöyüt sürtdük. İki gündə yaxşı oldu. Keçən gün Hacı Əmrahgilin sürüsündən sarı qoyunu yenə canavar dağıtmışdı, ona da qara nöyüt sürtdülər. Sənin yaraynan işin yoxdur. Bilirik, yaxşı həkimsən. Sən bu şoqərib qızdırmaya dəva ver, ya bizə bir məsləhətli söz de! Bir də səni and verirəm Allaha, bizinən elə danış ki, başa düşək!»

Əsərin üçüncü və dördüncü pərdələrində eyni ana-babanın, yəni eyni vətənin və eyni millətin çocuqları bulunan şu üç qardaş arasında kültür və qənaət fərqlərindən irəli gələn təzad getdikcə dərinləşərək düşmənliyə inqilab ediyor və ailənin dağılması ilə nəticələniyor. Bu hal anaları Zəhrabəyimlə qız qardaşları Gülbaharı son dərəcə üzüyor. Zavallı ana nə yapacağını kəsdirəmiyor və büsbütün şaşırıyor. Böyük oğlu Rüstəm bəy, nəhayət, həqiqəti etiraf edərək, anasına durumun iç üzünü şu şəkildə izah ediyor: «Ana, bax, məni səni lap çox yaxşı başa salım. Nə qədər ki, mən bu kitablara etiqad eyləyirəm, Məhəmmədəli də bu kitablara və Səməd də bu kitablara etiqad eyləyirlər, dəxi biz nə təhər... mehriban yola gedə bilərik?»

Halbuki rus sansürü eyni ailənin, yəni eyni vətənin övladı olaraq bir arada yaşayan münəvvər qardaşların birlik olduqlarını, eyni fikir və qənaəti daşıdıqlarını və müəllifin təbiri ilə «hürriyyət əsaslarını kəndli

və əhli-qəsəbə içində müntəşir» etdiklərini və «həmin niyyətlərini əmələ gətirmək yolunda lazimi mətbuat cəm edib qələm ilə» çalışdıqlarını duyaraq evlərini araşdırmağa gəlmiş, fəqət araşdırma əsnasında bir-birinə ayqırı üç nevi kitab yığınını görüncə niyyətindən vaz keçmiş və üç qardaşa xitabən məmnun və iltifatkar bir lisanla şu sözləri söyləyərək ayrılmışdır: «Kitablarınızı görəndən sonra dəxi indi fikrimi bilmərrə dəyişdirdim».

Təhlükənin bu qədər qolayca atladıldığını görən Rüstəm bəy bir tərəfdən seviniyor, fəqət bir tərəfdən də acı-acı gülərək şu etiraflarda bulunuyor: «Hələ indiyə kimi xalq bir şey başa düşmürdü, indiyə kimi xalq deyirdi: Mərhaba Əbdüləzimin oğlanlarına, maşallah, biri Peterburqda elm təhsil edib, biri İstanbulda, biri də Nəcəfül Əşrəfdə. Üçü də, maşallah, oxuyub, alim olub. Amma bundan sonra ağızlarda söyləniəcək ki, həmən üç alimdən biri xüsuf-küsuf duası yazır, biri məfailünfaülatun, biri də... vallah özüm də heç başa düşmürəm ki, mən nəçiyəm».

İştə, müəllif bu ayırıcı və yıxıcı kitablara qarşı ananın, yəni vətənin uzlaşdırcı, birləşdiri və yaradıcı kitabını vəz ediyor. Fəqət bu kitabın kəndi kəsin sözünü söyləyə bilməsi için, ilk öncə ötəkilərin ortadan qalxması lazımdır. İştə bu işi də ailənin mücadiləçi qızı Gülbahar yapıyor. Gülbahar aciz və tərəddüd içində yuvarlanan Kefli İskəndər gibi üsyankar nutuqlar söyləməklə və Şeyx Nəsrullah mühitini ittiham etməklə qalmayaraq, böyük bir əzm və cəsarətlə hərəkətə keçiyor. Bu hərəkətin nədən ibarət olduğunu müəllifin ağzından dinləyəlim: «Gülbahar qaçır içəri, otaqdan neft və kibrit gətirir. Kitabların üstünə neft töküb od vurur. Kitablar çöldə alışır və Gülbahar durur otağın ortasında, qoltuğundan anasının kitabını çıxardır, bir səhifəsini açır və diqqətlə baxır.....»

Gülbahar burada məşhur monoloqunu söylüyor: «Qaldı bircə kitab, bu da anamın kitabı! Budur, atamın öz əli ilə yazdığı vəsiyyət (oxuyor): Tarixi-hicrinin min iki yüz doxsan dördüncü ilində, rəbiüssaninin on ikisində, səşənbə günü sübh azanından yarım saat keçdikdə yoldaşım Zəhranın cismindən bir parça qopub ayrıldı ki, ibarət olsun Rüstəm balamdan... Biçarə övrətin cisminin qalanından yenə.... bir parça ayrılıb qopdu, həmən gün oğlum Məhəmmədəli anadan oldu. Yazıq Zəh-

ranın qalan qismi yenə bir tərəfdə parçalandı... Balamız Səməd dünyaya gəldi. Bundan da bir neçə il sonra bəxtiqara övrətin qalan yarım canından yenə bir parça qopdu ki, adını Gülbahar qoyduq. Yer, göy, ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə yenə əvvəl-axır günün başına dolanırlar. Çünki bunlar hamısı qədim, əzəl gündən qopub ayrılmış parçalardır.

Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yeri gəzib dolansalar, yenə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar. Çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ay və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə: Onun insafı və vicdanı ona madaməlhəyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşman olacaq.....»

Bu monoloq çox manidardır. Burada müəllif Gülbaharın ağzı ilə vətən və vətənsevərlik haqqındakı düşüncələrini ifadə etməkdədir. Ona görə, vətən bütün ətrafına nur, feyz və bərəkət saçan bir günəşdir. Vətən övladları isə bu günəşin çevrəsində dönən səyyarələrdir. Səyyarələr günəşdən büsbütün ayrılmayacaqları gibi, vətən övladları da nerədə bulunurlarsa-bulunsunlar, ruhən və fikrən hər zaman yurdları ilə bərabər olmalıdırlar. Heç bir tərbiyə, heç bir kültür, heç bir mühit türkü ana yurduna qarşı bəslədiyi sevgi və bağlılıqdan alı qoymamalıdır. Biləks insan müxtəlif kültür mərhələlərini seyr etdikcə vətənə və vətən övladlarına daha fazla bağlanmalıdır.

Müəllifə görə, gerçək kültür insanı xalqa yaxınlaşdıran kültürdür. İnsanı xalq kütlələrindən ayıran, onu xalqa yabançı qılan kültürə kültür denəməz. Kültür xalqı daha iyi tanımaq və onun ehtiyaclarını təqdir edə bilmək için bir vasitədir. Kültürün həqiqi qayəsi millətə faydalı olmaqdır.

Yenə Cəlil Məhəmmədquluzadəyə nəzərən, vətənin qurtulması, hürriyyət və istiqlala qovuşa bilməsi için sinif, parti, zümrə və kültür fərqi gözətmədən bütün vətən övladlarının birlik və mütəsanid olmaları icab edər. Birlik dışında qurtuluş olamaz. Vətən övladları daima birbirini düşünməli və yurddaşlarına hər nevi maddi və mənəvi yardımlarda bulunmalıdırlar.

«Anamın kitabı»nda təmiz qəlbli, pak vicdanlı, vəfalı və çalışqan Azərbaycan köylülərinin müməssillərini görüyoruz. Bunlar təhsil görməmiş və yoxsul olduqları halda, daima aclara və möhtaclara yardıma

amadədirlər, yalan söyləməzlər, verdikləri sözü tutarlar, kəndi məsləklərində mahirdirlər, təcrübəyə və təbii zəkaya dayanan bilgiləri vardır. Məsəla, əsərdəki çobanlar öyünərək kəndi hisslərini şu sözlərlə ifadə ediyorlar:

Biz çobanıq, dağdı, daşdı yerimiz,
Yoldaşımız qoyun-quzu sürümüz.
Dərs almayıb, haqdı ki, heç sürümüz,
Amma zövqü-səfalıdır çobanlar,
Qardaşlıqda vəfalıdır çobanlar.

Gözəl olur çöldə çəmənlər, çaylar,
Qışda arandayıq, dağda yaylar.
Çoban südü sağar, hamıya paylar,
Niyyəti çünki alidir çobanlar,
Qardaşlıqda vəfalıdır çobanlar.

Cəlil Məhəmmədquluzadə bir pərdədən ibarət «Lal» pyesində sokakda ağlayan altı və səkkiz yaşlarında iki öksüz çocuğu təsvir etməkdədir. Çocuqların səsinə bir münəvvər insanla bir məmur, bir mömin, bir tacir və onların arxasından da nə işlə məşğul olduğu bilinməyən bir lal koşub-gəliyorlar. Fəqət okulun zil səsini duyan münəvvər çocuqlara beşər quruş bırakıb gediyor. Mömin azan səsini duyar-duymaz uzaqlaşıyor, məmur ilə tacir də saatlarına baxıb ayrılıyorlar. Halbuki əsil bir qəlb sahibi bulunan dilsiz çocuqların yanında qalaraq, onları təskin etməklə məşğul oluyor. Böyləcə, təbiətin səqət yaratdığı bu insanda başqalarına nisbətən dərin bir şəfqət və mərhəmət hisslərinin mövcud bulunduğu təbarüz etdirilməkdədir.

Cəlil Məhəmmədquluzadənin buraya qədər qısaca incələdiyimiz pyeslərindən görüyorsunuz ki, kəndisi Azərbaycan ictimai həyatının dərinliklərinə qədər nüfuz edərək olduqca ciddi və entersan mövzular ələ almış bulunmaqdadır. Bu mövzular həyati əhəmiyyəti haiz olduğu qədər orijinaldır da. Ədib böyük ustadı Mirzə Fətəlinin realizm okulunu məharətlə təqib edərək, lisanda və konuda münhəsirən xalq həyatından ilham almışdır. Zatən müəllif 1906 sənəsində yayınına başladığı «Molla Nəsrəddin» dərgisində də eyni yoldan yürüyərək, mizah vasitəsilə ilk öncə Azərbaycanın və sonra da bütün Şərq-İslam dünyasının

geri sosial müəssisələrini, batil etiqadlarını və çürük zehniyyətlərini durmadan tam 25 sənə şiddətli tənqid atəşinə tabe tutmuşdur. Şərq-İslam dünyasında heç bir mühərrir və ya müəllif böyük türk filosofu Nəsrəddin Xocanın adını və şöhrətini bunca xeyirli və müsbət bir yolda və bu qədər sistemli bir şəkildə kullanamamış və əbədiləşdirəməmişdir. Onun «Molla Nəsrəddin» dərgisi Kafkasyadan tutunuz, Türküstan, İran, Türkiyə və Hindistana qədər yayılmışdır. Azərbaycanın böyük həcv şairi Ələkbər Sabirin də fəal surətdə iştirak etdiyi «Molla Nəsrəddin» dərgisi Türkiyə və İranın hürriyyət və məşrutiyyət davalarını sonuna qədər hərarətlə müdafiə etmiş və tamamən mənimsəmişdir.

Burada kiçik bir haşiyə çıxaraq şunu da qeyd edəlim ki, 1920 sənəsinin 27 Nisanında 11-ci Rus Qızıl Ordusu Azərbaycan torpaqlarını qəsb və istila edərkən Cəlil Məhəmmədquluzadə «Molla Nəsrəddin» dərgisini türkcə və farsca[3] olaraq Təbriz şəhərində nəşrə davam ediyordu. İstiladan sonra Azərbaycan kommunistləri kəndisini israrla Bakıya dəvət etdilər. Məmləkət yolunda hər nevi hizmətə daima canla-başla amadə bulunan ədib, nəhayət, kəndisinə yapılan təklifi qəbul edərək, dərginin nəşrini Bakıya nəql etdi. Fəqət Bakıya gələr-gəlməz kommunist basqısı altında qaldı. Kəndisindən «Molla Nəsrəddin» adının dəyişdirilərək dərgiyə «Qırmızı Molla Nəsrəddin» denməsi tələb ediliyordu. Fəqət ədib bu tələbi kəsin surətdə rədd edərək, «Qızıllaşan sizsiniz, Nəsrəddin Xoca qızıllaşmamışdır və qızıllaşamaz da. Çünki Nəsrəddin Xoca hər dövrdə və hər rejimdə Nəsrəddin Xocadır» demişdi. Dərginin Sovet hökuməti zamanında nəşr olunan ilk nüsxələrindən birində Azərbaycan rus mujikləri tərəfindən durmadan sağılaraq, yemsizlik və baxımsızlıq üzündən bir dəri və bir kəmik halına soxulmuş inək şəklində təsvir olunmuşdu. Çünki rus müstəvli qüvvətləri hər yerdə və hər zaman olduğu gibi, Azərbaycanın bütün sərvətini yağma etmişlər və xalqını da ac və səfil bırakmışlardı. Dərgidə bu gibi rəsmlər təkərrür edincə kommunistlər Cəlil Məhəmmədquluzadəni feilən uzaqlaşdıraraq, nəşriyyat idarəsinin başına kəndi ajanlarından mütəşəkkil bir təhrir heyətini gətirdilər və «Molla Nəsrəddin»i doğrudan-doğruya

[3] Burada dəqiqləşdirməyə zərurət vardır. Belə ki, «Molla Nəsrəddin» məcmuəsinin Təbrizdə nəşr edilmiş 8 sayındakı yazıların mütləq əksəriyyəti Azərbaycan dilindədir. Yalnız ilk sayın baş məqaləsi, sonrakı saylarda bəzi kiçik yazılar (cəmi 19 mətn) İran hökumətinin tələbinə uyğun olaraq, farsca verilmişdir. Ə.Yurdsevər məhz bu məqamı nəzərdə tutur. – *N.C.*

Rusiya «Allahsızlar cəmiyyətinin» əmrinə verdilər. Nəticədə, bunca iyi şöhrətə sahib bulunan «Molla Nəsrəddin» dərgisi kommunist idarəsinin əlində tərəddi yolunu tutaraq, xalqın dini müqəddəsatıyla alay edən adi bir kommunist orqanı halına sokuldu. Bu durum təbiətilə ədibə son dərəcə əzab və üzüntü veriyordu.

Cəlil Məhəmmədquluzadə gərək hekayə və pyesləri, gərəksə «Molla Nəsrəddin» dərgisilə Azərbaycanın fikir və ictimai həyatı üzərində qüvvətlə müəssir olmuş bir ədibdir. Pyeslərindən, bilxassə «Ölülər» komediyası Azərbaycan tiyatro səhnələrində daimi surətdə oynanan əsərlərdəndir. Ədib 1932 sənəsində vəfat etmişdir.

Əbdürrəhim Haqverdilinin həyatı və əsərləri

Əbdürrəhim Haqverdili 1870 sənəsində Şuşa şəhərində doğmuşdur. Ailəsi əski çiftlik sahiblərindən olmaqla bərabər, son zamanlarda fəqir düşmüşdü. Ədib ilk təhsilini Şuşada almışdır. Daha sonra Tiflis lisəsində oxumuşdur. Yüksək təhsilini Peterburqda yapmışdır. Əbdürrəhim bəy Peterburq Ulaşdırma Enstitüsündə səkkiz sənə oxumuş və Universitənin Şərqiyyat fakültəsinə davam etmişdir. Kəndisi daha Şuşada ilk okulda öyrənci ikən ədəbiyyata maraq sarmış və əsər yazma həvəsinə qapılmışdı. Ustad on doqquzuncu yüz yılın sonlarına doğru Peterburqdan Bakıya döndükdən sonra öyrətmənlik, rejissorluq, mühərrirlik yapmış və sair ictimai işlərdə çalışmışdır. Bir tərəfdən mükəmməl şəkildə ədəbi və ictimai tərbiyə görməsi, ötə tərəfdən də Rusiya, Türküstan, İran və Kafkasyada uzun səyahətlər yapması və eyni zamanda pratik iş sahəsində geniş təcrübələr edinməsi Əbdürrəhim Haqverdilinin ədəbiyyat alanındakı yaradıcılıq qabiliyyətini və ümumiyyətlə, sənət həyatına qarşı şövq və əlaqəsini bir xeyli artdırmışdır.

Ədib «Dağılan tifaq», «Bəxtsiz cavan» və «Ağa Məhəmməd şah Qacar» başlıqları ilə üç trajedi yazmışdır. «Dağılan tifaq» əsərində feodalitə nizamının süqutu və bu süqutun səbəbləri təbarüz etdirilməkdədir. Əsərin baş qəhrəmanı bulunan əski zadəgandan Nəcəf bəy çiftliyini kəndi halına bırakaraq içkiyə, qumara, eyş-işrətə dalmış, əsrin müəzzəm gəlişmələrini görməz olmuş, hər nevi sosial mücadilədən vaz keçmiş və sinfinin mənəvi süqutunu ifadə edən bu sözləri dilinin əzbəri etmişdir: «Atalar misalıdır: Dünya beş gündür, beşi də qara! Bədbəxt

mən o kəsə deyərəm ki, bu beş qara günü ləzzəti-damaq ilə keçirib baş gora aparmaya. Pulun var: xərc eylə, ye, iç, ver kefə, ləzzətə, eyş-işrətə. Beş gün qara dünyanın ləzzətini apar. Öləndə də dünyada bir təmənnan qalmasın!»

Fəqət süquta məhkum Nəcəf bəy bu bəsit fəlsəfəsini «ləzzəti-damaq ilə» təhəqqüq etdirəmiyor. Onun kəndi ifadəsincə, işləri «öz qaydasında» getmiyor. Köyləri birər-birər əlindən çıxıyor. Köylülər arasında məmnuniyyətsizlik, ailəsi içində ziddiyyət baş göstəriyor. Dostları ətrafından dağılıyorlar. Əxlaqən düşmüş bulunan oğlu qətl ediliyor. Karısı Sona xanım Nəcəf bəyi əyyaşlığından və köylülərə zülmündən dolayı mütəmadiyən azarlıyorsa da, kocası üzərində əsla müəssir olamıyor. Nəhayət, hər tərəfdən ümidi kəsilən zavallı qadının gecə-gündüz Allaha yalvarmaqdan başqa çarəsi qalmıyor.

Nəcəf bəy ancaq büsbütün iflas edərək, varını-yoxunu kayb etdikdən sonradır ki, durumun vəhamətini sezməyə başlıyor. Bu arada karısı da qəmdən, kədərdən ölmüş bulunuyor. Dəli gibi çöllərə düşərək kor və pərişan dolaşan Nəcəf bəy arada-sırada mütəvvəfa karısı Sona xanımın xəyalətini gözləri önündə görüyor. Xəyalət: «Ver mənim imarətlərimi» deyə, onu sıx-sıx izac ediyor. İştə, Nəcəf bəy bu gibi dərin və təhəmmülfərsa iztirablar içində məhv olub gediyor.

Əbdürrəhim Haqverdilinin «Bəxtsiz cavan» trajedisi də «Dağılan tifaq» gibi zadəgan həyatı ilə ilgili bulunmaqdadır. Hacı Səməd ağanın «Bəxtsiz cavan» ismini alan yegəni Fərhad tıpqı Nəcəf bəyin Fəxrəddini gibi münəvvər, xeyirxah və idealist bir gəncdir. Fərhad təhsil sayəsində əldə etdiyi bütün bilgiləri, qabiliyyət və gənclik enerjisini kəndi təbirilə, «qaranlıqda qalan camaata nicat yolunu göstərmək için» sərf etməyə amadədir. Təhsilini bitirir-bitirməz köyə geniş islahat projeləri ilə dönüyor. Məqsədi köylülərə yardım etmək və modern ziraət üsullarının tətbiqini sağlamaqdır. Fəqət bu üzdən cahil və zalım amcası ilə arası açılıyor. Hacı Səməd ağa yegəninin irəli və müsbət fikirləri ilə alay ediyor. Onu bu gibi düşüncələrindən bir an öncə uzaqlaşdıraraq, iş həyatına sokmaq için sevmədiyi bir qız ilə zorla evləndirməyə qərar veriyor. Fərhad amcasına müqavimət göstərəmədiyi için bütün niyyətləri akim qalıyor.

Azərbaycan ədəbiyyatının ilk tarixi dramlarından bulunan «Ağa Məhəmməd şah Qacar» trajedisində İran Qacar sülaləsinin

müəssisi və ən qəddar hökmdarı Ağa Məhəmməd şahın Azərbaycan üzərinə yürüyüşü, Qarabağ xanlığını istila və yağma edişi təsvir olunmaqdadır. Ağa Məhəmməd şah xudbin qayələri uğrunda ən yaxın adamlarını və hətta öz qardaşlarını edam etdirməkdədir. Bütün bu məzalim xalqın Qacar sülaləsinə qarşı dərin kin və xüsumətini oyandırmaqdadır. Ədib bu müstəbid hökmdarın ruhi aləmini və qanlı idarəsini böyük bir məharətlə canlandırmaqdadır.

Ədəbi fəaliyyətinin ilk dövrəsində tarjedilər yazmış bulunan Əbdürrəhim Haqverdili daha sonra «Molla Nəsrəddin» mizah dərgisində təfriqə şəklində bəzi hekayələr nəşr etmişdir. Bunlardan, bilxassə «Xortdanın cəhənnnəm məktubları» və «Marallarım» başlıqlı hekayələr bir xeyli şöhrət qazanmış dəyərli həyat lövhələridir. Digər hekayələrindən: «Şeyx Şaban», «Dərvişi-nakam», «Bomba», «Diş ağrısı» və «Röya» hekayələrini zikr edə biliriz.

Əbdürrəhim Haqverdili pyes və hekayələrində tamamən realist bir ədib olaraq meydana çıxmaqdadır. Onun insan tipləri yaratmaq xüsusundakı istedadı və vücuda gətirdiyi tiplərin yalnız dış aləmini deyil, iç və ruh aləmini də mükəmməl surətdə təcəssüm etdirmədə göstərdiyi qabiliyyət və məharət hər əsərində gözə çarpmaqdadır. Üslubu səlis və sərbəstdir. Təbiət təsvirləri çox canlı və sürükləyicidir. Hekayələri oxuyucunu anladılan hadisənin doğruluğuna həmən inandıracaq qədər təbii bir mühiti əks etdirməkdədir. Əbdürrəhim bəyin nəsrdəki üslubuna həcvdən ziyadə yumor, xoş və mülayim bir lətifə ruhu, tənqid və islah zehniyyəti hakim bulunmaqdadır.

Ədibin sovet dövründə «Köhnə dudman», «Ağac kölgəsində», «8 Mart», «Ədalət qapıları» və «Yoldaş Koroğlu» başlıqları ilə bir kaç pyes və bir sıra hekayə yazmış olduğu söyləniyorsa da, bunların mahiyyəti haqqında hənüz bir şey bilmiyoruz.

Əbdürrəhim bəy 1933 sənəsində gözlərini həyata qapamışdır.

Süleyman Sani Axundzadənin həyatı və əsərləri

1875 sənəsində dünyaya gəlmiş olan Süleyman Axundzadə tıpqı Cəlil Məhəmmədquluzadə gibi pedaqoji təhsil görmüş və bütün həyatını Bakıda öyrətmənliklə keçirmişdir. Bakının ən əski öyrətmənlərindən və okul müdirlərindən bulunan Süleyman bəy Azərbaycana

bir çox aydınlar yetişdirmiş olduğu gibi, Mirzə Fətəli Axundzadənin alfabemizi islah və tədil yolunda dəyərli təşəbbüslərini haqqıyla təqdir edərək, bu uğurda qeyrət sərf etmiş, eyitim işlərimizin təkəmmülünə çalışaraq dərs proqramları tənzim etmiş və səhnəmizin irəliləməsinə bilfeil yardım göstərmişdir.

Süleyman Axundzadə ədəbi fəaliyyətinə 19-cu yüzyılın sonlarına doğru yazdığı «Tamahkar» pyesi ilə başlamışdır. Mirzə Fətəli Axundzadənin «Sərgüzəşti-mərdi-xəsis və ya Hacı Qara» komediyasının təsiri ilə qələmə alınan bu əsərdə Hacı Murad ismində bir zənginin para hırsı təsvir olunmaqdadır. «Tamahkar» pyesi kəndi zamanında Bakı səhnəsində müvəffəqiyyətlə oynanmış və geniş rəğbət qazanmışdır.

Süleyman bəyin 1921 sənəsində yazdığı «Şahsənəm və Gülpəri» komediyasında qadın hürrriyyəti mövzusu ələ alınmaqdadır. Kunduraçı Qafar ilə dostu Mirzə Fərəc qadınların çarşafsız gəzmələrinə və tiyatro, sinema gibi ümumi yerlərdə görünmələrinə müxalifdirlər. Halbuki eşləri Şahsənəm ilə Gülpəri zamanın icablarına ayaq uyduraraq açıq gəzmək və insan haqlarından istifadə etmək əməlini bəsliyorlar. Bir gün Qafar ilə Mirzə Fərəc kəndi xanımlarına tiyatroda rastlıyorlar. Bu üzdən karı-kocalar arasındakı ixtilaf və münaqişələr son həddini buluyor. Fəqət qadınların qüvvətli və isabətli dəlilləri qarşısında hər iki erkək susmaq və fikirlərindən vaz keçmək zorunda qalıyorlar. Bu surətlə karı-kocaların münasibətləri təkrar düzəlmiş oluyor və daha öncə yapılan işar üzərinə nikahlarını pozmaq için gəlmiş bulunan Molla Zaman evdən qovuluyor.

Tatlı və açıq bir üslubla yazılmış bulunan bu komediyada yalnız beş kişi iştirak etməkdədir.

Ədibin digər dram əsərləri: «Eşq və intiqam», «Çərxi-fələk» və «Laçın yuvası»dır. Bu üç əsərdən şu sonuncusu, yəni «Laçın yuvası» bilxassə qeydəşayandır. Pyesin məalı qısaca şundan ibarətdir: Rusiyada tərbiyə görüb kommunist olmuş azərbaycanlı bir gənc rus istila ordusu ilə birlikdə məmləkətinə döndükdən sonra Qarabağda «Laçın yuvası» ismini daşıyan müstəhkəm bir mevzini zorlamağa məmur ediliyor. Laçın yuvasını müdafiə edən Əmiraslan ağa müstəvli kommunist qüvvətlərinə qarşı dərin xüsumət bəsləyən cəsur, qəhrəman və yılmaz bir savaşçıdır. O, adəta, Qarabağın Cavad xanıdır. Tıpqı Cavad xan gibi sayı və əslihəcə qat-qat üstün düşmənə qarşı bir ovuc qüvvətilə son

damla qanına qədər döyüşərək, şanü-şərəflə şəhid oluyor. Onun hər sözü, hər hərəkəti və hər jesti Azərbaycan övladlarını müstəvliyə qarşı mərhəmətsiz savaşa sürükləyəcək dərəcədə atəşin və müəssirdir. Əmiraslan ağanın qızı da kəndisi qədər qəhrəmandır.

Halbuki Laçın yuvasını zəbtə gələn kommunist gənc silik, sönük və sevimsiz bir tipdir. O, hal və tövründən inanmış kommunistə də pək bənzəmiyor. Çünki əski nişanlısı bulunduğu, fəqət müstəvlilərə qatılmış olduğu için kəndisindən üz çevirmiş Əmiraslan ağanın qızı Pəricahan xanımın qəlbini təkrar əldə edə bilmək məqsədilə kullandığı biricik dəlil şudur: «Yalnız şu yolladır ki, müsəlman məmləkətlər cahan imperializminin əlindən qurtulacaqdırlar».

«Laçın yuvası» 1921-1922 sənələrində Bakı səhnələrində təmsil edilirkən, seyirçilər əsərin baş qəhrəmanı Əmiraslan ağanı həyəcan və hərarətlə alqışlıyorlardı, halbuki kommunist gəncin sovet broşürlərindən əzbərlənmiş basmaqəlib həzəyanlarını dərin bir sükut və əlaqəsizliklə qarşılıyorlardı.

Ədib, bilxassə 1905 ixtilalından sonra bəzi hekayələr yazmışdır. Bu hekayələrdə ixtilalın doğurduğu hadisələr qarşısında zümrələrin ruhi halətləri, düşüncə və əndişələri təsvir olunmaqdadır. Bu hekayələr arasında, bilxassə «Kövkəbi-hürriyyət»i zikr edə biliriz. Süleyman bəyin digər hekayələri şunlardır: «Qaraca qız», «Ümid çırağı», «Zərafət», «Müalicə», «Mən buna yoxam» və «Mister Qreyin köpəyi». Süleyman Sani bunlardan başqa, zamanının «Məktəb» dərgisində çocuqlara məxsus «Qorxulu nağıllar»ını nəşr etmişdir.

Süleyman bəyin dram əsərləri şəkil etibarilə Mirzə Fətəli Axundzadənin və Nəcəf bəy Vəzirlinin pyeslərinə bənzəməkdədir. Halbuki ədib hekayələrində şifahi ədəbiyyat janrından, yəni masal üslubundan istifadə etməkdədir. Bu üslub onun hekayələrinə daha fazla təbiilik və canlılıq verməkdədir.

Süleyman Axundzadə 1939 sənəsində vəfat etmişdir.

Sayın yurddaşlarım!

Buraya qədər gücümüzün və qaynaqlarımızın müsaidə etdiyi nisbətdə sizlərə Azərbaycan dram ədəbiyyatının ilk gəlişmə səhfəsi haqqında bir fikir verməyə çalışdıq. Bundan sonrakı gəlişmə səhfəsində Azərbaycan dram ədəbiyyatı Hüseyn Cavidin və Cəfər Cabbarlının şəxslərində gərək şəkil, gərəksə sujet etibarilə daha qüvvətli həmlələr

yaparaq, milli və sosial mövzuların yanında bütün insanlığı ilgiləndirən fəlsəfi konuları da ələ almaqdadır. Bütün dram ədəbiyyatımızı toplu bir şəkildə mütaliə edəcək olursaq, deyə biliriz ki, bu ədəbiyyat gərək mövzularının çeşidliliyi və zənginliyi etibarilə, gərəksə həqiqi həyat lövhələrini əks etdirməsi baxımından türk və dünya ədəbi xəzinəsində şərəfli bir yer tutmağa namizəddir. Bu ədəbiyyat daha ətraflı və daha dərin tədqiqlərə möhtacdır. Fəqət bu tədqiqlər ədiblərimizin ruhuna uyğun olaraq obyektiv bir şəkildə yapılmaqdadır. Bunu da, şübhəsiz, milliyyətçi ədəbi çevrələr yapa biləcəklərdir.

Kommunislərin Azərbaycan ədəbiyyatı haqqında yapdıqları incələmələr dürüst və obyektiv olmaqdan çox uzaqdır. Onlar daha ziyadə Azərbaycan ədiblərinin xalq arasındakı yüksək otoritələrindən kəndi təhəkküm və istismar politikalarını gerçəkləşdirmə yolunda faydalanmaq istiyorlar. Mirzə Fətəli Axundzadənin fikirlərini nasıl təhrif etdiklərini gördük. Nəcəf bəy Vəzirli, Cəlil Məhəmmədquluzadə və hələ Əbdürrəhim Haqverdili ilə Süleyman Sani haqqında da eyni metodu kullanıyorlar. Onlara baxılırsa, bu ədiblər Azərbaycanda sovet rejiminin, yəni basbayağı rus təhəkküm və istismar idarəsinin qurulmasını xoş görmüş və bu rejimə hizmət etməyə sarılmışlardır. Kommunist tədqiqçilər yuxarıdan bəri zikr etdiyimiz əsərləri sırf kəndi ölçüləri ilə mütaliə ediyorlar. Bu ölçülərin səqətliyi isə hər dəfəsində gözə batmaqdadır. Bir kərə şu nöqtəni bəlirtmək icab edər ki, yuxarıda əsərlərini təhlil etdiyimiz ədiblər gərək yaşları, gərəksə düşünüşləri etibarilə sovet dövrünün məhsulu deyildirlər. Onlar sovet rejiminin mövcudiyyətindən çox daha öncə qələmə sarılmış və ilhamlarını münhəsirən kəndi mühitlərindən, kəndi yurd və xalqlarından almışlardır. Kommunizm isə Azərbaycan mühitinə və ümumiyyətlə, Türk və İslam dünyasına tamamən yabançı və ayqırı bir doktrindir. Bu ədiblər təbiətilə Azərbaycan mühitində mövcud bütün problemləri və o arada sosial mövzuları və dolayısilə ictimai ədalət məsələsini də ələ almışlardır. Fəqət bu kommunizm və hətta sosializm belə deyildir. Çünki kommunizmin ictimai ədalətlə heç bir ilgisi yoxdur. Kommunizm daha ziyadə ictimai ədalətsizlik sistemi, sosial istismarın ən kötü və ən qaba şəklini, yəni məcburi iş üsulunu təmsil edən bir sistemdir.

Yuxarıda adları zikr edilən ədiblər Azərbaycan ümumi əfkarının liberal-demokrat çevrələrinin düşüncələrinə tərcüman olmuşlardır. Bu

böylə olduğu içindir ki, sovet idarəçiləri onların əsərlərindən böyük bir qisminə səhnə proqramlarında yer verməmişlərdir. Hətta bir müddət təmsilinə müsaidə etdikləri əsərləri belə həqiqi mahiyyətinə vüquf kəsb etdikdən sonra səhnədən qaldırmışlardır. Məsələ, sovet idarəsi Cəlil Məhəmmədquluzadənin «Anamın kitabı» pyesini səhnədə təmsil etdirməməkdədir. Çünki Cəlil Məhəmmədquluzadə bu əsərində vətən övladlarını yabançı kitablara və o meyanda Marks və Leninin kitablarına uymayıb, həqiqi vətən kitabına, ananın kitabına uymağa dəvət etməkdədir. Sovet idarəsi Süleyman Saninin «Laçın yuvası»nı əbədi surətdə səhnədən qaldırmışdır. Hətta sovet ədəbiyyat kitablarında belə bu əsərdən sadəcə iki-üç sətir, o da pək mübhəm bir şəkildə bəhs olunmaqdadır. Nədən? Çünki Süleyman Sani Əmiraslan ağanın ağzı ilə gəncliyə vətən eşqi, istiqlal eşqi aşılamaqdadır.

Sovet idarəsinin «Molla Nəsrəddin» dərgisini və Cəlil Məhəmmədquluzadəni nə hala soxduğunu yuxarıda ərz etdik. Nəcəf bəy Vəzirli sovet idarəsində büsbütün susmuşdu. Əbdürrəhim Haqverdilinin sovet dövründə bir kaç pyes və hekayə yazdığı iddia ediliyorsa da, bunların nə mahiyyətdə olduğunu və nə gibi şərtlər altında yazıldığını hənüz bilmiyoruz. Bildiyimiz bir şey varsa, o da sovet rejimində ədiblərin və ədəbiyyatın daima təhdid və basqı altında bulunmalarıdır. Bu basqı və təhdid Cəfər Cabbarlını intihara qədər götürmüşdür.

Qısaca, bu gün sizinlə birlikdə əsərlərini incələdiyimiz böyük Azərbaycan dramaturqları vətən və millətlərinə sımsıkı bağlı, yurd mənfəətlərindən ilham alan və həyatlarını onun hizmətinə həsr etmiş insanlar olmuşlardır. Onların rus istila və təhəkküm əməlləri ilə, yəni kommunizmlə nə yaxından və nə uzaqdan heç bir ilgiləri olmamışdır. Tarix bunu daima böylə qeyd edəcəkdir və Azərbaycan xalqı onların yüksək adlarına daima minnətdar qalacaqdır.

ABBAS SƏHHƏT
(1874-1918)

Məhəmməd Hadidən sonra 20-ci əsr Azərbaycan romantik ədəbiyyatının mühüm simalarından biri də Abbas Səhhətdir. Hadi və Sabir gibi o da Şamaxı şəhərində yetişmişdir. Əsl adı Mirzə Abbasqulu olan Səhhət ruhani bir ailəyə mənsubdu və təhsilini İranda ikmal etmişdi. Sonradan rusca və fransızca öyrənərək, Batı ədəbiyyatına da vüquf kəsb etmişdi. Böyləcə, Səhhət Şərq gibi Batı klassiklərini də iyi biliyordu. Gördüyü iki cəbhəli təhsilin nəticəsi olaraq, həm mütədəyyin, həm də elm və hürriyyət aşiqi bir insandı.

O, hər şeydən öncə, rus idarəsinin himayəsində tutunub hökm sürən feodalitə sisteminə şiddətlə müxalifdi və bu nizamın çarlıqla birlikdə yıxılmağa məhkum bulunduğunu kamilən təqdir ediyordu. Bu iman ona millətinin və yurdunun istiqbalı haqqında güvən və etimad təlqin ediyor və yurddaşlarını aciz və batil etiqadların təsirindən qurtararaq irəli həmlələrə sövq etmək için şu mənalı misraları söylətiyordu:

Bəxt, qismət gibi əlfazı unut,
Say ilə bazuyi-iqbalını tut!
Nərəyə istər isən zorla apar,
Mərkəzindən yeri lazımsa qopar!

Səhhət təbiətdə olduğu gibi, ictimai, iqtisadi və siyasi həyatda da dəxi hadisə və inkişafların təkamül qanununa tabe bulunduğu qənaətində idi:

Deyirdim ki, dünya bir şəxsə bənzər;
Doğar, törər, nümüvv edər, yüksələr.
İnsan kimi hər devrə bir az yaşar,
Sonra yavaş-yavaş ixtiyarlaşar.
Dəyişmək olmasa, tərəqqi olmaz,
Təbiətin bu qanunu pozulmaz.

Abbas Səhhət Azərbaycan ədəbiyyatına Batı ədəbi üsullarının alınmasına və mənimsənməsinə tərəfdardı. O bu xüsusda məsləkdaşlarına önayaq olaraq, Şillerdən, Müssedən və Puşkin, Lermontov,

Nadson gibi rus klassik ədiblərindən bir çox gözəl mənzum tərcümələr yapmışdır. Səhhət tərcümə için intixab etdiyi yabançı əsərlərinin tərbiyəvi cəhətinə çox diqqət edərdi. Rus klassiklərindən yapdığı tərcümələr, bilxassə Kafkasya qövmlərinin rəşadəti ilə ilgili əsərlərdi. Məsəla, Lermontovun «İsmayıl bəy»i gibi.

Səhhət hər halda fransız sentimentalizmə ədəbi məsləyinin təsirilə olacaq ki, şeir sənətində qafadan ziyadə, hisslərə xitab etmə lüzumunu irəli sürməkdədir. Şair bu mövzu ilə ilgili olaraq, Bakıda çıxan «Həyat» qəzetəsində nəşr etdiyi «Tazə şeir nasıl olmalıdır?» başlıqlı bir yazısında şöylə deməkdədir: «Yazı yazdığımız zaman hər şeydən əvvəl hissiyyata tabe olmaq gərək, ta inki kəlamın oxuyanların qəlbində təsiri ola və ya başqasının hissiyyati-qəlbisini oyandıra. Bu surətdə hissiyyatı bilmək lazımdır».

Səhhətin orijinal əsərlərindən ən önəmlisi «Şair və şeir pərisi»dir. Bu əsər şairin sənət fəaliyyətinin son yıllarında qələmə alınmışdır. Əsərin konusu qısaca şundan ibarətdir: Gerçək həyatın üzüntülərindən sıyrılmaq istəyən şair ilham pərisilə birlikdə yaşamağa qərar veriyor. Çünki çarlığın dəstəklədiyi feodal cəmiyyət gözəl sənətlərə, yüksək qabiliyyətlərə, haqq və həqiqət arayan qafalara, söz və fikir hürriyyətinə, millətlərin və fərdlərin irəliləmə və gəlişmələrinə müəzzəm əngəllər çıxarıyor, istedad sahiblərini yıxıb əziyordu:

İstərəm qaçmağı, lakin yük ağır, yol da yoxuş,
Nasıl uçsun qanadı sınmış, əzilmiş bir quş?

İlham pərisi bu xüsusda «sənətdən küsmüş» şairlə eyni fikirdə deyildir, kəndisini israrla insanlığa, həqiqətə və hürriyyətə hizmətə, zülm və əsarət qüvvətlərilə mücadiləyə dəvət ediyor:

Uçma alçaqlara, sən tairi-ülviyyətsən,
Qaç əsarətdən əgər aşiqi-hürriyyətsən.
Sən mükafatını insanlığa xidmətdə ara,
Əbədi zövqü, təsəllini həqiqətdə ara.

Bu öyüdlər qarşısında şair kəndisinə qarşı cahil təbəqənin tövcih etdiyi təlin və təkfir oxlarına göyüs gərməyə, əzm və mətanətlə mücadiləyə davam etməyə qərar veriyor.

Səhhətin «Yad et», «Yuxu» başlıqlarını daşıyan əsərlərində dəxi «Şair və şeir pərisi»ndə olduğu gibi, tərəddüd və üzgün bir ruh haləti sezilməkdə isə də, «Əhmədin qeyrəti» və «Qış» gibi digər əsərlərində həyəcanlı mücadilə əzmi gözə çarpmaqdadır.

Şair «Axşam», «Səhər» və «Bahar gibi» əsərlərində qüvvətli və canlı təbiət təsvirlərini bir sənətkara yakışır sadəlik və vüzuhla təlif edə bilmişdir. «Qış» və «Yay gecəsi»ndə isə həm gözəl təbiət təsvirləri, həm də fəqir xalq təbəqəsinin acıqlı halı böyük bir ustalıqla canlandırılmışdır.

Səhhətin ədəbiyyat sahəsindəki qərbçiliyi şeir sənətimizin üslub, şəkil və möhtəva etibarilə modernləşməsində və zənginləşməsində mühüm bir rol oynamışdır.

Eyni zamanda Səhhət Azərbaycanda çocuq ədəbiyyatının başlıca qurucularından biri olmuşdur. O yalnız şair olmayıb, eyni zamanda tərbiyəçi və öyrətməndir. Ən güc və qarışıq həyat məfhumlarını kiçik yavrulara sadə və qolay ibarələrlə anlada bilmişdir. Səhhətin, bilxassə çocuq ədəbiyyatında kullandığı açıq lisan onun şeirlərindəki milli və məhəlli üslubu və özəllikləri bir qat daha qüvvətləndirmişdir:

Quşlar, quşlar, a quşlar!
Qaranquşlar, a quşlar!...

Səhhət çocuq ədəbiyyatı sahəsində məşhur əfsanə şairi Krılovdan bir çox tərcümələr yapmış olduğu gibi, «Cəhalət səmərəsi» başlığı ilə bir pyes də təlif etmişdir.

Səhhət Azərbaycan romantiklərindən lisan və üslub etibarilə ən sadə və ən açıq yazandır. Onun şeirlərində həzin, səmimi və içli bir ifadə tərzi gözə çarpıyor. Bu üzdəndir ki, ilk şeir kitabına «Sınıq saz» ismini vermişdir. Batı ədəbiyyatından çevirdiyi şeirlər məcmuəsinə isə «Məğrib günəşləri» başlığını qoymuşdur.

Səhhətin kədəri milli, vətəni və ictimai bir kədərdir. O kəndi şəxsi arzuları və ehtirasları ilə deyil, millətinin, xalqının və yurdunun əməlləri və dərdləri ilə yaşamışdır. Bu baxımdan o, yaxın arkadaşı və səmimi dostu bulunan Ələkbər Sabirə çox bənzəməkdədir.

Abbas Səhhətin əsərləri Azərbaycanda bir kaç dəfə basılmışdır. Onun lirik şeirləri bu gün belə təravətini və sənət dəyərini eynən mühafizə etməkdədir.

Yazımızı böyük şairin gözəl bir qəzəli ilə sona erdirmək istəriz:

Yaran, bahar mövsümüdür, aşiq olmalı,
Canan yolunda ölmək üçün şaiq olmalı.

Fəsli bahar, mövsümi-gül, vəqti-badədir,
Məşuqə xassə şux, cavan, türki-sadədir,
Saqinin iltifatı bizimlə ziyadədir,
Varkən bu fürsət əldə dəmi-istifadədir,
Meyxarəlikdə qeyrilərə faiq olmalı!

Yarın çatıb gözəlliyi həddi-kəmalına,
Minbə'd səcdə etməli [taqi]-hilalına,
Pərvanəvar yanmalı şəm'i-cəmalına,
Zahid nə dersə, uymamalı qilü qalına,
Can verməli, mey almalı, lap fasiq olmalı![1]

[1] Abbas Səhhətin «Nəvayi-aşiqanə» şeirindəndir. – *N.C.*

MƏHƏMMƏD HADİ
(1879-1919)

20-ci yüzyıl Azərbaycan ədəbiyyatının ən müqtədir simalarından biri Məhəmməd Hadi Əbdülsəlimzadə Şirvani olmuşdur. Sabir və Abbas Səhhət gibi o da Azərbaycanın əski ticarət mərkəzlərindən bulunub, şairlər ölkəsi deyə tanınan Şamaxı şəhərində doğmuş, orada gənclik çağını keçirərək, orta təhsilini yapmış və ilk şeirlərini yazmışdır.

Məhəmməd Hadi kəndi şeirlərini bir yandan 1905 Rusiya ixtilalının, bir yandan da Türkiyə və İrandakı məşrutiyyət hərəkatlarının təsiri altında qələmə almışdır. Bu şeirlərdə, ümumiyyətlə, vətəni hisslər, milli oyanış və birlik lüzumu, cəhalət və geriliklə mücadilə, Avropa kültürü, haqq və hürriyyət davası, Rusiya istibdad və təhəkküm idarəsinə qarşı mərhəmətsiz savaş fikirləri təlqin olunmaqdadır.

Məhəmməd Hadinin, bilxassə Birinci Dünya savaşında yazdığı şeirlərdə humanizm və sülhçülük fikirləri də irəli sürülməkdədir.

Hadi Bakıda ikən Əli bəy Hüseynzadənin «Füyuzat» dərgisinə şeir yazmış, Balkan hərbləri sırasında bir müddət İstanbulda yaşayaraq «Tanin» qəzetəsində çalışmış və türk basınında bəzi əsərlərini yayınlamışdır. Şeir üslubunda və fikirlərində Namiq Kamal, Tofiq Fikrət və Hamidin bariz təsirləri görülməkdədir. Məhəmməd Hadi vətən sevgisini aşılayan şeirlərində Namiq Kamala, humanizm və sülhsevərlik fikirlərincə Tofiq Fikrətə, fəlsəfi düşüncələri etibarilə də Hamidə yaklaşmaqdadır. Halbuki iç aləmi, şikayətçi ruhu və mühitlə uyuşmazlığı baxımından Hadi daha fazla Fikrətə bənzəməkdədir. Fikrət gibi o da həyatda məsud olamamış, mənən və ruhən tətmin edilməmiş, qırx sənə qədər qısa bir ömür sürmüş və nəhayət, bir mum gibi ani olaraq sönüb-getmişdir.

Məhəmməd Hadinin şeirləri: «Firdovsi-ilhamat» (1908 yıl), «Şükufeyi-hikmət» (1914), «Eşqi-möhtəşəm, yaxud ana qucağı» (1914) və «Əlvahi-intibah, yaxud insanların tarixi faciələri» (1918) başlıqlarını daşıyan dörd kitab halında bir araya gətirilmişdir.

Bunlardan «Əlvahi-intibah» şairin 1915-1916 sənələrində Karpat cəbhəsində bulunuşu sırasında hərbin qanlı səhnələri haqqında edindiyi acıqlı intibaları təsvir etməkdə və ruh etibarilə Fikrətin «Tarixi-qədim»inə bənzəməkdədir.

Hadinin lisanı da Hamid və Fikrətinki qədər ərəbcə və farsca təbir, tərkib və ibarələrlə doludur. Bütün şeirləri əruz vəznilə, həm də əruzun ən təmtəraqlı bəhrlərilə yazılmışdır. Bununla bərabər, təbinin zənginlik və coşqunluğu, fikirlərindəki qüdrət və səlavət, vətənə qarşı dərin eşqi və bağlılığı, milli iman və həyəcanı onun şeirlərinə başqa bir ahəng və cazibə verməkdədir.

Hadinin şeirlərinə hakim bulunan başlıca fikir yurd və millət sevgisidir. Şairə görə, hər fərdin dəyəri və böyüklüyü vətəninə və millətinə qarşı bəslədiyi təmiz, qərəzsiz, səmimi sevgi və gerçək bağlılığı ilə ölçülür. Hadi həyatın hikmət və mənasını vətənə və millətə fərağətlə hizmətdə buluyor. Ona görə, vətən bu dünyanın ən qutsal bir varlığıdır:

Dünyada amalımız fəqət imari-vətəndir,
Vicdanımızın sevdiyi dildari-vətəndir!

Məhəmməd Hadinin qənaətincə, vətənin başına gəlmiş və gələcək hər dürlü fəlakətdən hər yurddaş vicdanən məsul sayılır. Vətənin ən qorxunc düşmənləri: cəhalət, gerilik, zülm və istibdad idarəsidir. İştə, Hadi Azərbaycan xalqını şu qəddar vətən düşmənlərinə qarşı mərhəmətsiz mücadiləyə dəvət etməkdədir. Onun bu dəvətlərində xalqının acıqlı halından dolayı dərin bir təəssür və təəllüm və sonsuz bir hüzn sezilməkdədir. Məsəla, Hadi «Ah, kimsəsiz Vətən!» başlıqlı şeirində qəlbini için-için yaxan acıları şu yanıqlı misraları ilə ifadə etməkdədir:

Ey zindələr məzarı olan aşiyan, ah...
Afaqın üzrə durmada bir pərdeyi-siyah.

Məsdud qaldı bizlərə şəhrahi-intibah,
Qalma zülmdə, açıl, ey sübhi-inşirah.

Ey cənnəti-məarifi viran olan vətən,
Ey zülmətin dəmninə qəltan olan vətən!

***

Fəqət Hadi Azərbaycanın ogünkü acıqlı və geri halına həssas qəlbinin bütün incəliyilə üzülməklə bərabər, kəndi xalqının istedad və qabiliyyətlərini haqqıyla təqdir etdiyi için bu durumun keçici olduğunu

və ən sonunda vətənini parlaq bir istiqbalın və məsud bir həyatın bəklədiyini seziyor və bunu dərin bir imanla ifadə ediyordu. Buna qarşı qoyanların təbiətin təkamül qanunlarına ayqırı hərəkət etdikləri için ergec səhnədən çəkilməyə və yerlərini müsbət və irəli ünsürlərə tərk etməyə məcbur qalacaqlarını kahinanə bir əda və kəsin bir lisanla söyləyib-duruyordu:

Ey fitrətə müariz olan əhli-iştibah,
Siz sönsəniz, sönün, sönəməz nuri-intibah.
Afaqi-kainata doğar şöleyi-sabah,
Gül, ey cəmali-həqq ki, gülsün rüxi-fəlah.

Eyni ümid və inanc Hadinin «Yad et» və «İstiqbalımız parlaqdır» şeirlərində dəxi ifadə olunmuşdur.

Hadinin başlıca qayələrindən biri yurduna və ulusuna ağır əsarət zəncirlərini vuran, gerilik və cəhaləti dəstəkləyən və hər nevi gəlişmə və irəliləmə yollarını qapayan müstəvli rus təhəkküm və istibdad rejiminə qarşı savaşmaqdı. Şair bir sıra «Əhraranə» qəsidələrində «aləmi-istibdad»ın zülm və işkəncələrinə qarşı üsyan ediyor və çarlıq rejiminin müqəddər aqibətini öncədən xəbər veriyordu. Məsəla, «Qarışıq xəyallar» başlıqlı şu parçanı alalım:

Sərbəst bu gün zülmünü icrada məzalim,
Ərbabi-ədalət hanı? – mənfalar içində!
Mən bir diriyim, etdi məni dəfn təsadüf
Zində görünən bir sürü mövtalar içində!
İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində!
İç, iç nə qədər istərisən qanımı, zalim,
Bir gün görərəm qanını səhbalar içində!

Şair eyni aqibəti əsrinin bir başqa müstəbidi Məhəmmədəli şaha da təbşir ediyordu:

Gül, bu gün zülmüylə ənzari-ədalət ağlasın,
Müntəzir ol intiqamın rədvər fərdasına.
Qafil olma, millətin nahəq qanından qıl həzər,
Tacu-təxtın qərq olur axirdə qan dəryasına!

Məhəmməd Hadi Azərbaycan xalqını elm və irfana təşviq və hər nevi geriliklə mücadiləyə ikna məqsədi ilə «Məkatip», «Fünun və maarif», «Qələmə» və «Lövheyi-təsviri-maarif» gibi həkimanə fikirlər, qüvvətli ifadələr, məcaz və istiarələrlə dolu bir sıra nəsihət mahiyyətində şeirlər yazmışdır.

Fəqət yuxarıda da bəlirdildiyi gibi, Məhəmməd Hadinin əsərlərində başlıca mövzunu, əsas fikri vətən və millət sevgisi təşkil etməkdədir. Şair Azərbaycan türklərinə vətən eşqini, həm də heç bir maddi və şəxsi mənfəət güdməyən vətən eşqini aşılamaq için tükənməz təbinin bütün qüdrətini kullanmış və «Nəğmeyi-əhraranə», «Əməli-təraqqi», «Vətən», «Facieyi-həyatımızdan bir pərdə», «Vətənin nidası» və «İranın hürriyyət qəhrəmanlarına» gibi sayısı pək çox şeirlər qələmə almışdır.

Hadi həyatın əsrarəngiz suallarına, əsrinin dağdağalı münaqişə və mücadilə mövzularına cavab arayan mütəfəkkir bir şairdir. Bu gibi üzücü bir çox sorulara müsbət və tətminedici cavablar vermənin güclüyü və bəzən də imkansızlığı qarşısında şair ümidsizliyə və hətta kötümsərliyə qapılıyor və şübhələrini ifadə edərək şöylə diyor:

Cahana gəlmədən məqsəd nədir insana, bilməm ki?!
Həqiqətmi bu xilqət, yoxsa bir əfsanə, bilməm ki?!

Hadinin bu nevi fəlsəfi şeirlərində əsrin ictimai haqsızlıqları dəxi qüvvətli bir lisanla tənqid olunmaqdadır. Məsəla, bir az öncə zikr etdiyimiz şeirdə şöylə bir parçaya rastlamaqdayız:

Cünunpərvərlərin fikri olub alimpəsəndanə,
Neçin mə'yubdur rə'yi-fəlatunanə, bilməm ki?

Olubdur müstəbidan calisi-övrəngi-istiğna,
Niçin zillət nəsib olmuşdur əhraranə, bilməm ki?!

Olub arayişi-bağı-səadət cəhlpərvərlər,
Neçin arif yaşar dünyadə bədbəxtanə, bilməm ki?

İştə, rus təhəkküm rejimində yaşayan bütün hürriyyətsevər Azərbaycan aydınları gibi Hadinin nəsibi də zillət və səfalət olmuşdur. Fəqət o kəndini deyil, millətini və xalqını düşünüyordu:

Hadiya, hüznü-ümumidən çəkmədən dil yarədir,
Yox məsarətdən əsər, möhnətşiar olmuş cahan!

***

Məhəmməd Hadinin fəlsəfi və ictimai düşüncələrinin örnəklərinə, bilxassə «Şükufeyi-hikmət», «İnsanların tarixi faciələri», «Kitabi-həyat», «Mənaziri-təbiət», «Dünya saheyi-qəmdir», «Təraneyi-qəmpərvəranə», «Bükayi-təbiət», «Tövsiyeyi-mürğ» və «Bərabərlik aləmindən məktublar» gibi əsərlərində rastlamaqdayız.

Hadi kəndi millətinin hürriyyət və səadətinə çalışmaqla bərabər, insanlıq fikirlərindən mülhəm olaraq, gərək Azərbaycanda və Kafkasyada, gərəksə bütün dünyada müxtəlif dillər konuşan və çeşidli mənşələrdən gələn ulusların bir arada barış və işbirliyi halında yaşamalarını təmənni etməkdədir:

Könül istər ki, olsun dəhr sülhabad-ünsiyyət,
Məni sövq eyləyən bu fikrə fikri-alişanımdır.

Bəşər ixvani-tinət, həm vətəndir aləmi-imkan,
Bu hissiyyati-qüdsiyyə səfabəxşi-rəvanımdır.

Daha sonra:

Əgər zülmətpəsəndan hərbcuyi-ixtilaf olsa[1],
Nə qəm, əhli-viqafəm, tiği-rəxşanım zəbanımdır[2].

Məhəmməd Hadi 1915 sənəsində Karpat cəbhəsini ziyarətində «Şahnamə şairi-zi-iqtidarını xatırlayaraq» Firdovsinin təsvir etdiyi əski qılınc-qalxan hərbləri ilə modern savaş üsulları arasında şu şəkildə bir müqayisə yapmışdır:

Degildir bu qovğayi-Turan zəmin,
Bu cəngi-fünundur cəhim afərin.

[1] Əgər qara qüvvətlər hərb yoluyla ixtilaf toxumunu saçmaq istəyəcək olurlarsa
[2] Kəskin qılıncım dilimdir.

Degildir bu qovğayi-Əfrasiyab,
Bu bir cəngdir, cəngi-aləmxərab!
Bunu görməmiş Rüstəmi-filtən,
Bu bir cəngdir, meyvəyi-elmu-fən.
Degildir bu qovğayi-divi-səfid,
Topun səsləri der ki: «həl min-məzid?[3]»
Xəyalatdır əjdəri-həft-sər,
Həqiqət olur: tupi-dəhşət-əsər.
Yaxar varını yoxluq icad edər,
Həyatı yıxar, mövtü abad edər.

Bu şeir «Şahnamə» üslubunu və vəznini təqlid etməkdədir.

Hadi Nizami, Cəlaləddin Rumi, Hafiz və Sədi gibi böyük klassik şairlərdən bəzi tərbiyəvi və əxlaqi parçalar tərcümə etmişdir. Karpat cəbhəsində ikən, dostlarından birinə yazdığı məktublarda (1915-1916) «Şərq ilə Qərbin müqayisəsi» başlığı ilə bir kitab qələmə almış olduğunu, bir də ayrıca kəndi sərgüzəştlərini təhrirə başladığını və bu xüsusda 2 mart 1915 tarixli ilk məktubunda: «80-90 səhifə yazmışım, kitabım şayani-mütaliə bir kitab olacaq...» dediyi halda, nədənsə şu iki əsərin ikisi də ortadan kayb olmuşdur.

Məhəmməd Hadi 20-ci əsrdəki romantik ədəbiyyatımızın ən bariz simalarından biridir. Şair kəndisi də bu yüksək mövqeyini təqdirlə:

Mən bir kitab, hər vərəqim min kitabdır!

– demişdi.

Hadi 1919 sənəsində, yəni rus-bolşevik istilasından əvvəl vəfat etdiyi için[4] sovet ədəbiyyatçıları bir müddət kəndi ismini Hüseyn Cavid və Əhməd Cavad gibi Sibiryada imha etdikləri böyük Azərbaycan şairlərinə qarşı mənimsəməyə və kullanmağa yeltənmişlərdi. Fəqət sonradan Məhəmməd Hadinin həqiqi şəxsiyyəti Moskva tərəfindən kəşf edilincə, yalnız kəndisi deyil, onu mənimsəyən kommunist ədəbiyyatçılar belə tələn və təqibə uğradılar.

Bu cəhət bir kərə daha sovet ədəbiyyat görüşlərinin nə qədər indi, qərəzkar və çürük olduğunu Azərbaycan aydınlarına isbat etmiş oldu.

[3] Daha yoxmu?!

[4] Bir sıra mənbələrdə M.Hadinin 1920-ci ilin mayında Gəncədə vəfat etdiyi qeyd olunur. – *N.C.*

Həqiqətdə Hadi də Hüseyn Cavid və Əhməd Cavad qədər türklüyünə və yurduna bağlı həyəcanlı və imanlı bir vətən şairi idi və Azərbaycan ədəbiyyat tarixinə bu sifətlə daxil olmuşdur.

ABDULLA ŞAİQ VƏFAT ETDİ

Moskvada çıxan «Literaturnaya qazeta»nın 30.7.1959 tarixli sayısında verilən bir xəbərə görə, tanınmış Azərbaycan şairi Abdulla Şaiq Talıbzadə 78 yaşında olduğu halda Bakıda vəfat etmişdir.

Abdulla Şaiq Azərbaycanın ən əski öyrətmənlərindən olub, çarlıq dövründə və müstəqil Azərbaycan hökuməti zamanında Bakı lisələrində türk ədəbiyyatı dərsləri oxutmuşdur. Eyni zamanda təbiətən şair olduğundan milli mənliyimizi tanıdan şeirlər yazardı. Bilxassə mənzum çocuq hekayələri yazmaqla ün salan mərhum, Azərbaycan aydın çevrələrində çalışqanlığı və dürüst əxlaqı ilə çox sevilməkdə idi. Xarakterinin uysallığı etibarilə hər nevi siyasi həyatdan uzaq duran Şaiq məfkurə baxımından tamamən milliyyətçi, türkçü, hətta Turançı bir münəvvərdi. Sovet hökumətinin ilk sənələrində qələmə almış bulunduğu mütəəddid dərs kitablarından belə, bu türkçülüyü və turançılığı gözə çarpmaqdadır. Ayrıca, bir çox şeirlərində Abdulla Şaiqin fikri siması üzərində mərhum ağabəyisi Axund Yusif (Yusif Ziya) Talıbzadənin bu məfkurəyə bağlılığını sərahətən isbat etmişdir. Axund Yusifin türkçülüyündə və turançılığında isə kimsənin şübhəsi olmasa gərəkdir. Xarakter etibarilə Şaiqin tamamən xilafına olaraq fəal bir siyasət adamı və usanmaz bir mücadiləçi bulunan Axund Yusif çarlıq dövründə bir müddət Bakı Real Lisəsində türkcə və şəriət öyrətmənliyini yapdıqdan sonra Balkan hərblərində Türkiyəyə gedərək orduya könüllü qeyd olmuş və rəşadəti sayəsində çabuq irəliləyərək, kəndi ifadəsinə görə, minbaşı rütbəsinə qədər yüksəlmişdir. İstiqlal dövrümüzdə Axund Yusif Azərbaycana dönərək könüllü Yardım Alayının komutasını kəndi üzərinə almışdı. Axund Yusif qayət hərəkətli və fəal bir mücadilə adamı idi. Hətta denilə bilir ki, qabına sığmayan xarakterdə bir insandı. Eyni zamanda Müsavat partisinin ən əski əzalarındandı. Mərhum Ənvər Paşa Türküstanda müstəvli sovet rejiminə qarşı milli ayaqlanmaya öndərlik edərkən Axund Yusif də onun yanıbaşında idi. Ənvər Paşa şəhid düşdükdən sonra basmaçı qüvvətlərlə birlikdə ricət etməyə məcbur qalan Axund Yusif Ceyhun nəhrini keçərkən boğulmuşdu.

Şaiqi Şaiq yapan Axund Yusifdir. Ağabəyisinə qarşı dərin sayğısı bulanan Şaiq məfkurə xəzinəsini ondan irs almışdı. İki qardaş bir tək

ailə gibi eyni evdə oturuyorlardı. Və Axund Yusif daima səfərdə bulunduğu için qələbəlik ailəsinə hər zaman Şaiq baxardı.

Gerçək durum böylə ikən, bakınız, sovet «Literaturnaya qazeta»sı bərmutad həqiqətləri tamamən təhrif edərək, şairin ölüm xəbəri ilə ilgili olaraq nə yazıyor. Qəzetə eyni sayısında şöylə deməkdədir: «Abdulla Şaiq Azərbaycanda Sovet idarəsinin qurulmasını sevinclə qarşılayan və kəndi ədəbi yaradıcılıq qüdrətini və ictimai çalışmalarını yeni həyat tərzinin müzəffər olmasına, mücadiləçi və xəllaq sovet vətəndaşının yetişdirilməsinə həsr etmiş bulunan 20-ci əsr başlanğıcının məhsulu şanlı demokrat ədiblər silsiləsinə mənsub bulunmaqda idi...»

Hər halda qəzetədə bu sətirləri qələmə alan Sovetlər Birliyi Ədəbiyyat Cəmiyyəti İdarə Heyəti və Azərbaycan Ədiblər Birliyi Başqanlıq Divanı «20-ci əsr başlanğıcının məhsulu bulunan şanlı demokrat ədiblər silsiləsindən» Hüseyn Cavid və Əhməd Cavad gibi müstəvli sovet rejiminin sonradan imha etdirdiyi Azərbaycan qələm ərbabını qəsd etməkdədir. Mərhum Abdulla Şaiq onlar qədər fəal mücadilə adamı deyildi. Və bunun içindir ki, istər-istəməz mövcud şərtlərə bir parça intibaq edərək 78 yaşına qədər yaşaya bilmiş və əcəli ilə ölmüşdür. Əks təqdirdə, o da Hüseyn Cavid, Əhməd Cavad[1] və digər milliyyətçi ədiblərimiz gibi Sibiryanın buzlu çöllərində can vermiş olacaqdı.

Şaiq Şekspirin «Maqbet» trajedisini və Nizaminin «İskəndərnamə»sini Azərbaycan türkcəsinə çevirmişdir. Ayrıca rus klassikləri: Krılov, Puşkin, Nekrasov və Qorkidən bir çox tərcümələr yapmışdır.

Şaiqin, şübhəsiz, Azərbaycan ədəbiyyat tarixində mühüm bir yeri vardır. Kəndisi dəyişən şərtlər daxilində daima vətəninə və millətinə xeyirli hizmətlərdə bulunmağa çalışmış və bu uğurda əlindən gələni yapmışdır. Ədəbiyyat tariximiz onu bu surətdə anacaqdır.

Cənabi Haqdan kəndisinə rəhmətlər diləriz.

[1] Müəllif burada qeyri-dəqiqliyə yol vermişdir. Hüseyn Caviddən fərqli olaraq, Əhməd Cavad Sibiryaya sürülməmişdir. O, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının hökmü ilə 1937-ci il oktyabrın 12-dən 13-ə keçən gecə Bakıda güllələnmişdir.– *N.C.*

AZƏRBAYCAN DRAM ƏDİBLƏRİNDƏN CƏFƏR CABBARLI

Tanınmış Azərbaycan dram ədibi Cəfər Cabbarlı 1899 sənəsində Bakı vilayətinə tabe Xızı köyündə doğmuşdur. Daha kiçik yaşlarında annəsi və ağabəyiləri ilə bərabər Bakıya gəlmiş və orada təhsilinə başlamışdır. Hənüz altı sinifli şəhər ilk okulunda öyrənci ikən ədəbiyyata maraq sarmış və ilk şeirlərini yazmışdır. Cəfərin ilk şeir dənəmələri 1915 tarixinə təsadüf edər. Bu şeirlər böyük mizah şairi Sabiri təqlidən Azərbaycanın sosial həyatındakı gerilikləri və axsaqlıqları ifşa və tənqid edən birər həcv mahiyyətindəki dənəmələrdi.

O dövrdə Tiflisdə çıxan məşhur «Molla Nəsrəddin» mizah dərgisini örnək alaraq, Bakıda «Babayi-Əmir», «Tuti», «Zənbur» və sairə gibi bir sıra məcmuələr nəşr olunmaqdaydı. «Babayi-Əmir» tanınmış Azərbaycan şairi Əlabbas Müznib, «Tuti» Cəfər Bünyadzadə, «Zənbur» isə Doktor Əbdülxaliq Axundov tərəflərindən çıxarılmaqdaydı. İştə, Cəfər Cabbarlı kəndi mizah şeirlərini, bilxassə «Babayi-Əmir» və «Tuti» gibi dərgilər vasitəsilə yayınlamaqdaydı. Yalnız Cəfər bu gibi şeirlərində «Gavur Əyyar» və sairə gibi bir sıra müstəar isimlər kullanırdı.

Ozamankı Azərbaycan gəncliyi Cəfəri, bilxassə Ergenekon bayramı münasibətilə Bakıda təşkil olunan gizli toplantılar vasitəsilə tanımış bulunuyordu. Cəfər bu toplantılarda oxuduğu gözəl və həyəcanlı milli şeirlərilə gəncliyin dərin heyranlığını qazanmışdı. Ümumiyyətlə, Cəfər gərək çarlıq, gərəksə 1917-1918 inqilab və bilxassə istiqlal və sonra da sovet istila dövrlərində Azərbaycan milli gəncliyinin kültürəl və gizli, ya açıq siyasi çalışmalarına fəal surətdə qatılmış və kəndi şeirləri və yazıları ilə bu hərəkətləri qüvvətlə dəstəkləmişdir.

Cəfər Cabbarlı dram ədəbiyyatına 1915 yılında yazdığı «Vəfalı Səriyyə və ya göz yaş[lar]ı içində gülüş» pyesi ilə başlamışdır. Bu pyesdə qadınların Azərbaycan ictimai həyatında məruz qaldıqları zülm və haqsızlıqlardan biri ələ alınaraq, Səriyyə ismindəki gənc bir qızın arzusu xilafına olaraq, kəndi annəsi tərəfindən para müqabilində zəngin birisilə evləndirilmək istənməsi və bu üzdən çəkdiyi iztirablar təsvir olunmaqdadır.

Bu pyesi təqibən, Cəfər Cabbarlı 1916 sənəsində «Aslan və Fərhad» hekayəsini yazmışdır. Bu hekayədə Fərhadın kəndi vəfalı qardaşı Aslanın min bir məşəqqət və zəhmətlə qazandığı paralar sayəsində təhsilini yapdıqdan sonra vəlinemətinə qarşı nankorca və hətta düşməncə davranaraq, onun və öz qız qardaşının ölümlərinə səbəbiyyət vermiş olması gibi həzin bir ailə faciəsi anladılmaqdadır.

Yenə Cəfərin 1917 sənəsində yazdığı «Solğun çiçəklər» pyesində Sara ismini daşıyan gənc bir qız kəndi əqrəbalarının çevirdikləri dəsisələr nəticəsində sevgilisindən ayrıldıqdan sonra ruhi əzab və iztirablar üzündən vərəm xəstəliyinə yaxalanıyor.

Təbiətilə Cəfər Cabbarlı ictimai mühitdə qarşılaşdığı bu gibi haqsızlıqları və əxlaqsızlıqları anladırkən, onların əsl səbəblərini də araşdırıyor və bunları xalqın cəhalətində, kötü tərbiyədə, insan nəfsində və hətta xilqətdə və təbiətdə buluyor.

Cəfərin 1916-1918 sənələrində yazmış olacağı sanılan «Nəsrəddin şah» tarixi pyesində İran feodalitə sisteminin xalqa qarşı işlədiyi haqsızlıqlar təsvir olumaqdadır. Pyesin başlıca qəhrəmanlarından Mirzə Rza xalqın iyiliyini və mədəniyyətə qovuşmasını istəyən və sağlayan tərəqqipərvər bir çiftlik sahibidir; çiftçilərlə qardaşca yaşar və çalışır. Yegəni Fərhad Avropada təhsilini yapmış idealist bir gəncdir. Yurdunu sağlam bir nizam sisiteminə və dəmiryolu şəbəkəsinə qovuşdurmaq istiyor.

Fəqət Rəhim xan gibi geri və mürtəce ünsürlərin və şah sarayının mümaniəti nəticəsində Mirzə Rza və Fərhadın girişdikləri bütün təşəbbüslər akim qalıyor. Rəhim xan daha irəli gedərək, Fərhadın ölümünə səbəb oluyor və Mirzə Rzanın qızını qaçıraraq Saraya təslim ediyor. Bu fəci durum qarşısında intiqam hissləri coşan Mirzə Rza Saraya qarşı tədhiş fəaliyyətinə keçiyor. Məmləkətdə fədailər hərəkatı gəlişiyor. Şahın qətlini Mirzə Rza bizzat kəndi üzərinə alıyor. Fədailərin rəhbəri Cəmaləddin onu şu ağır vəzifəsində bu sözlərilə uğurluyor: «Sənin silahından atılacaq isti qurşunun hərarəti məzlum millətin göz yaşını qurudacaq!»

Pyesin son qismində Mirzə Rza gərək Nəsrəddin şahı, gərəksə Rəhim xanı öldürərək hüdud dışına qaçıyor.

***

1917 sənəsi şubat ixtilalından sonra Cəfərin türklük eşqi və milli həyəcanı bütün qüvvətilə alovlanaraq «Ədirnə fəthi» və «Trablis müharibəsi» gibi qəhrəmanlıq dastanlarının yaradılmasını intac etdi. Üfüqdə Azərbaycan istiqlal yıldızı, tariximizin ən şanlı və parlaq bir dövrü bəlirməkdə idi. Bu dövr qısa sürsə belə, Azərbaycan türkünün qatı yolunu və sönməz idealını təşkil edəcəkdi. Bu idealın nihai təhəqqüqü böyük fədakarlıqlara və sonsuz qəhrəmanlıqlara bağlı bulunuyordu. Əcəba, bu gibi qəhrəmanlıq və rəşadət örnəklərini Azərbaycan gəncliyi nerədən ala bilirdi?! Əlbəttə, yenə öz türk tarixindən, həm də türkün yalnız uzaq tarixindən deyil, yaxın və hətta hərgünkü mücadiləsindən!

İştə, Cəfəri bu iki böyük və həyəcanlı dramını yazmağa sövq edən amil bu olmuşdur. Cəfərin həqiqi milli idealı və ən səmimi düşüncələri bu iki əsərdə ortaya qonulmuşdur. Çünki bu əsərlərin yazıldığı tarixdən bir-iki sənə sonra Azərbaycan üzərinə çökəcək olan rus istila kabusu bütün digər ədiblər gibi Cabbarlının qələmini və fikirlərini də sımsıkı zəncirləyərək və onu simvolik bir lisanla konuşmağa və yazmağa məcbur qılaraq həqiqi düşüncələrini pərdələməyə sövq edəcəkdi.

Hər iki dramda türkün eşsiz cəladət və cəsarəti, yüksək milli vəzifə eşqi və milli ihanətə qarşı dərin nifrəti təbarüz etdirilməkdədir. Əsərlərinin milli qəhrəman timsalları Ənvər Paşa və Ramizdir. Mənfur xain tipi isə Harisdir. Sovet ədəbiyyat kitablarında Cəfərdən bəhs edilərkən bu iki əsərə əsla təmas olunmaz! Səbəbi aşkar deyilmi?!

Cəfərin «Qız qalası» mənzuməsi müstəqil Azərbaycan dövründə yazılmışdır. Bu mənzumənin konusu Bakının xanlıq dövrünə aid qədim tarixi əsərlərindən Qız qalası ilə ilgili fəci eşq dastanını təsvir etməkdədir. Başdan sonuna qədər milli ruhda və bağımsızlıq eşqiylə yazılan bu əsərin ilk mətni Azərbaycan istiqlalının birinci yıldönümü için hazırlanan «İstiqlal» dərgisində yayınlanacaqdı. Fəqət 1920 sənəsi 27 nisanında vüqu bulan sovet-rus istilası nəticəsində dərgi çıxamadı. Cəfərin 1923 sənəsi 15 haziranında sovet Çekası tərəfindən yapılan ilk tövqifində bir çox əlyazılarıyla birlikdə «Qız qalası» müsvəddəsi də ələ keçmiş və kayb olmuşdu.

Şair 1923 sənəsi 5 ekimində təkrar tövqif edildikdən sonra münfərid hücrəsində təkbaşına otururkən əlinə keçirdiyi ufacıq bir qurşun

qələmiylə mənzuməni yenidən irşad etməyə başlamışdı. Hər halda bu gün bale halına qonmuş olan «Qız qalası»nın mətni əskisindən fərqli olsa gərəkdir.

Cəfər Cabbarlının sovet istila dövründə qələmə aldığı ilk dram əsərləri «Aydın» və «Oqtay Eloğlu»dur. Birincisində işçilərin kəndi sosial haqları uğrundakı mücadiləsi, ikincisində isə Azərbaycan aktörlərinin çətin sənət həyatı təsvir olunmaqdadır. Hər iki dramda hakim bulunan zehniyyət, cəmiyyətdə ictimai ədalətin gerçəkləşməsi lüzumu və fərdi istedad və qabiliyyətlərin gəlişməsi yolunda mövcud süni və qeyri-qanuni hər nevi əngəllərin ortadan qaldırılması davasıdır.

Millətləri və fərdləri sımsıkı əsarət zəncirinə vurmaq surətilə dünyaya səadət gətirəcəyini iddia və vəd edən sovet idarəsinə Cəfər Aydının ağzı ilə şu mənalı cavabı verməkdədir: «Yer üzündə hakim, məhkum, zalım, məzlum kəlmələri durduqca, bəşəriyyət bir gülər üz görə bilməz!».

Cəfərin simvolizmi, bilxassə «Od gəlini» gibi ən qüvvətli dramlarından birində bütün qüdrətilə meydana qonmaqdadır. «Od gəlini»nin qayəsi Azərbaycan gəncliyində istiqlal eşqini, yabançı təhəkkümə qarşı nifrəti əzəmi həddinə qədər alovlandırmaqdır. Əsərin həqiqi hədəfi sovet təhəkkümü və rus boyunduruğudur. Onu seyr edən xalq və Azərbaycan aydınları dərhal bu nəticəni çıxarırlar. Fəqət Cəfər əsl qayəsini pərdələmək için Azərbaycan tarixindən ərəb istilasına qarşı milli mücadiləni mövzu olaraq almışdır.

Dramın baş qəhrəmanı Elxan, bizzat Cəfər Cabbarlı ilə bərabər və onun öndərliyi altında sovet-rus təhəkkümünə qarşı və Azərbaycan istiqlalı uğrunda sənələrcə döyüşərək qurşuna dizilmiş Dadaş Həsənzadə, Möhsün İbrahimoğlu, Salman Rəhimli, Ağa Kərim Əlizadə gibi yüzlərcə və minlərcə idealist və fədakar Azərbaycan gənclərinin tarixdən alınmış şanlı və parlaq bir simvoludur. Hətta əgər istərsəniz, Elxan bizzat Cəfərdir. Elxan əsərdə çəlik iradəli, atəşin imanlı idealist bir vətənpərvər və düşmənlə heç bir bazarlığa girməyən bir istiqlal mücahidi olaraq təsvir edilmişdir. O, Azərbaycanın hürriyyət və istiqlalı uğrunda son nəfəsinə qədər savaşaraq, həm kəndi canını və həm də taparcasına sevdiyi Solmazı və biricik qardaşı Aqşini fəda ediyor. Məğrur addım-

larla dar ağacına doğru yürüyüşü, düşmən ideolojisini nifrətlə rədd edişi belə başlı-başına mücadiləyə dəvət və savaşa təşviq mənasını daşımaqdadır. Tıpqı, bugünkü Azərbaycan mücahidlərinin yapdıqları gibi!

Elxan ərəb istilaçıları[nı] Azərbaycanın istiqlalını çeynəməklə, mədəniyyətini ortadan qaldırmaqla və zənginliklərini çalıb götürməklə ittiham ediyor. Sovetlər də eyni şeyi yapmıyorlarmı?! Otuz iki sənədən bəri Azərbaycanın petrolunu və təkmil sərvətlərini çalıb Rusiyaya götürmədilərmi! Türk alfabesini rus alfabesinə çevirmədilərmi?! Azərbaycanın hürriyyətini və istiqlalını 27 nisan kabusu ilə ortadan qaldırmadılarmı?!

Yenə Cəfərin sovet dövründə yazılmış bulunan «1905-ci yılda» əsərində birinci rus ixtilalının Bakıdakı əksləri və bu hərəkatda iştirak edən parti və sosial zümrələrin rolu və taktiyi təsvir ediliyorsa da, əsas mövzusu türk-erməni qanlı savaşlarının təqbihi və əsir Kafkasya millətlərinin müstəvli və saldırqan Rusiyaya qarşı təsanüdü təşkil etməkdədir. Əsərdə işarət edildiyi vəchilə, Rusiya çarlıq idarəsinin Bakıdakı səlahiyyətli müməssili 1905-ci yıl ixtilal hərəkatını akim bırakmaq məqsədiylə azərbaycanlılarla ermənilər arasında qanlı çarpışmalar çıxarıyor. Bununla müəllif Kafkasya millətləri arasındakı iç savaşların hürriyyət və qurtuluş hərəkatına qarşı böyük bir darbə təşkil etiyini və bunun yalnız Rusiyaya faydalı ola biləcəyini bəlirtmək istiyor.

Bu münasibətlə Cəfərin əlavə edəmədiyi bəzi xüsusları biz ekləyə biliriz: Türk-erməni ixtilaflarından yalnız çarlıq Rusiyası deyil, işinə gəlincə Qızıl Rusiya dəxi bol-bol və məharətlə faydalanmışdır! Məsələ, 1918 sənəsi martında Bakıdakı Milli Azərbaycan tərəfdarlarına qarşı çox zəif bir durumda bulunan bolşevik ələbaşıları Şaumyan və Karqanov Türkiyə savaş cəbhəsindən qaçıb gələn erməni silahlı birliklərilə əl-ələ verərək və Xəzər dənizindəki rus hərb gəmilərini də atəş xəttinə soxaraq, on minlərcə türk əhalini, çoluq-çocuqlar, qadınlar və ixtiyarlar da daxil olmaq üzrə, tam üç gün üç gecə ev-ev dolaşaraq fəci surətdə kəsmişlərdi. 1920 sənəsi 27 nisanında dəxi bolşeviklər türk-erməni savaşlarından faydalanaraq Azərbaycanı istila etmişlərdi.

Cabbarlının yenə sovet dövründə yazdığı «Gülzar», «Dilbər», «Gülər» və «Firuzə» hekayələrində, «Sevil» və «Almaz» dramlarında əsas etibarilə qadınların hürriyyət haqları mövzusu ələ alınmaqdadır.

«Yaşar» dramında isə sovet dövründəki Azərbaycan köyünün durumu təsvir olunmaqdadır.

***

Cəfər hürriyyət və istiqlal dövrünün yetişdirdiyi bir şair və dramaturqdur. Ən yüksək idealı Azərbaycan istiqlalı və sonra da Türk birliyidir. Bir xalq çocuğu, köylü övladı olduğu için geniş xalq kütlələrinin həyat şərtləri ilə çox yaxından ilgilənir və onların bir an öncə maddi və mənəvi rifah və səadətə erişmələri yolunda lisanı və qələmiylə durmadan savaşırdı.

Cəfər hər nevi milli təhəkkümə və bilxassə Rusiyanın Kafkasya, Türküstan, Krım və sair türk elləri üzərindəki hakimiyyətinə şiddətlə və son nəfəsinə qədər müxalifdi. Şair çarlıq Rusiyası və sovet Rusiyası gibi mənasız və məntiqsiz bir təfriq yapmıyordu. O, hər ikisinə – Rusiyanın və hər nevi imperialist iddia və təmayüllərinə kəsin surətdə müarizdi. Cəfərin Rusiyaya qarşı mücadiləsi sadəcə qələm və ədəbiyyat sahəsinə münhəsir qalmamış, sovet istilasını mütəaqib Azərbaycan qurtuluş hərəkatını təşkilatlandıranların, sövq və idarə edənlərin ən başda gələnlərindən biri də o olmuşdur. Şairin bu hümmalı siyasi fəaliyyəti 27 nisan 1920-dən 15 haziran 1923 tarixinə, yəni Bakı Çekası tərəfindən tövqifinə qədər fasiləsiz davam etmişdir. İlk tövqifi tam iki ay sürmüş və bu müddət zərfində günlərcə sulu bodruma və həftələrcə münfərid hücrəyə qomaq surətilə dürlü əzab və işgəncələrə məruz bırakılmışdır.

İkinci tövqifi 5 ekim 1923 tarixində vüqu bulmuş və yenə aylarca eyni işgəncələr və həqarətlər içində davam etmişdir.

Cəfər üzərində həbsdə iki nevi təzyiq yapılıyordu: Birincisi siyasi fəaliyyətindən dolayı, ikincisi isə kəndisini fikirlərindən vaz keçirərək sovet ədibi yapmaq qayəsiylə! Bu ikinci təzyiq Cəfərin son gününə qədər davam etmiş və nəhayət, ölümü ilə nəticələnmişdir. Təzyiq sadəcə Çeka və GPU tərəfindən deyil, eyni zamanda, o dövrün sovet maarif komissarı Mustafa Quliyev vasitəsilə dəxi icra olunmaqdaydı. Məqsəd Azərbaycanda sovet kommunist rejiminə uyacaq və ona hizmət edəcək qüvvətli və istedadlı bir ədib qazanmaqdı. Çünki sovet idarəsi dünya çapında və yüksək dəyərdə bir tək ədib yetişdirəməmişdir. Bu qədər

öyündüyü Maksim Qorki belə çarlıq dövrünün məhsuludur. Sovet dövrünün yetişdirdiyi ufaq-təfək və əmrə müti «ədiblər» isə Cəfərin yanında pək sönük qalırlar.

Bolşevik idarəsi istedad sahibi ədiblər üzərində yapdığı maddi və mənəvi basqıda daha irəli gedərək doğrudan-doğruya sovet həyatından və kommunist ideolojisindən alınan mövzuları kəndilərinə birər əsər konusu olaraq sifariş və təhmil ediyordu. Bu metodu GPU və Maarif Komisarlığı kanalları ilə Cəfər üzərində dəxi tətbiq etmək istəmişlər. Sənətin sərbəstisinə və hər dürlü qeydü-quyutdan azadə olması lüzumuna dərin bir etiqad və iman bəsləyən Cəfər için bu bolşevik küstahlığı əzab və işgəncələrin ən qorxuncunu təşkil ediyordu. Buna sənəti kirlətməkdən və öldürməkdən başqa bir ad veriləməzdi. Nəhayət, böyük ədib bu həqarətə dayanamayaraq, 1934 sənəsində Moskvada toplanan ədəbiyyatçılar konqresində sovet zimamdarlarının üzünə qarşı: «Sifarişlə sənət olmaz!» deyə hayqırmışdır. Cəfərin bu sözləri sonradan dünya mətbuatına əks etmiş və kəndisinə qarşı sovet təzyiqini bir qat daha artırmışdır.

Cəfərin ölümü hadisəsini yalnız gələcək nəsillər bütün təfərrüatı ilə təhlil və təsbit edəcəklərdir. Sovetlərin bu xüsusda yazdıqları və söylədikləri yalan və iftiradan və riyakarlıqdan başqa bir şey deyildir.

Hadisəyə yaxından vaqif olanlara görə, Cəfər Moskva ədəbi konqresindən sonra çox şiddətli basqı və işgəncələrə məruz qalmış və bunlara dayanamayaraq kəndi odasına çəkilmiş və intihar etmişdir. Ölümündən sonra tərəfsiz həkimlərin otopsidə hazır bulunmalarına müsaidə edilməmiş, acı və fəci həqiqət bəylik bir təbliğ və möhtəşəm bir cənazə töreni ilə qapadılmaq istənmişdir. Fəqət Azərbaycan xalqı və aydınları bir an içində bütün iş və güclərini bırakaraq, Bakıda eşinə rastlanmayan və heç bir uluya nəsib olmayan müəzzəm bir izdiham halında Cəfəri əbədi istirahətgahına qədər əllər üzərində və göz yaşları ilə təşyi etmiş və bu tövrü ilə böyük ədibinə qarşı dərin və sönməz sevgisini və ona həyatı və cahanı zəhər edənlərə qarşı hiddət və nifrətini səssiz və sədasız ifadə etmişdir.

35 yaşında solan düha sahibi bir şair! Cəfər Azərbaycan dram ədəbiyyatının tacı idi və bu günə qədər erişdiyi ən yüksək zirvəni təşkil ediyordu. Əli-qolu sovet zəncirləri ilə sımsıkı bağlı bir düha!

Xariqələr yaradan bu gənc düha hürr və sərbəst bir mühitdə yaşamış olsaydı, nələr yaradacaqdı və ədəbiyyatımıza daha necə hizmətlər yapacaqdı!..

Cəfər realist bir ədibdir. Saysız hekayələrinin və məşhur dramlarının həmən bütün mövzuları və qəhrəmanları həyatdan alınmışdır. O, mövzularını və qəhrəmanlarını seçməkdə və yaşadıqları mühiti gərəkən bütün əşkal və təfərrüatı ilə qavrayıb canlandırmaqda böyük bir məharət göstərmişdir. Xalq təbəqəsi içərisində və köy mühitində doğduğu və yetişdiyi için Azərbaycan xalq kütlələrinin ruhiyyatını pək biliyordu. Onun əsərlərində Azərbaycan köylüsü, işçisi, aydını, sənət ərbabı, fəqiri və zəngini bütün müsbət və mənfi vəsfləri ilə canlandırılmışdır.

Cəfərin sənəti həyata və cəmiyyətə hizmət etmişdir. Hər hekayəsində və dramında ictimai haqsızlıq və fənalıqların bir qismi tənqid edilməkdə və daha iyi bir cəmiyyətin qurulması lüzumu üzərində durulmaqdadır. Lisanı, ümumiyyətlə, açıq, zəngin, atəşli və müəssirdir. Təşbeh və istiarələri qayət təbii surətdə bir-birini təqib etməkdədir.

Fəqət sovet mühitinin icabı olaraq Cəfər gərək mövzularında, gərəksə ifadə və təbirlərində sıx-sıx simvolizmə baş vurmağa məcbur qalıyor. Cəfərin müşahidə və təsvir qabiliyyəti qayət genişdir, qəhrəmanlarının xarakter və düşünüş tərzlərindəki ən incə və gizli nöqtələr belə diqqət nəzərindən qaçmaz.

Cəfər eyni zamanda Şekspirin əsərlərindən bəzilərini türkcəyə tərcümə etmişdir. Böyləcə, 35 sənə qədər qısa, fəqət verimli ömrünü tamamən kəndi yurduna və millətinə həsr edən Cəfər, gərək Azərbaycanda, gərəksə əsərlərinin böyük bir qisminin oxunmaqda və oynanmaqda olduğu rus məhkumu bütün türk ellərində əbədi bir nam və şöhrət qazanmış və kəndi adını türk ədəbiyyatının altun səhifələrinə bir daha silinməyəcək şəkildə qeyd etmişdir.

«QIZ QALASI» HAQQINDA BİR KAÇ SÖZ

Dərgimizin bu sayısından etibarən Azərbaycanın böyük dramaturqu mərhum Cəfər Cabbarlı arkadaşımızın «Qız qalası» mənzuməsini təfriqə etməyə başlıyoruz. Bu mənzumənin uzun və həzin bir tarixi vardır. Böyük şairimiz bu mənzuməsini müstəqil Azərbaycanın qüdrətli və ehtişamlı günlərindən ilham alaraq, dərin bir şövq və həyəcanla qələmə almışdı. Əsər Azərbaycan istiqlalının birinci yıl dönümünə təhsis edilmişdi. Bu münasibətlə, mənzumə Azərbaycan dövlət mətbəəsində mərhum Məhəmməd Əmin Rəsulzadənin idarəsi altında 1919 sənəsi 28 mayısından sonra basılmaqda olan «İstiqlal» dərgisinin ən mütəna bir yerində dərc ediləcəkdi. Dəyərli yazarlarımızın iştirakıyla bir dəfəyə məxsus olaraq çıxarılması mükərrər bulunan bu dərgi, həmçinin genişliyindən dolayı bir xeyli gecikmiş oldu və 27 nisan 1920-də Azərbaycanı istila edən rus-bolşevik sürüləri mətbəəyə əl qoyunca dərginin tamamlanması işi də akim qaldı. O zamana qədər «İstiqlal» dərgisinin ancaq bir qismi basılmışdı. Cəfər Cabbarlının «Qız qalası»na hənüz basqı sırası gəlməmişdi. Gizli Müsavat təşkilatı bu yarı basılmış formalardan bir kaç dənəsini qaçırmağa müvəffəq oldu və onlardan bir dənəsini Əmin bəyə göndərdi.

Mənzumənin əski yazı ilə yazılmış müsvəddəsi Cəfər Cabbarlıda duruyordu. 1923 sənəsi 15 haziranında gizli Müsavat təşkilatının genəl sekreteri sifətiylə Mərkəzi Ümumiyə mənsub digər arkadaşlarla birlikdə sovet siyasi polisi Çeka tərəfindən həbs edilirkən, Cəfər Cabbarlının zəbt olunan xüsusi evraqı arasında iştə, «Qız qalası»nın bu müsvəddəsi də bulunmaqda idi. İki ay sonra topdan sərbəst buraxılınca, kəndisi ilə bərabər özəl evraqımızı almaq üzrə, Çeka idarəsinə getmişdik. Sonradan Stalin dövründə təsviyəyə uğrayaraq qurşuna dizilən ən qəddar azərbaycanlı çekistlərdən Məhəmməd Sadıq Əfəndiyevin (Şəkinski) soruşdurma odasının bir köşəsinə Cəfər Cabbarlının şeirləri, pyesləri və sair əlyazıları yığın halında atılmışdı. Gənc şair batmış sərvətlərini araşdırır bir fəlakət qurbanı gibi bu evraq arasında saatlarca uğraşdı, onları mümkün mərtəbə intizama qoydu və bula bildiklərini toplayaraq, məyus və mütəəssir bir sima ilə evinə döndü. Əlyazılarının mühüm bir qismi qeyb olmuşdu. Bulunmasına imkan olmadı.

Busəfərki «hürriyyətimiz» tam bir buçuq ay sürdü. 5 ekim 1923-də gizli «Müsavat» mətbəəsinin basılması üzərinə daha böyük bir qrupla birlikdə yenidən tövqif edildik. Cəfər Cabbarlı ikinci dəfə olaraq günlərcə sulu bodrumlarda qaldı, çox əzab və iztirab çəkdi. Nəhayət, kəndisini bir lütf olaraq münfərid hücrəyə çıxardılar. Hücrələrimiz bir-birinə qonşu idi. Barmaqlıq arasından konuşduqlarımızı duyuyorduq. Bir müddət sonra Cəfər mənə bir müjdə verdi: qardiyan vasitəsilə ufaq bir qurşun qələm və bir kaç parça da kağız təmin etmişdi. Münfərid hücrəsində Azərbaycan istiqlal dastanını, yəni müsvəddəsi qeyb olan «Qız qalası»nı yenidən yazmaq istiyordu. Səhifələri doldurduqca o atəşin səsiylə barmaqlıq arasından «Qız qalası»nın yeni mətnini oxuyordu. Əski mətni də vaxtiylə kəndisindən dinləmiş olduğum için arada pək fərq görmüyordum. Bəlkə ikinci mətn daha həyəcanlı və daha atəşli idi. Hər iki mətnin son misrası şöylə bitiyordu: Şimdi parlaq elektriklərlə cilvələnmiş üzündə «İstiqlal!».

Mənzumənin konusunu Bakının əski tarixi abidələrindən məşhur «Qız qalası» təşkil etməkdədir. Azərbaycanın müxtəlif xanlıqlar halında idarə edildiyi dövrdə rəqib və ya düşmən qüvvətlərin basqısına qarşı qoymaq üzrə inşa edilən bu gibi müstəhkəm qüllələrə Bakı və civarında sıx-sıx rastlanmaqdadır. Hətta bunların yeraltı yolları vasitəsilə bir-birinə bağlı olduqları da təsbit edilmişdir. «Qız qalası» bunların ən böyüklərindən və ən müstəhkəmlərindən biridir. Xəzər dənizindən Bakıya gəmiylə yaklaşanlar ilk öncə bu möhtəşəm qüllənin yüksək zirvəsini görürlər. Daha ziyadə dənizdən gələn basqın təhlükələrini önləmək üzrə inşa edilmiş olması möhtəməl bulunan bu qüllə başlanğıcda tam kıyı bölgəsində imiş. Fəqət sonradan suların çəkilməsi üzərinə sahildən bir xeyli uzaqlaşmış və şəhərin içəri qismində qalmışdır.

Azərbaycan istiqlalının birinci yıl dönümündə «Qız qalası» millətin bu böyük şanlı və məsud gününü qutlayan şüarlarla pırıl-pırıl yanmaqda idi. İştə, Cəfərin son misrası da buna işarə etməkdə idi.

Sizə sunduğumuz mətn Cəfərin ölümündən sonra Sovet Dövlət Nəşriyyat İdarəsi tərəfindən Bakıda basdırılmışdır. Əsl mətninə tamamən uyğun olduğu pək söylənəməz. Bəlkə şiddətli basqı altında Cəfər bizzat kəndisi «Qız qalası»nın mətnini mümkün mərtəbə bugünkü rus istila şərtlərinə görə yenidən ayarlamışdır. Bəlkə də Cəfərdən sonra mətnin üzərində bir taqım yabançı əllər bəzi dəyişikliklər yapmışlardır.

İstiqlal dövrünə işarət edən son misraları da ortadan qalxmışdır. Üstəlik mənzumənin dili də bir parça dəyişdirilmiş və məhəlli Azərbaycan ləhcəsinə uydurulmuşdur. Müəllif isə daima ədəbi türkcə ilə yazmağa alışqındı. Fəqət əsl mətn əlimizdə bulunmadığına görə bununla iktifa etmək məcburiyyətindəyiz. Təhrifləri və xətaları ancaq müstəqbəl tarix düzəldə biləcəkdir. Bizim qayəmiz Cəfərin əziz xatirəsini bir kərə daha anmaq və onu Anadolu türklüyünə tanıtmaqdır.



AZƏRBAYCAN MÜHACİRƏTİ

ƏMİN BƏY HAQQINDA BƏZİ XATİRƏLƏR

Hərbi-ümumidən öncəki sənələrdə hənüz Bakı lisəsinin ilk siniflərində tələbə ikən Məhəmməd Əmin Rəsulzadənin «Dirilik» dərgisində seri halında çıxan milliyyət məfkurəsinin əsaslarına və türklük ülküsünə dair gözəl, dərin və orijinal yazılarını oxumuş və kəndisinə qiyabən bağlanmış bulunuyordum. Şunu açıqca bəlirtmək icab edər ki, mənim yaşımdakı Azərbaycan münəvvər nəsli türklük məfkurəsinin modern elmi tərifini və praktik tətbiqini, bilxassə Məhəmməd Əmin Rəsulzadədən öyrənmişdir.

Hərbi-ümumiyə təqəddüm edən sənələrdə Bakıda mövcud maarif və xeyir cəmiyyətləri Azərbaycan münəvvərləri arasında intibah hərəkatını yayma və təsanüdün təmini məqsədilə, bilxassə Novruz və Mövludi-nəbəvi bayramlarında İsmailiyyə binasında ümumi bayramlaşma toplantıları (o zamanın təbirilə – raut) tərtib edərlərdi. Çarlıq dövründə bu gibi toplantılar, ümumiyyətlə, rəsmi və çəkingən bir mahiyyət alırdı. Fəqət çarlığın həmən süqutunu təqib edən 1917 sənəsi 21 martında vüqu bulan bayramlaşma ümumi nəşə və sevinci, vəcd və həyəcanı ilə qəlblərimizdə silinməz izlər bırakmışdır.

Bu toplantıda ilk dəfə olaraq Məhəmməd Əmin Rəsulzadəni və Fətəli xan Xoylunu görmüş və tanımışdım. Toplantını gözəl bir nutukla ozamankı Bakı Bələdiyyə rəisi kubanlı kazaklara mənsub Pıç isimli bir zat açmış və Kafkasya müsəlman əhalisinə xitabla bütün siyasi və ictimai zəncirlərin çözüldüyünü, o hürriyyət dövründə diləklərini açıqca bəyan etmələrini və məsud, müreffəh bir həyatın təsisinə fəal surətdə qatılmalarını istəmişdi.

Onu mütəaqib, bəliğ bir rusca ilə konuşan mərhum Fətəli xan Xoylu həm bələdiyyə rəisinin Kafkasya müsəlman əhalisi haqqında izhar etdiyi gözəl təmənnilərə müqabilədə bulunmuş, həm də islam xalqını birliyə, təsanüdə və intibaha dəvət etmişdi.

Fəqət toplantının əsl ruhunu Əmin bəyin ahəngli səsi, beşşaş siması, orijinal təsvir və müqayisələri, dərin fikirləri, mükəmməl üslubu ilə söylədiyi parlaq nutuk təşkil etmişdi. Əmin bəy qaranlıq mazinin canlı bir təsvirini yapmış və istiqbalı bütün ümidləri və sonsuz imkanları ilə gözlərimizin önünə sərmişdi. Ona görə, çarlıq idarəsi zülm və əsarəti ilə Zərdüşt dinindəki şər qüvvəti Əhriməni təsvir ediyorduysa

da, fərdlərə və millətlərə haqq və hürriyyət təbşir edən demokratik inqilab cərəyanı da xeyir qüvvəti Hörmüzü təmsil etməkdə idi. Zərdüşt dininin əsas fəlsəfəsi insanların iyilik qüvvətini bütün imkanları ilə dəstəkləmələri və kötülük qüvvətinə qarşı mücadilə etmələri lüzumudur. Zərdüştə görə, ən sonunda Hörmüz Əhriməni yenəcək və dünyada haqq və ədalət, rifah və səadət əbədi surətdə hökm sürəcəkdir.

Əmin bəy istiqbalın çarlıq istibdadı üzərində qazandığı qəti zəfəri Hörmüzün Əhriməni yenməsinə bənzədiyor və bu qalibiyyətin əsir insanlara və məhkum millətlərə haqq və ədalət dövrəsi gətirəcəyini müjdəliyordu.

Hər toplantıda olduğu gibi, Əmin bəy o gün də hərarətlə və candan alqışlanmışdı.

Əmin bəyin «Açıq söz»ü Azərbaycanda çıxan digər qəzetələrdən çox fərqli idi. Digər qəzetələrimiz, ümumiyyətlə, dini və bəzən də milli vəhdət fikri üzərinə məhəlli bir intibah hərəkatı vücuda gətirməyə çalışırkən, «Açıq söz» elmi bir tərzdə işlənmiş modern bir türkçülük cərəyanını təmsil ediyor və gərək siyasi, gərəksə ictimai sahələrdə açıq və müşəxxəs bir mücadilə proqramını irəli sürüyordu.

Sırf gənc qələmləri yetişdirmək üzrə Əmin bəy «Açıq söz»də bir «açıq sütun» ixdas etmiş bulunuyordu. Bu «açıq sütun» hal-hazırda məmləkət daxilində və xaricində Azərbaycan davasını sədaqətlə müdafiə edən bir çox mühərrirlərə məktəb vəzifəsini görmüşdür. Bunların başında, təbiətilə, arkadaşımız Mirzə Bala gəlməkdədir. Mən də qələm təcrübələrimi tamamilə bu «Açıq sütun»a mədyunum.

1917 şubat ixtilalını mütəaqib, bir kaç gənc öyrənci arkadaşlar birlikdə milli fikirləri tərvic edən bir kültür dərgisi nəşrinə təşəbbüs etmişdik. Dərginin Əmin bəyə aid bulunan «Açıq söz» mətbəəsində təbini təmin etmək üzrə, üç kişilik bir heyət halında kəndisiylə görüşməyə getmişdik. Bizi qayət sevimli və müşfiq bir əda ilə qarşılayaraq, qiymətli nəsihətlərdə bulunmuş və heç bəkləmədiyimiz əlverişli şərtlərlə dərginin təbini təəhhüd etmişdi.

İxtilal dövründə yapılan ümumi ictimalarda Əmin bəy daima yerli və yabançı müarizlərinə kəskin zəkası, sağlam məntiqi, təlaqət və bəlağəti, qüvvətli fikirləri, realist görüşləri və üstün iman və qüdrəti ilə faiq gəliyordu. Əmin bəyin bulunduğu hər ictimanın nəticəsi öncədən

məlumdu. Azərbaycanın işçi, köylü və münəvvər kütlələri onu hər tərəfdə həyəcan və hərarətlə qarşılar, söylədiklərini canqulağı ilə dinlər və təkliflərini ittifaqla qəbul edərlərdi. O, müarizlərinin şəxsinə toxunmazdı, xüsusi hallarını dilə almağa tənəzzül etməzdi, fikrə fikirlə, dəlilə dəlillə qarşı qoyardı. Onun içindir ki, ən azğın fikir düşmənləri belə Əmin bəyin şəxsinə hörmət edər, vüqar və səbatına heyran qalırlardı.

Əmin bəy müntəzəm təhsil görmədiyi halda, Tanrı vergisi fitri bir istedadla kəndisini yetişdirərək, siyasi, ictimai, elmi və ədəbi həyatın hər sahəsində çox geniş bilgilər edinmişdi. Əmin bəy yalnız bilməklə qalmıyor, bildiklərini işləməsini, dərinləşdirməsini, gəlişdirməsini, kullanmasını, günlük siyasi və ictimai həyata tətbiq etməsini də biliyordu. O, həm dərin bir nəzəriyyəçi, həm də mükəmməl bir aksiyon adamıydı. İşçi ilə işçi, köylü ilə köylü, münəvvərlə münəvvər, xoca ilə xoca, gənclə gənc, ixtiyarla ixtiyar lisanı ilə konuşur və hər kəsin ruhunu sezməsini və qavramasını biliyordu.

Əmin bəy Azərbaycan parlamentosunun və müstəqil siyasi həyatının nazim, mümtaz və yüksək otoritə sahibi bir şəxsiyyəti idi. Onun öndərlik övsafı hər hal və tövründən aşikardı. Hökumətin və parlamentonun qarşılaşdıqları ən güc və ən çətin məsələlərdə onun tövsiyə və müdaxilələri bir çox müşküllərin həllini sağlamışdı.

Əmin bəyin ümumi siyasi vəziyyət və məmləkətin qarşılaşdığı mühüm məsələlər haqqında nutuq söylədiyi tarixi cəlsələrdə parlamento binasının içi, dışı qələbəlik xalq kütlələri ilə xıncaxınc doluyordu. Xalq bu gibi cəlsələrə, ümumiyyətlə, Əmin bəyi, baş vəkil Nəsib bəyi və Xariciyyə vəkili Fətəli xanı omuzları üzərində gətiriyordu. Azərbaycan istiqlalının böyük batılı dövlətlərcə tanınmasına təhsis edilən məşhur tarixi cəlsə bu oturumlardan biri idi. Azərbaycan siyasi həyatının iç və dış cəbhəsini ilgiləndirən bütün əsaslı məsələlərdə məmləkətimizin şu üç böyük siması (Əmin bəy, Nəsib bəy və Fətəli xan) arasında tam bir birlik və ahəng hökm sürüyordu.

Müsavat partisinin ruhu və dimağı Əmin bəydi. O, həm partinin lideri, ideoloqu, həm də daimi orqanizatoru idi. Bütün irəli parti kadrosunu ya doğrudan-doğruya və ya dolayısıyla Əmin bəy yetişdirmişdir. Parti qurultaylarında, Mərkəz və Bakı komitə çalışmalarında o, daima öndər və nazim bir rol oynamışdır. Dövlət və parti həyatına dair onun səhhar qələmindən çıxmış mesaj, bəyannamə, vəsiqə və proqramların

sayısı böyük bir yekun və zəngin tarixi bir arşiv təşkil etməkdədir. Əmin bəyin hər yazısında, hər nutqunda yepyeni, orijinal və sırf kəndisinə xas fikir və vəcizələrə rastlanmaqdadır.

1920 sənəsi bolşevik istilasından sonra sığınmış olduğu Lahıc dağlarında tövqif edilməsi və bir müddət Bakı Çekasında tutulmasını mütəaqib, Moskvaya götürülərək nəzarət altına alınması müvacihəsində Müsavat partisi gizli Mərkəzi Komitəsinin girişdiyi ən mühüm təşəbbüslərdən birisi Əmin bəyi Moskvadan qaçırmaq olmuşdu. İlk öncə gənc bir arkadaş vasitəsilə, sonra da sabiq parlamento əzası mərhum Rəhim Vəkillini və Bakı əsgəri təşkilatımızın rəisi şəhid arkadaşımız dr.Dadaş Həsənzadəni bir miqdar altun para ilə Moskvaya götürmək surətilə kəndisi ilə təmasa keçilərək, Əmin bəyin elmi tədqiq vəsiləsiylə Leninqrada getməsi və oradan da rəhmətli Musa Cərullahın (Bikiyev) müəssir yardımı ilə Finlandiyaya qayıqla qaçırılması təmin edilmişdi.

Əmin bəyin mühacirətə çıxması və İstanbula gələrək nəşriyyata başlaması ilə xaricdəki Azərbaycan milli davası böyük bir hızla gəlişmiş və bütün cəbhələri ilə müsbət və yapıcı bir tərzdə dünya ümumi əfkarına tanıdılmışdı.

Əmin bəyin şəxsində yerli və yabançı təmas etdiyi hər mühit sözünə, fikirlərinə, xarakterinə, əxlaqına, dirayət və bəsirətinə güvənilir Azərbaycan türklüyünün canlı bir timsalını və hörmətəşayan yüksək bir müməssilini görmüş və xalqımıza qarşı sayğı və etibar duymuşlardır.

İdealistliyi, tərtəmiz həyatı, dərin təvazösü, davasına bağlılığı, geniş və həssas qəlbi, atəşin iman və həyəcanı, sadə və alayişsiz yaşama tərzi ilə Əmin bəy vücudu əndər və zaman getdikcə dəyəri və hizmətləri daha fazla anlaşılacaq ən yüksək tarixi türk simaları arasında yer alacaqdır.

Onun ulu və içimizdə yaşayacaq ölməz ruhu qarşısında fərdcə və millətcə təzimlə əyilir və kəndisinə Cənabi Haqdan rəhmətlər diləriz.

ƏMİN BƏYİN ÜSTÜN LİDERLİK VƏSFLƏRİ

Məhəmməd Əmin Rəsulzadənin 20-ci əsr Azərbaycan siyasi tarixində özəl bir kişiliyi və üstün mövqeyi vardır. O sadəcə milli duyğuları gəlişdirmə və renessans hərəkatını hızlandırmaqla qalmamış, eyni zamanda yeni bir türk dövlətinin təməlini atan fəal və dinamik bir ekibin öndərliyini üzərinə alaraq, müstəvli Rusiya ilə Kafkasya arasındakı hər çeşid bağımlılıq ilişkilərini xalqın zehnindən silməyə çalışmışdır. Onun mütəmadi qeyrətləri sayəsində Azərbaycan türklüyündə milli əgəmənlik, hürriyyət və istiqlal eşqi oyanmış və köklü surətdə yerləşmişdir. 1919 yılı 28 Mayıs bayramında başkənd Bakının geniş meydanlarını və caddələrini xıncaxınc dolduran, qəzalardan axın-axın gəlib qürurla göyüslərini qabardaraq ordumuzun arxasından müəzzəm canlı bir sel halında əldə bayraq yürüyən kütlələrin şövq və həyəcanla «Yaşasın hürr və müstəqil Azərbaycan» deyə hayqırmaları milli imanın nə qədər qüvvətli olduğunu dost və düşmən hər kəsə isbat etmiş bulunuyordu.

Ondan daha öncə 1918 güzündə qurtarıcı Türk Silahlı Qüvvətlərinin çəkilməsi üzərinə ingilis işğal birliyi ilə bərabər Quzey İrandan Bakıya gəlib qolçaq hökumətini təmsil etdiyini iddia edərək Azərbaycanın Rusiyanın ayrılmaz bir parçası olduğunu uçaqlardan dağıtdığı bəyannamələrdə önə sürən general Biçeraxov komutasındakı bəyaz rus qalıntılarını xalqın nə dərəcə dərin bir kin və nifrətlə qarşılamış bulunduğunu və bunun üzərinə Fətəli xan Xoylu hökumətinin tələbi nəticəsində ingilislərin onları sınırdışı edərək Rusiyaya göndərmiş olduqlarını görənlər də Azərbaycan türkünün bir daha yabançı boyunduruğu altına sokulmayacağına qənaət gətirmiş oluyorlardı.

Nəhayət, 27 nisan 1920 sənəsindən bugünədək qızıl rus müstəvlilərinə qarşı Azərbaycanın hər nöqtəsində vüqu bulan saysız ayaqlanma və dirəniş hərəkatları xalqımızın və aydınlarımızın özəl görüş və qənaətləri nə olursa-olsun, yabançı hökmranlığına boyun əyməyəcəklərini açıqca göstərməkdədir.

Əmin bəy Azərbaycanın türkçü və milliyyətçi tək zində və çağdaş siyasi partisi bulunan «Müsavat»ın dəyişməz başqanı və biricik ideoloqu olmuşdur. Bu parti 1917-dən 1920 nisanına qədər Azərbaycanda sürüb gedən partilərarası dartışmalarda türk işçi, çiftçi və aydınlarının

mütləq çoğunluğunu kəndi səflərində toplamış və yapılan bütün demokratik seçimlərdə yerli və yabançı quruluşlara qarşı üstünlük sağlamış bulunuyordu.

1920 nisanında vüqu bulan məşum yeni rus istilasından sonra isə gizli fəaliyyətə keçərək içəridə və dışarıda millətimizin haqlarını cəladətlə savunmağa başlamış və bu uğurda saysız qurban və şəhidlər vermişdir.

Bütün bu savaşlarda Əmin bəyin yüksək şəxsiyyəti və ölməz fikirləri ilə seçkin əsərləri davamıza sönməz bir işıq tutmuş və tutmaqdadır.

Ölümünün 20-ci yıl dönümündə ona bir kez daha millətimizin dərin bağlılığını və şükran borcunu ifadə edərkən, yolumuz nə qədər çətin və tikanlı olursa-olsun, nə gibi fədakarlıqları qarşımıza çıxaracaq olursa-olsun, əsla davamızdan bir addım dəxi geri durmayacağımıza əziz xatirəsi önündə əhd və yəmin edəriz.

Nur içində ruhu şad olsun!

43 SƏNƏLİK ARKADAŞIM MİRZƏ BALA

Çarlıq dövründə Bakıdakı Azərbaycan okul gəncliyinin «Məhəmmədiyyə» ismini daşıyan gizli bir təşəkkülü vardı. Hərbi-ümumi sənələrində qurulmuş bulunan bu təşəkkül Azərbaycan gəncliyini milli və dini ruhda yetişdirməyə çalışmaqdaydı. Bu məqsədlə, bilxassə milli və dini bayramlarımızda müxtəlif vəsilələrlə gizli ümumi toplantılar tərtib etməkdəydi. Bu toplantılardan Novruz bayramı şənlikləri gözəl bir şəkil almaqdaydı. Xeyirxah Bakı zənginlərindən mərhum Hacı Səməd bütün təhlükələri gözə aldıraraq, şəhərin yuxarı məhəlləsindəki gözəl binasının geniş salonlarını bu toplantılara ayırmaqdaydı. Bəzən kəndisi də bu toplantılarda hazır bulunaraq, gəncliyin həyəcanlı xitabə və şeirlərini dinləməkdən istiqbalımız naminə dərin bir zövq duymaqdaydı.

Salonda bu toplantılar yapılırkən polisin möhtəməl təqibatına qarşı civar sokaklarda gəncliyin mühafiz ekipləri dolaşmaqdaydı. Bu toplantılara əksəriyyə tanınmış ədib və şairlərimiz və digər sənət ərbabımız da qatılmaqdaydılar. Məsələ, mərhum Hüseyn Cavid, Əhməd Cavad və Mirzə Cəlil Yusifzadə bu toplantılarda hazır bulunuyorlardı. Gənc şairlərimiz günün əhəmiyyəti münasibətilə yazdıqları şeirləri oxur və həyəcanlı xitabələr irad edərlərdi. Fasilələrdə milli musiqi çalınır və danslar yapılırdı.

İştə bu toplantılarda ilk dəfə olaraq 1916 sənəsində Mirzə Bala və Cəfər Cabbarlı ilə tanışmışdım. O sıralarda lisə öyrənciləri bulunan Mirzə Bala ilə Cəfər Cabbarlı kəndi xitabə və şeirləri ilə toplantılarımıza başqa bir ruh və həyəcan verməkdəydilər. Gənc Mirzə Bala, bilxassə atəşin xitabət qabiliyyətiylə, Cəfər Cabbarlı isə həyəcanlı şeirləriylə təmayüz etməkdəydi. Mən də bu toplantılarda şeir dənəmələrimi oxurdum.

Mirzə Bala qayət fəqir bir ailədən idi. Daha çocuq yaşlarındaykən babasını kayb etmiş, ağabəyisi Həsənbala və qız kardeşiylə bərabər müşfiq annəsinin himayəsi altında yetişmişdi. Okul sıralarında zəka və qabiliyyətiylə öyrətmənlərinin və öyrənci arkadaşlarının nəzəri-diqqətlərini kəndi üzərinə çəkmiş və həpsinin əlaqə və simpatisini qazanmışdı. Mirzə Bala daha gənc yaşlarında ağırbaşlılığıyla təmayüz etməkdəydi. Oyuna rəğbət göstərməz və həp kitablarına dalardı. Bir tərəfdən də həyatını qazanmaq və annəsinə yardım etmək məcburiyyətindəydi. Zəkasını və

qabiliyyətini təqdir edən arkadaşları kəndisinə sevə-sevə yardım etməkdən çəkinməzlərdi. Fəqət bütün bunlara rəğmən həyatı iztirabla doluydu.

Mirzə Bala 1915-1916 sənələrində qəzetəçilik həyatına atılmış, ilk öncə mərhum Əmin bəyin «Açıq söz» qəzetəsinə yazı yazmağa başlamışdı. Əmin bəy gəncləri mühərrirlik məsləyinə alışdırmaq için qəzetəsində «Açıq sütun»lar ixdas etmişdi. Bu «Açıq sütun»lara hər gənc yazı yaza biliyordu. Alınan yazıları Əmin bəy dərin bir etina ilə təshih edər, icabında bizzat gənc yazarlarla təmasa keçər və kəndilərinə gərəkən təlqin və tövsiyələrdə bulunurdu.

Mən də ara-sıra bu «Açıq sütun»lara yazı yazardım. Fəqət bu sütunlarda ən fazla yazıları çıxan mühərrir Mirzə Bala idi. Əmin bəy ilə Mirzə Bala arasında ta başlanğıcdan etibarən qayət sıkı və səmimi münasibətlər təəssüs etmişdi. Mirzə Bala ustadı Əmin bəyin fikirlərinə, xitabət qabiliyyətinə və yazı qüdrətinə heyrandı. Onun hər sözünü, hər yazısını dərin bir diqqətlə təqib edərdi. Onu kəndisinə yeganə ilham qaynağı olaraq seçmişdi. Bir tərəfdən də 1917 sənəsində «Türk Ədəmi-Mərkəziyyət Müsavat» firqəsinə intisab edən Mirzə Bala fəal siyasi həyata atılmışdı. Mən də eyni sənədə parti səflərinə qatıldığım için bir çox sahələrdə bərabərcə çalışıyorduq. Parti tərəfindən biz gənclərə ayrılan vəzifə, bilxassə Bakı komitəsinin rəhbərliyi altında petrol bölgələrindəki türk və müsəlman işçi kütlələrini milli ruhda yetişdirmək və istiqlal mücadiləsinə hazırlamaqdı. Müxtəlif ekiplər halında petrol bölgələrinə gedər və rus partilərinə və o arada, bilxassə menşeviklərlə bolşeviklərə qarşı propaqanda savaşı açardıq. Bu ekiplərə mənimlə Mirzə Baladan başqa Cəfər Cabbarlı, Məhəmməd Sadıq Xülusi (Quluzadə), Piri Mürsəlzadə, müəllimlərimizdən Rza Zəki və digərləri qatılmaqdaydılar. Ayrıca işçilər arasından yetişdirdiyimiz xüsusi ekiplər də vardı.

Bir tərəfdən parti propaqanda fəaliyyətinə davam edərkən, bir tərəfdən də sırf bu məqsədlə qurulmuş bulunan tərəfsiz bir «Fəhlə ocağı» («İşçi ocağı») eyni sahədə çalışmaqdaydı. Bu «Fəhlə ocağı»na Bakının əski öyrətmənlərindən Bədəl bəy Bədəlbəyli və yuxarıda ismi keçən Rza Zəki rəhbərlik etməkdəydilər. «Fəhlə ocağı»nın propaqanda kadrosuna gənclərimizindən Əhməd Hacızadə, Əbdül Əbdülzadə, Həmid Məhəmmədzadə (Ataman) dəxi daxil bulunmaqdaydılar. Yapılan bu pro-

paqanda çalışmaları nəticəsində petrol bölgələrindəki türk və müsəlman işçilərini milli dava lehində tamamilə qazanmış bulunuyorduq. Bu fəaliyyətlər sonradan, bilxassə Bakı şəhəri və civarı için müsavatçılarla bolşeviklər arasında yapılan savaşlar üzərində qüvvətlə müəssir olmuşdur.

Bir tərəfdən siyasi sahədə çalışırkən, digər tərəfdən də İttifaqi-mütəllimin və Kafkasya Tələbələrinin Mərkəzi Komitəsi gibi öyrənci təşəkküllərində bərabərcə qeyrət sərf etməkdəydik. İttifaqi-mütəllimin eyni isimlə həftəlik bir qəzetə çıxarmaqdaydı. Bu qəzetəyə Mirzə Bala, Cəfər Cabbarlı, Əbdül Əbdülzadə və mən yazı yazmaqdaydıq. Kafkasya Tələbələrinin Mərkəzi Komitəsi isə türkcə-rusca aylıq «Gənclər sədası» qəzetəsini nəşr ediyordu. Bu qəzetənin rusca qismini arkadaşımız Həmid Məhəmmədzadə (Ataman), türkcə qismini isə mən idarə ediyordum. Başlıca yazarı isə yenə Mirzə Bala idi.

1918 sənəsi mart hadisələri ərəfəsində Güney Kafkasya Müsəlman Komitəsi tərəfindən məhəlli komitələrlə təmasa keçmək üzrə Mirzə Bala ilə Məhəmməd Sadıq Xülusi (Quluzadə) surəti-məxsusədə Şamaxıya, mən də Gəncəyə göndərilmişdim. O zaman Güney Kafkasya Müsəlman Komitəsinin başqanı mərhum Əlimərdan bəy Topçubaşı, sekreteri isə sonradan kommunist olu verən Mirzə Davud Hüseynov idi. Kürdəmir istasyonuna qədər trenlə birlikdə hərəkət etmişdik. Şamaxıda Mirzə Bala ilə Məhəmməd Sadıq Xülusi bəy erməni-müsəlman savaşları üzündən çox təhlükəli durumlara məruz qalmışlardı.

1918 sənəsi Azərbaycan xalqı için çox çətin bir imtahan sənəsi olmuşdur. Mirzə Bala millətlə, parti ilə birlikdə bütün bu imtahanları günü-gününə yaşamış, iztirab çəkmiş və savaşmışdır.

İstiqlal dövrümüzdə Mirzə Bala partinin ən fəal ünsürlərindən biri idi. Bir tərəfdən aktiv propaqanda çalışmalarına qatılıyor, «Müsavat» və «Azərbaycan» qəzetələrinə yazı yazıyor, bir tərəfdən də «Bəsirət» qəzetəsinin baş məqalələrini qələmə alıyordu.

Mirzə Bala Müsavat gəncliyinin ideoloqu, başı və ruhu idi. Gəncliyi istiqlal savaşları için hər yerdə və hər fürsətdə alovlandıran, bilxassə o olmuşdur. Gənclik hər vəsilə ilə onu önə sürərdi.

1919 sənəsində vüqu bulan ikinci parti qurultayında Əmin bəydən sonra ən atəşli xətibimiz Mirzə Bala idi. Mirzə Bala bu qurultayda əkinçiliyə yarar bütün torpaqların bədəlsiz olaraq çiftçilərə dağıdılması

tezini savunuyordu. Əmin bəy dövlətcə təyin ediləcək mötədil və məşru bir bədəlin topraq sahiblərinə ödənməsi lüzumunu müdafiə ediyordu. Topraq köylünün daimi mülkiyyətinə veriləcəkdi.

Uzun münaqişələrdən sonra yapılan oylamada köylü və işçi deleqələr və Cəfər Cabbarlı, Məhəmməd Sadıq Xülusi və mən də daxil olmaq üzrə bütün gənclik müməssilləri tərəfindən dəstəklənən Mirzə Balanın tezi qahir bir əksəriyyətlə qalib gəlmişdi. Əmin bəy parti çoxunluğunun qərarını kəndisi için bir qanun məsabəsində tələqqi edəcəyini bildirərək, hər nevi ikiliyin önünə keçmişdi.

Qurultay sonunda yeddi kişilik Mərkəz Komitəsinin seçilməsində dəxi başda Mirzə Bala olmaq üzrə Müsavat gəncliyinin böyük rolu olmuşdur. Gənclik fəal və dinamik ünsürlərin parti idarəsinə keçməsini istiyordu. Bununla bərabər, dilədiyi hər şəxsi Mərkəz Komitəsinə keçirməyə qadir olduğu halda, idealist Müsavat gəncliyi dövlət və parti müqəddəratını, başda öndərləri Əmin bəy olmaq üzrə, daha yaşlı və təcrübəli arkadaşlarına tərk edərək, kəndisini onların əmrinə bırakmışdı.

Bərabərcə əzası bulunduğumuz Müsavat Partisi Bakı komitəsində Mirzə Bala başqan yardımçılığına qədər yüksəlmişdi. Eyni zamanda Mirzə Bala ilə birlikdə arkadaşımız Cavad Məlikyeqanovun öndərlik etdiyi türk işçi sendikaları hərəkatının gəlişdirilməsində müntəzəm surətdə çalışmaqdaydıq.

Milli ideolojimizin işlənməsində Əmin bəydən sonra Mirzə Bala ta bidayətdən bəri ən fəal bir rol oynamışdır. İş bu məqsədlə Müsavat Partisi mərkəzinin və Bakı komitəsinin yerləşdiyi Bakıdakı Türk ocağının geniş salonunda ara-sıra milli məfkurəmizin dayandığı təməl prinsiplərə dair konfranslar verilməkdə idi. Bu konfranslar, bilxassə Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala, B.Hüseyn Mirzə Camal və Məhəmməd Ağaoğlu tərəfindən oxunmaqda idi.

İstiqlal dövründə ədiblərimiz «Yaşıl qələmlər» ismini daşıyan bir dərnək qurmuşlardı. Bu dərnəkdə ədiblərimizin şeir və əsərləri oxunmaqda və ədəbi münaqişələr yapılmaqda idi. Dərnəyə Hüseyn Cavid, Əhməd Cavad, Mirzə Cəlil Yusifzadə, Cəfər Cabbarlı, Əli Yusif, Seyid Hüseyn Sadıq, Mirzə Bala və Anadolu şairlərindən Rəşid Sürəyya və Feyzulla Sacid gibi zəvat qatılmış bulunuyorlardı. Ədəbi tərəfi də çox

qüvvətli bulunan Mirzə Bala mütaliə və tənqidlərilə dərnək münaqişələrində mühüm bir rol oynamaqda idi. Xatirimdə qaldığına görə, mərhum Hüseyn Cavid o zaman yeni yazmış bulunduğu «İblis» dramını ilk dəfə olaraq dərnək toplantısında bizə oxumuşdu. Əsərin təhlil və münaqişəsi yapılırkən, («İblis»in yazılmasında nə gibi əsas bir fikir üzərinizdə amil olmuşdur?) deyə, Rəşid Sürəyya bəy tərəfindən sorulan bir suala Hüseyn Cavid: «Heç, hər kəs İblisə lənət oxuduğu için bari mən kəndisini bir parça müdafiə edəyim, dedim...» cavabını vermişdi.

1920 sənəsi 27 nisan istila gününün axşamı Mirzə Bala ilə birlikdə Əmin bəyi evində ziyarət etmişdik. Vəziyyəti ətraflı surətdə müzakirə etdikdən sonra Əmin bəyin tövsiyəsi üzərinə Müsavat Partisinin gizli Mərkəzi Ümumisini qurmağa və istiqlalımızın istirdadı için təkmil milli qüvvətləri səfərbər etməyə qərar vermişdik. Qayət həzin bir tərzdə Əmin bəydən ayrıldıqdan sonra Məhəmməd Sadıq Xülusi və Məhəmməd Həsən Baharlını da yanımıza alaraq, Cəfər Cabbarlının şəhər dışındakı evinə gedib beş kişidən ibarət Mərkəzi-Ümumini qurduq.

Mərhum Məhəmməd Əmin Rəsulzadə şəhəri və məmləkəti tərk etmək niyyətində deyildi. Halbuki istilanın daha ilk günündən etibarən 11-ci ordunun «Osobıy otdel» (Xüsusi təqibat qolu) şəhərin hər tərəfində ümumi tövqiflərə başlamışdı. Əski vəkillər, valilər, məbuslar, subaylar, parti və polis ərkanı birər-birər tövqif edilərək həbsxanalara atılmaqda idi. Verilən bütün sözlər və girişilən təkmil təəhhüdlər çeynənmişdi. Bu vəziyyətdə Əmin bəyin və digər parti və hökumət irəli gələnlərimizin şəhərdə sərbəstcə gəzib-dolaşmaları milli davamız için qayət təhlükəli idi. Müsavat Partisi Mərkəzi-Ümumisi bu halı düşünərək mümtaz şəxsiyyətlərimizin qorunması və icabında məmləkət dışına qaçırılması için xüsusi ekiplər vücuda gətirmişdi. Bu ekiplərdən biri Əmin bəylə birlikdə mərhum Abbas Qasımzadəni Gürcüstana göndərmək üzrə yola çıxarmışdı. Fəqət sonradan düşmən ünsürlər tərəfindən yapılan ixbar üzərinə hər iki arkadaş Lahıc dağlarında tövqif edilərək təkrar Bakıya gətirilmişdi.

Mərhum baş vəkilimiz Nəsib bəy Yusifbəyli fədakar işçi arkadaşlarımızdan keşləli Yusif İbrahimli ilə bərabər yenə Gürcüstana getmək üzrə yola çıxarılmış, fəqət bir taqım əşrarın basqınına uğrayaraq yol arka-

daşı ilə bərabər şəhid edilmişdi. Digər ekiplərimiz bir çox Azərbaycan zəvatını Gürcüstana qaçırmağa müvəffəq olmuşlardı. Fətəli xan Xoylu, dr.Həsən Ağaoğlu, Xəlil Xasməmmədli və sairə bu cümlədəndi.

İstiladan iki gün sonra, yəni 29 nisan 1920-də Bakı kommunist qəzetələrində heç bəklənmədik bir elan oxuduq: Eyni gün «Sol müsavatçılar»ın fövqəladə bir konqresi vüqu bulacaqmış. Sonradan anladığımıza görə, bu fövqəladə konqrenin təşkili təşəbbüsü zahirən Süleyman Abdullayev və Xəlil İbrahim gibi Müsavat partisindən tərd edilmiş iki şəxs tərəfindən yapılmışdı. Fəqət əsl təşəbbüs Kommunist partisi çevrələrindən gəlməkdə idi. Bunların qayəsi Müsavat partisi səflərində ikilik və qarğaşalıq yaratmaqdı. Süleyman Abdullayevin dayısı tanınmış kommunistlərdən Baqi Cəfəri idi. Hər halda yegəninə yapılan təlqin bu kanal vasitəsilə gəliyordu. Dayı və yegən eyni evdə bərabər oturmaqda idilər.

Elanı oxur-oxumaz Mərkəzi-Ümumi əzaları bir araya gələrək nə yapılması gərəkdiyini görüşdük. Hər hangi bir provokasyona meydan verməmək için arkadaşlarımızla birlikdə konqreyə getməyə qərar verdik. Bələdiyyə salonu xıncaxınc müsavatçılarla və tərəfsizlərlə dolmuşdu. Hazır bulunanlar arasında, şübhəsiz, Çeka ajanları da vardı. Bunlar fürsətdən istifadə edərək konqreyə qatılanları və söz söyləyənləri təsbit edərək, bağlı bulunduqları gizli siyasi polisə ixbar edəcəklərdi. Və arxasından da geniş ölçüdə təqiblər başlayacaqdı.

Konqre başqanlıq divanı seçimlərində Mirzə Bala oyların əzici çoğunluğu ilə rəyasət məqamına gətirildi. Rəis sifətilə mərhum Mirzə Bala son hadisələr müvacihəsində Müsavat Partisinin durumunu izah edərək, Azərbaycanın yalnız hürriyyət və demokrasi əsaslarına müstənid bir dövlət olaraq müstəqil varlığını mühafizə edə biləcəyini və hər hangi yabançı boyunduruğuna və ya diqtəsinə boyun əyməyəcəyini kəndisinə xas həyəcan və bəlağətlə ifadə etdi. Arxasından mən konuşdum. Digər müsavatçı arkadaşlardan da konuşanlar oldu. Konqredə hazır bulunanların həmən həpsi hərarətlə bu nutuqları alqışladılar. Mütəaqibən, Mirzə Balanın qələmə aldığı bir deklarasyon oxunaraq təsvib edildi. Bu deklarasyonda Azərbaycan Sovet hökumətindən məmləkətin hürriyyət və istiqlal haqlarına riayət etməsi, partilərin sərbəst çalışmalarına imkan verməsi və basın hürriyyətinə sayğı göstərməsi tələb olunmaqda idi.

Böyləcə kommunistlərin konqreyə bəslədikləri ümidlər suya düşmüşdü. İkilik yerinə parti sımsıkı birləşmişdi. Daxildə və xaricdə Müsavat pozisyonunun təhrifinə imkan bırakılmamışdı.

Deklarasyon Azərbaycan Sovet hökumətinin baş vəkil yardımçısı bulunan Mirzə Davud Hüseynova göndərildi. Fəqət həmən arxasından geniş ölçüdə təqibat başladı. İlk tövqif edilənlər arasında Mirzə Bala da vardı. Konqreyə iştirak edən müsavatçıların mühüm bir qismi həbsxanaları boylamışdı. Mən aylarca saklanmaq məcburiyyətində qalmışdım.

Şunu da söyləyəyim ki, konqreyə təşəbbüs edənlərdən Süleyman Abdullayev və Xəlil İbrahim və hətta onların arxasında duran Baqi Cəfəri 1937-1938 ümumi təsviyələrində tamamilə qeyblərə qarışmışlardır. Mirzə Davud Hüseynov da edam edilmişdir.

Əslində «Solçu müsavatçılar» deyilən bir zümrə və ya bir təşəkkül heç bir zaman mövcud olmamışdır. Əvət, Müsavat Partisinin ikinci konqresində qüvvətli bir gənclik cərəyanı kəndisini hiss etdirmişdir. Fəqət bu cərəyan heç bir zaman kəndisinə solçuluq vəsfini ətf etməmişdir. Müsavat Partisi içərisində sağçılar bulunmadığı gibi, solçular da bulunmamışdır. Parti hər zaman birləşik və mütəsanid bir kütlə halında yaşamışdır. «Solçu müsavatçılıq» bir bolşevik icadıdır. Əfsanədən ibarət bulunan bu mövcudiyyət yalnız kommunistlərin dimağından doğmuşdur.

Mərkəzi-Ümumi həmən məmləkətin hər tərəfində geniş təşkilat qurmağa başlamışdı, bütün qəza mərkəzlərində məhəlli komitələr qurulmuş, köy və sənaye bölgələrində isə müxtəlif heyətlər vücuda gətirilmişdi. Yapılan iş bölümü üzərinə Mərkəzi-Ümuminin rəyasəti Mirzə Balaya, rəis müavinliyi və Bakı Komitəsinin başqanlığı mənə, bütün qəza təşkilatlarının ümumi rəhbərliyi Məhəmməd Sadıq Xülusiyə, parti genəl sekreterliyi Cəfər Cabbarlıya, mali işlərin idarəsi Məhəmməd Həsən Baharlıya bırakılmışdı. Hər qəzada partinin birər mütəmədi vardı. Təşkilat işlərinə liderlik edənlər, bilxassə bu mütəmədlərdi.

Yeni təşkilat qurma işlərində heç bir zorluqla qarşılaşmıyorduq. İstiqlalımız əldən getdikdən sonra məmləkətin bütün aydın və oyanıq ünsürləri milli vəzifə və maşəri vicdan sövqü-təbiisilə kəndiləri bizləri arayıb-buluyorlardı. Milli intibah ən yüksək səviyyəsinə ulaşmışdı. Artıq istiqlalın qiymətini hər kəs anlamışdı. Sovet rejimini dəstəkləyənlər

ancaq kiçik bir xainlər qrupu ilə ruslardan və qeyri-türk digər ünsürlərdən ibarətdi. Müstəvlilər hər yerdə və hər tərəfdə ümumi nifrətə məruz qalıyorlardı. Kukla Azərbaycan kommunist hökumətinin Behbud Şahtaxtlının təvəssüdüylə təkmil məmləkət idarəsini və bütün zənginliklərini feilən və əhdən Moskvaya bırakmış olması da sovet rejiminin gerçək mahiyyətini xalq nəzərində aydınlatıyordu. Hələ yüksək okul gəncliyi məmləkət uğruna hər an həyatını fəda etməyə amadə bulunuyordu.

Az zamanda təşkilat işləri tamamlanmışdı. Öyrətmənlərin və ümumiyyətlə, münəvvərlərin əzici çoxunluğu səflərimizdə yer alaraq məmləkət çapında ümumi mücadilə səfərinə girişmişlərdi. Üniversitə və okul gəncliyi kütlə halında milli mücadilə səflərində yer almışlardı.

Türk işçisinin məmləkətə bağlı bütün ələmanları bizim tərəfimizi iltizam ediyor və hər fürsətdə müstəvlilərə qarşı mücadiləsinə hız veriyordu. Köylünün başdan-başa rus düşməni bulunduğunu söyləməyə hacət belə yoxdur. Sovet rejiminin hər icraatı onun istilaçılıq və sömürgəçilik xarakterini meydana qoyuyordu. Azərbaycan münəvvərləri və köylüsü kütlə halında imha ediliyordu.

Tövqif edilən münəvvərlər arasında Mirzə Bala da vardı. Piri Mürsəlzadə, Hüseyn Müzəffər, Qasım Qasımzadə, Qərib və sair parti arkadaşları sorğusuz və sualsız kütlə halında edam edilib dururkən, aylarca Bayıl həbsxanasında ağır günlər keçirmiş Mirzə Balanın canını salamat qurtarmış olması möcüzə qəbilindən bir keyfiyyət sayılmaqda idi.

1921 sənəsində Moskva məhkum türk ellərini Şərq-İslam dünyasından ruhən və mənən tədricən ayırmaq və ruslaşdırmaq için ərəb hərfləri üzərinə qurulan əski Azərbaycan alfabesini dəyişdirməyə qalxmışdı. Azərbaycandan sonra digər məhkum türk ellərinin alfabeləri dəxi dəyişdiriləcəkdi. Moskvadan aldıqları təlimat üzərinə Azərbaycan kommunist hökumət başqanı dr.Nəriman Nərimanov və İcra komitəsi rəisi (rəisi-cümhur) Səməd Ağamalıoğlu gərəkən zəmini hazırlamaq üzrə həmən hərəkətə keçmiş və bu məqsədlə əski parlamento binasında münəvvərlərin ümumi toplantılarını təşkil etməyə başlamışlardı. Bu toplantılarda ərəb alfabesinin əksiklərindən və latın hərflərinin məziyyətlərindən bəhs edilərək bu sahədə əsaslı bir reformun yapılması lüzumu irəli sürülməkdə idi. Yeni alfabenin siyasi sözçülüyünü Nərimanovla

Ağamalıoğlu yapıyorlardı. İşin texnik sözçülüyü isə əski öyrətmənlərimizdən Fərhad Ağaoğluna bırakılmışdı. Ağaoğlu, şübhəsiz, səmimi olaraq latın alfabesinin üstünlüyünə qane idi, fəqət rusların əsl məqsədlərinin nə olduğunu biləmiyordu. Kəndisindən əvvəl gələn Mirzə Fətəli Axundzadə, Xudadat bəy Məlikaslanlı və Abdulla Əfəndizadə gibi o da alfabe dəyişdirmək surətilə məmləkətinə və millətinə iyi bir hizmətdə bulunmaq istiyordu. Fəqət nə bilsin ki, bunun arxasından əsl rus alfabesi gələcəkdi. Bunu təşxiş edə bilmək için siyasi bir sezişə və Moskva siyasətinin iç üzünü anlayışa ehtiyac vardı. Bunu da ancaq Moskva ilə yapılan mücadilələrdə olqunlaşmış və sərtləşmiş siyasət adamlarından bəkləmək olurdu. Müsavat Partisi Moskvanın oyununu həmən qavramış və Mirzə Balanın ağzı ilə həmən bu cərəyana qarşı hərəkətə keçmişdi. Parlamento binasında yapılan münəvvərlər toplantısında mövqe və durumun həssasiyyətinə əsla aldırmayan Mirzə Bala cəsarətlə söz alaraq, Türk və Şərq-İslam dünyası ilə kültürəl bağların qoparılması demək olan bolşevik reformunun Azərbaycan milli mənfəətlərinə tamamilə ayqırı bulunduğunu isbat ediyordu. Toplantılarda hazır bulunan Azərbaycan aydın kütləsi Nərimanovun və Ağamalıoğlunun konuşmalarını soyuq bir tərzdə qarşıladığı halda, Mirzə Balanın konuşmalarını hərarətlə alqışlıyordu. Bu hal təbiətilə salonun hər tərəfinə dağılmış bulunan sovet polis ajanlarının nəzəri-diqqətlərindən qaçmıyordu. Mirzə Bala alfabe dəyişdirilməsi yerinə ərəb hərflərinin islahını təklif ediyordu. Bir kaç dəfə toplandıqdan sonra, nəhayət, iki komisyon təşkilinə qərar verildi. Bunlardan biri Ağamalıoğlunun başqanlığında latın alfabesi projesini hazırlayacaq və təcrübə mahiyyətində tətbiq mövqeyinə qoyacaqdı. Digəri isə əski öyrətmənlərimizdən Sultan Məcid Qənizadənin başqanlığı altında Mirzə Balanın, mənim, Əbdül Əbdülzadənin və digər bəzi aydınların iştirakilə ərəb hərflərinin islahı tasarısını hazırlayacaqdı. Sözdə hər iki komisyon eşit səlahiyyət və imkanlara sahib bulunacaqdı. Fəqət həqiqətdə bizim komisyona heç bir əhəmiyyət verilməyərək, latınçıların hazırladığı alfabe tasarımı «Yeni yol» ismi ilə hökumət hesabına nəşr edilən bir qəzetə vasitəsilə tətbiq mövqeyinə qondu və sonra da yapılan bir təmimlə bütün tədrisat və nəşriyyata təşmil edildi. Bizim komisyon da kəndikəndinə dağılmış oldu. İştə, Nərimanovların əlilə Azərbaycanda tətbiq olunan bu latın alfabesi sonradan müxtəlif fərqlərlə bütün rus məkumu

türk ellərinə təşmil edilmiş və bir müddət sonra da həpsinə topdan ibtidai rus (kiril) alfabesi təhmil olunmuşdur. Nəticənin böylə olacağını bilsələrdi, bəlkə də nə Nərimanov və nə də, bilxassə Fərhad Ağaoğlu böylə çirkin bir təşəbbüsə girişməzlərdi. Türklərə bu müamilə yapılırkən nə erməni və gürcü və nə də hətta kalmuk latın alfabesinə toxunulmuşdu.

Təşkilatın dış münasibətlərini, bilxassə Mirzə Bala idarə ediyordu. Məmləkətə vəzifə ilə gələn yabançı siyasi heyətlərlə və bilxassə Şərq-İslam dünyası mürəxxəslərilə təmasa keçərək kəndilərinə Azərbaycanın məruz qaldığı sömürgə müamiləsinə dair şifahi və yazılı ətraflı bilgiləri o verirdi. Bir-iki dəfə Tisflisə səyahət edərək gizli Gürcü Sosial Demokrat Parti təşəkkülünün irəli gələnlərindən əski Gürcüstan ziraət vəkili Homeriki, əsgəri komitə başqanı Paqava və sabiq milli mühafizlər birliyi komutanı Cukeyli ilə münasibət təsis və hər iki məmləkət konspirasyon təşkilatları arasında sıxı bir iş bərabərliyini təmin etmişdi. Mirzə Bala Quzey Kafkasya gibi müqavimət hərəkatıyla dəxi yaxın təmas təsisinə müvəffəq olmuşdu.

Təqribən 1922 sənəsi ortalarında Batumda bulunan Mustafa Ədib ismində əski bir türk subayı ilə yapdığı mükatibə nəticəsində hər nədənsə Mirzə Balanın bir-iki məktubu Çekanın əlinə keçmişdi. Məktubların ələ keçdiyini həmən xəbər aldıq və Mərkəzi-Ümuminin verdiyi qərar üzərinə Mirzə Bala bir müddət saklanmağa məcbur qaldı. Həmən tövqif edilməsi ehtimalı bulunduğundan Mirzə Bala Bakı şəhəri daxilində sıx-sıx yer dəyişdirir, gecələri ictimalarımıza rəyasət edər, gündüzləri isə müxtəlif parti arkadaşlarının evlərində saklanırdı. Bu hal 1923-1924 ümumi tövqiflərinə qədər davam etdi.

Müsavat partisi Mərkəzi-Ümumisinin məmləkət daxilində nəşr etdiyi gizli «İstiqlal» qazetəsinin və müxtəlif vəsilələrlə yayınlanan bəyannamələrin başlıca müəllifi Mirzə Bala olmuşdur. Cəfər Cabbarlı ilə mən bu xüsusda kəndisinə gərəkən yardımlarda bulunuyorduq.

1923 sənəsindən sonra Azərbaycanda yapılan ümumi təqiblərdə sovet gizli siyasi polisi, bilxassə Mirzə Balanın şəxsi ilə uğraşmışdır. Çeka və GPU sovet rejiminə qarşı yapılan hər komploda onun gizli əlini seziyordu. Bakıda saklandığı müddətcə yerini kəşf etmək için Çekanın sərf etdiyi bütün qeyrətlər boşa çıxmışdı. Çeka məmurları ön qapıdan girərkən Mirzə Bala partili arkadaşlarının yardımı ilə arxa

qapıdan fırlıyordu. Çeka hər yaxaladığı adama israrla Mirzə Balanı soruyordu. Çekada ümumi bir Mirzə Bala qorxusu vardı. Çünki o dövrdə Azərbaycan milli müqavimət hərəkatının ruhu və dimağı Mirzə Bala idi.

1924 sənəsində mövquf ikən Çeka gizli təqibat şöbəsinin şefi Nikolayev digər arkadaşlarımla birlikdə məni isticvab edən sorğu hakiminin odasına birdən-birə daxil olaraq, mənə xitabən: «Mirzə Balanı İranda ələ keçirdik, yarın buraya gətiriləcəkdir. Bakalım, şimdi nə deyəcəksin» demişdi. Kəndisinə verdiyim cavabda: «Məhəmməd Əmin Rəsulzadə də gəlsə, mənim halıma fərq etməz...» demişdim. Sonradan anlaşıldığına görə, 1924 sənəsində İrana iltica edərək Rəşt şəhərində yerləşmiş bulunan Mirzə Balanı tuzağa düşürmək için Çeka oradakı ajanlar vasitəsilə geniş tərtibat almış və kəndisini mövqufən Bakıya gətirmək için surəti-məxsusədə bir hərb gəmisini Ənzəli (Pəhləvi) limanına sövq etmişdir. Tam yaxalanacağı sırada Mirzə Bala Qasımbala isimindəki əski bir təşkilat arkadaşımızın yardımı və müdaxiləsi ilə qurtarılaraq Tehrana qaçırılmışdır. Böyləcə Nikolayevin kəhanəti təhəqqüq edəməmişdi. Gizli mətbəəmiz kəşf edildikdən sonra 1923 sənəsində yapılan ikinci tövqifimizdə «İstiqlal» qəzetəsində yayınlanan Mirzə Bala və Əli Yusifin imzasız yazıları Çeka məmurlarının əlində dolaşıyor və bu məqalələrin gerçək mühərrirlərini təsbit etmək üzrə Xəlil İbrahim və sairə gibi sovet gizli ekspertlərinin fikirlərinə müraciət ediliyordu. Mirzə Balanı ələ keçirmək için Çekanın nə qədər müəzzəm qeyrətlər sərf etmiş olduğunu daxildəki və xaricdəki parti arkadaşlarımız pək iyi bilirlər. Mirzə Bala bu təqiblərdən əsla qorxmuyordu. Və ağla sığmayan bir cəsarətlə daxildə və xaricdə düşmənə qarşı çətin savaşlarına fərağətlə davam ediyordu. Mirzə Bala tək başına böyük bir hərəkat yarada biləcək qabiliyyətdə idi. Və bu qabiliyyətini hər fürsətdə isbat edə gəlmişdir.

Mirzə Bala ilə fikri münaqişələrimiz olmamış deyildir. Fəqət ülkü birliyi bizi daima müqəddəs savaş ətrafında sımsıkı birləşdirmişdir.

Mirzə Bala ilə bir sənəyə qədər Varşavada birlikdə çalışdıq. Sonradan dəxi ta son nəfəsinə qədər bizimlə savaş arkadaşlığına davam etmişdir. Öndərimiz Məhəmməd Əmin Rəsulzadə vəfat etdikdən sonra parti başqanlığına içimizdə ondan daha layiq birisini bulamamışdıq. Zatən kəndisi qələmə aldığı yazılar və əsərlərlə partiyə həmən-həmən

Əmin bəy qədər hizmətdə bulunmuşdur. Münihdəki Enstitüdə və «Dərgi»də göstərdiyi başarılar da ayrıca şayanı-təqdirdir.

Mirzə Bala gibi şəxsiyyətlər qırx sənədə bir dəfə yetişir. Bu gün ziyasından sonra onun Azərbaycan milli istiqlal davası için nə qədər böyük bir qiymət daşımış olduğunu müvafiq və müxalif həpimiz dərin acı ilə hiss etməkdəyiz. Əmin bəy və Mirzə Bala gibi yüksək şəxsiyyətlər böyük bir davanı simvolizə etməkdədirlər. Böylə olduqları içindir ki, ölümlərindən sonra dəxi o qutsal davanı daima ayaqda tutacaqlardır. Əlim ziyamız önündə yeganə təsəllimiz də iştə budur. Ruhları şad və ülküləri payidar olsun!

ALMAS İLDIRIMIN ƏDƏBİ ŞƏXSİYYƏTİ VƏ ŞEİR SƏNƏTİ

Almas İldırımın ədəbi şəxsiyyətini və şeir sənətini haqqıyla qavraya bilmək için onun doğduğu və yaşadığı mühiti və kəza mübhəm bulunduğu fikir mənzuməsini daima göz önündə bulundurmaq icab edər. Şair 1907 sənəsində Azərbaycanın və ümumiyyətlə, Kafkasyanın daima hərarətli siyasi və inqilabi fəaliyyətlərinə canlı bir səhnə olmuş və petrolu qədər tarixiylə də zəngin və verimli bir şəhəri və hətta elmi və fikri bir mərkəzi bulunan Bakıda doğmuşdur.

Almas doğduğu sıralarda Bakı için-için yüksələn inqilab dalğaları ilə coşub-qaynamaqda idi. 1905 inqilabı çarlıq idarəsi tərəfindən yeni basdırılmışdı. Hətta 1907-də əski Rusiya sömürgə imperatorluğuna daxil topraqlar üzərinə mənfur Stolipin irtica rejimi çökmüş bulunuyordu. Fəqət inqilab atəşi yalnız zahirən üstünkörü söndürülmüşdü. Bu hal müvəqqətən fəaliyyəti yavaşlamış və hətta durmuş bir vulkanın keçici sükununa bənzərdi. Həqiqətdə yer altında gizli qüvvətlər daha qorxunc feveranlara hazırlanmaqda idi.

1905 inqilabına bütün məhkum millətlər və məhrum ictimai zümrələr sevə-sevə qatılmış bulunuyorlardı. Həpsinin qayəsi milli və ictimai əsarətdən azadə, haqq və hürriyyətə dayanan bir nizam qurmaqdı.

Birinci Dünya savaşı inqilab feveranını çabuqlaşdırdı və hızlandırdı. 1917 şubat ixtilalı heç olmazsa, başlanğıcda demokrasi ümdələrinə ayaq uydurmaqdaydı. Fəqət arxasından gələn qəsib bolşevik anarşi idarəsi hər nevi haqq və hürriyyət məfhumunu ortadan qaldırdı və yenidən qıpqızıl bir istibdad, milli və ictimai zülm və təhəkküm sistemi qurdu. Millətləri əzdiyi və sömürdüyü gibi, sosial topluluğa da ağır zəncirlər vurdu. Çarlığın məhkum millətlərə qarşı güddüyü ruslaşdırma politikasını daha böyük bir ustalıqla və bu səfər sosializm və kommunizm maskası altında davam etdirdi. Dış politika sahəsində isə Rusiyanın ənənəvi təmayül və qayələrini «Cahan ixtilalı» mənfəətləriylə təlif etdi.

Fəqət Kafkasya qəhrəman türk ordusunun yardımı ilə 1918 sənəsində bolşevik təcavüzündən qurtarıldı və təqribən iki, iki buçuq sənə hürr və bağımsız bir həyat yaşadı.

Almas o sıralarda 12-13 yaşlarında idi. Hənüz milli hürriyyət və istiqlalın feyzlərini dərk edəcək durumda olmamaqla bərabər, sərbəsti

havasını bol-bol tənəffüs etmiş və Azərbaycan ordusunun heybətli yürüyüşünü doya-doya seyr etmək fürsətini bula bilmişdi. Bütün bu çocuqluq intibaları ailə və mühitin təlqinləri ilə birlikdə gənc Almasın qəlbində iyicə yer etmiş bulunuyordu.

1920 sənəsi nisanında Azərbaycan üzərinə bolşevik kabusu çöküncəb bu tatlı xatirələr birər-birər canlanmağa başladı. Dövr və həyat mühəqqəq surətdə dəyişmişdi. Bunu Almas da seziyordu. Çünki şən və coşqun Azərbaycan əsgərləri yerinə Bakını qaba və sevimsiz rus soldatları (ərləri) doldurmuşdu. Azərbaycan xalqının üzü artıq gülmüyordu. Hər tərəfə aclıq, qıtlıq və zülmət çökü vermişdi. Üçrəngli Azərbaycan bayrağı bolşevik cəlladları tərəfindən yırtılıyor, yerinə qızıl imperializmin mənhus qızıl bayrağı dikiliyordu.

Almas bütün bu halları heyrət və dəhşətlə seyr ediyordu. 1925 sənəsində lisə təhsilini ikmal etdi. Məktəb içində və dışında Əhməd Cavad, Hüseyn Cavid və Cəfər Cabbarlı gibi vətən şairlərinin əsərləri ilə tanışmışdı. Bunlardan, bilxassə Əhməd Cavad həssas ruhu, incə şeiri və milli təranələri ilə gənc Almasın qəlbini pək oxşuyordu. Kəndisində də şairlik təmayülü sezdiyi için daha o çağda yolunu və ustadını bulmuş gibi idi. Hər halda Almas Cavadın dilindən, yolundan, üslubundan və ülküsündən ayrılmayacaqdı. Zatən Cavadı təqib edən yalnız o deyildi, bütün milliyyətçi gənc Azərbaycan şairləri «Göygöl» müəllifinə heyrandı.

Hər azərbaycanlı aydın gibi, Almas da sovet rus təhəkküm idarəsinin ağır darbələrini yeməkdə gecikmədi. İlk öncə davam etdiyi Bakı Dövlət Universitesinin Şərq ədəbiyyatı fakültəsindən babası tüccardır deyə atıldı. Bilindiyi gibi, bolşeviklər müxalif bulunduqları sosial zümrələrin yalnız olğun yaşda bulunan fərdlərinə deyil, çoluq-çocuqlarına belə əkmək, təhsil, çalışma və yaşama haqları tanımazlar. Sovet idarəsinin amansız düşmən tələqqi etdiyi bu gibi sosial zümrələr yalnız çiftlik sahibləri, bankaçılar, sənayeçilər, tacirlər, əski dövlət məmurları və milli orduya mənsub subay və ərlərlə qalmıyor, eyni zamanda bütün köy xalqını, əsnafı və milliyyətçi münəvvərləri də içinə almaqdadır. Hətta denə bilir ki, bolşevizmin əsas düşməni köylüdür. Fəqət köylü qələbəlik olduğu və qolay-qolay yeniləməyəcəyi için sovet idarəsi bu düşmənə yavaş-yavaş, ehtiyatla və dolanbaclı yollardan yanaşmış və

bütün müxalif sosial zümrələri alt etdikdən sonra köyün təxribinə girişmişdir.

Almas da köylü idi. Tüccar övladı deyildi. Və böylə olduğu için heç bir suçu bulunmadığı halda universitədən atılmış və yüksək təhsil imkanından əbədi surətdə məhrum buraxılmışdı.

Bu, Almasın sömürgəçi sovet rejimindən yediyi ilk darbə idi. İkinci darbə də gecikmədi. Şair müsbət bir çalışma sahəsi arıyordu. Sovet idarəsində böylə bir yer sahə qolay-qolay bulamayacağı için araya-araya, nəhayət, Azərbaycan Proletar Yazıçılar Cəmiyyətində bir dənəmə yapmağa qərar verdi.

Kommunist Partisi tərəfindən qurulan bu cəmiyyətin qayəsi sovet rejiminə koru-koruna hizmət edəcək sözdə «ədiblər» yetişdirməkdi. Kommunist səflərində qüvvətli və istedadlı sənət ərbabı pək bulunmadığı için bu gibilər əksəriyyə partisizlər arasında aranmaqdadır. Bu məqsədlə əsl kommunist ədiblərin yanıbaşında bir də «cığırdaş» yazarlar zümrəsi ixdas edilmişdir. Cığırdaş yazar kommunist tələqqisinə görə, sovet rejiminə prinsip etibariylə müxalif olmayıb, onunla ədəbi sahədə işbirliyi yapmağa amadə bulunan qələm sahibi deməkdir.

Böylə bir partisiz ədəbi zümrənin ixdası həm kommunistlərin, həm də milliyyətçilərin işinə gəliyordu. Kommunistlər bu surətlə qurulan müştərək çalışma mühitində bəzi istedadlı gəncləri parti lehinə qazana biləcəklərini ümid ediyorlardı. Milliyyətçi şairlər isə başqa heç bir aləni çalışma sahəsi və əsərlərini yayma imkanı bulamadıqları için bu cəmiyyətə girmək surətiylə, fikirlərini bir parça yürütmək və şeirlərini xalqa duyurmaq fürsətini əldə edə biləcəklərini umuyorlardı.

Böyləcə cəmiyyət içində iki müxalif və hətta bir-birinə düşmən zümrə qarşı-qarşıya gəlmiş oluyordu. Almas İldırım da cığırdaşlardan idi. Fəqət daha ilk dənəməsində yurduna sadiq bir kimsənin sovet idarəsiylə heç bir şəkildə və hətta ədəbiyyat gibi ən məsum sahədə belə işbirliyi yapamayacağını anlamışdı.

Şair vətəninə qarşı ən təmiz və səmimi duyğularını «A dağlar!» başlıqlı gözəl bir şeirində qələmə almış. Anlaşılan, bu qədər məsum və zərərsiz bir şeir sovet idarəsində yayınlanamamış olacaq ki, sonradan ya bizzat şairin kəndi təşəbbüsü ilə və ya sırf bir təsadüf əsəri olaraq İstanbulda nəşr edilən «Həyat» dərgisində çıxmışdır. Həmən Azərbaycan Proletar Yazıçılar Cəmiyyətində və sovet basınında qiyamətlər

qopmuş. Bizzat bolşevik maarif komissarı qələmə sarılmış və siyasi polis hərəkətə keçmişdir. Nəticədə Alması sadəcə cəmiyyətdən atmaqla qalmamış, eyni zamanda kəndisini palaz-pandıraz Şimali Kafkasyaya qədər sürmüşlər.

Fəqət Şimali Kafkasya da başdan-başa türklərlə məskundur. Orası da hürriyyət və istiqlalından tamamilə məhrum edilmiş bir halda! Almas artıq doğrudan-doğruya mücadiləyə atılmağa qərar vermiş bulunuyordu. Onun ən kəskin silahı qələmi və şeiri idi. Dağıstanda qaldığı iki sənə zərfində bir çox mili şeirlər yazmış, istiqlalçı ünsürlərin və yerli türk xalqının sevgisini və müzahirətini qazanmışdır. Təbii, orada da hər hərəkəti sovet siyasi polisi tərəfindən təqib ediliyordu. Dağıstan sürgününün əksi nəticə verdiyi görülüncə, bu səfər daha uzaqlara atılmasına qərar verildi. Bu dəfə GPU idarəsi Almasa sürgün yeri olaraq türklük beşiyi Türküstanı seçmişdi. Nəticə yenə eyni! Bəlkə Almasa görə daha parlaq. Nə təzyiq və nə ikna surətiylə şairi qazanamamışlardı. Nəhayət, qəti çarəyə baş vurmaq istədilər. Kim bilir, bəlkə də bu səfər niyyətləri Alması minlərcə digər türk aydını gibi Sibiryada çürütməkdi.

Şair bunu anlayınca İrana sığındı. Fəqət İran da Almasın ruhunu pək oxşayamazdı. Onun məqsədi bir an öncə ana vətənə qovuşmaq və dərdlərini tökməkdi! Tehrandakı həmşəhrilərinin müəssir yardımıyla qısa müddət zərfində buna da müvəffəq oluyor. Türkiyəyə gəliyor və ana yurdun müxtəlif doğu ellərində çeşidli dövlət məmuriyyətlərində fərağətlə çalışaraq, qələbəlik ailəsini bəsliyor və nəhayət, vəzifə başında rahatsızlanaraq, ötədən bəri müztərib bulunduğu böyrək xəstəliyindən qurtulamayaraq rəhməti-Rəhmana qovuşuyor və arxasından gərək ailə əfradını, gərəksə sayısız dost və heyranlarını sonsuz kədərlər içində bırakıyor. Şair vəfatından bir müddət öncə tədavi məqsədiylə Ankaraya gələrək Azərbaycan Kültür Dərnəyinin tərtiblədiyi şeir günündə qələbəlik bir dinləyici kütləsi hüzurunda gözəl və içli şeirlərini oxumuş və hər kəsin dərin təqdir və heyranlığını qazanmışdı.

İştə, Almas İldırımın səmimi şeirləri həyatının və ruhunun keçirmiş olduğu bütün bu acıqlı səfhələri əks etdirməkdədir. Onun şeiri hər şeydən öncə, gözəl vətəninin yaralarını və dərdlərini oxşamaqdadır. Böylə olduğu için, Almas İldırım məmləkətindən uzaq düşmüş hər azəri türkünün içli duyğularına mükəmməl surətdə tərcüman olmaqdadır.

O, böyləcə Əhməd Cavadın və Gültəkinin yolunu davam etdirməkdədir. Kəndisinə qarşı duyulan dərin rəğbət də iştə bu vəsfindən irəli gəlməkdədir:

Sormayın kimlərdənim, haralıyım, a dostlar,
Könüldən fırtınalı, boralıyım, a dostlar,
Qızıl bir qurşun aldım, yaralıyım, a dostlar!..

Almas İldırım da sələfləri və ustadları Əhməd Cavad və Gültəkin gibi talehə, düşmənə boyun əyməyən, savaşan, döyüşən bir şairdir:

Qalx, sevgilim, ver oxumu, yayımı,
Çək altıma o küheylan tayımı,
Kim o mənim inkar edən soyumu?..

Hangi qüvvət bükən mənim qolumu,
Mən gedərsəm, kim kəsəcək yolumu?!..

Almas İldırım vətənin hürriyyəti və istiqlalı uğrunda hər nevi fədakarlığı göz aldırmış, tükənməz əzmli, atəşin imanlı, heç bir şəxsi və xüsusi mənfəət güdməyən bir mücadiləçidir:

Sən istərsən, qəlbimi parçala, qır, çeynə, əz,
Mənim yenə bu yolda tükənməz bir canım var!
Sən ölüm ol, başımda hər an dolaş, hər an gəz,
Mənim də bir gün yenə sənə bir üsyanım var!

Şair vətəni Azərbaycanın və onunla birlikdə bütün əsir və məzlum türk ellərinin təkrar hürriyyətə və istiqlala qovuşacaqlarına dərin və sarsılmaz bir iman bəsləməkdədir:

Mənim eşqim, a dostlar, əzəlidir, əzəli,
Kim çalacaq könüldən o sevdalı gözəli?!
Yox bir qüvvət ki, yıxsın qəlbimdəki əməli,
Mənim ki o qurtuluş gününə imanım var!..

Almas bu ümidlərini gəncliyin tükənməz və sarsılmaz enerjisi və fədakarlıq əzmiylə bağlamaqdadır:

Sən aldırma, içimdən yaralıyım, yaralı,
Burax keçsin gənc ömrüm fırtınalı-boralı,

Mən bilirim, sonunda çıxmam üzü qaralı,
Yurdumun gənclərinə ümidim, imanım var!..

Şair doğduğu və yetişdiyi yurdun gözəlliklərini, nəhr və sularının bərəkətini, dağlarının səfasını, toprağının sərvətini təsvir etməklə bitirəmiyor və təbiətin bunca feyz və nemətlərinə məzhər olmuş və bütün dünyanın diqqət və əlaqəsini əsrlərdən bəri kəndi üzərinə çəkmiş bulunan Kafkasya və bilxassə Azərbaycan gibi bir ölkənin və onun cahanşümul şöhrətə sahib başkəndi Bakı şəhərinin düşmən çizməsi altında əzilməkdə və inləməkdə olmasına yanıb-yaxılaraq, qanlı göz yaşlarını axıtıyor. Şu misralardakı dərin səmimiyyətə bir diqqət buyurulsun:

Muğan yaylasında, göy Mil düzündə,
Axdı qanım damla-damla izində,
Gəl vəfa qıl, sən də bir dur sözündə,
Mən sözüm üstündə durdum, gözəlim!..

Kəbəm oldun, mehrabına diz qoydum,
Xızrım oldun, dərgahına göz qoydum,
Qərib düşdüm, toprağına üz qoydum,
Bir sormadın, nədir dərdim, gözəlim?..

Və yaxud «A dağlar!» başlıqlı ikinci şeirinin ilk bəndini alalım:

Çiçəkli qoynunda bir bağça tikdim,
Sulamaq için göz yaşları tökdüm,
Gecə-gündüz əməyini mən çəkdim,,
Yoldu meyvəsini ellər, a dağlar!...

Yenə Kafkasya dağlarına xitabən yazdığı bir türküdə şair içli duyğularını şu misralarla ifadə etməkdədir:

Göy bir bulud olub səndə gərilsəm,
Topraq olub ayağına sərilsəm,

Bir gül olub sənin üçün dərilsəm,
Ya ovçunun şikarı bir quş olsam!

Baxıb dursam uzaq-uzaq izlərə,
Qulaq versəm səni anan sözlərə,
Həsrətinlə buludlanan gözlərə,
Səndən axan bir damlacıq yaş olsam!...

Almas İldırım türk milli birliyinə, türkün tarixi böyüklüyünə, insanlıq topluluğu içindəki seçkin mövqeyinə, türk kültürünün özəl qiymətinə və böyük ulusunun şanlı və parlaq istiqbalına bütün varlığı ilə inanmış və ülküsünü Türkiyədə çıxan bir çox dərgilərdə cəsarət və mətanətlə müdafiə etmiş bir şairdir:

Dəyməyin, siz dəyməyin, ta qəlbimdən dağlıyım,
Mən dünyaya ün verən Altayların oğluyum,
O topraqda doğmuşum, o toprağa bağlıyım!...

İstəməm bir yabançı göz diksin bir daşına,
Yol ver, yol ver, qonayım o dağların başına!..

Eyni zamanda şair insan hürriyyət və haqlarının təhəqqüqünü və fərdlər gibi millətlərin də haqq və istiqlala qovuşmalarını atəşin bir lisan və dərin bir imanla müdafiə etməkdə və dünyaya kölələk və əsarət gətirən qara qızıl qüvvətlərə lənət oxumaqdadır:

Versəydi Tanrım mənə keçmişdən bir anımı,
Yakaraq bir məşalə, qurardım hürr bir ocaq...
Götürüb insanlıqdan ruh alan fərmanımı,
Salardım dörd bir yana, şənlənirdi hər bucaq...
Qazardım könüllərdə yalnız bir tək ideal:
İnsanlara hürriyyət, millətlərə istiqlal!..

İştə, Azərbaycan milli şairi Almas İldırımın ədəbi və fikri siması bundan ibarətdir. Onun fikir silsiləsi ilə şeir sənəti bir-biriylə ayrılamayacaq şəkildə birləşmişdir. O, tamamən Azərbaycan və türklük için yaşamış və çalışmışdır. Hər şeiri və hər sözü səmimiyyətlə doludur. Nə

məmləkətində, nə də yurd dışında əsaslı bir təhsil görəməmişdir. Məmuriyyət həyatı və ailə qayğıları də təhsil səviyyəsini yüksəltməyə müsait deyildi. İlhamını tamamiylə kəndi ruhundan almış və hər nevi təqlid və təsənnüdən uzaq qalmışdır. Ta başlanğıcdan bəri böyük və qutsal bir davanın ədəbi ələmdarlığını yapdığı için şeiri özəl bir qüdrət və gözəllik qazanmışdır. Bu dava irəlilədikcə Almas İldırımın ədəbi dəyəri də yüksələcəkdir.

O, gəncliyin şairidir və içli şeirlərini gəncliyə əmanət etmişdir. Gənclik onun şeirlərindən vətən eşqi, türklük sevgisi, ideala sonsuz bağlılıq, fədakarlıq, əzm və mətanət öyrənəcəkdir. Bir çox şeirləri və parçaları əzbərlənməyə və qiymətli birər vədiə gibi könüllərə və zehinlərə yerləşməyə layiqdir.

Nə yazıq ki, Almas qısa bir ömür sürmüş və qutsal əməlinə erişmədən içimizdən ayrılmışdır:

Ölməkmi... Ya ümidə bel bağlasam,
Yurdum için bir az daha ağlasam?!..

O bu qədər erkən ölmək istəməzdi:

Qovuşurkən yurd bayrama, düyünə,
Çalxanacaq el öyünə-öyünə,
Sən erincə özlədiyin o günə,
Mənim ömrüm yetəcəkmi, bilməm ki!

Fəqət Almas İldırım gibi yüksək bir ülküyə bütün varlıqlarını həsr etmiş bulunan milli şairlərin ruhən və mənən ölmələrinə, zehinlərdən və qəlblərdən silinmələrinə imkan yoxdur. O, şeirləriylə, əziz xatirəsi ilə hələ içimizdə yaşamaqda və hər zaman yaşayacaqdır...

ƏŞRƏF DƏMİRCAN
(Ölümünün 10-cu yıl dönümü münasibətilə)

Bundan on yıl öncə, 6 mayıs 1947-də ən dəyərli savaş arkadaşlarımızdan Əşrəf Dəmircanı kayb etmişdik.

Bakının əsil ailələrindən Qulubəylilərə mənsub bulunan mərhum Əşrəf lisə təhsilini Almaniyanın Darmstadt şəhərində, hüququ Ankarada ikmal etmişdi.

Yenə mühacirətdə siyasi həyata atılaraq, Milli Müsavat partisinin ön səflərində yer almışdı.

Almaniyanın sabiq Ankara böyük elçisi Von Papenə qarşı rus ajanları tərəfindən girişilən sui-qəst dolayısıyla 1942-də yapılan yarğılamada Əşrəf bəylə birlikdə tərcümanlıq vəzifəsini ifa etmişdik. İyi bir hüquq bilgisi ilə rus və alman dillərinə mükəmməl vüqufu birləşdirən mərhum Əşrəf, bu çətin məmləkət vəzifəsini məharətlə başararaq heyəti- hakimənin yüksək təqdirini qazanmışdı.

İkinci Dünya savaşının ən hərarətli dövründə, yəni 1943-də mərhum Əmin bəyin dəvəti üzərinə, Əşrəf Dəmircan ilə bərabər Berlində bulunuyorduq. Əsir kamplarından bəzilərini dolaşaraq Qızıl Ordu səflərini tərk edib alman qitələrinə təslim olan azərbaycanlı əsgərlər arasında milli istiqlal ülküsünü yaymağa və qüvvətləndirməyə çalışıyorduq. Əşrəf Dəmircan dərin milli vəzifə eşqi ilə kəndisini bu eyitim işinə həsr etmişdi.

Fəqət nə yazıq ki, nazilərə millətlərin istiqlal haqlarını tanıtmağa və qəbul etdirməyə imkan yoxdu. Əmin bəyin bu uğurda sərf etdiyi bütün qeyrətlər nəticə etibarilə akim qalmışdı. Və bunun üzərinə, nazi yüksək məqamlarına məlum tarixi müxtirəsini tövdi edərək Almaniyanı tərk etmiş və bizim də geri dönməmizi istəmişdi.

Əşrəf bəy uzun sənələr boyunca çalışdığı və mühasibə şef müavinliyi ilə zatişləri müdürlüyünü yapdığı Ankara Elektrik və Havaqazı İşlətmələri müəssisəsində və sonra da İstanbuldakı Doğan Siğorta şirkətində daima təmiz və dürüst əxlaqı ilə amirlərinin və iş arkadaşlarının dərin təqdir və sevgisini qazanmış bulunuyordu. Bilxassə əski Ankara valisi rəhmətli Nevzat Tandoğan hərzamankı qədirşünaslığı ilə Əşrəfi çox təqdir və himayə edərdi. Kəza, Azərbaycanın böyük dostlarından

mərhum Məmduh Şövkət Əsəndal Əşrəf Dəmircanın əsil ruhuna qarşı daima heyranlıq duyardı.

Əşrəf Dəmircan möhtac hər köçmən həmşəhrisinin sevə-sevə yardımına koşardı. Hətta bu uğurda kəndi rahatını, rifah və səadətini fəda edərdi.

Milli işlərdə tam bir idealist zehniyyətiylə çalışırdı.

Əşrəf bəy Almaniyadan döndükdən sonra ötədən bəri müztərib bulunduğu böyrək xəstəliyi bir qat daha şiddətlənmişdi. Ankara və İstanbulda bir kaç kərə xəstəxanalara girib-çıxmış və nəhayət, 6 mayıs 1947-də İstanbuldakı alman xəstəxanasında həyata gözlərini qapamışdı. Fəqət ölümündən tam on sənə keçmiş olduğu halda, onun vətən eşqi ilə yanan idealist şəxsiyyəti və şəfqət dolu əziz siması hələ qəlblərimizdə bütün cazibiyyəti ilə yaşamaqda və gözəl bir örnək olaraq xatirəmizdə canlanmaqdadır.

Cənabı Haqdan kəndisinə rəhmətlər niyaz edər və ruhunun daima şad olmasını diləriz.

BÖYÜK BİR DOSTUN ARDINDAN

27 nisan 1920, yəni istila gününün axşamı milli şairimiz Cəfər Cabbarlının evində Müsavat Partisinin gizli Mərkəz Komitəsi Mirzə Bala Məhəm-mədzadənin başqanlığı altında qurulmuşdu. Sonradan Mərkəz Komitəsi yanında təşəkkül edən komisyonlardan ən mühümü Siyasi Komisyon idi. Bu Komisyonun başqanı Parlamentomuzun gənc üyələrindən mərhum Rəhim Vəkilli idi. Komisyonun digər üyələri şunlardı: Cəfər Cabbarlı, Nəriman bəy Nərimanbəyli (Milli Azərbaycan Hökuməti bakanlarından), Bədəl bəy Bədəlbəyli (əski öyrətmənlərdən), Kərbəlayi Vəli Mikayılzadə, Seyid Hüseyn Sadiq (öyrətmən və ədib), Əli Əfsər Nəcəfzadə və dr. Həsən Kərbəla (mərhum dr. Oroys).

Komisyonun ikinci başqanı Cəfər Cabbarlı idi. Gərək Rəhim Vəkilli, gərəksə Cəfər Cabbarlı Mərkəz Komitəsi üyəsi olduqlarından, irtibat bu iki arkadaş vasitəsilə təmin edilməkdə idi.

Komisyon müntəzəmən toplanaraq təşkilatın iç və dış politikası ilə ilgili məsələləri görüşür və Mərkəz Komitəsinə tövsiyələrdə bulunurdu.

1923 sənəsinin 15 haziranında təşkilata qarşı vüqu bulan ilk toplu təqibatda Siyasi Komisyonun bütün üyələri ələ keçmişdi. Fəqət Çeka idarəsi Komisyonun mövcudiyyətini heç bir zaman təsbit edəmədi.

Dr.Həsən Kərbəlanı mən ilk dəfə Çeka həsbxanasında tanımış oldum. Qiyabən, təbii, bir-birimizi tanıyorduq.

Bir gün təcrid edilmiş mövquflara məxsus koğuşumun pəncərəsindən dışarını seyr edərkən dr. Həsən bəy türk qardiyanların müsamihəsindən istifa edərək yanıma yanaşmış və kəndisini tanıtmışdı. O, xəstə olduğu için revirdə qalıyor və arada-sırada koridora çıxmaq fürsətini buluyordu. Kəndisiylə pəncərə barmaqlıqları arxasından beş-on dəqiqə görüşmüş və durumumuzla ilgili bilgiləri paylaşmışdıq. Həsən bəy üzərimdə imanlı və cəsur bir mücahid intibasını bırakmışdı.

Azərbaycanda bir daha buluşamadıq. 1943 sənəsində mərhum Əmin bəyin dəvəti üzərinə Berlinə gedişimdə Həsən bəyə yenidən rastlamışdım. Bu, bir təmsil göstərisində vüqu bulmuşdu. İkinci Dünya savaşında almanlara əsir düşmüş gənc azərilər Üzeyir Hacıbəylinin «Arşın mal

alan» və «Məşədi İbad» operalarını[1] amatör qüvvətləriylə səhnəyə qoymuşlardı.

Uzun ayrılışdan sonra qərib bir ölkədə ani olaraq buluşmamız çox həyəcanlı olmuşdu. 1955-dən sonra isə həmən hər sənə və ya iki sənədə bir Münihdə görüşüyorduq. Paris Blokunun toplantılarına bərabər qatılıyor və tezimizi birlikdə müdafiə ediyorduq.

Həsən bəy prinsip və əxlaq sahibi dürüst bir insandı. Əyriliyə, qaypaqlığa və riyakarlığa təhəmmülü yoxdu. Almaniyadakı gənc azərilərin adəta babası, hamisi və öndəri mövqeyində idi. Sənələrcə oradakı Azərbaycan Cəmiyyətinə başqanlıq etmişdi.

Həsən bəy mərhum Rəsulzadə ilə sıx-sıx məktublaşıyordu və Əmin bəyin rəhmətli Əlixan Qandəmir və Əhməd Nəbi Maqoma ilə birlikdə qurduğu Kafkasya İstiqlal Komitəsinin ilk konqresində iştirak etmişdi. Mirzə Bala ilə də aralarında çox səmimi bir dostluq vardı.

Uzun qürbət və bilxassə əsarət dövrəsi dr. Həsən bəyin səhhətini çox sarsmışdı. Yaxın dost və mücadilə arkadaşlarının birər-birər ölümü də onu son dərəcə üzüyordu. Bu qədər dərin acılardan sonra onu ayaqda tutan yeganə qüvvət vətən eşqi və yurd həsrəti idi.

Nə yazıq ki, o da sevgilisinə qovuşmadan bu fani dünyaya vida etdi. Fəqət biz dava yolçuları için o ölməmişdir və ölməyəcəkdir. Onun təmiz adı və əziz xatirəsi Azərbaycan İstiqlal savaşı tarixində, dost, tanıdıq, yurddaş və arkadaşlarının vəfakar qəlblərində əbədiyyən yaşayacaqdır.

Nur içində yatsın!

[1] Operetta – *N.C.*

MƏHƏMMƏD SADIQ ARAN (SƏNAN)

Keçənlərdə Milli Azərbaycanın ünlü mücahidlərindən Məhəmməd Sadıq Aranın vəfatı xəbərini İstanbul qəzetələrindən öyrənmiş olduq.

Məhəmməd Sadıq Aran gənc yaşlarında Azərbaycanın Zəngəzur bölgəsindən Milli Azərbaycan Parlamentosuna millət vəkili olaraq seçilmiş bulunuyordu. Bilindiyi gibi, Azərbaycan Parlamentosu 1917 sənəsində Rusiya Qurucular Məclisinə Azərbaycandan seçilmiş deleqelərdən təşəkkül etmiş bulunuyordu. Parlamentonun əsas kadrosu bu deleqelərdən təşəkkül ediyordu. Fəqət 1918 sənəsi başında Petroqradda toplanan Ümumi Rusiya Qurucular Məclisi bolşevik idarəsi tərəfindən dağıdılmış olduğundan, seçilən deleqelər yeni qurulan milli dövlətlərdə parlamentoların əsas kadrosunu vücuda gətirmişdi. Yalnız bu kadro bu parlamentonu təşkil edə bilmək için sayı etibarilə yetərli bulunmadığından, seçimləri qazanmış bulunan hər partiyə kəndi deleqe miqdarına görə parlamentodakı təmsilçilərini çoxaltma haqqı tanınmış bulunuyordu. Bu etibarla, Azərbaycandakı seçimləri böyük bir əksəriyyətlə qazanmış bulunan Müsavat Partisi və tərəfsizlər bloku aldıqları oy nisbətinə görə öncə Tiflisdəki Seymdə, sonra da Bakıdakı Parlamentoda deleqe sayını genişlətmiş oluyordu. Bu surətlə, təşəkkülünü tamamlayaraq qanun qoyuculuq vəzifəsini ifa edən parlamento gərəkən hazırlıqları yapdıqdan sonra məmləkətdə Qurucu Məclisi seçimi cəhətinə gediləcəkdi. Nitəkim, müstəqil Gürcüstanda bir müddət Parlamento Seym adı altında çalışdıqdan sonra Qurucu Məclis seçimlərinə başarıyla gedilmiş və Anayasa qəbul edilmiş bulunuyordu. Maaləsəf, Azərbaycan iç və dış problemləri baxımından daha müşkül vəziyyətdə bulunduğundan 23 aylıq ömrü zərfində Qurucu Məclisini seçdirməyə imkan bulamamışdı. Fəqət Parlamentonun ilgili komisyonları seçim hazırlıqları ilə məşğul bulunmaqdaydı.

İştə, Məhəmməd Sadıq Aran Zəngəzur bölgəsindən Müsavat Partisinin mütəmmim deleqesi olaraq parlamentoya girmiş bulunuyordu. Və dolayısıyla partinin parlamento qrupunda yer almışdı. Parti qrupunun və ümumiyyətlə, Müsavat Partisinin başqan və lideri Məhəmməd Əmin Rəsulzadə idi. Böyləliklə, bütün gənc müsavatçılar gibi, Məhəmməd Sadıq Aran dəxi ilk siyasi təcrübə və tərbiyəsini Əmin bəyin okulunda almışdı. Mərhumun ozamankı soyadı Axundzadə idi. Və parlamento

çevrələrində və dolayısıyla aydınlarımız arasında Mirzə Sadıq deyə tanınmaqdaydı.

Məhəmməd Sadıq bəy məmləkət çalışmalarında bir partili arkadaş olaraq qayət disiplinli və böyüklərinə sımsıkı bağlı bir siyasət adamı idi. Milli Azərbaycan dövründə hər baxımdan hürr və demokratik parlamentonun çoxpartili həyatı mükəmməl bir siyasi okul vəzifəsini görməkdə idi. Hər çeşid politik və sosial fikir və doktrinlər sərbəstcə parlamento kürsüsündə dartışıldığı və Azərbaycan basını dəxi tam və sınırsız hürriyyət imkanlarından faydalandığı için xalqımız və münəvvər kadromuz dünya olayları və məmləkət məsələləri haqqında bilgi və təcrübə edinmə fürsətini bula bilməkdə idi.

Üstəlik, Milli Azərbaycanın, Məhəmməd Əmin Rəsulzadənin yanı başında Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoylu, Əli Mərdan bəy Topçubaşı, Məhəmməd Yusif Cəfər, Həsən Ağaoğlu və sairə gibi bir çox təcrübəli və sınanmış geniş kültür sahibi simaları vardı. Bu mühit istedadlı gənclərin yetişməsi için hər baxımdan əlverişli idi. Və hadisat da böylə bir yetişməni və olğunlaşmanı qolaylaşdırıyor və hızlandırıyordu.

1920 sənəsi 27 nisanında Azərbaycan Qızıl Rusiya istila orduları tərəfindən işğal edildiyi günün axşamı Müsavat Partisinin öndərliyi ilə gizli Azərbaycan İstiqlal Komitəsi təşkil edilmiş bulunuyordu. Komitənin başqanlığına mərhum Mirzə Bala gətirilmişdi. Quruluşundan həmən sonra komitə Azərbaycanın bütün şəhər, qəsəbə və bir çox böyük köylərində təşkilatın çeşidli qollarını vücuda gətirmiş bulunuyordu. Komitə tərəfindən bu təşkilatlandırma işinə üyələrdən mərhum Məhəmməd Sadıq Quluzadə (Xülusi) vəzifələndirilmişdi. Məhəmməd Sadıq Aran həm komitə ilə və həm Xülusi ilə sıkı işbirliyi halında çalışmaqda idi. Təşkilatın Qarabağ bölgəsindəki qolları Məhəmməd Sadıq Aranın təvəssütü və doğrudan-doğruya onun qeyrətləri ilə qurulmuş bulunuyordu. Qarabağlı mərhum Seymur və digər fəal üyələrimiz direktivlərini Məhəmməd Sadıq Aran vasitəsilə komitədən alıyorlardı.

Bir partili və təşkilatçı olaraq Məhəmməd Sadıq Aran qayət disiplinli, davaya bütün varlığı ilə inanmış və bağlanmış, son dərəcə fədakar və fərağətli bir arkadaş olaraq tanınmaqdaydı. Dava yolunda gözü pək və heç bir təhlükəli vəzifə ifasından çəkinməzdi. Nitəkim, 1923

sənəsi ortalarında təşkilat tərəfindən Tiflisə göndərilmiş və gürcü sosial-demokratları ilə və Gürcüstan Milli Müqavimət Mərkəzi ilə təmas və görüşmələrə məmur edilmişdi. Fəqət o sıralarda Gürcüstan istiqlalçılarına qarşı girişilən geniş təqibat nəticəsində bir çox gürcülər meyanında Tiflisdəki gənc arkadaşlarımızdan Firidun Hacızadə dəxi yaxalanmışdı. Kəndisinə qarşı girişilən çeşidli basqı və işgəncələr sonunda Məhəmməd Sadıq Aranın Tiflisə gəlişi və təmasları haqqında dəxi bəzi bilgilər ələ keçirilmişdi. Bunun üzərinə, Məhəmməd Sadıq Aran Zakçeka (Güney Kafkasya mərkəzi Çekası) tərəfindən həbsə atılmış və sorğuya çəkilmişdi. Fəqət Sadıq bəyin hər zaman için düşmənə qarşı qüvvətli bir müdafiə silahı vardı: Dəlilik təqlidi! Sadıq bəy bu təqlidi o dərəcə məharətlə yapardı ki, heç bir təbib və uzman bunun bir təqlid olduğunun fərqinə varamazdı. Və bu məharətiylə Sadıq bəy hər çeşid Çeka soruşdurmalarından azadə qala bilmişdi.

Aylarca həbsdə qaldıqdan və kəndi anlatdığına görə, üzərində bir çox tibbi dənəmələr yapıldıqdan sonra sərbəst bırakılmasına qərar verilmiş və komitə tərəfindən Tiflisə göndərilən mərhum üyə arkadaşımız və Azərbaycan Parlamento əzası Rəhim Vəkillinin dəlaləti ilə Bakıya gətirilmişdi.

1923 sənəsi 5 ekimində Sadıq bəyin qonşuluğundakı təşkilat arkadaşımız dr.İslam Tahirbəylinin evində müsafir olduğunu xəbər aldım. Həmən ziyarətinə getdim. Məni görür-görməz ayağa qalxdı və eyni dəli təqlidini yapdı. Doğrusu, təqlid olduğunu bildiyim halda, bu dərəcə ustalığına şaşırmışdım. Kəndisini evimizə dəvət etdim. Annəmə tavuqlu pilav yapmasını rica etdim. Fəqət yemək için masaya otururoturmaz kiçik qardaşım gələrək evimizin hər tərəfdən polislərcə sarıldığı xəbərini gətirdi. Bu xəbərin akabindən polislər həmən içəriyə girdi. Sadıq bəy də dərhal dəli təqlidini təkrarladı. Polis komissarı bir tərəfdən bizim yerimizə pilavdan afiyətlə yerkən, bir tərəfdən də şaşqın gözlərini Sadıq bəyə dikmiş və «Bu xəstənin burada işi nə?» deyə sormuşdu.

İkimizi də polis arabalarına mindirərək gizli «Müsavat» mətbəəsində yaxalanan iki gənc arkadaş Qurban Musazadə və Ağa Səlim Rəhimzadə ilə bərabər Bakı Çekasına götürmüşlərdi. Mənə bütün gecə sabaha qədər dayak atdıqları və bizzat Çeka başqanı, tanınmış cəllad Mir Cəfər Bağırov üzərimə tapança çəkdiyi və sonra da sulu bodruma

atdıqları halda, Sadıq bəyə kimsə toxunamamışdı. Və Bağırovun qarşısına çıxarıldığı zaman dəxi o mərhəmətsiz cəllad Sadıq bəyin gözlərinin içinə baxaraq, «Bu adam xəstədir, yahu, nə deyə buraya qədər gətirdiniz!» demiş və salı verilməsi için əmr vermişdi. Fəqət bu dəfə polislər bir dürlü Sadıq bəyi Çeka dışarısına çıxaramıyorlarmış. Evinə get, – dedikləri zaman, – evim burasıdır, – deyə dirənib-duruyormuş. Nəhayət, zor-bəla və tatlı bir dillə qolundan tutaraq sokağa qədər çıxarmağa müvəffəq olmuşlarsa da, orada dəxi bir müddət qapıda bəkləyib durmuş və ancaq hər kəs çəkilib getdikdən sonradır ki, soluğu Yevlax istasyonunda və daha sonra Qarabağda və mütəaqibən, İran topraqlarında ala bilmişdi. Sadıq bəy İrandan Türkiyəyə keçmiş, öncə Trabzonda öyrətmənlik yapmış və daha sonra İstanbulda yerləşərək, yazar olaraq sərbəst surətdə çalışmışdır.

Məhəmməd Sadıq bəy milli Azərbaycan mühacirətinin ən qüvvətli və atəşli şairi və irəli gələn yazarları arasındaydı. Bütün şeirlərində və yazılarında Azərbaycan faciəsini inim-inim dilə gətirmiş və eyni zamanda həmasi şeirləri ilə gəncliyi sonuna qədər mücadiləyə təşviq etmişdi.

1934 sənəsində İrana sığınmamızdan bir-iki sənə sonra Tehranda mərhum dr.Hüseyn Gəray Qəmbərzadənin evində Sadıq bəylə təkrar-təkrar buluşmuş və işlərimizi görmüşdük. O sıralarda Sadıq bəy «Cümhuriyyət» qəzetəsinin müxabiri olaraq Tehranda bulunmaqdaydı.

Mühacirətdə Sadıq bəy bir ara Əmin bəylə müxalifət durumuna düşmüş isə də, bu bir prinsip müxalifəti olmamışdır. Prinsiplərdə hər iki mücahid sonuna qədər bərabər qalmışlardır. Nitəkim, bəyaz rusların Rusiya Keçici Hökumət başqanı Kerenski və prof.Melqunovun öndərliyi altında mahud Wisbaden konfransını tərtibləyərək, məşhur deklarasyonları ilə Azərbaycanı və digər məhkum türk ellərini Rusiya camiəsi içərisində göstərməyə və tanıtmağa yeltəndikləri sıralarda, Ankarada mərhum Məhəmməd bəyin təşəbbüsü ilə düzənlənən toplantılarda protesto bəyannaməsi qələmə alınmış və Sadıq bəy də heç tərəddüd etmədən bu bəyannaməyə imzasını qoymuşdu.

Sadıq bəy ümumi cəbhəsi etibarilə yılmaz bir vətən mücahidi, türklük və Azərbaycan aşiqiydi. Kəndisini bu bəlirgin simasıyla candan təqdir edər və acı vəfatı xəbərini dərin və içli bir üzüntüylə tələqqi edəriz.

Sadıq bəyin müstəsna yeri Azərbaycan mücahidləri səflərində daima zində olaraq yaşayacaq və kəndisindən sonra gələnlərcə də rəhmətlə və minnətlə anılacaqdır.

ƏJDƏR QURTULAN

(1898-1971)

1971 sənəsinin 6 təmmuzunda əski mücadilə arkadaşımız Əjdər Qurtulanın (Babaoğlu) İstanbul Kadıköy Koşuyolu caddəsi 35 numaralıq evində vəfat etdiyi xəbərini dərin bir iç acısı ilə öyrənmiş olduq.

Arkadaşımız bir sürədən bəri qəlb rahatsızlığından müztərib bulunuyordu. Davamlı tədavilərinə və ara-sıra iyiləşmə bəlirtiləri göstərmiş olmasına rəğmən, 6 təmmuzda keçirdiyi yeni bir enfaktüslə əbədiyyən aramızdan ayrılmış oldu.

Babaoğlu Əjdər ilə ta ilk okul çağından etibarən səmimi arkadaşlıq bağları aramızda qurulmuş bulunuyordu. İlk tanışmamız yenə əski arkadaşlarımızdan və istiqlal davası şəhidlərindən Nəsrullah Rzabəylinin Bakıdakı kiçik çalışma odasında vüqu bulmuşdu. Məhəlləmizin irəli gəncləri sıx-sıx bu odada toplanır və istiqbal ilə ilgili müştərək planlarını görüşürlərdi. Oda Bakının əski cəmiyyət xadimlərindən mərhum qonşumuz Əsədullah Axundovun kəndi evində yegəni Nəsrullah Rzabəyliyə ayırmış olduğu bir barınma yuvası idi. Yakın arkadaşlar okul dərslərimizi həp bu odada hazırladığımız gibi, boş saatlarımızı da gələcəklə ilgili düşüncələrimiz haqqında həsbi-hallara həsr edərdik.

Əjdər daha o zamanlarda cəsur, atılqan və zəki bir dəliqanlı idi. İlk və orta təhsilini bitirdikdən sonra Bağımsız Azərbaycan Dövləti zamanında Bakı Hərb Okuluna intisab etmişdi. Okulu başarı ilə tamamladıqdan sonra Azərbaycan Ordusunda subaylıq rütbəsinə erişmişdi.

Daha öncə Gəncədə qurulmuş bulunan Azərbaycan hərbiyyəsi başkənd Bakıda gənc əsgəri kadrolarımızı yetişdirən çox mühüm və dəyərli bir eyitim müəssisəsiydi. Gənc Azərbaycan subayları həp bu okulda yetişmiş və məmləkətin müxtəlif bölgələrində və o meyanda ünlü stratejik Əsgəran mevzisində asilərə və düşmənlərə qarşı girişdikləri savaşlarda parlaq zəfərlər qazanmışlardı.

Əjdər bu subaylardan bir dənəsiydi. Azərbaycan hərbiyyəsi türkçülük, milliyyətçilik, azərbaycançılıq, istiqlalçılıq və sonsuz fərağət yuvası idi. Milli bayramlarımızda Bakının geniş caddə və meydanlarında qəhrəman birliklərinin başında yapdıqları əsgəri göstərilərlə

Azərbaycan Ordusu subayları xalqın sonsuz simpatisini və məhəbbətini qazanmış bulunuyorlardı.

27 nisan istilasından sonra imperialist və sömürgəçi sovet Rusiyanın ilk işi Azərbaycan qəhrəman ordusunu dağıtmaq və təsviyə etmək olmuşdu. Bu təsviyəyə sözdə daha məqbul bir vəchə verə bilmək için Azərbaycan subaylarını Kremlin idarəçiləri topdan İrana sövq etmişlərdi. O sıralarda Quzey İranda yerləşən Kiçik xanın ixtilalçı könüllü qüvvətləriylə kəndi ajanları aracılığı ilə keçici bir anlaşma tasarlayan Rusiya bütün İranı ələ keçirmək və sovetləşdirmək məqsədilə Tehrana qarşı girişilən saldırıda bizim subaylardan da istifadə etmək istiyordu. Fəqət zorakı və qeyri-milli bir vəzifə qarşısında qalan Azərbaycan subayları ilk fürsətdə kommunist səflərini tərk edərək, hər biri İranın bir tərəfinə yayılmış və Moskvanın planlarını suya düşürmək için İran xalqı və nüfuzlu çevrələri içərisində geniş propaqanda fəaliyyətinə girişmiş və bəzi nöqtələrdə hətta müqavimət yuvalarının qurulmasına dəxi yardımçı olmuşlardı.

Əjdər orada dəxi bütün qüvvətini və enerjisini kullanma fürsətini bula bilmişdi. Sonradan bu subayların bir çoxu qaçaq yollardan Azərbaycana geri dönmənin çarəsini bulmuşlardı. Bunlardan bir qismi daha sonra Türküstana gedərək Ənvər Paşanın komutası altında «Basmaçılar» (Partizanlar) səflərində ruslara qarşı döyüşmüşlərdi. Digər bir qismi isə Azərbaycan daxilində milli Müsavat Partisinin təşkil etdiyi İstiqlal komitəsinin əsgəri qolunda vəzifə alaraq konspirativ fəaliyyətə keçmişlərdi.

Əjdər bu qrupa daxildi. Və son ana qədər rus istila idarəsinə qarşı mücadilələrimizə aktiv surətdə qatılmışdı.

1923 sənəsinin 15 haziranında İstiqlal Komitəsinin irəli gələnlərindən bir qismi tövqif edilərək Çeka zindanlarına atılırkən Əjdər də bunlar arasındaydı.

1927 sənəsində əsgəri təşkilatımıza qarşı ümumi təqibat hərəkatı başladığı sıralarda Əjdər təkrar tutuqlanaraq GPU zindanına atılmışdı. Aylarca orada qaldıqdan sonra əsgəri təşkilatımızın irəli gələnlərindən bir qismi edam edilmiş, mövquflardan geri qalanı da Quzey Buz dənizi kıyılarındakı Solovki ölüm kamplarına qafilə halında sürülmüşdü. Əjdər sürülənlər arasındaydı. Fəqət çox keçmədən Bakıdakı əqrəbaları

kəndisinə bir İran pasportu uydurараq onun Bakıya geri alınmasını və İrana sürülməsini səfarət vasitəsiylə təmin etmişlərdi.

İlk öncə İranın quzeyindəki Rəşt şəhərində yerləşərək bir müddət orada keçindikdən sonra bolşevik ajanlarının təhdidi altında qaldığından Tehrana köç etmək məcburiyyətini hiss etmişdir.

Tehrana yerləşməsindən bir sürə sonra Əjdər Qurtulan Məhəmməd Əmin Rəsulzadə ilə irtibat quraraq, onun təmsilçiliyi vəzifəsini üzərinə almışdı.

Əjdər Qurtulan İranda qaldığı müddətcə bu fəxri təmsilçilik görəvini əzəmi fərağət və sədaqətlə ifa etmiş bulunuyordu. Əmin bəyin Avropada yayınladığı «İstiqlal» və «Qurtuluş» orqanlarını müntəzəmən alaraq, İrandakı mühacir yurddaşlarımız arasında dağıtmaq surətilə onların məmləkətə və davaya qarşı yaxın ilgilərini oyandırmaqdan geri qalmamışdı.

Bu yüzdəndir ki, Əjdər Qurtulan Tehrandakı Sovet Elçiliyinin və ajanlarının tərəssüd nəzərlərini daima kəndi üzərinə çəkmiş bulunuyordu. Və 1941 sənəsində İranın ruslarca işğalından və Tehrana qədər nüfuz etmələrindən sonra Əjdər Qurtulan və ailəsinə qarşı girişilən bu tərəssüd və təqibat ən həddsəfhəsini bulduğu və adəta, açıq bir komplo halını aldığı içindir ki, Qurtulanla yaxın məsai arkadaşı Əli Azərtəkin İran ordusuna sığınmaq zorunda qalmışlar və İran məqamlarının yüksək dəstəyi və kəza Türkiyənin Tehran Böyük elçiliyinin geniş yardımları ilə ana vətənə köç etməyə müvəffəq olmuşlardı. O gündən etibarən İstanbulda yerləşən Əjdər Qurtulan bir tərəfdən ailəsini keçindirmək və çocuqlarını yetişdirmək için xüsusi bir şirkətdə çalışırkən, bir tərəfdən də Ankaradakı Azərbaycan Kültür Dərnəyinin nəşriyyat fəaliyyətlərinə və bir sürə də İstanbuldakı Azərbaycan Gənclik Dərnəyinin kültürəl çalışmalarına əlindən gəldiyi qədər yardımda bulunmuşdu.

Əjdər Qurtulan çocuqluqdan bəri tanıdığı və arkadaşlıq yapdığı mərhum Mirzə Balanın yazılarının və fikirlərinin yayılmasına əzəmi diqqət göstərərək, vaxtilə İstanbulun çeşidli dərgi və qəzetələrində çıxmış bulunan seri halındakı bu məqalələrin dərlənib toparlanması və yenidən yayınlanması için «Azərbaycan» dərgisinə göndərilməsinə durmadan qeyrət sərf edərdi. Bu yazıların bir qismi halən əlimizdə bulunduğu için ilk fürsətdə onların da yenidən basılmasına, əlbəttə, dərgimizcə çalışılacaqdır.

Əjdər Qurtulan ilə Tehranda keçirdiyimiz unudulmaz məsud günləri və gərək Ankarada, gərəksə İstanbuldakı buluşmalarımızı və milli dava ətrafında hərarətli görüşmələrimizi burada, bilxassə bəlirtmək istərim.

1934-1938-lərdə Tehranda qaldığım beş sənə zərfində deyə bilirim ki, həmən hər həftə Əjdərin evində Quzey Kafkasyalı Aytək Qunduqla birlikdə buluşur və Kafkasyanın qurtuluşu haqqında səmimi həsbi-hallarımıza davam edərdik.

İranın ruslar tərəfindən işğalından sonra birdən-birə ortadan kayb olan Aytək Qunduq Kafkasya qurtuluş davasının, heç şübhəsiz, ən vəfakar və ən sadiq mücahidlərindən biriydi. Təmiz və dürüst əxlaq sahibi, fədakar və ciddi idealist bir gənc olan bu əziz müştərək dostumuz heç bir zaman xatirimizdən çıxmış olmayıb. Əjdər ilə hər görüşməmizdə onun bizim üzərimizdə bırakmış olduğu silinməz intibalardan uzun boylu bəhs edib-dururduq.

Əjdər Qurtulan bütün halıyla, düşüncələri, fərağət və fədakarlığı ilə və kəza davadakı sarsılmaz səbat və əzmi ilə çevrəsi üzərində daima yılmaz bir mücahid intibasını bırakmaqda idi.

Bu vəsfləriylə unudulmaz əziz arkadaşımızı hər daim rəhmət və minnətlə anar və kədərli ailəsinə Ulu Tanrıdan səbr və təsəllilər dileriz.

Cənabi Haqq rəhmət və şəfqətini üzərindən əsirgəməsin!..

HÜSEYN CAMAL YANAR

Hüseyn Mirzə Camalı (Hüseyn Camal Yanar) ilk dəfə Bakı Türk Ocağındakı Müsavat Partisinin konfrans salonunda görmüş və tanımışdım. O bizdən çox daha böyük olduğundan ağabəyimiz durumundaydı. Yıl 1919. Həmən hər həftə parti salonunda tanınmış aydınlarımızdan bir çeşidli siyasi, iqtisadi, sosial və ədəbi konularda konfranslar verməkdə idi. Hüseyn Camal bəy də bunlardan biriydi. Kəza Məhəməd Əmin Rəsulzadə, Mirzə Bala, Məhəmməd Ağaoğlu konfrans verənlər arasında idilər. Bu konfranslara geniş aydın zümrələri qatılaraq yapılan konuşmaları ilgiylə izləməkdə idilər. Böyləcə parti təşkilatı ətrafında getdikcə daha geniş bir kadro toplanmaqdaydı.

Bu konfransların bir qismi basılaraq yayınlanmışdı. Və əldən-ələ dolaşmaqdaydı.

Eyni 1919 sənəsində Müsavat Partisinin ikinci konqresi sözü keçən salonda toplanmış bulunuyordu. Başqanlıq məqamında Məhəmməd Əmin Rəsulzadə, Mustafa Vəkiloğlu yer almışlardı. Proqram ətrafındakı siyasi dartışmaların ən hərəkətli səfhəsində başqan Əmin bəy Hüseyn Camal bəydən gələn bir diləkçəni oxudu. Hüseyn bəy diləkçəsində quruluşundan bəri Azərbaycana yüksək hizmətləri keçmiş və fədakar ünsürlər yetişdirmiş Müsavat Parti kadrosuna alınmaqla iftixar duyulacağını bəlirtməkdə idi. Diləkçə sahibi seyirçilər arasında bulunmaqda idi. Kəndisini iyi tanıyan konqre üyələri alqışlarla partiyə qəbulunu onaylamış oldular. Və böyləcə parti tarixində ilk dəfə bir aydınımız qələbəlik konqre topluluğu tərəfindən üyəliyə alınmış bulunuyordu.

Bir sürə sonra yeni parti tüzüyü gərəyincə toplanan Bakı təşkilatı üyələri Hüseyn Camal bəyi partinin Bakı Komitəsinə seçdilər. Yeni üyələr arasında Məhəmməd Əli Rəsulzadə, Abbasqulu Kazımzadə (Abbas Eldəniz), Mirzə Bala Məhəmmədzadə, Əbdül Vahab Məhəmmədzadə və bir çox digərləri dəxi bulunmaqda idi. Yeni komitənin ilk toplantısını Məhəmməd Əmin Rəsulzadə bir konuşma ilən açdı və Bakı Komitəsinin başqanlıq divanının seçilməsini üyələrə təklif etdi. Komitə başqanlığına Abbasqulu Kazımzadə, başqan yardımçılığına isə Hüseyn Camal ilə Mirzə Bala seçildilər.

Hüseyn Camal bəy daha öncə 1908 sənəsində İran inqilab hərəkatına qatılmaq üzrə Quzey İrana getmişdi. Bilindiyi gibi, 1906 sənəsində Qacar istibdad rejiminə qarşı İranın həm quzey qismi Gilanda, həm Azərbaycanda və Güney İranda patlaq verən məşrutiyyət hərəkatı hızla genişləyərək, Tehran üzərinə yürüməkdəydi. Azərbaycandakı hərəkatın başında sərdar Səttar xan və arkadaşı Bağır xan durmaqdaydı. O sıralarda Bakıdan və Quzey Azərbaycanın digər bölgələrindən bir çox könüllülər Səttar xan qüvvətlərinə qatılmaq üzrə Təbrizə getməkdə idilər. Hüseyn Camal bəy də eyni şövqlə Quzey İrana doğru yola çıxmış bulunuyordu. Eyni sıralarda Məhəmməd Əli Rəsulzadə Quzey İrana, Məhəmməd Əmin Rəsulzadə də Tehrana hərəkət etmiş bulunuyorlardı. Əmin bəy inqilabın müzəffər olduğu Tehranda tam üç sənə «İrani-nov» qəzetəsini yayınlamışdı. Və fikirləri ilə yeni hərəkatın qüvvət qazanmasına çalışmış bulunuyordu.

Hüseyn Camal Yanar müstəqil Azərbaycanın parlamentar idari təşkilatında vəzifəli bulunuyordu. Və bu vəzifəsinə 27 nisan istila gününə qədər davam etmişdi.

Fəqət siyasi həyatın çəkişmələrlə və mücadilələrlə dolu xarakteri Hüseyn Camal bəyin həssas şair təbiətinə ta başlanğıcdan bəri pək uyğun düşməmişdi. Onun içindir ki, 1920 sənəsi başlanğıcında həm partidən, həm də siyasi həyatdan tamamilə çəkilərək kəndisini ədəbiyyat, fəlsəfə və din gibi konulara həsr etmişdi. Türkiyəyə sığındıqdan sonra da 54 sənəlik köçmən həyatı bir sürə təkəl idarəsindəki məmuriyyətlə və sonraları təsəvvüflə ilgili mövzularla və özəlliklə, Mövlana Cəlaləddin Ruminin əngin əsərlərini incələməklə və «Məsnəvi»nin ünlü təsvirçisi Ankaravinin əsərlərini tədqiqlə keçirmişdi. Çox qüvvətli hafizəyə sahib olduğu için Mövlanənin ən uzun qəsidələrini əzbərləyə bilmişdi. Farscası və ərəbcəsi də qüvvətli olduğu için Mövlanənin ən incə fikirlərini qavramaqda və izahda zorluq çəkməzdi. Çeşidli dedi-qodulardan uzaq, hər kəsə yardıma amadə bir ruh daşıyan Hüseyn Camal bəy bütün yurddaşlarının və dostlarının dərin sevgi və sayğısını qazanmış bulunuyordu. Həpsi ilə görüşür, həpsinin xətrini sorar və əlindən gələn yardımı əsirgəməzdi. Bu surətlə, kəndi köşəsində içli və sakin bir həyat keçirən Hüseyn Camal bəy 90 küsür sənə aramızda yaşamış və keçənlərdə İstanbulda hər kəsin «Azəri dayısı» deyə tanıdığı sevimli bir şəxsiyyət olaraq həyata gözlərini yummuşdur. Siyasətdən ayrılmış

olmaqla bərabər, vətəninə qarşı sevgisindən, həyəcanından və bağlılığından heç bir şey itirməmiş bulunan əziz dayımıza Cənabi Haqdan rəhmətlər niyaz edəriz. Və başda Ege Universitəsi professorlarından yegəni Dilşad xanım olmaq üzrə bütün yaxınlarına, dostlarına və tanıdıqlarına başsağlığı və təsəllilər diləriz.

AZƏRBAYCAN TÜRKLÜYÜNÜN YENİ BİR KAYBI

Əslən Azərbaycanın ikinci başkəndi Gəncədə doğmuş olub, məmləkətimizin rus bolşevik qüvvətlərincə istila və işğalından sonra Türkiyəyə köç edərək İstanbulda öyrəniminə davam edən və daha sonra Almaniyada türk ləhcələri üzərində dənəmə və bilgilərini dərinləşdirərək İstanbul Ədəbiyyat fakültəsində yıllarca eyni sahədə yüzlərcə ləyaqətli elm qüvvətləri yetişdirən və bir çox əsərlər vücuda gətirən yurddaşımız prof.Əhməd Cəfəroğlunu ocaq ayının altısında ağır bir qəlb xəstəliyi nəticəsində, maaləsəf, kayb etmiş olmanın üzüntüsü içindəyiz.

Mərhumun hal-tərcüməsi və Türkiyədəki elmi çalışmaları haqqında gərəkən bilgiləri səlahiyyətli qələmlərdən dərgimizin digər sütunlarında oxuma fürsətini bulacaqsınız. Yüksək qədirşünaslıq duyğuları ilə qələmə alınmış bulunan bu qiymətli yazılarına qarşı möhtərəm zəvata məmnuniyyət və təşəkkür borcumuzu ifadə etməyi kəndimizə bir vəzifə ədd etməkdəyiz.

Biz rəhmətli Cəfəroğlunun bir başqa cəbhəsini burada ələ alacağız. Cəfəroğlu Türkiyəyə ayaq basdığı gündən etibarən Milli Azərbaycan istiqlal davasına cani könüldən bağlanaraq son nəfəsinə qədər əlindən gəldiyi qədər bu qutsal vətəni ödəvinə davam etmişdir. Hətta daha üniversitədə öyrənci ikən Kafkasya sınırını gizlicə aşaraq Azərbaycan İstiqlal Komitəsi ilə təmasa keçmək və vətənin qədəri uğruna üstün düşmən qüvvətlərinə qarşı mücadilə yapan bu məhrəm təşkilatla İstanbuldakı mühacirət irəli gələnləri arasında bağlantı qura bilmək için ta başkəndimizə qədər uzanmış və rəhmətli Mirzə Bala, Rəhim Vəkiloğlu və böyük şair dramaturqumuz Cəfər Cabbarlı ilə görüşməyə müvəffəq olmuşdu. Sonra uzun öyrətim dövrəsincə Əhməd Cəfəroğlu öyrənciləri̇nə milli duyğuları aşılamaq, Azərbaycan davasını tanıtmaq və əsir türklərin durumlarını izah etmə yolunda heç bir zaman qeyrətlərini əsirgəməmiş bulunuyordu. Ayrıca gərək dərgimizdə, gərəksə daha öncə Məhəmməd Əmin Rəsulzadənin İstanbulda çıxarmış olduğu bilcümlə yayın orqanlarında Azərbaycan davası ilə ilgili bir çox yazılar yazmış, konfranslar vermiş, broşürlər basdırmış və hər elmi əsərində bir fürsətini bularaq bu konuya təmas etmiş, türk kamu oyunu aydınlatmağa və ilgiləndirməyə çalışmışdır.

Prof.Əhməd Cəfəroğlu uzun sənələr rəhmətli Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə və onun öndərliyi altında çalışmışdır. Əmin bəyin Azərbaycan davasındakı yüksək otoritəsini ta başlanğıcdan etibarən təqdir etmiş və kəndisinə qarşı dərin sayğı bəsləmişdir. Gərçi aralarında bəzən bir taqım anlaşılmazlıqlar hüsulə gəlmiş, fəqət bütün bunlar daha ziyadə Əhməd Cəfəroğlunun həssasiyyətindən və indi məsələlərdən doğmuş bulunuyordu. Bu tutuma daha fazla küskünlük və keçimsizlik demək bəlkə doğru olur. Hər halda prinsiplərdə ayrılıq və çatışma bəhs konusu olmamışdır. Nitəkim, üzərindən bir sürə keçdikdən sonra Əhməd Cəfəroğlu milli istiqlal kadrosuna təkrar iltihaq etmiş və onlarla bərabər eyni yol üzərində mücadiləyə davam etmişdir.

Son sənələrində Əhməd Cəfəroğlu Münihdə fəaliyyətdə bulunan «Hürriyyət radiosu»na Azərbaycanın elm və fikir adamları ilə ilgili bəzi konuşmalar göndərərək, o kanaldan mümkün mərtəbə azərbaycanlı dinləyicilər üzərində müəssir olmağa çalışıyordu.

Hər halda bu konuşmalar nəticəsində olacaq ki, Bakıdakı türkcə «Kommunist» qəzetəsi sütunlarında ara-sıra Əhməd Cəfəroğlu haqqında iftiralarla dolu və uşak ruhlu insanların qələmindən bəzi yazılar çıxmaqdaydı. Əlbəttə, rus uşakları və ajanları Cəfəroğlunun aydınladıcı konuşmalarını xoş qarşılayamazlardı. Və yuxarıdan verilən direktivlər üzərinə bilmədən və anlamadan əfəndilərinin ağzından bəzi suçlamalar yapıyorlardı. Fəqət dünyanın nə tərəfində olursa-olsun, azərbaycanlı aydınlar və oyanıq gənclər Cəfəroğlunun məmləkət dışında yapmış olduğu elmi, ədəbi və siyasi çalışmalarını təqdir və minnətlə anacaqlardır. Bizə görə, Əhməd Cəfəroğlunun Azərbaycan davasında sayğı və təqdirədəyər önəmli bir mövqeyi bulunmaqdadır. İştə bu duyğularla biz onu daima şükran və minnətdarlıqla anmağı kəndimizə bir vəzifə biliriz.

Ailəsi əfradı, həmşəhriləri, dostları və kəza kəndisini anan və təqdir edən bilcümlə arkadaş və məsləkdaşlarına başsağlıqları dilər, rəhmətliyə Ulu Tanrıdan məğfirət niyazında bulunuruz.

«AZƏRBAYCAN» DÖRD YAŞINDA

Dərgimiz nisan sayısı ilə 4 yaşını doldurmuşdur. Əlbəttə, dörd yaşında bir çocuq daha hər baxımdan böyüklərinin, sevənlərinin himayəsinə, yardımına möhtacdır. Bu çocuq daha şimdidən yürüməsini, ayaqda tutunmasını, hətta koşmasını pək əla bilir. Yolunu da iyicə bəlləmişdir. Çünki «Yeni Kafkasya», «Odlu Yurd», «İstiqlal» və «Qurtuluş» kimi sağlam yapılı, təcrübəli və sınanmış ağabəyləri, kiçik «Azərbaycan»ın əlindən tutaraq dərin bir sevgi və etina ilə yol yürüməsini, daşa-divara çarpmamasını, daima basdığı yerə diqqət etməsini kəndisinə öyrətmişlərdir.

«Azərbaycan» yolunu, hədəfini pək iyi biliyor. İstiqamətindən şaşmaz. Məmləkət içində və dışında müəzzəm bir qurtuluş hərəkatını, ölməz istiqlal davasını, hər cəbhəsi ilə müdafiə etdiyini müdrikdir.

Yolunun çətin və zəhmətli olduğunu da bilməz deyildir. Fəqət gənc bir vücudun yaşama və çarpışma atəşi onu hər gün bir az daha güclükləri yenməyə alışdırmaqdadır.

«Azərbaycan» hər şeydən öncə Milli Azərbaycanı bütün qiymətləri, maddi və mənəvi zənginlikləri ilə tanıtmaq və yaşatmaq istər. Böylə olduğu üçün də, eyni zamanda Azərbaycan türklüyünü, mazisi, halı və istiqbalı ilə tanıtmaq və yaşatmaq əzmindədir. Türklüyün çox mühüm, çox əsaslı bir qolunu təşkil edən Azərbaycan türklüyü tarixinin, kültürünün, sənətinin və ədəbiyyatının verdiyi təkmil haqlarla yaşama, gəlişmə, irəliləmə, hürriyyət və istiqlal sahibi olma qutsal hüququnu haiz mədəni bir camiə sifəti ilə 20-ci əsr dünyasında kəndinə şayəstə məqamı ehraz etməlidir. Bu haqq bugünkü demokrasi dünyasında ən kiçik, ən zəif millətlərə belə tanınmaqdadır. Halbuki Azərbaycan türklüyü 36 sənədir, hər növi zülüm və təhəkkümə məruz buraxılaraq ən ibtidai insanlıq haqlarından belə məhrum buraxılmışdır.

Eyni zamanda «Azərbaycan» dərgisi bütün məhkum Türk dünyasının qurtuluş davasına da əlindən gəldiyi qədər yardımçı bulunmaqdadır. Çünki davamız bir və müştərəkdir.

Dörd sənədir, bu yolda yürüdük. Bundan sonra dəxi heç şaşmadan yolumuza davam edəcəyiz. Haqq və həqiqət kılavuzumuz, millətin dəstəyi yardımçımızdır.

Haqq və millət payidar olsun!

«AZƏRBAYCAN» BEŞ YAŞINDA

1 nisanda dərgimiz beş yaşını doldurmuş bulunuyor. Ümid edəriz ki, şu keçən beş sənə zərfində yurddaşlarımızın məmləkət davaları ilə ilgili mənəvi ehtiyaclarını mütəvazi də olsa bir dərəcəyə qədər tətmin etmiş olduq. Əlbəttə, könül istərdi ki, bu dərəcə mühüm ədəbi, kültürəl, iqtisadi və siyasi davalar üzərinə daha geniş kadrolarla daha böyük ölçüdə incələmələr və çalışmalar yapılsın. Azərbaycanı və bütün məhkum türk ellərini ilgiləndirən elmi, ədəbi, iqtisadi və siyasi davalar o dərəcə geniş və şümulludur ki, tədqiq, təhrir və təklif qabiliyyəti bulunan yüzlərcə insan və bir çox nəşr orqanları bu vase sahədə bütün ömürləri boyunca müsbət hizmətlər göstərərək bir-birilə səmərəli yarışa girə bilirlər. Bu sahədə hər faydalı insana iş vardır.

Bizim şimdiki dünya şərtləri daxilində yürütdüyümüz dava məmləkətlərimizi iyi tərəfləri və iyi cəbhələri ilə mədəni millətlərə tanıtmaqdır. Bunda müvəffəq olursaq, yurdumuzun qurtuluşuna iyi bir zəmin hazırlamış olacağız.

Biz həp bu yoldan yürüdük. Və mədəni dünya ümumi-əfkarı üzərində 37 sənədən bəri qazanmış olduğumuz müsbət əlaqə və simpati də ancaq bu səmərəli və fərağətli çalışmalar sayəsində mümkün olmuşdur.

Biz səmimi olaraq Azərbaycan milli davası üzərində müsbət əsərlər meydana qoyacaq nəşr orqanlarının dünyanın hər bucağında çoxalmasını istəriz. Çünki tək əldən səs çıxmaz!

Yalnız davaya müzir və mənfi orqanların artmasını istəməyiz.

«Azərbaycan»ı beş sənədən bəri çıxarmaqda nə qədər maddi və mənəvi müşkülat çəkmiş olduğumuzu, əlbəttə, geniş oxuyucu kütləsi təqdir edəməz. Bunu yalnız bizimlə günü-gününə çalışanlar təqdir edərlər.

Hal-hazırda Azərbaycan davasını sərahətlə və sədaqətlə və üstəlik, bütün cəbhələri ilə dünyada əks etdirən yeganə milli nəşr vasitəmiz «Azərbaycan»dır. Onu hər baxımdan dəstəkləmək və yaşatmaq həpimiz və təkmil türk camiəsi için milli vicdan borcudur.

Azərbaycanın səsi susmamalıdır.

Yaşasın «Azərbaycan!»

«AZƏRBAYCAN» 7 YAŞINDA

Dərgimiz bu sayısı ilə yeddi yaşını doldurараq səkkizinə basmışdır. Bizim çalışdığımız maddi və mənəvi olduqca məhdud şərtlər daxilində bu bir dərgi için qısa bir ömür sayılamaz.

«Azərbaycan» müəyyən prinsiplərə və qutsal milli bir davaya bağlı fikir və məfkurə orqanıdır. Qazanc məqsədi güdmədiyi gibi, hər hangi şəxsi əməl və qayələr də təqib etməz. Hər sətrində Azərbaycan və ümumi türklük davasına xeyirli olmağa çalışır. Nifaq və dedi-qodudan qaçınır, bütün müsbət ələmanları milli dava ətrafında birləşdirməyə qeyrət edər.

«Azərbaycan» dərgisi azəri türklüyünü müsbət bütün cəbhələrilə hürr dünyaya tanıtmağa səy edər. Qayəsi Azərbaycanın həm siyasi və iqtisadi və həm kültür xəzinələri baxımından hürr və müstəqil yaşamağa haqq qazandığını göstərməkdir. Bu xüsusda keçən yeddi sənə zərfində əlimizdən gələn bütün qeyrəti sərf etdik. Öylə sanıyoruz ki, dərgimizə ağırbaşlı, heysiyyət və şərəf sahibi bir nəşr orqanı vəsfini qazandırmağa müvəffəq olduq. Dərgimizi ələ alan hər kəs onun sütunlarında Azərbaycan həyatının müxtəlif səfhələrini tədqiq etmək imkanını bulmuşdur. Və hər şeydən üstün də onun yazılarında Azərbaycan mücadilə ruhunun bütün dərinliyini sezmiş və anlamışdır.

Bundan böylə dəxi eyni yolda səbat və mətanətlə yürüməyə əzm etmiş bulunuyoruz. Bu çətin işdə Azərbaycan mühacirətinin hər vətənpərvər fərdindən əzəmi yardım bəkləməkdəyiz. Dünyanın nerəsində bulunurlarsa-bulunsunlar, hər azərbaycanlının qutsal vəzifəsi vətənin hürr səsini hürr millətlərə duyurmaqdır. Başqa məhkum millətlər kəndi səslərini sayısız nəşr orqanları vasitəsilə duyurmağa müvəffəq oluyorlar. Maaləsəf, bizim imkanlarımız onlara nəzərən çox məhduddur.

Hal-hazırda Azərbaycan türklüyünün hürr dünyaya yeganə səsini duyuran və yeddi sənədən bəri müntəzəm surətdə nəşrinə davam edən müsbət fikir orqanı əlimizdəki «Azərbaycan» dərgisidir. Onu hər an bir az daha qüvvətləndirmək və möhtəvaca daha fazla zənginləşdirmək həpimizə düşən qutsal vəzifədir. Dərgimizi göz bəbəyi gibi qorumaq və bütün qəlbimizlə sevmək və mənimsəmək milli şərəf borcumuzdur.

«Azərbaycan» dərgisi hürr və müstəqil Azərbaycanın yılmaz mücahididir, enməyən bayrağıdır, qısılmayan səsidir və şanlı müjdəçisidir!

Ona yapılan hər dürlü yardım milli Azərbaycan davasına göstərilən müzahirətdir. Dərgimizi yaşatmaq Azərbaycan fikrini yaşatmaq deməkdir. Vətənsevər yurddaşlarımızın bu böyük həqiqəti haqqıyla idrak edəcəklərinə dərin imanla vəzifəmizə davam ediyoruz.

Yaşasın «Azərbaycan» dərgisi!

25 YIL VƏZİFƏ BAŞINDA

1949 sənəsinin 2 şubatında əski Cəmiyyətlər Qanununun hökmləri daxilində qurulan Azərbaycan Kültür Dərnəyi o gündən bu günə 25 yılını doldurmuş bulunmaqdadır. Türkiyədəki bir çox dərnəklərdən fərqi şuradadır ki, sınırlarımız dışında əsarət həyatını yaşayan Azərbaycanlı türklərin və mümkün olduqca ötəki əsir türk ellərinin dəxi tarix, ədəbiyyat, tiyatro, sənət, kültür, ekonomi, gələnək-görənək və başqa cəbhələrini qardaş Anadolu türklüyünə və dolayısıyla mədəni dünya millətlərinə anlatmaqda və tanıtmaqdadır.

Təqdir edərsiniz ki, mühacirət şərtləri daxilində bu qolay bir iş deyildir. Çünki məmləkətlərimizlə təmas və müxabirə imkanı bulunmadığı için tanıtmağa yarayacaq ana qaynaqları əldə etmək qolay olmuyor. Ölkələrimiz dış dünya ilə normal xəbərləşmə vasitələrindən tamamilə məhrum çağ dışı despotik bir rejim altında yaşamaqdadır. Halbuki davalarımızı mənimsədə bilmək için hər şeydən öncə geniş çapda tanıtma vasitələrinə lüzum vardır. Üstəlik, dərnəyimizin mənəvi imkanları yanında maddi olanaqları da pək sınırlıdır. Bütün bunlar nəzərə alınacaq olursa, digər sütunlarımızda oxuyacağınız 25 sənəlik çalışmalarımızla ilgili təfsilatlı rapordan görəcəksiniz ki, çaba və başarılarımız heç də küçümsənəcək ölçüdə deyildir.

Hər şeydən öncə, biz türklər dünyanın dörd bucağına yayılmış bulunan soydaşlarımızı çox iyi tanımalıyız! Hər birimizin kəndi işləri və dərdləri nə qədər yüklü olursa-olsun, bu qarşılıqlı tanıma və öyrənmə yapılması gərəkən qaçınılmaz milli bir vəzifədir. Çünki bir millət kəndisini hər baxımdan iyi tanımaq və tanıtmaq surətilə ancaq dünya çapında yerini və dəyərini qoruya bilir. Gerçək milli savunulmanın başlıca şərti müəzzəm türk topluluğuna mənən və maddətən sahib çıxma və onu hər dürlü düşmən saldırısına qarşı məsun tutma çabalarına bağlı bulunmaqdadır. Birliyini, bərabərliyini və dayanışma zehniyyətini itirən bir millət, əlbəttə ki, güclü düşmənlər qarısında varlığını qoruyamaz.

Azərbaycan türklüyündə böylə bir dayanışma insiyaqı nə əsarət dövründə, nə də istiqlal dövründə heç bir zaman əksik olmamışdır. Azərbaycan aydınları və gəncləri daha çarlıq dövründə və hələ ondan daha kötü despotik bir rejim qurmuş olan bolşevik idarəsində mümkün

olan hər dürlü vasitələrlə Türkiyədən qaçaq yollarla gətirdikləri kitabları qapışaraq Əbdülhaqq Hamidin, Tofiq Fikrətin, Xalid Ziya Uşaklıgilin, Xalidə Ədibin, Məhəmməd Əmin Yurdaqulun, Mehmet Akifin, Aka Gündüzün, Ziya Göyalpın və digər böyük türk ədiblərinin əsərlərini oxumağa və bir çox parçalarını əzbərləməyə və bunlardan ilham almağa qeyrət etmişlərdir, kəza Əhməd Rəfiqin, Nəcib Asimin və Əhməd Rasimin tarix kitabları əldən-ələ dolaşmaqda idi. Türkiyədən gələn milliyyətçi qəzetələr sürətlə qapışılmaqda və gizli toplantılarda gənclər tərəfindən oxunub incələnməkdə idi.

Azərbaycanın da böyük yazarları vardır: Həbibi, Füzuli, Nəsimi, Mirzə Fətəli Axundzadə, Molla Pənah Vaqif, Vidadi, Zakir, Hacı Seyid Əzim, Sabir, Məhəmməd Hadi, Nəcəf bəy Vəzirli, Əbdürrəhim Haqverdili, Əhməd Cavad, Cəfər Cabbarlı, Hüseyn Cavid və s.

Azərbaycan musiqi ustadlarından sadəcə Üzeyir Hacıbəylini və Müslüm Maqomayı xatırlatmaq yetər sanırız.

Əcəba, türk aydınlarından və hələ ədəbiyyatçılarından kaç kişi bunlar haqqında fikir sahibidir?!

Azərbaycan Kültür Dərnəyi qurulduğu sənələrdə iki qardaş türk ölkəsi arasındakı mənəvi bağlantılar daha gevşek və daha yetərsiz deniləcək ölçüdə idi. Biz bu boşluğu keçən 25 sənə içində əlimizdən gəldiyi qədər doldurmağa çalışdıq. Və bu gün də eyni yol üzərində davam ediyoruz.

Bu çalışmaları yürüdən gənc kadromuz məmləkət və millət sevgisindən başqa heç bir məqsəd və qayəyə etina etməyərək, tərtəmiz idealist bir zehniyyətlə gerçəkləşməsi güc və uzun vadəli bu davaya bütün könlü və varlığı ilə bağlanaraq ülvi qayəsinə eyni himmət və imanla davam etməkdədir.Və heç şübhə etmiyoruz ki, bir-birini arxa-arxaya izləyəcək olan bu fərağətli idealist kadrolar başda Azərbaycan olaraq, bütün əsir türk elləri hürriyyət və bağımsızlıqlarına qovuşuncaya qədər qutsal vəzifələrini aralıqsız sürdürəcəklərdir. Çünki yalnız bizlərin deyil, bütün türk dünyasının gerçək varlığı və milli əgəmənliyi ancaq bu gibi çalışmalar sonucunda nihai zəfərə ulaşacaqdır.

Biz başladıq, gənc kuşaklarımız heç yılmadan, usanmadan bu davanı bütün gücləri ilə sonuna qədər yürüdəcəklərdir. Bundan əsla şübhə etmiyoruz!...



TÜRK DÜNYASI

ATANI ANARKƏN

Böyük əsgəri bir dahi olan Atatürk, eyni zamanda siyasət dühası olaraq məmləkətini sadəcə müstəvli düşmən qüvvətlərindən qurtarmaqla və sağlam bir dövlət qurmaqla qalmamış, Doğudan gələn kommunizm təhlükəsinin və sovet yayılma politikasının əzəmət və vüsətini dəxi haqqıyla təqdir edərək, çox ustaca yürütdüyü klassik bir diplomasi fəaliyyətiylə rusların Türkiyəyə və dolayısıyla Orta Doğuya sızmalarına mükəmməl bir sədd çəkmişdir.

Kommunizmin milli bünyəni yıxmaq baxımından nə dərəcə müəzzəm bir təhlükə təşkil etdiyini kimsə Atatürk qədər təqdir edəməmişdir. Yenə kimsə Onun qədər rus imperializminin yeni qızıl maskasını təşxis edəməmişdir.

Sovet Rusiya mövcudiyyəti uğrunda çarpışan yeni Türkiyəni «yardım» yoluyla içindən təsxir etmək və bu surətlə, bir daşla iki quş vuraraq həm batılı düşmənlərinə türkün əliylə darbə endirmək, həm də bu məmləkəti kommunizm hesabına qazanmaq, yəni kəndisinə peyk yapmaq istiyordu.

Feiliyyatda Türkiyə, istiqlal savaşlarında iki atəş arasında qalmış bulunuyordu: batılı müstəvli qüvvələr və yenidən türk hüdudlarına dayanmış bulunan qızıl rus orduları!

Atatürk bunlardan birincisinə silahla, digərinə diplomasi ilə müqabilə etdi. Nəticədə ikisini də məğlub etdi.

Üçüncü İnternasionalın Moskva və Bakıdakı Şərq Komitəsi, Şərq Şurası və Şərq Millətləri Kongresinin Türkiyə və digər Orta Doğu məmləkətlərinə qarşı Kremlin direktivləri üzərinə çevirdikləri min bir təhrik və dəsisəni bilənlər, Çiçerinin şərq vilayətlərimizin iadəsinə göstərdiyi müxalifəti duyanlar Atatürkün Moskov əməllərinə müqavimət için nə qədər enerji və məharət sərf etmiş olduğunu təqdir edərlər.

Atatürk yurdunu bir təhlükədən deyil, iki təhlükədən qurtarmışdır. Və yalnız qurtarmış deyil, eyni zamanda məmləkətin bir daha bu gibi təhlükələrə məruz qalmaması için kamalizm gibi sağlam bir düşünüş və idarə tərzini gerçəkləşdirərək türk gəncliyinə miras bırakmışdir.

Sovet idarəçiləri Atatürkün uzaqgörücü siyasəti nəticəsində məruz qaldıqları mənəvi yenilgini pək iyi hiss etmiş olacaqlar ki, sonradan Çindəki Koumintanq Partisinə yardım məsələsi bəhs konusu olunca:

«Onlar da başımıza Atatürkün oyununu açmasınlar. Yardım etdik, amma kommunistlərə də göz açdırmadı!» − diyorlardı.

Bugünkü Çində və peyk məmləkətlərdə gördüyümüz gibi, sovet «yardımı» daima bərabərində kommunist idarəsini gətirmişdir. Atatürk isə qüdrətli politikası ilə sovet nüfuzunu və kommunist sızmalarını kəndi məmləkətindən daima uzaq tutmuşdur. Və Moskvanın əməllərini suya düşürmüşdür.

Atatürk yalnız Türkiyəni qurtarmaqla qalmamış, ilə sovet nüfuzunun Orta Doğuya yayılmasına da mane olmuşdur. İstiqlal savaşlarını qazanır-qazanmaz Batı məmləkətləri ilə yaxın işbirliyi təsis etməsi də kommunizm təhlükəsinə qarşı ayrıca bir təminat təşkil ediyordu. Gərək Doğuda, gərəksə Batıda Türkiyə bugün dəxi eyni yol üzərindən yürüməkdədir. Atatürkün əbədi izi üzərindən...

ATATÜRK VƏ DIŞ TÜRKLƏR

Böyük Atatürkün Türkiyə için yapdıqları bütün cahanın məlumudur. Bunları uzun boylu anlatmağa belə lüzum yoxdur. Çünki hər biri müəzzəm birər abidə gibi bütün dünyanın gözləri önündə vüqar və ehtişamla yüksəlməkdədir.

Biz Böyük Atanın dış türklər için yapdıqları üzərində duracağız. Bunların başında, əlbəttə, qüvvətli, bağımsız, irəli və zində Türkiyə Cümhuriyyəti gəlməkdədir. Bu Cümhuriyyət bütün dış türklər için böyük bir ümid qaynağı və canlı bir örnəkdir.

Cümhuriyyət Türkiyəsi milliyyət və türklük təməli üzərində qurulmuşdur. Qüdrət və ilhamını genəl türk tarixindən alır. Türkün uzun və zəngin tarixi boyunca vücuda gətirdiyi bütün kültür və sənət əsərlərini eynən mənimsər və onları kəndi malı gibi sevər və qucaqlar.

Cümhuriyyət Türkiyəsi Osmanlı imperatorluğunun xilafına olaraq türk kökü üzərinə dayanmaqda, yabançı dil və kültür təsirlərini milli bünyədən mümkün mərtəbə söküb-atmaqdadır. Bugünkü Türkiyəyə Türküstanın və ya İdil-Uralın ən uzaq köşələrindən gələn bir türk gənci kəndisini həmən qardaş bir mühitdə hiss etməkdə, dil, əxlaq və yaşayış baxımlarından heç bir yabançılıqla qarşılaşmamaqdadır.

Atatürkün dil sahəsində yapdığı əsaslı reform türkcədən farsca və ərəbcə təbirlərin çox böyük bir qisminin atılması və lisanın öz kökünə, yəni bütün türk dünyasında kullanılmaqda olan öz və əsl türkcəyə bir xeyli yaklaşması və uyması ilə nəticələnmişdir.

Atatürk dil konqrelərində səssiz və sədasız bu müəzzəm inqilabı yaparkən, eşsiz dühasıyla gələcək əsrlərə və türklüyün əngin və parlaq istiqbalına nüfuz etmiş və o böyük atinin sağlam təməlini atmışdır. Bu böyük inqilabı alfabe reformu tamamlamışdır. Çünki yeni türk alfabesi milli kültür və irfanı köy kulübələrinə və iş ocaqlarına qədər yaymaqdadır. Şübhəsiz, bu alfabe istiqbalda bütün türklüyün malı və tərcümanı olacaqdır.

Atatürk tarix tələqqilərimizdə də inqilab yaratmışdır. Ona qədər heç bir dövrdə türk tarixi bunca ariz və əmiq surətdə və həqiqi milli görüşlə elmi tədqiqə tabe tutulmamışdır. Türk Tarix Qurumunun və tarix konqrelərinin çalışmaları sayəsində bu gün türk ulusunun mədə-

niyyət dünyasına minlərcə sənədən bəri yapmış olduğu sayısız və sonsuz hizmətlər daha iyi və daha ətraflı surətdə anlaşılmışdır. Bu kəşflər türkün dünya millətlər topluluğundakı məqam və etibarını bir qat daha yüksəltməkdə, yaşama, çalışma, yaratma və savaşma əzmini qüvvətləndirməkdədir. Eyni zamanda bu çalışmalar türkün milli şüurunu sağlamlaşdırmaqda və onu yabançı və düşmən ideolojilərindən, müzir və təhlükəli təlqinlərdən qorumaqdadır. Bu qayrətlər sayəsindədir ki, türkün bu gün toplu və müştərək bir tarixi, yəni əmin bir istiqbalı vardır.

Atanın layiqli ümdəsi türk tayfaları arasında məzhəb və din ixtilaflarına son verməkdə və sıralarımıza daha fazla sıxlaşdırmaqdadır. Vicdani qənaətlərimizdə tamamən hürr və sərbəst qalmaqla bərabər, artıq heç bir məzhəb və din ayrılığı türkü türkə düşmən qılamaz Bu layiqliq ümdəsi türk milli təsanüdünü pəkləşdirən yeni bir amil olmuşdur.

Atatürk dış türklərə istiqlal mücadiləsini öyrətmişdir. Bu qutsal və mərhəmətsiz mücadilənin başlıca əsasları Atanın türk gəncliyinə yapdığı xitabında vəciz və parlaq bir şəkildə açıqlanmışdır. Bu əsasları şu cümlələrlə xülasə edə biliriz: İstiqlal davasında düşmənlə heç bir bazarlıq yapılamaz; düşmənin qüvvəti nə qədər böyük olursa-olsun, daxildə və xaricdə min bir xəsm və xəyanətkar qruplar və yabançı ajanları ilə qarşılaşılsa belə, hər nevi maddi, mali və şəxsi hırs və mənfəətlərdən təcərrüd edəcək fədakar türk gəncliyi sırf əsil türk qanına güvənərək və dayanaraq, təkbaşına mərhəmətsiz mücadiləsinə davam edəcək və sonunda mühəqqəq surətdə müvəffəq olacaqdır.

İştə, bugünkü Azərbaycan və Türküstan istiqlalçı gəncliyi də bu yoldan yürüyərək, düşmənin qızılına da, bəyazına da qarşı eyni əzm və mətanətlə mücadilə etməkdədir.

Bütün bunların fövqündə olaraq, bizzat Atatürkün adı da dış türklər için bir mücadilə və müqavimət simvoludur. Onun yüksək və bariz şəxsiyyəti türklük aləminin hər tərəfində hürriyyət və istiqlal əzmini qamçılamaqdadır.

Üfulunun 14-cü yıl dönümündə Böyük Atanın ölməz ruhu önündə dərin huşu ilə əyilirkən, Onun tərəfindən yetişdirilən türk gəncliyinin, türklüyün yüksək və əbədi ülkülərinə daima bağlı qalacağını ifadə edəriz.

Nur içində yatsın!

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 50-Cİ YIL DÖNÜMÜ (1923-1973)

İçində bulunduğumuz yılın 29 ekimində Türkiyə Cümhuriyyətinin 50-ci yıl dönümünü həp bərabər müəzzəm şənliklərlə, şövq və həyəcanla qutlamış olduq. Əslində bu bayram yalnız Anadolu türklüyünün deyil, bütün dünya türklüyünün içdən qutladığı qutlu və mutlu bir bayram mahiyyətindədir. Hətta sadəcə türklərin deyil, hürriyyət, bağımsızlıq və milli əgəmənliyə susamış bütün əsir millətlərin bayramı və ümid qaynağı məsabəsindədir. Çünki bu böyük bayram hər şeydən öncə türk tarixinin şanlı zəfərlərini, məsud günlərini və qurtuluş üfüqlərini qəlblərdə canlandırmaqdadır. Bu zəfərlə türklüyün əski qüdrəti və zindəliyi dünya millətlərinə yenidən isbat edilmiş bulunmaqdadır. Böyük Türkiyə Cümhuriyyətinin şəxsində və varlığında türk dünyası əski şaşaalı dövrlərini bir kərə daha yaşamaqda və sürdürməkdədir. Bir tərəfdən də dünya əsir millətləri Anadolu türklüyünün gözlər önünə sərdiyi möcüzəyə baxaraq, istiqbal için qurtuluş ümidlərini ayaqda tutmaqdadırlar.

Həqiqətən, Birinci Dünya savaşında Osmanlı dövlətinin inqiraza uğramasından sonra Anadolu dışında bütün torpaqlarını kayb etmiş, silahları əlindən alınmış, limanları və həyati mərkəzləri düşmən qüvvətlərcə işğal edilmiş türk milləti bəzilərinə varlıq sahəsindən tamamən silinmiş gibi göründüyü halda, ilahi bir qüdrətlə birdən-birə davranaraq, topyekun səfərbər hala gəlmiş və sözün tam mənasıyla hər şeyini qutsal dava uğruna vəqf edərək, təşxisləri qayət kəskin, tədbirləri son dərəcə müəssir Ulu bir Öndərin sövqü-idarəsi altında məmləkətin bütün şərtlərini dəyişdirərək, yoxluqdan varlıq yaradaraq və Cahan hərbinin qaliblərini yenərək, öz torpaqlarını qurtarmış, həyat haqqını dost və düşmənə qəbul etdirmiş və yepyeni təməllər üzərinə sağlam güclü dövlətini qurmuşdur.

Bu dövlət yalnız dışa qarşı deyil, içə qarşı dəxi hər baxımdan zində və əbədi bir dövlətdir. Böyük Atatürkün müəzzəm devrimləri Anadolu türklüyünə yeni bir həyat fəlsəfəsi, yeni bir yaşayış tərzi aşılamışdır. Səltənət tarixə qarışmışdır. Onun yerinə Milli hakimiyyət iqamə edilmişdir. Qadınlar erkəklərlə birlikdə seçmə və seçilmə haqlarına nail olmuşlardır. Əski alfabe qaldırılmış, onun yerinə türk

dilinin ehtiyaclarına uyğun yeni bir yazı tərzi qəbul edilmişdir. Türkiyədə demokrasinin doğması və gəlişməsi için bütün qapılar açılmış və imkanlar yaradılmışdır. Yeni yaşayış tərzi ilə Anadolu xalqının çağdaş mədəniyyətə doğru yolu açılmışdır. Məmləkət səthində tarımın və endüstrinin yan-yana hızla gəlişməsi için gərəkən olanaqlar hazırlanmışdır. Silahlı Qüvvətlərimizin karada, dənizlərdə və havalarda güclənməsi və düşmənlərlə boy ölçüşə bilməsi için ciddi tədbirlərə baş vurulmuşdur. Savaş və barış devrələrini qapsayan bütün bu çabalar türk millətinin tükənməz yaratma dühasından və Atatürkün eşsiz öndərliyindən ilham almış bulunmaqdadır. Atatürkün üstün dühası türk millətinə iyi təşxis qoymuş və xalqını iyi tanımış bulunmasında təzahür etməkdədir. Onun bu dühasıdır ki, yenilmiş Türkiyə haqqında sapıq qafaların önə sürmüş bulunduqları bütün səqət planlar və düşüncələr aqamətə uğradılmışdır.

Atatürk hər baxımdan ulu və eşsiz bir öndər olmuşdur. Onun bu öndərliyi yalnız Anadolu türklüyünə deyil, əksiksiz bütün dünya türklüyünə şamildir. Dildə reform yapdırmaq istərkən, Atatürkün Türküstana və Altaylara qədər uzanan təkmil türk kültür qaynaqlarını araşdırmış olması, onun türklük haqqındakı görüşlərini apaçıq meydana qoymaqdadır. Yəni, çağdaş türk dilinin təməli təmiz türk dili qaynaqları üzərində qurulmuşdur. Tariximiz də Anadolu tarixi olmaqdan çıxmış, dünya türklüyünün tarixini kəndi içərisinə almışdır. Və həpsini bir bütün halında qapsamışdır. İştə, Atatürkün böyüklüyü bütün türk dünyasını təmsil etməsindən irəli gəlməkdədir. O, böyük bir millətin böyük bir öndəridir.

Atatürk bütün əsir türklərə və ümumiyyətlə, məhkum millətlərə gerçək qurtuluş savaşının yolunu və yöntəmini göstərmiş və öyrətmişdir. Əsir millətlər bu qutsal yolu izləyəcək olurlarsa, heç şübhəsiz, ergec müzəffər olaraq qayələrinə ulaşacaqlardır.

İştə, bu baxımdandır ki, Türkiyə Cümhuriyyətinin 50. yıldönümü türk tarixinə yakışır bir şəkildə dünya müvacihəsində təsid edilməsi və bu 50 sənə içində əldə edilən başarıların millətlərarası kamuoyuna ərz edilməsi türklük aləmində olduğu qədər, əsir millətlər çevrələrində dəxi yeni üfüqlər açmaqdadır.

Əzmli və imkanlı bir millətin sömürgəçilik sistemindən, yabançı boyunduruğundan qurtulması və hürr, bağımsız, əgəmən dövlət

həyatına qovuşması için Anadolu İstiqlal Savaşından daha parlaq və daha məsud bir örnək göstəriləməz. Türkiyəmizin önündə çağdaş uyqarlığın ən yüksək mərhələsinə qədər uzanan geniş və feyzli bir yol açılmış bulunmaqdadır. Türkiyənin coğrafi və stratejik mevzisi də nəzəri-etibara alınacaq olursa, məmləkətimizin bu irəliləyişi və yüksəlişi dünya barışı və güvənliyi baxımından dəxi fövqəladə bir önəm daşımaqdadır.

Atatürkün yolu üzərində və Onun ruhu və əzmi ilə mücəhhəz olaraq millətcə həp bərabər parlaq istiqbala doğru yönələlim! Zəfər və mutluluq türk camiəsi için ən çox bu yolda düşünülə bilir. Atatürkün yolu bütün türklüyün yolu olmalıdır!

Böyük bayramımız bütün türk dünyasına qutlu olsun!

ŞANLI KIBRIS ZƏFƏRİMİZ!

20 təmmuz 1974-də başlayaraq bütün dünyanın heyranlıqla və ilgi ilə təqib etdiyi və qısa bir fasilə ilə iki qədəməli hərəkat halında davam edən Türk Silahlı Qüvvətlərinin Kıbrıs torpaqları üzərindəki şanlı yürüyüşü bir kaç gün içində türk toplumunun on bir sənədən bəri sürüb gələn fəci həyat şərtlərinə son vermiş və adanın 40%-nə əl qoyaraq soydaşlarımızın qədərini təminat altına almışdır.

Kıbrıs adası həm soydaşlarımızın müdafiəsi və qorunması, həm də Türkiyəmizin güney kıyılarının təminat altına alına bilməsi için savunulması son dərəcə önəmli stratejik bir bölgə durumunu ərz etməkdədir.

Zatən üç tərəfdən dənizlərlə çevrili bulunan və boğazların qiymətləri anahtarlarını kəndi əlində tutan Türkiyənin hər qarış torpağı düşmən qüvvətlərinə qarşı hər an qorunması gərəkən son dərəcə önəmli stratejik bir mevzi mövqeyindədir. Türk milləti fərd və topluluq olaraq iştə bu baxımdan hər an və hər ləhzə tətikdə bulanmaq və daima oyanıq davranmaq zorundadır.

1959-1960 andlaşmalarına ek qaranti təəhhüdlərinə dayanaraq tam zamanında və mükəmməl hazırlıqdan sonra Kıbrısa müdaxilədə bulunan türk dövləti xəsmləri rum və yunanlılara qarşı hər yöndən çox daha üstün bir durumda bulunmuş və bulunmaqdadır. Gərək kıbrıslı rumlar, gərəksə yunanlılar iç savaşlar və çəkişmələr yüzündən bitkin bir duruma düşmüşkən, Türkiyə hər dəfə olduğu gibi bu səfər də ulusuyla, siyasi partiləriylə, işçi və iş verən quruluşlarıyla, gənclik və öyrənciləriylə, sivil və əsgərləriylə yekvücud bir birlik və sarsılmaz topluluq içində hərəkət etmiş və etməkdədir. Atinanın qışqırtmaları ilə Kıbrısda EOK-B və yunanlı subaylar tərəfindən 15 təmmuzda gerçəkləşdirilən ani dərbədən sonra bütün məmləkət səthində şahlanan türk ulusu kıbrıslı soydaşlarımızın topyekun imha təhlükəsindən qurtarılması uğruna hökumətinin və ordusunun arxasında tək bir vücud gibi səf bağlayaraq, açılan savaşda maddi və mənəvi bütün imkanlarını səfərbər halına gətirmişdir.

Diktatorluq bataqlıqlarında Cuntalar tərəfindən yoxluğa doğru sürüklənən yunanlılara və rumlara qarşı hər çeşid insan haqlarına və demokratik quruluşlara sahib türk ulusu güclü təşkilatı və içdən gələn

sarsılmaz imanı və disiplini ilə dimdik ayaqda durmuş və hər qarşılaşmada xəsminə qalib və müzəffər olmuşdur.

Savaşda olduğu gibi, diplomatik sahədə dəxi türk dövləti bəsirətini və uzaqgörüşlülüyünü hər addımda isbat etmişdir. Kıbrıs sorununda Türkiyədə fikir və görüş ayrılığı yoxdur və olamaz da. Ulusumuzun tək dilədiyi kıbrıslı soydaşlarımızın coğrafi sınırlara dayalı bir federasyon daxilində özərk idarəsinə və əmniyyətinə sahib bulunması, politik, ekonomik və kültürəl bağımsız gəlişməsinin kamilən təminat altına alınmasıdır.

Türk Silahlı Qüvvətlərinin və Türk ulusunun kıbrıslı mücahidlər və soydaşlarımızla birlikdə əldə etmiş olduqları şanlı zəfərlər heç bir qüvvətcə və heç bir şəkildə dəyişdiriləməz! Və əski şərtlərin iadəsi yoluna əsla gediləməz!

Kıbrıs türk toplumu kəndi milli əgəmənlik haqlarına sahib çıxmışdır. Bunu bütün dünya böyləcə qəbul etməlidir. Əksini iddia etməklə Ağ dəniz bölgəsinin barış və güvənliyi və dolayısıyla dünya barışı onarılmaz təhlükələrlə qarşı-qarşıya bırakılmış olur.

Türk Silahlı Qüvvətlərinin və dolayısıyla bütün Türk ulusunun Kıbrısda qazanmış olduqları bunca şanlı zəfərlər, əlbəttə, əsir türk dünyasında dəxi hürriyyət və istiqlal eşq və ümidlərini son dərəcə qüvvətləndirəcək və parlaq istiqbala mətuf inanclarını və güvənlərini bir qat daha alovlandıracaqdır. İçdə və dışda hər kəs şunu görəcək və biləcəkdir ki, Böyük Türk ulusu yaşıyor, yaşayacaq və soydaşlarını da yaşadacaqdır! Türk soydaşlarımıza uzadılan xain əllər er-gec qırılacaq və Kıbrıs türkləri gibi əsir türklük dəxi kəndi qeyrət və həmiyyətləriylə qurtuluşa və milli əgəmənliklərinə qovuşacaqlardır!

XOCAMIZ SƏDRİ MAQSUDİ

Daha lisənin son siniflərində ikən gözümüzü açdığımız zaman Peterburq Dövlət Dumasında Sədri Maqsudinin Türk-İslam qövmlərinin milli-mədəni haqlarını müdafiə zəmnində söylədiyi gözəl nutuqları oxuyaraq, vətən və millət sevgisinin bariz örnəklərindən birinə şahid oluyor və gələcək çalışmalarımızda yeni bir ilham qaynağına qovuşuyorduq.

Kəndisini ilk dəfə olaraq 1940 sənəsində Ankara Hüquq fakültəsində xocamız olaraq görməyə və feyzli dərslərindən faydalanmağa müvəffəq olmuşduq. Uzun və çətin illərin siyasi və ictimai çalışmaları, Sorbon Universitəsində görmüş olduğu mükəmməl hüquq təhsili və eyni universitədə Türk hüququna dair vermiş olduğu dərslər, bütün bunlara geniş və dərin tədqiqlərinin, irəliləmiş yaş və təcrübələrinin əkləmiş olduğu vüqar və heybətli bir olğunluq tələbə üzərində qüvvətli bir təsir yapmaqda idi. Sədri Maqsudi, hər şeydən öncə, çox qüvvətli və çox təcrübəli metod sahibi bir öyrətməndi. Eyni zamanda hüquqla ilgili bütün mövzular üzərində daima dərin tədqiqlərdə bulunan titiz bir elm adamı idi. Onun şəxsi kitabxanasını görmüş olanlar, kitabları arasında Batıda və Doğuda, bilcümlə hüquqi mövzulara dair müxtəlif lisanlarda çıxmış bulunan ən yeni və ən şümullu əsərlərə rastlamış olacaqlardır. Kəndisi də türk hüquq xəzinəsinə çox qiymətli əsərlər miras bırakmışdır.

Xocamız Sədri Maqsudi yaşının irəliləmiş olmasına rəğmən, qüvvətli bir hafizəyə və kəskin bir zəkaya sahibdi. Dərsə heç bir zaman hazır notlarla gəlməzdi. Dərs verirkən daima ayaqda durur və ələ aldığı mövzunu bütün incəlikləri ilə təhlil və təşrih həddəsindən keçirirdi. Hüquqi formulları səlis və sərih bir şəkildə ifadə edərdi. Qələmə aldığı əsərlərdə dəxi hüquq baxımından üslubu çox üstün səlasət və sərahət məziyyətini haizdir. Sədri Maqsudi dərs verdiyi zaman müəzzəm fakültə salonları xıncaxınc dolmuş oluyordu. Tələbə xocanın tək bir kəliməsini qaçırmaq istəməzdi. Çünki onun hər cümləsində, hər təbirində istifadəyə şayan bir çox yeni fikirlər saklanmış bulunuyordu. Tələbə onun dərslərinə heç bir zaman doyamazdı.

İmtahanlarda Sədri Maqsudi çox sərt bir professordu. Öyrətdiklərini eynən tələbəsindən istərdi. Bir çoxumuzu laf dinləmədən ikmalə

bırakırdı. Fəqət buna rəğmən, hər kəs Sədri Maqsudinin tərəfsizliyindən, dürüstlüyündən, həqiqi bir öyrətmən oluşundan daima əmin olaraq, təkrar imtahan vermək üzrə hüzuruna çıxar və əksiksiz haqqını alırdı.

Sədri Maqsudinin Türkiyə Böyük Millət Məclisində və əncümənlərində fikirləri, təklifləri və tənqidləri ilə sənələr və dövrələr boyunca yapmış olduğu hizmətlər dəxi, əlbəttə, bu məmləkət tarixində hər zaman şükran və minnətdarlıqla anılacaqdır. Fəqət hər şeydən öncə kəndisi yüksək məziyyətlər sahibi bir elm adamı olduğu için, bilxassə Ankara və İstanbul universitələrindəki tədrisatı və qələmə almış olduğu əsərlərlə kültür həyatımızda unudulmaz bir iz bırakmış bulunmaqdadır. Üstəlik, əxlaqi fəzilətləri də tələbələri və arkadaşları üzərində dərin təsirlər bırakmaqda idi.

Sədri Maqsudi İdil-Ural milli istiqlal hərəkatının böyük öndəri mərhum Ayaz İshaqi bəyin çocuqluq arkadaşı idi. Bu arkadaşlıq və bağlılıqları ta Ayaz İshaqinin son gününə qədər davam etmişdi.

Eyni zamanda Sədri Maqsudi mərhum Məhəmməd Əmin Rəsulzadənin ən yaxın dostlarındandı. Sədri bəy mərhum Əmin bəyi sıx-sıx Sakarya caddəsindəki mütəvazi evində ziyarət edərdi. Hər biri uzun bir dövrün canlı tarixini təşkil edən bu iki böyük şəxsiyyət İdil-Uraldan tutunuz da, Türkiyəyə qədər bütün türk qövmlərini ilgiləndirən, bilcümlə siyasi, ədəbi və kültürəl məsələləri müzakirə edərək həm əski xatirələrini yeniləndirir, həm də gəncliyə ilham qaynağı təşkil edən bir çox yeni düşüncələr və tasarılar ortaya qoyarlardı. Aralarında tam bir anlayış və ahəng hökm sürməkdə idi.

Ayaz İshaqinin məzarı başında acı göz yaşları axıdaraq söylədiyi sözlər və İstanbulda mərhum Rəsulzadə için yapılan ihtifallarda irad etdiyi həyəcanlı nutuqlar hələ qulaqlarımızda çınlamaqdadır.

Nə yazıq ki, Ayaz bəydən və Əmin bəydən sonra kəndisini də torpağa təslim etmiş bulunuyoruz. Yeganə təsəllimiz digər iki arkadaşı gibi, kəndisinin də uzun həyatı boyunca çalışaraq və didinərək bir sıra qiymətli əsərlər bırakdıqdan sonra aramızdan ayrılmış olmasıdır. İnsanlar fanidir, əsərləri isə ilələbəd baqidir. İştə biz də bu böyük əsərlərinə müqabil, unudulmaz xocamıza şükran duyğularımızı ifadə edərək kəndisinə Cənabi Haqdan rəhmət və məğfirət diləriz.

Ruhu şad olsun.

CƏFƏR BƏYƏ DAİR XATİRƏLƏRİM

1938 yılı ekimində mərhum Mehmet Əmin Rəsulzadənin dəvəti üzərinə milli çalışmalara iştirak etmək için Varşavaya getmişdim. Orada Əmin bəylə çalışdığımız bir sənə zərfində Promete cəbhəsi və onun ətrafında toplanan təşəkküllər haqqında ətraflı bilgi edinə bilmişdim. Bu təşəkküllərdən birisi də mərhum Cəfər Seyidəhməd bəyin başında bulunduğu Krım türklərinin Milli Mərkəzi idi. Köstəncədə yayımlanan «Əməl» dərgisi bu Milli Mərkəzin fikirlərinə tərcüman olmaqda idi. «Əməl»in o zamana qədər çıxmış olan nüsxələrini gözdən keçirdikdən sonra 11 sənəlik sürgün həyatımda qarşılaşdığım krımlı türklərin həbs və mənfalarda məruz qaldıqları faciələrə və bilxassə Ural kamplarındakı fəci aqibətlərinə dair bildiklərimi yazaraq dərgi yazı işləri müdirliyinə göndərmişdim. Bu xatirələrim «Əməl»də nəşr edilmişdir.

Əmin bəylə Cəfər bəy arasında rus məhkumu türklərin və ümumiyyətlə, sovet boyunduruğu altında bulunan millətlərin mühacirətdə və məmləkət daxilində təqib edəcəkləri yol haqqında tam bir fikir birliyi mövcud bulunmaqda idi. Azərbaycan və Krım milli təşəkkülləri arasında gərək Polonyadakı fəaliyyətlərində, gərəksə Parisdə fransızca olaraq yayımlanan «Prométhée» dərgisi ətrafında yapılan çalışmalarda mükəmməl bir ahəng və təsanüd qurula bilmişdi. Demək oluyor ki, daha o dövrdə Promete cəbhəsi daxilində məhkum türklər arasında daimi bir işbirliyi vücuda gətirilə bilmişdi.

Avropada yapılan çalışmalar milli davalarımızın dış dünyaya tanıdılmasında çox mühüm bir rol oynamışdır. Bu çalışmaların önəmi, bilxassə İkinci Dünya savaşında və onu bu günə qədər təqib edən sülh dövrə-sində tamamilə meydana çıxmışdır. Müəyyən prinsiplərə dayanılaraq müntəzəm və sistemli bir şəkildə yapılan bu geniş siyasi çalışmalar nəticəsindədir ki, bu gün dış türklərin milli davaları Doğudan Batıya qədər dünyanın hər tərəfində mətbuata və millətlərarası təşəkküllərə əks edə bilmişdir.

Cəfər bəyi qiyabən tanıdığım, yazıları və əsərləri sayəsində kəndisinə qarşı dərin bir sayğı hissi bəsləmiş olduğum halda, mərhumu, ancaq İkinci Dünya savaşını təqib edən yıllarda bir gün Əmin bəylə Ankaranın Kızılay səmtində dolaşırkən görməm və tanımam mümkün olmuşdu. O zamanlar Cəfər bəy saçlarının ağarmış olmasına rəğmən, səhhətli və qayət

yakışıklı bir insandı. Tövrləri və konuşmaları insana dərhal hörmət tələqin ediyordu. Milli həyəcanı və imanı simasından gözə çarpıyordu.

İkinci dəfə Cəfər bəyi rus məhkumu türk elləri irəli gələnlərinin Boğaziçində tərtib etdikləri yeməkli bir toplantıda ziyarət edə bilmişdim. Bu toplantıda mərhum hocamız prof. Sədri Maqsudi bəy də hazır bulunmaqda idi. Gərək Cəfər bəy, gərəksə Sədri bəy birər konuşma yaparaq Milli Davanın istiqbalına olan dərin güvənlərini bəlirtmişlərdi.

Cəfər bəyi üçüncü dəfə Av.[1] Müstəcib Ülküsalın yazıxanasında ziyarətə müvəffəq olmuşdum. Yenə ustad dərin irşadları ilə yürüyəcəyimiz çətin yol üzərinə işıq saçmışdı.

Onu bir dəfə də yenə Türk Cəbhəsi irəli gələnlərinin İstanbulda Azərbaycan Kültürünü Tanıtma Dərnəyinin mərkəzində yapdıqları toplantıya başqanlıq edərkən görmüşdüm. Ən son buluşmamız İstanbuldakı Divan otelində vüqu bulmuşdu. Xəstələndikdən sonra Cəfər bəyi görməm maaləsəf mümkün olmadı. Fəqət ağır xəstə olduğu dövrədə belə gərək Krım davası ilə, gərəksə digər məhkum türk ellərinin yapdıqları milli savaşlarla mənəvi ilgisini heç bir zaman kəsməmişdi. Mərhum Əmin bəyin 70-ci doğum yıldönümü və sonra da vəfatı münasibətilə göndərdiyi məktublar və teleqraflar «Azərbaycan» dərgisinin sütunlarında mümtaz bir yer işğal etmişdir.

Cəfər bəy mərhum Çələbi Cahanla bərabər Krım Milli Qurtuluş Davasının öndərlik vəzifəsini şərəflə yapmış bir insandır. Əgər bir gün tarixi Krım diyarı için milli qurtuluş və renessans müqəddər isə, bu ancaq Cəfər bəyin təsbit və təbşir etdiyi yol üzərindən yürüməklə təhəqqüq edə biləcəkdir. Biz azərbaycanlılar və digər məhkum türk elləri Krımı kəndimizdən bir parça ədd etməkdəyiz. Hangimiz daha əvvəl qurtulursa, digər məhkum türk ellərinin davasını bizzat kəndi milli qurtuluş savaşı gibi sonuna qədər və yılmadan savunacaqdır. Krım davası, eyni zamanda bütün məhkum türk ellərinin müştərək davasıdır. Ana yurdundan sürülmüş krımlılar kəndi vətənlərində yerləşmədikcə və müstəqil həyata erişmədikcə heç bir məhkum türk eli kəndi davasının müvəffəq olacağına ciddiyyətlə inanamaz. Bu davanı Cəfər bəy dünyanın hər tərəfinə dağılmış və yayılmış bulunan Krım türklərinə və bilümum, rus məhkumu türk ellərinə qutsal bir əmanət

[1] Avukat (vəkil) – *N.C.*

olaraq bırakmışdır. Bu əmanətin təhəqqüqü ilədir ki, gərək böyük şəhid Çələbi Cahanın, gərəksə Cəfər bəyin yücə ruhları şad olacaqdır.

KRIM TÜRKLÜYÜNÜN ƏBƏDİ ÖNDƏRİ

Bu gün üfulunun 10. yıldönümünü dərin bir şükran duyğusuyla andığımız rəhmətli Cəfər Seyidəhmədin ismini 1917 şubat ixtilalından sonra sıx-sıx mətbuat vasitəsiylə duymaqda idik. O sıralarda baba yurduna dönən Cəfər bəy başda şəhid Çələbi Cahan olaraq bir kaç idealist arkadaşıyla birlikdə şanlı istiqlal bayrağını Krım səmalarında təkrar yüksəltmişdi.

Böyük hərbdə yenilən qəsib və imperialist Rusiyanın vücudundan boyunduruq altına alınmış məmləkətlər birər-birər qopmaqda idi. Bunlar arasında, təbii, tarixdə qüdrətli bir dövrə yaratmış və əsirlərcə qonşu slav ölkələrini və ən başda Moskov çarlığını titrətmiş şanlı Krım ön səfdə yer alıyordu.

Krım yüz yıllarca sürən əsarət uyqusundan oyanıyor, kəndisinə dönüyor, haqlarını istiyor və silaha sarılıyordu.

Bu böyük oyanışda ölməz İsmayıl Qaspıralının, sayısız ədib, şair və yazarların mümtaz rolu olmuşdur. Fəqət hərəkata siyasi bir mahiyyət verən, ideolojik bir cəbhə qazandıran Cəfər Seyidəhməddir.

Krım dövləti ikinci dəfə quruldu. Varlığını bütün dünyaya isbat etdi. Haqlarını və davasını övladlarının mübarək qanları ilə savundu, sayısız şəhid və qurban verdi. Fəqət həris və azılı düşmən qarşısında uzun yaşayamadı, təkrar zəncirlərə vuruldu. Bu dəfə marksizm-leninizm kisvəsinə bürünmüş daha qəddar despotik rus boyunduruğuna!

Qızıl əsarət dövründə dəxi kiçik Krım böyük qurbanlar vermişdir. Bunlar arasında Vəli İbrahim gibi kommunist səflərindən gələn mücahidlər də vardır. Çünki Krım türklüyü heç bir zaman əsarət boyunduruğunu kəndinə, şəninə və tarixinə layiq görməmişdir. Şərtlər nə olursa-olsun, nerədə bulunursa-bulunsun vətəni için, yurdu için, istiqlalı için, haqq və hürriyyətləri için durmadan savaşmışdır. Və tək vücud qalıncaya qədər savaşacaqdır da!

Milliyyətçisi, sosialisti, marksisti və kommunisti ilə birlikdə savaşmışdır. Həp birlikdə qızıl rus sömürgəçiliyinə qarşı cəbhə almışlardır.

Cəfər bəy vətənindən olduqdan sonra bu dəfə vətən savaşını dış məmləkətlərdə açmışdır. O buradan gur səsi ilə Krım türklüyünə səslənmişdir. Onları birliyə, müqavimətə və mücadiləyə çağırmışdır. Konfransları ilə, konuşmaları ilə, kitabları, broşürləri və məqalələri ilə

Krım türklərinin tutacaqları yolu, izləyəcəkləri hərəkət xəttini aydınlatmışdır.

Rus məhkumu millətlərin birləşik mücadilə cəbhəsini təşkil edən «Promete» hərəkatında Krım türklüyünün baş təmsilçisi Cəfər bəy idi. Və yenə onun irşadları ilə yayınlanan ünlü «Əməl» dərgisi o gün-bu gün Krım türklüyünün dış dünyadakı baş sözçüsüdür.

İkinci Dünya savaşında Krım türklüyü bir kərə daha qızıl rus istibdadına qarşı ayaqlanmış. Fəqət hitlerçi işğal rejimi milli müqavimət hərəkatlarına qarşı bir anlayış göstərmədiyi için Krım istiqlal davası iki atəş arasında yenə boğulmuş. Silahlı ayaqlanmaya qatılanlar ya şəhid düşmüş, ya da almanlarla bərabər çəkilib-getmiş. Fəqət Krıma yenidən müsəllət olan ruslar ayaqlanmanın intiqamını məsum çoluq-çocuqdan, düşkün ixtiyarlardan, zəif qadınlardan və hətta əməkdar kommunistlərdən çıkarmışlardır.

1944-ün məşum bir qış gecəsində köylərə, qəsəbələrə və şəhərlərə saldıran internasionalist rus kommunist sürüləri bütün türk əhalisini küçüyündən böyüyünə qədər kamyonlara dolduraraq buzlu Sibirya çöllərinə və Türküstanın ücra köşələrinə sürmüşlərdir.

Stalin çırağı şimdiki sovet idarəçiləri bu qorxunc cinayəti çox sonradan əski patronlarına həml etmişlərsə də, bu vəhşət və barbarlıq sovet rejiminin cibilliyəti icabıdır və əlli küsür sənədən bəri bütün dünyanın gözü önündə hər yerdə tətbiq edilə gəlmişdir.

1943-1944 sənələrində genosid siyasətinə tabe tutularaq sürülən millətlərin böyük bir qismi ya yollarda və ya mənfalarda can vermişdir. Krımlılar da öylə! Fəqət destalinizasyon dövründə elan edilən əfvi-ümumi nəticəsində ötəkilərin qılıncdan artanları xarab, soyulmuş, qəsb edilmiş vətənlərinə dönmüşlərsə də, krımlılara bu haqq da tanınmamışdır.

Krım türklüyünün bu yeni faciəsi bütün dünya basınına və Birləşik Millətlər arxivlərinə əks etmiş bulunuyor.

B.Millətlər «arxivlərinə» diyoruz. Çünki rus yardımçıları və məmurları ilə çevrilən Genəl sekreter U.Thant bu gibi şikayətləri arxivə həvalə etməkdən başqa çıkar yol bulamıyor.

Faciəni dünyaya əks etdirən yenə cəsur Krım gəncliyidir. Sovet şərtləri daxilində də hayqırış, şikayət, göstəri və protesto için nə yapmaq mümkünsə, Krım gəncliyi gözünü qırpmadan onu yapmaqdadır.

Əvət, yenə zindanlar və sürgünləri boyluyor, fəqət vətən için, türkdən məhrum qalmış yurdu için nə mümkünsə yapıyor.

Krım faciəsi, həqiqətən, ürəklər parçalayıcı bir faciədir. Bu faciənin ünsüz qəhrəmanı müstəbid sovet imha rejimidir! Fəqət tarix, qoca tarix enində-sonunda imha rejimlərini imha etmişdir.

Bu dəfə də öylə olacaqdır! Yalançı və riyakar kommunist hərəkatının hər yerdə çatır-çatır çatlaması bunun ən böyük işarətidir.

Krım müəzzəm bir qədərə uğramışsa da, Böyük Türk dünyası dipdiri ayaqdadır! Gözəl Krımını düşmən çizməsi altında bırakmayacaqdır.

Krım davası bütün əzəməti ilə davam etməkdədir.

Cəfər Seyidəhmədin yetişdirdiyi idealist fədakar nəsil bu davanı zəfərin eşiyinə qədər götürəcəkdir.

MİLLİ ŞEİRLƏR DƏMƏTİ

Azərbaycan yayınlarında ötədən bəri dərin bir zövq ilə oxuduğumuz Kərim Yaycılının milli şeirləri bu dəfə kəndi himmət və qeyrətlərilə bir kitab halında bir araya gətirilmiş bulunmaqdadır. Başından sonuna qədər milli və vətəni ülkülərdən ilham alan bu milli şeirlər dəməti sıra ilə üç bölümə ayrılmış bulunmaqdadır: Anadolu, Kafkas və Azərbaycan. Fəqət bu üç ölkəni ruhən və mənən bir-birindən ayırmaq mümkün olamayacağı için şeirlər dəmətinin şu üç bölümü də bir-biriylə kəndi-kəndinə bağdaşmış bulunmaqdadır. Məsəla, Böyük Atatürkün ruhuna ithaf etdiyi «Türkün böyük matəmi» başlıqlı içdən fışqıran gözəl şeirində dəxi Kərim Yaycılı Anadolu ilə Azərbaycan arasındakı əzəli və əbədi qardaşlığı şu vəciz misralarla ifadə etməkdədir:

Unutma, ey ağlayan Anadolulu qardaş!
Mənim də bağrım qanlı, mənim də gözlərim yaş.
Bax, mən də ağlıyorum Atamın arxasından,
Qısqanırım hissəmi bu ayrılıq yasından.
Şu çırpınan qəlblərin mən də bir bənzəriyim,
Mən ki istiqlalına susamış azəriyim.
Bu yaslı günündə də düşmədiysəm yadına,
Kafkasa yakışmazmı ağlamaq övladına?
Dön üzünü Batıya, doğrul da Kafkasından!
Ağla, ey azəri türk, Atamın arxasından.

Yaycılının yaradıcılığına bəlli və açıq bir fikir sistemi hakimdir. Bu fikir sistemi türklük ülküsünə və istiqlal hədəfinə dayanmaqdadır. Bu hədəfin nə olduğunu şairin kəndisindən dinləyəlim:

Həpimiz eyni odla tutuşmuş yanar dağız,
Yurda həyat sunacaq bir müqəddəs ocağız.
Çağırıyor səsimiz dağda, kırda gəzəni,
Ülkü qafiləmizin izlərini sezəni.
Quzeh rəngli bayrağın şərəfli kölgəsinə,
Qulaq ver azərinin intiqam nəğməsinə.
Bu nəğmədə yurdumun inləyən nəfəsi var,
Bu nəğmədə kinlərin tunclaşan kölgəsi var.
Bu nəğmədə əcdadın, tarixlərin səsi var,

Bu nəğmədə türklüyün coşan qardaş səsi var.
Koşuyoruz hilalın Xəzərdəki əksinə,
Koşuyoruz türklüyün ən əski ölkəsinə!

Kərim Yaycılının şeirlərində hüzn sürurla, şikayət qürurla gözəl bir şəkildə bağdaşmaqdadır. Onun hüznü Əhməd Cavadın şeirlərində gördüyümüz o dərin hüznə çox bənzəməkdədir. Bu hüzn Azərbaycanın iki yıllıq şanlı istiqlal həyatından sonra təkrar əsarət boyunduruğu altına düşməsindən irəli gəlməkdədir. Şair daimi surətdə sızlayan bu yarasını hər vəsilə ilə dilə gətirməkdədir:

Ayrılınca yurdundan,
Gül solar, ağlar könül.
O cənnətdir, mən ondan
Qoparılmış bir tək gül!

Fəqət bu yeis deyildir. Biləks savaşa çağıran bir fəryaddır:

Əsarət çox acıdır, hürr yaşamış bir başa,
Nafilə, artıq vurma başını daşda-daşa.
İstiqlal istəyənlər, hazırlansın savaşa,
Var isə türklüyünüz, var isə vicdanınız?...

Yaycılının qüruru türklükdən doğmaqdadır. O, türkün əsir qalamayacağını və soydaşları tərəfindən əsir bırakılmayacağını biliyor və buna bütün inancıyla güvəniyor. Ara-sıra şeirlərində duyulan acı şikayətlər soydaşlarını vəzifəyə dəvətdən irəli gəlməkdədir.

Yaycılının ürəklər yaxan hüznü ilə birlikdə nə qədər istiqbala ümidli olduğunu şu misralarında görüyoruz:

Tulüu vətənimin gözəl üzünü oxşar,
Kiçikkən ayrıldığım yaslı dağları aşar.
Mənə müjdələr verir, nəşəm, ümidim daşar,
Min bir diyarı aşıb qəribi bulan Günəş.

Kərim Yayıcılı gənclikdən ilham alan və gəncliyə ilham aşılayan sarsılmaz bir istiqlal mücahididir. Baxınız, qırx sənəlik mücadiləmizdən

sonra o, nə dərin bir imanla azəri gəncliyini heç yılmadan mücadiləyə dəvət etməkdədir:

Məfkurə yolunun ta başındasın,
Unutma, istiqlal savaşındasın.
Hürr başın əyilməz o qatil rusa,
Rus deyil, qosqoca dünya qudursa.

Sənin ki, məbudun bir atəş idi,
Dünyada aslanlar sənə eş idi.
Yakışmaz, azəri, bu zəncir sana,
O iman gücünü göstər cahana!

Yaycılının şeirində sünilikdən, göstərişdən, laf qələbəliyindən əsər yoxdur. O, hər sözündə səmimi, hər hərəkətində doğrudur. İmanı sarsılmaz vicdani qənaətlərindən doğuyor:

Ey ülkü peşində koşan igidlər,
Durmayın, hədəfə yaklaşıyoruz,
Sarp, yalçın, qayalıq olsa da bu yer,
Məğrur zirvələri dolaşıyoruz!..

Çiçəklər açıyor sağ və solunda,
Yürü qardaşın var sənin qolunda,
Ruhumuz ac deyil əməl yolunda,
Haqqın işığını paylaşıyoruz!..

Ayaqlar qanasın, bağrımız yansın,
O gözəl bayrağa sən bir qurbansın,
Hayqır türkünü ki, dünya inansın,
İstiqlal gününə yaklaşıyoruz!..

Hələ Yaycılının böyük öndər Məhəmməd Əmin Rəsulzadəyə və Mirzə Balaya xitabən yazdığı şeirlər namimiyyətin, milli davaya dərin bağlılığın, şeir sənətinin birər gözəl nümunələridir:

Qəlbindəki hıçqırıq kəsincə sözlərini,
Gözəl qızın göysündə qapadı gözlərini.

Doğrulmadı bir daha, bu onun son yoluymuş!
Göysünə baş qoyduğu gözəl Anadoluymuş!..

Yaycılının milli şeirlər məcmuəsini oxuyacaq olan hər kəs ondan türklük eşqini, vətən sevgisini, istiqlal həyəcanını və fədakarlıq şövqünü bir kərə daha öyrənmiş olur. Hələ hər türk gəncinin masası üzərində bu gözəl kitabın bulunması həyat için iyi bir klavuz vəzifəsi görür. İstiqlal yolçularına onun şeirləri yeni bir şövq və həyəcan aşılayacaq qüdrətdədir.

Əziz arkadaşımızı bu yeni vətəni hizmətiylə candan təbrik edəriz.



LÜĞƏT



Aa

acıqlı – *burada:* üzücü, acınacaqlı
açıq qabaqlı – gülər üzlü
afaq – *burada:* üfüqlər
afaqi – *burada:* bəlirsiz, əsası olmayan
akabində – arxasından, ardından
akim – *burada:* faydasız
aqamət – sonuca çatmama, sonucsuz qalma, uğursuzluq
al – hiylə
alayişsiz – göstərişsiz
aləni – hər kəsin gözü önündə edilən, açıq, ictimai
amadə – bir işi görməyə daim hazır olan
arizi – üz; təsadüfi, əslində olmayıb sonradan əmələ gəlmiş
aşiyan – yuva
ati – gələcək
azılı – azğın, təhlükəli

Bb

bad – rüzgar
badalaq qurmaq – tələ qurmaq
baqır – *burada:* mis
beşşaş – gülər üzlü, açıq çöhrəli
bəradər – qardaş, dost
bərəks – əksinə
bəsa – xeyli, çox
bica – yersiz, nahaq yerə; əbəs, yaramaz; boş, mənasız

bidayət – başlanğıc, əvvəl
biiqrar – vəfasız
bilittifaq – birgə, bir yerdə
bim – qorxu
bir gəz – bir kərə
bir qitə – burada bir qarış
büyü – sehr, cadu, tilsim

Cc

calisi-övrəngi-istiğna – sərvət və bolluq taxtına qonan
cansiparanə – *burada:* canla-başla
cəbrən – zorla, zorakı, güclə
cərəs – zəng
cəvanmərd – comərd, əliaçıq, gözəl xasiyyətli
cibiliyyət – xislət, xasiyyət
cunta (xunta) – ölkədə idarəyə, əsasən, silah zoru ilə əl qoyanlardan yaranan qurum
cünunpərvər – dəli
çul-çuxa – *burada:* zahiri görünüş

Çç

çəndan – bir neçə misli
çıraq – *burada:* şagird, yardımçı
çidə – *burada:* yaradan

Dd

dalavere – yalanla gizlincə görülən pis iş, gizli oyun, hiylə
daneyi-xərmöhrə – qatır muncuğu dənəsi
deprem – zəlzələ
dəllal – alıcı ilə satıcı arasında vasitəçilik edən
dəndan – diş
dərhəm – pərişan
dəsisə – hiylə, biclik
didə – göz
dövrani-filmazi – keçmiş dövr
dünimə – iki parça

düzəx – cəhənnəm

Ə ə

əcz – acizlik
əfhad – nəvələr
əfrad – fərdlər
əgəmən – bağımsız, müstəqil
əhli-iradət – içdən bağlı
əhli-iştibah – yanlış yolda yürüyənlər
əhraran – *burada:* hürriyyət aşiqləri
əhraranə – azadcasına, sərbəstcəsinə
əkabir – böyüklər, ulular, ağsaqqallar, başbilənlər
ələm – bayraq
əlfazi-mərdudə – rədd edilmiş, bəyənilməyən, qəbul olunmayan söz və ifadələr
əlim – *burada:* üzücü, kədərli
əlzəm – ən lazımlı, daha lazımlı, gərəkli
əmiq – dərin
ənar – nar
əncami-nəfəs – ömrün sonu
ənzari-ədalət – ədalətin gözləri
əsa – *burada:* kimi
əslihə – silah, yaraq
əşkal – şəkillər, formalar
əşqiya – *burada:* canilər, cinayətkarlar, quldurlar
əşraf – *burada*: şərəfli insanlar, kübarlar, əsilzadələr, aristokratiya
əşrar – şər adamlar
əya güruhi-sitəmkar – zülm və fənalıq işləyən qələbəlik
əza – əziyyət, incitmə, cəfa; üzvlər (ə'za)
əzbəs – o qədər ki
əzim – əhəmiyyətli, mühüm
əzl – vəzifədən azad etmə

F f

faiq – üstün gəlmək, seçilmək
fər' – *burada:* ikinci dərəcəli

fəramuş eyləmək – unutmaq
fərxəndəhal – xoşhal, məmnun
fərz – *burada:* vacib, zəruri
filhal – dərhal
filtən – fil bədənli, iri cüssəli, çox güclü
firibanə – aldadıcı, hiyləli, kələkli
fuad – ürək

Gg

gevşek – boş, sıx olmayan
giranmayə – qiymətli, dəyərli
girəm ki – tutalım ki

Hh

həbbə – dənə
həmiyyətli – şərəfli, qeyrətli
həmrəviş – eyni xasiyyətdə olan
hərgiz – əsla
həsəb – *burada:* ölçü
həvali – ətraf, civar
huşu – *burada:* sayğı
hülul – gəlib çatma, yetişmə
hümma – *burada:* qızğın
hüsul – hasil olma, vücuda gəlmə
hüznəngiz – hüzn gətirən, qüssə verən

Xx

xar – tikan; zəlil, həqir, alçaq
xəllaq – *burada:* yaradıcı, qurucu
xər – eşşək
xəsm – *burada*: düşmən, rəqib
xilaf – zidd, qarşı, əks
xiridar – alıcı
xub – yaxşı
xubi-zəşt – yaxşı və pis

xülq – xasiyyət, əxlaq
xüsumət – düşmənçilik

İi

ihtifal – anma mərasimi
ixdas – ortaya çıxarmaq, meydana gətirmək
ixlas – *burada:* sevgi, məhəbbət, səmimiyyət
ixvan – qardaş
ikmal – tamamlama, bitirmə; hərbi
iktifa – kifayətlənmə
iqtiza – lazım olma, lüzum
imamzadə – türbə
imtizac – *burada:* sintez
indi – *burada:* hər kəs tərəfindən qəbul edilən əsasa malik olmayan, fərdin yalnız öz şəxsi görüşünə dayanan düşüncə
infirad – yalnız, hamıdan ayrılıb tək hərəkət edən
inqiraz – sonu gəlmə, məhv olma
insiyaq – sezgi, instinkt
intixab – *burada:* seçim, seçmə
intisab – *burada:* təyin etmə
inzimam – əlavə edilmə, üzərinə gəlmə, qatılma
irtişa – rüşvətxorluq
isticvab – dindirmə, istintaq
istixfaf – saymazlıq, etinasızlıq
istinsax – surətini çıxarma, üzünü köçürmə, üzünü köçürməklə çoxaltma, yayma
istintac – nəticə çıxarma
istişarə – məşvərət etmə, məsləhətləşmə
işar – yazılı şəkildə bildirmə
ittixaz – *burada:* götürmə, alma, əxz etmə
izac – narahat olma, həyəcanlanma

Kk

kalafa – *burada:* dağılmış
kara – yer, torpaq
kəm əz türab – torpaqdan daha alçaq

kəmtər gəda – aciz bəndə
kərə qoyun – qulağı qısa və ya kəsik qoyun
kəsafət – *burada:* sıxlıq
kəsrət – *burada:* çoxluq, bolluq, həddən ziyadəlik
kəza – bunun kimi, eləcə də, həmçinin
kisvə – qiyafə
kolera (xolera) – vəba xəstəliyi
kunduraçı – pinəçi
kuşak – nəsil
kuzəkar – dulusçu
kün-fəyəkun – alt-üst
künun – şimdi

Qq

qahir – *burada:* üstün gələn
qasib – qəsbkar
qayim – *burada:* möhkəm, bərk
qaypaq – sözünə güvən olmayan, yalançı, dönük
qədri-cövr – *burada:* zülm, zalımlıq
qərihə – *burada:* istedad
qərz – borc
qital – qanlı vuruşma, qırğın, döyüş
qitə – *burada:* əsgərlərdən ibarət birlik, hərbi bölük
qubarı-tirə – qara torpaq
qülleyi-Qaf – Qaf dağının zirvəsi
qürab – qarğa
qüttəüttəriq – yolkəsənlər, qaçaqlar

Ll

lame – parlayan, parlaq
laşə – leş, cəsəd
lövheyi-giytinüma – cahanı əks etdirən

Mm

mahûd – *burada:* bilinən
mar – ilan

mə’yub – qüsur
məcməri-nar – manqal
mədari-iftixar – fəxr mənbəyi
mədihəgu – mədhiyyə yazan
mədyun – minnətdar
məğfirət – günahların Allah tərəfindən bağışlanması
məhcub – utanmış
məhfil – dərnək, məclis
məhtələt – ayüzlü; gözəl
məhzur – *burada:* çətinlik
məiyyət – böyük vəzifəli şəxsi müşayiət edən heyət
məqsudi dü aləm – iki dünyanın (dünya və axirətin) istəyi, məqsədi
məqul – *burada:* ağlabatan, məntiqi
məsabə – dəyər, dərəcə
məsdud – qapalı
məsiyyəti-düzdani – oğruların işlədikləri günah
məsnəd – dayaq, istinad
məsun – *burada:* toxunulmaz
məşum – uğursuz, nəhs
mətuf – *burada:* yönəlmiş
məzkur – adı çəkilən
miləl – millətlər
millət məcməin – Milli Məclis
minbaad – bundan sonra
miyanzənlik – ara vurma, ortalığı qarışdırma
mövquf – *burada:* həbs olunmuş, tutulmuş
mövta – ölülər
mucə – *burada:* bir tük qədər
müahidə – əhdnamə, bağlaşma, saziş, müqavilə
müamilə – *burada:* rəftar, hərəkət
müariz – *burada:* etiraz edən, bir işə zidd çıxan
müaşiqə – qarşılıqlı sevgi
mücəddid – yeniləşdirən, yeni şəklə salan
mücəhhəz – təchiz edilmiş, hazırlanmış
müəkkib – təqibçilər, ardından gələnlər

müəssir – təsirli, təsir edən
müəttər – ətirli, ətirlənmiş
müəzzəm – böyük, iri; əhəmiyyətli, mühüm; ağır
müxabirə – məktublaşmaq, yazışma, xəbərləşmə
müxənnəs – alçaq
müxtirə – *burada:* hər hansı bir məsələni xatırlatmaq məqsədilə hökumətə siyasi mövzularla bağlı yazılan yazı
mükərrər – təkrarlanmış
müqəddər – *burada:* qismət
müqəllid – *burada:* təqlid edən, təqlidçi, yamsılayan
mümaniət – maneə, maneçilik
münasibətsiz – *burada:* uyğunsuz
münəqqid – tənqid edən, tənqidçi
münfərid – *burada:* yalnız, tək, tənha
münhəsirən – yalnız bir şeyə və ya bir adama həsr edilərək
müntəşir – *burada:* çap edilmiş, nəşr olunmuş
mürai – ikiüzlü, riyakar
mürəffəh – rifah içində, gen-bolluqda yaşayan
mürği-səhər – *burada:* xoruz
müsamihə – *burada:* səhlənkarlıq, başısoyuqluq
müsavi – tən, bərabər
müstəhkəm – möhkəmləndirilmiş
müstəhsən – bəyənilən, xoşagələn
müstəhzi – ələ salan, istehza edən; məsxərəçi, rişxəndçi
müstənid – *burada:* əsaslanan
müsvəddə – qaralama
müşəxxəs – *burada:* başqalarından fərqlənən, üstün
müştəki – şikayətçi
mütəaqib – bir-birinin ardınca gələn, təqib edən, izləyən
mütədəyyin – dindar
mütəəssib – təəssüb çəkən, təəssübkeş
mütəfəssih – çürümüş
mütəhəssis – hiss edən
mütəqabil – qarşılıqlı
mütəmmim – *burada:* əlavə
mütəna – seçkin

mütərəddid – tərəddüdlü, bir qərara gələ bilməyən
mütəsanid – dayanışma içində olan
mütəvəffa – vəfat etmiş, ölmüş
mütəzərrir – zərər çəkən, ziyana düşmüş
müttəhid – müttəfiq, ittifaq
müttəqi – *burada:* Allahdan qorxan
müttəsil – bitişik
müvacihə – *burada:*qarşısında
müvəqqət – müvəqqəti
müzahirət – yardım, kömək
müzir – zərər verən, yaramaz
müztərib – *burada:* iztirab çəkən, sıxıntı çəkən, rahatsız

Nn

nagəh – qəfil, birdən-birə
nevi şəxsinə münhəsir – özünəməxsus, bənzərsiz, heç kəsə bənzəməyən
nəbərd – savaş
nıqqıldamaq – inləmək
nihai – son
nihayət – *burada:* saysız-hesabsız
nurul'üyun – gözlərin ruhu
nüktə – *burada:* incə məna, incə məzmun

Oo

onarılmaz – bərpa edilə bilməyən
otopsi – bir şəxsin ölüm səbəbini, vaxtını və şəklini müəyyən etmək üçün cəsədin tibbi və cərrahi üsullarla ətraflı müayinə edilməsi proseduru

Öö

övsaf – *burada:* sifət, keyfiyyət
övsafi-əimmə – imamların sifətləri, keyfiyyətli
özərk – muxtar

Pp

palaz-pandıraz – hazırlıqsız, anidən, gözlənilmədən
pərtov – işıq, nur
pərü bal – qol-qanad
pəsi-tə'ndə – canı ovcunda
piçü tab – iztirab
pirahən – köynək
piranəsərlik – qocayana

Rr

rahi – *burada:* yolçu
rədvər fərda – gurultulu sabah
rəngin – rəngarəng
rəsm – *burada:* adət, qayda
ruzigar – zəmanə
rükn – *burada*: sütun, istinadgah

Ss

saqit – *burada:* atmaq, keçərsiz hesab etmək
saman – *burada:* ölkə və sərvət
seyfü – qılınc
səbat – işində, sözündə möhkəm olma
səd həzar – yüz min kərə
sədr – *burada:* sinə, döş
səfhə – üz, sifət
səfid – ağ
səhba – *burada:* qədəh
səhhar – *burada:* sehrbaz
səhn – *burada:* həyət
səqət – yaramaz, qeyri-məqbul, pis
səlasət – səlislik
səlavət – *burada:* möhkəmlilik, səbat
səmən – yasəmən yarpağı
səngdil – daşqəlbli

sərahət – aydınlıq, açıqlıq
sərgərdan – avara, işsiz-gücsüz, sərsəri
səri – *burada:* ardıcıl
sərtip – general
sətvət – *burada:* qüdrət, iqtidar
səzayi-əsəf – təəssüfəşayan
siyasət etmək– *burada:* cəzalandırmaq
sövgənd – and
sübhi-inşirah – səhər vaxtı, qaranlıqdan sonrakı işıq
süxənçin – qeybət
süxəndan (süxəndanan) – öz danışığına fikir verən, nə dediyini bilən
sülb – *burada:* sülalə

Şş

şanəvəş – daraq kimi
şaşaalı – *burada:* ehtişamlı
şayəstə – layiq
şəb – gecə
şəhrahi-intibah – şəhərlərin dirçəlişi, intibahı
şəkibai – səbr, dözüm, təhəmmül
şəmmə – *burada*: çox az, bir az, cüzi
şərarət – mərdimazarlıq, yamanlıq, pislik
şikəstə xatirlik – ürəyiyumşaqlıq
şümullu – geniş əhatəli

Tt

taəti-bibəhrə – faydasız ibadətlər
tairi-ülviyyət – *burada:* yüksəklərdə uçan quş
tak-i hilal – qaş
təbarüz – bariz olaraq, gözə çarpacaq şəkildə görünmə, bəlirmə
təbşir – müjdələmə, muştuluqlama, şad xəbər gətirmə
təcərrüd – *burada:* hər şeydən uzaqlaşma
tədil – *burada:* mötədilləşdirmə
təəhhüd – *burada*: öhdəsinə alma, boynuna çəkmə, yerinə yetirəcəyinə söz vermə
təəllüm – *burada:* kədərlənmə, təəssüf etmə

təəssür – qəm, kədər duyma
təfəssöh – *burada:* genişlənmə
təfəssüx – ləğv olma, pozulma, hissələrə ayrılma, parçalanma
təhəqqüq – həqiqiliyi meydana çıxarma
təhəmmülfərsa – üzücü, dözülməz
təhəssür – həsrət çəkmə
təhmil – *burada:* mükəlləfiyyət
təhrir – *burada:* qələmə alma, redaktə
təkfir – birisinin sözünə və işinə əsasən onun kafirliyi haqqında hökm vermə
təqbih – pisləmə, bəyənməmə
təqviyə – qüvvətləndirmə, qüvvətini artırma, möhkəmlətmə
təlif – əsər yazma
təlin – lənət oxuma, lənətləmə
tə'm – tam, dad
təməllüqat – dalkavukluk, yaltaqlıq
təmim – *burada:* ümumiləşdirmə
tənkil – *burada:* başqalarına ibrət olacaq şəkildə cəza vermə
tərd – qovma, uzaqlaşdırma
tərəddi – geriləmək, aşağı düşmək
tərəssüd – gözləmə, diqqətlə baxma, göz dikmə
təriq – *burada:* vasitə
tərsa – xristian qızı
təshih – səhvləri düzəltmə, redaktə etmə
təsxir – istila etmə, ələ keçirmə
təsvib – bir fikrin, işin doğru olduğunu göstərmə, təsdiq etmə, bəyənmə
təsviyə – *burada:* ləğv etmə, ləğv
təşhir – şöhrətləndirmə, xalq arasında yayma
təşxis – *burada:* diaqnoz
təşmil – yayma
təşrih – *burada:* müfəssəl şərh etmə
təşyi – müşayiət etmə, yola salma
tətabüq – bir-birinə uyğun gəlmə, uyğunluq
təvafüq – bir-birinə uyğun gəlmə, müvafiq olma
təvəqqe – arzu etmə, xahiş etmə

təvəqqü etmə – istəmə
təvəssüt – *burada:* vasitəçilik etmə, araya girmə, vasitəçilik
təvil – təfsir etmə, izah etmə
tila – altun, qızıl
tişə – külüng
tövcih – *burada:* çevirmə, döndərmə
tövdi – *burada:* təslim etmə
tövqif – *burada:* həbs etmə, tutma
tövsif – təsvir etmə, izah etmə, səciyyələndirmə
tüzük – nizamnamə

Uu

uşak – kişi xidmətçi

Üü

ücra – tənha, çox ucqar
ülkü – qarşıya qoyulan məqsəd, çatmaq istənilən şey, ideal
ümran – *burada:* tərəqqi
üstünkörü – *burada:* səthi, üzdən

Vv

vəchə – *burada:* səbəb
vədiə – əmanət
vəli – lakin
vəsf – *burada:* bir şəxsin və ya bir şeyin keyfiyyəti, sifəti
vila – vilayət, məmləkət
vüfur – bolluq
vüqu – *burada:* əmələ gəlmə, baş vermə
vüquf – *burada:* xəbərdar olma, bilmə
vüsul – gəlib çatma, nail olma
vüzuh – *burada:* aydınlıq

Yy

ya lil'əcəb – əcəba
yaquti-əhmər – qırmızı yaqut
yardaqçı – pis işlərdə kiminsə yardımçısı olan kimsə

yegənsiz – parasız
yeltənmək – cəhd etmək, çalışmaq

Zz

zeyf – qonaq
zə'f – zəiflik
zər – altun
zəvat – zatlar, hörmətli adamlar, əsillər
zində – həyatda olan, diri, yaşayan
ziri-bürqə – pərdə altında
zirü zəbər – altını üstünə gətirmə
ziya – işıq, nur; ölüm, yoxluq
ziyvər – bəzək, süs

QEYDLƏR

Bu kitab XX əsr Azərbaycan siyasi mühacirətinin ünlü simalarından olan Əbdülvahab Yurdsevərin yazılı irsindən seçmələrin toplu halında ilk elmi nəşridir.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan mühacirət ədəbiyyatı şöbəsində ilk mənbələr əsasında tərtib edilmiş bu cilddə Ə.Yurdsevərin mühacirət dövrü çoxşaxəli ədəbi-elmi və publisistik fəaliyyətinin məhsulu olan məqalələr, xatirələr yer almışdır. Bu əsərlər Azərbaycan ədəbiyyatşünaslığının çeşidli problemlərinə, milli istiqlal mücadiləsinin tarixinə, Türk dünyasının görkəmli şəxsiyyətlərinin həyatına müəllifin orijinal baxışını əks etdirir.

Mətnlər nəşrə hazırlanarkən müəllifin dili və üslubu saxlanılmış, orijinaldakı mətbəə xətaları düzəldilmiş, buraxılmış hissələr bərpa edilərək, kvadrat mötərizə daxilində verilmiş, zəruri hallarda bəzi sözlər Azərbaycan dilinin orfoqrafiya normalarına uyğunlaşdırılmışdır. Məs: edebiyat − ədəbiyyat, medeniyet − mədəniyyət, kendi – kəndi, mevki − mövqe və s.

«Lüğət» hazırlanarkən «Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti»ndən (I və II cildlər. Bakı: Şərq-Qərb, 2005), Türk Dil Qurumu sözlüklərindən (https://sozluk.gov.tr/) və b. mənbələrdən istifadə edilmişdir.

Kitabın məsul redaktorları böyük elmi işçi Aysel Əfəndiyeva və elmi işçi Hülya Cəbiyevanın əməyini özəlliklə qeyd edirik.

Aşağıda cilddə yer almış əsərlərin biblioqrafik təsviri və digər zəruri bilgilər verilir:

QƏDİM, ORTA ƏSRLƏR VƏ ERKƏN REALİZM DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

MƏHSƏTİ GƏNCƏVİ

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 2, 1 eylül 1953, sayı 6 (18), s. 12-14.

ŞAH İSMAYIL XƏTAİ

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə iki təfriqədə çap edilmişdir:

Ankara, yıl 3, 1954, a) mart, sayı 12 (24), s.11-15; b) nisan, sayı 1 (25), s.5-8.

AZƏRBAYCAN ƏDƏBİYYATINDA VİDADİ VƏ VAQİFİN YARADICILIĞI

Bu mənbədən çap edilir:

A.Vahap Yurtsever. Azerbaycan edebiyatında Vedadi ve Vakıfın yaratıcılığı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1952, 48 s.

Müəllifin Azərbaycan Kültür Dərnəyinin təşəbbüsü ilə 22 mart 1952-ci ildə Ankara Xalq Evində oxuduğu məruzənin mətnidir.

Bu araşdırma ilə bağlı olaraq, Ə.Yurdsevər Abbas Zamanovun «*Azərbaycan» Türk Kültür Dərgisində* (Ankara, yıl 23, sayı 211, temmuz, ağustos, eylül 1974, s.14-19) dərc olunmuş «Molla Pənah Vaqif» məqaləsinin sonuna (s.18-19) aşağıdakı məzmunda qeyd əlavə etmişdir:

NOT:

Molla Pənah Vaqifdən söz açılmışkən, qədirşünaslıq vəcibəsi olaraq, küçük bir xatirəmi burada kayd etmək istiyorum:

1952-1953-lərdə bir gün rəhmətli Məmduh Şövkət Əsəndalın ziyarətinə getmişdim. Kəndisiylə Bakıda Azərbaycan hökuməti nəzdi6ndə Türkiyə səfiri ikən tanışmışdıq. Bu dostluğumuz ta mərhumun üfuluna qədər davam etmişdi.

M.Şövkət Əsəndal tanınmış bir ədib və eyni zamanda əski bir öyrətmən olduğu için Azərbaycan ədəbiyyatı ilə yaxından ilgilənməkdə və özəlliklə, Molla Pənah Vaqifə qarşı heyranlıq duymaqda idi.

Kəndisini ziyarətimdə bir ara sözü Azərbaycan klassik ədəbiyyatına gətirərək, mənə şu soruyu sordu: «Hadi, söylə bakalım, Türk dünyasının ən böyük şairi kimdir?»

Bu sual üzərinə, bildiyim ünlü türk şairlərini birər-birər sıralamağa başladım. Həp başı ilə «yox, yox» işarəti yapdı. Bilmədiyim için sözü artıq kəndisinə bırakdım.

– Eeee, şunu biləsin ki, Türk dünyasının ən böyük şairi sizin Molla Pənah Vaqifdir. Onun qədər şeiri səlis, lisanı axıcı, üslubu kəndinə xas heç bir şairi şu və ya bu şəkildə təqlid etməmiş, yaradıcılıq və xəyal qüdrəti üstün ikinci bir şair Türk dünyasına gəlməmişdir. Onu iyi tədqiq edin, haqqında yazılar yazın, konfranslar verin, ismini və əsərlərini Türkiyədə yaymağa çalışın! Vaqif çox böyük bir sənətkardır. Onu bütün Türk dünyasına mal etməli və əsərlərini okullarda oxutmalıyız!» – demiş və, – «bunu sənə bir vəsiyyət olarq bırakıyorum», – deyə əlavə etmişdi.

Mən bu sözlər üzərinə ustada dönərək, maaləsəf, əlimizdə gərəkən qaynaqların bulunmadığını söyləmişdim. Həmən kitabxanasına koşaraq çarlıq dövründəki ünlü Azərbaycan yazarlarından mərhum Həşim bəy Vəzirovun Molla Pənah Vaqif haqqında qələmə almış bulunduğu bir broşürü mənə gətirmişdi.

İştə, Vaqifin bu broşürdəki hal tərcüməsindən və seçmə şeirlərindən və eyni zamanda bəzi kitabxanalarda ələ keçirdiyim notlardan yararlanaraq, Azərbaycan Kültür Dərnəyinin təşəbbüsü ilə Ankara Türk Ocağı salonunda tərtiblənən qələbəlik bir konfransda ünlü şairimizin şəxsiyyət və əsərlərindən bəhs etmiş və bəzi şeirlərini dinləyicilərimə oxumuşdum.

Sonradan bu konuşmam broşür halında Azərbaycan Kültür Dərnəyi tərəfindən yayınlanmışdı. Ustad M.Şövkət bəy o sıralarda bu dünyadan əbədiyyətə intiqal etmiş bulunuyordu, fəqət bir Azərbaycan dostu, həm də çox vəfakar dostu olaraq, əziz xatirəsi daima qəlblərimizdə zində qalacaqdır! İştə, bu naciz sətirlərlə kəndisinə qarşı duyduğumuz dərin sayğı və bağlılığımızı bir kərə daha dilə gətirmək istədik.

RUHU ŞAD OLSUN!

YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

QASIM BƏY ZAKİR

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə üç təfriqədə çap edilmişdir:

Ankara, 1953, a) yıl 1, 1 şubat, sayı 11, s.4-8; b) yıl 1, 1 mart, sayı 12, s.8-9; c) yıl 2, 1 nisan 1953, sayı 1(13), s.5-8.

ABBASQULU AĞA BAKIXANLI

Abdülvahap imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə səkkiz təfriqədə çap edilmişdir:

Ankara, a) yıl 2, mayıs 1953, sayı 2 (14), s.15-17; b) yıl 2, haziran 1953, sayı 3 (15), s.14-15: c) yıl 2, temmuz 1953, sayı 4 (16), s.12-13; d) yıl 2, ağustos 1953, sayı 5 (17), s.9-10; e) yıl 2, eylül 1953, sayı 6 (18), s.5-6; f) yıl 2, ekim 1953, sayı 7 (19), s.25-26; g) yıl 2, kasım – aralık 1953, sayı 8-9 (20-21), s.11-12; ğ) yıl 3, ocak – şubat 1954, sayı 10-11 (22-23), s.45-47.

Müəllifin A.A.Bakıxanlının «Kitabi-Əsgəriyyə» əsərindən verdiyi sitatda müəyyən uyğunsuzluq vardır. Belə ki, «... bu rəsmi dilaviz ilə firqeyi-ülul-əlbabə bəyani-mafilbal etmiş kim, riyazi vücudi-bəşəriyyədə qisim-qisim möhnət və enduh nihalı yədi-qüdrətlə əkilibdir və insanın sinəsi beş gün məsrur olsa da, on gün qəmü qüssə ilə malamal olur. Labüdd aləmi-surətdə iqtizayi-təbiəti-bəşəri oldur ki, hər kimsə gərək bir növ mənzur ilə cilabəxşi-didəyi dil olub, ovqati-şərifi zaye və bihudə keçirməsin və bəzmi-həvadisdə cami-qəflətdən təbi-talibi-hüşiyarə badeyi-cəhl içirməsin» *əvəzinə* « ... bu rəsmi dilaviz ilə firqeyi-ülul-albabə bəyani-mafilbal etmiş və alvahi-zəmairi-ərbabül-bəsairə bu şiveyi-zövqəngiz ilə qələmi-aləm yürütmüş ki, çün məzmuni-hikmət məşhunil-ərvahi-cünudi məcənnədə tearifi-minha etmədən və «Ma təkərrümiha» ixtilafi-dəlalet ilə xələti-xilqəti-işbah geymədən rəqabeyi-zənciri-məhəbbət çəkmişlər və riyazi-vücudi-bəşəriyyədə və «həmdəhül-insanü fəkanə zülmən cəhulən» misdaqincə nihali-möhnət əkmişlər. Bainhəmə labüdd aləmi-surətdə iqtizayi-təbiəti-bəşəri oldur ki, hər kimsə gərəkdir bir növ mənzur ilə cilabəxşi-didəyi dil olub, ovqati-şərifi zaye və ömri-əzizini bihudə keçirməsin və bəzmi-həvadisdə cami-qəflətdən təbi-talibi-hüşiyarə badeyi-cəhl içirməsin» *olmalıdır.*

19-CU ƏSR AZƏRBAYCANINDAKI MODERN VƏ REALİST ƏDƏBİ CƏRƏYANLAR

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 2, mayıs 1953, sayı 2 (14), s.12-14.

MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN HƏYATI VƏ ƏSƏRLƏRİ

Bu mənbədən çap edilir:

A.Vahap Yurtsever. Mirza Fethali Ahunt zadenin hayatı ve eserleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, 32 s.

Müəllifin Azərbaycan Kültür Dərnəyinin təşəbbüsü ilə 18 mart 1950-ci ildə Ankara Universiteti Dil və tarix-coğrafiya fakültəsində oxuduğu məruzənin mətnidir.

AŞIQ ƏLƏSGƏR

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 1, 1 ekim 1952, sayı 7, s.2-3.

XURŞİDBANU NATƏVAN

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə iki təfriqədə çap edilmişdir:

Ankara: yıl 1, 1952, a) 1 mayıs, sayı 2, s.9-10; b) 1 haziran, sayı 3, s.6-7.

SABİRİN AZƏRBAYCAN ƏDƏBİYYATINDAKI YERİ

Bu mənbədən çap edilir:

A.Vahap Yurtsever. Sabir'in Azerbaycan edebiyatındakı yeri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1951, 58 s.

Müəllifin Azərbaycan Kültür Dərnəyinin təşəbbüsü ilə 26 aprel 1951-ci ildə Ankara Xalq Evində oxuduğu məruzənin mətnidir.

AZƏRBAYCAN DRAM ƏDƏBİYYATI

Bu mənbədən çap edilir:

A.Vahap Yurtsever. Azerbaycan dram edebiyatı. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1950, 40 s.

Müəllifin Azərbaycan Kültür Dərnəyinin təşəbbüsü ilə 26 noyabr 1950-ci ildə Ankara Xalq Evində oxuduğu məruzənin mətnidir.

ABBAS SƏHHƏT

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 1, 1 ocak 1953, sayı 10, s.2-5.

MƏHƏMMƏD HADİ

Abdül Vahap imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə üç təfriqədə çap edilmişdir:

Ankara, yıl 1, a) 1 kasım 1952, sayı 8, s.20-21; b) 1 aralık 1952, sayı 9, s. 8-10; c) 1 ocak 1953, sayı 10, s.10-11.

ABDULLA ŞAİQ VƏFAT ETDİ

V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yı 8, temmuz, ağustos 1959, sayı 4-5 (88-89), s.31-32.

AZƏRBAYCAN DRAM ƏDİBLƏRİNDƏN
CƏFƏR CABBARLI

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə üç təfriqədə çap edilmişdir:

Ankara, yıl 1, 1952: a) 1 temmuz, sayı 4, s.7-8; b) 1 ağustos, sayı 5, s.5-7; c) 1 eylül, sayı 6, s.6-8.

«QIZ QALASI» HAQQINDA BİR KAÇ SÖZ

A.V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 11, ekim, kasım, aralık 1962, sayı 7-8-9 (127-128-129), s.16-17.

AZƏRBAYCAN MÜHACİRƏTİ

ƏMİN BƏY HAQQINDA BƏZİ XATİRƏLƏR

A.Vahap Yurtsever imzası ilə *«Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 4, mart 1955, sayı 12 (36), s.13-16.

Təkrar çapı: *«Azerbaycan» Türk Kültür Dergisi*, Ankara, yıl 33, ekim, kasım, aralık 1984, sayı 250, s.14-17.

Mətnlər identikdir.

ƏMİN BƏYİN ÜSTÜN LİDERLİK VƏSFLƏRİ

A.Vahap Yurtsever imzası ilə «*Azerbaycan» Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 24, ocak, şubat, mart 1975, sayı 213, s.11-12.

43 SƏNƏLİK ARKADAŞIM MİRZƏ BALA

A.Vahap Yurtsever imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 8, mayıs – haziran 1959, sayı 2-3 (86-87), s.16-24.

ALMAS İLDIRIMIN ƏDƏBİ ŞƏXSİYYƏTİ VƏ ŞEİR ŞƏNƏTİ

A.Vahap Yurtsever imzası ilə bu mənbədə çap edilmişdir:

Elmas Yıldırım'ın seçilmiş şiirleri. Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1953, 78 s.

Kitabın ön sözüdür, s. 3-12.

ƏŞRƏF DƏMİRCAN
(ÖLÜMÜNÜN 10-CU YIL DÖNÜMÜ MÜNASİBƏTİLƏ)

V.Y. imzası ilə «*Azerbaycan» Aylık Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 6, mayıs 1957, sayı 14 (62), s.14-15.

BÖYÜK BİR DOSTUN ARXASINDAN

V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 12, ocak, şubat, mart 1964, sayı 10-11-12 (142-143-144), s.47-48.

MƏHƏMMƏD SADIQ ARAN (SƏNAN)

A.V.Y. imzası ilə «*Azerbaycan» Aylık Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 21, 1972, sayı 205, s.63-66.

ƏJDƏR QURTULAN

A.V.Y. imzası ilə «*Azerbaycan» Aylık Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 21, 1972, sayı 205, s.70-72.

HÜSEYN CAMAL YANAR

A.V.Y. imzası ilə «*Azerbaycan» Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 23, nisan, mayıs, haziran 1974, sayı 210, s.71-72.

AZƏRBAYCAN TÜRKLÜYÜNÜN YENİ BİR KAYBI

A.V.Y. imzası ilə «*Azerbaycan» Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 24, ocak, şubat, mart 1975, sayı 213, s.27-28.

«AZƏRBAYCAN» DÖRD YAŞINDA

V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 5, nisan 1956, sayı 1 (49), s.24.

«AZƏRBAYCAN» BEŞ YAŞINDA

V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 6, nisan 1957, sayı 13 (61), s.13.

«AZƏRBAYCAN» YEDDİ YAŞINDA

A.Vahap Yurtsever imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 7, nisan 1959, sayı 13 (85), s.28.

25 YIL VƏZİFƏ BAŞINDA

A.Vahap Yurtsever imzası ilə «*Azerbaycan» Türk Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 23, ocak, şubat, mart 1974, sayı 209, s.1-3.

TÜRK DÜNYASI

ATANI ANARKƏN

A.V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 5, kasım – aralık 1956, sayı 8-9 (56-57), s.2-3.

ATATÜRK VƏ DIŞ TÜRKLƏR

A.Vahap Yurtsever imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 1, 1 kasım 1952, sayı 8, s.3-5.
Təkrar çapı: 1) *«Azerbaycan» Türk Kültür Dergisi,* Ankara, yıl 22, eylül, ekim, kasım 1973, sayı 208, s.18-19; 2) yıl 30, ocak, şubat, mart 1981, sayı 235, s.27-28.
Mətnlər identikdir.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 50-Cİ YIL DÖNÜMÜ
(1923-1973)

A.Vahap Yurtsever imzası ilə «*Azerbaycan» Türk Kültür Dergisi*ndə çap edilmişdir:
Ankara, yıl 22, eylül, ekim, kasım 1973, sayı 208, s.1-3.

Təkrar çapı: «*Azerbaycan» Türk Kültür Dergisi*, yıl 47, eylül, ekim 1998, sayı 323, s.35-36.

Mətnlər identikdir.

ŞANLI KIBRIS ZƏFƏRİMİZ!

A.Vahap Yurtsever imzası ilə ilə «*Azerbaycan» Türk Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 23, temmuz, ağustos, eylül 1974, sayı 211, s.1-3.

XOCAMIZ SƏDRİ MAQSUDİ

A.V.Y. imzası ilə «*Azerbaycan» Aylık Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, yıl 6, şubat 1957, sayı 11 (59), s.5-6.

CƏFƏR BƏYƏ DAİR XATİRƏLƏRİM

A.Vahap Yurtsever imzası ilə «*Emel» İki Aylık Fikir–Kültür Dergisi*ndə çap edilmişdir:

Ankara, mayıs 1961, cilt I, sayı 4, s.16-17.

KRIM TÜRKLÜYÜNÜN ƏBƏDİ ÖNDƏRİ

A.Vahap Yurtsever imzası ilə «*Emel» İki Aylık Fikir–Kültür Dergisi*ndə çap edilmişdir:

İstanbul, mart – nisan 1970, sayı 57, s.14-15.

MİLLİ ŞEİRLƏR DƏMƏTİ

A.Vahap Yurtsever imzası ilə bu mənbədə çap edilmişdir:

Kerim Yaycılı. Anadolu, Kafkas, Azerbaycan'a armağan. Ankara, 1962, 88 s.

Kitabın ön sözüdür, s.1-4.

DÜZƏLİŞ

«Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası» seriyasının VII cildində (Mirzə Bala Məhəmmədzadə. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2023, 612 s.) texniki xəta olaraq getmiş yanlışları düzəldir və oxuculara üzrxahlığımızı bildiririk:

1. Səhifə 9, 4-cü abzasın əvvəlində 1923-cü ilin *iyulunda* əvəzinə 1923-cü ilin *5 oktyabrında* oxunmalıdır.
2. Cildin qeydlər bölməsində *«Komünizme karşı mücadele»* dərgisinin nəşr yeri *Ankara* əvəzinə *İstanbul* oxunmalıdır.

Nikpur Cabbarlı – cildin tərtibçisi

İÇİNDƏKİLƏR

Nikpur Cabbarlı. Əbdülvahab Yurdsevər..... 5

QƏDİM, ORTA ƏSRLƏR VƏ ERKƏN REALİZM DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

Məhsəti Gəncəvi 30

Şah İsmayıl Xətai 33

Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifin yaradıcılığı 42

YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Qasım bəy Zakir 76

Abbasqulu Ağa Bakıxanlı 87

19-cu əsr Azərbaycanındakı modern və realist ədəbi cərəyanlar... 105

Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri 108

Aşıq Ələsgər 130

Xurşidbanu Natəvan 132

Sabirin Azərbaycan ədəbiyyatındakı yeri 137

Azərbaycan dram ədəbiyyatı 180

Abbas Səhhət 208

Məhəmməd Hadi 212

Abdulla Şaiq vəfat etdi 219

Azərbaycan dram ədiblərindən Cəfər Cabbarlı 221
«Qız qalası» haqqında bir kaç söz 229

AZƏRBAYCAN MÜHACİRƏTİ

Əmin bəy haqqında bəzi xatirələr 234
Əmin bəyin üstün liderlik vəsfləri 238
43 sənəlik arkadaşım Mirzə Bala 240
Almas İldırımın ədəbi şəxsiyyəti və şeir sənəti 252
Əşrəf Dəmircan..... 260
Böyük bir dostun arxasından..... 262
Məhəmməd Sadıq Aran (Sənan) 264
Əjdər Qurtulan 269
Hüseyn Camal Yanar 273
Azərbaycan türklüyünün yeni bir kaybı 276
«Azərbaycan» dörd yaşında..... 278
«Azərbaycan» beş yaşında 279
«Azərbaycan» yeddi yaşında 280
25 yıl vəzifə başında 282

TÜRK DÜNYASI

Atanı anarkən..... 286
Atatürk və dış türklər..... 288
Türkiyə Cümhuriyyətinin 50-ci yıl dönümü..... 290
Şanlı Kıbrıs zəfəri!..... 293
Xocamız Sədri Maqsudi..... 295
Cəfər bəyə dair xatirələrim..... 297

Krım türklüyünün əbədi öndəri..... 300
Milli şeirlər dəməti 303
LÜĞƏT …….. 307

QEYDLƏR *(Nikpur Cabbarlı)* 321
DÜZƏLİŞ 330

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI KİTABXANASI

Kitablar seriyası
IX CİLD

ƏBDÜLVAHAB YURDSEVƏR.
SEÇİLMİŞ ƏSƏRLƏRİ – I CİLD

Buraxılışa məsul: **Töhfə Talıbova**

Texniki məsləhətçi: **Fuad Hüseynov**

Texniki redaktor: **Rəşid Kərimli**

www.literature.az
direclit@yahoo.com

Çapa imzalanıb: 25.09.2026. Formatı: 70x100 $^{1}/_{16}$
Tirajı: 300 nüsxə. Həcmi: 21 ç.v. Sifariş 401.

«Max Ofset» mətbəəsində təqdim edilmiş hazır material əsasında çap olunmuşdur.
Aşurbəyovlar küç. 8 A, AZ1112 Bakı
www.maxofset.az | info@max-offset.com

«Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası»
seriyasından aşağıdakı cildlər nəşr edilmişdir:

I cild. Məhəmməd Əmin Rəsulzadə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. Bakı: Elm, 2016, 356 s.

II cild. Ceyhun Hacıbəyli. Seçilmiş əsərləri. Bakı: Elm, 2017, 368 s.

III cild. Səlim Rəfiq Rəfioğlu. Füzuli. Bakı: Elm və təhsil, 2019, 440 s.

IV cild. Teymur Atəşli. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2020, 336 s.

V cild. Alazan Baycan. Əsərləri. Bakı: Elm və təhsil, 2021, 204 s.

VI cild. Süleyman Təkinər. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2022, 280 s.

VII cild. Mirzə Bala Məhəmmədzadə. Seçilmiş əsərləri. Bakı: Elm və təhsil, 2023, 612 s.

VIII cild. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan şairi Nizami. Bakı: Elm və təhsil, 2024, 432 s.